Dr. Mustafa GÖRÜRYILMAZ

# TÜRK QAFQAZ İSLAM ORDUSU VƏ ERMƏNİLƏR (1918)

BAKI – QİSMƏT – 2009

**BBK53**
**G-80**

Editor, Bədii və texniki redaktor:
**Halil ÖZTÜRK**
Nəşriyyatın direktoru:
**Zahid MƏMMƏDRZAYEV**
Redaktor:
**Azad AĞAOĞLU**
Korrektor:
Yusif ƏFŞAR

G-80 Dr.Mustafa GÖRÜRYILMAZ,

TÜRK QAFQAZ İSLAM ORDUSU VƏ ERMƏNİLƏR (1918)
Qismət, Bakı, 2009, 408 səhifə.

TRT-nin Bakı nümayəndəsi olmuş Mustafa Görüryılmazın bu kitabında, Türk Qafqaz İslam Ordusunun Azərbaycan və Dağıstanda apardığı hərbi əməliyyatlar və bu əməliyyatların nəticələri, Birinci Dünya müharibəsi dönəminin mürəkkəb siyasi və hərbi hadisələri fonunda ələ alınmışdır. Ermənilərin, Azərbaycanda əhaliyə qarşı törətdikləri qətliamlar və Qafqaz İslam Ordusunun bu qətliamları nə şəkildə önlədiyi də kitabda öz əksini tapmışdır.

0503000000
M-085-62-09
İSBN 10 9952-8082-5-9
İSBN 13 978-9952-8082-5-4
**Qismət, 2009**

# T Ə Q D İ M

Azərbaycan cəmiyyətinin yaxşı tanıdığı və ölkəmizin dostları siyahısına daxil olan TRT-nin Bakı ofisinin sabiq müdiri, Mustafa Görüryılmazın *"Türk Qafqaz İslam Ordusu və ermənilər"* adlanan kitabının mühüm əhəmiyyətə malik olduğunu düşünürəm.

Çünki təxminən 70 il ərzində sovet imperiyasının əsarəti altında yaşayan Azərbaycanda Qafqaz İslam Ordusu və onun fəaliyyəti ilə bağlı həqiqətlərin işıq üzü görməsinə imkan verilmədi. Bir sıra hallarda qəhrəman türk əsgərlərinə, onların Qafqazda bolşevik-daşnak qüvvələrinə qarşı mübarizəsinə qərəzli münasibət göstərildi. Ona görə də bu sahədə daha çox araşdırmalar aparılmalı, real faktlar cəmiyyətə, Azərbaycan və Türkiyə ictimaiyyətinə təqdim olunmalıdır.

Məhz bu səbəbdən Mustafa Görüryılmazın gərgin çalışmalarının nəticəsi olan kitabın Türkiyə türkcəsindən Azərbaycan türkcəsinə uyğunlaşdırılmasıyla insanlarımız bir daha o dövrün hadisələrinə obyektiv qiymət vermək şansı əldə edəcəklər. Kitaba diqqət yetirdikdə müəllifin yalnız Qafqaz İslam Ordusunun Azərbaycandakı fəaliyyətini araşdırmaqla qalmadığını, eyni zamanda Dağıstan hərəkatının məqsədini, məramını da təqdim və təhlil etdiyini görmək mümkündür.

Müəllifin kitabda Qafqazın və Azərbaycanın coğrafi mövqeyindən ictimai-siyasi durumuna qədər olan bütün məsələləri işıqlandırması, I Dünya müharibəsi ərəfəsində Osmanlı imperiyasındakı siyasi vəziyyət, Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı da oxucuya geniş informasiyalar verməsi onun məlumat dairəsinin genişliyindən, Azərbaycana, ümumən Türk Dünyasına olan sevgisindən irəli gəlir.

Yazarın kitabda faktlara istinad etməklə yanaşı, müasir dövrdə araşdırma aparan şəxslərin fikirlərinə nəşrdə yer ayırması onun həm keçmiş nəsil, həm də gələcək nəslin arasında məhz Qafqaz İslam Ordusunun vasitəsilə vəhdət yaratmaq istəyindən irəli gəlir. Kitabda həmin hadisələri gözləri ilə görmüş şahidlərin, şəhidlik abidələri komplekslərinin qurulmasında, sovet hakimiyyəti illərində türk hərbiçilərinin məzarlarının qorunmasında böyük səy göstərmiş insanların, o cümlədən şairlərin şeirlərinin əks olunması xüsusi bir vəhdət yaradır. Bununla da oxucu Qafqaz İslam Ordusunun fəaliyyəti ilə yanaşı, həmin tarixdə cərəyan edən hadisələr haqqında da ətraflı məlumat almaq imkanı əldə edir.

Belə sanballı araşdırmaların sayının artmasına böyük ehtiyac var. Çünki bu araşdırmalar da Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmlənməsi istiqamətində ciddi töhfələr verir. Bu il Qafqaz İslam Ordusunun Bakı şəhərini azad etməsinin 90 ili tamam olduğu bir tarixdə belə bir kitabın çap olunmasını oxucular üçün yubiley töhfəsi saymaq olar. Müəllifə isə Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmlənməsinə xidmət edəcək araşdırmalarını davam etdirməsini arzulayıram.

**Nizami Cəfərov,**
*professor, millət vəkili, Azərbaycanda Atatürk Mərkəzinin müdiri*

## ÖN SÖZ

*Onlar:*
*Qar-boran demədən,*
*Toroslardan, Palantökənlərdən*
*Qatar-qatar qopub gəldilər.*
*Qartallar kimi*
*Qanad çalıb Qafqazlara,*
*Hiddətlə düşmənin başına*
*endilər.*

## TURQUT ƏR

Birinci Dünya müharibəsinin başlandığı illərdə yer üzündə türklərin qurduğu azad və müstəqil iki dövlət vardı. Bunlardan biri Osmanlı dövləti, digəri bugünkü İran coğrafiyasında vaxtilə hakimiyyətini sürdürən Qacar xanlığı idi. Geridə qalan coğrafiyada yaşayan türklər Rus çarlığı və Çin idarəçiliyi altında varlıqlarını qorumağa və yaşatmağa çalışırdılar.

Osmanlı dövləti və İstanbul, türk ellərində yaşayan soydaşların diqqət mərkəzi idi. Onlar gözlərini və qulaqlarını Türkiyəyə çevirmişdilər. Rusiyadakı ixtilal çarlıq idarəçiliyinin basqı, şiddət və zülmünə məruz qalan türk ziyalılarını hərəkətə gətirdi. Ancaq nə onların, nə də Osmanlı dövlətinin bir və bərabər olmaq, gələcəyi birlikdə qurmaq üçün heç bir hazırlığı yox idi. Üstəlik Birinci Dünya müharibəsində imperialist qərb dövlətlərinin hədəfində şərq mədəniyyətinin (türk-islam dünyası) öncüsü və təmsilçisi olan Osmanlı dövləti var idi. Müstəmləkəçi ölkələr bu türk dövlətinin yıxılması və bölüşdürülməsinə dair planlar qururdular. Müharibə başlayan kimi Osmanlı dövləti imperialist qərb qüvvələrinə qarşı, başda Çanaqqala və şərq cəbhəsi olmaqla, cənubda Qut, Bağdad, Yəmən, Hicaz və Fələstin kimi bölgələrdə böyük hərbi uğurlar əldə etdi.

Qəhrəman Türk Silahlı Qüvvələri Qafqazlarda da eyni üstün uğuru göstərdi. Türk Qafqaz İslam Ordusunun Azərbaycan və Dağıstandakı hərbi hərəkatı, böyük *"Turan Dövləti"* qurulması üçün ümidlərin göyərdiyi və budaqlandığı bir dövrdə, ancaq yetərincə hazırlıq görülmədən və çox ağır şərtlər altında gerçəkləşdirildi. Birinci Dünya müharibəsi, İttihad və Tərəqqi Partiyası iqtidarında çökməyə başlayan Osmanlı dövlətinin yerinə yeni bir Osmanlı dövləti, ya da Ənvər Paşa və silahdaşlarının söyləyişi ilə *"Turan İmperatorluğu"* qurmaq istəyənlərin dramına səhnə oldu. Yaşanan bu acıların qəhrəmanları bu dramın fədakar cəfakeşləri, adsız əsgərindən komandirinə qədər cahan dövləti Osmanlının çökməsini dayandırmaq istəyən və böyük ideallarla silahlanmış vətənsevərlər idi. Onlar tarixdə bir neçə

dəfə cahan dövləti qurmuş olan adil və qəhrəman bir millətin övladları idi. Millətin yaddaşını təzələyərək yeni bir cahan dövlətini qurmaq üçün yola çıxmışdılar.

Çar Rusiyası Birinci Dünya müharibəsində çöküncə Osmanlı dövlətini idarə edən İttihad və Tərəqqi Partiyasının üzvləri türk ellərində yaşayan soydaşları ilə birləşməyə qərar verdilər. Böyük Turan ideyası yolunda yeni bir cahan dövləti qurmaq üçün yola çıxanların öncülləri Qafqaza doğru hərəkət etdilər. Fəqət belə bir uğurlu yola çıxanların başına yetərincə müharibə təcrübəsi olmayan gənc bir yarbayın *(yarbay: podpolkovnik)* gətirilməsi strateji və taktiki bir xəta idi. Bu yanlış qərar Nuru Paşanı və onun qəhrəman silahdaşları ilə verdikləri uğurlu mücadiləni, qazanılan uğuru əsla kiçiltməz. Ancaq hərbi toplantıda edilən xəta bütün müharibə boyu davam etmiş və Mehmetçik *(Mehmetçik: Türk əsgəri)* nə İrana, nə Turana, nə də Sibirə çata bilməmişdir.

Türk Qafqaz İslam Ordusu 1918-ci ildə Şimali Azərbaycana girərək bugünkü Azərbaycan və Dağıstan respublikalarının təməlini qoydu. Bu iki dost və qardaş dövlətdən biri olan Dağıstan Muxtar Respublikası, Rusiya Federasiyasının tərkibindədir. Azərbaycan isə bu gün azad və müstəqildir. Bu iki dövlət bu gün dünyada "dövlət" olaraq qəbul edilir və tanınırsa, bu, ən ziyadə 1918-ci ildə böyük qəhrəmanlıqlar göstərən Türk Qafqaz İslam Ordusunun xidmətidir.

Türk Qafqaz İslam Ordusunun 1918-ci ildəki fəaliyyəti Türkiyədə kifayət qədər araşdırılmamışdır. Bəlli dairələr xaricində bu haqda lazımi qədər ictimai rəyin olduğunu da söyləmək olmaz. Bunun başlıca səbəbi: Mudros barışığı imzalandığı və İttihad və Tərəqqi Partiyası liderlərinin vətəndən kənara çıxmaq məcburiyyətində qaldığı bir dövrdə, əlbəttə, Qafqazlarda əldə edilən müvəffəqiyyətlərin yetərincə dilə gətirilməsi gözlənə bilməzdi. Belə də oldu.

Qəhrəman Mehmetçiyin uğuru Azərbaycan və Dağıstanda da lazımi qədər araşdırılmadı. Çünki bu dövlətlər qısa müddətdən sonra bolşevik Rusiyasının işğalına məruz qalaraq onun hakimiyyəti altına girdilər. İmperialist və müstəmləkəçi bir rejimdən özünə qarşı müvəffəqiyyətlə aparılan milli mücadiləni tərifləməsi, ya da tərəfsiz insanların araşdırmasına izin verməsi də gözlənə bilməz. Rusiya da belə münasibət göstərdi və türk əsgərini hər fürsətdə pislədi, həqiqəti ört-basdır etdi, insanları susdurdu.

Bu araşdırmada türk hərbi qaynaqlarını və hadisəyə şəxsən qatılanların görüşlərini yetərincə incələdiyimizə və dəyərləndirdiyimizə inanırıq. Fəqət Azərbaycan və Dağıstan dövlətləri həm öz ölkələrindəki və həm də Moskva və digər yerlərdəki arxiv sənədlərini, rəsmi hesabatları və informasiya məlumatlarını cəmiyyətə açıqlamamışdılar. Rəsmi arxiv sənədlərinin tədqiqatçılara açılması və ictimai rəylə paylaşılması halında Rusiya ilə Dağıstan baxımından 1918-ci ildəki hadisələrin üstündəki sirr pərdəsi götürüləcəkdir.

Azərbaycan müstəqillik qazanandan sonra Qızıl Ordunun, marksist-bolşeviklərin və Sovet İttifaqı rəhbərlərinin təxribatından qurtula bilən şəhid məzarlarını Qəhrəman **Türk Silahlı Qüvvələri** bölgədəki türklərin köməyi ilə yenidən bərpa etdi və bir abidə qurulmasını təmin etdi. Bu çalışmalar son dərəcə önəmlidir. Buna rəhbərlik edənlərin hörmətlə alqışlanması və bu işdə göstərdikləri səylərinə görə təbrik edilməsi lazımdır.

Bu araşdırmanın hazırlanmasında yardımlarını əsirgəməyən və əməyi keçən professor Nizami Cəfərova, professor Musa Qasımlıya, Mehman Süleymanova, Elxan Şahinoğluna, Koroğlu Zöhraba, Azər Turana, Araz Qurbanova və bütün dostlara, xüsusilə Turqut Ər və Ağası Huna təşəkkürlərimi bildirirəm. Kitabı Azərbaycan türkçəsinə uyğunlaşdıraraq çap edən Xəlil Öztürkə də sonsuz dərəcədə minnətdaram.

**Dr. Mustafa GÖRÜRYILMAZ**

ANKARA-2008

## İÇİNDƏKİLƏR

TƏQDİM
ÖN SÖZ

**GİRİŞ**

QAFQAZLAR VƏ AZƏRBAYCANIN TARİXİ COĞRAFİYASI
1. Qafqazlar və Azərbaycanın coğrafiyası
a. Cənubi Azərbaycan
b. Şimali Azərbaycan
c. Dağıstan
2.Azərbaycanın tarixi
3. Azərbaycanın strateji əhəmiyyəti
4. Birinci Dünya müharibəsindən əvvəl Osmanlı Dövlətindəki fikir cərəyanları
a. Qərbçilik cərəyanın
b. İslamçılıq cərəyanı
c. Türkçülük cərəyanı
5.İstanbuldakı siyasi hadisələrin Azərbaycandakı aydınlanmaya təsiri
6.Bolşevik ixtilalına qədər Rusiya və müsəlmanlar (Türklər)

**I HİSSƏ**

BİRİNCİ DÜNYA MÜHARİBƏSİ
1.Osmanlı Dövlətinin müharibəyə girməsini hazırlayan hadisələr
2.Birinci Dünya müharibəsində Qafqazların durumu
3.Qafqaz cəbhəsində müharibənin başlaması
a. Rus Qafqaz ordusunun sərhədi keçməsi
b. Erməni təhciri
c. Muş və Bitlisin qurtuluşu
4.Osmanlı Dövlətinin Qafqaz türkləri ilə münasibətləri
5.Rusiyadakı bolşevik ixtilalının cəbhəyə təsiri
6.Şərq cəbhəsində müharibənin sona çatması

**II HİSSƏ**

AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİ HAZIRLAYAN HADİSƏLƏR
1.Qafqaz Seyminin quruluşu və strukturu

2.Trabzon konfransı
3.Qars, Ərdahan və Batum hərbi hərəkatı
4.Batum konfransı

**III HİSSƏ**

TÜRK ORDUSUNUN QAFQAZLARA GİRİŞİ
1.Osmanlı Dövlətinin Qafqazlar və Türküstan siyasəti
2.Bolşevik ixtilalı və Azərbaycandakı irəliləyişlər
3.Osmanlı Dövlətinin Cənubi Qafqazlara girməsi
4.Azərbaycan Cümhuriyyətinin elan edilməsi
5.Türk Qafqaz İslam Ordusunun quruluşu və güclənməsi

**IV HİSSƏ**

TÜRK QAFQAZ İSLAM ORDUSU VƏ AZƏRBAYCANDAKI SİLAHLI MÜCADİLƏ
1.Bolşevik və daşnakların Türk ordusuna qarşı hərəkətə keçməsi
2.Göyçay savaşı
3.Ağsu və Kürdəmirin qurtuluşu
4.Göyçay savaşının siyasi və hərbi nəticələri
5.Göyçay və Qaraməryəm ətrafındakı şəhidliklər
6.Azərbaycanın cənub bölgələrindəki savaşlar
7.Şamaxının düşmən işğalından qurtuluşu
Türk Qafqaz İslam Ordusunda yeni təşkilatlanma
Türk ordusunun Şamaxı üzərinə yürüşü
8.Acıdərə şəhid məzarlığı
9.Şəki şəhid məzarlığı
10.Baş Göynük şəhid məzarlığı

**V HİSSƏ**

TÜRK QAFQAZ İSLAM ORDUSUNUN BAKI ÜZƏRİNƏ YÜRÜŞÜ
1.Şimal və Cənub qruplarının irəli hərəkatı
2.Mühasirədə olan Bakıda siyasi və hərbi vəziyyət
3.Bakı cəbhəsində döyüşlər
4.Hücumdan əvvəl Türk Qafqaz İslam Ordusunun vəziyyəti
5.Birinci Bakı hücumu

**VI HİSSƏ**

BAKININAZAD EDİLMƏSİ
1.Türk Qafqaz İslam Ordusunun güclənməsi
2.Bakıdakı hərbi qüvvələr
3.Bakı ətrafının düşməndən təmizlənməsi
4.Hücuma hazırlıq
5.İkinci Bakı hücumu
a.Bakıya hücum əmrinin verilməsi
b.Bakıya hücumun ikinci günü
c.Bakının təslim olması
6.Türk Qafqaz İslam Ordusu komandanı Bakıda
7.Azərbaycan Cümhuriyyəti və hökumətinin paytaxta köçməsi
8.İkinci Bakı hücumuna qiymət verilməsi
9.Bakının qurtuluşu və bolşevik Rusiya
10.Bakının qurtuluşu və Almaniya
11. Bakının qurtuluşu və İngiltərə
12.Türk mətbuatında Bakının qurtuluşu

**VII HİSSƏ**

TÜRK QAFQAZ İSLAM ORDUSUNUN QARABAĞ HƏRƏKATI
1.Andranikin dəstəsinin Naxçıvandan çıxarılması
2. Andranik qüvvələrinin Şuşanı mühasirəyə alması
3.Şuşanın qurtuluşu
Qarabağ hərəkatının sonu

**VIII HİSSƏ**

BAKI ƏTRAFINDAKI ŞƏHİD MƏZARLARI
Novxanı şəhid məzarlığı
Mərdəkan şəhid məzarlığı
Bakı şəhid məzarlığı

**IX HİSSƏ**

TÜRK QAFQAZ İSLAM ORDUSUNUN DAĞISTAN HƏRƏKATI
1.Şimali Qafqaz və Dağıstan
2.Şimali Qafqaz Respublikasının elan edilməsi

3.Çar tərəfdarlarının Dağıstanı işğal etməsi
4.Quba və Xaçmazın qurtuluşu
5.Dərbəndin qurtuluşu
6.Dərbənd döyüşləri əsnasında cərəyan edən siyasi və hərbi münasibətlər
7.Türk ordusunun Mahaçqala üzərinə yürüşü
8.Türk ordusunun Mahaçqalaya girməsi
9.Dağıstan hərbi hərəkatının qiymətləndirilməsi

**X HİSSƏ**

TÜRK QAFQAZ İSLAM ORDUSUNUN QAFQAZI BOŞALTMASI
1.Mudros barışığı
a.Osmanlı Dövlətində Tələt paşa hökumətinin istefaya getməsi
b.Mudros barışığının imzalanması
2.Mudros barışığının Qafqazdakı əks-sədası
3. Bakının ingilislər tərəfindən işğal edilməsi
4.Türk ordusunun Azərbaycan və Dağıstandan çəkilməsi
NƏTİCƏ
ƏDƏBİYYAT
ƏLAVƏLƏR
XƏRİTƏLƏR
ŞƏKİLLƏR

# GİRİŞ

## QAFQAZ VƏ CƏNUBİ AZƏRBAYCANIN TARİXİ COĞRAFİYASI

**1. Qafqaz və Azərbaycanın coğrafiyası:**

Qafqaz sıra dağları Qara dəniz ilə Xəzər dənizi arasında şimal-qərb və cənub-şərq xəttində uzanır. Qara dənizin şərq sahillərində Rusiya Federasiyasına aid olan torpaqlardan başlayıb, Azərbaycanın paytaxtı Bakı şəhərinin şimalında Xəzər dənizinə çatır. Bu dağlara Böyük Qafqaz sıra dağları da deyilir. Gürcüstanın Türkiyə sərhədindəki Acarıstan və Hopa-Artvin bölgələrindən başlayan bir başqa dağ silsiləsi də cənub-şərq istiqamətində uzanaraq, Ermənistan sərhədləri içində qalan Göyçəgölün şərqindən Qarabağ və Naxçıvana qədər davam edir. Bu dağ silsiləsi də Kiçik Qafqaz sıra dağları adlanır. Böyük Qafqaz sıra dağlarının şimalında Rusiya Federasiyasının tərkibində olan muxtar respublikalar, qərbində və cənubunda isə Gürcüstan ilə Azərbaycan yerləşir. Azərbaycanın şərqində Xəzər dənizi, qərbində Ermənistan və Türkiyə yerləşir. Cənub sərhədləri isə İranın tərkibində olan Urmiyə gölünün cənubundakı Mehabad (Sovuçbulaq) şəhərindən Xəzər dənizinin cənub-qərb bölgəsindəki Rəşt və Ənzəli şəhərlərinə qədər uzanan bir xətlə ayrılır.

Azərbaycan, Türkiyədən başlayan Araz çayı vasitəsilə şimal və cənub olaraq ikiyə bölünür. Bu bölünməyə elmi, ya da siyasi və coğrafi baxımdan haqq qazandırmaq mümkün deyil. Bölgədə yaşayan Oğuz türklərinin tarixi keçmişi, mövqeyi və keçmişdə Rusiya ilə İran arasında əldə olunan razılıqlar və Sovet İttifaqı dövründə bu sərhədin əsas alınması baxımından belə bir siyasi bölgü yaranmışdır.

***A. Cənubi Azərbaycan:*** Bugünkü Türkiyənin qərbində yaşayan türk əhalisi sərhədin İran tərəfində də bölünmədən şərqə və şimal-şərqə doğru davam etməkdədir. Bölgənin şərqində Xəzər dənizi yerləşir. Türkiyə sərhədindən başlayaraq İranın şərqindəki *"İran Azərbaycanı"* deyilən bölgədə tamamən Oğuz türkləri məskunlaşmışdır. Bu bölgə Şərqi Anadolu kimi ətrafı tamamən yüksək dağlarla əhatəli hövzələrdən ibarət bir sahədir. Dağların yüksəklikləri həddən artıq yağmurludur. Aralıq hövzələr isə az yağmurlu iqlim tipinə malikdir. Qışı soyuq və qarlı, yayı isə isti və quraqdır. Cənubi Azərbaycanda bu gün təxminən 25 milyon əhalinin yaşadığı məlumdur. Cənubi Azərbaycan dənli bitkilər istehsalı baxımından İranın ikinci böyük bölgəsidir. Bu bölgə əkinçiliklə bərabər heyvandarlıq və təbii qaz istehsalı sahəsində də önəmli bir ekonomik dəyərə sahibdir. Bölgənin ən böyük şəhəri, əhalisi bir milyon yarımdan çox olan Təbriz şəhəridir. Ərdəbil, Xoy, Qəzvin və Urmiyə şəhərləri də Cənubi Azərbaycanın önəmli şəhərlərindəndir.[1]

***B. Şimali Azərbaycan:*** Şərqi Anadolu və Cənubi Azərbaycandakı türklər yenə bölünmədən şimala və şimal-şərqə doğru davam edir. İki bölgəni Araz çayı ayırır. Azərbaycanın ərazisi 86 min kv.km-dir. Ərazi coğrafi olaraq üç ana bölgəyə ayrılır: Şərqi Qafqaz və Abşeron yarımadası, Kür çayı çökəkliyi ilə Murovdağ və Qarabağ yaylası. Şərqi Qafqaz dağları Dağıstan ilə Kür çökəkliyini bir divar kimi bir-birindən ayırır. Bu hissə ilə əlaqə ancaq Xəzər dənizi sahilindən mümkündür.

Kür çayının yerləşdiyi ikinci hissə Azərbaycanın ən sulu bölgəsidir. Kür və Araz çaylarının kanallar vasitəsilə suladıqları bu sahə ölkə iqtisadiyyatının ən önəmli kənd təsərrüfatı qaynağıdır.

Murovdağ və Qarabağ yaylası isə Kiçik Qafqaz dağlarının Azərbaycan hissəsini təşkil edir. Ətrafının dağlarla əhatəli olmasına rəğmən Azərbaycan torpaqlarının 40%-i düzənlikdir. Bu düzənliklərin yarıdan çoxu 400-1500 metr yüksəklikdəki platolardan meydana gəlir. Dağların 2000 metr yüksəkliyinə qədər fıstıq, palıd və şam meşələri vardır.

Azərbaycanın qərbində Ermənistan Respublikası yerləşir. Türkiyənin İqdır vilayəti ilə qonşu olan Naxçıvan Muxtar Respublikası da Azərbaycanın tərkibindədir. Sovet İttifaqı dövründə Stalin Naxçıvan ilə Azərbaycanın və Türkiyənin quru yolu əlaqəsini kəsmək üçün Zəngəzur bölgəsini Ermənistana vermişdir. Zəngəzurdakı erməni hakimiyyəti Araz çayına qədər uzanır və İran ilə sərhəd təşkil edir. Azərbaycanın şimalında Qafqaz dağları və Dağıstan, şimal-qərbində Gürcüstan yerləşir. Şərqində isə yenə Xəzər dənizi vardır.

Azərbaycanın əhalisi təxminən 8 milyon nəfərdir. Xalqın dolanışıq mənbəyi əsasən kənd təsərrüfatı və heyvandarlıqla bağlıdır. Neft, təbii qaz, taxta-şalban, balıq məhsulları (kürü) dövlətin önəmli gəlir mənbələridir. Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycanın qərb qonşusu olan Ermənistan Respublikası, Azərbaycan Respublikasına aid olan Dağlıq Qarabağ bölgəsini işğal etmişdir. Bu bölgə Azərbaycan torpaqlarının 20%-ni təşkil edir.

Azərbaycanın paytaxtı Bakı şəhəri 3 milyonu aşan əhalisi ilə İstanbul və Ankaradan sonra türklərin yaşadığı üçüncü böyük türk şəhəridir. Bakı geniş küçə və meydanları, park və xiyabanları, teatr, konsert salonları və universitetləri ilə bir təhsil, mədəniyyət, sənət mərkəzi olması ilə bərabər, eyni zamanda bir sənaye şəhəridir.

Gəncə şəhəri eyni adı daşıyan çayın iki tərəfində qurulmuşdur. Türk mədəniyyət və ədəbiyyat dünyasının ən önəmli şəxsiyyətlərindən biri olan Nizami Gəncəvinin məmləkətidir. Gəncə uzun müddət Azərbaycanın paytaxtı olmuşdur. Mis və alüminium emalı bu şəhərin sənayesinin əsasını təşkil edir.

Naxçıvan şəhəri Səlcuqlulardan bu yana önəmli bir mədəniyyət, elm və sənət mərkəzidir.

Sumqayıt şəhəri Azərbaycanın əsas ağır sənaye müəssisələrinin yerləşdiyi şəhərdir. Ancaq bu müəssisələrin bəziləri hələlik fəaliyyət göstərmir.

Şəki şəhəri keçmiş tarixlərdə Nuxa da adlanırdı. Bu şəhər uzun illər Şəki xanlarının idarəetmə mərkəzi olmuşdur. Qaf dağının qoynunda ipək istehsal edilən ən önəmli mərkəzdir.

Şuşa şəhəri ermənilərin işğalı altındadır, vaxtilə burada ipək açma və xalça toxuma sənəti inkişaf etmişdi.

Ermənilərin işğalı altında olan Şahbulaq Qarabağ xanlarının mərkəziydi. Azərbaycanın şimal tərəfində yerləşən Quba, Qazax, Tovuz şəhərləri də əhalisinin sayına görə əsas şəhərlərdəndir.[2]

***İQLİM***: Qafqaz dağlarının şimaldan əsən soyuq küləkləri kəsməsi bölgədə ılıq bir iqlimin yaşanmasına səbəb olur. Lənkərandan başlayaraq cənub bölgələrində sərt yaylaq iqliminə keçilir. Şimal və orta zonalarda qış uzun, yayı isə çox istidir. Nəmli və subtropik iqlimin yer aldığı cənubdakı Astara və ətrafı ən çox yağışlı bölgədir. Ölkədə ortalama istilik qışda 0-la -6 dərəcə arasında, yayda isə +24-lə +30 dərəcə arasında dəyişir. Azərbaycanda yay ayları Xəzər sahillərindən orta və iç zonalar və şimal-qərbə doğru çox isti keçir. Bakı və ətrafı ilə orta zonalarda, Kür çayı boyunca sərt isti külək əsir və zaman-zaman qum fırtınaları meydana gəlir. Kür çayının hər iki yanında sulanan ərazinin kənarında qalan bölgələrdə hava çöl istiliyində olur. Buralarda içmə suyu yox dərəcəsindədir. Kürün sahil zonaları isə ağcaqanadların ən çox olduğu yerlərdir.[3] Aran ovası deyilən bu bölgədə kənd təsərrüfatı üçün əlverişli ərazilər var. Bölgə əhalisi hələ keçmişdən yay mövsümündə dağ və yaylaqlara köçər, qışı isə bu ovalardakı qəsəbə və kəndlərində keçirərdilər.

**C. *Dağıstan:*** Qafqaz dağlarının cənub-şərq bölgəsi ilə Xəzər dənizi arasında qalan bölgədə yerləşir. Azərbaycanın şimalında yerləşən Dağıstanın ərazisinin çoxu dağlıqdır. Ölkədə müxtəlif Qafqaz xalqları və türk qrupları ilə yanaşı ruslar da yaşayır. Dağıstanın əhalisi təxminən beş milyondur. Dağıstan vətəndaşlarının böyük hissəsini türkdilli əhali təşkil edir. Əsas şəhərləri Mahaçqala və cənubdakı Dərbənd şəhəridir. Qafqaz dağları Dağıstandan qərbə və cənuba olan əlaqəni böyük ölçüdə əngəlləyir. Cənubdakı Dərbənd Qafqazın Xəzər dənizinə qədər dik bir şəkildə endiyi sahildə yerləşir. Şimaldakı Rusiya ilə cənubdakı Azərbaycan arasında önəmli quru yolu və dəmir yolu əlaqəsi Dərbənd üzərindən təmin olunur. Dağıstan qərbdə Gürcüstan, Çeçenistan və İnquşetiya Respublikaları, şimalda da Kalmık Respublikası ilə qonşudur. Dağıstan Rusiyanın tərkibinə daxildir.

**2. Azərbaycanın tarixi:**

Azərbaycan adının Böyük İsgəndərə xidmət göstərən iranlı bir məmurun adından götürüldüyü rəvayət edilir. Bölgədə müxtəlif tarixlərdə Manna, Urartu,

Pers, Sasani və Bizans kimi dövlətlər ilə türklər hakimiyyət qurmuşdur. Sakalar, ya da İskitlər ilə Hunlar, Göytürklər və Xəzər türklərinin də bölgəni hakimiyyətləri altına aldıqları məlumdur.[4] Azərbaycan, Bizanslıların hakimiyyətindəykən, Xəlifə Hz. Ömərin dövründə 642-ci ildə İslam dövlətinin idarəçiliyi altına girdi. Hz. Osman və Hz. Əli dövrlərində Ərdəbil, Şimali Qafqaza ediləcək basqınlar üçün bir hərbi paytaxt halına gətirildi. Azərbaycan əvvəlcə Əməvilərin, sonra isə Abbasilərin hakimiyyəti altında qaldı. Abbasi dövlətinin zəifləməsi nəticəsində bölgədə Oğuz türklərinə aid müxtəlif qəbilə və tayfalara mənsub Şirvanşahlar, Sacoğulları, Rəvvadilər, Səllarilər, Şəddadilər və Əhmədilər kimi bəzi kiçik yerli xanlıqlar quruldu.[5] Böyük Səlcuq dövlətinin quruluşundan sonra 1040-cı illərdən etibarən müsəlman Oğuzlar Azərbaycana gələrək yerləşməyə başladılar. İran və Azərbaycan Böyük Səlcuq dövlətindən başlayaraq, Monqol istilası dövrü istisna olmaqla, 1925-ci ilə qədər Oğuz türklərinin qəbilə və tayfalarına mənsub sülalələr tərəfindən idarə olunmuşdur.[6]

Səlcuq sultanları Toğrul bəy[7] və Alp-Arslan[8] dövrlərində Azərbaycana Oğuz türkləri (türkmənlər) çox sıx olaraq köç etdi.[9] Sultan Məlikşah dövründə isə 1076-cı ildə Şəddadilərin idarəçiliyinə son verildi. Beləliklə, Azərbaycan bütünlüklə Böyük Səlcuq dövlətinin hakimiyyəti altına keçdi və bölgə tamamilə türkləşdi. Azərbaycanın cənub zonaları Böyük Səlcuqlardan sonra İraq Səlcuqları və ardından Eldənizlər, şimal bölgələri də Şirvanşahlar sülaləsinin idarəçiliyində qaldı. Monqol istilasının ardından Xarəzmşahlar,[10] Elxanilər və daha sonra Teymurilər[11] dövlətlərinin hakimiyyətini yaşadı. Qaraqoyunlu (1380-1468)[12] və Ağqoyunlu (1340-1514) dövrlərinin ardından Azərbaycan Səfəvilərin hakimiyyəti altına keçdi. Yavuz Sultan Səlimin 1514-cü ildəki Çaldıran səfəri ilə Təbriz və Cənubi Azərbaycan Osmanlı idarəsinə keçdi. Bölgə, Səfəvilərin hakimiyyətinə keçməsinin ardından, Qanuni Sultan Süleyman dövründə 1534-cü ildə təkrar Osmanlı hakimiyyətinə keçdi. Azərbaycan Özdəmiroğlu Osman paşanın 1585-ci ildə Təbrizi alması, daha sonra Səfəvi hökmdarı Şah Abbasın 1603-cü ildə bölgədə nəzarəti yenidən təmin etməsi, Osmanlı sultanları IV Murad və III Əhməd dövrlərində iki türk sülaləsi arasında gedib gəlməsi kimi tarixi dövrlər yaşadı. III Əhməd dövründə İrəvan və Qarabağ Osmanlı torpaqlarına qatıldı.[13] Azərbaycan o illərdə Osmanlı, Rusiya və Səfəvilər arasındakı savaşlara səhnə oldu. Nadir şahın 1747-ci ildə öldürülməsindən sonra Azərbaycan böyük və uzun sürən bir anarxiya dövrü keçirdi. Şimali Azərbaycanda Şəki, Quba, Dərbənd, Gəncə, Qarabağ, Bakı, Naxçıvan, Talış, İrəvan, cənubda isə Təbriz, Ərdəbil, Urmiyə, Xoy, Maku və Marağa xanlıqları kimi kiçik xanlıqlar yarandı. Bu dövrün ardından Quba xanı Fətəli xan Şimali Azərbaycanda birliyi yenidən təmin etdi. XVIII yüzilliyin sonlarına doğru Osmanlı dövlətinin bölgədəki nüfuzunun gedərək azalması nəticəsində ruslar Şimali Qafqazda sıx-sıx görünməyə başladılar.[14]

Çar II Yekaterina dövründə 1770-ci ildən sonra rus ordusu Qafqazı aşaraq Şimali Azərbaycana hakim olmağa başladı. Gəncə xanı Cavad xanın 1804-cü ildəki qəhrəmancasına müqaviməti də bir nəticə verməyincə, rus orduları cənuba doğru irəliləyərək Azərbaycanı bütünlüklə işğal etdi. Dərbənd və Quba 1806-cı, Bakı 1807-ci, Talış 1812-ci, Şəki 1819-cu, Şirvan 1820-ci, Qarabağ 1822-ci, İlisu 1844-cü illərdə rusların əlinə keçdi. Rusiya ilə İran arasında 1813-cü ildə imzalanan Gülüstan müqaviləsi ilə Quba, Şəki, Gəncə, Bakı, Dərbənd və Talış xanlıqları ruslarda, Cənubi Azərbaycandakı xanlıqlar isə İranda qaldı.[15] Bu durumu qəbul edə bilməyən Fətəli xanın oğlu Abbas Mirzə xalqın dəstəyinə güvənərək Araz çayını keçdi və Şimali Azərbaycana girdi. Bu müharibədə türk ordusu məğlub olaraq geri çəkildi və Təbriz rusların əlinə keçdi. İki dövlət arasında 1828-ci ildəki Türkmənçay müqaviləsi və Osmanlı dövləti ilə Rusiya arasında 1829-cu ildə imzalanan Ədirnə müqaviləsi nəticəsində Şimali Azərbaycanın millətlərarası statusu və sərhədləri də təsbit edilmiş oldu. Buna görə Araz çayı ilə Xəzər dənizi sahilindəki Talış dağları sərhəd olmaq üzrə Azərbaycan iki yerə ayrıldı.

Şimali Azərbaycanda Rusiya hakimiyyəti 1918-ci ilə qədər davam etdi. Şimali Azərbaycanda yaşayan türklər Rus çarlığına qarşı davamlı olaraq mücadilə etdilər. Ruslar Azərbaycan türklərinə qarşı 1830-cu, 1840-cı və 1850-ci illərdə müstəmləkə hakimiyyətini şiddətləndirmək üçün sosial və mədəni müdaxilələr etdilər. Azərbaycanda rus müstəmləkə siyasəti XIX əsrin ilk dövrlərində başlamışdı. Azərbaycanın cənub və şimal olaraq parçalandığı anlaşmalardan sonra Rusiya Şərqi Anadolu və İranda yaşayan erməniləri Cənubi Qafqazda sıx yerləşdirməyə başladı. Rusiya Cənubi Azərbaycan və İranda yaşayan erməniləri öz tərəfinə çəkə bilmək üçün 20 il müddətlə vergidən imtiyazlı olacağlarını açıqladı. Beləliklə, Cənubi Qafqaza 70 min erməni köç etdi və bunlar Naxçıvan, İrəvan və Qarabağa yerləşdirildi. Rusiyanın bu yerləşdirmə siyasəti Osmanlı dövləti ilə arasında bitərəf bir bölgə yaratmağa meyilli idi. Rus çarlığı digər tərəfdən türk elləri arasındakı əlaqəni də kəsmək istəyirdi. Osmanlı dövləti və Cənubi Azərbaycan ilə Rusiya arasında bitərəf bir Erməni dövləti qurmaq üçün çalışırdı. Rusiya tərəfindən köç etdirilən ermənilər, başda İrəvan xanlığı ərazisi olmaq üzrə Qarabağ ilə Göyçəgöl ətrafına, Gəncə və Bakı ətrafına yerləşdirildi. Bu köç siyasəti I Dünya müharibəsinə qədər davam etdi. Rusiyanın rəsmi mənbələrinə görə 1914-cü ilə qədər Cənubi Qafqaza bu şəkildə yerləşdirilən ermənilərin sayı 1 milyonu keçmişdi. Ruslar bölgəyə erməniləri yerləşdirməklə kifayətlənməmiş, Araz və Kür çaylarının Xəzər dənizinə töküldüyü bölgə ilə Bakı və bəzi yerlərə də rusları yerləşdirmişdi. Bu şəkildə yerləşdirilən rus mühacirlərinin sayı 200 minə qədər idi.[16]

Rusiyanın paytaxtı Peterburqda 9 yanvar 1905-ci ildə Qanlı Bazar adı verilən hadisələrdən sonra Qafqazda 6 fevral 1905-ci ildə ilk dəfə türk-erməni

toqquşması yarandı. Rus alayında xidmət edən bir erməni 6 fevralda bir türkü öldürdü. Bu hadisə nəticəsində İrəvan, Şuşa, Gəncə, Tiflisdə toqquşmalar meydana gəldi. Bu hadisələr baş verən zaman rusların ermənilərin yanında yer alması türkləri gizli cəmiyyətlər qurmağa sövq etdi. 1890-cı ildə qurulan gizli Erməni İxtilal Cəmiyyətləri Birliyi Daşnaksütyun Komitəsinə qarşılıq Azərbaycan türkləri də "Difai" (müdafiə) adlı bir təşkilat qurdular. Bu təşkilat ilə eyni dövrdə qurulan Hümmət Partiyası və 1911-ci ildə qurulan Müsavat Xalq Partiyası Azərbaycanda oyanan milli kimliyin ilk təşkilatları oldu.

Rusiyada 27 fevral 1917-ci ildə başlayan bolşevik ixtilalından sonra 15-20 apreldə Bakıda Qafqaz Müsəlmanları Konqresi, 1-11 mayda isə Moskvada Rusiya Müsəlmanları Konqresi toplandı. Bu qurultaylarda bütün Qafqaza təsir edəcək iki milliyyətçi görüş müzakirə olundu. Əsas hədəfdə bir fərqlilik olmamaqla bərabər, taktiki və strateji baxımdan fərqli yolları üstün tutan bu görüşlərdən liberal milliyyətçilər, Rusiya və müsəlmanların bütünlüyünü pozmadan mədəni muxtariyyət əldə edilməsini müdafiə edirdilər; inqilabçı milliyyətçilər isə bölgələrə görə milli dövlətlər qurulması tezisinin Rusiya müsəlmanları üçün təzyiq, istismar və işğaldan qurtarıcı bir görüş olduğunu dilə gətirirdilər. Bu konqreslərdə Azərbaycanın taleyini müəyyən edən Məmməd Əmin Rəsulzadənin rəhbərlik etdiyi inqilabçı milliyyətçi tezis qəbul edildi. Bu irəliləyişlər yaşanarkən 15 noyabr 1917-ci ildə bolşevik idarəsi, Millətlərin Haqları Bildirişini yayaraq hər millətin öz taleyini özü təyin etməsi prinsipini açıqladı.

Cənubi Qafqaz xalqları da bu bəyanatdan çıxış etdilər və gürcü menşeviklərin rəhbərliyi altında gürcülər, ermənilər və türklər 28 noyabr 1917-ci ildə Zaqafqaziya Komissarlığını qurdular. Daha sonra bu təşkilat 18 yanvar 1918-ci ildə Sovet hökuməti ilə əlaqəsini kəsərək, Seym adlı bir məclis yaratdı. Bölgə ölkələri arasında çıxan anlaşılmazlıqların gedərək dərinləşməsi nəticəsində Gürcüstan, Ermənistan, Azərbaycan bu birlikdən ayrılaraq dövlətlərini qurdular. Azərbaycan 28 may 1918-ci ildə müstəqilliyini elan etdi.

İngilis Müttəfiq Ordu Komandanlığının təbliği ilə İngiltərə 8 yanvar 1920-ci ildə Qarabağın Azərbaycana aid olduğunu qəbul etdi. 12 yanvar 1920-ci ildə isə müttəfiq dövlətlərin hamısı Azərbaycanın müstəqilliyini rəsmi olaraq tanıdı. Ermənilər isə Qarabağda 23 mart 1920-ci ildə Azərbaycana qarşı qiyam qaldırdılar. Yeni qurulan Azərbaycan ordusu bu üsyanla mücadilə edərkən çox zəiflədi. Bu fürsətdən istifadə edərək Sovet bolşevik Qızıl Ordu qüvvələri Azərbaycandakı kommunist türklərin də köməyi ilə 26 aprel 1920-ci ildə Azərbaycanın şimal sərhədindən girib, 27 aprel 1920-ci ildə Bakını işğal etdi. Beləliklə, Azərbaycan rus bolşeviklərin və Qızıl Ordunun işğalı ilə yeni bir müstəmləkə dövrünü yaşamağa başladı. Həmin tarixdə N.Nərimanovun başçılığı altında Sovet Azərbaycanı elan edildi. 30 oktyabr 1920-ci ildə qurulan Azərbaycan bolşevik hökuməti Sovet

Rusiyası ilə müstəmləkə xarakteri daşıyan bir anlaşma imzaladı. Azərbaycan Sovet Sosialist Respublikası 1922-ci ildə Zaqafqaziya Federasiyasına qatıldı. 1936-cı ildə isə Sovet İttifaqını təşkil edən 15 respublikadan biri oldu.

Azərbaycan, Sovet İttifaqının dağılmasından sonra 1990-cı ildə yenidən müstəqilliyini əldə etdi.

**3. Azərbaycanın strateji əhəmiyyəti:**

**a.** Azərbaycan tarix boyu bölgə və dünya üçün mühüm bir keçid ölkəsi olmuşdur. Tarixi İpək Yolunun bir hissəsi Azərbaycandan keçərək qərb ölkələri ilə əlaqə yaradırdı. Malların Azərbaycandan keçərək daşınması və gəmi nəqliyyatında Xəzər dənizinin daha da çox əhəmiyyət qazanması Don və İtil (Volqa) çayları arasındakı kanalın inşası ilə daha sürətləndi. XIX yüzilliyin sonundan etibarən Aralıq dənizi, Qara dəniz və Azov dənizindən keçən yük gəmiləri Volqa üzərindən Xəzər dənizinə, oradan da Türküstana və eyni yolla Avropa və Baltik dənizinə gedən malların daha asan və ucuz daşınmasını təmin edirdi. Rusiyadan cənuba doğru uzanan dəmir yolu ilə Batumi və Bakı arasındakı dəmir yolu və quru yolları mal və xidmətlərin nəqlini çox asanlaşdırırdı.

**b.** Dünyada ilk neft quyuları XIX yüzilliyin ortalarında Bakı və onun ətraflarında qazıldı. XX yüzilliyin əvvəllərində dünyada neft çıxarılan bölgələr ABŞ, Bəsrə körfəzi, Mosul-Kərkük və Bakıda idi. 1900-cü illərdə dünyanın "ən faydalı yanacağı, iqtisadiyyatın ən güclü mənbəyi, hətta tibbin dəyərli dərmanı" olan neftin dünyadakı hasilatının yarısı Bakı və onun ətrafının əlində idi. Neft o qədər çox idi ki, qazılan hər quyudan qara qızıl fışqırırdı. Neft sənayesinin yükünü isə Bakı və onun ətrafında yaşayan insanlar daşıyırdı.

Azərbaycan nefti dünyanın ən zəngin insanlarını və böyük şirkətlərini qısa müddətdə bölgəyə cəlb etdi. İsveçli Nobel qardaşları (Nobel mükafatı onların adı ilə bağlıdır), ABŞ-da ən böyük neft şirkəti qurucularından Rotşild, Standart Oil, Shell ilə daha çox ingilis, alman və fransız şirkətləri Azərbaycan nefti sayəsində zənginləşmişdilər. Nobel qardaşları və digərləri Çar Rusiyası ilə bir çox anlaşmalar imzalayaraq, Bakıda böyük miqdarda neft hasil edirdilər. Azərbaycan nefti də Rusiyadan keçərək Avropa ölkələrinə daşınırdı.

İndi olduğu kimi, keçən yüzilliyin əvvəllərində də Azərbaycanın ən böyük şəhəri Bakı idi. Birinci Dünya müharibəsinin başlandığı 1914-cü ildə ABŞ-dan sonra ən böyük neft hasilatçısı Rusiya olmuşdu. Rusiya nefti isə o tarixlərdə yalnız Bakıda çıxarılırdı. Neft lap əvvəllər sadə üsullarla hasil edilirdi. 1872-ci ildən etibarən artezian üsulu ilə işləyən quyulardan neft çıxarılmağa başlandı. 1875-ci ildə Bakıda 5.300.000 pud (1 pud=16 kq), 1901-ci ildə isə 681 milyon pud xam neft hasil edilirdi.[17] Bakı neftinin müharibədən əvvəl illik ixracı 22 milyon tona yaxın idi.[18] Bakı nefti o illərdə şəhərin şərq bölgələri olan Balaxanı, Suraxanı və Sabunçuda çıxarılırdı. Quyulardan borularla şəhərin şərq kənarındakı Qaraşəhər

bölgəsində yerləşən neftayırma zavodlarına daşınaraq burada benzin, mazut, maşın yağı və s. kimi məhsullara ayrılırdı. Ayrılan neft, dəmir borularla Bakıdan Batumi limanına çatdırılır və buradan da qərb ölkələrinə ixrac edilirdi.

Keçən yüzilliyin əvvəllərində, Birinci Dünya müharibəsinin yaxınlaşdığı bir zamanlarda "neft yataqlarına sahib olan dövlət dünyaya hakim ola bilər" düşüncəsi gedərək mühüm əhəmiyyət kəsb etdi. O illərdə məlum olan neft yataqları isə ABŞ-da, Bakıda, Mosulda və Bəsrə körfəzində idi. Bakı nefti Rusiyanın, Orta Şərq nefti isə Osmanlı dövlətinin nəzarətində idi. İngiltərə Mosul və Bəsrə körfəzindəki nefti ələ keçirmək, bunun sayəsində sənayeni və iqtisadiyyatı gücləndirmək və nəticədə dünyada hakimiyyətini daha da möhkəmləndirmək istəyirdi. Dünyanın böyük dövlətləri arasında siyasi, hərbi, iqtisadi və mədəni sahələrdə böyük maraq toqquşmaları başladı. Bu mübahisə dünyanı addım-addım Birinci Dünya müharibəsinə doğru sürüklədi.

**c.**Azərbaycanda xalqın əsas dolanışıq mənbəyi heyvandarlıq, taxıl, pambıq, üzüm bağları, şərabçılıq, meyvə, ipək, tütün, meşə və balıqçılıq ilə kürü istehsalı idi. Ərazi cənubda dağlıq olmaqla bərabər, şimalda məhsuldar düzənliklər və yumşaq iqlimi ilə kənd təsərrüfatı və heyvandarlıq üçün son dərəcə əlverişli idi. Bölgədə istehsal edilən kürü və şərab isə dünyanın çox yerində alıcı tapırdı. Azərbaycan müharibədən əvvəl ildə 150 min ton yun ixrac edirdi.[19] Azərbaycanda ən çox yayılan dolanışıq mənbələrindən biri də xalçaçılıqdı. Bütün dünyaya Təbrizdən satılması səbəbindən səhv olaraq "İran xalçası, ya da Əcəm xalçası" deyə şöhrət tapan xalça və kilimlər əslində tamamilə türk xalçasıdır. Bunlar Təbriz, Bakı, Quba və Şirvan zonalarında toxunur, ipək isə Şəki və onun ətrafında istehsal edilirdi.

**d.**Rusiyanın müharibədən çəkilməsiylə İngiltərə və Almaniyanın hədəflərindən biri də Azərbaycanı ələ keçirmək idi. Bolşevik Rusiyası isə keçmiş müstəmləkəsindəki zənginlikləri, əsas da nefti əldən verməyi heç istəmirdi. Bu dövlətlər öz aralarında neft bölgələri ilə İran, Orta Asiya və Hind okeanı üzərindəki hakimiyyət və maraq uğrunda müharibələrini davam etdirirdilər. İstehsalı və istifadəsi Qərbdə başlayan və dövrünə görə irəli sayıla biləcək müasir kənd təsərrüfatı maşınları üçün Avrasiya və Uzaq Şərq ölkələri ümid verən karlı bir bazar idi. Yeni texnologiyaya uyğun istehsal edilən sənaye məhsulları, toxuculuq və kənd təsərrüfatı maşınlarının satışı Qərb dövlətlərinə böyük pullar qazandıra bilərdi.

**e.**Müharibəyə ən son qatılan Osmanlı dövlətinin bölgəyə yönələn siyasətinin təməli iqtisadi qazanc əldə etməkdən çox sosial, tarixi, mədəni və hissi bağlara dayanırdı. Osmanlı dövləti və bir çox türk ziyalısına görə Rusiya yüz illərdir Orta Asiya və Qafqazdakı türk və müsəlmanların vətənini işğal altında saxlayırdı. Birinci Dünya müharibəsindən əvvəl Rusiyada bəzi araşdırmalara görə

104, bəzilərinə görə isə 109 müxtəlif xalq yaşayırdı. Əhalisi isə təxminən 180 milyon idi.[20] Zəki Validi Toqan 1917-ci ildə keçirilən Rusiya Müsəlmanları Qurultayında Çar Rusiyasında 23 milyona yaxın türk əsilli əhalinin yaşadığını, müsəlmanların sayının isə 27 milyon olduğunu bildirmişdi.[21] Böyük müharibənin başladığı 1914-cü ildə Cənubi Qafqazda yaşayan təxminən altı milyon insanın yarıdan çoxunu isə türklər təşkil edirdi.[22] Bu ədədlərdən göründüyü kimi, Azərbaycan və Cənubi Qafqaz bir türk yurdu idi. Türklər Azərbaycanın əhalisinin əsas hissəsini təşkil edirdi.

Osmanlı dövləti dünya türklərinin və müsəlmanlarının mərkəzi olaraq qəbul edilirdi. Şimali Azərbaycanda və Rusiyada yaşayan türk və müsəlmanların öz dövlətlərinin bulunmayışı və imperializmin qısqacında olmaları 1900-cü illərdən etibarən Osmanlı dövlətinin Qafqaz və Türküstan siyasətində önəmli yer tuturdu. Azərbaycanın bir türk torpağı olması, "böyük türk millətinin bir bölümünü təşkil etməsi" İstanbul rəhbərliyinin bu bölgəyə olan marağını daha da artırırdı.[23]

Dünya, Birinci Dünya müharibəsinə sürüklənərkən öndə gedən dövlətlərin arxivlərində tapılan sənədlər və XX əsrdə müxtəlif ölkələrdə aparılan elmi araşdırmalar Osmanlı dövlətinin Qafqaz və Türküstan siyasətində "iqtisadi mənfəət əldə etmə" düşüncəsinin olmadığını göstərir. İqtisadi qazanc əldə etmək bir dövlətin, əlbəttə, haqqıdır. Ancaq Türkiyənin o bölgələrə yönələn siyasəti qərb dövlətlərinə qarşı siyasi nüfuz qazanma təməli üzərində qurulmuşdu.[24]

**4.Birinci Dünya müharibəsindən əvvəl Osmanlı dövlətindəki fikir cərəyanları:**

Osmanlı dövlətində Sultan II Əbdülhəmid 1908-ci ildə taxtdan endirilmiş, yerinə Sultan Mehmet Rəşad gətirilmişdi.[25] Qısa müddətdən sonra 1876-cı ildə elan edilən Qanunu-Əsasinin (Anayasa) bəzi maddələri dəyişdirildi. Dövlət sistemində yeni bir struktur yaradılmağa başlandı. Beləliklə, Türkiyə II Məşrutəçilik dövrünə girmiş oldu.[26] Məşrutəçiliyin ölkənin içində hökm sürən anarxiyaya son verəcəyinə, siyasi, sosial, iqtisadi, hərbi və mədəni sahələrdəki məsələləri həll edəcəyinə inanılırdı.

Osmanlı dövlətində Gülxanə Xətti ilə başlayan Tənzimat dövründən Birinci Dünya müharibəsinə qədər keçən təxminən 75 illik müddətdə dövlətin çöküşünü dayandıra biləcək, xalqın rifahını təmin edəcək bir çox fikir mübahisələri edilmiş, ideoloji cərəyanlar inkişaf etmişdi. Bu düşüncə cərəyanları II Məşrutəçiliklə olduqca aydınlaşmış və sıraları bir-birindən ayrılmışdı. Birinci Dünya müharibəsi və Qafqazdakı yenilikləri daha ətraflı öyrənmək üçün bu cərəyanlara qısaca baxmaqda fayda var.

**a.**Qərbçilik cərəyanı: Bu qrup, "İctihad" dərgisi ətrafında toplanaraq, irəli sürdükləri fikirləri Qərbçilik adı altında cəmiyyətə yaymağa çalışırdı. Osmanlı cəmiyyətindəki sıxıntıları, səltənət rejimini qoruyaraq, radikal islahatlar yoluyla

aradan qaldırmağı qarşısına məqsəd qoymuşdular. Bu qrupun təmsilçiləri hər şeydən əvvəl öz daxillərində bir-biriləri ilə anlaşa bilmirdilər. Bu cərəyanın başında Dr. Abdullah Cövdət, Cəlal Nuri və Kılıçzadə Haqqı bəylər dururdu. Bu cərəyanın təmsilçiləri düşüncələri baxımından hər dövrdə mübahisə mövzusu olmuşdular.

**b.**İslamçılıq cərəyanı: Osmanlı sultanı eyni zamanda İslam ümmətinin də xəlifəsi idi. Bu baxımdan dövlətin təməl ideologiyası, vətəndaşlar arasında ayrı-seçkilik edilməməsi prinsipini əsas tutmuşdu. Məşrutəçiliyin ən təsirli və digərlərinə nisbətən ən çox tərəfdar toplayan cərəyanıdır. Dini əqidələrə dayanan düşüncə sisteminə sahib olduğu üçün İslamçılıq daha təmiz bir cərəyan idi. Qabaqcılları arasında Prens Mehmet Səid Halim paşanı, Mehmet Akifi, Babanzadə Əhməd Naimi, Şəmsəddin (Günaltay) bəyi göstərmək olar. İslamçılıq cərəyanı ilə bağlı görüşlər hər siyasi partiyada az-çox var idi. Bu cərəyanın təmsilçiləri bir çox qəzet və jurnalda öz görüşlərini açıqlamışdılar. Bunlar arasında "Sirati Müstəqim", "Səbilür-Rəşad", "Cəridəyi Sufiyyə", "Cərideyi Elmiyyə", "Hikmət", "Bəyanül-Həqq" kimi nəşr orqanlarını göstərmək olar.

**c.**Türkçülük cərəyanı: Osmanlı dövlətində iqtidar partiyasının təmsilçiləri bu cərəyanın qabaqcılları olduğu üçün Türkçülük cərəyanı ən güclü cərəyanlardan biri idi. İttihad və Tərəqqi Partiyasının ən yüksək orqanı olan Mərkəzi-Ümumi üzvü və partiyanın rəsmi ideoloqu olan Ziya Göyalpın təsiri bu cərəyanın gücünü artıran ən önəmli amillərdən biri olmuşdur.[27] Osmanlı dövlətinin siyasi rejiminə ***"Türk millətindənəm, İslam ümmətindənəm, Qərb mədəniyyətindənəm"*** prinsipini qoymaq istəyən türkçülər Osmanlı vətəndaşlarına bir "yeni həyat" təqdim edirdilər. Bu qurtuluş resepti və hərəkətinin təməlini türk milliyyətçiliyi fikir sistemi təşkil edəcəkdi. Buna görə türklər əvvəlcə Osmanlı dövləti içində milli bir şüura sahib olacaqdılar. İkinci mərhələdə də Osmanlı dövlətinin xaricində yaşayan türklərin müstəqilliyini qazanaraq öz ayaqları üzərində durmaları və varlıqlarını qorumaları, daha sonra da onlarla mədəni və siyasi tərəflərdən bütünləşmə düşüncəsi vardı. Bunun ən son mərhələsində isə bütün türk vilayətlərinin qatıldığı Turan adlı böyük bir ölkə qurulacaqdı. Türkçülük və Turançılıq cərəyanı ilk olaraq macar ziyalıları tərəfindən ortaya atılmış, Rusiyanın işğalı altında olan türk vilayətlərində isə sürətlə yayılmışdı. Kazan, Krım, İdil-Ural, Macarıstan, Qafqaz və xüsusilə Azərbaycan kimi ölkələrdə yaşayan ziyalılar bacardıqları qədər bu fikir cərəyanına müxtəlif tərəflərdən köməklik göstərmişdilər.

Osmanlı dövlətində Türkçülük cərəyanı Ziya Göyalpla bərabər siyasət və mədəniyyət sahəsindəki tanınmış adamlar vasitəsilə də inkişaf etmiş və zənginləşdirilmişdi. Akçuraoğlu Yusif, Ömər Seyfəddin, Cənab Şahabəddin, Həmdullah Sübhi (Tanrıöver), Köprülüzadə Mehmet Fuad, Ağaoğlu Əhməd,

Kazım Naim (Duru), Şair Mehmet Əmin (Yurdaqul) kimi aydınlar, Türkçülük cərəyanının önəmli isimləri idilər. İttihad və Tərəqqi Partiyası osmanlıca olan partiya proqramını 1911-ci ildə türkcələşdirmişdi. İttihad və Tərəqqi Partiyasının xaricindəki bəzi siyasi partiyalarda da milliyyətçi prinsiplər var idi.

Türk Ocağı, milliyyətçi türkçü cərəyanını ən güclü şəkildə yayan bir mədəniyyət qurumu olma xüsusiyyətini uzun illər saxlamışdı. "Türk Yurdu" və "Kiçik Məcmuə" kimi fikir, sənət və ədəbiyyat dərgiləri də cəmiyyətə dərin təsir göstərmişdir. İttihad və Tərəqqi Partiyası iqtidarda olduğu müddətdə bütün mətbuat və nəşr imkanlarıyla Türkçülük cərəyanını dəstəkləmişdir.[28]

Osmanlı dövlətində bəzi məsləki quruluşlar, liberallar və marksistlər də bir sıra işlər görürdülər. Ancaq bu və buna bənzər qrupların cəmiyyətdəki fikir, ədəbiyyat, mədəniyyət və sənət sahəsində ciddi heç bir təsirləri olmurdu.[29]

**5.İstanbuldakı siyasi hadisələrin Azərbaycandakı aydınlanmaya təsiri.**

Türk tarixi və mədəniyyəti Mete xandan başlayaraq Orta Asiya-Səlcuq-Osmanlı xəttində və bir bütün olaraq araşdırılmalıdır. Bu tarixi gedişdə Oğuz adətlərinin böyük bir yeri vardır. Bu adətlərin hamısı yazıya köçürülməmişdir. Ancaq cəmiyyətin hər təbəqəsində və dövlət təşkilatında canlı bir şəkildə yaşamışdır. Tarixin ən qədim dövrlərindən İstanbulun fəthinə qədər Orta Asiya və xüsusilə müqəddəs paytaxt olaraq bilinən Ötükən "böyük xaqanlığın" mərkəzi olaraq qəbul edilmişdir. Ötükənə hakim olan türk qövmünə, ya da sülaləsinə Göy Tanrının yaxşı tale, xoşbəxtlik, bəxt verdiyinə inanılmış və digərlərinə görə üstün qəbul edilmişdir. Bəzi anlayışlarda zaman içində dəyişiklik edilsə də Fateh Sultan Mehmetin İstanbulu fəth etməsindən sonra "böyük xaqanlıq" qərb türklərinə keçmişdir. Teymur ilə İldırım Bəyazid, Yavuz Sultan Səlim ilə Şah İsmayıl kimi türk xaqanları arasındakı qovğanın təməlində başqa səbəblər də olmaqla bərabər, "böyük xaqanlıq", ya da tabe olma duyğusu var idi. Başqa sözlə, türk tarixində sülalələr, ya da dövlətlər arasındakı mücadilənin təməlində siyasi səbəb vardı. Türk tarixi bu əhatədə araşdırıldığı zaman siyasi, sosial, iqtisadi və mədəni hadisələrin qavranılması daha da asanlaşacaqdır.

Bugünkü Şərqi Anadolunun şərqi, Azərbaycan, Gürcüstan və Ermənistan torpaqları X yüzillikdən bu yana Oğuz türklərinin vətəni olmuşdur. Azərbaycan torpaqlarında türk-islam tarixi və mədəniyyətinə böyük qatqıları olan saysız-hesabsız elm, mədəniyyət, sənət və siyasət adamı yetişmişdir. Fəqət bunlar arasında Dədə Qorqud ilə Nizami Gəncəvinin xüsusi bir yeri vardır.

İstanbul, türklər tərəfindən fəth edildikdən sonra, türk və islam dünyasının uzun illər boyu mərkəzi, təmsilçisi, idarəedicisi və avtoritet mərkəzi olmuşdur. Bu baxımdan XIX yüzillikdə Qafqaz, Orta Şərq və Orta Asiyanın üzü də, əlbəttə, İstanbula dönmüş olurdu. Kazan, Krım, Tiflis[30] və Bakının gözü də təbii olaraq İstanbula çevrilmişdi.

Türk dünyasında XVIII və XIX yüzilliklərdə yalnız Osmanlı dövləti ilə bu günkü İran torpaqlarında yenə bir türk dövləti olan Qacarlar sülaləsi müstəqil idi. Bunun xaricindəki türk qövmləri, boyları, cəmiyyətləri və soyları Rusiya və Çin dövlətlərinin idarəçiliyi altında idi. Dünyada XIX yüzillikdə başlayan milli cərəyanlar qısa müddətdə türk dünyasında da yayılmağa başladı. İstanbulda yaranan və qısa müddətdə yayılan milli oyanış, türk dünyasının ziyalıları arasında da sürətlə tərəfdar tapdı. Krımda Qaspiralı İsmayıl, Kazanda Şahabəddin Mərcani, İstanbulda Cəmaləddin Əfqani, Şəmsəddin Sami, Vələd Çələbi, Əhməd Midhət, Özbəklər Şeyxi Süleyman əfəndi, Nəcib Asim, Əmrullah Əfəndi, Bursalı Tahir bəy, Rifat Fuad, Əhməd Hikmət, Süleyman paşa, Əhməd Cövdət Paşa, Əhməd Vəfiq paşa, Mehmet Əmin, Ziya Göyalp, Yusif Akçura, Sədri Maqsudi Arsal, Əhməd Cavad kimi ziyalılar dil, tarix, sosial tərbiyə, siyasət, türkçülük və türk dili mövzusunda əhəmiyyətli işlər gördülər.

Türkiyədə kök salmağa başlayan dil, tarix və kimlik şüuru türkçülük cərəyanına çevrildi və bu cərəyanın siyasi təşkilatlanması da İttihad və Tərəqqi Cəmiyyəti şəklində ortaya çıxdı. Bu üzdən 1908-ci ildə elan edilən II Məşrutəçilikdən sonra sürətlə yayılan hürriyyət havası türk dünyasının hər tərəfindəki ziyalıları İstanbula çəkirdi. İttihad və Tərəqqi Cəmiyyəti tərəfindən Selanik (Saloniki) və İstanbul kimi mədəniyyət və sənət mərkəzlərində jurnallar çıxarılırdı. İstər Türkiyədəki və istərsə də türk dünyasındakı ziyalılar, yazıçılar, türkçü və turançılar bu cəmiyyətin çıxardığı və ya dəstəklədiyi jurnalların ideologiyasını təyin edən Ziya Göyalpdan çox təsirlənmişdilər. Ziya Göyalp və Həmdullah Sübhinin bu jurnallardakı yazıları ilə Türk Ocaqlarında verdikləri konfranslar hər bir türk ziyalısına yeni üfüqlər qazandırmışdır.

Türkiyədəki milli cərəyanlardan Azərbaycanın da təsirlənməsi təbiidir. XIX yüzillik boyu bir çox türk ziyalısı İstanbul və bəzi mərkəzlərlə sıx fikir alış-verişində olmuşdular. Bu ziyalıların bir tərəfdən ölkələrində, digər tərəfdən də İstanbul mərkəzli inkişaf edən milli cərəyanlara əhəmiyyətli qatqıları olmuşdur. Azərbaycanlı türklərdən Mirzə Fətəli Axundzadə (1811-1878) türkçülük və türk dili sahəsində önəmli işlər görmüşdü. M.F.Axundzadə türkçülük və türk milliyyətçiliyi duyğusu ilə dil, tarix, siyasət və ədəbiyyat üzərində çalışmış, ədəbi əsərlər yazmışdır. 1863-cü ildə İstanbula gedərək hazırlanacaq yeni türk əlifbasının türk xalqları arasında ortaq istifadəsini təmin etmək üçün Sədrəzəm Keçəçizadə Fuad Paşaya bir əlifba layihəsi təqdim etmişdi. Bu cür çalışmalarıyla, xüsusən də ədəbi sahədə türkçülüyə böyük xidmət göstərmişdir. Məlikzadə Həsən bəy Zərdabi 1875-ci ildə Bakıda "Əkinçi" adlı ilk türk qəzetini çıxardı. Kənd təsərrüfatı mühəndisi olan Həsən bəy əkinçiliyin inkişafı sahəsində yazılarla başladığı türk qəzetində dil və sosial mövzulara yer verməyə başladı. Azərbaycan, Krım, Kazan, Dağıstan və Rusiyada yaşayan bütün türklərin eyni dildə danışmasını, eyni

əlifbadan istifadə etməsini, eyni elm və ədəbiyyat əsərlərini oxumasını və yazmasını müdafiə edirdi. Çar idarəçiliyi 1877-1878-ci ildə Osmanlı-Rusiya müharibəsi başlayan kimi bu qəzeti bağladı.

Əli bəy Hüseynzadə 1864-cü ildə Azərbaycanın Salyan şəhərində dünyaya gəldi. Atası Tiflisdəki müsəlman (türk) məktəbində müəllim işləyirdi. Bu məktəbi bitirdikdən sonra əvvəlcə rus liseyinin, sonra Peterburq Universitetinin Fizika-kimya fakültəsinin məzunu oldu. Daha sonra İstanbula gedərək Hərbi Tibb Məktəbinə qəbul olundu. Uşaqlığından babası Şeyx Əhməd Salyani və onun dostu M.F.Axundzadənin söhbətlərinə qulaq asdı. Bu söhbətlərdə əsasən türklük, türk dili və Türkiyə kimi mövzular danışılırdı. İstanbulda Hərbi Tibbiyyəni bitirdikdən sonra Osmanlı ordusu sıralarında Yunan müharibəsinə qatıldı. Daha sonra Hərbi Tibbiyyədə bir müddət müəllimlik etdi. Dərslərində türkçülük və milli oyanış haqqındakı nitqlərinə görə təqibə uğrayınca Azərbaycana qaçdı. Bakıda Zeynalabdin Tağıyev, Əhməd Ağaoğlu, Əlimərdan bəy Topçubaşov kimi dostları ilə türkcə nəşr olunan "Həyat" qəzetini çıxartdı. Əli bəy bu qəzetin ilk nömrəsindən etibarən türklər kimdir, türk boyları, yazı dili kimi bir çox milli mövzularda məqalələr yazdı. Osmanlı dövlətində II Məşrutəçilik elan edilincə, 1910-cu ildə o yenidən İstanbula döndü.

Əhməd Ağaoğlu 1869-cu ildə Qarabağın böyük şəhərlərindən olan Şuşada doğuldu. Ailəsi üləma sinfindən olan Ağazadələr idi. İlk təhsilini mədrəsədə aldıqdan sonra Şuşadakı rus məktəbinə getdi. Ermənilərin çoxluq təşkil etdiyi bu məktəbdə təhsilini böyük sıxıntı içərisində davam etdi və bu məktəbə girən beş türk şagirdindən yalnız o, məktəbi bitirə bildi. 1877-ci ildə rus liseyini bitirdi və yüksək təhsil üçün Parisə getdi. Parisdə olarkən Bakıda rusca nəşr olunan "Kaspi" qəzetində məqalələri nəşr olundu. Əhməd Rza və Şeyx Cəmaləddin Əfqani ilə tanış oldu. Əli bəy Hüseynzadə və Əhməd Ağaoğlu - bu iki türk milliyyətçisi Qafqazda milliyyətçilik uğrunda çalışmaq üçün qollarını çırmaladılar. Türk dili və türkçülük sahəsində əhəmiyyətli işlər gördülər. Azərbaycanda "Fədailər" adlı gizli bir cəmiyyət qurdular, ancaq ruslar bundan xəbər tutanda o da 1908-ci ildə Türkiyəyə qaçdı. Türkiyədə də milli və siyasi mövzularda işlərə başladı. Yusif Akçura tərəfindən başlanan türkçülük hərəkatının qısa müddətdə fəal bir üzvü halına gəldi. 28 may 1918-ci ildə qurulan Azərbaycan Cümhuriyyətində müxtəlif vəzifələr aldı. Azərbaycan, Sovet Rusiyası tərəfindən işğal olunduqda yenidən Türkiyəyə qaçdı və Mustafa Kamal paşanın başlatdığı Milli Mücadilə heyyətlərində müxtəlif vəzifələr tutdu. Qars millət vəkili olaraq 1939-cu ilə qədər siyasi fəaliyyətinə davam etdi.

Osmanlı dövlətində İstanbul Sirkəzi Dəmirqapıda yerləşən Hərbi Tibbiyyənin (Tibbiyyəyi Şahanə) şagirdləri 3 iyun 1889-cu ildə öz aralarında "İttihadi Osmani" adlı bir cəmiyyət qurdular. Həmin il Parisdə olan Jön türklərin

lideri Əhməd Rza bəy ilə təmas quraraq, cəmiyyətin adını dəyişib, "Osmanlı İttihad və Tərəqqi Cəmiyyəti" qoydular. Bu cəmiyyəti quran gənclərin hamısı Osmanlı Dövlətinin çöküşünü dayandırmaq istəyirdilər. Aralarında Ohrili İbrahim Temo, Ərəbgirli Abdullah Cövdət, Diyarbəkirli İshaq Sükutı, Qafqazlı Mehmet Rəşid, Bakılı Hüseynzadə Əli kimi dostlar qrupunun yaratdığı bu gizli cəmiyyət, duyğusal tərəfdən çox təmkinli və ciddi bir "şagird təşkilatı" xüsusiyyəti daşıyırdı. "İttihad və Tərəqqi Cəmiyyətinin" qurucuları və üzvləri, Osmanlı dövlətində gizli bir hərəkat olması səbəbindən bir çox təhlükələrdən keçdilər. Cəmiyyət 1899-cu və 1902-ci illərdə bir neçə hissəyə bölündü.

Selanikdə, çoxu 3-cü Ordu zabitlərindən olan on adam 1906-cı ildə "Osmanlı Hürriyyət Cəmiyyəti"ni qurdular.[31] Bu cəmiyyətin ilk on qurucu üzvünün ortaq xüsusiyyəti, hamısının təriqətə mənsub olmaları, çoxunun 3-cü Orduda zabit və bir-ikisini çıxmaqla mason olmalarıdır. Bir başqa xüsusiyyətləri də bu ixtilalçı dəstənin Makedoniya torpaqlarında bir araya gəlməsidir. Bu cəmiyyət Osmanlı dövləti içindəki, ya da xaricindəki bütün cəmiyyətləri qısa müddətdə özünə tərəf çəkdi və onlardan daha irəli getməyə başladı.[32] "Osmanlı Hürriyyət Cəmiyyəti"nin məhdud saylı qurucu heyətinin içində üç adamlıq özək bir ştat var idi. Tələt, Rəhmi və İsmayıl Canpolad bəylərdən ibarət olan bu ştat əvvəlcə "Heyəti-Aliyə" adı ilə bir müddət fəaliyyət göstərdi. Daha sonra da "Mərkəzi-Ümumi" (Ümumi Mərkəz) adını aldı. Cəmiyyət silahlı qüvvələr içində sürətlə tərəfdar tapdı, hərbi və sivil üzvləri çoxaldı və qısa müddətdə ixtilalçı bir güc halına gəldi.

Finlandiya körfəzindəki Revel (bugünkü Tallin) limanında İngiltərə kralı VII Eduard ilə Rus çarı Nikolay 9 iyun 1908-ci ildə bir araya gəlmişdilər. Hər iki hökmdar bu toplantıda Orta Şərq və Uzaq Şərqin bölüşdürülməsi və aralıq bölgələr təşkil olunması mövzusunu gündəmə gətirdilər. Bu xəbərin Osmanlı dövlətində duyulmasından sonra ixtilalçı gənc zabitlər qısa müddətdə hərəkətə keçdilər. Bu görüşmədən təxminən bir ay sonra 23 iyul 1908-ci ildə II Məşrutəçiliyi, ya da o dövrdə deyildiyi kimi, "Hürriyyət"i elan etdirdilər. Sultan Əbdülhəmid məğlubiyyəti qəbul etmək məcburiyyətində qalmışdı. Mərkəzi Selanikdə olan 3-cü Ordu Sultanı yıxmış, ölkədə yeni bir rejimə öncülük etmişdi. İttihad və Tərəqqi adı da Məşrutəçilik ilə birlikdə çəkilməyə başlamışdı.[33]

**6.Bolşevik ixtilalına qədər Rusiya və müsəlmanlar (Türklər):[34]**

Qara dənizin şimalından Çinə qədər olan və bu gün ümumi adıyla Avrasiya coğrafiyası olaraq müəyyən edilən ərazilərdə tarixin ən keçmiş dövrlərindən bu yana müxtəlif türk qövmləri yaşamaqdadır. Bu türk yurdlarındakı Rus hakimiyyəti 1550-ci illərdə başladı. Kazan xanlığının kədərli bir şəkildə yıxılmasından sonra əvvəlcə Tatarıstan, ardından Başqırdıstan, daha sonra da Krım və İdil-Ural boyları Rus çarlığının əlinə keçdi. Bunu Sibir, Qafqaz və Türküstan izlədi. Türk vilayətləri

müxtəlif dövrlərdə bu istila və istismara boyun əyməmişlər və rus istilaçılarına qarşı üsyan etmişdilər. Bu üsyanlarda bəzən qısamüddətli uğurlar oldusa da hər dəfə ruslar tərəfindən qanlı şəkildə yatırılmışdı.[35]

Rus çarlığında 1905-ci il, öz tarixi üçün olduğu qədər əsarət altında tutduğu türk dövlətləri üçün də, demək olar, bir dönüş nöqtəsi oldu. Şərqdə yaponlara məğlub olan Rusiyada "Birinci rus inqilabı" deyilən siyasi gərginlik nəticəsində Çar II Nikolay ölkədə məşrutəçiliyi elan etdi. Bundan sonra Rusiyada mədəniyyət, xəbərləşmə və siyasi sahədə bəzi irəliləyişlər yaşandı.

Rusiyadakı bu yeniliklərdən türklər də faydalandı. Rusiya türkləri arasında "Cədidçilik" adı verilən təhsil və fikir sahəsində bəzi yenilik hərəkətləri yayılmağa başladı. Siyasət, təhsil, mədəniyyət, mətbuat-nəşr, şeir, ədəbiyyat, teatr, musiqi kimi bir çox sahələrdə bu sərbəstlikdən istifadə etməyə çalışdılar.[36] Yüz illərdir susdurulan, basdırılan, səsini çıxaranların öldürüldüyü Rusiya türkləri arasındakı ziyalı hərəkatları qısa müddətdə barını verməyə başladı. Rusiyada yaşayan türk ziyalıları məşrutəçiliyin elanından sonrakı bir neçə ildə bir çox toplantılar, konqres və konfranslar keçirdilər. Siyasi və mədəni haqlarını dünya ictimaiyyətinə çıxarmağa başladılar. Bu bahar havası 1907-ci ildə gətirilən məhdudlaşdırmalarla sona çatdı. Bir müddət sonra da Birinci Dünya müharibəsi başladı və müharibə illərində siyasi, sosial, iqtisadi və mədəni haqlardan söz etmək mümkün olmadı.

Rusiyada müharibənin gətirdiyi ağır şərait xalqa iqtisadi sıxıntı olaraq əks olundu. Həyatın bahalaşması, yüksək inflyasiya, xüsusilə hərbi sənayenin çökməsi, istehsalın olmaması, asayiş və əmin-amanlığın ortadan qalxması kimi səbəblərə cəbhədəki ordulardan qaçan fərarilər də əlavə olununca, Çar Rusiyası sürətlə çökməyə başladı. Siyasi fəaliyyətlərini gizli davam etdirən partiyalar çarlıq idarəçiliyinin ölkədə siyasi sabitliyi təmin etməməsi səbəbindən bu anarxiya vəziyyətindən istifadə etdilər. Rusiyada inqilabçılar 27 fevral 1917-ci ildə idarəetməni ələ keçirdilər. Çar taxtdan əl çəkdi. Fəqət inqilabçıların qurduğu keçici hökumət də Rusiyada asayiş və əmin-amanlığı təmin etməyə çətinlik çəkirdi. 1917-ci ilin fevralından oktyabrına qədər Rusiya tarixinin görmədiyi şəkildə ortaya çıxan demokratik mühit qısa müddətdə anarxiya və xaos gətirdi. Bir tərəfdən cəbhələrdəki ordularda fərarilər artarkən, digər tərəfdən siyasi iqtidar mücadiləsi də davam edirdi. İnqilabçıların menşevik və bolşevik qanadları, liberal kadetlər və bir çox qruplar, qarşılıqlı bir siyasi mücadiləyə girmişdilər.

Rusiyada çarın hakimiyyətdən çəkilməsindən sonra ortaya çıxan hürriyyət havasından türk ziyalıları da faydalanmaqda gecikmədilər. Millətin müqəddəratına istiqamət verə biləcək çox az sayda türk ziyalıları arasında siyasi və fikri baxımdan birlik yox idi. Çünki hər hansı bir hazırlıqları yox idi. Siyasi, sosial və mədəni sahələrdə fərqli görüşləri müdafiə edirdilər. Buna rəğmən Rusiya türkləri öz

aralarında və məhəlli səviyyədə gələcəkləri haqqında mübahisə etməyə, daha doğrusu, sıxıntılarını dilə gətirməyə başlamışdılar.

Fevral inqilabının ilk günlərindən etibarən Krımda Ağməscid (Simferopol), İtil-Ural bölgəsində Kazan, Ufa, Orenburq, Astraxan, Bakı və Daşkənddə milli səviyyədə siyasi və sosial fəaliyyətlər başladı. Türk ziyalıları bir yandan da qəzet və jurnal çıxarırdılar. Bəziləri milliyyətçi, bəziləri də sosialist və liberal cərəyanları təmsil edən qruplar təşkil etdilər. Bunların bir qismi "Milli Mərkəz", "Milli Şura", ya da "Müsəlman Mərkəzi Şurası" kimi adlar altında təşkilatlanmağa cəhd göstərirdilər.

Qafqazda yaşayan türklər və müsəlmanlar isə 1917-ci ilin aprel ayında Bakıda bir toplantı təşkil etdilər. Bu böyük qurultaya Azərbaycan, Ermənistan, Gürcüstan, Dağıstan və Şimali Qafqazdan nümayəndələr qatıldı. Qurultayda Qafqazda yaşayan müsəlmanların siyasi gələcəyi və rus inqilabından nə gözlədikləri müzakirə olunacaqdı. Qafqazın ən önəmli iki quruluşu qurultayda ağırlığını dərhal hiss etdirdi. Milliyyətçi qanadı M.Ə. Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat Xalq Partiyası", İslamçı qanadı Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi "Türk Ədəmi-Mərkəziyyət Partiyası" təmsil edirdi. Qurultaya qatılan Əlimərdan bəy Topçubaşov kimi liberallar da milliyyətçiləri dəstəkləyirdi. Marksist və sosialistlər isə N.Nərimanovun rəhbərlik etdiyi "Hümmət Partiyası"nın ətrafında toplanmışdılar.[37]

Qurultayda milliyyətçilər, islamçılar və sosialistlər qarşılıqlı bir fikir münaqişəsi aparırdılar. Milliyyətçilər Rusiyada yeni idarə forması olaraq "hər bölgədə federasiya prinsipinə əsaslanan bir respublika" qurulmasını, digər qruplar isə mərkəzi sistemin qorunmasını istəyirdilər. İslamçılar qurulacaq yeni Rusiya dövlətində yaşayan müsəlmanları vahid dini idarə ətrafında toplaya biləcəklərini düşünürdülər.[38] Hərarətli mübahisələrdən sonra konqres Rusiyada federativ əsasa dayanan respublika sisteminin qurulmasının müsəlman (türk) millətlərin mənfəətinə uyğun olduğuna dair qərar aldı. Federativ əsasının, zamanı gəldiyində, türklərin Rusiyadan asanlıqla qopa bilməsi üçün ilk addım olduğu da bildirilirdi.[39] Fevral inqilabından sonra Rusiya türkləri arasında başlayan milli oyanışı ümumi bir toplantıda dəyərləndirib, gələcəklə və millətin müqəddəratı ilə əlaqəli bəzi qərarları ala bilmək üçün işlər görülməyə başlandı. Bunlar arasında qeyd edilməyə dəyər ən əhəmiyyətli iş olaraq Peterburqda təşkil edilən açıq və xüsusi toplantılar göstərilə bilər.[40]

Dövlət Duması müsəlman qrupu üzvləri, Peterburqda təşkil etdikləri görüşmələrdə Rusiya müsəlmanlarının qurultayını toplama qərarı aldılar. Qurultaya türk və müsəlman əsilli cəmiyyətlərin hər birindən təmsilçi dəvət edildi. Rusiya Ümum Müsəlmanları Qurultayı 1-11 may 1917-ci ildə Moskvada oldu. Qurultaya 900-ə qədər nümayəndə qatıldı. Edilən hərarətli müzakirə və mübahisələrdən sonra

M.Ə.Rəsulzadənin öncülük etdiyi Rusiyanın federal quruluşa dayanan bir dövlət olması ilə bağlı görüşü, mərkəziyyətçi, ancaq mədəni muxtariyyətlə kifayətlənən təklif qarşısında üstün gələrək qurultayda qəbul edildi. Rusiya Müsəlmanları Milli Şurası təşkil edildi və fəaliyyət göstərəcək heyət üzvləri də təyin olundu.

Qurultayın bağlayıcı heç bir gücü yox idi. Bu qurultay yüz illərlə Rusiyanın əsarətində yaşayan türk millətinə mənsub müxtəlif qövm, boy və qrupları təmsil edən vəkillərin bir araya gələrək bəzi siyasi və sosial mövzuları gündəmə gətirmələri və bir şura qura bilmələri baxımından böyük əhəmiyyət daşıyırdı. Konqresdə nitq söyləyənlər arasında mühafizəkarlar, dini cərəyanların təmsilçiləri, liberallar, türk birliyi tərəfdarları, ən ifrat uclara mənsub sosialistlər, kommunistlər, sosial demokratlar da var idi. Qurultayın işində əhəmiyyətli görüşlər ortaya atılmışdı. Fəqət daha sonra ortaya çıxan siyasi irəliləyişlərə baxıldığında "ortaq düşmən" olan ruslara qarşı türk əsilli qrupların birlik olması və türk birliyinə gedən siyasi təşəkkül, ya da dövlət qurma kimi təşəbbüsləri mümkün olmadı. Hər qrup öz mənfəətlərini, bu qrupların liderləri də şəxsi qovğalarını önə çıxardılar. Bu qovğaların nəticəsində paytaxtı St.Peterburq olan Çar Rusiyası daha da müasir bir Rus çarlığı olaraq yenidən ortaya çıxdı. Adı da Sovet İttifaqı oldu.

1. Əhməd Ardel, Türklərin yer üzündə yayılışı və yerləşdikləri sahələrin coğrafi xüsusiyyətləri, Konfranslar, İ (1964), Ankara, 1965, s. 22.
2. Rüşdü, Böyük Hərbdə Bakı yollarında 5-ci Qafqaz piyada firqəsi, 93 saylı "Hərbi məcmuənin 34 saylı tarix qismi, Hərbi mətbəə, İstanbul, 1934, s. 28; Əhməd Ardel, Türklərin yer üzündə yayılışı və yerləşdikləri sahələrin coğrafi xüsusiyyətləri, s. 23.
3. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 26; Rüşdü bəy belə bir müşahidəsini anladır: "Bu bölgədəki dəmiryol vağzalı məmurları üzlərini ağcaqanadlardan qorumaq üçün gecələri, xüsusi olaraq düzəldilmiş on-on beş metr yüksəklikdəki qüllələrdə yatardılar.
4. Akdes Nemət Kurat, IV-XVIII əsrlərdə Qara dənizin şimalındakı türk qövm və dövlətləri, Türk Tarix Qurumu nəşriyyatı, Ankara, 1972.
5. Bu mövzuda daha geniş məlumat üçün bax: Yılmaz Öztuna, İslam Dövlətləri, I c, Ankara, 1989.
6. Fars əsilli Rza Şah Pəhləvi, 1925-ci ildə İrandakı son türk sülaləsini devirərək hakimiyyəti ələ keçirmişdi.
7. Bax: Mehməd Altay Köymən, Toğrul bəy və dövrü, İslanbul, 1976.
8. Bax: Məhməd Altay Köymən, Alp-Arslan və dövrü, Ankara, 1983.
9. Houstma, İraq və Xorasan Səlcuqluları tarixi, (tərc. Qıvaməddin Burslan), Maarif Mətbəəsi, İstanbul, 1943.
10. Bax: Aydın Taneri, Cəlaləddin Xarəzmşah və dövrü, Ankara, 1977.

11. Aka İsmayıl, Teymurilər tarixi, İstanbul, 1994.
12. Faruq Sümer, Qaraqoyunlular, I c, Türk Tarix Qurumu nəşriyyatı, Ankara, 1967.
13. Münir Aktəpə, 1720-1724-cü illərdə Osmanlı-İran münasibətləri və Silahşür Kəmani Mustafa Ağanın "Rəvan Fəthnaməsi, İstanbul, 1970, s. 22-23.
14. İslam Ensiklopediyası, "Azərbaycan maddəsi, Təhsil Nazirliyi nəşriyyatı, II c, İstanbul, 1979, s. 91-117.
15.İslam Ensiklopediyası, "Azərbaycan maddəsi, Diyanət Vəqfi nəşriyyatı, IV c, İstanbul, 1991, s. 317-321.
16. Mirzəbala Məmmədzadə, Milli Azərbaycan hərəkatı, Ankara, 1991, s. XXIX.
17. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 27.
18. Musa Qasımlı, Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, I. hissə, Bakı, 2000, s. 56.
19. Yenə orada, s. 60.
20. Yenə orada, s. 63.
21. Bu mövzuda daha geniş məlumat üçün bax: İhsan İlqar, Rusiyada İ. Müsəlman Konqresi, Kültür Bakanlığı nəşriyyatı, Ankara, 1990.
22. Qasımlı, Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, s. 64.
23. Yenə orada, s. 65.
24. Rusların Türküstanı işğal etməsi və müstəmləkə halına gətirməsi haqqında bax: İsmayıl Qayabalı, Camandar Arslanoğlu, Orta Asiya türklüyünün tarixi və bugünkü durumu, Kümən nəşriyyatı, Ankara, 1978.
25. "Təqvimi-vəqaye, II tərtib düstur, I c, N-194, 15 Aprel 1325.
26. "Təqvimi-vəqaye, II tərtib düstur, I c, N-321, 22 Avqust 1325.
27. Bax: Ziya Güyalp, Türkçülüyün əsasları, (nəşrə haz. Mehmet Qaplan), Kültür Bakanlığı nəşriyyatı, Ankara, 1976.
28. Türk millətçiliyi ideologiyasına bağlı olaraq qurulan Türk ocağı və dərnəklər haqqında bax: Tarıq Zəfər Tunaya, Türkiyədə siyasi partiyalar, İkinci Məşrutəçilik dövrü, I c, 1988, s. 415-416.
29. Tunaya, Türkiyədə siyasi partiyalar, s. 9-11.
30. Bir çox tarixi mənbədə 1900-cü illərin əvvəllərində Tiflis əhalisinin 95 faizinin türk olduğu bildirilməkdədir.
31. Bu cəmiyyətin ilk yeddi üzvü hərbçi, üzü isə sivil idi. Yarbay Bursalı Mehmed Tahir bəy bir nömrəli üzv, minbaşı Nağı bəy (Yücəkük), yüzbaşı Ədib Sərvət (Tür), yüzbaşı və marşal yavəri Kazım Nami bəy (Duru), yüzbaşı Ümər Naci bəy, yüzbaşı İsmayıl Canbolat bəy, yüzbaşı Haqqı Bəha bəy, Mehmed Tələt

bəy (Poçt və teleqraf idarəsi baş katibi, 1917-ci ildə sədrəzəm), Rəhmi bəy (Aslan) və Midhət Şükrü bəy (Bleda).

32. Tunaya, Türkiyədə siyasi partiyalar, s.22.

33. Yenə orada, s. 23.

34. Çar Rusiyasında yaşayan türk soylu xalqların, Sovet İttifaqında olduğu kimi, üzləri üçün türk kəlməsini işlətmələri yasaqlanmışdı. Bunun əvəzinə azəri, qazax, qırğız, tatar, altay, saxa-yakut, başqırd və s. kimi adlar verilirdi. Əsas olaraq da "Rusiya müsəlmanları təbiri işlədilirdi.

35. Bu mövzuda daha geniş məlumat üçün bax: Timurbek Dövlətşin, Sovet Tatarıstanı, (tərc Mehmet Əmircan), Kültür Bakanlığı nəşriyyatı, Ankara, 1981.

36. İlqar, Rusiyada İ. Müsəlman Konqresi, s. 1.

37. Nəriman Nərimanov (1871-1925). Tiflisdə doğuldu. Bir müddət Tiflisdə müəllimlik etdi 1902-ci ildə gizli Hümmət bolşevik təşkilatına girdi. Rus çarlığının çökməsindən sonra Bakıda Əzizbəyov, S. M. Əfəndiyev, D. Bünyadzadə, Q. Sultanov kimi kommunistlərlə Hümmət bolşevik təşkilatında açıq siyasi fəaliyyət göstərdi. "Hümmət qəzetində məqalələr yazdı. 28 may 1918-ci ildə qurulan müstəqil Azərbaycan Cümhuriyyətinin yıxılmasında, 28 aprel 1920-ci ildə Rusiya Qızıl Ordu qüvvələrinin Azərbaycanı işğal etməsində və kommunist-bolşevik ixtilal komitəsində aktiv olaraq çalışdı. 1921-ci ilin may ayında Azərbaycan Sovet Sosialist Respublikası Milli Komitəsi sədrliyinə gətirildi.

38. Toplantıda iştirak edən tərəflərin görüşləri və müzakirələr haqqında bax: Mirzəbala Məmmədzadə, Milli Azərbaycan Hərəkatı, s. 48-50.

39. İlqar, Rusiyada 1. Müsəlman Konqresi, s. 3; Məmmədəmin Rəsulzadə, Xosrov Sultanov, Şəmkirli Əli bəy, Şəfi bəy, Məmməd Sadiq Aran, Mirzəbala kimi türkçülər bu görüşün hərarətli tərəfdarları idi.

40. İlqar, Rusiyada I. Müsəlman Konqresi, s.7; Peterburqda Mustafa Çokayoğlu, İlyas Alkin azəri Ələkbər Topzubaşı və Əlimərdan Topçubaşı, türkmən Kakacan Berdiyev, kazak İsa Kaçkınbay, tatarlardan Sultanbek Mamlı, Mustafa Şahqulu, Əlixan Bükeyxan kimi türk ziyalıları, Peterburq İslamları Cəmiyyəti-xeyriyyə binasında sıx-sıx toplanırdılar. Səlim Giray Cantürin ilə Aliasyar Sırtlanov və Əminə Sırtlanovanın evlərində də özəl toplantılar təşkil edərək rus inqilabının nəticələrinin necə olacağını müzakirə edirdilər.

# I HİSSƏ

## BİRİNCİ DÜNYA MÜHARİBƏSİ

**I.Osmanlı dövlətinin müharibəyə girməsini hazırlayan hadisələr:**

Osmanlı dövləti 1911-ci ildə italyanların Liviyanı (o zamankı adıyla Trablisqərb) işğal etməsiylə böyük bir sarsıntı yaşadı. Liviya Osmanlı dövlətinin Afrikadakı son torpağıydı. Trablisqərb vilayətinin 1912-ci ildə əldən çıxmasından sonra orada qalan bəzi türk zabitləri Şeyx Sünusi və qəbiləsiylə birlikdə italyanlara qarşı vuruşurdu. Bunun ardından bolqarlar və Rumıniyadakı azlıqlar da üsyan etdilər. Balkanlardakı bu zəlzələnin arxasında isə ruslar dururdu.

Osmanlı dövləti bu şəkildə ağır itkilər verərək 1914-cü ilə gəldikdə, Ənvər Paşa dövlət və partiya vəzifəliləri arasından məlumat toplama və əməliyyat qabiliyyəti də olan Təşkilati-Məxsusə adlı gizli bir təşkilat qurmuşdu. Bu gizli quruluş Türkçülük, Turançılıq, Panislamist ideyaları gerçəkləşdirmək üçün işlər görməyə başlamışdı. Bu təşkilatın rəhbərləri və məlum isimləri ilə bunların fəaliyyət sahələri belə idi:

***1.Mərkəz qrupu:***

Başında əvvəlcə Süleyman Əsgəri bəy dururdu. Bu vəzifəyə sonradan Hüsaməddin bəy gətirildi. Bütün qruplar və Anadolu buraya bağlı idi.

***2.Afrika qrupu:***

Başında Ənvər Paşanın qardaşı yarbay Nuru bəy var idi. Cəbəllütarixdən Qızıl dənizə qədər Şimali Afrikada yaşayan müsəlmanları ingilis, fransız və italyanlara qarşı təşkilatlandıracaqdılar, daha sonra üsyan etmələrini və bölgə xalqının Xəlifənin ətrafında birləşməsini təmin edəcəkdilər.

***3.Ərəbistan qrupu:***

Başında İzmitli Mümtaz bəy dururdu və bu qrup da eyni vəzifəni icra edəcəkdi.

***4.Asiya qrupu:***

Başında Quşçubaşı Hacı Sami bəy dururdu. Asiyada yaşayan türkləri və Hind yarımadasındakı müsəlmanları ruslar və ingilislər əleyhinə təşkilatlandıracaqlar və müstəqillik üçün üsyan etmələrini təmin edəcəkdilər. Müstəqillik əldə edildikdən sonra türklərin bir bayraq altında toplanması üçün vacib olan birliyi təşkil edəcəkdi. Başkomandan vəkili Ənvər paşa Türkiyədən ayrıldıqdan sonra Türküstana getmiş və əvvəllər təməlini atdığı bu qrupun başına keçmişdi.

**5. *Balkan qrupu:***

Başında Ohrili Əyyub Səbri bəy var idi. Balkanlarda yaşayan türkləri və müsəlmanları təşkilatlandıracaqdı.[1] Trəblisqərb və Rumıniyada yaşanan faciənin

yaraları hələ soyumamış, Osmanlı dövləti özünü Birinci Dünya müharibəsinin içində gördü.[2] Birinci Dünya müharibəsi Osmanlı dövlətinin parçalanması və Avstriya-Macarıstan imperatorluğuna yaxşı bir dərs verilməsi üçün ortaya atılmışdı. Bu məqsədlə müharibədən əvvəl Baltik körfəzindəki kiçik bir qəsəbədə İngiltərə ilə Rusiya arasında gizli bir müqavilə də olmuşdu. Bu gizli müqavilənin sənədləri Rusiyada meydana gələn bolşevik inqilabından sonra açıqlanmışdı.

1914-cü ilə gələnə qədər bəzi dövlətlərin türk və islam aləmi ilə dünyaya baxışını da qısaca xülasə etməkdə fayda var.

***a.İngiltərə:*** İngiltərənin Şərq ölkələrindəki mənfəətlərinin sərhədi, Osmanlı dövlətinin şərq hüdudlarından başlayırdı. Müstəmləkələrinə gedən yol da Süveyş kanalı daxil olmaqla Osmanlı torpaqlarından keçirdi. Rusiya ilə Türkiyə arasında siyasi və ya hərbi bir anlaşılmazlıq, ya da savaş ortaya çıxınca, mənfəətləri üçün dərhal Osmanlı dövlətinin yanında yer alırdı. İngiltərə, İstanbul ilə Osmanlı idarəçiliyi altında olan qeyri-müsəlmanlar, ya da o biri islam cəmiyyətləri və xüsusilə ərəblər arasında bir anlaşılmazlıq ortaya çıxdığı zaman da Sultana qarşı bunları dəstəkləyirdi. Osmanlı dövlətindən ayrılıb müstəqil dövlət qurmaq istəyən azlıqları və bunlara aid gizli təşkilatlarını bəzən örtülü, bəzən də açıqca dəstəkləmiş, irəlidə özünə minnətdar qalacaq dövlətlər qurulması üçün cəhd göstərmiş, bu birlikləri himayəsinə almışdı.

***b.Rusiya:*** Rus çarları dəli Pyotrun vəsiyyətinə görə, Hindistan, Bəsrə körfəzi və Aralıq dənizini nəzarət altına alaraq, dünyaya hakim olma ideyasını dövlətin təməl ideologiyası halına gətirmişdilər. Bu düşüncədən hərəkət edərək, Türküstanı işğal etmişlər və Hindistana çatmaq yolunda əhəmiyyətli bir addım atmışdılar. Türküstanın ələ keçirilməsindən sonra uzun illər boyu Osmanlı dövlətini bölüb, parçalayaraq udma, ya da himayəsinə alma və ya tamamən ilhaq etmə siyasəti izləmişdi. Rusiya tarix boyu Orta Asiya və Qafqazda yaşayan türklərə qarşı olduğu kimi, bu üç siyasət tərzindən birini və ya eyni anda üçünü birdən Osmanlı dövlətinə qarşı tətbiq etməyə çalışmışdır. Rusiya "isti dənizlərə çıxma" siyasətinin birinci addımı olan Balkanlar ilə İstanbul və Çanaqqala boğazlarını ələ keçirərək, Aralıq dənizini nəzarət altına almaq, ikinci addımını təşkil edən Qafqaz, Azərbaycan və İran üzərindən Bəsrə körfəzinə çatmaq hədəfindən heç bir zaman vaz keçməmişdi. Rusiyanın bu iki təməl hədəfinə çata bilmək üçün qarşısındakı tək əngəl isə Osmanlı dövləti idi. Bu baxımdan əvvəlcə Osmanlı dövlətinə və bilavasitə hədəflərinə çatmaq üçün Türkiyəyə yardım edən İngiltərə və Fransa dövlətlərinə qarşı da düşmənçilik güdmüşdü. Xüsusilə 1850-ci illərdən sonra Balkanlardakı slavyan əsilli xalqlara və Qafqazda da ermənilərə qarşı qoruyucu və dəstəkləyici bir siyasət tətbiq etmişdi. Beləliklə, yuxarıda xülasə etməyə çalışdığımız üç ana siyasətinin yanına dördüncüsünü əlavə etmişdi. Bu da "Balkanlar və Qafqazda Rusiyaya minnətdar dövlətlər yaratmaq və avropalılarla

birləşərək Osmanlı dövlətini paylaşmaq" şəklində xülasə edilə bilir. Rusiya xülasə etməyə çalışdığımız siyasi hədəfini həyata keçirə bilmək üçün 1900-cü ildən etibarən bütün gücünü bu sahəyə vermişdi.

***c.Fransa:*** Bu dövlətin siyasəti İngiltərə ilə oxşar idi. Fransa Qanuni Sultan Süleyman dövründən Krım müharibəsinə (1535-1856) qədər keçən müddətdə Orta Şərqdə əhəmiyyətli rol oynamışdı. Ancaq bu tarixlərdən sonra Aralıq dənizi və Orta Şərqdə Fransanın yerini İngiltərə almışdı. İngilislərin önə çıxmasını qısqanclıqla izləyən Fransa bu dövlətin Orta Şərqdə rəqibi halına gəlmişdi. Bu rəqabət nəticəsində İngiltərə Orta Şərqdə yəhudiləri, ermənilər və ərəblərdən bəzi qrupları dəstəkləyirdi. Fransa isə bir tərəfdən Livan ilə Suriyadakı ərəblərə dəstək verir, digər tərəfdən də ingilislərə qarşı türklərin yanında yer alırdı.

***d.Almaniya:*** Berlindəki rəhbərlər XVIII yüzillikdə Balkanlardakı bəzi qeyri-müsəlman xalqlarla az da olsa əlaqə qurmuşdular. Fəqət 1878-ci ildə imzalanan Ayestefanos və Berlin müqavilələrindən sonra Osmanlı dövlətinin torpaqları və şərq xalqları ilə daha yaxından maraqlanmağa başladılar. Almaniya bu tarixlərdən sonra "Şərqə doğru" siyasəti inkişaf etdirdi. Berlindən Vyanaya, oradan Sofiya və İstanbul üzərindən Bağdada uzanan bir siyasət yeritməyə başladılar. Gizli arzularına çatmaq üçün Osmanlı Dövləti ilə Berlin-Bağdad dəmir yolu xəttinin çəkilməsi ilə əlaqədar bir müqavilə imzalamaq istəyirdilər. Dəmir yolunun inşası və idarəsinin imtiyazını almaq surətiylə hədəflərinə bir addım daha da yaxınlaşmış olacaqdılar. Almanlar Berlin-Bağdad dəmir yolu imtiyazını alaraq, Orta Şərqdəki xam maddəni ölkəsinə daşımağı və məhsulu da bölgəyə asanca çatdırmağı hədəfə alırdı. Bu mənfəətlərini sürdürmək üçün bir tərəfdən Rusiya, digər tərəfdən İngiltərə və Fransaya qarşı Osmanlı dövlətini nəzarət altında saxlamağa çalışırdı. Müharibənin olması halında bu mənfəətlərini qorumaq və davam etdirə bilmək üçün dəmir yolu vasitəsilə əsgərlərini Avropadan Bəsrə körfəzi və Hind okeanı ilə Uzaq Şərqə asanca daşımağı hesablayırdı.

***e.İtaliya:*** Bu dövlət milli birliyini 1900-cü illərə doğru təzəcə tamamlaya bilmişdi. İtaliya cəmiyyətdə gərəkli razılaşmanı təmin etdiklərinə inandıqdan sonra ata-babalarından qalan müstəmləkəçilik ruhunun vacibliyini həyata keçirməkdə gecikmədi. Aralıq dənizi bir güc halına gəlincə, Orta Şərqdəki ən yaxın torpaqlara qarşı hərəkətə keçdi. Əvvəlcə Osmanlı dövlətinə aid olan Trablisqərb və ardından da Adalar dənizindəki (Egey dənizi) 12 adanı işğal etdi. Orta Şərq və Türkiyədən daha artıq pay tutmaq üçün də İngiltərə və Fransanın yanında yer aldı.

Eyni coğrafiyada gözü olan və milli mənfəətləri Osmanlı dövlətinə aid torpaqlar üzərində toqquşan bu dövlətlər, hədəflərinə necə çatacaq, bunu hansı yolla əldə edəcəkdilər? Bu dövlətlər ya anlaşacaqlar, ya da savaşaraq hədəflərinə çatacaqdılar. Rusiya və İngiltərə milli mənfəətləri naminə öz aralarında gizli

anlaşmalar əldə etdilər. Müharibəni başladıb, almanları xaricdə buraxdılar. Müharibə başlamadan əvvəl əldə edilən anlaşmalar müharibə əsnasında da davam etdi.[3]

Osmanlı dövləti tərkibindəki böyük bir zona yaxınlaşmaqda olan Birinci Dünya müharibəsində bitərəf qalmağı istəyirdi. Buna qarşılıq olaraq bəzi zonalar dövlətin müharibəyə girməsi üçün böyük bir lobbiçilik fəaliyyəti göstərirdi. Fəqət bitərəf qala bilmək üçün iqtisadi və siyasi baxımdan qüvvətli, hərbi baxımdan da hər an müharibəyə hazır olunması lazım idi. Osmanlı dövlətində isə bu mənada bir güc və qüvvət yox idi. Bundan başqa müharibədən qaçılması da mümkün deyildi. İngiltərə və Rusiya türklərin tarixi düşməni vəziyyətində idi. Nəticə olaraq onu demək olar ki, İngiltərə, Uzaq Şərq və Hind okeanında olan əhəmiyyətli bölgələri işğal etmiş, müstəmləkə halına gətirmişdi. Sənaye və texnologiyanın inkişafı nəticəsində ehtiyac duyduğu duru yanacağı rahatca təmin edə bilmək üçün neftin hasil edildiyi torpaqları da ələ keçirmək istəyirdi. Qarşısındakı tək əngəl də Osmanlı dövləti idi. Rusiya isə Böyük Pyotrdan bu yana Boğazlar yolu ilə Aralıq dənizinə açılmaq istəyirdi. Qafqaz üzərindən də Bəsrə körfəzinə hakim olmağa çalışırdı. Rusların qarşısında da tək əngəl olaraq yenə Osmanlı dövləti var idi. Almanlar isə dünya hakimiyyətini ingilislərə buraxmaq istəmirdilər. Müstəmləkələrdən pay almaq üçün cəhd göstərirdilər.

İngiltərə-Fransa-Rusiya ittifaqı və öz aralarındakı gizli anlaşmalar dünya ictimaiyyətinə sızırdı. İngiltərənin isə qurduqları bu ortaqlığa Osmanlı dövlətini qəbul etmək istəmədiyi siyasi görüşlərlə də kəskin şəkildə aydın oldu.

Sədrəzəm Prens Səid Halim Paşa İttifaq dövlətlərinin yanında, yoxsa Antanta dövlətlərinin sırasında müharibəyə girilməsinin müzakirə olunduğu və siyasi təmasların davam etdiyi bir dövrdə Saray baş katibi Əli Fuad bəyə belə demişdi:

"Sizə olduqca məhrəm bir sirr söyləyəcəyəm. Bunun yayılmaması lazımdır. Başımıza gələn fəlakətlərdən sonra bir müttəfiq tapmaq üçün hər tərəfə baş vurduq. Yunanıstan belə bizi ittifaqına almadı. İndi Üçlər İttifaqına daxil olmaq üçün ortaya birfürsət çıxdı. Bu fürsət bəlkə də dövlətin gələcəyini qurtaracaqdır. Almanlarla ittifaq qura bilmək üçün müzakirələrə başlamaq üzrəyik"[4]

Osmanlı dövləti addım-addım gələn müharibədə bir müttəfiq tapa bilmək üçün almanlarla təcili bir müqavilə imzaladı. Müqaviləyə Türkiyə adından Sədrəzəm Səid Halim Paşa imza atmışdı. Bağlanan bu müqavilədən yalnız Sultan Mehmet Rəşad ilə Sədrəzəm Səid Halim Paşa, hərbiyyə naziri Ənvər Paşa, Daxili işlər naziri Tələt Paşa və Məclisi-Məbusan sədri Xəlil bəyin xəbəri vardı. Məsələ ilə əlaqəli bir anlaşma imzalanıb imzalanmaması Nazirlər Heyətində və Məclisdə gündəmə gəlməmiş, mövzu geniş müzakirə edilməmişdi. Görüləcək bir iş qalmadığını görən bəzi nazirlər və millət vəkilləri heç olmazsa bundan sonra

müharibəyə qatılmaq üçün tələsməməyi məsləhət görürdülər. Fəqət İttihad və Tərəqqi Partiyası iqtidarı heç kimi dinləmirdi. Öz aralarında qurduqları kiçik bir heyət ilə dövləti idarə etməyə çalışırdılar.[5]

Osmanlı əsgər və sivil ziyalıları tərəfindən qurulan İttihad və Tərəqqi Cəmiyyəti II Məşrutəçiliyin elan edilməsində ən əhəmiyyətli vəzifəni öhdəsinə götürmüş və Sultan II Əbdülhəmidi taxtdan endirmişdi.[6] İdarəçiliyə hakim olan bu cəmiyyət daha sonra partiya olaraq dövlətin müqəddəratına istiqamət vermişdi. Ancaq rəhbərlərinin kifayət qədər bilik, bacarıq və təcrübəyə sahib olmadıqları və partiya içində bəzi azlıqların və millətlərarası açıq və ya gizli cəmiyyət üzvlərinin də təsirli olması səbəbilə Osmanlı dövləti sürətlə bir anarxiya mühitinə sürükləndi. Dövlət bu dövrdə Şimali Afrika və Balkanlarda çox əhəmiyyətli torpaqlarını itirdi. Bu da yetməzmiş kimi Birinci Dünya müharibəsinə girmək məcburiyyətində qaldı.[7] İttihad və Tərəqqi liderlərinin müharibə siyasətini və strategiyasını idarə edəcək qabiliyyət və təcrübədən məhrum olduqları qısa müddətdə ortaya çıxdı. Bu və buna oxşar səbəblər üzündən 1914-cü ildə dünyanın ilk beş ölkəsi arasında yer alan Osmanlı dövləti dörd il içində, yəni 1918-ci ildə ordusu məğlub olmuş və dağıdılmış, vətəni parçalanmış və işğal edilmiş, evi, yurdu yandırılmış, xalqı qətlə yetirilmiş bir durumdaydı.

Osmanlı dövlətini idarə edən İttihad və Tərəqqi Partiyasının liderləri Almaniyanın mütləq qalib gələcəyini düşünərək müharibəyə qoşulmuşdular[8]. Türk tarixində **"Üç paşalar"** olaraq da qalan bu liderlərdən Tələt Paşa "Baş vəkil"[9]. Ənvər Paşa "Hərbiyyə naziri və Başkomandan vəkili", Camal Paşa da "Bəhriyyə (Dəniz Qüvvələri) naziri" vəzifələrində çalışırdılar. İttihad və Tərəqqi Partiyası liderləri dövlət təşkilatında və dövlət daxilində ingilis-rus ortaq əməllərinə və bunlara xidmət edən yerli əməkdaşlara qarşı gərəkli tədbiri də vaxtında ala bilməmişdilər.[10]

Müharibənin davam etdiyi dörd il boyunca türk ordusu bir çox müvəffəqiyyətlər əldə etdi, dünyanı sarsıdan önəmli müharibədə qalib gəldi. İstər ingilislər, istərsə də almanlar Birinci Dünya müharibəsinin başlanmasına bir neçə ay qalmış yoğunlaşan siyasi görüşlərdə türk ordusunun heç bir varlıq göstərməyəcəyinə inanırdılar.[11] İngilislərin "xəstə adam" deyə xarakterizə etməyə çalışdığı Osmanlı dövləti və türk millətinin içindən çıxan Mehmetçik, başda Çanaqqala olmaqla, Avropada Qaliçya, Ərəbistan yarımadasında Yəmən, Məkkə, Mədinə, Sina, Fələstin, Suriya, Kanal (Süveyş kanalı), İraqda Bəsrə, Qutülamara, Bağdad və Mosul-Kərkük bölgələrində üstün düşmən qüvvələrinə qarşı aparılan qanlı müharibələrdən hər dəfə zəfərlə çıxmışdı. Ancaq türklərlə eyni dinə mənsub olan ərəblərin ingilislərlə əməkdaşlığa gedə biləcəyini heç düşünməmişdi, ya da hesablaya bilməmişdi.

Şərqi Avropada alman və bolqar cəbhələrinin çökməsi Osmanlı dövlətini çətin vəziyyətdə qoydu. Osmanlı ərkani-hərbiyyəsini (hərb xadimlərini) dərindən sarsıtdı. Almanlar 1914-cü ilin yay aylarında türk əsgərinin müharibədə heç bir müvəffəqiyyət əldə etməyəcəyinə inanarkən 1918-ci ildə və yenə yay aylarında alman orduları bütün cəbhələrdə çökmüş, dağılmış və məğlub olmuşdu. Müharibənin sonuna doğru 1918-ci ilin yay aylarında Almaniya, Avstriya-Macarıstan və Bolqarıstan hərbi qüvvələrinin məğlub olması nəticəsində ingilislər bütün qüvvələrini türk cəbhələrinə sövq etdilər. İngilislər fransızlarla bir olub, Ərəbistan yarımadasını, Suriyanı və İraqda Mosula qədər olan bölgəni ələ keçirdilər. İngilis və fransızların özlərinə görə bu müvəffəqiyyətində "din qardaşlarımız" olan ərəblərin yardımının da unudulmaması gərəkdir.

**2. Birinci Dünya müharibəsində Qafqazın durumu:**

Rus çarlığı 1804-cü ildə Gəncəni işğal etdi. Türk dünyasının yetişdirdiyi böyük şair, ədib və filosof Nizaminin yurdu alındıqdan sonra imperialist Rusiya bölgədəki varlığını yaxşıca şiddətləndirdi. Bundan sonra heç bir ciddi əngəllə qarşılaşmadan Cənubi Qafqazı tamamən ələ keçirdi. Cənubi Azərbaycan və İrandakı hakimiyyət bir türk sülaləsinin əlində idi. Bu idarə ilə Rusiya arasında bağlanan Türkmənçay müqaviləsi Qafqazda yaşayan türklər üçün yeni bir dönüş nöqtəsi oldu. Xüsusilə 1818-ci ildən sonra ruslar Cənubi Azərbaycan və Şərqi Anadoluda yaşayan bəzi erməniləri Bakı, Göyçəgöl, İrəvan, Qarabağ, Gəncə kimi bölgələrdə yerləşməyə təşviq edirdi. Rusiya, beləliklə, Osmanlı dövləti ilə İran arasında əhalisinin çoxu ermənilərdən ibarət olan bir bitərəf bölgə yaratmağa çalışırdı. Ruslar bu tarixdən etibarən bölgədə təzyiq və şiddəti bir dövlət siyasəti halına gətirdi. Qafqazda yaşayan milli qrupları bir-birinə qarşı qoymaq üçün planlar tətbiq etdi, bölgədəki xalqların sistemini davamlı olaraq pozdu. Qurduğu polis dövləti, ya da diktatorluqla insanların əsas haqq və hürriyyətlərini ortadan qaldırdı, bölgəni, istismar edəcəyi və zənginliklərini talan edəcəyi bir sahə halına gətirdi. Rus çarlarının Qafqazda tətbiq etdiyi rejim xristianlara qarşı daha mərhəmətli idi, ancaq türk və müsəlman xalqlarına qarşı təzyiqedici və insafsız bir idarə şəklində idi.

Türk və müsəlman olanlar dövlət məmurluğuna və xüsusilə əsgərliyə qəbul edilmirdi. İmperialist Rusiya türklərin əsgərlik sənətini öyrənəcəyi təqdirdə yenidən təşkilatlanaraq cəmiyyətdə əvvəldən bəri var olan və sönməyən müstəqillik atəşini körükləmək istəyəcəklərindən əndişələnirdi. Bunun üçün müstəqillik hərəkatlarına qarşı son dərəcə həssas və acımasız davranırdı.

Ruslar Qafqazda yaşayan türklərin milliyyətçilik hərəkatlarını və müstəqillik istəklərini nəzarət altında saxlamaq və yatırmaq üçün bölgədəki qeyri-müsəlmanlardan da istifadə edirdilər. Gürcülər və xüsusilə də ermənilər, məzhəbləri və kilsələri ruslardan fərqli olsa da eyni dinə mənsub olduqlarına görə

çarlıq idarəsində çox rahat yaşayırdılar. Bununla bərabər, rus və ermənilərin ortaq məqsədləri də türk düşmənliyi üzərində qurulmuşdu.

Ermənilər Rus çarlığı idarəsinin Qafqazdakı sadiq müttəfiqi vəziyyətinə gəlmişdilər. Dövlət idarəsi ilə polis xidmətləri və əsgərlikdə vəzifə ala bilirdilər. Qafqaz və Anadoluda Osmanlı dövlətindən qoparacaqları torpaqlarda Böyük Ermənistan dövləti yaratmağa çalışırdılar. Bunun üçün Qərb dövlətlərinin də dəstəyini alırdılar. Qafqazdakı bu ortaqlıqda ruslarla ermənilərin bir çox istək və arzuları da üst-üstə düşürdü.

Rusiyanın uzun illərdir işğal altında saxladığı Orta Asiya, Sibir, Qafqazda və digər bölgələrdə yaşayan türklər Rus çarlığının zəif nöqtəsi idi. Bu bölgələrin müstəqillik üçün üsyan edəcəyi Rusiyanın ən qorxulu röyasıydı. Bu üzdən türklərin müstəqillik istəklərinin qarşısının alınması əsas bir hədəf idi. Ayrıca və bəlkə də ən önəmlisi Rus çarı Böyük Pyotrun "isti dənizlərə çıxma" vəsiyyətinin həyata keçirilməsi üçün ermənilərdən istifadə edilməsi lazım gəlirdi.

Beləliklə, deyə bilərik ki, rus və ermənilərin milli ideologiyalarının əsasında duran ortaq ana düşüncədə türk millətinə və türkçülüyə qarşı düşmən olmaq ilk şərt idi.

Ermənilər 1905-ci və 1906-cı illərdə Qafqazın bir çox bölgəsində Bakı və Naxçıvanda eyni vaxtlarda terror, adam öldürmə, basqın, soyğunçuluq hərəkətləri etmişdilər. Geniş bir coğrafiyada başladılan hücumun hədəfində isə türklər dururdu. Ermənilər, beləliklə, Qafqazda yaşayan türklərə qarşı etdikləri hücumlarla Rus çarlığına olan sədaqətlərini də isbatlamağa çalışırdılar.

Qafqazda yaşayan türklər arasında gedərək yüksələn milliyyətçilik istəklərinin yatırılması gərək idi. Rus çarlığı hürriyyət hərəkatlarının qarşısının alınması üçün ermənilərdən istifadə edir, ermənilər isə türklərin canına və malına zərər verməyi bir "ibadət" olaraq qəbul edirdilər. İdeologiyalarının əsasını türk düşmənçiliyi təşkil edirdi. Bu anlayışdan bəslənən terror hərəkətləri erməni millətçilərini daha da azğın və təcavüzkar hala gətirirdi.

Ermənilər rus çarlarına sədaqətlərini Birinci Dünya müharibəsi illərində də isbatlamağa çalışdılar. Osmanlı dövlətinin yıxılması üçün başlanan bu müharibə ermənilərin ümidlərini daha da artırmışdı. Erməni Daşnaksütyun partiyası səlahiyyətliləri 1913-cü ilin sentyabr ayından oktyabr ayının ortalarına qədər İsveçrənin Cenevrə şəhərində bir qurultay keçirdilər. Qurultay İstanbulda ölən Semyon Zavaryanın dəfn mərasiminə qatılmaq üçün qısa olmuşdu. Bakıdakı Rus jandarma idarəsi asayiş rəis yardımçısının 05.02.1914 /62 saylı raportuna görə qurultaya qatılanlar bunlar idi: Rusiyadan Aleksandropol meşşanı Libarik Avetisyan, Tiflis meşşanı Levon Arakelyan və Zoryanç, Türkiyədən Vahan Papazyan, Aram Vramyan, Artun Şirinyan, Artaş Azaryan, İrandan Mesropyan və

ABŞ-dan Xaçatur Malumyan. Rumıniya və Bolqarıstandan qatılan təmsilçilər isə rus səlahiyyətliləri tərəfindən müəyyən oluna bilməmişdi.

**Erməni Daşnaksütyun partiyasının qurultayında aşağıdakılar qərara alınmışdı:**

1) Türkiyədə iqtidarda olan İttihad və Tərəqqi Partiyası ilə ittifaqa girilməsi.

2) Osmanlı Məclisi-Məbusanında ən azı 4 təmsilçilik alınması.

3) Osmanlı dövlətində polis və məhkəmə idarələrində bəzi həssas vəzifələrə partiya üzvlərinin yerləşdirilməsi.

4) Şərqi Anadolunu 6 vilayətə bölərək, görüləcək işlərə nəzarət edilməsi və buralarda islahatlar aparılması.

5) Türkiyə və İrandakı partiya səlahiyyətlilərinə Mərkəzi Komitənin icazəsi olmadan illik seçkilər keçirmə səlahiyyəti verilməsi.

6) Partiya pullarının gəliri və çıxarı haqqında bütün bölgələrin Cenevrədəki mərkəzin nəzarətinə tabe olması.

7) Mərkəzi Büronun icazəsi olmadan Mərkəzi komitələrin terror hərəkətləri etməməsi ilə bağlı qadağanın aradan qaldırılması.

8) Terror hərəkətlərinə ara verilməsi haqqında yerli komitələrin qərar ala bilməsi. Əsas əməliyyatların dayandırılmasına isə ancaq Mərkəzi Büronun qərar verməsi.

9) Mərkəzi komitələrin siyahısında, əllərində və anbarlarında olan silahların Mərkəzi Büroya bildirilməsi.

10) Mərkəzi komitələr ilə vilayət komitələri və terror əməliyyatları aparacaq qrupların liderlərinin yenidən müəyyən olunması.

11) Hnçaq partiyası ilə olan anlaşmaya görə Türkiyə Ermənistanında lazım olduğu zaman ermənilərin müdafiəsinin təmin olunması və aparılacaq islahatlara yardımçı olunması.

12) İslahatların aparılmasına yardım edən Rusiya hökumətini məmnun etməyəcək hadisələrin baş verməsinə imkan verilməməsi, idarəçiliyə qarşı olan müstəqil və sosialist-inqilabçı partiyalarla münasibətin davam etdirilməsi, ancaq Rusiya əleyhinə davranış və işbirliyinə heç bir zaman meydan verilməməsi, tətillərdə fəhlə ittifaqına yardımçı olunması.

13) Bütün partizanların (militanların) Türkiyə Ermənistanına keçirilməsi.

14) İslahatlar aparılana qədər Rusiyadakı siyasi yeniliklərin yaxından izlənməsi, buna qarşılıq partiya orqanlarının öz fəaliyyətlərini ən gizli şəkildə həyata keçirməsi.

15) 12-ci maddədə yer alan məqsəd üçün rus sosial-demokrat və anarxist partiyaların Rus çarına qarşı terror əməliyyatları aparmamaları üçün inandırılması.

16) Qafqaza pan-islamçılar adı altında öz adamlarımızı göndərərək, Rusiyaya qarşı müsəlmanların fitnəkarlıq etməsi və üsyana təşviq edilməsi üçün təbliğat aparılmasının təmin olunması. Bunun nəticəsində Rusiya hökuməti tərəfindən türklərə təzyiq və güc tətbiq olunacağı, əsas da bu cəmiyyətlərin zəifləyəcəyi düşünülür. Buna görə də Daşnaksütyun partiyasının Qafqazda aparacağı əməliyyatlarda türklərin ermənilərə qarşı müqavimət göstərməsinin qarşısı alınacaqdır. Bundan başqa, Qafqazda yaşayan türklərlə Anadoludakı türklərinin ermənilərə qarşı birlikdə hərəkət etməsi və birləşməsi istiqamətindəki təhlükə də ortadan qalxacaqdır.

17) Rusiya, İran, Türkiyə və Amerikada ana dilini bilməyən erməni uşaqları üçün məktəblər açılması və ana dilinin qrammatikasının öyrənilməsi üçün kurslar keçirilməsi.

Raportu yazan Rus jandarma məmurları Qafqazdakı pan-islamçı qrupların yaxından təqib olunmasını da istəyirdi.

Bu raporta dair rusların Qafqaz baş valisi Voronsov-Daşkov 10 yanvar 1914/59 tarix və saylı "çox gizli" qeydi ilə əlaqədar şəxslərə göndərdiyi yazıda, Rusiya vətəndaşı olan ermənilərin Osmanlı dövlətində yaşayan ermənilərlə çox ciddi münasibət qurduqlarını bildirərək, Qafqazdakı rus idarəçilərin onlara yardımçı olmalarını əmr etdi. Rusiya hökumətinin Qafqazdakı ermənilərin içərisinə yerləşdirilmiş kadrlarını mühafizə etməsi üçün tədbir alması, bundan başqa ermənilərin Rusiya əleyhinə üsyan etmə ehtimalının da göz önündə saxlaması vacibliyini qeyd etdi. Qafqazda yaşayan ermənilərin Türkiyəyə verə biləcəkləri zərərlərdə nəzarətli davranmaları və ifrata varmamaları üçün lazım olanın edilməsini və bu hadisələrin Rusiyaya aid torpaqlarda dinclik, təhlükəsizlik və asayişi pozacaq şəkildə tərtib edilməməsini istədi. Yazıda ermənilərin edəcəyi təcavüzlərdən və törədəcəkləri hadisələr səbəbindən İstanbulun Rusiyanı cavabdeh tutmaması və etiraz etməməsi üçün tədbirli davranılması, bundan başqa Türkiyəyə girəcək erməni terrorçulara hər hansı bir cəza verilməməsi və beləliklə, "bu asi ruhlu insanlardan Rusiyanın qurtulmuş olacağı" da xüsusilə vurğulanırdı.[12]

Erməni daşnakları yeni bir təşkilatlanma yaratmış və əhəmiyyətli qərarlar almışdılar. Birinci Dünya müharibəsi addım-addım yaxınlaşırdı. Bunun üçün Qafqazda səfərbərlik elan etmişlər və əli silah tutan bütün erməniləri rus qüvvələrinə yardımçı ola bilmək məqsədilə hərbiyə almışdılar. Hədəfləri əvvəlcə Qafqazı türklərdən tamamən təmizləmək və sonra Anadoluya girməkdi.

Eçmiədzin kilsəsi patriarxı V Kevork, rusların Qafqaz baş valisi Voronsov Daşkova[13] 18/5/avqust 1914/1131 tarix və saylı bir məktub göndərmişdi. Bu məktubda İstanbuldakı erməni şurası və erməni kilsəsinin aldığı müstəqillik qərarı çərçivəsində rusların özlərinə yardımçı olmasını istəyirdi. Bundan başqa, bu hədəflərin gerçəkləşməsi üçün istər Türkiyə və istərsə də Qafqazda yaşayan

ermənilərin maraq və mənafelərinin çara ərz edilməsini və çarın da buna sahib çıxması üçün xüsusi təşəbbüs göstərməsini rica edirdi.

Voronsov-Daşkov Rusiya xarici işlər naziri Sazonova 24/11/avqust 1914/445 tarix və saylı bir teleqraf göndərərək, "bəzi kürd liderləri ilə erməni rəhbərlərin Türkiyədə üsyan etmək üçün Rusiyanın yardım etməsi" istiqamətində istəkləri olduğunu bildirdi. Daşkov bu təkliflərə ehtiyatla yanaşmanın gərək olduğunu bildirərək, bunun üçün bəzi tədbirlərə ehtiyac olduğunu və türklərə düşmən kürd və erməni dairələrin su üzünə çıxaraq tamamən bəlli olmasının əhəmiyyətini dilə gətirdi. Bu qruplardan silahlı qruplar təşkil edərək, müharibənin başlaması halında bunlardan istifadə olunmasının gərəkliliyini də qeyd etdi.

Erməni Daşnaksütyun partiyası Birinci Dünya müharibəsinə hazırlaşarkən Osmanlı dövləti də İstanbuldakı erməni xalqı, patriarx və ətrafını yaxından təqib etdi. Erməni dairələrindəki hərəkətliliyi və hadisələri yaxından izləyən dövlət vəzifəliləri düşüncələrini açıq və dürüst bir dillə erməni kilsəsinin məsul şəxslərinə bildirdilər. Birinci Dünya müharibəsində önəmli vəzifələr icra edən hərbiyyə naziri və baş komandan vəkili Ənvər Paşanın əmisi Xəlil (Qut) Paşa, o tarixlərdə İstanbul Mərkəz komandanı idi. Xəlil Paşanın yavəri yüzbaşı *(yüzbaşı: kapitan)* Səlahəddin xatirəsində bu mövzuda aşağıdakıları qeyd edir: "Xəlil Paşanın mənə anlatdığına görə 4 avqust 1914-cü ildə Osmanlı dövləti böyük səfərbərlik elan edincə, o tarixdə Məclisi-Məbusan sədri Menteşe məbusu Xəlil bəyin sədrliyində İstanbul Mərkəz komandanı minbaşı *(minbaşı: mayor)* Xəlilin (Xəlil Paşa) də daxil olduğu bir heyət, hökumət adından erməni patriarxlığına gedərək bunları söyləmişdilər:

- Osmanlı dövləti bir dünya müharibəsinə girmək üzrədir. Bu müharibə dövlətimiz üçün ölüm-qalım məsələsidir. Bunun üçündür ki, dövlət hər tədbirə baş vuracaqdır. Ermənilərin yüz ildən bəri bir dövlət qurmaq üçün çalışdıqlarını və bu yolda Rusiya və ingilislər tərəfindən dəstəkləndiyini bilirik. Bu durum qarşısında təklifimiz budur:

1. Biz bu müharibədə ya qalib gələcəyik, ya da məğlub olacağıq. Əgər bu müddətdə siz bir pislik etməzsəniz və biz də qalib gələrsək, mərkəzi İrəvan olmaqla bir erməni dövləti qurulmasını (Türkiyə-İran-Rusiya torpaqlarında) qəbul edərik. Yox, məğlub olarsaq, onsuz da qalib dövlətlər sizə bunu edəcəklər.
2. Ermənilər düşmənlərimizə yardım edərlərsə, o vaxt Türkiyədəki bütün erməniləri məhv edərik. Qalib gələr və Qafqaza keçərsək, orada eyni davranışı davam etdirərik. Məğlub olsaq da ermənilər üçün heç bir qazanc yoxdur".

Bu təklif qarşısında patriarxlıq ermənilərin müharibə müddətincə tamamən tərəfsiz qalacağını vəd etmiş və "tarixin müqəddəratına baxacaqlarını" söyləmişdir.

Buna rəğmən hadisələr ermənilərin verdikləri sözdə durmadıqlarını və inqilab yoluna baş vurduqlarını göstərdi.[14]

Birinci Dünya müharibəsinin başlamasından dərhal sonra erməni patriarxı V Kevork Voronsov- Daşkova 18/5/ avqust 1914/1131 tarix və saylı bir başqa məktub göndərdi. Məktubda dünyadakı bütün ermənilərin "türklərə qarşı vuruşmağa susadığını" müəyyən edərək, bu arzularının dəstəklənməsini istədi. Voronsov-Daşkov da Rusiyanın baş naziri Kuremikinə 22/9/avqust 1914/1955 tarix və saylı bir "gizli" məktub göndərmişdi. Kuremikin də bu məktubu xarici işlər naziri Sazonova həvalə etdi. Sazonovun buna cavab olaraq Rusiya Nazirlər Heyətinə göndərdiyi 30/17/avqust 1914/1955 tarix və saylı "gizli" məktubda belə deyilirdi:

"Rusiya hökumətinin Türkiyəyə qarşı tətbiq etdiyi siyasət ilə ermənilərin gələcəyi ilə bağlı görüşlərini, Qafqazda yaşayan erməni təmsilçilərinin daha yaxşı anlaması və üsyanın son dərəcə gizli aparılması üçün vacib olanın yerinə yetirilməsi mövzusunda məlumatlandırılmaları yerində olacaqdır. Türkiyə ilə münasibətlərin kəsilməsi halında gələcəkdə istifadə edə bilmək üçün kürdlər və ermənilərlə yaxşı münasibət qurulması lazımdır. Türkiyə ilə münasibətlərin kəsilməsi qaçılmaz olduqda, ya da tamamən kəsilməsi halında istifadə olunmaq üçün sərhəddən silah və sursat keçirilərək, gələcək üçün hazırlıq görülməlidir."[15]

Rusiya Nazirlər Heyətindəki bu olaylara dair Voronsov-Daşkov erməni patriarxına göndərdiyi cavabda Qafqaz ilə Anadoluda yaşayan ermənilərin təşəbbüs edəcəkləri hər hərəkətdə onunla məsləhətləşmələrini və verəcəyi təlimata görə hərəkət etmələrini istədi.

Voronsov-Daşkov Rusiya Xarici İşlər Nazirliyinin də təsdiqini alaraq, Birinci Dünya müharibəsi başladıqdan sonra Tiflis valisinə erməni birliklərinin yaradılması üçün təlimat verdi. Erməni birliklərinin xərclərinin də Rusiya tərəfindən qarşılanacağını bildirdi.

Müharibənin başlamasına qədər keçən dövrdə erməni daşnaklarına məsafəli duran, hətta düşmənçilik göstərən Rusiya beləcə siyasətini dəyişdirmişdi. Erməni silahlı dəstələrini əvvəlcə siyasi yolla dəstəkləməyə başlamış, daha sonra da nəzarəti tamamən ələ keçirərək, Qafqaz və Osmanlı dövləti torpaqları üzərinə salmışdılar. Onların silah, cəbbəxana və hər növ alət və ləvazimatlarla təchiz edilmələrini də təmin etdi. Rusiya hökumətinin bu siyasət dəyişikliyinə görə daşnak liderlər ailələrini də yanlarına alaraq Qafqaza dönməyə başladılar. Əvvəllər Bolqarıstanda olan Andranik də Tiflisdə Voronsov-Daşkov ilə görüşərək, quracağı erməni qüvvələri üçün minlərlə silah, sursat və pul yardımı təmin etdi.[16]

Çarın əmrinə görə, ermənilərlə Rusiyanın Qafqaz Başkomandanlığı arasındakı əməkdaşlıq sürətlə möhkəmləndi. Sazonov, Voronsov-Daşkova Qafqaz bölgəsində təşkil ediləcək erməni və kürd qrupların təlim-tərbiyəsi üçün 26 min tüfəng və on iki milyon mərmi göndərdi.[17] İlk iş olaraq Qafqaz cəbhəsində türklərə qarşı vuruşmaq üçün ermənilər silahlanmağa başladı. Ermənilərdən təşkil edilən bu

hərbi dəstələrə rus ordusu tərkibində ciddi bir təlim verilirdi. Ermənilər ideyalarına çatmaq üçün sonrakı illərdə də vəzifələrini icra edə bilmək üzrə müstəqil hərbi dəstələrinin təməlini də beləcə atmış olurdu. Rus hərbi qüvvələri yanında əsgəri xidmətə cəlb edilən ermənilərin sayı minlərlə idi. Bunlar arasından əsgərlik sənətinə uyğun olanlar döyüşçü sinif olaraq yetişdirilməyə başlamışdı. Çarın fərmanı ilə bunlardan 4 erməni alayı təşkil edildi. Hər alayın tərkibi də 985 nəfərdən ibarət idi.

Ermənilər bununla da kifayətlənmədilər. Rus hərbi qüvvələrinə bağlı olaraq təşkil edilən alaylarla bərabər, müstəqil bir ordu qurmağı da qərarlaşdırdılar. Dünyanın dörd bir yanında yaşayan ermənilər arasında bir yardım kampaniyası başlatdılar. Türkiyə, Rusiya, İran və Avropada yaşayan ermənilər bu kampaniyaya qatıldılar. Rusiyada Rostov, Yekaterinburq, Romanov, Odessa, Don, Bakı, Tiflis və bir çox bölgələrdə yerli komitələr quraraq pul, əşya və ərzaq topladılar. Bu komitələr qurulacaq ordunun Osmanlı dövlətinə qarşı vuruşacaq erməni könüllü dəstələrindən yaranacağını da bildirirlər.[18]

Voronsov-Daşkov raportunda erməni və kürd qrupların silahlandırılması və təlimi üçün gizliliyə böyük önəm verilməsi, çalışmaların yalnız konsullar və hərbi vəzifəlilər tərəfindən aparılması və rusların qəti təlimatı olmadan hərəkətə keçilməməsi gərəkliliyi ilə bağlı əmrlərin əlaqəli şəxslərə bildirildiyini qeyd etdi.

Voronsov-Daşkovun Rusiya xarici işlər naziri Sazonova göndərdiyi 20/7/ sentyabr 1914/760 tarix və saylı məktubundan da aydın olur ki, ermənilərin Osmanlı dövlətinə qarşı Şərqi Anadoluda üsyan etmək üçün hazır olduqları görünür. Daşkov bu raportda Oltu, Sarıqamış, Kağızman və İqdır ilə ətrafdakı qəsəbə və kəndlərdə olan rus hərbi dəstələrinin ermənilərə yardım etməsinin gərək olduğunu bildirdi. Cənubi Azərbaycan bölgəsində isə general Voropanovun, xüsusilə Xoyda yerləşən Rusiya konsulluğu ətrafındakı Xoy və Dilman bölgələrində kiçik qruplar hazırlamağa başladıqlarını yazdı. Buna görə erməni silahlı qruplarının qurulması və təlim-tərbiyəsi Urmiyədə konsul Vedenski ilə polkovnik Andrievskiyə tapşırıldı. Kürd qrupların silahlandırılması üçün də Maku və ətrafında konsul Olferov vasitəsilə Əbdülrəzzaq adında biri çalışmalara başladı.[19]

Türklərə qarşı vuruşacaq erməni könüllü dəstələrinə qatılanların sayı gözləniləndən çox olmuşdu. Voronsov-Daşkov Rusiya Xarici İşlər Nazirliyinə 20/7/fevral 1915/1185 tarix və saylı bir məktub ilə müraciət edərək 15 mindən çox erməninin türklərlə vuruşmaq üçün Qafqaza gəldiyini, Rusiya tərəfindən təmin edilən silahların bunların hamısına çatmadığını bildirdi. Daşkov erməni liderlərə İngiltərə və Fransadan silah təmin edilməsini tövsiyə etdiyini də qeyd etdi. Vorosov-Daşkovun bu təklifi Rusiya Xarici İşlər Nazirliyi tərəfindən 22/9/fevral 1915/708 tarix və sayı ilə London və Parisə göndərildi.[20]

Erməni quruluşlarının Qafqazda təşkil edilməyə çalışılan ordunun silah, sursat və təchizat ehtiyacını qarşılaya bilmək üçün başlatdığı yardım kampaniyası müvəffəqiyyətlə davam edirdi. Bu məqsədlə 1915-ci ildə toplanan pulun 1.450.000 rubl olduğu məlumdur. Toplanan bu, pul ilə 5 yeni erməni alayı quruldu. Beləliklə, Qafqazdakı erməni hərbi dəstələrinin sayını 9 alaya çatdırdılar. Rus ordusundan müstəqil olaraq təşkil edilən bu, 5 erməni alayı 1915-ci ilin aprel ayında İrəvanda bir rəsmi keçid mərasimi (hərbi parad) təşkil etmişdi.

Rusiya Azərbaycanda bir yandan Osmanlı dövlətinə qarşı üsyan etmək və terror əməliyyatlarında iştirak etmək üçün erməni və kürdlərdən ibarət ayrı-ayrı hərbi dəstələr qurur, digər yandan da bölgədəki ermənilər vasitəsilə özləri üçün çox əhəmiyyətli bilgilər toplayırdı. Bu agentlər vasitəsilə türklərin öndə gedənlərini və türkçüləri təqib edir və onlara qarşı təzyiq göstərirdilər. Toplanan bu bilgilərdə Astara camaatının rus və ingilislərə nifrət etdiyi və Osmanlı dövlətinin müharibədən qalib çıxa bilməsi üçün dua etdikləri də yazılırdı. Ənzəlidə isə xalqın və tacirlərin rus savaş gəmilərinin şəhərə gəlməsini istəmədikləri və türk ordusunu dörd gözlə gözlədikləri bildirilirdi. Gilan və Rəşt camaatının isə "kafirlərlə mücadilə etmək" üçün yardım kampaniyaları təşkil etdikləri və hər gün toplanan pulları Osmanlı dövlətinin bölgədəki konsuluna çatdırdığı qeyd edilirdi. Bölgədə yaşayan türklərdən indiyə qədər 3 min adamın Osmanlı dövləti vətəndaşlığına keçərək pasport aldıqlarını, bundan başqa, düşüncə, duyğu və hisslərini türk konsulluğunda açılan dəftərə yazdıqları bildirilirdi.[21]

Rusiya hökuməti erməni casusların hazırladığı raportlara inanmırdı. Rusiya hesabına çalışan erməni agentlərin topladığı bilgilərin öz kadrları tərəfindən də araşdırılması üçün kəşfiyyat mərkəzindən Lənkəran bölgəsi səlahiyyətlisinə gizli bir məktub göndərilmişdi. Buna verilən oktyabr 1914/900 tarix və saylı cavabda belə deyilirdi:

"Türk casusların bölgədəki fəaliyyəti güclüdür. Bəzi türk vətəndaşları həbs edildi. Türkiyənin Təbrizdəki konsulu saxlanaraq Culfaya göndərildi. Almanların isə bölgədə heç bir ağırlığı yoxdur. Bu çalışmalarda İran hökumətinin bizə böyük yardımı var. Rəşt şəhərində 10-u Osmanlıdan, 10-u da Azərbaycan türklərindən ibarət olan və bir müharibə vəziyyətində istifadə olunmaq üçün ianə toplayan komitə üzvləri həbs edilmişdir. Osmanlı dövlətinin Rəşt konsulu yunan əsillidir və həbs olunmalar barəsində heç bir təşəbbüsdə olmamış və bir açıqlama verməmişdir...".[22]

Ermənilər müharibənin ilk illərində Türkiyə ilə bərabər Rusiyada da müstəqillik istəklərini səsləndirməyə başladılar. Qafqazda muxtar bir Ermənistan qurulması üçün hərəkətə keçdilər. Xəstəliyi səbəbindən vəzifəsindən ayrılan Voronsov-Daşkovun yerinə Qafqaz baş valiliyinə təyin olunan Nikolay Nikolayeviç 1915-ci ilin sonuna doğru Eçmiədzin erməni patriarxını Tiflisdəki

məqamına çağıraraq, "Rusiyada bir erməni məsələsi" olmadığını sərt bir dillə ifadə etdi. Buna görə erməni patriarxı rusların Türkiyədə bir Ermənistan qurmaq üçün göstərdikləri fəaliyyətlərə verdikləri dəstəyin və etdikləri yardımın kəsilməsindən qorxaraq, "heç olmazsa Türkiyədə var" cavabını verdi.

Qafqazda xidmət edən Rusiya kəşfiyyatı ermənilərin fəaliyyətləri mövzusunda sağlam bilgilər ala bilirdi. Ermənilər Osmanlı dövlətinə qarşı müharibə təşkil etmişdi, ancaq Rusiyanın Qafqazdakı torpaqlarında da gözləri vardı. Bu vəziyyətdən Rusiya heç də məmnun deyildi. Rusiya kəşfiyyat xidməti tərəfindən ermənilərin içərisində yerləşdirilmiş casuslardan alınan məlumatlara görə hazırlanan 21 yanvar 1916-cı il tarixli və 353 saylı raportda ermənilərin Türkiyəyə qarşı yürüdülən müharibənin ləng getməsindən narahat olduqları və müharibəni tez axıra çatdırmaq istədikləri, türkləri məğlub edib, Şərqi Anadolunun altı vilayətində muxtariyyət qurmaq üçün çalışmaları sürətləndirdikləri bildirilirdi. Bu mövzunun müzakirəsi üçün təşkil edilən toplantıda erməni liderlərdən Zurab Cambazyan, Amazasp Nehretyan, Ervand Hamamcıyan, Liparid Allahverdiyan, Aristakes Tiroyan, Evand Ter-Minasyan, Stepan Stepanyan, Xaçatur Bznuni və Vahan Vatirosyan iştirak etmişdi.[23]

Güney Qafqazda yaşayan gürcü və türklərin heç bir hərbi dəstələri yox idi. Ermənilər qurduqları silahlı qüvvələr sayəsində Gürcüstan və Azərbaycan torpaqlarında yaşayan türklərə qarşı böyük bir üstünlük əldə etmişdilər. Beləliklə, Qafqazın bu bölgəsində meydana gələcək siyasi və hərbi hadisələrin və şərtlərin seyrində ermənilərin diqqətə alınması lazım gəlirdi.

Ermənilər arasında başlanan yardım kampaniyası nəticəsində toplanan pulla və Rusiyanın yardımlarıyla təchiz edilən erməni alaylarının birinci və əsl hədəfi türk torpaqlarını ələ keçirməkdi. Bu həqiqət Osmanlı dövləti və Azərbaycanda yaşayan türklər tərəfindən bilinir və ermənilərin hərəkəti diqqətlə izlənirdi. Erməni alayları Şərqi Anadoluda və Azərbaycanda türklərə qarşı basqın və təcavüzə başlamaqda gecikmədilər. Birinci Dünya müharibəsi boyunca tarixin görə bilmədiyi ən qanlı qırğınlar, etnik təmizlik və soyqırım etdilər. Ermənilər Birinci Dünya müharibəsi boyunca Şərqi Anadoludan alacaqları torpaqlarla bərabər, Naxçıvan, Zəngəzur və Qarabağı quracaqları Ermənistanın bir parçası olaraq görürdülər.

Rusiyada bolşevik ixtilalı olmasından və çarın devrilməsindən sonra da ermənilərin silahlanması davam etdi. Qızıl Ordu Qafqaz Cəbhəsi komandiri general Lebedinskinin 10 yanvar 1918-ci ildə verdiyi bir əmrə görə, Azərbaycan torpaqlarında erməni hərbi dəstələrinin qurulması tələb olunurdu. Buna görə Şuşada bir erməni nişançı alayı Nuxaya (Şəki) bağlı Vartaşen kəndində bir nişançı batalyonu, Naxçıvan və Gəncə şəhərlərində də bir erməni ehtiyat piyada batalyonu təşkil edilmişdi.

**3.Qafqaz Cəbhəsində müharibənin başlaması:**

**a.**Rus Qafqaz Ordusunun sərhədi keçməsi: Qara dənizdə türk və rus donanması arasında 29 oktyabr 1914-cü ildə meydana gələn savaşdan sonra, Şərqi Anadoludakı rus sərhədindən də hərəkətlilik başlandı.[24] Rus Qafqaz Ordusu 1 noyabr 1914-cü il səhər saat 04.00 radələrində Musun, Kötək, Narman, Qalaboğazı kimi bölgələrdəki türk sərhədindən hücuma keçdi. Beləliklə, Şərqi Anadoluda Qafqaz Cəbhəsi açıldı və dörd il sürəcək qanlı bir müharibə də başlamış oldu.[25] Şərqi Anadoluda olan 3-cü Ordu Komandanlığı isə rusların hücumu qarşısında müharibəni Ərzurumun şərqində qəbul etmək üçün hərbi dəstələri toplamağa başladı.[26]

Qafqaz Cəbhəsindəki rus hərbi qüvvələrinin kifayət qədər güclü olmadığı bilinirdi. Rus qüvvələri xüsusilə cinahlardan mühasirə hərəkatına qarşı son dərəcə zəif idi. Böyük çoxluğunu yığma qoşunun təşkil etdiyi 5 min nəfərlik bir türk birliyi Batumi tərəfdə hücuma keçərək, Artvin, Ardanuç və Borçkanı ələ keçirdi. Beləliklə, Çoruh vadisi düşməndən təmizləndi.

Bu irəliləyişə görə Rus Qafqaz Ordusu 5 noyabr 1914-cü ildə Köprüköy-Ərzurum istiqamətində hücuma keçdi. Qafqaz Cəbhəsindəki 3-cü Orduya bağlı 9-cu və 11-ci korpuslar qısa müddətdə müvəffəqiyyət əldə edəcəklərinə inanan rusların qarşısını Köprüköy yaxınlıqlarında aldı. Ruslar 17 noyabra qədər davam edən bir çox hücumlardan da bir nəticə ala bilmədi və yeddi mindən artıq döyüşçü itirərək geri çəkildilər. Çoruh vadisinin ələ keçirilməsi və Ərzurum yaxınlıqlarında qazanılan bu müvəffəqiyyət 3-cü Ordunun mənəviyyatını olduqca yüksəltmişdi.[27]

Ruslar Şərqi Avropada almanlara qarşı böyük bir hərbi toplantı təşkil etmişdilər. Almanlar türklərin Qafqaz Cəbhəsində başladacağı hücum səbəbilə rusların əhəmiyyətli bir hərbi qüvvəni Qafqaza nəql edəcəyini düşünürdülər. Beləliklə, Şərqi Avropadakı alman qüvvələri böyük bir rahatlığa qovuşacaqdı. Başkomandan vəkili Ənvər Paşanın ətrafındakı alman zabitlər bu görüşü dəstəkləmək üçün, ruslara qarşı bir basqın hücumu edilməsinin gərək olduğunu davamlı olaraq təlqin edirdilər. Çoruh vadisinin ələ keçirilməsi və rusların Ərzurumun şərqində saxlanılıb, geriyə oturdulması Ənvər Paşanı basqın hücumu edilməsinə inandırmağa bəs etdi.[28]

Ənvər Paşanın Qafqaza ediləcək hərbi hərəkat planının ana xətləri belə idi:

Türk ordusu Oltu və Ərdahanı ələ keçirdikdən sonra Sarıqamışda olan rus ordusunu məhv edəcək və ardından da Qarsı qurtaracaqdı. Bu planın müvəffəqiyyətlə başa çatmasından sonra hərbi hərəkat genişləndirilib Cənubi Azərbaycan və Cənubi Qafqaza giriləcək və beləliklə, rusların 1-ci Qafqaz Ordusu mühasirəyə alınıb, tamamən yox ediləcəkdi. Qafqaz cəbhəsində rus işğalının sona çatmasından sonra Dağıstan və Azərbaycanda yaşayan türk və müsəlman xalqın öz müstəqil dövlətlərini qurmaları təmin olunacaqdı.[29]

Ənvər Paşa Birinci Dünya müharibəsindən əvvəl xüsusi kəşfiyyat qrupları ilə bərabər, silahlı qüvvələrin strukturunda da Xüsusi Xidmət Qüvvələri təşkil etmişdi.[30] Türk Baş Qərargahının düşüncəsinə görə, Qüvvəyi-Səfəriyyələrin vəzifəsi qısıca bundan ibarət idi: İran, Əfqanıstan və Türküstanda ingilis və rus işğalı altındakı türk və müsəlman xalqları üsyana qaldıracaqlar, İrandan Qafqaza da keçəcəklər və yenə Azərbaycanda üsyan başladaraq, rus ordusunun mühasirəyə alınmasına yardım edəcəkdilər.[31]

Ənvər Paşa 5-ci Qüvvəyi-Səfəriyyə Komandanlığı üçün İstanbul Mərkəz komandanı yarbay Xəlil bəyə vəzifə vermişdi. Məsələ ilə əlaqəli vəzifələndirmə əmri belə idi:

**Köprüköy - 13.12.1914**

İstanbulda Mərkəz komandanı Yarbay Xəlil bəyə:

1. Vəzifəniz, firqənizlə Təbriz üzərindən Dağıstana hərəkət edərək, orada ümumi bir üsyana əsas olmaq, yürüş əsnasında Rusiya dəmir yolu və teleqraf xətlərini, xüsusilə Bakı-Tiflis xəttini dağıtmaq, rusları qərbdən qovmaq, yol üzərindəki tayfaları ruslar əleyhinə müharibəyə təşviq və sövq etməkdir.
2. Təbrizə hərəkat üçün Urmiyə gölünün şimal və cənubundan hərəkət etmək xüsusunu Van valisi və oradakı qüvvələr komandiri ilə xəbərləşərək, şəxsən təyində sərbəstsiniz.
3. Hərəkatınız haqqında 3-cü Ordu Komandanlığına məlumat verin.
4. Sizin firqənizin nəqli başa çatdıqdan sonra yarbay Kazım bəy (Qarabəkir) komandasında mürəttəb birfirqə, Bağdad üzərindən İrana hərəkət etmək üzrə nəql edilməyə başlanacaqdır. Bu firqəyə verilən tapşırıq Tehrana hərəkət edərək oranı ruslardan təmizləyib işğal etməkdir. Bu tümən ilə daima əlaqədə olun. Tehran səfirimiz ilə də xəbərləşə bilərsiniz.
5. Firqənizin iaşəsini, yollar üzərindəki mövqelərə varmanızdan əvvəl valilərə məlumat verərək, müstəqil təmin etməniz lazımdır. İaşənin asan olması üçün bütün firqənizin cəm halda olmayaraq, bir neçə kiçik hissə halında hərəkət etməsi və ancaq düşmənə yaxınlaşıldığı zaman toplanılması tövsiyə olunur.
6. İrana hakim sifəti ilə deyil, ancaq İranı rus boyunduruğundan qurtarmaq məqsədi ilə gəldiyinizi və rusların Avropada və hər tərəfdəki müharibələrdə heç nəyə müvəffəq olmadıqlarını söyləyin.[32]

Qafqaz Cəbhəsində olan 3-cü Ordunun qərargah heyəti isə bölgədəki çətin qış şərtlərini nəzərə alaraq, ruslara qarşı başladılacaq hücumun bahar aylarında olmasının gərək olduğunu düşünürdü. Heç olmazsa 1915-ci ilin fevral ayının sonuna doğru hərəkətə keçilməsinin daha uyğun olacağını bildirirdi.[33]

Ənvər Paşanın 3-cü Ordu komandiri və qərargah heyətinin görüşlərinə etibar etməməsi, istiqamətləndirməyi və idarə etməyi üzərinə götürərək əsgərə hücum əmri verməsi, bəzi dairələr tərəfindən böyük bir hərbi xəta olaraq

dəyərləndirilir.[34] Nəticədə Ənvər Paşanın Qafqaz Cəbhəsində etmək istədikləri və düşüncələri gerçəkləşmədi. Türk ordusu 22 dekabr 1914-cü ildə başlayan hücumda,[35] ruslara olmasa da Allahuəkbər və Soğanlı dağlarındakı qar, boran və soyuq havaya məğlub oldu. Türk əsgərlərinin böyük bir hissəsi donaraq həyatını itirdi. 3-cü Ordu Sarıqamış hərəkatında 22 dekabrdan 19 yanvar tarixinə qədər 90 min əsgərini şəhid verdi.[36]

Rus ordusu Sarıqamışda türk qüvvələrini geri püskürtdükdən sonra 1915-ci ilin qışında qeyd olunmağa dəyən əhəmiyyətli bir hərəkat gerçəkləşdirmədi. Yazın gəlməsi ilə birlikdə Murad Suyu vadisi, Malazgirt, Tortum və Vanı işğal etdi. Rus ordusunda olan erməni batalyonları Vanda tarixdə nadir rast gəlinən bir qırğın törətdilər.

**b.Erməni təhciri:** Türkiyəni təhcir (təhcir: sürgün, küz) qərarı almağa vadar edən səbəblər nə idi? Birinci Dünya müharibəsi illərində ermənilərə qarşı soyqırım edilmişdimi? Bu mövzuların dünya ictimaiyyətində həqiqətlər çərçivəsində anlaşılması və ortaya çıxması ilə erməni propaqandalarına meydan verilməməsi üçün elm adamlarının daha çox səy göstərməsi şərtdir. Mövzu haqqında Rusiya sənədləri hələ nəşr olunmamışdır. Bunların dünya ictimaiyyətinə açıqlanması halında həqiqətlər bütün çılpaqlığı ilə ortaya çıxacaqdır.

Ruslar əvvəlcə Balkanlarda başlatdıqları quldur dəstəsi qurma işlərini, bu dəfə də Şərqi Anadoluya nəql etmişdilər.

Eynilə yunanlar, serblər, bolqarlar kimi balkan xalqları arasında yaradılan bandaların ən böyük dəstəkçiləri Şərqdə də erməni kilsələri olmuşdur. Osmanlı ordusundakı erməni əsgərlər ordudan fərarilik edərək silahlarıyla birlikdə erməni bandalarına qatılmağa başlamışdılar. Bu gənclər Varna, Sulina, Köstence yoluyla Qafqaza sövq edilirdi. Erməni bandalarına Şərqi Rum gəncləri də qatılırdı.

İstanbuldakı erməni Daşnaksutyun partiyası, mərkəzini Ərzuruma köçürdü. Osmanlı Məclisi-Məbusanının üzvü olan üç erməni millət vəkili də İstanbuldan ayrılaraq Ərzuruma getdilər və daşnak hərəkəti ilə bandaların başına keçdilər. Bunlar Ərzurum vəkili Karakin Pastırmacıyan (ləqəbi Garo), Kozan vəkili Ambarsum Boşyacıyan (ləqəbi Murad) və Van vəkili Vahan Papazyan adlı ermənilərdir. Daşnaklar Ərzurumda keçirilən konqresdə alınan qərarların tərsinə, yerləşdikləri bölgələrdə silahlanıb rus ordularına yardımçı olmağa, türk və müsəlmanlara da hücum etməyə başladılar.

Osmanlı dövləti bu vəziyyət qarşısında ilk tədbir olaraq ordudakı erməni əsilli əsgərləri döyüşən hissələrdən çıxarıb, arxa xidmətlərə verdi. Daxiliyyə naziri Tələt bəyin imzasıyla 24 aprel 1915-ci ildə bir təzkirə yayınlanaraq erməni militanlar haqqında əməliyyat başladıldı. Buna görə erməni komitələrinin başçıları həbs olunacaq və hərbi məhkəmələrə sövq ediləcəkdi. Bu dəyişikliklər nəticəsində

İstanbulda yaşayan 77735 ermənidən 2435-i həbs olundu, dəstə başçıları hərbi məhkəmələrə çıxarıldı.

Ənvər Paşa 2 may 1915-ci ildə Daxiliyyə naziri Tələt Paşaya bir məktub göndərdi:

"Van gölü ətrafındakı və Van valiliyinin bildiyi yerlərdəki ermənilər, üsyan və inqilab üçün daimi bir ocaq halındadırlar. Bu xalqın oradan qaldırılaraq üsyan yuvasının dağıdılması gərəkliyi fikrindəyəm. 3-cü Ordunun verdiyi məlumata görə ruslar 20 apreldə hüdudları daxilindəki müsəlman əhalini çılpaq bir halda hüdudumuz daxilinə sürgün etdilər. Həm buna qarşılıq olaraq və eyni zamanda yuxarıda söylədiyim məqsədi hasil etmək üzrə ya adı keçən erməniləri və ailələrini Rusiya hüdudları daxilinə sürgün etmək, yaxud adı keçən erməniləri və ailələrini Anadolu daxilində müxtəlif yerlərə paylaşdırmaq lazımdır. Bu iki alternativdən münasib olanının seçilərək icrasını rica edirəm. Bir məhzuru yoxsa, üsyançı ailələrini və üsyan mərkəzlərini hüdud xaricinə sürgün etməyi və onların yerinə hüdud xaricindən gələn müsəlman xalqı yerləşdirməyi tərcih edirəm".[37]

Daxiliyyə vəkili Tələt Paşa 23 may 1915-ci ildə 4-cü Ordu Komandanlığına göndərdiyi şifrədə başqa vilayətlərə köçürüləcək ermənilər haqqında bilgi verir və boşaldılmasını istədiyi yerləri bu şəkildə bildirirdi:

a) Ərzurum, Van və Bitlis vilayətləri;

b) Maraş şəhər mərkəzi xaric olmaqla, Maraş sancağı;

c) Hələb vilayətinin mərkəz qəzası xaric olmaqla, İskəndərun, Belen, Cisri-Şugur və Antakya qəzaları daxilindəki kənd və qəsəbələr;

ç) Adana, Sis (Kozan) və Mərsin şəhər mərkəzləri xaric olmaqla, Adana, Mərsin, Kozan və Cəbəli-Bərəkət sancaqları.

Ərzurum, Van və Bitlis bölgəsindən çıxarılan ermənilər, Mosul vilayətinin cənub qismi ilə Zor sancağına və mərkəz xaric olmaqla, Urfa sancağına yerləşdiriləcəkdilər. Adana, Hələb və Maraş ətrafından çıxarılan ermənilər isə Suriya vilayətinin şərq qismi ilə Hələbin şərq və cənub-şərqində hökumət tərəfindən müəyyən edilən yerlərə yerləşdiriləcəkdilər. Köçürülmə işlərinə nəzarət etmək üçün bir mülkiyyə müfəttişi ilə maliyyədən xüsusi bir məmur və təhlükəsizlik qüvvələri də cəlb olunmuşdu.[38]

Osmanlı dövləti ermənilərin sıx yaşadıqları bölgələrdə də oxşar tədbirlər görməyə başladı. 26 may 1915-ci ildə yenə Daxiliyyə Vəkaləti tərəfindən verilən bir təzkirə ilə ermənilərin yaşadıqları yerlərdən çıxarılaraq, Diyarbəkirin cənubuna, Fərat vadisinə və Urfa ətraflarına köçürülüb yerləşdirilmələri istənildi. Həmin gün Tələt bəyin imzası ilə bu məsələylə əlaqədar bir məktub Sədrəzəmə göndərildi. Beləliklə, erməni təhciri həqiqətən başlamış oldu. Belə bir məsələylə əlaqəli sənədin Nazirlər Şurasının qərarıyla təsdiq olunması vacib ikən təhcirlə bağlı təzkirə ittihadçı bir üsulla tək bir nazir tərəfindən çıxarılmışdı. Tələt Paşa

vəziyyətin həssaslığı qarşısında Nazirlər Şurası və Məclis qərarı olmadan belə bir təhcirin məsuliyyətini təkbaşına öhdəsinə götürmək durumunda qalmışdı.[39]

Sarıqamış hərəkatının uğursuz olması və rusların 1915-ci ilin mayında Vanı ələ keçirməsindən cəsarətlənən ermənilər türk ordusunun qərbindəki bölgələrdə də üsyan etdilər.[40] Türk ordusunun arxasında olan bütün kənd, qəsəbə və şəhərlərdə yaşayan türklərə hücum edir və qorxunc qətllər törədirdilər.[41] Qafqaz cəbhəsində ruslarla birlikdə hərəkət edən erməni quldurları türk ordusunun arxasına keçərək sabotaj, bombalama və üsyana təşviq hərəkətləri təşkil edirdilər. Rusların, Vanın işğalı zamanı ermənilərin türk və müsəlmanları acımadan qətl etmələrinə göz yumması, quldurların Bitlis və Zeytun kimi bölgələrdə də təcavüzkarlıqlarını davam etdirmələri və 1915-ci ilin iyulunda Muş qırğını Osmanlı ölkəsində böyük qəzəbə yol açdı.[42] Ermənilərin qırğın törətməsi davam edərkən, Osmanlı orduları o aylarda Çanaqqalada və Süveyş kanalında düşmənlə boğuşurdu. Osmanlı dövləti ermənilərin rus ordusu ilə birlikdə hərəkət etmələrinə və türkləri öldürmələrinə, türk və müsəlmanlardan tamamən təmizlənmiş və arındırılmış bir coğrafiya üçün hərəkətə keçmələrinə seyrçi qala bilməzdi. Şərqi və Orta Anadoluda yaşayan erməniləri o dövrdə türklərin əlindən hələ çıxmamış olan Suriya və İraqa məcburi köçə tabe etdi. Sənədlərdən də aydın olduğuna görə, Tələt Paşanın başlatdığı və Məclisi-Vükəla tərəfindən də uyğun görülən təhcir, doğrudan da cəbhələrin təhlükəsizliyinə xələl gətirəcək bölgələrdə tətbiq olunmuşdur. Bunlardan birincisi, Qafqaz və İran cəbhəsinin arxa bölgəsini təşkil edən Ərzurum, Van və Bitlis ilə Sina cəbhəsini təşkil edən Mərsin-İskəndərun bölgələridir.

Daxili İşlər Nazirliyi tərəfindən hazırlanan və Sədarətə göndərilən təhcirlə əlaqəli təzkirə 29 may 1915-ci ildə Məclisi-Vükəlaya göndərildi. Osmanlı Milli Məclisi də 30 may 1915-ci ildə məsələ haqqında bir qərar aldı. Bu qərara görə, Osmanlı Dövləti Baş Nazirliyi 30 may 1915-ci ildə Daxili İşlər, Maliyyə və Hərbiyyə Nəzarətlərinə bir məktub göndərərək, təhcirin tətbiq olunacağı əsas və üsulları bildirdi. Buna görə:

a) Ermənilər özlərinə ayrılan bölgələrə, can və mal əmniyyətləri təmin olunaraq, rahat bir şəkildə köçürüləcəklər;

b) Yeni evlərinə yerləşincəyə qədər iaşələri mühacirlər üçün ayrılan vəsait hesabına təmin ediləcəkdir;

c) Keçmiş maliyyə durumlarına uyğun olaraq özlərinə əmlak və ərazi veriləcəkdir;

ç) Möhtac olanlar üçün hökumət tərəfindən məskən inşa olunacaq, daşınmaz malları təsbit və qiymətləri təqdir edildikdən sonra buralara yerləşdiriləcək olan müsəlman mühacirlərə veriləcəkdir. Bu mühacirlərin istifadələri xaricində qalan zeytunluq, tutluq, üzüm və portağal bağlarıyla, dükan, karvansara, fabrik və anbar kimi gəlir gətirən yerlər, açıq artırma ilə satılacaq və ya

kirayəyə veriləcək və dəyərləri sahiblərinə ödənmək üzrə mal sandıqları vasitəsilə əmanətə qeyd ediləcəkdir;

e) Bütün bu məsələlər xüsusi komissiyalar vasitəsilə həyata keçiriləcək və bu xüsusda bir təlimatnamə hazırlanacaqdır".

Tələt Paşanın Sədarətə təzkirə verməsindən bir gün sonra 27 may 1915-ci ildə "Səfər vaxtı hökumətin əmrlərinə boyun əyməyənlərə tətbiq olunacaq hərbi tədbirlər haqqında müvəqqəti qanun" çıxarıldı. Bu keçici qanun "Təqvimi-Vəqaye"də 1 iyun 1915-ci ildə nəşr olunaraq qüvvəyə mindi.[43]

Düşmənin Anadolu torpaqlarına əsgər çıxarmasını asanlaşdıracaq bölgələrdə təhcir tətbiq olunmasına təminat verilmişdir. Daha sonra bu təcrübə üsyan çıxaran, düşmənlə əməkdaşlıq edən, erməni komitəçilərə yardım edən digər vilayətlərdəki erməniləri də əhatə edəcək şəkildə genişləndirilmişdir. Başlanğıcda katolik və protestan ermənilər kənar olunurkən, daha sonra bunlar arasından zərərli işlər görənlər də sövq olundu.

Tələt Paşa Qərb ölkələrinin etirazı və basqısı qarşısında təhcirin məqsədinin ermənilərin kökünü kəsmək, ortadan qaldırmaq və yox etmək olmadığını bildirirdi. Bu məqsədlə 29 avqust 1915-ci ildə Xudavəndigar, Konya, Ankara, İzmit, Adana, Maraş, Urfa, Hələb, Zor, Sivas, Kütahya, Karəsi, Niüdə, Məmüratül-Əziz, Diyarbəkir, Qarahisarı-Sahib, Ərzurum və Kayseri vali və idarəçilərinə göndərdiyi şifrəli teleqrafda təhcirin qayəsini bu şəkildə açıqlamışdı:

"Ermənilərin yerləşdikləri yerdən çıxarılaraq təyin edilən məntəqələrə göndərilmələrində hökumətin qayəsi, bu ünsürlərin hökumət əleyhinə fəaliyyət göstərmələrini və bir Ermənistan hökuməti təşkili haqqındakı milli arzularını təqib edə bilməyəcək bir hala gətirilmələrini təmin əsasına dayanmaqdadır. Bu, kimsənin məhvi demək olmadığı kimi, köçürülmə əsnasında qrupların əmniyyəti təmin edilməli və mühacirlər üçün ayrılan vəsait hesabına iaşələrinə aid hər cür tədbir görülməlidir. Yerlərindən çıxarılıb göndərilənlərdən başqa, yerlərində qalan ermənilər bundan sonra yerlərindən çıxarılmamalıdır. Əvvəllər də təbliğ edildiyi kimi, əsgər ailələri ilə ehtiyac nisbətində sənətkar, protestan və katolik ermənilərin köçürülməməsi qəti olaraq qərarlaşdırılmışdır. Erməni qruplarına hücum edənlər və ya bu kimi hücumlara təşəbbüs göstərən jandarm və məmurlar haqqında ciddi qanuni tədbir görülməli və bu kimilər dərhal işdən çıxarılaraq Divanı-Hərblərə təslim edilməlidir. Bu kimi hadisələrin təkrarından vilayət və sancaqlar məsuliyyət daşıyacaqlar".[44]

Osmanlı dövləti bu mövzuda hüquqi struktur yaratmış və bəzi qanunlar çıxararaq dəstəkləmişdir. Qanun əhatəsində türk arxiv sənədlərinə görə təxminən 702.500 adam ölkənin cənub bölgələrinə köç etdirilmişdir. Ermənilər daha sonrakı illərdə bu köç əsnasında milyonlarla insanın öldüyünü iddia etmişdilər. Yolçuluq zamanı ortaya çıxan problemlərdən ölənlər olduğu kimi, başqa səbəblərdən ölümlər

də meydana gəlmişdir. Hesablamalara görə, Birinci Dünya müharibəsində müxtəlif səbəblər üzündən ölən ermənilərin sayı təxminən 300 mini keçməmişdir. Ermənilər və onları qoruyan dövlətlər tərəfindən bu ədəd 1918-ci ildən bu günə qədər bir neçə yüz mindən bir neçə milyona çıxarılmışdır. Təhcir zamanı ölən ermənilərin sayı haqqında müxtəlif ölkələrin elm adamları müqayisəli olaraq araşdırmalar aparmışdır. Erməniləri zorla köç etdirmə məsələsi, hər şeydən əvvəl bir savaş məcburiyyəti olaraq, alınmış tədbirlərdən doğmuşdur.

Arxa cəbhədə ermənilərə təhcir tətbiq olunarkən, ruslar, Qafqaz cəbhəsində çətin vəziyyətdə qalan türk qüvvələri qarşısında ciddi bir hərbi hərəkata girişmədi. Bəzi önəmli hərbi qüvvələrini Şərqi Avropadakı alman qüvvələrinin qarşısına nəql etmə fürsəti tapmışdı. Bu dövrdə Şərqi Anadoluda olan Qars, Artvin, Ağrı, Ərzurum, İspir, Aşkale, Rizə, Trabzon, Bayburt, Gümüşxanə, Ərzincan, Van, Bitlis, Muş rusların işğalı altındaydı.

Birləşmiş Millətlərin təsvir etdiyinə görə, soyqırım bir milləti, mənsub olduğu irq və ya inancı səbəbindən tamamən, ya da qismən məhv etməkdədir. Bu bir suçdur. Təhcir isə bir ölkədə yaşayan azlıqlardan birini, təhlükəsizlik əsasıyla bir bölgədən bir başqa bölgəyə məcburi köçə tabe etməkdir. Osmanlı dövlətinin Birinci Dünya müharibəsi illərində ermənilərə qarşı çıxardığı və tətbiq etdiyi qərar bir təhcirdir. Aparılan əməliyyatın soyqırım ilə əlaqəsi yoxdur. Təhlükəsizlik və hərbi səbəblər üzündən belə bir təcrübəyə gedilmişdir. Birinci Dünya müharibəsində alman Baş Qərargahının təmsilçiləri, müttəfiqi olan Osmanlı dövləti ilə əldə edilən anlaşmalara görə, ordularda kurmay (hərbi akademiya məzunu) zabitlər yerləşdirilirdi. Bu zabitlər ermənilərdəki hərəkətliliyə diqqət çəkərək, erməni partiyalarından Daşnak və Hnçaq liderlərinin, ölkənin daha təhlükəsiz bölgələrə köçürülmələrinin gərəkliliyini təlqin etmişdilər. Ancaq müharibənin o çətin şərtlərində bəzi yerli rəhbərlər bu köçü lazım olduğu kimi nizamlaya bilməmişdilər. Osmanlı dövləti də Şərq cəbhəsində bəzi həssas bölgələrdə yaşayan erməni liderlərini daha təhlükəsiz olan cənubdakı ətraflara yerləşdirmişdi. Orta və Qərbi Anadolu ilə xüsusən İstanbulda yaşayan ermənilər təhcir edilməmişdi. Çünki o bölgələrdə yaşayan ermənilərin dövlətə zərər vermələri mümkün deyildi.

Osmanlı dövlətində illik büdcə mart ayında təsdiqlənməkdəydi. Dövlətin erməni vətəndaşlarını əvvəlcədən təhcirə tabe etmək kimi bir düşüncəsi, ya da planı olsaydı, vacib olan məbləği mart ayından əvvəl hər hansı bir şəkildə büdcəyə daxil etməsi lazım gələrdi. Sarıqamış hadisəsi və ardından ermənilərin türklərin qətlinə başlaması üzündən Daxiliyyə Nəzarəti büdcəsinə 60 milyon quruş əlavə məbləğ qoyulması ilə əlaqəli qanun, 1915-ci ilin iyununda çıxarılmışdır. Üstəlik də təhcirə tabe olanlardan kiçik yaşlılara günlük 60 para, böyüklərə də 3 quruş yol xərci verilməsi qərarlaşdırılmışdı. Milliyyəti ya da irqi səbəbindən bir qisim

vətəndaşlarını yox etmək, ortadan qaldırmaq istəyən bir dövlətin, o millətin fərdlərinə günlük xərclik verməsi, əlbəttə ki, düşünülə bilməz.

Osmanlı dövləti erməni Daşnak və Hnçaq rəhbərləri ilə silahlı militanları və bunların ailələrini İraq, Suriya və İordaniya bölgəsində məcburi yerləşməyə tabe etmişdi. Bunların xaricindəki ermənilərə toxunmamışdı. Misal olaraq, erməni və fransız qaynaqlarına görə, Adana şəhər mərkəzində yerlərində qalan ermənilərin sayı 8 mindir. Osmanlı dövlətində 1.300.000 erməni vətəndaşı yaşayırdı. Erməni patriarxlığı isə bu ədədin 1.980.000 olduğunu bildirir. Bugünkü Türkiyə torpaqlarında 1920-ci ildə 1.200.000 ermənin yaşadığı Qərb mənbələri tərəfindən dilə gətirilməkdədir. Münaqişə, epidemiya və yoluxucu xəstəlik, yaşlılıq və soyuqdan ölənlərin sayını, Qərb mənbələri 200 min ilə 300 min arasında verməkdədir. Təhcir qərarı alındıqdan sonra, xüsusilə Şərqi Anadoluda yaşayan ermənilərdən bir qismi Qafqaza, Azərbaycan, Gürcüstan və Ermənistan ilə Rusiyaya qaçdı. İstanbulda erməni liderlərindən Boqos Nubar Paşanın yazdığı raportlara görə, Anadoludakı ermənilərdən 250 mini Qafqaz ölkələrinə, 50 mini də İrana getmişdi. Təhcir edilənlərin də önəmli bir qismi Birinci Dünya müharibəsinin sona çatmasının ardından evlərinə dönmüşdü. Bir bölümü də evlərinə getməyərək, Avropaya, Şimali və Cənubi Amerikaya köç etmişdilər.

Osmanlı dövləti özünə sadiq olan erməniləri, dövlətə xəyanət etməyənləri evlərinə buraxmışdı. Onların can və mal təhlükəsizliyini təmin etmişdi. Nubar Paşa 21 noyabr 1914-cü il tarixində fransızlarla apardığı görüşmələrdə "Adana, Mərsin və Çuxurova bölgəsində əhalinin qırx faizi erməni əsillidir. Əgər İskəndərun körfəzinə bir hərbi çıxarma edərsəniz, Kilikiya (Çuxurova) erməniləri olaraq sizə yardımçı olarıq" demişdir.

Tarixin önündə duran və ciddi mənada araşdırılması vacib olan bir mövzu da Birinci Dünya müharibəsindən əvvəl Şərqi Anadolu, Qafqaz və Ermənistanda yaşayan erməni əhalisinin təsbit edilməsidir. Bu təsbitdən sonra yenə eyni coğrafiyada yaşayan erməni əhalisi ilə olan qarşılaşdırmada ölən və köç edən erməni əhalisi asanca məlum olacaqdır. Ancaq ermənilər bu həqiqətin ortaya çıxmasını istəmirlər.

Ermənilərin millətlərarası məhkəməyə baş vuraraq, türklərin onlara qarşı soyqırım etdiyinə dair iddialarını isbat etmələri gərəkdir. Çünki iddia sahibinin iddiasını isbat etmək vəzifəsi, hüququn təməl prinsipidir. Bundan başqa, soyqırım və etnik arındırma millətlərarası bir suçdur. Məhkəmə qərarı olmadan bir insana "qatil" deyilə bilməyəcəyi kimi, millətlərarası məhkəmə tərəfindən bu istiqamətdə alınmış bir qərar da yoxdursa, bir millət haqqında "soyqırım etdi" deyilə bilməz. Bu səbəbdən Avropadakı erməni təşkilatları və Ermənistan dövlətinin bu məsələdə millətlərarası məhkəməyə gedərək, Türkiyə haqqında yaxın bir zamanda iddia qaldırması yerində olacaqdır.

Ermənilər Birinci Dünya müharibəsində başqa millətə və dinə mənsub olduqları üçün türkləri həqiqətən qətl etmişdilər. Qafqazda yaşayan türklərə qarşı soyqırım törətmişdilər. Bakı, Şamaxı, Ağsu, Qaraməryəm, Quba, Qarabağ və Zəngəzur bölgələri ilə bugünkü Ermənistanda yaşayan türkləri başqa millətə və dinə mənsub olduqları üçün acımasızca öldürmüşdülər. Qırğın yolu ilə yox etməyə çalışmış, evlərindən və yaşadıqları yerlərindən zorla qovmuşdular. Tarixin qeyd etdiyi bu hadisə həqiqi mənada bir soyqırım və etnik təmizlikdir. Sovet İttifaqının dağılmağa başladığı 1988-ci ildə Ermənistanda və daha sonra Qarabağda törətdikləri də etnik təmizləmə hərəkətinin millətlərarası tərifinə uyğundur.

Azərbaycan dövlətinin, istər 1918-ci ildə və istərsə də 1988-1994-cü illər arasında Qarabağda yaşayan türklərə qarşı ermənilərin tətbiq etdiyi soyqırım və etnik təmizləmə mövzusunda, sənədləri ilə birlikdə, La Haye Millətlərarası Ədalət Divanı məhkəməsində iddia qaldırması lazımdır.

**c.Muş və Bitlisin qurtuluşu:** Çanaqqala savaşlarında üstün müvəffəqiyyət əldə edən Mustafa Kamal generallığa yüksəlmişdi. Anafartalar qəhrəmanı Mustafa Kamal Paşa 2-ci Orduya bağlı 16-cı korpus komandanı vəzifəsindəykən 1916-cı ilin yaz və yay aylarında 4-cü rus korpusunun işğalında olan Muş və Bitlisi geri aldı.[45] 3 noyabrda Vanın cənubundakı Vatsanı ələ keçirdi. Qışın gəlməsi nəticəsində 16-cı korpus irəli hərəkatını dayandırmaq məcburiyyətində qaldı. O il qış çox çətin keçdiyi üçün tərəflər önəmli bir hərbi hərəkata girişmədilər.

Mustafa Kamal Paşanın Şərqi Anadoludakı bu uğuru Rus çarı Böyük Pyotrun "isti dənizlərə çıxma" xəyalını və vəsiyyətini də nəticəsiz buraxdı. Böyük Pyotr ruslara buraxdığı vəsiyyətnamədə İstanbul və Çanaqqala boğazlarının ələ keçirilməsini, Bizansın tarixi paytaxtı olaraq xarakterizə etdiyi İstanbulun işğal edilərək Şərqi Roma İmperatorluğunun varisi olunmasını, bundan başqa Anadolu torpaqlarının ruslaşdırılaraq ölkə sərhədlərinin Aralıq dənizinə qədər genişləndirilməsini istəmişdi. Anafartalar qəhramanı Mustafa Kamal Paşanın Şərqi Anadoluda qazandığı bu hərbi uğurun nəticələri türk tarixində kifayət qədər araşdırılmamış və incələnməmişdir. Ermənilər quracaqları dövlətin sərhədlərinin Xəzər dənizi, Qara dəniz və İskəndərun körfəzindən Aralıq dənizi sahillərinə qədər çatması üçün can atırdılar. Ruslar isə Boğazlar və Anadolunu gözə almışdılar. Ancaq Mustafa Kamalın Şərqi Anadoludakı bu təvazökar, amma son dərəcə önəmli uğuru ermənilərin və rusların xəyallarına son qoydu. Azərbaycan türklərinin təbiri ilə desək, "puç etdi".

**4. Osmanlı dövlətinin Qafqaz türkləri ilə münasibətləri:**

Rusiyanın işğalı altında yaşayan türk ellərində müstəqillik düşüncəsi heç bir zaman sönməmişdi. Osmanlı dövlətində olduğu kimi, bugünkü Gürcüstan, Dağıstan və Qafqazın bəzi bölgələri ilə Azərbaycanda da Oğuz türkləri və müsəlmanlar yaşayırdı. Hər iki xalq da Oğuz türklərinə mənsub boy, tayfa və

oymaqlardan meydana gəlirdi. Eyni dili, tarixi, mədəniyyəti və inancı paylaşırdılar. Bu və buna bənzər bir çox ortaq dəyərlər səbəbindən Anadolu ilə Azərbaycan türkləri arasındakı münasibət ortaq coğrafiyanın da təsiri ilə digər türk ellərinə görə daha da inkişaf etmişdi.

1900-cü illərin əvvəllərində türklərin yaşadığı ölkələr arasında yalnız Osmanlı dövləti müstəqil idi. Kazan, Krım, Orta Asiya, Sibir və Qafqazdakı türk elləri isə çar idarəçiliyindəki Rusiya imperatorluğunun pəncəsi altındaydı.

İsmayıl Qaspıralının ***"dildə, fikirdə, işdə birlik"*** və azərbaycanlı Əli bəy Hüseynzadə və Ziya Göyalpın ***"türkləşmək, islamlaşmaq, müasirləşmək"*** şəklində vurğuladıqları fikirləri türk dünyasında və əlbəttə, Osmanlı ziyalıları arasında sürətlə yayıldı və tərəfdar topladı. Bu görüşlər türk xalqlarının milli gücləri arasında ortaq bir məqsəd halına gəldi. Bu düşüncələr sayəsində türk dünyasındakı müstəqillik fikri inkişaf etdi, bölgələrin özünəxas milli cərəyanları gücləndi, sistematik hala gəldi, daha sonra əlaqələr quruldu və çıxış yolları axtarılmağa başlandı.

Türklərin tarix səhnəsinə çıxdığı keçmiş çağlardan günümüzə qədər davam edən bir həqiqət vardır:

***"Oğuz türklərinin dövləti güclü və qüvvətli olduğu dövrlərdə digər türk elləri ilə o biri müsəlman qövmləri rahatlıq, dinclik və ədalət içində yaşamışdılar".***

Bu gerçəyin fərqində olan azərbaycanlı ziyalılar 1912-13-cü illərdə Türkiyədə başlayan Balkan müharibəsində soydaşlarını yalnız qoymadılar. Azərbaycanda Müsavat Partiyası bir bildiriş yayaraq, dünyadakı bütün türkləri və müsəlmanları Osmanlı dövlətinə yardım etməyə çağırdı.

Bildirişi bu şəkildə xülasə edə bilərik:

"Dindaşlar, bilin ki, tək ümidimiz və qurtuluşumuz Türkiyənin istiqlalını qoruması, yüksəlməsi və inkişaf etməsindədir. Əgər keçmişdəki laqeyidliyimizdən, nəyiməlazımlığımızdan indi də vaz keçməsək, dünyanın gözü önündə haqq və hüququmuzu qoruya bilmərik. Dinimizi və milliyyətimizi itirərik. Bunun nəticəsində əsir olacağımızdan heç kimin şübhəsi olmasın. Balkan hərbinin arxasında ruslar durur. Əsl hədəfləri də türk əsgərini yox edib, türk dövlətini yıxmaq və əsir etməkdir".

Azərbaycan Müsavat Partiyası liderləri rus imperializmi altında inləyən bütün türk ellərini və İslam dünyasını Osmanlı ordusunun qurtaracağına inanır və bunun üçün dəstəklənməsini istəyirdilər. Osmanlının mənəvi tərəfdən dəstəklənməsi ilə bərabər, Azərbaycan türkləri maddi yardımlar da göstərmişdilər. Hacı Zeynalabdin Tağıyev başda olmaqla, Azərbaycanın başqa önəmli zəngin adamları, Balkan hərbində Osmanlı dövlətinə qızıl və pul göndərmişdilər. Azərbaycanlı vətənsevərlər bu yardımı yalnız qardaşlığın bir nişanəsi olaraq

etmişdilər. Azərbaycan türkləri Birinci Dünya müharibəsində də Türkiyənin köməyinə çatmışdılar. Çanaqqala savaşlarına qatılan azərbaycanlı türklər digər qardaşları ilə birlikdə qəhrəmanlıqla vuruşmuş və şəhid olmuşdular.

İstər Balkan hərbi, istərsə də Birinci Dünya müharibəsində Qafqazda yaşayan türklərin Anadoluya yardım göstərmələri o qədər də asan deyildi. Osmanlı dövlətinin bölgədəki ən böyük rəqibi Rusiya idi və Türkiyə Rusiya ilə savaş vəziyyətindəydi. Azərbaycan isə Rusiyanın işğalı altında idi. Rus hərbi qüvvələrinin erməni ağırlıqlı polis və jandarma gücü bölgədəki türkçülük və müstəqillik cərəyanını çox yaxından təqib edir və xalqa qarşı böyük bir basqı rejimi tətbiq edirdi. Bu ağır şərtlərdə Qafqazdan Türkiyəyə göstəriləcək yardımlar böyük bir təhdid altındaydı. Azərbaycan türkləri buna rəğmən Osmanlı dövlətinə çətin şərtlərdə maddi və mənəvi yardımları davam etdirirdilər.

Qafqaz cəbhəsində ruslara əsir düşən türk əsgərləri Xəzər dənizində Bakı açıqlarındakı Nargin adasına, ya da dəmir yolu ilə Gəncə üzərindən Sibirə göndərilirdilər.[46] Əsirlər Rusiyanın içərisinə qatarla daşınarkən, yaralı olanlardan bəziləri yolda həyatını itirirdi. Vəfat edən türk əsgərlərinin cənazələri qatarlardan endirildikən sonra azərbaycanlı qardaşları tərəfindən götürülərək müsəlman məzarlıqlarında torpağa verilirdi. Azərbaycan türkləri həyatını itirən bu əsir qardaşlarını dəfn etmək, yaralı və xəstələrə yardım etmək üçün bir gizli cəmiyyət qurmuşdular və buna da "Gənclik cəmiyyəti" adını vermişdilər.

Gəncə Milli Komitəsinin qərarı ilə 1918-ci ildə İstanbula gedərək, Türkiyənin Azərbaycana hərbi və siyasi yardım etməsini istəyən heyətdə yer alan Nağı Şeyxzamanlı xatirəsində bu haqda belə yazmışdır:

"Gəncədəki təşkilatımız qatarlardan endirilən türk əsirlərinə aid cənazələri alıb torpağa vermək üçün bir növbətçilik təşkil etmişdi. Yenə bir gün vağzaldan keçən bir qatardan dörd şəhidin endirildiyini xəbər aldıq. Şəhidlərimizə qarşı son vəzifəmizi yerinə yetirmək üçün dərhal toplanıb bir mərasim təşkil etdik. Göz yaşları içində söylənən nitqlərdən sonra onları əbədi məkanlarına tapşırdıq. Anadoluda doğulan qəhrəman türk əsgərləri türklük uğrunda vuruşaraq şəhid olur və yenə bir türk torpağı olan Azərbaycanda torpağa verilirdi".

Nağı Şeyxzamanlının verdiyi məlumata görə, Gəncə və ətrafında yaşayan bütün türklər Osmanlı müharibə əsirlərinə yardım edə bilmək üçün yarışırdılar. Əsirlərə su, yemək, yol azuqəsi, ərzaq hazırlayır, tapa bildikləri dərmanı verirdilər. Əllərindən heç bir şey gəlməyənlər isə əsirlərlə söhbət edib, onlara təskinlik verməyə çalışırdılar. Böyükdən kiçiyə bütün Gəncə xalqı türk əsgərlərinə türkçülük yolunda mücadilə aparan qəhrəmanlar gözü ilə baxırdılar. Əsir və xəstələrin sağlıq və azadlıqlarına qovuşaraq, yenidən vətənin xidmətində olacaqlarına dair söhbətlər edirdilər. Bu yardımlar Gəncə və ətrafında bir ümumxalq səfərbərliyinə çevrilmişdi.[47]

Şeyxzamanlı xatirəsində belə deyir:

Gənclik Cəmiyyəti təmsilçisi olaraq, Gəncə bələdiyyə rəisi Xəlil bəyin yanına gedərək onunla görüşdüm. Müharibə əsirləri haqqındakı düşüncəmi ona anlatdım. "Ruslar Qafqaz cəbhəsində əsir aldıqları türk əsgərlərini qatarlara doldurub Sibirə göndərirlər. Xəstə olanlara baxılmır, bəziləri ağırlaşaraq yolda can verir. Cənazələr ilk vağzalda vaqondan atılır. Rusların bu qeyri-insani davranışları xalqı hirsləndirir, hiddətləndirir", dedim. Xəlil bəy məni dinlədikdən sonra Gəncədəki rus səlahiyyətlisi ilə bu məsələ ilə əlaqədar görüşəcəyini və lazım gələni edəcəyini dedi. Nəticəni öyrənmək üçün onunla axşam şəhər klubunda görüşməyimi istədi.

Axşam kluba gedərək Xəlil bəy ilə görüşdüm. Xəlil bəy mənə belə dedi:

"O məsələ ilə əlaqədar görüşdüm. Sabah vağzalda böyük bir bina boşaldılacaq. Ora bir xəstəxanaya çevriləcək. Rus ordusundan həkimlər istəniləcək. Bələdiyyə və hökumət dairələri də bu məsələdə yardımçı olacaqlar. Tiflisdən Gəncəyə hərəkət edən əsir dolu qatarlar əvvəlcədən bizə xəbər veriləcək. Həkimlər vağzalda əsirləri müayinə edəcək və xəstə olanlar xəstəxanaya yerləşdirilərək müalicə olunacaq".

Bu xəbərə çox sevindim və təşəkkür etdim. Xəlil bəy təşəkkürə ehtiyac olmadığını bildirərək, bu və buna bənzər işlərin özünün də vəzifəsi olduğunu bildirdi. Xəlil bəydən bir xahiş də etdim. Əsirlərin rus həkimlərin dilini başa düşməyəcəklərini və onlara tərcüməçi lazım olacağını bildirərək, bu işi də sevə-sevə edə biləcəyimi söylədim. Bu təklifimi qəbul edən Xəlil bəy, ertəsi gün rus səlahiyyətlisi ilə bu məsələ ilə əlaqədar görüşəcəyini bildirdi. Həqiqətən ertəsi gün vağzalda böyük bir bina boşaldıldı və içinə lazım olan əşyalar yerləşdirildi. Üç həkim buraya təyin edildi. Mən də dərhal tərcüməçilik işinə başladım. Bu iş üçün əmək haqqı almayacağımı öyrənən rus səlahiyyətlisi və mərkəz komandiri mənə təşəkkür məktubları göndərmişdilər.

Həmin gün əsir daşıyan bir qatarın saat 14.00-da Gəncə vağzalında olacağı xəbər verildi. Hamımız birlikdə vağzala gedərək qatarı gözləməyə başladıq. Qatarın vağzala girməsindən 10 dəqiqə əvvəl rus əsgərləri ətrafı mühasirəyə aldı. Əsirləri qarşılamaq üçün perrona yığışan xalqı salona doldurdular. Bəzi dostlarım rus əsgərlərin xalqın əsirlərə hədiyyə, yemək və içmək verməsini qadağan etdiklərini, bəzi erməni əsgərlərin isə xalqın əsirlərə yaxınlaşmasına belə razı olmadıqlarını xəbər verdilər. Buna görə dərhal mərkəz komandirinin yavərinə vəziyyəti bildirdim. Yavər qatarda iyirmi səkkiz vaqon olduğunu bildirərək, xalqın gətirdiyi hədiyyələrin hər vaqona bir paket düşəcək şəkildə paketlənərək əsirlərə verilməsini istədi. Vəziyyəti xalqa izah etdim və dərhal paketlər hazırlanmağa başlandı.

Qatar gəldikdən sonra səhiyyə heyəti olaraq vaqonlara mindik. Mən əsir əsgərlərə türk dilində aralarında xəstə olub-olmadığını soruşdum. Onlar şaşqınlıq içərisində mənə və rus həkimlərə baxırdılar. Əsirlər müayinə olunmaq istəmirdilər. Bizə inanmadıqlarını görüb danışmağa başladım:

"Hal-hazırda olduğumuz yer Gəncə vağzalıdır və şəhərin əhalisi türkdür. Sizin öz qardaşlarınızdır. Vağzalda bir xəstəxanamız var. Xəstə olan əsgərləri oraya aparacağıq. İstirahət edib, sağlamlığınıza qovuşduqdan sonra yolunuza davam edəcəksiniz".

Bundan sonra gördüm ki, xəstə olmayan əsirlər də xəstəxanaya getmək istəyirlər. Müayinə nəticəsində 40 əsgəri xəstəxanaya göndərdik. Sonra, xəstə olmayan vaqonlara da girdik və bütün əsirlərin hal-əhvalını soruşduq. Rus həkimlər əsirlərə müxtəlif suallar verirdilər. Daha sonra xalq tərəfindən hazırlanan bağlamaları vaqonlara apardıq və "Gəncə xalqından türk qardaşlarına verilmək üçün hazırlanan hədiyyədir", deyərək paylamağa başladıq. Bu zaman gənc bir zabit vaqonun pəncərəsindən bizi çağıraraq onların vaqonuna minməmizi istədi. Oraya da girdik. Zabit bizə dedi:

- Mən xəstəyəm, çox xəstəyəm. İki həftədir heç istirahət etmədik. Vaqonumuzda həkim var, ancaq dərmanımız yoxdur.

Zabit sözünü bitirdikdən sonra həkim olduğu aydın olan biri bizə doğru yaxınlaşdı və xəstənin vəziyyətini bizə anlatdı. Rus həkimlər də öz aralarında söhbət etdikdən sonra mənə dedilər:

- Xəstəni aparaq. Əgər istərsə əsir həkim də bizimlə gəlsin. Bizə yardım edər və beləcə işimiz asanlaşar.

Həkimlərin qərarını, adının Murad olduğunu öyrəndiyim əsir türk zabitinə və həkimə anlatdım. Bu təklifi qəbul etdilər. Hamımız bərabər camaatın olduğu salona girdik. Orada olanlar dərhal ayağa qalxaraq əsirləri salamladı.

Gəncədəki əsirlərin həsrət çəkməməsi üçün şəhərin tanınmış ziyalılarını da vaxtaşırı xəstəxanaya ziyarətə aparırdıq. Xəstə əsirlərin ən çox sevdiyi adam, heç şübhəsiz, şair Əhməd Cavad idi. M.Ə.Rəsulzadənin Bakıda nəşr etdiyi "Açıq söz" qəzeti ilə türkcə nəşr olunmuş kitab və digər nəşrləri də əsir xəstələrə aparırdıq.

Bir gün Gəncənin tanınmış tacirlərindən Hacı Həsən ağa ilə söhbət edərkən, əsirlərə bir ziyafət vermək istədiyini söylədi. Bunu bələdiyyə rəisi Xəlil bəyə bildirdim və rus səlahiyyətlisindən icazə almasını xahiş etdim.

Bir neçə gün sonra Xəlil bəy mənə dedi:

- Hacı Həsənə söylə, gözəl və zəngin bir ziyafət versin. Əsirlərdən başqa, mən, rus rəhbər, mərkəz komandiri, hökumət və bələdiyyə həkimləri ilə şəhərin tanınmış əşrafı da yeməkdə olacağıq.

Ertəsi gün xəstəxananın bağçasında 300 adamlıq təmtəraqlı bir ziyafət verildi. Qonaqlığa Gəncənin nüfuzlu hərbi və sivil rəhbərləri ilə əşrafdan bir çox insan qatılmışdı. Bələdiyyə rəisi Həsən bəy qonaqlıqda etdiyi çıxışında dedi:

- Əsir qardaşlarım! Siz burada özünüzü əsarətdə və qürbətdə saymayın. Ətrafınızdakı şəhər, qəsəbə və kəndlərdə yaşayan əhalinin hamısı da sizin kimi türk millətinə mənsubdur. Sizlərin öz qardaşlarınızdır. Bu ziyafəti sizlərin şərəfinə qardaşımız Hacı Həsən ağa öz pulu ilə verir.

Bu sözlərdən sonra Hacı Həsən ağa oturduğu yerdən qalxaraq belə dedi:

- Xəlil bəy, onlar bizi əsarətdən qurtarmaq üçün vuruşurlar. Onlar bizim üçün canlarını verirlər. Bizim verdiyimiz bir qaşıq şorba onların xidmətlərinin yanında nədir ki?

Azərbaycan türkləri, Sibirə göndərilən xəstə və əsirlərə yardım edən Gənclik Cəmiyyəti ilə bərabər, bir də "Qardaş köməyi" adlı başqa bir gizli təşkilat da qurmuşdular. Bu təşkilatın əsl məqsədi rus işğalı altındakı Şərqi Anadoluda erməni zülmünə və soyqırıma məruz qalan soydaşlarına maddi və mənəvi yardımdı.

Birinci Dünya müharibəsi illərində ermənilərin türklərə qarşı qətliam törətdiyi bir vaxtda, bəzi ailələr Cənubi Qafqaza qaçmışdı. "Qardaş köməyi" təşkilatının üzvləri bu vəziyyətdə olan və sığınacaq bir dama, içəcək isti bir şorbaya möhtac olan ailələri və insanları taparaq ehtiyaclarını qarşılamağa çalışırdı. Azərbaycanın bir çox bölgəsində bu təşkilatın şöbələri açılmış, qardaşları üçün yemək, geyim və pul toplayırdı. "Qardaş köməyi" təşkilatı eyni adla bir qəzet də çıxararaq, yardımların toplanması və ehtiyac sahiblərinin müəyyən olunması üçün kampaniyalar təşkil edirdi.

"Qardaş köməyi" təşkilatı istər Şərqi Anadoluda, istərsə bugünkü Ermənistanın yerləşdiyi torpaqlarda erməni quldurlarının hücumları nəticəsində həyatını itirən türklərin yetim qalan uşaqlarını da axtarıb tapırdı. Ata-anası ölən kimsəsiz uşaqlar üçün uşaq evləri açır, ya da türk ailələrinin yanına övladlığa verirdilər. Məktəbyaşlı uşaqların isə təlim və təhsillərini davam etdirmələri üçün əllərindən gələni edirdilər. Beləliklə, müharibənin qurbanı olan türk uşaqları Azərbaycan türklərinin göstərdiyi səy və qayğı nəticəsində həyata yenidən bağlanırdılar.

Nağı Şeyxzamanlı xatirəsində ata-anasını itirmiş bir uşaq haqqında maraqlı bir hadisə danışır. Şeyxzamanlı bu hadisənin Türk Qafqaz İslam Ordusunun Gəncədə qarşılanması zamanı yaşandığını bildirir.

Bakılı bəzi universitet tələbələri və gənc ziyalılar da gizli bir təşkilat qurmuşdular. Bu təşkilatın üzvləri, rusların Şərqi Anadoluda əsir aldığı zabit və əsgərlərin bir hissəsinin Bakı açıqlarındakı Nargin adasında saxlandığını öyrənmişdi. Bu gizli təşkilatın başlıca məqsədi, Nargin adasındakı əsirləri

qaçırmaqdı. Bundan başqa, Sibirdən qaçıb Anadoluya getməyə çalışan əsir türk qardaşlarını da tapıb onlara yardım etməyə çalışırdı.

Azərbaycan türklərinin milli qüvvələri, Nargin adasında rus əsarəti altında zülm çəkən qardaşlarının dustaqlığını qəbul edə bilmirdilər. Bu gizli təşkilatın önəmli üzvlərindən biri olan Mirzə Seyidli, 1933-cü ildə "Azərbaycan Yurd Bilgisi" adlı qəzetdə çap olunan bir yazıda mövzuyla əlaqəli bu məlumatları vermişdi:

"Türkiyədən gətirilən əsirlərə yardım edən gizli təşkilat sırf tələbələrdən ibarət idi. Sayımız az idi, ancaq Bakıda yaşayan yüksək təbəqə və əşrafın ailələrindən və xanımlarından da ciddi yardımlar alırdıq. Onlar vasitəsilə əsirlərə yeməklə bərabər silah və batareyalı cib fənəri də göndərirdik. Bu xanımlar vasitəsilə xəbərləşdiyimiz bəzi zabit və əsgərləri Nargin adasından qaçırmışdıq. Təşkilatımıza aid qayıqlar, gecəyarısı ada sahilinə gizlicə yanaşırdı. Qaçırılması planlanan türk əsirlər ilə cib lampası vasitəsilə işarətləşirdik. Bu yolla bir çox türk qardaşımızı Nargin adasından qurtarmışdıq.

Bir gün əsir zabitlərdən on altısını adadan qaçırmışdıq. Təşkilata aid qayığı Zığ burnunda bir yerdə gizlətmişdik. Gecə baş verən fırtınada dalğalar qayığın ipini qoparmış və dənizə sürükləmişdi. Ruslar səhər çağı qayığı tapmış və 16 zabitin də yerlərində olmadığını öyrənmişdilər. Rus hərbi səlahiyyətliləri adadakı əsir zabitlərdən 16-sının gecə qaçmağa çalışarkən, baş verən fırtınada qayığın tərs çevrilərək hamısının öldüyünü zənn etmişdilər. Ertəsi gün nəşr olunan rusca qəzetlər bu xəbəri böyük bir sevinclə oxucularına çatdırırdılar. Bu qəzetlər Nargin adasından qaçmağa çalışan türk əsirlərin şiddətli fırtınada dənizdə bataraq öldüklərini və qayıqlarının Xəzər dənizində içi boş olaraq ələ keçirildiyini yazmışdılar. Halbuki türk əsir qardaşlarımız o günlərdə Cəmiyyəti-Xeyriyyəyə aid olan İsmailiyyə binasında gizlənirdilər".

Azərbaycan türkləri, ziyalılar, şair və yazarlar türk ordusunun yardıma gəlməsini hər fürsətdə dilə gətirirdilər. Bunlar arasında Ümümgülsümün şeiri önəmli bir yer tuturdu:

**TURAN TÜTƏYİ**

*Dərdli-dərdli sürükləndim, inlədim,*
*Acı-acı fəryadları dinlədim,*
*Gəldim işdə, dərdim sənə söylədim.*
*Ərzimi dinləyən, soran harada?*

*Unudulmaz dərdim, ovunmaz qəlbim,*
*Gülsə cahan, gülməz mənim taleyim,*
*Gəl yaramı sən özün sar...*

*Duyulmaz dərdimə dərman harada?*

*Dağıtdılar yuvasını bülbülün,*
*Xəzan vurdu yarpağını hər gülün,*
*Susdurdular nəğməsini bir elin,*
*Canana can verən o can harada?*

*Məskənimiz həp fəlakət bucağı,*
*Besterimiz fırtınalar qucağı,*
*Sönmüşdürmü əcəb Türkün ocağı,*
*Anadolu harda, Turan harada?*

*Lənətəmi uğramışız həpimiz:*
*Cavanımız, ixtiyarımız, igidimiz,*
*Bir sahil yoxdurmu çıxa gəmimiz,*
*Ağlaşır analar, duyan harada?*

*Qərib, sürgün, öksüz cocuqlar ağlar,*
*Layla söylər uğultulu dalğalar;*
*Mərhəmət naminə səni haraylar,*
*Ədalət harada, vicdan harada?*

*Səba, yetir sevgilimə sözümü,*
*Mükəddər halımı, gülməz üzümü,*
*Yanıqlı halımı, ağlar gözümü,*
*Aşiqlərin harada, canan harada?*

Nargin adasından qaçırılan, ya da Sibirdən bir yolunu tapıb, Türkiyəyə dönməyə çalışan əsir türk zabit və əsgərləri də Qafqazda yaşayan qardaşlarına yardım edirdilər. Anadolu və Qafqazda müharibənin davam etdiyini öyrənən gənc zabitlər, Azərbaycan türklərinin qurduğu müqavimət birliklərində könüllü olaraq xidmət göstərməyə başlamışdılar. Bilgi, səriştə və təcrübələrini Qafqazın müxtəlif bölgələrində ruslara qarşı qurulan müqavimət təşkilatlarında qardaşlarıyla bölüşürdülər. Bu yeraltı təşkilatlarında, xüsusilə gənc azərbaycanlı türklərə, təşkilatlanma, kəşfiyyat, silahdan istifadə etmə və hərbi təlim dərsləri verirdilər.

Əsarətdən qurtarılan türk zabitləri arasında olan Hüsaməddin Tuğaç, Osmanlı dövlətindən hərbi yardım istəmək üçün İstanbula göndərilən Azərbaycan heyətində də yer almışdı. Müzəffər Tuğsavul isə Qafqazdakı vəzifəsinin sona

çatmasından sonra Türkiyəyə dönmüş, Milli Mücadiləyə qatılmış və Türk Silahlı Qüvvələrində ordu generalı rütbəsinə qədər yüksəlmişdi.

Azərbaycan mənbələri, Şəkidə təşkil edilən könüllü birliklərə türk zabitlərindən Bədri və Sidqi bəylərin rəhbərlik etdiyini qeyd edir. Rus bolşevik və erməni daşnak qüvvələrindən ibarət olan Qızıl Ordu birlikləri Şamaxını işğal etdikdən sonra Göyçay və Qutqaşen istiqamətinə yönəlmişdi. Bədri və Sidqi bəylərin rəhbərlik etdiyi könüllü müqavimətçilər çalışmalarını sürətləndirmişdilər. Bu çalışmaların davam etdiyi tarixlərdə Gəncəyə girən Türk Qafqaz İslam Ordusu komandanı Nuru Paşa Şəki bölgəsi komandirliyinə Bədri bəyi təyin etmişdi. Qutqaşen bölgəsində yürüdülən müqavimət hərəkatının daha nizamlı davam etdirilməsi üçün də Sidqi bəyi bu bölgəyə göndərmişdi. Zaqatalada qurulan könüllü müqavimət birliklərini təşkilatlandırmaq üçün isə Haqqı və Ələddin bəylərə tapşırıq vermişdi.

**5.Rusiyadakı bolşevik ixtilalının cəbhəyə təsiri:**

Rusiyada 1916-cı ilin payızından etibarən rahatlıq və sabitlik pozulmuşdu. Ölkədə sosial tarazlıq yox olmuş, xalq yüksək infilasiya və yoxsulluğun pəncəsində qıvrılmağa başlamışdı. Rus çarlığının paytaxtı Sn.Peterburqda baş verən nümayiş və tətillər idarəni təhdid edəcək ölçüyə çatmışdı. Rusiyanın içinə düşdüyü bu anarxiya şəraiti gedərək idarəyə qarşı bir üsyana dönmüş, bu durumdan Şərqi Avropa və Qafqazdakı cəbhələrdə olan rus hərbi birlikləri də təsirlənməyə başlamışdı. Rus ordusu 1917-ci ildə savaş, aclıq, xəstəlik və nizam-intizamsızlıq üzündən təxminən 100 min əsgərini itirmişdi. İxtilal cərəyanının ordu arasında sürətlə yayılması, savaşma istəyini ortadan qaldırmış və əsgərlərin kütləvi halda fərarilik etməsinə yol açmışdı.[48]

Rus çarının 12 mart 1917-ci il tarixində taxtdan çəkildiyini açıqlaması ilə Romanov sülaləsi tarixə qarışdı. Peterburqda 16 martda sosialist menşeviklər, Kerenski rəhbərliyində keçici bir hökumət qurdu.[49] Bu hökumət savaşın davam etməsini istəyirdi. Rus ordusu Alman cəbhəsində əsas bir hücuma keçdi, ancaq ehtiyatda olan əsgərlərin savaşmaq istəməməsi üzündən uğursuzluğa düçar oldu. Rus xalqı və ordusu savaşdan təngə gəlmişdi. Bu və buna bənzər uğursuzluqlar nəticəsində idarə avtoritetini itirdi. Kəndlilər, torpaq sahibləriylə zənginlər və əsilzadələrin evlərini və əkin sahələrini talan etməyə başladılar. Əsgərlər komandirlərini öldürür, kütləvi şəkildə fərariliklər baş verirdi. Ordudakı nizam-intizam tamamilə ortadan qalxmışdı.

Rusiyada meydana gələn ixtilaldan və Rus çarının vəzifəsindən çəkilməsindən sonra, Şərqi Anadolu və İranda yaşayan ermənilər, Azərbaycan və Şimali Qafqazın müxtəlif bölgələrinə köç etməyə başladılar. Ərdahan, Qars, Oltu, Artvin, Təbriz və buna bənzər bir çox bölgədə yaşayan ermənilər axın halında

Cənubi Qafqaza qaçırdılar. Ermənilərin Cənubi Qafqaza köçü savaşın ilk günlərində başlamışdı. Rus səlahiyyətliləri tərəfindən hazırlanan raportlarda evlərindən qaçan ermənilərin sayının 120 mini keçdiyi haqqında bilgilər var idi. Bakıya isə yalnız 1915-ci ilin avqustunda 1820 erməni getmişdi.

Rusiyanın Qafqaz Baş İdarəsi ermənilərin bölgəyə köç etməsindən məmnun deyildi. Paytaxta göndərdiyi raportlarda əsasən ermənilərin yerlə, yemək və içməklə təmin edilməsində yaşanan çətinliklərə diqqəti çəkirdi. Göndərilən "gizli" və "çox gizli" ibarəli yazılarda isə ermənlərin bölgədə asayişi poza biləcəkləri bildirilir və Rusiya dövlətinə qarşı muxtariyyət, ya da müstəqillik istəkləriylə üsyan edə biləcəklərinin göz ardı edilməməsi gərəkliyi qeyd edilirdi. Qafqaz Baş Valiliyi bu görüşlərini savaş başlamazdan öncə də sıx-sıx dilə gətirirdi.

4 sentyabr 1915 tarixli "Bakı qəzeti"ndə yer alan "Ermənistanın göz yaşları" başlıqlı məqalədə Türkiydə təxminən 1.200.000 erməni yaşadığı bildirilərək, "savaşın sonuna qədər bunlardan əcəba neçəsi həyatda qalacaq?", deyə soruşulur və "Onlardan 200.000 nəfərinin Cənubi Qafqaza köç etdiyi" bildirilirdi. Həmin qəzetin 8 sentyabr tarixli sayında isə Cənubi Qafqaza köçən ermənilərin sayının 250.000 olduğu yazılmışdı.

Bakıdakı Ermənilərə Yardım Komitəsinin sədri Ter-Mikaelyan, Rusiyanın Qafqaz Köçkünlərinə Yardım Xidmətlisi general Tamamşevə göndərdiyi 18 dekabr 1915 tarixli məktubda Bakıya gələn ermənilərdən yaşlı, qadın və uşaqların sayının 2.300 nəfərə çatdığını bildirmişdi. Qafqaz Erməni Yardım Mərkəzi Heyətinin sədri və Erməni Mərkəz Komitəsi rəisi Arutunov da Rusiyanın Qafqaz Baş İdarəsi Komandanlığına göndərdiyi 18 yanvar 1916-cı il tarixli məktubda 1 avqust - 1 dekabr 1915-ci il tarixləri arasında Bakıya 3.200-ü erməni olmaq üzrə 4.690 nəfərin köç etdiyini yazmışdı.[50]

Zaqafqaziyada ermənilər ilə yerli türklər arasında qısa müddətdə sürtüşmə başladı. Gəncə valisi 4 iyun 1914/1440 tarix və saylı gizli raportunda bölgədəki türklər ilə ermənilər arasında anlaşmazlığın gedərək arta biləcəyini bildirirdi.

Rus Qafqaz İdarəsi Mülki İşlər Yardımçısı Peterson Bakı valisi Alışevskiyə göndərdiyi 9 avqust 1914/1457 tarix və saylı "gizli və şəxsi" məktubda bölgədə türk-erməni qarşıdurması çıxa biləcəyi xəbərdarlığını edərək, ermənilərin türklərə hücum etmək üçün fürsət gözlədiklərini və imkan tapa bilərlərsə bu hücumlara hər an başlaya biləcəklərini bildirdi. Peterson ermənilərin müsəlmanlara qarşı indilik açıq düşmənçilik göstərmədiklərini, ancaq bəzi davranışlarının da yaxşı qonşuluq münasibətlərinə uymadığını yazdı. Qafqazda erməni-türk qarşıdurmasına Rusiyanın idarəçiliyində olan digər bölgələrdəki türklərin laqeyd qala bilməyəcəyini xatırladan Peterson iki xalq arasında toqquşma çıxması halında o bölgənin yüksək polis məmurlarını dərhal vəzifədən alınacaqlarını da vurğuladı.

Ermənilərin ruslar tərəfindən silah altına çağırılması Qafqazda yaşayan türklər arasında narahatlığa yol açmışdı. Tiflis Jandarma İdarəsi rəisi albay Pastryulin 28 sentyabr 1914/5174 tarix və saylı gizli teleqrafda belə yazırdı:

"Agentlərimizin verdiyi bilgiyə görə, erməni könüllülərin silah altına çağırılması, müsəlman xalqı ciddi biçimdə rahatsız etmişdir. Müsəlman əhali ermənilərin özlərinə qarşı savaşacağına inanır. İrəvan sakini Molla Məşədi Məmmədli oğlu özbaşına əvvəlcə Bakıya, ardından Gəncəyə gedərək, müsəlmanları durumdan xəbərdar etmişdir".

Qafqaz Baş Valiliyi Yazı İşləri müdiri Pisarski Bakı Şəhər rəisi və general-qubernatorlara göndərdiyi 24 dekabr 1914/2682 tarix və saylı çox gizli və şəxsi məktubda ermənilər və türklərin münasibətlərini diqqətlə izləmələrini istəyir və iki xalq arasında anlaşılmazlıq çıxmaması üçün erməni birliklərini öncədən müəyyən olunan yerə göndərməyi təklif edirdi. Məktubda bildirdiyinə görə, ermənilərin etdiyi basqı və təhdidlər səbəbindən türklərin qəzəbləndiyi anlaşılırdı.[31]

Rusiyanın paytaxtı Peterburqda dövlət avtoritetinin itməsi, ordunun enerjisini və savaş qabiliyyətini itirmiş olduğu və kəndlilərin torpaq və daha yaxşı həyat şərtləri istəklərinin zirvəyə çatdığı bir dövrü gətirdi. Bolşeviklərin ideoloqu olan Lenin Rusiyadakı bu qeyri-müəyyənlik dövründə 8 noyabrda İsveçrədən Peterburqa getdi. Trotski rəhbərliyindəki ixtilalçı kommunist bolşeviklər bir çevriliş edərək hökuməti ələ keçirdilər.[52]

Rusiyadakı hakimiyyət qovğası və ölkədə sabitliyi təmin edə bilməyən bolşeviklər savaşı ən qısa müddətdə sona çatdıracaq barış anlaşmasının yollarını aramağa başladılar. Bu çərçivədə hökumətin ilk göstərdiyi fəaliyyət, çarın bağladığı gizli müqavilələri dünya ictimaiyyətinə açıqlamaq oldu. Savaşdan öncə və savaşın davam etdiyi illərdə Antanta dövlətləri bəzi müqavilələr bağlamışdılar. Bunlardan ən sonuncusu və ən geniş əhatəlisi də 1916-cı ildə imzalanan Sykes-Pickot müqaviləsi idi.[53]

Bu müqavilələrdən də göründüyü kimi, Birinci Dünya müharibəsində Antanta dövlətləri arasında bağlanan gizli müqavilələrdə Osmanlı dövləti tamamən bölüşdürülürdü. Türklərə isə Nevşehir, Kırşehir, Ankara, Çankırı, Kastamonu, Eskişehir və Bursa saxlanılırdı.[54] Sykes-Pickot müqaviləsinə görə, Qafqazdan başlayan və İskəndərun körfəzi ilə Çuxurovaya qədər uzanan böyük bir Ermənistan dövləti qurulacaqdı. Ərəbistan yarımadası isə Osmanlı dövlətindən ayrılaraq, bir Ərəb dövləti təşkil ediləcəkdi. Krallığına da indiki İordaniyada olan Haşimi sülaləsindən Şərif Hüseyn gətiriləcəkdi. Ərəbistanın xaricində Suriya və Livan fransızların, İraq və Fələstin isə İngiltərənin himayəsinə veriləcəkdi. Türkiyənin bölüşdürülməsi ilə əlaqəli plan Rusiyaya bildirilincə Peterburq idarəsi bunu dəstəkləməklə bərabər, İstanbul və Çanaqqala boğazlarındakı istəyinə əlavə olaraq, Şərqi Anadoluda Van və Ərzurum ilə Trabzon və ətrafının da özünə aid olduğunu

bildirdi. Bundan başqa bu bölgəni ermənilərə verməyəcəyini də bildirdi. İngiltərə Rusiyanın bu istəyini qəbul etmək məcburiyyətində qaldı. Erməni məsələsini hadisələrin gedişinə tərk etmişdi. Digər tərəfdən, bu proqramın həyata keçməsi halında, İngiltərə, Rusiya ilə ortaq sərhədə sahib olacaqdı. Bunu da istəmirdi. Bu məqsədlə, Rusiya ilə arasında ya kiçik bir Ermənistan, ya da bir Kürdüstan dövləti qurmanın maraqlarına daha uyğun olacağı nəticəsinə gəldi. Dərhal hərəkətə keçərək kürdləri, Diyarbəkir, Urfa və Mosul ilə ətrafını əhatə edən bir dövlət qurmaları üçün təhrik etməyə başladı. Bu durumu öyrənən Fransa etiraz edərək Vandan Çuxurovaya qədər olan bir koridorun Suriya və Mosul daxil olmaqla özünə verilməsini istədi. İngiltərə bu istəyə də qarşı çıxa bilmədi.[55]

Bu qarışıq istək və bölüşmə çərçivəsində Osmanlı dövlətinin torpaqları Antanta dövlətləri arasında sanki məzada çıxarılmış və bölüşdürülmüşdü:

- Rusiya Boğazlar ilə Şərqi Anadolunu,
- Yunanıstan İzmir və ətrafını,
- İtaliya Antalya və həvalisini,
- Fransa Çuxurova, Suriya və Cənubi Azərbaycana qədər uzanan bir koridoru,
- İngiltərə İraq və Fələstini alırdı.
- Ərəbistan isə ayrı bir dövlət olurdu.

Antanta dövlətləri arasındakı gizli müqavilələr bununla da qalmadı. Rusiyada Fevral ixtilalı başlayana qədər həm üçlü müttəfiqlər arasında, həm də İngiltərə ilə digər ortaqları arasında bağlanan ikili müqavilələr davam etdi.

İngiltərə Rusiyanın savaşdan çəkildiyini görüncə Şərqi Anadolu və Qafqazda bir Ermənistan, Qara dənizin Şərq sahilində Yunan Pont dövləti, Cənub-şərqi Anadolu və Mosul bölgəsində Kürdüstan, Boğazlarda bir Boğaz dövləti və Orta Anadoluda da Türkiyə olmaq üzrə beş kiçik dövlət qurulmasına qərar verdi. Qərbi Anadolu yunanlara, Antalya və çevrəsi də italyanlara verilirdi. Bəsrə körfəzi, Ərəbistan yarımadası və Fələstində isə on ayrı dövlətin təməllərini atırdı. İngiltərə, bu əhatədə Osmanlı dövlətini **"böl-parçala-ud"** anlayışı çərçivəsində ortadan qaldırmağa və imperialist əməllərini həyata keçirməyə çalışırdı.

Rusiyada ixtilal bütün sürətiylə sürərkən, Rus Qafqaz Orduları komandiri Qrandyuk Nikolay vəzifəsindən alındı, yerinə ordu qərargah rəisi general Yudeniç gətirildi. General Yudeniç bütün çalışmalarına rəğmən ordudakı fərarilərin qarşısını ala bilmədi. Yudeniç ixtilala da qarşıydı. Nəhayət, 1917-ci ilin iyununda Yudeniç də istefa etdi və yerinə general Perjevalski təyin edildi. 1917-ci ilin dekabr ayında Qafqaz cəbhəsində rus ordusundan 200.000 nəfər əsgərlikdən qaçmışdı. Cəbhədə ancaq 40.000-ə yaxın əsgər qalmışdı.[56]

Türklərin, rus ordusundakı çözülmə haqqında vaxtında məlumat ala bilmədiyi və ya toplanan bilgilərin lazım gəldiyi kimi dəyərləndirilə bilmədiyi aydın olur. Kifayət qədər kəşfiyyat bilgisinə sahib oluna bilsəydi, rusların rahatca geri çəkilməsinə imkan verilməyə bilərdi. Budan başqa geri çəkilən rus hərbi birliklərinin yerini erməni silahlı bandalarının alması və arxa cəbhədəki türkləri qətlə yetirməsinin də qarşısı alına bilərdi.

General Perjevalski əlində qalan hərbi birliklərin türk ordusu tərəfindən məhv edilməsinə fürsət verməyəcək şəkildə geri çəkilmə hazırlıqlarına başladı. Ruslar Qafqaz Ordusundakı çözülmənin türklər tərəfindən vaxtında xəbər alına bilmədiyini qəti olaraq anlamışdılar. Geri çəkilmə hazırlıqlarının gizlənməsi məqsədiylə eyni günlərdə atəşkəs etmək üçün türk hərbi məqamlarına baş vurdular. Nəhayət, 18 dekabr 1917-ci ildə Ərzincan mütarikəsi (atəşkəs haqqında müqavilə) imzalandı. Osmanlı dövləti bu mütarikədən heç bir qazanc əldə edə bilmədi.[57]

Ruslar mütarikə imzalamaq istədiklərini Mosuldakı 6-cı Orduya da bir teleqraf çəkərək bildirmişdilər. Bir həftə davam edən müzakirələrdən sonra 1 yanvar 1918-ci ildə mütarikə imzalandı. Yüzbaşı Səlahəddin bəy bu mütarikənin imzalanmasından sonra baş verən hadisələri xatirəsində belə anladır:

"Bu heyət getdikdən sonra Azərbaycanlı bir heyətin gəldiyini, 13-cü korpusdan bildirdilər. Heyət, Mosula gəldiyi zaman bizdən istədikləri şeyi anladıq. Rusiya artıq dağılmışdır, belə bir dövlət yoxdur. Çarlıq idarəsi altında yaşayan bütün millətlər üsyan qaldırmış, azadlıq istəyirlər. Qafqaz türkləri də bir dövlət və hökumət qurmaq üçün bizim yardım etməmizi arzu edirlər".

Bu istək başkomandanlığa yazıldı. Başkomandanlıq da Azərbaycan heyətinin yanına bir neçə zabit verilərək, Azərbaycanda bir incələmə və araşdırma aparılmasını əmr etdi. Bundan sonra kurmay yüzbaşı İsmayıl Berkok, yüzbaşı Sarıgözəlli Midhət, topçu teymen (leytenant) Müzəffər bu heyətlə Qafqaza göndərildi.

Heyət Mosul-Kərkük-Bana yolu ilə Cənubi Azərbaycana keçdi və Təbriz-Culfa yolu ilə Gəncəyə çatdı. Sonra Bakı və Şimali Qafqaza getdi.

Xəlil Paşa Kərkükdə ikən Başkomandanlıq Vəkalətindən bir teleqraf aldıq: "Azərbaycanda baş verəcək hərəkat və qurulacaq hökumət üçün kimi münasib görürsünüz? Bir həftə öncə Trablisqərbdən gələn yarbay Nurunumu, yoxsa albay Kazım bəyimi (Qarabəkir)?" deyə soruşurdu, Ənvər paşa. Nuru bəy Ənvər paşanın qardaşıydı və 1909-cu ildə zabit olan bu sinif hələ yüzbaşı rütbəsindəydi. Nuru bəy yarbaylığa yüksəlmişdi. Ənvərin və Nuru bəyin əmisi olan Xəlil paşa bu işə Kazım bəyin münasib olduğunu yazmışdı".

Ənvər paşa ruslarla Ərzincan mütarikəsinin imzalandığı günlərdə Orta Asiyada xidmət edəcək xüsusi qüvvələri gücləndirməyə çalışırdı. Yüzbaşı Səlahəddin bəy bu mövzuda deyir:

- Kərkükdən Mosula döndüyümüz zaman başkomandanlıqdan yeni bir şifrə aldıq. Belə idi:

"Əfqan kralının yanında çalışmaq üçün, yüz min altın verərək bir zabit göndərmək istəyirəm. Tövsiyə edəcəyiniz bir zabit varmı?"

Xəlil paşa bir həftə sonra şifrəyə cavab verdi:

"Yavərim teymen Səlahəddin bəyi bu işə tövsiyə edə bilərəm".

Komandan bu şifrəni yazmaq üçün mənə verdiyi zaman etiraz etdim. "Mən bu işi görə bilmərəm, nə bilgim, nə də durumum əlverişlidir" dedim.

Xəlil paşa, "Bu halda ediləcək şeyi zatən kimsə bilməz. Vətənini sevən, ölümdən qorxmayan, qadına, pula, içkiyə qarşı zəif olmayan hər adam bu işi görər. Sən də görərsən" dedi.[59]

3-cü Ordu komandanı Vəhib paşa, geri çəkilən general Perjevalskiyə 4 fevral 1918-ci ildə bir məktub göndərərək, rus ordusunun boşaltdığı yerlərdə ermənilərin türklərin qətlini dayandırmaq üçün irəli hərəkata başlayacağını bildirdi. Bu hərəkatın ruslara qarşı düşməncəsinə bir davranış olaraq dəyərləndirilməməsi gərəkdiyini də xüsusi bildirdi. Bu məktubdan da anlaşılır ki, Vəhib paşanın o tarixə qədər rusların Qafqaz Ordusundakı çözülmənin ölçüsü haqqında bir bilgisi yox idi. Halbuki general Perjevalskinin əmrində, sistemli ordu bir yana dursun, heç doğru-dürüst tabor və ya alay belə qalmamışdı. Çünki 1917-ci il dekabr ayının əvvəlində əmrində təxminən 40 min əsgər var idi və onların da böyük bir hissəsi fərarilik etmək üçün fürsət axtarırdı.

Ruslara əsir düşdükdən sonra bir yol tapıb qaçan və Trabzona çatan süvari teymen Hüsaməddin bəy (əməkli kurmay yarbay Hüsaməddin Tuğaç), Suşəhrində bulunan 3-cü Ordu qərargahına gedərək, komandan Vəhib paşaya Qafqazdakı durum haqqında təfsilatı ilə məlumat verdi. Teymen Hüsaməddin bəyin anlatdıqları tamamən müşahidə, incələmə, təmas və şəxsən dinlədiklərindən meydana gəlirdi. Bu baxımdan birinci dərəcədə önəmli bir qaynaqdı.[60]

Hüsaməddin bəyin raportu xülasə olaraq bu şəkildəydi:

-Qafqaz cəbhəsində rus ordusu adında sistemli heç bir qüvvə qalmamışdır.

-Azərbaycandan keçərək Rusiyaya getmək istəyən rus əsgərlərinin qatarları Gəncə yaxınlarında yerli xalq tərəfindən dayandırılaraq silahları alınmaqdadır.

-Tiflisdəki ingilis və fransız hərbi təmsilçiləri cəbhəni tərk edən Çar Rusiyası ordusunun yerini doldurmaq üçün erməni və gürcülərdən bir korpus və Cənubi Qafqazdakı ruslardan da bir tümən təşkil etməyə çalışmaqdadırlar.

- Azərbaycan silahlanmaq və hərbi təşkilat qurmaq üçün Tiflisdəki Seym hökumətinə baş vurmuşdur. Fəqət bu hökumət ilə ingilis və fransız hərbi təmsilçiləri, Azərbaycanlılara güvənmədikləri üçün türklərin silahlanmasında bir sıra çətinliklər çıxarmaqdadırlar. Azərbaycanlı türklər Şimali Qafqazda olduğu

kimi, milis (silahlı xalq qüvvələri) təşkilatı qurmaqdadırlar. Milislərin silahlanması üçün də rus əsgər qatarlarını soyaraq ləvazimat əldə etməkdədirlər.

-Ermənilərin kütləvi qətliamından qorxan Azərbaycanlı türklər türk ordusunun onları qurtarmasını gözləməkdədir.

-Erməni və rus bolşeviklərin Bakıdan başlayıb bütün Azərbaycanı əhatə edən bir hücum planları vardır. Bu birləşmiş qüvvələr Qafqazdakı yerli türkləri öldürüb, bölgədə bir etnik təmizləmə aparmaq istəməkdədirlər.

-Erməni Daşnak komitəsi rus ordusunun tərk etdiyi şərq vilayətlərində bir nəfər də müsəlman saxlamamaq üçün kütləvi qırğın planı hazırlamışdır. Daşnak Mauzer Tugayı bu bölgədə cinayətlərə girişmişdir.

Rus ordusu hərəkat meydanında və arxa bölgələrdə bir çox ərzaq və geyim ilə hərbi alət və materiallar buraxmışdır.[61]

Doğruluğu haqqında heç bir şübhəyə yer buraxmayan bu açıqlamalardan sonra Hüsaməddin bəy raportunda bu görüşlərə yer verməkdədir:

"Ordumuz vaxtı uzatmadan irəli hərəkata keçməlidir. Hərəkat nə qədər gec olarsa, ermənilərin türklərə qarşı girişdiyi kütləvi qırğın o qədər geniş olacaqdır. Ruslardan qalan hərbə lazımlı maddələrin bəlkə də hamısının ermənilər tərəfindən ələ keçirilməsi ehtimalı vardır".

Vəhib paşa Qafqaz haqqındakı raportu diqqətlə incələdikdən sonra Hüsaməddin bəyin göstərdiyi bu xidmətin çox böyük olduğunu söylədi. İndiyə qədər Qafqazdakı cəbhə arxasından belə əhatəli bir raportu ilk dəfə aldıqlarını, ordunun da bir çox əskiyi və sıxıntısı olduğunu bildirərək, irəli hərəkata may ayında başlamağı düşündüklərini bildirdi və "indi təkər dönməz" dedi. Vəhib paşa başkomandan vəkili Ənvər paşa ilə teleqraf xəbərləşmələrindən sonra Hüsaməddin bəyə "Əlimizdə bu qədər əhatəli bir raport yoxdu. 3-cü Ordunun hərəkatını sənin raportuna isnad etdirəcəyəm" demişdi.

Hüsaməddin bəy Vəhib paşaya bu cavabı verdi:

"Paşam, irəliyə doğru atılacaq hər addım sizi bol-bol ərzağa və geyim əşyasına, sayıla bilməyəcək qədər çox nəqliyyat vasitəsinə, hərbi ləvazimatlara və ordu üçün lazım olan hər cür maddələrə qovuşduracaqdır. Rusların tərk etdiyi nəqliyyat vasitələri, mekkarilər və atlar nəzarətsiz qalmışdır. Hərəkat geciksə, bunlara ermənilər sahib çıxa bilər və gec qalınmış ola bilər".[62]

Süvari teymen Hüsaməddin bəyin raportundan da anlaşıldığına görə, Şərqi Anadoluda rusların boşaltdığı bölgələri, Azərbaycanda və Cənubi Qafqazın hər yerində rus hərbi birliklərinin boşaltdığı yerləri erməni daşnak qüvvələri sürətlə dodururdu. Rus ordusunun ağır və yüngül silahları ilə nəqliyyat vasitələrinə işə yarayacaq heyvanlara, və bütün əşyalara əl qoyurdular. Türklər isə yalnız Gəncə ətrafında saxladıqları qatarlardan piyadaların tüfənglərini ala bilirdilər. Onun da

sayı son dərəcə az idi. Üstəlik Vəhib paşanın "təkərlərini döndərmədiyi mövsümdə" önündə heç bir hərbi qüvvə də yox idi.

Rus general Karqanov 1918-ci ildəki hərbi hərəkata aid yazısında Hüsaməddin bəyin anlatdıqlarını doğrulayır. Karqanov Qafqaz cəbhəsindən çəkilən rus hərbi birliklərinin yerini tutan erməni qüvvələrini bir ovzu tüməni, üç piyada tugayı, üç süvari alayı ilə bir alay və tabor halındakı müstəqil birliklər olmaq üzrə cəmi 36 piyada taboru olaraq göstərməkdədir. O tarixlərdə erməni qüvvələri arxa təşkilatları ilə birlikdə 50 min nəfər olaraq təxmin edilirdi.[63]

Bu hadisələr çərçivəsində və Ənvər paşanın da ani qərarlar verməsinə alışıq olan Vəhib paşa 3-cü Orduya bağlı korpuslara 28 yanvar 1918-ci ildə bir əmr verərək, işğal altındakı torpaqların qurtarılması üçün hər an bir irəli hərəkata başlana biləcəyini bildirdi. Bu əmrin verilməsinin üçüncü günündə bütün birliklərin irəli hərəkət etmələri zərurəti yarandığından, gərəkli hazırlıqların tezliklə başladılmasını istədi.[64]

Başkomandanlıq Vəkaləti 3-cü Orduya hərəkət sərbəstliyi vermişdi. Bununla bərabər, irəli hərəkatda gərəksiz durğunluqlara meydan verməmək üçün hazırlıqların qısa müddətdə başa çatdırılmasını əmr etdi. Bu sistemləşdirmələr aparılarkən 1-ci Qafqaz Korpus Komandanlığına təyin olunan albay Kazım bəy (Qarabəkir) də 28 yanvar 1918-ci ildə Refahiyyəyə gedərək korpusun əmr və komandasını təhvil almışdı.[65]

Vəhib paşa komandanlığındakı 3-cü Ordu 5 fevral 1918-ci ildə ermənilərə qarşı hərəkətə keçmə qərarı aldı və bunu 7 fevralda tətbiq etməyə başladı. Bitlisdən Qara dəniz sahilindəki Tireboluya qədər olan cəbhə xəttinin şərqinə hərəkət etdi. Türk ordusu altı qoldan irəli hərəkatı sürdürərək, 7 fevraldan 26 marta qədər Kelkit, Ərzincan, Bayburt, Tercan, Trabzon, Malazgirt, Hınıs, Ərzurum, Köprüköy, Tortum və Oltunu düşmən işğalından qurtardı. Türk əsgəri Vana isə 8 apreldə girdi. Rus və ermənilərin qorxunc şəkildə qətliam törətdikləri və şəhəri tamamən xarabaya çevirdikləri göründü. Türk ordusu beləcə Birinci Dünya müharibəsinin başladığı 1914-cü ildən əvvəlki şərq sərhədlərinə çatmış oldu.[66]

Türk ordusunun irəli hərəkatında ermənilər geri qaçarkən qarşılarındakı türk kəndlərin hamısını yandırmışdılar. Hərbi hərəkatı idarə edən korpus komandiri albay Kazım bəy 25 sentyabr 1919-cu ildə Ərzuruma gedən amerikan generalı Harbord və onu müşayət edən heyətə təqdim etdiyi raportda ermənilərin türklərə qarşı törətdiyi qətliamın sənədlərini vermişdi. 3-cü Ordu komandanı Vəhib paşa da Başkomandanlıq Vəkalətinə göndərdiyi raportlarda insanın ağlına gəlməyəcək dərəcədə vəhşilikləri gözlər önünə sərmişdi.[67]

**6.Şərq Cəbhəsində müharibənin sona çatması:**

Rusiyadakı 1917-ci il bolşevik ixtilalı dünyadakı tarazlığı dəyişdirdi. Müharibənin gedişatı da bundan böyük ölçüdə təsirləndi. Bolşeviklər idarəyə əl

qoyduqdan qısa bir müddət sonra çar idarəsi ilə ingilislərin arasındakı gizli anlaşmaları açıqladılar. Bu anlaşmalara görə, Osmanlı dövləti ilə Avstriya-Macarıstan imperatorluğu və Almaniya haqqındakı gizli sənədlər ortaya çıxdı.[68]

Bolşeviklər ölkədəki anarxiya vəziyyətində Kerenskinin qurduğu keçici hökumətə qarşı üç önəmli şüarla ortaya çıxdılar. Bunlar, müharibəyə dərhal son verilməsi, barış təmin edilməsi və kəndliyə torpaq paylanması idi. Bu təbliğatlar qısa müddətdə təsirini göstərdi və Şərqi Avropa ilə Qafqazdakı rus ordusuna bağlı hərbi birliklər dağıldı, bolşeviklər fəhlə, kəndli və yoxsul təbəqənin dəstəyini təmin etdi. Ölkədəki bu anarxiya vəziyyətində Lenin 8 noyabrda Peterburqa gedərək gizli anlaşmaların açıqlanacağı, hər millətə öz gələcəyini təyin etmə haqqı tanınacağı, kəndliyə torpaq paylanacağı, hər kəsə iş və yemək veriləcəyini qeyd edirdi. Rusiyada qanlı bir ixtilalla iş başına gələn marksist-bolşeviklər ixtilalın qısa müddətdə Almaniya, Avstriya-Macarıstan ilə İngiltərə və digər Avropa ölkələrinə yayılacağını düşünürdülər. Fəqət gözlənilənin əksinə Leninin bu düşüncəsi gerçəkləşməmişdi.[69]

Rus çarlarının basqı, şiddət və zülmü altında inləyən Qafqaz və Orta Asiyadakı türk və müsəlman xalqların liderləri və ziyalıları da Leninə dəstək verərək, rusların boyunduruğundan qurtula biləcəklərini umurdular.[70] Ancaq aradan on il belə keçmədən, Leninin verdiyi sözlərin heç birinin üstündə durmadığı görüldü. Türkçülük və turançılıq əsaslarıyla başda Sultan Qaliyev olmaq üzrə, Zəki Vəlidi Toqan və Məmməd Əmin Rəsulzadə kimi önəmli türk ziyalıları və liderləri qısa müddətdə ya ortadan qaldırıldı, ya da vətənlərindən qaçmağa məcbur edildi.

Rusiyadakı bolşevik idarəsi iş başına gəlmədən öncə müharibənin sona çatması üçün verdiyi sözlərdən birinin üstündə duraraq, İttifaq dövlətləri ilə atəşkəs istədi. Buna görə bütün cəbhələrdə 15 dekabr 1917-ci ildən etibarən atəşkəs müqavilələri imzalanmağa başladı. Barış görüşmələri üçün Almaniya, Avstriya-Macarıstan və Osmanlı dövləti ilə Sovet Rusiyası təmsilçiləri Brest-Litovsk şəhərində 22 dekabr 1917-ci il tarixində toplandı.[71]

Sovet heyətinə bir müddət sədrlik edən Leon Trotski Almaniya və Avstriyada marksist-kommunist bir ixtilal çıxacağını düşünərək, görüşmələri uzatmaq istəyirdi. Almaniya isə bir an əvvəl barış imzalayıb, şərq cəbhəsindəki qüvvələrini ingilis və fransız cəbhəsinə sürmənin təlaşındaydı.[72]

Osmanlı dövləti isə Şərqi Anadolu ilə Qars, Ərdahan və Batumdakı rus işğalının təcili olaraq sona çatmasını və bu bölgənin özünə verilməsini istəyirdi. Mütarikə imzalandıqdan sonra da Qafqazdan Suriya və İraq cəbhələrinə əsgər nəql etmənin hesabını görürdü. Bundan başqa Azərbaycan, Dağıstan və Qafqazda yaşayan türk və müsəlman xalqların müstəqilliklərini qazanmaları və bölgədə bir dövlət qurmaları üçün cəhd göstərirdi. Türklərin bu arzusu bolşevik Rusiya heyəti tərəfindən şiddətlə rədd edildi. Ruslar da bölgədə yaşayan türk və müsəlman

xalqlara geniş səlahiyyət və haqlar verəcəklərinə dair vəd verməklə kifayətləndilər. Almanlar isə Bakı neftinə sahib olmaq üçün gizli planlar hazırlayırdı. Bu üzdən Qafqazda qurulacaq "İslam dövləti" fikrinə dəstək vermirdilər.

Osmanlı dövlətinin müttəfiqinin maraqlarını qoruyaraq, ağır qış şərtlərində Qafqaz cəbhəsində hücuma keçmiş olmasına və 90.000 övladının şəhid düşməsinə rəğmən almanların barış görüşmələrində öz maraqlarını sonuna qədər müdafiə etmələri və türklərin istəklərinə qarşı çıxmaları, üzərində durulması gərək olan önəmli bir məsələdir.

Brest-Litovsk barış görüşmələri sırasında bölgənin durumuna qısaca baxmaqda fayda vardır. Rusların Qafqazdakı ordusu dağılmış, Şərqi Avropadakı cəbhəsi də çökmüşdü. Ölkə böyük bir xaosun içində çalxalanırdı. Xalqın və əsgərlərin savaşacaq gücü və istəyi də qalmamışdı. Osmanlı Ali Baş Qərargahı bu şərtləri lazımi ölçüdə dəyərləndirə bilməmişdi.

Qafqazda erməni bandalarından başqa Osmanlıların önündə heç bir hərbi güc qalmamışdı. Brest-Litovsk barış görüşmələrini gözləmədən fevral ayında başladılacaq bir hərbi hərəkatın Dağıstan və Şimali Qafqaza qədər genişləndirilməsi mümkündü. Düzdür, Suriya, Fələstin, və İraq cəbhələrində durum çox parlaq deyildi, ancaq İngiltərə, Fransa və İtaliya kimi işğalçı güclər də son dərəcə ağır şərtlərdə savaşa davam etmək durumunda idilər.

Ruslar 1800-cü illərin əvvəlində Şimali Qafqazda nəzarəti təmin etməyə çalışırdılar. Ancaq Dağıstanda 1810-cu ildə başladılan dirəniş, İmamlar dövründə zirvə nöqtəsinə çıxmışdı. Şeyx Şamil hərəkatının 1859-cu ildə sona çatdığı düşünülürsə, 1918-ci ildə belə rusların Qafqazda qəti bir hakimiyyət təmin edə bilmədiyi nəticəsinə asanca gəlinər. Bu düşüncədən hərəkətlə Azərbaycan, Dağıstan və Şimali Qafqazda yaşayan bir çox türk qrupların və o biri müsəlman qövmlərin müstəqilliklərini əldə edə bilmələri üçün baş verəcək hərbi hərəkatda gecikilmişdir. Bəlkə də böyük bir tarixi fürsət qaçırılmışdır.

İstər ruslar və istərsə almanlar öz maraqlarına uyğun olaraq hərəkət edəcəkdilər. Bu onların vəzifəsidir. Brest-Litovsk görüşmələri sırasında elə də etdilər. Ancaq Osmanlı dövlətinin müharibəni yönəldən heyətinin türklərin maraqlarını lazım gəldiyi kimi qoruması və bunun zərurətlərini yerinə yetirməsi lazımdı. Aparılan bir müharibədə hər hansı bir dövlət ilə ittifaq qurulmuş olsa belə, hər dövlətin əsasən milli ideallarını, milli maraqlarını həyata keçirməyə çalışdığı, Almaniyanın davranışlarından da anlaşıldığına görə, bir daha görülmüşdür.

Brest-Litovsk barış görüşmələrində rusların gözlətmə taktikasını başa düşən Almaniya, anlaşma təmin edilə bilməsi üçün ordularına rus cəbhəsində irəli hərəkat əmri verdi. Həmin günlərdə 8 fevral tarixində də Ukraynanın müstəqilliyini tanıdı. Alman hərbi birlikləri qısa müddətdə Peterburq üzərinə hərəkət etdi. Bu durumda

tələşa qapılan Sovet Rusiyası hökuməti Almaniya və müttəfiqlərinin bütün istəklərini qəbul etmək məcburiyyətində qaldı.

Sovet heyətinin sədri Sokolnikov barışın və anlaşma hökmlərinin bolşevik hökumətinə zorla diktə etdirildiyini bilərək, İttifaq dövlətlərinə qəti etiraz etdi. Ancaq görə biləcəkləri bir şey də qalmamışdı. Uzun müzakirələrin ardından, nəhayət, 3 mart 1918-ci ildə Brest-Litovsk müqaviləsi imzalandı.[73]

Brest-Litovsk Müqaviləsinin Osmanlı dövləti və Qafqazı əlaqələndirən maddələri belə idi:

1. Rus əsgərləri Şərqi Anadolunu 6 - 8 həftə içində tamamən tərk edəcəkdir.
2. Türk hərbi birlikləri boşaldılan yerlərdə nəzarəti təmin edincəyə qədər rus ordusu bölgədə asayişi və güvənliyi təmin edəcək, qisas alma və soyğun hadisələrinin qarşısını alacaqdır.
3. Erməni bandaları silahsızlandırılaraq tamamən dağıdılacaqdır.
4. Ruslar Ərdahan, Qars və Batumu dərhal boşaldacaqdır. Rusiya bu bölgədə dövlətlər hüququ ilə cəmiyyət hüququ baxımından yenidən təşkilatlanmağa qarışmayacaqdır. Bu bölgələrin gələcəyinə, yerli xalq ilə qonşu dövlətlər və xüsusilə Osmanlı dövləti anlaşaraq qərar verəcəkdir.
5. Osmanlı dövləti ilə Rusiya arasında indiyə qədər olan bütün anlaşmalar və xüsusilə ekonomik və ticari sözləşmələr qüvvədən düşəcəkdir.

Türk ordusu görüşmələrin davam etdiyi tarixlərdə Əlviyəi-səlasə (üz vilayət) deyilən Qars, Ərdahan və Batumi xaricindəki torpaqlarını geri almışdı. Ancaq erməni quldurları bölgədə qətliama davam edirdi. Anlaşma şərtlərində Qars, Ərdahan və Batumi sancaqlarının Osmanlı dövlətinə nə zaman və necə qatılacağı məsələsində bir açıqlıq yox idi. Hökmlərə görə bu üç sancağın bilavasitə zəbt edilməsi lazım gəlirdi. Fəqət bolşevik liderlər bölgəni Rusiyanın ayrılmaz bir parçası olaraq görürdülər.

Məclisi-Məbusanın Brest-Litovsk müqaviləsi haqqında təşkil etdiyi bir toplantıda məlumat verən başkomandan vəkili Ənvər paşa Qafqazda yaşayan türk və müsəlman xalqların müstəqil bir dövlət qurması haqqındakı Osmanlı təklifinin barış görüşmələri əsnasında qəbul edilməsini bir itki olaraq dəyərləndirməmişdi. Ənvər paşa Qafqazda yaşayan türklərə dəyişik yollardan yardımda olacağını da bildirmişdi. Osmanlı Məclisi də bolşeviklərin ixtilal məruzəsində yer alan ***"hər millət öz gələcəyini təyin etmə haqqına sahibdir"*** ifadəsi doğrultusunda Dağıstan və Azərbaycanın qısa müddətdə müstəqilliyinə qovuşacağını proqnozlaşdırırdı.

1. Albay Hüsaməddin Ərtürkün Xatirələri, (nəşrə haz. Samih Nafiz Tansu), İstanbul, 1957, s. 170-200.

2. Xəlil İbrahim Göytürk, Bilinməyən tərəfləri ilə Şövkət Sürəyya Aydəmir, Ankara, 1977, s. 27.

3. Təhsin Ünal, Türk siyasi tarixi, Ankara, 1978, s. 469.

4. Əli Fuad Türkgəldi, Görüb eşitdiklərim, Türk Tarix Qurumu nəşriyyatı, Ankara, 1951, s. 114.

5. Yenə orada, s.439; İttihad və Tərəqqi partiyası tərəfindən şeyxülislamlıq vəzifəsinə gətirilən Musa Kazım əfəndi Saraya getdiyində, "Mən nəticəni yaxşı gönnürəm; kaş ki, bu işin izindən az zərərlə çıxa bilsək demiş, vəkillərdən Lütfi bəy, "Ey xoca, bu sözləri burada deyil, Nazirlər Kabinetində söylə deyəndə, Musa Kazım əfəndi, "Söyləyirəm, söyləyirəm, amma dəliqanlıya (Ənvər paşaya) söz anlada bilmirəm" şəklində cavab vermişdi.

6. Bu mövzuda daha geniş məlumat üçün bax: Əli Fəthi Okyar, Üç dövrdə bir adam, İstanbul, 1980, s. 23-29.

7. Ünal, Türk siyasi tarixi, s. 437-440.

8. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, I c, Genelkurmay mətbəəsi, Ankara, 1993, s. 100; Alman gəmiləri "Geoben ("Yavuz) və "Breslav ("Midilli) 8/9 avqustda Zanaqqala boğazından Mərmərə dənizinə girdi. 27 oktyabr 1914 tarixində "təlim məqsədiylə Qara dənizə çıxdı. Odessa, Sevastopol, Novorossiysk və Kofedəki rus dəniz bazalarını bombaladı. Ənvər paşa, bu hadisəni, "Ruslar təlim üçün Qara dənizə çıxan gəmilərimizə hücum etdilər şəklində dəyərləndirmişdi. Bu hadisədən sonra Çar Rusiyası 1 noyabr 1914 tarixində Şərqi Anadoluda 3-cü ordunun bölgəsində dörd yerdən sərhədi keçərək Osmanlı dövlətinə hücum etdi. Bu surətlə Osmanlı dövləti Birinci Dünya müharibəsinə girdi.

9. Tələt paşa, sədrəzəm olaraq 1917-ci ilin ilk günlərində Berlinə getmiş, dönüşdə Sofiya elçisi Əli Fəthi Okyar ilə görüşmüşdü. Okyar, Tələt paşanın, Sultan Əbdülhəmid ilə görüşündə, sabiq sultanın savaş haqqında bunları söylədiyini bildirməkdədir: "Bu hərbi, dənizlərə hakim olan udar. Almanların təbii qaynaqları məhduddur. Biz, geniş sərhədlərimizi qorumaq üçün böyük çətinliklərlə qarşılaşacağıq. Əgər bu savaşa girmək zəruri olmuşsa, heç olmasa mümkün olduğu qədər dar cəbhələrdə müharibə aparmaq və uzaq yerləri yerli xalqın çoxluq təşkil etdiyi qüvvələrlə müdafiə elmək yolunu seçmək vacibdir... Bunları əvvəlcədən fikirləşmək lazım idi. Mənfi nəticələrlə qarşılaşdıqdan sonra fikir soruşmağın nə faydası var? Tələt paşa, Əbdülhəmidin, "Tətbiq edilən qərarlardan əvvəl yada düşsəydim, uzun təcrübələrim nəticəsində bəzi tövsiyələrim ola bilərdi. Amma hal-hazırda hadisələr yaxşı ya da pis nəticələrini göstərmək üzrədir. Artıq nə deyə bilərəm ki? deyərək, onu əməlli-başlı tənqid etdiyini bildirməkdədir. Okyar, Öz dövrdə bir adam, s. 213-214.

10. Birinci Dünya müharibəsinin ilk günlərində Tələt paşa ilə Ənvər paşa Bəylərbəyi sarayında yaşayan keçmiş Sultan Əbdülhəmidin bir məsələdə bilgi və təcrübəsinə müraciət etməyi uyğun görürlər. Sabiq Sultanın fikrini soruşmaq üçün İsaq paşanı Bəylərbəyi sarayına göndərirlər. Əbdülhəmid İsaq paşaya belə cavab verir: "Bu durumda artıq mənim verə biləcəyim bir fikir, tövsiyə edəcəyim bir tədbir, söyləyə biləcəyim bir şey qalmadı. Zira bu zavallı dövlət müharibəyə girdiyi gün yıxıldı, dağıldı. Sizi mənim yanıma göndərənlər, müharibəyə qatılmadan əvvəl göndərməli idilər. Dünyanın torpaqlarına və dənizlərinə hakim olan dövlətlərə qarşı yalnız Almaniya və Avstriya ilə birləşib atəşə atılmaq, tarixdə nadir xətalardandır" demişdi. Bu söhbətlə qane olmayan Əbdülhəmid, Ənvər paşanı Bəylərbəyi sarayına dəvət edərək ona belə demişdi: "Ənvər paşa, oğlum! Sizə oğlum deyirəm, çünki siz bizim ailəyə qarışdınız. Qəhrəman bir əsgər, mərd və idealist bir adamsınız. Hamıya məlumdur ki Plevnədəki qəhrəmanlığı ilə Plenvo qəhrəmanı deyə ad qazanan Qazi Osman paşanın oğullarını sülaləmizə bağladım... İndi də siz damadımız oldunuz. Eyni zamanda Hərbiyyə Naziri və Başkomandan Vəkilisiniz. 33 illik səltənətimdə fərdin hürriyyətinə tərəfdar idim. Lakin gəlişi gözəl bir hürriyyət və sərbəstliyi heç bir zaman istəmədim. Məşrutəçiliyi mən elan etdim. Amma vəkillərimizin bacarıqsızlığını görüncə qapatdım. Məclisi-Məbusanın 93-də verdiyi qərarın bizə nə bahasına başa gəldiyini bilirsiniz. Balkanları itirdik. İstanbula gələn ruslarla şərəfsiz bir sülh bağlamağa məcbur olduq. Səfvət paşanın, sülh müqaviləsini imzalarkən ağladığını eşidəndə, mən də ağladım. Amma göz yaşı dərdlərə dərman olmur. İndi siz də tələsik bir müharibəyə girmişsiniz. İnşallah xeyirli və şərəfli olar. Fəqət, Allah göstərməsin, əgər fəlakətlə bitərsə... İstərsənmi bu da Anadolunu itirməyə səbəb olsun? Hər dövrdə dövlətin düşməni olmuşdur. Siz də bu düşmənlərlə işin iç üzünü bilmədən birləşdiniz. "Hərəkət Ordusu ilə İstanbula gəldiniz. İqtidarı ələ aldınız. İstədiyiniz məqama yetişdiniz. Etmək istədiklərinizi niyə etmirsiniz? Bunlara güvənmə oğlum. İnsanı bu gün alqışlayanlar, sabah onun əleyhinə dönüb parçalaya bilərlər. Diqqətli ol... Ünal, Türk siyasi tarixi, s. 456.

11. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, I c, s. 6-8.

12. Qasımlı, Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, s. 205-207.

13. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, I c, s. 66; Qafqaz bölgəsi, Rus çarı tərəfindən böyük səlahiyyətlər verilən sivil bir şəxs tərəfindən idarə edilirdi. Bu vəzifədəki şəxs, eyni zamanda Qafqazdakı orduların da baş komandanı idi. Qafqaz ordularının başındakı general Mixaylevski də o illərdə Daşkovun hərbi yardımçısı idi. Qafqaz ordusunun qərargah rəisi də

general Yudeniz idi. Bax: Fəxri Belen, Birinci cahan hərbində türk hərbi, 1914-cü il hərəkatları, I c, Ankara, 1964.

14. Yüzbaşı Səlahəddinin romanı, (nəşrə haz. İlxan Səlcuq), İstanbul, 1984, s. 155; Yüzbaşı Səlahəddin Osmanlı dövlətinin önəmli şəxsiyyətlərinin yanında olmuş, dövlətə xidmət etmiş, İtaliya hərbi, Balkan hərbi, Birinci Dünya müharibəsi və Milli Mücadilə illərində bir hərbçi olaraq yaşamışdı. O dönəmlərdə daxili və xarici mübarizələrin, üsyanların, inqilabların, qəhrəmanlıqların və cinayətlərin şahidi olmuşdu. Turan həsrətiylə Asiyanın qapısına dirənən nəslin alovlu təmsilçilərindən biri idi. "Vətən nə Türkiyədir türklərə, nə Türküstan / Vətən böyük və müəbbəd bir ölkədir: Turan dedikdən sonra, barışığın qaranlığında məğlubiyyətin çuxuruna düşmək və xarabalığın öhdəsindən gələ bilmək üçün Anadoluya keçərək Milli Mücadiləyə davam edəcək gücü ürəyində duya bilmək, bir insanın həyatını çox dəyərli edən böyüklüklərdi". Yüzbaşı Səlahəddinin romanı, s. 7.

15. Qasımlı, Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, s. 209.

16. Yenə orada.

17. Yenə orada, s. 127.

18. Yenə orada, s. 211-214.

19. Yenə orada, s. 127-128.

20. Yenə orada, s. 215.

21. Yenə orada, s. 128.

22. Yenə orada, s. 129.

23. Yenə orada, s. 217.

24. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, I c, s. 81; Birinci Dünya hərbində Türk hərbi, Dəniz hərəkatı, VIII c, Genelkurmay mətbəəsi, Ankara, s. 54; Türk donanmasının Qara dənizdə rus dəniz qüvvələrinə hücumu haqqında bax: Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, I c, s. 22; Sultan Mehmed Rəşadın Qara dənizdəki basqın haqqında yayımladığı bəyannamə (Lahiqə-24, Hali-hərb idarəsi) surəti üçün bax: Miralay Baqi, Böyük hərbdə Qafqaz cəbhəsi, I-II c, Hərbi mətbəə, İstanbul, 1933, s. 368.

25. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, I c, s. 101; Sultan Mehmed Rəşad, şərq cəbhəsində ruslarla savaşın başlaması səbəbi ilə ordulara və donanmaya bir bəyannamə yayımladı (Lahiqə-24, Hali-hərb idarəsi). Bu bəyannamə haqqında daha geniş məlumat üçün bax: Miralay Baqi, Böyük hərbdə Qafqaz cəbhəsi, s. 368-369; Ənvər paşa, əsgərlərin mənəviyyatını yüksəltmək üçün vətən sevgisinin önəmini vurğulayır və Mehmetçiyin şəhidlik mərtəbəsinə yüksəlməsi üçün zabit və əsgərləri fədakarlığa çağırırdı. Bu barədəki bəyannamə üçün bax: Miralay Baqi, Böyük hərbdə Qafqaz cəbhəsi, s. 370.

26. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, I c, s. 105.

27. Yenə orada, s. 123-160.

28.Yenə orada, s. 347-352. Ənvər paşa 1911-ci ilə Liviyada ikən yanında təxminən 20 nəfərlik alman zabit heyəti vardı. Almanlar, İslam dünyasının ingilis əsarətindən qurtarılması gərəkdiyini davamlı olaraq Ənvər paşaya təlqin edirdilər. Həqiqətən də o illərdə İslam dünyasının böyük bir qismi ingilislərin işğalı altında idi. Osmanlı dövləti bu miiharibədən qaça bilməzdi. Əsarət altındakı İslam ölkələrini qurtarmaq və geniş bir coğrafiyada qurtarıcı olmaq kimi böyük bir ideal uğrunda müharibəyə girilmişdi. Bir tərəfdə İngiltərə, Fransa, Rusiya və İtaliya, digər tərəfdə də Almaniya, Avstriya-Macarıstan İmperatorluğu və Bolqarıstan var idi. İngilislər Osmanlı dövlətinin əlində olan neft bölgələrini ələ keçirmək üçün hücum etmişdilər. Zatən müharibənin başlaması səbəblərindən biri də Osmanlı dövlətini yıxmaq idi. Bu məqsədlə İngiltərə və Rusiya gizli bir anlaşma əldə etmişdilər. Bu səbəbdən nıüharibənin, Ənvər paşanın şəxsi ehtirası uğrunda dövləti macəraya sürükləməsi şəklində izah edilməsi, məsələni bəsitləşdirmək deməkdir.

29. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, I c, s. 354-356.

30. Yenə orada, s. 569-578.

31. Xəritə 1.

32. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, I c, s. 571. Xəlil bəyin yavəri Səlahəddin, 5-ci Qüvvəyi-səfəriyyə qərargahının yola düşməsindən əvvəl İstanbulda bacısına verdiyi fotoda, "Əsir qardaşlarımı qurtarmağa gedirəm. Qurtarıb gəlsəm bu şəkil bir xatirə, qurtarırkən orada qalsam yadigar olar yazmışdı. "5-ci Qüvvəyi-səfəriyyə qərargahı İstanbuldan Mosula doğru yola çıxdığında, qatarda İttihad və Tərəqqinin sivil komitəçiləri də vardı. Bakılı Akif adında bir komitəçi də qatarda bizimlə birlikdə səyahət edirdi. Yüzbaşı Səlahəddinin romanı, s. 105. 1-ci Qüvvəyi-səfəriyyə komandanlığına Baş Qərargah Kəşfiyyat şöbəsinin müdiri yarbay Kazım bəy (Qarabəkir) təyin edilmişdi. Bu xüsusi təyinatlı birliyin vəzifəsi İran və Türküstanda üsyan başlatmaq idi. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, I c, s. 576.

33. Şərif Bəy, Birinci Dünya savaşı başlanğıcında III ordu, Sarıqamış mühasirə manevri və meydan savaşı, İstanbul, 1921.

34. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, I c, s. 530

35. Yenə orada, s. 385.

36. Şərif Bəy, Birinci Dünya savaşı başlanğıcında III ordu.

37. Yusif Halacoğlu, Osmanlı Dövləti nədən təhcir tətbiq etdi? Təhcir haqqında həqiqətlər və Osmanlının son dövründə ermənilər, Ankara, 2002, s. 105-106.

38. Yenə orada, s. 108.

39. Tunaya, Türkiyədə siyasi partiyalar, s. 578-581; Yusif Hikmət Bayur, Türk inqilabı tarixi, III c, III qisim, Türk Tarix Qurumu nəşriyyatı, Ankara, 1991, s. 38.

40. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, I c, s. 564-566; Kayseridəki ermənilərin evlərində aparılan axtarışlarda çox sayda bomba ilə fransızca, rusca və ermənicə gizli sənədlər ələ keçirilmişdi.

41. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, I c, s. 591.

42. Ermənilərin Vanda türk və müsəlman əhaliyə qarşı törətdikləri qətliamlar haqqında bax: Əziz Samih, Böyük hərbdə Qafqaz cəbhəsi xatirələri, Böyük ərkanı-hərbiyyə mətbəəsi, Ankara, 1934, s. 41-44-45.

43. Məclisi-vükəlanın təhcir qərarı (düşmənlə əməkdaşlıq etmək, günahsız xalqı qətl etmək, üsyan çıxarmaq kimi zərərli hərəkətlər edən ermənilərin Mosul, Zor, Hələb və Suriyanın bəzi bölgələrinə nəql edilmələri haqqında Daxili İşlər Nazirliyinin 13 may 1311/26 may 1915 tarixli 270 nömrəli layihəsi üzərinə Nazirlər Kabinetinin aldığı qərar): 16 B 1333 (30 may 1915), 198 nömrəli dəftər, 163-cü sıra. Osmanlı sənədlərində ermənilər, 31-35. Qısaca "Təhcir qanunu adlandırılan qanun belədir:

"Səfər vaxtı hökumətin icraatlarına qarşı çıxanlar üçün hərbi cəhətdən alınması lazım gələn tədbirlər haqqında müvəqqəti qanun:

1-ci maddə: Səfər vaxtı ordu, korpus və diviziya komandirləri və bunların vəkilləri və ya mövqe komandirləri, əhali tərəfindən hər hansı bir şəkildə hökumətin əmrlərinə, ölkənin müdafiəsinə və asayişin mühafizəsinə aid icraat və tərtibata qarşı müxalifət, silahla təcavüz və müqavimət gördükləri təqdirdə, təcili surətdə hərbi qüvvələrlə şiddətli surətdə cəzalandırmaq və təcavüz və müqavimətləri yerində məhv etmək icazəsinə sahib və bu işi görməyə məcburdurlar.

2-ci maddə: Ordu, müstəqil korpus və diviziya komandirləri, hərbi ehtiyaclar üzündən və ya casusluq və xəyanətlərini hiss etdikləri kənd və qəsəbələrin əhalisini fərdi və ya toplu olaraq digər yerlərə köçürə bilərlər.

3-cü maddə: Bu qanun, nəşr edildiyi tarixdən qüvvəyə minir.

44. Halacoğlu, Osmanlı Dövləti nədən təhcir tətbiq etdi? s. 107-108.

45. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, I c, s. 212-219.

46. Ruslar, Nargin adasına avstriyalı və alman əsirləri də göndərirdilər. Bu kizik adadakı əsirlərin sayı təxminən yeddi minə çatırdı.

47. Bu mövzuda daha geniş məlumat üçün bax: Nağı Şeyxzamanlı, Azərbaycan istiqlal mücadiləsi xatirələri, Bakı, 1997.

48. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, Genelkurmay mətbəəsi, Ankara, 1993, s. 428.

49. Yenə orada, s. 430.

50. Qasımlı, Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, s. 229-234

51. Yenə orada, s. 234-236. Çarlıq Rusiyasının kəşfiyyat qurumlarının raportlarına görə, Qafqaz cəbhəsində müharibə davam edərkən, cəbhənin arxasında da böyük qarışıqlıqlar və narahatlıq yaşanmaqda idi. Bakı valisi, 21 yanvar 1915 tarixli 326 nömrəli və 24 yanvar 1915 tarixli 1454 nömrəli gizli yazılarında, səfərbərliyin davam etdiyi günlərdə azərbaycanlı türklər və ermənilər arasında böyük bir həyəcan yaşandığını bildirirdi. Gəncə valisi isə polis rəislərinə göndərdiyi 5 fevral 1915 tarixli 338 nömrəli gizli yazıda, şəhərdəki türklərin mənəviyyatının yüksək və Rusiyaya qarşı münasibətlərinin yaxşı olduğunu, ancaq ermənilərin cəbhədəki müvəffəqiyyətsizliyinin burada sevincə yol açdığını bildirirdi. Bakı valisi Alışevski, polis rəislərinə göndərdiyi 5 fevral 1915 tarixli 599 nömrəli gizli yazıda, əhalisinin 90%-i müsəlman olan şəhərdə yaşayanların psixoloji vəziyyətlərinin yaxından təqib edildiyini, Osmanlı dövlətinin ani hücumu haqqındakı xəbərlərin əyalətlərdə yaşayan türkləri sevindirdiyini, yanvar ayından etibarən Lənkəran və Astara bölgələrindəki xristianların közünün artdığını bildirirdi. Alışevski, ermənilərə silah verilməsinin mümkün olmadığını bildirərək, bunun, iki xalq arasında silahlı qırğına yol aça biləcəyini qeyd edirdi.

Rusiyanın Qafqaz Baş Valiliyi ilə Bakı, Gəncə, Tiflis kimi mühüm şəhərlərin idarəçiləri, 1915-1916-cı illərdə hazırladıqları raportlarda və göndərdikləri əmrlərdə ermənilərlə türklər arasında narazılıqlar başlaya biləcəyini, bu səbəbdən ermənilərin hərəkətlərinin diqqətlə təqib edilməsi lazım olduğunu, Borçalı və Kutaisi kimi indiki Gürcüstan ərazilərinə, Cənubi Azərbaycandan gələn ermənilərin yerləşdirilməsi səbəbiylə yerli türklərin böyük narahatlıq keçirdiklərini bildirirdilər. Qasımlı, Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, s. 237-239.

52. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 430.

53. Antanta dövlətləri arasındakı gizli paylaşma müqavilələrinin ən mühümləri bunlardan ibarət idi:

1.İstanbulun və boğazların Rusiyaya verilməsini nəzərdə tutan, 4 mart-10 aprel 1915 tarixində imzalanan İngiltərə-Fransa-Rusiya müqaviləsi.

2.Antalya və çevrəsindəki Cənubi Anadoludan və Aralıq dənizindən İtaliyaya "ədalətli bir pay verilməsini nəzərdə tutan, İngiltərə-Fransa-İtaliya arasında 26 aprel 1915 tarixində imzalanan London müqaviləsi.

3.Cənubi Anadolu, İraq, Suriya və digər ərəb ölkələri haqqında 3 yanvar 1916 tarixində imzalanan Sykes-Picot müqaviləsi.

4.26 aprel 1916 tarixində İngiltərə-Rusiya-Fransa arasında imzalanan Peterburq müqaviləsi. Bu müqavilə, Fransa və Rusiyanın, Sivas-Kayseri-Mərsin xəttinin şərqindəki bölgəni işğal etmə haqları olduğunu qəbul edirdi.

5.9-16 may 1916 Sykes-Pickot müqaviləsi. Bu müqavilə, 3 yanvar 1916 tarixli müqaviləni tamamlamışdır.

6.Sant-Jean de Mariennedə 19-21 aprel 1917 tarixində imzalanan müqaviləyə görə, İtaliya, İzmir ilə birlikdə Qərbi Anadolunu işğal etmək istəyini İngiltərə və Fransaya qəbul etdirmiş idi. Bu bölgənin şimalında, Mərmərə dənizinə qədər çatan bir nüfuz bölgəsi də əldə etmişdi. Rusiya, baş verən inqilab səbəbiylə bu müqaviləni imzalaya bilmədi. Türk İstiqlal hərbi, I c, Mudros mütarikəsi və tətbiqatı, Genelkurmay mətbəəsi, Ankara, 1962, s. 8-9.

54. Birinci Dünya müharibəsindən sonra Damad Fərid hökumətinin imzaladığı Sevr müqaviləsi də bu gizli müqavilələrə əsaslanırdı.

55. Ünal, Türk siyasi tarixi, s. 470.

56. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 428.

57. Yenə orada, s. 423-428.

58. Yüzbaşı Səlahəddinin romanı, s. 357-359. Xəlil paşa Pərvaridə ikən Baş Komandanlıqdan gizli bir teleqram gəldi: "Türk ordusu Qafqaza girdiyi zaman 300 min silahlı türklə orduya qatılacağını söyləyən batumili Aslan bəyi tapın və təcili olaraq Qafqaza girməyini təmin edin. Xəlil bəyin bu teleqrama verdiyi cavab aşağıdakı şəkildə idi: "Batumili Aslan bəy, on nəfər adamıyla birlikdə qərargahımda qonaqdır. Xəlil bəy demək istəyirdi ki, Aslan bəy 300 min nəfər əsgəri ortaya çıxarmaq bir yana qalsın, öz həyatını qurtarmaq üçün bizə sığınmışdır. Yüzbaşı Səlahəddinin romanı, s. 162.

59. Səlahəddin bəyin Əfqanıstana göndərilməsi məsələsi daha sonra ləğv edilmişdir. Yüzbaşı Səlahəddinin romanı, s. 357-359.

60. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 439.

61. Hüsaməddin Tuğaz, Bir nəslin dramı, Mars mətbəəsi, Ankara, 1966, s. 169-170.

62. Yenə orada, s. 171.

63. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 442.

64. Yenə orada, s. 440.

65. Yenə orada, s. 443.

66. Yenə orada, s. 443-464. Yüzbaşı Səlahəddin bəy, xatirələrində belə yazmaqdadır: "17 dekabr 1917 tarixində, mərkəzi Suşəhrində olan 3-cü ordu, Ərzincanda ruslarla barışıq imzaladı. Biz də 1 yanvar 1918 tarixində ruslarla Mosulda imzalamışdıq. Bu surətlə, ingilislərlə qarşı-qarşıya qalmışdıq. Bu vəziyyət bir ay davam etdikdən sonra, Baş Qərargahdan belə bir əmr aldıq: «Bizimlə barışıq imzalayan rus ordusu cəbhədən çəkilmiş, yerində üsyançı erməni birlikləri qalmışdır. Bu ermənilər yerli müsəlmanlara zülm etməkdə və bir çox yerdə müsəlmanları öldürərək mallarını talamaqdadırlar. Bu səbəbdən 3-cü ordu hərəkətə keçərək, rus ordusunun əsas hissələrinə çatana qədər irəli gedəcək.»

Bu əmr səbəbiylə 3-cü ordu, 7 fevral 1918 tarixində hərəkətə keçdi və 13 fevral 1918 tarixində Ərzincanı, 19 fevralda Bayburtu, 22 fevralda Nənəxatunu, 24 fevralda Trabzonu, 12 martda Ərzurumu, 16 martda Körpüköyü, 25 martda Oltuyu aldı. Albay Kazım bəy (Qarabəkir) Ərzincan, Ərzurum və Qars yolu üzərindən bu hücumun əsl yükünü çəkmişdir. Bu döyüşlər nəticəsində 36 yaşında general oldu.

3-cü ordu komandanı Vəhib paşa, əməliyyatların raportlarını hər axşam 6-cı orduya göndərirdi. Yadımda qaldığına görə, bu raportlardan biri belə idi: «Ərzincana gedən birliklərimiz, Ərzincan küçələrində divarlara məmələrindən mıxlanmış, dodaqları, qulaqları kəsilmiş, gözləri oyulmuş qadınlar gördülər. Küçələrdə gözləri çıxarılaraq, kəsilərək və yandırılaraq öldürülən minlərcə gənc və yaşlı görülməkdədir. Yandırılmış və çuxurlara doldurulmuş cəsədlərə hər yanda rastlanmaqdadır.» Yüzbaşı Səlahəddinin romanı, s. 359-360.

67. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 468-469; Bu mövzuda daha geniş məlumat üçün bax: I Qafqaz Ordusunun General Harbord rəyasətindəki Amerikan heyətinə təqdim etdiyi "i Qafqaz korpusunun 1334-cü ildəki hərəkatı haqqında müşahidələr raportu, 15-ci korpus mətbəəsi, Ərzurum, 1335, s. 3-5.

68. Yusif Hikmət Bayur, Türkiyə Dövlətinin xarici siyasəti, Türk Tarix Qurumu nəşriyyatı, Ankara, 1973, s. 11-13.

69. Faxir Armaoğlu, 20-ci əsr siyasi tarixi (1914-1980), Türkiyə İş Bankı nəşriyyatı, Ankara, 1983, s. 132.

70. Lenin və Stalinin 3.12.1917 tarixində "Rusiya və şərqin əməkçi müsəlmanlarına xitabən yayımladıqları bildiriş üçün bax: Əlavə 1.

71. Brest-Litovsk şəhəri, Polşada Varşavanın şərqində, Buuq çayı üzərində, Polşa-Rusiya sərhədində bir yaşayış məntəqəsidir.

72. Armaoğlu, 20-ci əsr siyasi tarixi, s, 139-140.

73. Bayur, Türkiyə Dövlətinin xarici siyasəti, s. 13.

# II HİSSƏ

## AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİ HAZIRLAYAN HADİSƏLƏR

**1.Zaqafqaziya Seyminin quruluşu və strukturu:**

Rusiyada inqilab başladığı zaman Tiflisdə, Rusiya Dövlət Dumasındakı vəkillərdən ibarət olan və çarın təmsilçisi rolunda çıxış edən "Xüsusi Zaqafqaziya Komitəsi" var idi. Bununla bərabər Cənubi Qafqaz da türk, erməni və gürcülər, Rusiya Məclisinə də təmsilçilər seçmişdilər. Bu təmsilçilər inqilab üzündən vəzifələrinə gedə bilməmişdilər. Bölgədə bəzi həmkarlar birlikləri və sivil cəmiyyət quruluşları ilə siyasi partiyalar da fəaliyyət göstərirdi. Hərbi və sivil quruluşlar bir araya gələrək, "Zaqafqaziya Komissarlığı" adı altında keçici bir fəaliyyət orqanı yaratdılar. Bu icra heyəti Cənubi Qafqazda Məclisi-Müəssisan (təsisçilər məclisi) təşkil edilənə qədər yalnız daxili işlərə baxacaqdı.

Zaqafqaziya Komissarlığı, bolşeviklərin Rusiya Məclisini dağıtmasından sonra qurulan hökuməti tanımamışdı. Digər tərəfdən də Osmanlı dövləti ilə bölgənin gələcəyi haqqında bəzi görüşlər keçirmək məcburiyyətindəydi. Komissarlıq bu vəziyyət qarşısında Cənubi Qafqazdan seçilmiş vəkillərdən ibarət olan bir "Zaqafqaziya Seymi" qurulması məqsədilə üzvləri Tiflisə dəvət etdi və səlahiyyətlərini bu məclisə tapşırdı. Bu məclisdə sosialist menşeviklər liderlik edirdi. Cənubi Qafqazın ən yüksək təmsil və idarə orqanı olan bu məclisdə Azərbaycan türkləri bu şəkildə təmsil edilirdi:

1. Rusiyada federal bir quruluş istəyən "Müsavat Xalq Partiyası" və "Tərəfsiz Demokrat Qrup": 30 vəkil;
2. "Müsəlman Sosialistlər Bloku": 7 vəkil;
3. "İttihad": 3 vəkil.

Azərbaycan türklərinin təmsilçilərindən bolşevik Hümmət Partiyası üzvləri, menşevik siyahısından seçilmişdilər və Seymdə də soydaşları yerinə gürcü sosialistlərlə birlikdə hərəkət edirdilər. "Zaqafqaziya Seymi" tərkibində xidmət göstərən Azərbaycan partiyaları, Hümmət xaricində, Müsavat Xalq Partiyasının və onun lideri Məmməd Əmin Rəsulzadənin sədrliyi ətrafında bir qrup təşkil etdilər. Bu qrupun sədr müavini Nəsib bəy Yusifbəyli ilə Məmməd Yusif Cəfərzadə, katiblər isə Mustafa Mahmudzadə və Rəhim Vəkilli idi.[1]

Cənubi Qafqazda yaşayan türklər, gürcü və ermənilər, hadisələrin sürətlə inkişafı və milli maraqların fərqli tərəflərdə olması səbəbindən, Rusiyadan faktiki olaraq ayrılmışdı. Bölgəni idarə etmək üçün bir məclis və bir idarə heyəti qurmuşdular. Bu heyətlər Cənubi Qafqazın gələcəyinə istiqamət verəcək, müqəddəratını təyin edəcəkdi. Seymdəki sosialistlər Rusiyadan qətiyyən ayrılmaq istəmirdilər. Bu qrupun başında duran gürcü sosialistlər Seymin keçici bir orqan

olduğuna və yaxın bir zamanda Rusiyadakı inqilab idarəsi ilə birləşəcəklərinə inanırdılar. Ermənilər də bölgənin parçalanmasına və Rusiyadan ayrılmasına tərəfdar deyildilər. Onlar da gürcülər kimi düşünürdülər. Türklər isə gürcü və ermənilərlə eyni görüşə sahib deyildilər. Seymdə 15 fevral 1918-ci ildə təşkil olunan yığıncaqda türklərin baxışlarını Müsavat Partiyası adından Dr. Həsən Ağaoğlu, türk bloku adından İbrahim Heydərov və İttihad Partiyası adından Miryaqub Mirmehdiyev açıqladı. Bu düşüncələrdən belə nəticə çıxarılırdı:

"Seymin gündəmində olan "milliyyətlər" məsələsi milli-məhəlli muxtariyyət əsası üzərində çözülməlidir. Bu məsələ siyasi və iqtisadi baxımdan araşdırılaraq birləşmiş bir Qafqaz hökuməti və millətlərə mədəni muxtariyyət əsasında həll edilməlidir."[2]

Həmin günlərdə Brest-Litovsk barış görüşmələrinə qatılan bolşevik liderlərdən Qaraxan 4 mart 1918-ci il tarixində Seymə Qars, Ərdahan və Batuminin Türkiyəyə veriləcəyinə dair bir teleqraf göndərdi. Hərbi nazir və başkomandan vəkili Ənvər Paşa da gürcülərin liderliyindəki Seym Məclisinin gözlətmə taktikası güddüyünü anladı və rus işğalı altında olan torpaqların ancaq hərbi qüvvə ilə qurtarılacağı nəticəsinə gəldi. 3-cü Ordu komandanı Vəhib Paşaya bir təlimat göndərərək, "Müstəqil Zaqafqaziya Seymi ilə əlaqə qurulmasını, hər iki tərəf arasında barışın təsisi üçün müstəqil Qafqaz hökumətinin nə kimi düşüncəsi olduğunu, hətta Tiflisə bir heyət göndərmək fikrində olduğunu" bildirdi və vacib işlərin həyata keçirilməsini əmr etdi. Osmanlı dövlətinin bu istəyi Tiflisə çatdırıldıqdan sonra Seym, belə bir qərar eskizini qələmə aldı:

"Rusiya demokratiyası üçün məqbul bir sülh bağlamağa tərəfdar olmaqla bərabər, Rusiyanın bir hissəsi olduğumuzu düşünərək, bu günlərdə toplanmış Məclisdən izin aldıqdan barış müzakirələrinə başlaya biləcəyimizi ərz edirik"[3].

3-cü Ordunun hərbi hərəkata başlaması səbəbindən Seym bu qərar eskizini cavab olaraq göndərməyi gecikdirdi. Digər tərəfdən də zaman qazanmaq üçün Rusiyadakı anarxiyanın durulmasını gözləyirdi. Fəqət Rusiyada məclis toplanmaq üzrə ikən xalq komissarları millət vəkillərini bölgələrinə geri göndərmişdi.

**2. Trabzon Konfransı:** (14 mart - 14 aprel 1918-ci il)

Brest-Litovsk müqaviləsinin hökmlərinə görə, rusların boşaltdığı Əlviyəi-Sələsə sancaqlarından Qars və Ərdahanı ermənilər, Batumini də gürcülər işğal etmişdi. 3-cü Ordu komandanı Vəhib Paşa, Zaqafqaziya hökumətindən bu üç sancağın boşaldılmasını istədi. Tiflisdəki ortaq hökumət bu istiqamətdə bir hərəkət göstərmədiyi kimi, Brest-Litovsk müqaviləsini də tanımadığını açıqladı.[4] Bu səbəbdən Osmanlı dövləti anlaşılmazlığı siyasi yolla həll etmək üçün Zaqafqaziya hökuməti təmsilçilərini 14 mart 1918 tarixində Trabzona dəvət etdi. Bu hökumətin məclisi olan Seym də 11-i nümayəndə olmaqla, 43 adamlıq bir heyəti Trabzona göndərdi. Heyyətdə erməni əsilli nümayəndələr də var idi.

Heyyətin başçısı gürcü əsilli Çenkeli idi. Heyyətdə yer alan türk təmsilçilər isə bunlar idi: Məmməd Əmin Rəsulzadə, Əkbər Ağa Şeyxülislamov, İbrahim Heydərov (Dumada Bakı millət vəkili olub, Dağıstan adından Seymə qatılmışdı), Miryaqub Mehdiyev, Heydər Ayaşidze (gürcü əsilli müsəlman, Acarıstanlı), Xəlil Xasməhəmmədov və Məmmədhəsən Hacinski. Osmanlı dövlətini də Ədliyyə naziri Xəlil bəy və albay Hüseyn Rauf təmsil edirdi.[5]

Trabzon görüşmələrinin başlamasından bir gün əvvəl Qafqazdakı vəziyyəti öyrənmək və məlumat toplamaq məqsədilə Hüseyn Rauf ilə Zaqafqaziya Seyminin türk əsilli üzvləri arasında bir yığıncaq təşkil olundu. Türk təmsilçilər bu görüşmədə qəti və açıq bir dillə "Türk əsgərinin çəkməsini Qafqazda görmək istədiklərini" ifadə etdilər. Hansı partiyadan olursa-olsun, Qafqaz türkləri və müsəlmanlarının Osmanlı ordusunun tezliklə bölgəyə girməsini gözlədiklərini, bundan başqa xalq arasındakı bəzi çəkişmə və anlaşılmazlıqların da bu yolla aradan qaldırılacağını bildirdilər.[6]

Qafqaz türk heyəti üzvləri ingilislərin erməniləri təşkilatlandırdığını, almanların isə gürcülərə dəstək verməyə hazırlandığını, bolşevik rusların da daxili çəkişmələri sona çatdırdıqdan sonra Qızıl Ordunu Qafqaza göndərəcəklərini anlatdılar. Qızıl Ordunun Qafqaza yenidən gəlməsinin bölgə xalqı üçün böyük bir təhlükə təşkil edəcəyini də qeyd etdilər.

Miryaqub Mehdiyev bu görüşmədə Brest-Litovsk müqaviləsi hökmlərinə görə Trabzon toplantılarının sağlam fəaliyyət göstərməsi üçün Zaqafqaziya hökumətinin özünü müstəqil bir hökumət olaraq elan etməsinin vacibliyini söylədi. Hüseyn Rauf da bu görüşə qatıldığını bildirdi.

Həqiqətən də Zaqafqaziya hökumətinin idarə şəkli və siyasi vəziyyəti müəyyən deyildi. Seym Məclisi və hökumətdə ermənilərlə gürcülər çoxluq təşkil edirdilər. Hökumətdəki erməni və gürcülər, Əlviyəi-Səlasə üçün, Osmanlı dövləti ilə ediləcək bir müharibədə bolşeviklərdən hərbi yardım ala biləcəklərini hesab edirdilər. Bu səbəbdən bolşevik rusları hirsləndirməmək üçün Zaqafqaziya hökumətinin müstəqilliyini elan etmirdilər.[7]

Osmanlı dövlətinin Brest-Litovsk sülh görüşmələrinə müşahidəçi statusunda təmsilçi göndərməsini dəfələrcə təklif etməsinə rəğmən, Zaqafqaziya hökuməti müstəqilliyin yolunu açacaq belə bir çağırışa qarşılıq verməmişdi.

Həmçinin Brest-Litovsk görüşmələrindən dərhal sonra bolşevik heyətinin katibi Qaraxan Zaqafqaziya hökuməti komissarlığına göndərdiyi teleqrafda Qars, Ərdahan və Batumini tərk etməyə məcbur qalmalarını "dərd və iztirab verici" bir itki olaraq dəyərləndirmişdi. Xarici işlər komissarının müavini Çiçerin isə Əlviyəi-səlasə Sancaqlarının boşaldılmasını "güc və təzyiq altında" qəbul edilmək məcburiyyətində qalınmış bir qərar olaraq gördüyünü açıqlamışdı. Həqiqətən də

bolşeviklər ilə Zaqafqaziya hökuməti və Seymdə olan erməni və gürcülər arasında gizli bir məlumat axını olduğu da bilinirdi.

Hüseyn Rauf, Çenkeliyə göndərdiyi bir məktubda görüşmələrin müsbət bir nəticə verə bilməsi üçün Zaqafqaziya hökumətinin siyasi və idari baxımdan təşkilati quruluşu, xarakteristikası və dövlətlərarası hüququn vacib gördüyü şərtləri daşıyıb-daşımadığı kimi məsələlərin cavablandırılmasını istədi. Ancaq Çenkeli və başqa nümayəndələr görüşmələr boyu Zaqafqaziya hökumətinin müstəqilliyi və təşkilatının xüsusiyyəti kimi məsələlərə açıq və dürüst bir cavab verə bilmədilər.

Həqiqətən də Zaqafqaziya hökumətini yaradan gürcü, erməni və türklərdə eyni dövlət içində, bir bayraq altında, bir və bərabər yaşama iradəsi, əzmi və mövcud ortaqlığı davam etdirmə arzusu yox idi. Bu üç millətin milli maraqları bir-birinə zidd idi və aralarında da tarixi düşmənçiliklər və dərin ayrılıqlar var idi. Hər üç millətin təmsilçiləri və ziyalıları istiqballarını təmin edə bilmək üçün özlərinə yaxın hesab etdikləri dövlətlərlə gizli və ya açıq münasibətə girmişdilər.

Zaqafqaziya hökuməti təmsilçiləri heyətində olan türklərdən alınan məlumatlara görə, Çenkeli, Trabzona qəbul edilməsi mümkün olmayan istəklərlə gəlmişdi. Seym Məclisinin istəkləri bu şəkildə xülasə edilə bilir:

1. Zaqafqaziya Seym Məclisi Osmanlı dövləti ilə sülh bağlanılması üçün özünü səlahiyyətli bilir və sülhün imzalanması üçün lazım olan iradəni daşıyır.

2.1914-cü ildəki sərhədlər imzalanacaq sülh müqaviləsinin əsasını təşkil edir.

3.Osmanlı dövləti sərhədləri daxilində muxtariyyət verilmiş bir "Türkiyə Ermənistanı" təşkil edilməsi üçün cəhd göstəriləcəkdir.

Çenkeli 14 mart günü rəsmi görüşlər başlamadan əvvəl mətbuata verdiyi açıqlamada hökumətinin Brest-Litovsk müqaviləsini tanımadığını bildirdi. Görüşmələrə təməl olmaq üçün Birinci Dünya müharibəsinin başlandığı tarix olan 1914-cü ildəki sərhədləri əsas alacaqlarını qeyd etdi.

Trabzon müzakirələri Seym Məclisi heyəti üzvləri arasındakı dərin görüş ayrılıqlarının su üzünə çıxdığı şərtlər altında başladı. Çenkeli görüşmələr sırasında Batuminin onlara verilməsi halında erməni istəklərinin yüngülləşdiriləcəyini söylədi. Bundan sonra erməni əsilli üzv Xatisov, Hüseyn Raufa gizli bir mesaj göndərdi. Xatisov ruslara yardım edən və cəbhənin çökməsi nəticəsində türk ordusunun önündən Qafqaza qaçan 400 min ermənininin evlərinə dönməsinə izin verilməsinə qarşılıq olaraq, Qars, Ərdahan və Batuminin Osmanlı dövlətinə bağlanması görüşünü dəstəklədiklərini bildirdi. Bu görüşün qəbul edilməsi halında gürcülərə bu məsələdə təzyiq göstərəcəklərini də qeyd etdi.[8]

Osmanlı dövləti Brest-Litovsk müqaviləsi şərtlərinin tətbiq olunmasında qərarlıydı. Osmanlı heyyəti gürcü və erməni nümayəndələrin irəli sürdüyü təklif və görüşlərin araşdırılmasını belə vacib bilmədən rədd etdi.

Erməni və gürcü nümayəndələr, içində olduqları şərtləri qavramaqdan uzaq bir davranış sərgiləyirdilər. Davam etdirdikləri bu barışmaz və sərt davranış, görüşmələri dayandırmışdı. Bu səbəbdən 3-cü Ordu Qars və Ərdahan üzərinə hərəkət etdi. Türk əsgərinin irəli hərəkatı Tiflisdəki Zaqafqaziya hökumətində bəzi dəyişikliklərə yol açdı. Hökumətdə yer alan erməni və gürcülər türklərə görə çox əhəmiyyətli nazirlikləri ələ keçirmişdilər. Çenkeli sədrliyindəki heyət yeni hökumətlə görüşlər keçirmək məqsədiylə Tiflisə getdi. Bir müddət sonra Trabzona dönən Qafqaz nümayəndələrinin, ikinci dəfə başlayan müzakirələrdə, fikirlərində ciddi bir dəyişiklik olmadığı göründü. Seym Məclis heyəti Ərdahanı Osmanlılara verir, Qars və Batumi haqqındakı görüşlərində isə israr edirdilər.

Seym Məclisi heyəti türkləri boş yerə gözlədirdilər. Buna görə Hüseyn Rauf 6 aprel 1918-ci ildə Zaqafqaziya heyətinə bir ultimatum verdi. Rauf bəy görüşmələrin davam etdirilməsi üçün Zaqafqaziya hökumətinin Rusiyadan ayrılaraq dərhal müstəqilliyini elan etməsini və Brest-Litovsk müqaviləsinin Qafqazı maraqlandıran hökmlərini qeyd-şərtsiz qəbul etdiyini açıqlamasını istədi. Ancaq bu şərtlərin qəbul edilməsi halında görüşmələrin davam edə biləcəyini bildirdi.[9] Zaqafqaziya təmsilçiləri bu səbəbdən müzakirələri yarıda kəsərək Tiflisə döndü. Trabzon Konfransı mövzusunda görüşmələr aparan Seym Məclisində türklər, gürcülər və ermənilər arasında sərt mübahisələr yaşandı.[10] Ermənilər və gürcülər Osmanlı birliklərinin başlatdığı hərbi hərəkatı dayandırmaq üçün İngiltərə və Almaniyanın dəstəyini almaqdan söz etdilər. Türklər isə bölgədə sülh, əmin-amanlıq və sabitliyin təmin olunması üçün Osmanlı dövlətinin Brest-Litovsk müqaviləsindən doğan istəklərinin qəbul edilməsinin vacibliyini bildirdilər.

**3. Qars, Ərdahan və Batum Hərbi Hərəkatı:**

Trabzon Konfransının çağırıldığı günlərdə hərbi nazir və başkomandan vəkili Ənvər Paşa 3-cü Ordu komandanı Vəhib Paşaya göndərdiyi əmrdə, Brest-Litovsk müqaviləsinin Qafqazı maraqlandıran hərbi mahiyyətdəki hökmlərinin yerinə yetirilməsi üçün qəti təlimat verdi. Buna görə Qars, Ərdahan və Batuminin həqiqətən ələ keçirilməsi lazım gəlirdi. Trabzonda təşkil olunacaq görüşmələrə gedəcək türk heyətinə də Əlviyəi-Səlasə sancaqları barədə heç bir şəkildə güzəşt etməmələrini tapşırdı. Ənvər paşa və Osmanlı Baş Qərargahı Batuminin həm hərbi və siyasi yöndən, həm də ticarət yönündən Qafqaz, Orta Asiya və İrana açılan əhəmiyyətli bir qapı olduğunu düşünürdü. Bu baxımdan Batuminin zəbti Osmanlı dövləti üçün çox əhəmiyyətli idi. Ənvər paşanın 3-cü Ordu komandanı Vəhib paşaya Batuminin alınması haqqında göndərdiyi əmr belə idi:

"Gürcüləri məmnun etmək üçün öz maraqlarımızı fəda edərək Batumini gürcülərə heç bir şəkildə verə bilmərik. Brest-Litovsk müqaviləsinin hökumətimizə verdiyi mövqelərdən ən əhəmiyyətlisi, yalnız Qafqazın deyil, bəlkə İran və Şərqi Asiyada yaşayan müsəlmanların yeganə limanını təşkil edəcək olan Batumi,

mütləq alacağımız məntəqə daxilində qalacaqdır. Gürcülərin bizimlə dost olmalarını təmin etmək üçün onlara Batumidən iqtisadi məsələlərdə faydalanma və Qara dəniz ilə buradan əlaqə qurma icazəsi verə bilərik.

Bu gün ingilis və fransızlardan bir az yardım görən, sabah bu yardımdan məhrum olunca, Rusiyanın alacağı intiqam hərəkətlərinə müqavimət göstərə bilməz. Bizimlə yaxşı davranmağa və dost olmağa məcburdur. Yaxında başlayacaq Trabzon müzakirələrində bu əsasın mühafizə edilməsi və diqqətə alınması lazımdır. Bu məqsədlə zəif müqavimətlərdən çəkinməyərək, müstəqil hərbi dəstələrimizin mümkün olduğu qədər irəliləmələri və qıra bilmədikləri bir müqavimətlə qarşılaşdıqları təqdirdə dayanaraq həqiqi qüvvələrin gəlməsini gözləmələri vacibdir".[11]

Qafqaz Cəbhəsindəki 3-cü Ordu komandanı Vəhib paşa Ənvər paşaya Qafqaz haqqında göndərdiyi məktubda Osmanlı ərkanı-hərbiyəsinin bu dəyərləndirmələrinə qarşı ehtiyatla yanaşırdı.

Vəhib paşanın 3 aprel 1918-ci tarixli məktubu belə idi:

"Bu gün Sarıqamışa, sabah da sahil hərəkatına başlayırıq. Sizdən daha fərqli əmr almadıqca sahil hərəkatı davam edəcəkdir... Bu ərz etdiyim məsələlərin əsgərliklə əlaqəsi yoxdur. Bir vətən övladı olmaq, söz və vicdan azadlığının hər zaman və hər yerdə haqqını vermək məcburiyyətindəndir ki, bunu nəzərinizə çatdırıram. Qısaca bildirirəm ki, Qafqazdakı hərəkat ilə dövlət acı bir çıxılmamazlığa sürüklənməkdədir."

Vəhib paşa Qafqazda irəli hərəkata başlanması üçün, hər şeydən əvvəl, əlində lazımi hərbi qüvvənin olmadığını düşünürdü. Bölgədə asayiş və təhlükəsizliyin təmin edilməsində çətinliklə qarşılaşılacağına, bu vəziyyətdə də Osmanlı dövlətinin Qafqazda anarxiya şəraitinə son verə bilməyəcəyinə və bu səbəbdən dünya ictimaiyyəti qarşısında çətin vəziyyətdə qalacağına inanırdı. Erməni və gürcülərin türklərə qarşı birlikdə hərəkət edəcəyini əvvəlcədən görən Vəhib paşa bunun nəticəsində ortaya çıxacaq hərbi gücün, bölgədəki türk və müsəlman əhalinin qırılmasına və ortadan qaldırılmasına yol aça biləcəyini güman edirdi. Bakıda ermənilərin vəziyyətə hakim olacağını müəyyən edərək, indiyə qədər fikri və hissi olaraq lazım olduğu qədər yetişməmiş və olduqca ağır bir istibdad altında əzilmiş ünsürlərdən ibarət olan Qafqaz türklərindən yardım gözlənə bilməyəcəyini qeyd edirdi. Vəhib Paşa təxminən yüz ildi rus işğalı altında olan Qafqazda xalqın zülm gördüyünü və əsgərlik peşəsindən uzaq tutulduğunu da hesablayırdı. Bolşeviklərin Rusiyada qayda-qanunu və asayişi təmin etdikdən sonra Qafqazda yenidən hakimiyyətə nail olmaq üçün mütləq hərbi birliklərini bölgəyə göndərəcəyini düşünürdü.[12]

Ənvər paşa isə 4 aprel 1918-ci ildə 3-cü Ordu komandanı Vəhib paşaya göndərdiyi cavabda: "üç ildir tökdüyü qanların və uğradığı çətinliklərin və

fəlakətlərin mükafatı olaraq, Osmanlı dövlətinin keçmişdə itirdiyi və Brest-Litovsk müqaviləsi ilə istiqbalını təmin etdiyi Batum, Qars və Ərdahanı işğal etmək hökumətin vəzifəsidir" demişdi.[15]

3-cü Ordu İstanbuldan gələn əmrə görə zatən davam edən hərbi hərəkatı sürətləndirdi.[14] Ərdahan 3 apreldə yenidən türk hakimiyyətinə girdi. Qara dəniz sahilində olan 37-ci və 10-cu Qafqaz diviziyaları da Borçka və Batum üzərinə yeridi. O tarixlərdə Trabzonda olan Çenkelinin gecikdirmələrinə rəğmən türk hərbi birlikləri 10 apreldə Batuma beş kilometr aralı olan Orta Batumi işğal etdi. 37-ci diviziyaya bağlı hərbi birliklər, nəhayət, 14 aprel günü axşama doğru Batuma girdi.[16]

Batum və ətrafında yaşayan türk və müsəlman əhali bolşevik zülmünə son verən türk əsgərini bir xilaskar olaraq görmüşdü.

Qarsın qurtarılması 3-cü Orduya bağlı 1-ci Qafqaz korpusuna tapşırıldı.[17] Korpus komandiri albay Kazım (Qarabəkir) bəy, ermənilərin Sarıqamışa çəkilməsinə fürsət vermədən məhv edilmələri üçün 9-cu Qafqaz diviziyasını hərəkətə keçirdi. Bundan sonra bölgədən qaçan ermənilər Qarsa doğru geri çəkildilər. Ermənilər geri çəkilərkən Sarıqamış, Səlim, Kağızman və ətrafındakı kəndlərdə yaşayan türkləri öldürürdülər. 36-cı və 9-cu diviziyalar bölgəni ermənilərdən təmizləyərək irəliləyirdi. 22 apreldə Səlim ələ keçirildi. Sivil ermənilər panikaya düşərək Qarsdan qaçıb Gümrü və İrəvana gedirdilər. 23 apreldə də Qars qalası mühasirə olundu. Qarsda olan bolşeviklər ilə ermənilər və bunlara hərbi dəstək verən ingilislər mühasirəni yara bilməyəcəklərini anladıqda, 25 apreldə axşama yaxın şəhəri təslim etməyə məcbur oldular. 1-ci korpusa bağlı 1-ci avcı taboru axşam saatlarında Qarsa girərək nəzarəti təmin etdi. Beləliklə, 1877-78-ci illərdəki müharibədə rusların əlinə keçən Qars 40 il sonra vətənə qaytarılmışdı.

Albay Kazım bəyin Ərzincan, Ərzurum və Sarıqamış hücumunda göstərdiyi qərarlı davranışı, istiqamətvermə və idarəetmədəki üstün qabiliyyəti 1-ci Qafqaz korpusunu Qars yaxınlıqlarına qədər bacarıqla gətirməsi, bölgədə yaşayan minlərcə türkün ermənilər tərəfindən öldürülməsinin qarşısını almışdı. Qarsın ələ keçirilməsiylə Osmanlı dövləti 1877-ci ildəki şərq sərhədlərinə çatmışdı.[18]

Başkomandanlıq vəkaləti ingilis və ermənilərin Təbrizdə bir qüvvə yaratmağa çalışdıqlarını xəbər almışdı. Buna görə türk ordusu Arpaçayın şərqindəki Gümrü-Naxçıvan-Culfa dəmir yolunu ələ keçirərək, Təbrizə hərbi qüvvə göndərməyi planladı. Beləliklə, Təbriz ətrafındakı ingilis qüvvələri ilə ermənilərin ünsiyyətini qoparmağı düşünürdü.[19] Osmanlı dövləti Zaqafqaziya idarəsindən 1829-cu ildə Ədirnə müqaviləsi ilə ruslara verilən və əhalisi tamamən türklərdən ibarət olan Axıska və Axalkələk bölgəsinin dərhal boşaldılmasını istədi. Vəhib paşa 1-ci və 2-ci korpusların 15 may 1918-ci ildə Arpaçayın şərqinə keçərək

Gümrünün mühasirəyə alınması məqsədilə irəli hərəkata başlaması üçün əmr verdi. Ordu komandirliyinə görə Cənubi Azərbaycanda olduqca sıxıntılı bir vəziyyət vardı. Bu üzdən Gümrü-Culfa dəmir yolunun tezliklə ələ keçirilməsi lazım gəlirdi. Ermənilərin zülmü altında yox olmağa məhkum edilən bölgədəki türklərə yardım edilməsi və hər gün müxtəlif səbəblər üzündən məhv olan və bu bölgədə tutulan əsir türk əsgərlərinin qurtarılması ilə ordu intizamı baxımından, qrup birliklərinin irəli hərəkata başlamasını vacib bilmişdi. Bölgədəki ermənilərə aid süvari və piyada qüvvələrinin sayı 6 minə yaxın idi. Türk əsgərinin irəliləyişini dayandıra bilməyən ermənilər qısa müddətdə çəkilmək məcburiyyətində qaldılar. 1-ci Qafqaz korpusu Gümrü-Culfa, 5-ci Qafqaz diviziyası da Gümrü-Tiflis dəmir yolunu ələ keçirdi. Türk əsgəri daha sonra Gümrü istiqamətində irəliləyişini davam etdirdi. Bölgədə olanların da qatılması ilə 7 min nəfərə çatan erməni və rus hərbi birlikləri, burada da davam gətirə bilmədi və Qarakilsə istiqamətində geri çəkildi. 2-ci avcı taboru uğurlu bir yürüşdən sonra 16 mayda Gümrüyə girdi.[20]

Gümrünün təxminən 60 kilometr şərqindəki Qarakilsəyə çəkilən erməni birliklərinin bölgəyə yerləşməsinə fürsət verilmədən məhv edilməsi üçün təcili hərəkətə keçilməsi lazım gəlirdi. Həmçinin 1-ci və 2-ci Qafqaz korpusları Sərdarabad, Qarakilsə, İrəvan istiqamətində hücuma keçdilər. Sərdarabad 21 mayda, Qarakilsə isə 28 mayda şiddətli bir hücum nəticəsində düşmən qüvvələrindən təmizləndi.[21] Bölgədə olan təxminən 20 min nəfərlik erməni və rus hərbi birliklərinin baş komandiri Nazarbekov idi. Buradakı erməni qoşunlarının başında isə həyatının tək məqsədi "türkləri öldürmək" olan Andranik dururdu. Müxtəlif səbəblər üzündən təəssüf ki, bu 20 min nəfərlik erməni birlikləri tamamən məhv edilməmiş və bunlar şərqdəki Dilican bölgəsinə çəkilmişdilər.

**4. Batum Konfransı** (11 may - 4 iyun 1918-ci il)

Qafqaz cəbhəsindəki 3-cü Ordunun irəli hərəkatı nəticəsində Qars, Ərdahan və Batum ilə Gümrü və Qarakilsə ətrafı ələ keçirilmiş, Gümrü-Naxçıvan-Culfa dəmir yolu nəzarət altına alınmışdı. Cənubi Azərbaycanda da Dilman və Xoy ətrafında önəmli uğurlar əldə edilmişdi. Trabzon Konfransında Osmanlı dövlətinin istəklərini qəbul etməyən Zaqafqaziya Seymi bu yeni əməli durum qarşısında çarəsizlik içində bir çıxış yolu axtarırdı. Nəhayət, Osmanlı dövlətinin istəyinə uyğun olaraq 11 may 1918-ci ildə müstəqilliyini elan edərək "Zaqafqaziya Cümhuriyyəti" adını almağa məcbur oldu.[22]

Osmanlı dövləti Zaqafqaziya Cümhuriyyətindən sülh görüşmələrinin tezliklə başladılması üçün təmsilçilərini Batuma göndərməsini istədi. Hökumət rəhbərliyinə gətirilən Çenkeli gürcü, erməni və Azərbaycan türklərindən ibarət olan heyətlə Tiflisdən Batuma getdi. Batum Konfransında o günlərdə müstəqilliyini elan edən Şimali Qafqaz (Dağıstan) Cümhuriyyəti də Heydər Bammat adındakı bir nümayəndə tərəfindən təmsil edilirdi.

Osmanlı dövlətinin təmsilçiləri isə görüşmələrə Ədliyyə Naziri və Dövlət Şurası rəisi Xəlil bəyin rəhbərliyində bir heyətlə qatılırdı. 3-cü Ordu komandiri Vəhib paşa da heyətdə yer almaqdaydı. Sədrəzəm Tələt Paşa türk heyətinə ermənilər və gürcülərin bölgədə qüvvətli bir dövlət qurmalarının əngəlləməsi üçün qəti təlimat vermişdi.[23]

Bolşevik Sovet Rusiyası rəhbərləri də konfransa qatılmağı istəyirdi. Ancaq bu istəkləri Osmanlı dövləti və Zaqafqaziya Cümhuriyyəti tərəfindən qəbul edilmədi. Buna əsasən Çiçerin, Çenkeliyə bir teleqraf göndərərək, Batum Konfransında alınan qərarları qəbul etməyəcəklərini bildirdi.[24]

Osmanlı dövləti Batum Konfransına güclü bir formada girdi. Tiflis idarəsi Brest-Litovsk Müqaviləsində alınan qərarları Trabzonda rədd etmişdi. Buna görə başladılan hərbi hərəkatın ardından masaya oturmağa məcbur qalmışdı.

Türk heyətinin konfransdakı istəklərini bu şəkildə xülasə edə bilərik:

-Antanta təmsilçilərinin Cənubi Qafqazdan çıxarılması;

-Bölgədəki türk və müsəlman əhaliyə geniş haqlar verilməsi;

-Zaqafqaziya Cümhuriyyətinin əsgərlərini tərxis etməsi;

Axıska və Axalkələk bölgəsinin boşaldılaraq Osmanlı dövlətinə verilməsi;

-Türk hərbi birliklərinin Cənubi Azərbaycana asanca nəql edilə bilməsi üçün Qars-Gümrü-Eçmiədzin-Naxçıvan-Culfa dəmir yolunun nəzarəti ilə bölgənin Osmanlı dövlətinə verilməsi;

-İngiltərə ilə müharibə davam etdiyi müddətcə Cənubi Qafqazdakı bütün dəmir yollarından Osmanlı dövləti tərəfindən sərbəstcə istifadə edilməsi.

Türk heyətinin, əhalisi gürcü əsilli müsəlman olan Batum ilə türklərin çoxluq təşkil etdiyi Axıska və Axalkələk bölgələrinin Osmanlı dövlətinə verilməsi məsələsindəki istəklərinin hüquqi dəlili mövcuddu. Bu bölgələrdə yaşayan xalq öz gələcəklərini müəyyən etmək üçün 26 aprel 1918-ci ildə bir xalq səsverməsi təşkil etmiş və Osmanlı dövlətinə qatılmaq qərarı almışdı. Bu irəliləyişlər, bolşeviklərin 8 noyabr 1917-ci ildə verdikləri "sülh dekreti" ilə 15 noyabr və 3 dekabr 1917-ci il tarixlərində açıqladıqları "Rusiyadakı millətlərin haqlarına aid bəyannamə" mətnlərinə də uyğundu.[25]

Bu şərtlərin ağır olduğunu düşünən Tiflis idarəsinin təmsilçiləri Osmanlılarla bağlanacaq müqaviləyə Almaniya, Avstriya-Macarıstan İmperatorluğu və Bolqarıstanın imza qoymasını istədilər. Xəlil bəy bu istəyi, müzakirəyə gərək görmədən rədd etdi. Almaniya isə türklərin Ermənistan və Azərbaycana girməsinə şiddətlə qarşı çıxırdı. Gürcüstanı himayəsinə alan Almaniya Qafqaz dəmir yollarına nəzarət etməyə və Bakı neftindən pay almağa çalışırdı.

Osmanlı hərbi birlikləri hərəkata davam edərkən Batum Konfransı da işini davam etdirirdi. Ancaq Çenkeli türk heyətinin istəklərini kəskin bir dillə rədd

edirdi. Eyni günlərdə Bakıdakı Şaumyan idarəsi də türklərə qarşı soyqırıma başlamışdı. Erməni daşnakları və rus bolşeviklər üç gün içində 14 min məsum insanı acımasızca öldürmüşdü. Xəlil bəy 26 martda Çenkeliyə bir nota verdi.[26] Notanın məzmunu belə idi:

"Özlərinə inqilabçı deyən bir qrup quldurlar, Bakı və ətrafında türk və müsəlman əhalini acımasızlıqla öldürməkdədir. Osmanlı dövlətinin eyni irq və eyni dindən olan bu qardaşlarının öldürülməsinə seyrçi qalması gözlənilə bilməz. Qafqazdakı türklər, gürcülər və ermənilərin milli maraqları bir-biri ilə davamlı olaraq toqquşmaqdadır. Osmanlı dövləti ilə daimi və adil bir sülh bağlanması üçün Zaqafqaziya Cümhuriyyətini meydana gətirən hər cəmiyyətin öz müstəqil dövlətini qurması ən doğru yoldur."

Xəlil bəy məktubunda birincisi 11 may 1918-ci ildə verilib, indiyə qədər qarşılığı alınmayan məktubların cavabının üç gün içində ona çatdırılmasını istədi.[27]

Batum Konfransından bir nəticə alına bilməmişdi. Həqiqətən də Qafqazdakı Azərbaycan və Dağıstan türkləri, Osmanlı dövlətindən yardım istəyirdilər. Buna qarşılıq olaraq, gürcü və ermənilər isə türk ordusuna qarşı savaşırdılar. Bu da Zaqafqaziya Cümhuriyyətini meydana gətirən üç ana millətin arasında "birlikdə yaşama arzusunun olmadığının" açıq bir əlaməti idi.

Tiflisdəki Seym Məclisi 26 may 1918-ci ildə son toplantısını təşkil etdi. Bu toplantıda alınan qərarla Zaqafqaziya Cümhuriyyəti ləğv olundu.[28]

Toplantıda alınan qərar bu şəkildə idi:

"Zaqafqaziya Müstəqil Cümhuriyyətini meydana gətirən millətlər arasında hərb və sülh məsələsində əsaslı ayrılıq olduğu və nüfuzlu bir hökumət təşkil edərək, bütün Cənubi Qafqaz adından danışmağa imkan qalmadığı üçün Seym, Zaqafqaziya bölməsinin bir əmri-vaqe olduğunu qeyd ilə öz səlahiyyətini tərk edir."

Gürcü və ermənilər eyni gündə öz dövlətlərini qurdular. Gürcüstanın paytaxtı Tiflis, Ermənistanın paytaxtı da İrəvan olaraq açıqlandı. Gürcülər qısa bir müddət sonra Batuma gələrək, Osmanlı dövləti ilə sülh müqaviləsi bağlayacaqlarını bildirdilər və bu müddətdə xüsusilə Axıska və Axalkələk bölgəsinə qarşı hərbi hərəkat təşkil olunmasını istədilər. Vəhib paşa isə qısa zamanda Batuma gəlmələri halında bu arzularının yerinə yetiriləcəyini bildirdi. Nəhayət, gürcülərlə 3 iyun 1918-ci ildə sülh müqaviləsi imzalandı. Müqaviləyə görə Batum, Axıska və Axalkələk bölgəsi Osmanlı dövlətində qaldı. Türk-gürcü sərhədi də Çuluq suyu olaraq müəyyən olundu.[29]

Müstəqilliyini elan edən Ermənistan Respublikası ilə Osmanlı dövləti arasında 31 may 1918-ci ildə Batumda "Sülh və Dostluq Müqaviləsi" imzalandı. Bu ölkə ilə ortaq sərhəd, 1877-78-ci ildəki Osmanlı-Rusiya sərhədi qəbul edildi. Beləliklə, Osmanlı dövləti baxımından Qafqazda savaş halı sona çatmış oldu.

Gürcüstan və Ermənistan ilə yanaşı Azərbaycan da Cənubi Qafqazda azad və müstəqil bir dövlət halına gəldi.

Müqavilə hökmlərinə görə, ermənilərə qarşı yürüdülən hərbi hərəkat tamamilə dayandırıldı və Osmanlı dövlətinin Gümrü-Culfa dəmir yolundan faydalanması hökmə bağlandı. Bundan başqa Ermənistandakı düşmən ünsürlər və İtilaf dövlətlərinin təmsilçiləri ölkə xaricinə çıxarılacaqdı. Bu ölkədəki müsəlman türklər bir müfti (imam) seçəcək, İstanbulda olan Şeyxülislamın təyin edəcəyi bir baş müfti də evlənmə, boşanma, miras, varislik və vəqflərin nəzarəti kimi məsələlərə baxacaqdı. Ermənistan ordusu sülh məqsədli və bir diviziyadan artıq olmayacaq, bunun xaricindəki hərbi birliklər tərxis ediləcəkdi. Bağlanan bu müqavilənin hökmlərinin müzakirə edilməsi və imzalanması üçün də 3-cü Ordudan qrup komandiri Yaqub Şüvqü Paşa, Erməni hökuməti tərəfindən də ordu qərargah sədri general Karqanov nümayəndə olaraq təyin edilmişdilər.[31]

Gürcü hökuməti ilə də 3 iyun 1918-ci ildə bir sülh müqaviləsi imzalandı. Müqaviləyə görə Axıska və Axalkələk Türkiyədə qaldı. Hər iki ölkənin sərhədlərində zəif postlar qurulması və birliklərin sərhədin arxasında istirahət və təlim kimi məsələlərlə məşğul olması qərarlaşdırıldı.[32]

Gürcü və ermənilərin milli dövlətlərini qurmasından sonra Zaqafqaziya Seyminin Azərbaycanlı türklərdən ibarət olan üzvləri də özlərini "Azərbaycan Milli Şurası" olaraq elan etdilər. Şuranın sədrliyinə də Məmməd Əmin Rəsulzadəni gətirdilər. Ardından Azərbaycan Milli Şurası bir bəyannamə yayaraq, 28 may 1918-ci ildə müstəqilliyini elan etdi. Xalqa yayılan bəyannamə belə idi:

"Seçimlə vəzifə başına keçən Azərbaycan Milli Şurası bütün xalqa elan edir ki:

1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına sahib olduğu kimi Cənubi və Şərqi Qafqazdan ibarət Azərbaycan da daxil olmaqla müstəqil bir hüquq dövlətidir.
2. Müstəqil Azərbaycan dövlətinin idarə şəkli xalq cümhuriyyəti olaraq qərarlaşdırılır.
3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə və əlalxüsus qonşu olduğu millət və dövlətlərlə yaxşı münasibət təsis edəcəkdir.
4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif və cins fərqi gözləmədən bütün vətəndaşlarının siyasi və vətəndaşlıq hüquqlarını təmin edəcəkdir.
5. Azərbaycan Xalq Cümhuriyyəti, ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün imkan yaradacaqdır.
6. Milli Məclis toplanana qədər Azərbaycan idarəsinin başında ümumi səsvermə ilə seçilmiş Milli Şura və Milli Şuraya qarşı cavabdeh olan müvəqqəti hökumət durur."[33]

Azərbaycan Xalq Cümhuriyyətinin quruluşunu elan edən və nizamlayan bu mətn Müsavat Xalq Partiyasının partiya proqramından alınmışdı. Fətəli xan Xoyskinin rəhbərliyi ilə qurulan bu ilk hökumət 8 nazirdən ibarət idi. Bunlardan 6-sı Müsavat partiyasına və tərəfsizlərə, biri bolşevik Hümmət partiyasına və biri də blok qrupuna verilmişdi. Beləliklə, Azərbaycanda yaşayan türklər ilk milli dövlətləri ilə hökumətlərini qurmuş oldular. Dövlətin keçici paytaxtı olaraq Gəncə elan edildi. Bakının normal şərtlərdə Azərbaycanın paytaxtı olması lazım gəlirdi. Ancaq bolşeviklər tərəfindən 31 dekabr 1917-ci ildə "Qafqaz Fövqəladə Komissarı" sifətiylə Peterburqdan göndərilən erməni əsilli kommunist Şaumyan bir çevriliş ilə 18 martda idarəni ələ keçirmişdi. Azərbaycanlı türk liderlər Bakıdakı Müsavat Xalq Partiyası tərəfindən qurulan hökumətin yıxılması nəticəsində Gəncəni Azərbaycan dövlətinin keçici paytaxtı olaraq elan etmək məcburiyyətində qalmışdılar.

Azərbaycan Cümhuriyyəti elan edildikdən sonra Batumda olan təmsilçiləri Osmanlı dövlətinin təmsilçiləri ilə müzakirələrə başladılar. Müstəqil Azərbaycan Cümhuriyyəti adından Milli Şura sədri Məmməd Əmin Rəsulzadə və Xariciyyə Naziri Məmmədhəsən Hacınski, Osmanlı Dövlət Şurasının dövlət sədri və Ədliyyə Naziri Xəlil bəy və 3-cü Ordu komandiri Vəhib Paşa bir araya gəldilər. Tərəflər aparılan görüşmələrdən sonra 4 iyun 1918-ci ildə bir yardımlaşma və işbirliyi müqaviləsi imzaladılar.[34] Bu anlaşmanın dördüncü maddəsinə görə, ölkədə asayiş və təhlükəsizliyi qorumağa ehtiyac duyularsa, Osmanlı dövləti Azərbaycan hökumətinə silahlı qüvvələri ilə yardım göstərməyi qəbul edirdi. Azərbaycan bu maddəyə dayanaraq ölkədə əmin-amanlığı və asayişi təmin etmək üçün Osmanlı dövlətindən hərbi yardım istədi.[35] Bu istək Osmanlı heyəti tərəfindən həmin an qəbul edildi.[36] Osmanlı dövləti Brest-Litovsk Sülh Müqaviləsi hökmlərinə dayanaraq Gürcüstan, Ermənistan və Azərbaycan dövlətləri ilə də ayrı-ayrı dostluq və işbirliyi müqavilələri imzalamışdı. İstanbul hökuməti, arzu etdiyi ilk hədəflərinə çatmışdı. Geniş bir cəbhəyə yayılan 3-cü Ordunun strateji hədəflərə görə istifadə olunması üçün yenidən təşkilatlanması vacib bilindi. 6-cı və 9-cu ordular bir ordular qrupu şəklində yenidən təşkilatlandırıldı.[37] 3-cü Ordu isə birbaşa Başkomandanlıq Vəkalətinə bağlandı. 9-cu ordunun əsl vəzifəsi, Urmiyə gölü ilə Xəzər dənizi arasındakı Cənubi Azərbaycanı nəzarət altına alaraq bolşeviklərin İranda olan ingilislərə yardım etməsinin qarşısını almaqdı. Bu vəzifəni icra edə bilmək məqsədilə Urmiyə gölü ətrafındakı erməni quldurlarının təmizlənməsi üçün dərhal hərəkətə keçməsi lazım gəlirdi.

1. Mirzəbala Məmmədzadə, Milli Azərbaycan hərəkatı, s. 67-68.
2. Zaqafqaziya Seyminin 15 Fevral 1918 tarixli toplantı sənədləri üçün bax: Mirzəbala Məmmədzadə, Milli Azərbaycan hərəkatı, s. 69-71.
3. Yenə orada, s. 74.

4. Akdes Nemət Kurat, Türkiyə və Rusiya, Ankara, 1990, s. 468.
5. Yenə orada.
6. Yenə orada, s. 469.
7. Mirzəbala Məmmədzadə, Milli Azərbaycan hərəkatı, s.79-80.
8. Kurat. Türkiyə və Rusiya, s. 471.
9. Yenə orada, s. 472.
10. Mirzəbala Məmmədzadə, Milli Azərbaycan hərəkatı, s. 78-79.
11. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 478.
12. Yenə orada, s. 479.
13. Yenə orada.
14. Yenə orada, s. 470-506.
15. Yenə orada, s. 479.
16. Yenə orada, s. 496.
17. Yenə orada, s. 501-502.
18. Yenə orada, s. 504.
19. Yenə orada, s. 508.
20. Yenə orada, s. 507-511.
21. Yenə orada, s. 514-522.
22. Kurat, Türkiyə və Rusiya, s. 473.
23. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 522.
24. Kurat, Türkiyə və Rusiya, s. 474.
25. Bəyannamələr üçün bax: Əlavə 1.
26. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 522.
27. Mirzəbala Məmmədzadə, Milli Azərbaycan hərəkatı, s. 87. Xəlil bəyin Çenkeliyə verdiyi notanın mətni belə idi: "Zati-alilərinə məlum olduğu üzrə, Qafqazın vəziyyəti çox kritik və mübhəmdir və bu səbəbdən də həll edilməsi lazım gələn problemlər var. Bakı və ətrafında yüz minlərlə türk və müsəlman, özlərini inqilabçı adlandıran vicdansız quldurların qanlı pəncələrində inləyir və bu zavallıları təhdid edən, bərpası mümkünsüz fəlakət, gündən günə yaxınlaşmaqdadır. Saysız mütəşəkkil quldur dəstələrinin hücumları vaqe olan Qafqazın digər qisimlərindəki türk və müsəlman əhalinin vəziyyəti təsəllibəxş deyil. Rəis həzrətləri, yəqin qəbul edərsiniz ki, bu adı daşımağa layiq olan heç bir hökumət, həmsərhəd olduğu bir ərazidə belə cinayətlərin saysız artmasına dözə bilməz. Və yenə qəbul edərsiniz ki, Qafqazı məhv edən anarxiyaya münasibətdə, Osmanlı dövlətinin vəziyyəti çox həssasdır. Çünki bu anarxiya, Osmanlı dövlətinin əhalisiylə eyni irqə və dinə mənsub olan bir əhalinin əmniyyətini də əlaqədar

etməkdədir. Digər tərəfdən, ümumi hərbin şərtləri daxilində Osmanlı dövləti, öz ordusunu digər cəbhələrə Qafqaz yolu ilə nəql etmək məcburiyyəti qarşısındadır. Bu da, hal-hazırdakı qeyri-müəyyən vəziyyətə təcili olaraq son verilməsini vacib hala gətirir.


28. Mirzəbala Məmmədzadə, Milli Azərbaycan hərəkatı, s. 82,

29. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 524.

30. Yenə orada, s. 522.

31. Yenə orada, s. 524.

32. Yenə orada.

33. Mirzəbala Məmmədzadə, Milli Azərbaycan hərəkatı, s. 90.

34. Müqavilənin mətni üçün bax: Əlavə 2 və 3.

35. Müqavilənin mətni üçün bax: Əlavə 4.

36. İsmayıl Musayev, Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921), Bakı, 1998, s. 77.

37. Xəritə 2.

38. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 527.

# III HİSSƏ

## TÜRK ORDUSUNUN QAFQAZA GİRİŞİ

**1. Osmanlı dövlətinin Qafqaz və Türküstan siyasəti:**

Türklərdəki dövlət anlayışında qərbli dövlətlərin təməl ideologiyasını meydana gətirən və kökləri Roma imperatorluğuna qədər uzanan "empire" anlayışı yoxdur. Yəni türk dövlətlərində keçmiş Roma, Hellin və xristianlığın mədəni və ideoloji birləşiminin nəticəsində ortaya çıxmış olan istismar və imperializm (empire) anlayışı bulunmaz. Türklər imperialist deyildir və bu anlayışı toplum və dövlət həyatında heç bir zaman tətbiq etməmişlər. Dili, dini, irqi, anlayışı və ya yaşadığı torpaqlar səbəbindən başqa millətləri və mədəniyyətləri aşağılamamışlar. Onları da "insan" olaraq qəbul etmişlər. Osmanlı dövləti də insanlıq tarixinin nadir şahid olduğu bir neçə cahan dövlətindən biridir. Türklər dövlət təşkilatı, vətəndaşlıq hüququ, ədalət sistemi, dünyagörüşü və hərbi baxımdan dövrünün ən irəli super gücünü qurmuşlar.

Bu qısa təsbitdən sonra XIX yüzilliyin fikir cərəyanlarına qısaca baxmaq lazım gəlir. Fransız ixtilalı ilə dünyaya yayılan milliyyətçilik və milli dövlət qurma cərəyanı Osmanlı və türk coğrafiyasına da yayılmışdı. Dövlətin təməl ideologiyasının gərəyi olaraq, Osmanlılar daha çox milləti bir arada, barış içində idarə edirdilər. Ancaq dünyadakı bu cərəyandan təsirlənmələri uzun sürmədi. Çünki bir tərəfdə müstəqil bir türk dövləti olan Osmanlı dövləti vardı, digər tərəfdə də Rusiya və Çin imperatorluqlarının basqısı altında əzilən bir çox türk qövmü vardı. Türk ziyalıları və siyasətçiləri bu şərtlərdə bir çıxış yolu tapa bilmək üçün öncə Osmanlıçılıq, ardından İslamçılıq cərəyanını ortaya atdılar. Bu görüşlərin, dövlətin yıxılmasının və parçalanmasının qarşısını almada aciz qalacağı qısa müddətdə aydın oldu. Nəhayət, Türkçülük cərəyanı Rusiya, Türküstan, Qafqaz və Anadoluda sürətlə inkişaf etdi.

Qərblilər tərəfindən Pantürkizm, ya da Turançılıq olaraq adlandırılan türk millətçiliyi cərəyanının qabaqcılları Krımdan Qaspıralı İsmayıl bəy, Kazandan Yusif Akçura, Azərbaycandan Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlu kimi türk ziyalıları ilə bərabər Türkiyədən də bu görüşləri milli bir ideya halına gətirərək, sosioloji bir sistemə qovuşduran Ziya Göyalp olmuşdur.

18-ci və 19-cu əsrlər boyunca universitetlərin özünü yeniləyə bilməməsi, elmin və ağlın dövlət idarəsinin arxasında qalmasına, yəni siyasətə yol göstərmə vəsfini itirməsinə yol açdı. Dövlət və cəmiyyət həyatında ard-arda zərbələr almasına səbəbiyyət verdi. Hərbi sahədəki məğlubiyyətlər, torpaq itkiləri, daxili üsyanlar və qərb ölkələrinin yerli əməkdaşları vasitəsilə dövlətə və xalqa vurduğu zərbələr və bunların nəticəsində cəmiyyəti dərindən sarsıdan hadisələr dövlət

heyətlərində və xüsusilə hərbidə özə dönüşü sürətləndirdi. İttihad və Tərəqqi Partiyası liderləri Osmanlıçılıq və İslamçılıq fikirlərinin iflas etdiyi bir dövrdə Osmanlı dövlətini, daha doğrusu, türk dövlətini yaşada bilmək və ayaqda tuta bilmək üçün Türkçülük və Turançılıq fikirlərindən başqa bir ideoloji gücün qalmadığı nəticəsinə gəldilər. Beləliklə, Türkçülük və Turançılıq ideyası Birinci Dünya müharibəsində Osmanlı dövlətinin hərəkətverici gücü və təməl ideologiyası halına gəldi.

Dövlətin içində olduğu ağır şərtlər səbəbilə İttihad və Tərəqqi heyətlərinin yürütdüyü bu fikir hərəkətini cəmiyyət kifayət qədər müzakirə edə bilməmişdi. Bir sistem halına gəlməmiş fikir cərəyanının, ya da ideologiyanın, tətbiq olunacağı praktik sahə olan dövlət təşkilatında bəzi sıxıntılarla qarşılaşması normaldır. İttihad və Tərəqqi liderləri 1908-ci ildən etibarən çox ciddi sosial və ekonomik çalxantılar və torpaq itkisi ilə bərabər, təxminən beş il içində də Birinci Dünya müharibəsi ilə üz-üzə qaldılar. Üst-üstə gələn bu hadisələr Ənvər Paşa və yoldaşlarının böyük bir şanssızlığı olaraq dəyərləndirilə bilər. Əskiklərə, yoxluqlara, xaricdən və daxildən əngəlləmələrə və xəyanətlərə rəğmən Ənvər Paşa və yoldaşlarının, türk dövlətini düşdüyü sıxıntılardan çəkib çıxarmaq, bundan başqa digər türk vilayətlərini rus çarlarının istismarından və imperializmin işğalından qurtarmaq üçün göstərdikləri cəhdin səmimi olduğuna şübhə edilə bilməz.

Osmanlı dövlətini idarə edən heyət Türkçülük və Turançılıq hədəfinə çata bilmək üçün Azərbaycanın coğrafi vəziyyətinə önəm vermişdilər. Bu doğru bir tərcih idi. Rusiyadakı çar idarəsinin savaş içində yıxılması, bu sahədə daha əhatəli və sürətli hərəkət edilməsini tələb edirdi. Bunun, əlbəttə, bir sıra sosioloji, dini və strateji səbəbləri vardı:

a) Azərbaycan, Anadolu kimi bir türk ölkəsi və Oğuzların yurdu idi,

b) Xalqının dini İslam idi,

c) Tarixi Azərbaycan coğrafiyası Turan yolunda önəmli bir yer tuturdu,

d) Zəngin təbii sərvətləri vardı,

e) Müstəqil bir Azərbaycanın Türkiyə ilə yaxın dostluq, qonşuluq və əməkdaşlıq etmə imkanı mövcuddu,

f) Xüsusilə Şimali Azərbaycandakı türk ziyalıları, Müsavat Xalq Partiyası çevrəsində toplanmışdılar və bu bölgədə müstəqil bir türk dövlətinin qurulması ilə Türküstanın gələcəyi məsələsində Osmanlı dövlətini idarə edən heyətlərlə eyni görüşləri paylaşırdılar.[1]

Azərbaycan və Qafqazı rus idarəsindən qurtarmaq üçün gizli çalışmalar yürüdən Difai adlı təşkilat Osmanlı dövləti ilə uzun müddətdir irtibat halında idi. Təşkilat üzvlərindən Əmiraslan xan Xoyski, savaş davam edərkən Ərzurumda türk səlahiyyətliləri ilə görüşmüşdü. Əmiraslan xan Qafqazda yaşayan xalqlardan ibarət olan və muxtar bölgələrdən əmələ gələn bir dövlət qurula biləcəyini bildirmişdi.

Ənvər paşa Çərkəz Marşal Fuad paşa kimi seçkin Qafqaz köçmənlərindən əmələ gələn bir təşkilatlanmaya gedərək, Şimali Qafqazda üsyan edilməsi üçün "Türk Səhiyyə Missionu" adında bir komitə qurmuşdu. Digər tərəfdən də Gürcüstanda acarlarla oxşar çalışmalar yürüdürdü. Rusiyada 1917-ci ilin mart ayında başlayan anarxiya və oktyabr ilə noyabr aylarında yaşanan ixtilal Ənvər paşanı olduqca cəsarətləndirmişdi. Türkçülük və turançılıq sahəsindəki fikirlərini tətbiq edə bilmək üçün qızıl kimi bir fürsətin qarşısına çıxdığını qısa müddətdə anlamışdı.

Rusiyada dövlət və cəmiyyətdə başlayan çözülmə rus ordusunda da davam edirdi. Qafqaz cəbhəsində zirvə nöqtəyə çatan dağılma bölgədə böyük bir avtoritet boşluğu doğurmuşdu. Rus hərbi birliklərinin yerini alan silahlı erməni quldurları Qafqazdakı türk və müsəlman xalqa qarşı etnik təmizliyə başlamışdı. Erməni quldurlarının Şərqi Anadoluda başlatdığı vəhşət və qırğın Azərbaycanda da sürətlə yayılırdı. Bundan sonra Azərbaycan türkləri Osmanlı dövlətindən yardım istədi. Qafqaz türklərindən ibarət olan bir heyət 1917-ci ilin oktyabr ayında 6-cı ordunun yerləşdiyi Mosula getdi. Bir başqa heyət də 1918-ci ilin martında Batum üzərindən İstanbula çatdı. 6-cı Ordu komandanı Xəlil paşa Qafqaz və İrandakı durumu yerində görmək və gərəkli araşdırma aparmaq məqsədilə topçu teymen (leytenant) Müzəffər bəyin rəhbərliyində bir heyəti bölgəyə göndərdi. Teymen Müzəffər bəy vəzifəsini tamamlayıb Mosula döndüyündə Qafqazda gərəkli təşkilatı qurmaq üçün şərtlərin uyğun olduğunu raport etmişdi. Bu dəyişikliklərdən başqa Şərqi Avropada ruslara əsir düşən Avstriyalı bir zabit həbsdən qurtarılaraq Qafqaz üzərindən İstanbula çatmışdı. Bu zabitin verdiyi bilgilər də paytaxtda dəyərləndirilmişdi. Buna görə Qafqazda rus idarəsinin çökdüyü, bölgədə yaşayan türklərin müstəqillik üçün savaşmağa hazır olduqları, ancaq bunları təşkilatlandıracaq və öndərlik edəcək heyətlərdən məhrum olduqları üçün hərəkətə keçə bilmədikləri nəticəsinə gəlindi. Bundan başqa, Qafqaz tüklərinin qabaqcılları, siyasətçiləri və ziyalıları Osmanlı dövlətindən yardım istəyirdilər. Ənvər Paşa bu və buna bənzər dəyişikliklər və dəyərləndirmələr nəticəsində Qafqaz və Orta Asiyada türk birliyini təmin etmək üçün tarixi bir fürsətin qarşılarına çıxdığını düşünürdü. Çünki Qafqaz və Türküstanda rus ordusundan əsər qalmamışdı. Bundan başqa gürcü və ermənilərin hərbi birlikləri də türk ordusuna əngəl ola biləcək gücdə deyildi.

**2. Bolşevik ixtilalı və Azərbaycandakı irəliləyişlər:**

Qafqazda önəmli bir yeri olan Bakı, Şirvanşahlar dövründən rus işğalına qədər bir xanlıq mərkəziydi. Türk tarixi və mədəniyyətinin Qafqazdakı önəmli sayıla biləcək mərkəzlərindən biri olma özəlliyini də daima qorumuşdu. Bundan başqa Qafqazda neft ilk dəfə Bakıda çıxarılmışdı. Bu üzdən iş və aş tapa bilmə ümidi daşıyan daha çox insanın axınına uğramışdı. Buna rəğmən şəhərdəki

əhalinin böyük çoxluğunu Oğuz türkləri təşkil edirdi. Bu və buna bənzər özəlliklər səbəbindən Azərbaycanın ən böyük mərkəzi və təbii paytaxtı Bakı şəhəri idi.

Sankt-Peterburqda başlayan üsyanın ardından Rusiyanın işğalı altındakı bir çox bölgədə çarlıq idarəsinə müxalif güclər idarəni ələ keçirmişdilər. Bolşeviklər iqtidara gəlincə, Lenin, başda neft olmaq üzrə Azərbaycanın zənginliklərini əldən çıxarmamaq üçün hərəkətə keçdi. Arzularına çata bilmək üçün niyyətini 18 dekabr 1917-ci ildə ortaya qoydu. Bunu həyata keçirə bilmək üçün də erməni əsilli Stepan Şaumyanı "Qafqaz Fövqəladə Komissarı" olaraq geniş səlahiyyətlərlə Bakıya göndərdi. Stepan Şaumyan, bolşevik idarəsini Azərbaycanda gücləndirmək üçün Əzizbəyov və Nəriman Nərimanov kimi yerli türk əsilli kommunistlərdən böyük dəstək gördü.

Qafqaz Fövqəladə Komissarının xidmət sahəsini müəyyən etmək üçün Rusiya Komissarlar Heyəti sədri Lenin və Millətlər Komissarı Stalin tərəfindən 30 dekabr 1917-ci il tarixində Cənubi Qafqaz və Şərqi Anadolunun gələcəyi ilə bağlı işlər görmək səlahiyyəti verildi. Bu qərarnaməyə görə Şaumyana verilən başlıca vəzifə Cənubi Qafqazdakı milli istiqlal hərəkətlərinin qarşısını almaq, bölgədə bir Kommunist Sovet rejimi təsis etmək və rus ordusunun işğalı altında olan Şərqi Anadolu torpaqlarında da Sovet Rusiyasının himayəsində bir Ermənistan dövləti qurmaqdı.[2]

Rusiya Komissarlar Heyəti sədri Lenin ilə Millətlər Komissarı Stalin tərəfindən hazırlanan qərarnamə belə idi:

**Dekret No. 13:** Xalq Komissarları Şurası, rus ordusu tərəfindən işğal edilmiş olan Türkiyə Ermənistanında erməni xalqının tam istiqlal elan etmək dərəcəsinə qədər öz müqəddəratını təyin haqqını müdafiə edəcəyini bütün erməni xalqına elan edir.

Xalq Komissarları Şurası, bu haqqın tətbiqi üçün bütün erməni xalqının sərbəst rəy ilə milli iradə təsbit edincəyə qədər bir sıra yardımçı çarələrə təvəssül etməyi gərəkli bilir və yardımçı tədbir olmaq üzrə bunları qərar altına alır:

1. Türkiyə Ermənistanını işğal edən rus ordusu dərhal çıxarılıb o məntəqələrdə şəxsi əmniyyət və nizamı təmin üçün erməni xalq milis qüvvələri qurulmalıdır.

2. Türkiyə bayrağına xəyanət edərək düşmən tərəfinə keçən ermənilərlə digər məmləkətlərdə yaşayan erməni mühacirlərin hər hansı bir əngəllə qarşılaşmadan Türkiyə Ermənistanına geri dönmələri təmin edilməlidir.

3. Böyük savaş əsnasında Türkiyə hökuməti tərəfindən zorla Türkiyənin iç vilayətlərinə sürülən ermənilərin heç bir əngəllə qarşılaşmadan Türkiyə Ermənistanına gətirilmələri təmin edilməlidir.

4. Demokratik erməni xalq komissarları şurası ilə erməni komitəsi Türkiyə Ermənistanının keçici idarəsini təşkil etməlidir.

Birinci və ikinci maddələrdəki qərarların həyata keçirilməsi üçün Türkiyə Ermənistanı xalqına hər cür yardım etmək və Türkiyə Ermənistanındakı rus ordusunu çıxarmaq məqsədilə məhəlli komissiyalar vücuda gətirmək kimi xidmətlərlə Qafqaz işləri fövqəladə komissarı Stepan Şaumyan vəzifəlidir.

Qeyd: Türkiyə Ermənistanının coğrafi hüdudları, erməni xalqının demokratik əsaslar daxilində ediləcək seçimlə müəyyən olunacaq təmsilçiləri tərəfindən, qonşu ölkələrlə münaqişəli məntəqələr müsəlman və digər xalqlarla anlaşmaq surətiylə və Qafqaz fövqəladə komissarının iştirakı ilə təyin olunacaqdır.

**İmza:** *Xalq Komissarları Heyəti rəisi Ulyanov Lenin - Milli İşlər Komissarı Cuqaşvili Stalin.*[3]

Bu sənəddən də anlaşıldığına görə, Lenin də özündən əvvəlki rus çarlarının isti dənizlərə enmək üçün tətbiq etdiyi politikaları sürdürməyə qərarlı görünürdü. Bolşevik liderlər dünya hakimiyyəti üçün Qafqaz üzərindən Bəsrə körfəzi və Hind okeanına çatmağı xəyal edirdilər. Bu planın hərəkət bazası yenə Qafqaz olacaqdı və bunun üçün də bölgənin bolşevik Rusiya idarəsi altına girməsi lazım gəlirdi. Şaumyan Tiflisdəki Seym Məclisində olan adamlarının müvəffəqiyyət qazana bilməməsindən sonra çalışmalarını Bakı və ətrafında yoğunlaşdırdı. Çünki cəbhədən qaçaraq evlərinə dönməyə çalışan 20-25 minə yaxın rus və erməni əsgər Bakıda toplanmışdı. Osmanlı dövlətinə xəyanət etdikləri üçün Şərqi Anadoludan qaçan minlərlə ermənінin böyük bir hissəsi də Bakıda idi. Xəzər dənizində isə rus çarlığının savaş gəmiləri vardı. Bakı və ətrafındakı neft quyularının başında da rus və erməni işçilər çalışırdı. Bu şərtlər Şaumyanı olduqca ümidləndirirdi.

Azərbaycan Atatürk Mərkəzinin sədri professor Nizami Cəfərov o günlərdəki vəziyyəti belə xülasə etmişdir:

"Azərbaycanın o tarixlərdə türk ordusunun yardımına böyük ehtiyacı var idi. Rus işğalı dövründə çar idarəsi Azərbaycan türklərini hərbiyə almırdı. Azərbaycan Cümhuriyyəti qurulunca özünü qoruya biləcək sistemli bir ordusu yoxdu. Azərbaycanı müdafiə edəcək başqa bir gücü təsəvvür etmək mümkün deyildi. Bunu da nəzərə almaq lazımdır ki, Azərbaycan böyük basqılarla qarşı-qarşıya qalmış, hər tərəfdən mühasirə altına alınmışdı. Bir tərəfdən tamamilə vəhşiləşmiş, şəxsiyyətini itirmiş rus bolşevik Qızıl Ordusu, o biri tərəfdən yeni imperialist məqsədlər güdərək Qafqaza gələn ingilis əsgərləri, başqa bir tərəfdən ayrı iddialarla bölgədə erməni dövləti qurmaq üçün hərəkətə keçən ermənilər Azərbaycan üzərində hesablar aparırdılar".[4]

Bolşeviklər və ermənilər Abşeron yarımadasındakı zəngin neft yataqlarını tamamən ələ keçirmək üçün türkləri bölgədən uzaqlaşdırmaq istəyirdilər. Türkiyə və Avropa cəbhəsindən Qafqaza dönən erməni əsilli rus əsgərlərini də Bakıda toplayırdılar.[5] Şaumyanın bir başqa düşüncəsi də Xəzər dənizi ilə Qara dəniz və Aralıq dənizinə sahili olan *"Böyük Ermənistan"* təsəvvürünü həyata keçirə

bilməkdi. Rus və erməni ortaqlığı, bu xəyala çata bilmək üçün 19 mart 1917-ci ildə Bakıda "İşçilər soveti" (Proletar soveti) adlı bir məclis qurdular. İşçilər sovetində çoxluğu ixtilalçı sosialistlər və menşeviklər təşkil edirdi. Bolşeviklər isə azlıq təşkil edirdi. Buna rəğmən sovetin başına Şaumyan gətirildi. Bu birlikdə dərin görüş ayrılıqları var idi. Qısa müddət sonra Şaumyan devrilərək yerinə ixtilalçı sosialistlərdən erməni əsilli Sako Sakiyan seçildi. Fəqət Sakiyan da idarəyə hakim ola bilmirdi. Bu dəyişikliklərdən sonra həmin ilin oktyabr ayında Bakıda mübahisəli bir seçki keçirildi. Təxminən 25.700 seçicinin səs verdiyi seçkidən bu nəticə ortaya çıxdı:

-Türklərin dəstəklədiyi Müsavat Xalq Partiyası: 9.617 səs,

-Rusların çoxluqla və ermənilərin qismən dəstəklədiyi İxtilalçı Sosialist Partiyası:
6.285 səs,

-Erməni Daşnak Partiyası: 5.288 səs,

-Rusların böyük çoxluqla dəstəklədiyi Bolşevik Partiyası: 3.823 səs,

-Rus ziyalılarının dəstəklədiyi Menşevik Partiyası: 687 səs.

Çox mübahisəli və şübhəli seçkinin nəticələrinə görə, Bakı sovetində türklər azlıqda qalmış, rus və erməni təmsilçilər çoxluğu ələ keçirmişdilər. Bu səbəbdən Fətəli xan Xoyski kimi türk ziyalıları da bu məclisdə artıq bir varlıq göstərə bilmirdilər.

Bakıda təşkil olunan yeni sovet, qısa müddətdə bütün iqtidarı ələ keçirdi. Türklərin dəstəklədiyi Müsavat Partiyası ilə digər siyasi partiyalar hökumətdən çəkildilər. Bakı sovetinin başına Lenin tərəfindən geniş səlahiyyətlərlə göndərilən Stepan Şaumyan, komitəçi üsullarla yenidən gətirildi. Bakıda əhali etibarilə böyük çoxluğu təşkil edən türklərə qarşı qısa müddətdə basqı, təhdid və hədələmə hərəkətləri başladı. Zatən Şaumyanın başlıca vəzifəsi Bakı və ətrafını türklərdən təmizləməkdi. Rus bolşeviklər və erməni daşnaklar siyasi güclərinin də verdiyi cəsarətlə Bakıda qısa müddətdə müsəlman-xristian qarşıdurması əmələ gətirdilər. Bakı sovetinin başında duran Şaumyan Cənubi Qafqazda kommunist hakimiyyətini qəti bir şəkildə təmin etmək üçün şərtlərin yetişdiyini düşünürdü. Bölgədə etnik təmizlik aparmaq üçün fürsət gözləyirdi. 18 mart (31 mart) 1918-ci ildə bu fürsəti də yaxaladıqlarını düşündülər. Lənkərandan Bakıya gedən 20-yə qədər Azərbaycan türkünün silahlarını almaq bəhanəsiylə çıxarılan gərginlikdə gözü dönmüş rus bolşevik və erməni daşnak militanlar qarşılarına çıxan türklərə təcavüz göstərməyə başladılar. Rus və erməni ittifaqı, üç gün, üç gecə davam edən qətliamda qadın, kişi, qoca, cavan, uşaq demədən 14 mindən çox türkü acımadan öldürdülər. Bakının türk məhəllələri, dənizdəki donanmadan, təyyarələrlə havadan və yerdən top atəşinə tutuldu. Məscidlər, məktəb və mədəniyyət mərkəzləri dağıdıldı, mətbəə, teatr, məktəb və kitabxanalar yandırıldı. Türklərin önəmli bir hissəsi canilərin

təcavüzü qarşısında canları və namuslarını qurtara bilmək üçün Abşeron yarımadası ilə ətrafdakı qəsəbə və kəndlərə sığındılar. Bakıdakı bu qətliama görə Azərbaycanın şimal bölgələri ilə Dağıstanda yaşayan türklərdən ibarət bəzi könüllülər soydaşlarının yardımına gəldilər. Ancaq bu sistemsiz milislər və könüllülər heç bir varlıq göstərə bilmədilər.[6]

Azərbaycanın yetişdirdiyi önəmli ziyalılardan Nəsiman Yaqublu 1918-ci ildə Bakıya hakim olan bolşeviklər və onların rəhbərlərinin düşüncələrini bu sözlərlə dilə gətirir:

"Qızıl şef Şaumyan Bakı və ətrafında törədilən qətliamdan sonra Leninə göndərdiyi teleqraflarda, Bakının türklərdən tamamən təmizləndiyini və bir daha şəhərə girmələrinin qarşısının alındığını bildirmişdi. Bu xəbərləşmələr də göstərir ki, bolşevik rus və ermənilər Bakı neftini ələ keçirə bilmək üçün bölgədə yaşayan türklərin yox edilməsinin vacibliyinə inanmışdılar. Ruslar Qafqazda ermənilərin istədiyi kimi bir dövlət qurmaq istəyirdilər. Bakıdakı rus və erməni ittifaqına bölgədə yaşayan bəzi əməkdaş türk ziyalıları da qatılmışdı. Nəriman Nərimanov və Əzizbəyov kimi ziyalılar Bakıda öz soydaşlarının öldürülməsinə göz yummuşdular. Bunlar Şaumyana və Leninə inanmışdılar. Erməni daşnakların Bakıda türklərə tətbiq etdiyi etnik təmizləmə və soyqırımı bilərək və istəyərək törətdiyinə heç cür inanmırdılar. Onlar türklərə qarşı törədilən qətliamı sosialist inqilabına qarşı çıxan bəzi qruplarla aparılan qanlı toqquşma olaraq görürdülər. Bu tamamən yanlış və gerçəklərlə əlaqəsi olmayan bir göz boyamadan ibarətdi." (Şəxsi arxiv)

Şaumyan türklərə qarşı qətliama başlamağa müvəffəq olmuşdu, ancaq daha alınması gərək olan olduqca çox məsafə qaldığını da bilirdi. Bakının qızıl bolşeviklərin əlinə keçməsi xüsusilə Astraxandan alınan yardım ilə mümkün ola bilərdi. Astraxana İdil (Volqa) çayı yolu ilə Tsaritsın (sonradan Stalinqrad, indiki Volqaqrad) və digər şəhərlərdən davamlı olaraq yardım göndərilirdi. Bakıdan isə yenə eyni yolla Moskva və Rusiyanın daxilinə qədər neft məhsulları göndərilirdi. Sovet bolşevik hökuməti tamamən çökən iqtisadiyyatını Bakını əlində tutaraq ayağa qaldırmaq üçün çalışırdı. Bolşevik təşkilatı isə Dağıstan və Cənubi Qafqazı ələ keçirə bilmək üçün kommunizm təbliğatını sürətləndirirdi. Türk və müsəlman əsillilərdən başqa bölgədəki bütün millətlər və sosial qruplar bolşevikləri dəstəkləyirdi. Bundan istifadə edən ermənilər də türklərə hər fürsətdə hücum edirdilər.[7]

Lenin iqtidarı ələ keçirincə Qafqaz xalqlarına belə səslənmişdi:

"Məscidləri, məktəbləri, mədəniyyət müəssisələri çar hökuməti tərəfindən yox edilən, siz ey Zaqafqaziya türk və tatarları! Bundan sonra milli və mədəni müəssisələriniz sərbəst və toxunulmaz elan olunur. Milli həyatınızı istədiyiniz kimi qurun. Hətta istərsəniz Rusiyadan ayrıla bilərsiniz."[8]

Lenin ilə Stalinin bu və buna bənzər parlaq və zərli sözləri, millətləri və xalqları şirnikdirmək üçün verdikləri vədləri çox olmuşdu. Sovetlər Birliyi tarixi bunun bir çox örnəyi ilə doludur. Şaumyanın Bakıda qətliam törətdiyi tarixlərdə Azərbaycan türklərinin təmsilçiləri də Tiflisdəki Seymdə ruslardan və bolşeviklərdən müstəqilliyi qurtarmanın yollarını axtarırdılar. Əslində mart qırğını bir baxımdan, bu istəyin intiqamı olmuşdur deyilə bilər.

Bakıda türklərə qarşı soyqırım davam edərkən digər yerlərdə yaşayan rus və ermənilər də bundan cəsarət aldılar. Bakıdan ölkənin dəyişik bölgələrinə göndərilən qüvvələr və ingilislərin də yardımı ilə hücumlar bir anda Azərbaycanın bir çox yerinə yayıldı. Fəqət, Zaqatala, Qax, Şəki, Oğuz kimi Azərbaycanın müxtəlif bölgələrində edilən bolşevik və daşnak hücumları qısa müddətdə aradan qaldırıldı.[9] Quba və ətrafında isə ruslar, ermənilər və yəhudilər əməkdaşlıq edərək bölgədəki türkləri öldürdülər.

Türk cəbhəsindən çəkilən rus hərbi birlikləri yerlərini və anbardakı silahlarını erməni və gürcülərə verirdilər. Erməni və rusların silahlı birlikləri olmasına qarşılıq, türklərin belə bir təşkilatı yox idi. Rus çarlığı ordusunda generallığa qədər yüksələn Əlağa Şıxlinskinin cəhdləri ilə hərbi milis birlikləri təşkil edilməyə başlandı. Könüllü hərbi dəstələr rus və erməni birliklərin anbarlarını basaraq silah və sursat təmin etməyə çalışırdılar. Türk cəbhəsindən evlərinə dönməyə çalışan rus əsgərlərin mindiyi qatarları bəzi bölgələrdə saxlayaraq, yüngül silahlarına əl qoyurdular. Beləcə Gəncə və ətrafındakı türklər qismən də olsa silahlanmağa müvəffəq olmuşdu. Türklərin əsl hədəfi Bakıdan kənarda silahlanaraq, əyaləti nəzarət altına ala bilməkdi. Ancaq çarlıq ordusunun bütün silah, cəbbəxana və sursatı ilə zabit və əsgərləri bolşeviklər arasında paylaşılmışdı. Türklərin bunlara qarşı dura bilməsi çətin görünürdü.[10]

Əliağa Şıxlinski rus çarlığının Avropa cəbhəsində istifadə edilmək üçün Qafqazlı müsəlmanlardan təşkil etdiyi "Diki diviziya"ya mənsub əsgərlərdən 300 nəfərlik bir süvari birliyi qurmuşdu.[12] Bu birliyə Tatar alayı adı verilmişdi. Bununla bərabər Azərbaycanın şimalındakı Nuxa və Zaqatala kimi bölgələrdə və Dağıstanda əsarətdən qaçan türk zabitləri və əsgərləri tərəfindən qurulan bəzi milis təşkilatları da vardı.[11]

Rus bolşevik rəhbərlər, Bakıda yaşayan türklərin şəhəri bir an öncə tərk etməsi və beləcə əhali tərkibinin özlərinin lehinə dəyişməsi üçün hazırlanan planları tətbiq etməyə başladılar. Kommunist ruslar və erməni daşnakların türklərə qarşı şiddət və basqıları qısa müddətdə təcavüzə dönüşdü. Bakıda qalan türklərin şəhərdən qaçmaqdan başqa çarəsi qalmamışdı. Abşeron yarımadası ilə Bakının ətrafındakı qəsəbə və kəndlərə sığınmağa çalışırdılar. Rus və ermənilərin Bakı kənarında əhali və hərbi tərəfdən üstünlükləri olmadığı üçün, Şaumyan,

bolşevikləri türklər əleyhinə davamlı olaraq qızışdırır və bütün Cənubi Qafqazı içərisinə alacaq bir müharibənin qaçılmaz olduğundan bəhs edirdi.

Bugünkü Ermənistan torpaqlarında isə türklərə qarşı böyük bir qətliam yaşanırdı. Göyçə gölü ətrafı ilə İrəvan, Şuşa və Zəngəzurda yaşayan türklər müdafiəsiz bir durumda idilər.[13]

Andranikin yaratdığı erməni bandaları, bu bölgələrdəki türk kəndlərindən iki yüz iyirmiyə qədərini qısa müddətdə xəritədən sildi və əhalisini tamamən məhv etdi. Erməni bandalarının İrəvan ətrafında minlərlə türkü öldürdüyü də elmi dairələr tərəfindən ifadə edilməkdədir. Bu qətliam qarşısında təxminən üç yüz əlli min türk evini və yuvasını tərk edərək, canını güclə qurtarmışdı. Erməni qətliamı Qarabağ bölgəsində də sürmüş, ancaq Gəncə və ətrafındakı qəsəbə və kəndlərdə türklər çoxluq təşkil etdiyi üçün erməni təcavüzlərini dəf etməyi bacarmışdılar.

**3.Osmanlı dövlətinin Cənubi Qafqaza girməsi:**

Avstriyalı bir yarbay ruslara əsir düşmüş və bir müddət sonra qaçaraq Qafqaz üzərindən Mosuldakı 6-cı Orduya çatmışdı. 6-cı Ordu komandanı Xəlil paşa ilə görüşməsində Qafqazdakı durum haqqında bəzi bilgilər vermişdi. Xəlil paşa başkomandan vəkili və yaxın qohumu Ənvər paşanın Qafqaz və Türküstan haqqındakı düşüncəsini yaxından bildiyi üçün bu zabit ilə İstanbulda görüşməsinə yardımçı oldu.

Kazan türkləri Milli İdarə rəisi Sədri Məqsudi Arsal 10 may 1918-ci ildə Osmanlı dövlətinin Moskva böyük elçisi Qalib Kəmali bəyi ziyarət etdiyi zaman Türküstanın birinci qapısının Bakı olduğunu, buranın hər tərəfdən bir anbar xüsusiyyəti daşıdığını və irəli hərəkatı üçün baza olaraq istifadə oluna biləcəyini bildirmişdi. Kazan, Türküstan və Azərbaycan türkləri, rus işğalının sona çatması və müstəqilliklərini qazana bilmələri üçün Qafqaz və Bakının bir an öncə ələ keçirilməsinin vacibliyi görüşünü hərarətlə müdafiə edirdilər.[14]

Bu və buna bənzər nümunələrin artması nəticəsində türk ellərinin müstəqilliyini qazanması üçün hərəkətə keçilməsi haqqındakı görüş, Hərbiyə naziri və başkomandan vəkili Ənvər paşa ilə ziyalılar və siyasətçilər arasında getdikcə güc qazandı. Dövlət heyətləri Türkçülük və Turançılıq cərəyanını tətbiq etməyə başlamaq üçün şərtlərin yetərli olduğunu düşünürdülər.[15]

Ənvər Paşa, başqa bir çox bilgiləri və savaşın gedişini də dəyərləndirərək, Qafqazda fəaliyyətə keçmək üçün uyğun şərtlərin doğurduğu nəticələrə vardı. 3 fevral 1918-ci ildə 6-cı Ordu komandanı Xəlil Paşaya bir məktub göndərdi.[17]

Göndərilən əmr bu şəkildə idi:

- Qafqaz, Dağıstan, Türküstan, Əfqanıstan və Rusiyanın əsarəti altında olan türk və müsəlmanların yaşadığı bölgələrə, möhtac olduqları dəstəyin verilə bilməsi üçün mərkəzi Tehranda olan bir təşkilat qurulması,
- Bu bölgələrə çalışqan və işini yaxşı bilən zabitlərin göndərilməsi,

- Yarbay Nuru bəyin (Ənvər paşanın ögey qardaşı) Tehran Mərkəz Təşkilatının sədri olması,
- Yarbay Şövkət bəyin Dağıstana, minbaşı Naim Cavad bəyin Əfqanıstana göndərilməsi və Xəlil paşanın uyğun görəcəyi zabitlərin də Azərbaycan və Türküstanda vəzifələndirilməsi,
- Bu bölgələrə gedəcək zabitlərin yanına, alt heyətləri təşkil etmək üzrə ən azı 5-6 zabitin da qatılması."

Başkomandanlıq Vəkaləti, Azərbaycanda hər birində üç piyada alayı olan üç piyada diviziyasından əmələ gələn bir korpus qurulmasını qərarlaşdırdı. 1-ci və 2-ci diviziyaların təşkili ilə görəvli olacaq iki heyətin zabitlərinin 6-cı Ordu Komandanlığının olduğu Mosula, 3-cü diviziyanın zabit heyətinin də 3-cü Ordu Komandanlığının yerləşdiyi Trabzona göndəriləcəyini bildirdi. Başkomandanlıq Vəkalətinin 2 mart 1918-ci ildə əlaqəli komandanlıqlara göndərdiyi əmrə görə, Qafqazda xidmət edəcək general, üst zabit və zabitlər bir üst rütbə (fəxri rütbə) daşıyacaq və bu rütbənin hüququna sahib olacaqdılar. Bütün vəzifəlilər rütbələrinin maaşının bir misli dəyərində artığını alacaqdılar.[17]

Hərbiyyə naziri və başkomandan vəkili Ənvər paşanın bu çalışması düşüncə olaraq son dərəcə dəqiq idi. Ancaq Osmanlı dövlətində gecikmiş bir hərəkatdı. Birinci Dünya müharibəsinin sonunda Osmanlı dövlətinin adı keçən bu türk ellərində gərəkli bazis çalışması yox idi, ya da yetərsiz idi. Bundan başqa xəbərləşmə üsul və vasitələri ilə kadrların bu coğrafiyada edəcəyi xidmətlə bağlı əvvəlcədən bir təlim keçirilməmiş olması da bir sıra çətinlikləri bərabərində gətirirdi. Digər tərəfdən, Osmanlı dövlətinin hərbi, inzibati, iqtisadi və insani gücü də tükənmək üzrəydi.

Qafqazda və xüsusilə Azərbaycanda erməni daşnaklar və rus Qızıl Ordu birlikləri türklərə qarşı hücumlara başlamışdılar. Bakı və ətrafında 31 mart 1918-ci ildə başladılan qətliam, Abşeron yarımadasında yayılaraq davam edirdi. Ənvər paşa Qafqazdakı bu qətliamı dayandırmaq və bölgədə ruslara qarşı bitərəf bir bölgə təşkil etmək üçün hərəkətə keçdi. Qafqaz hərəkatının, böyük torpaq və bu səbəbdən prestij itkisinə uğrayan Osmanlı dövlətinin etibarını yenidən yüksəldəcəyini də düşünürdü.

Ənvər paşa Qafqaz hərəkatı üçün gənc, enerjili, dinamik, öz düşüncəsini qavrayan və bunu tətbiq edə biləcək zabitlərlə görüşməyə başladı. Qafqaz hərəkatı üçün ilk öncə albay Kazım (Qarabəkir) bəy ilə görüşdü. Ancaq Kazım bəy o aralarda Ərzurum və ətrafının azad edilməsi üçün çalışdığını bildirərək, bu vəzifədən əfvini istədi. Kazım bəy Ərzurumun qurtarılmasından sonra Qafqaz Təşkilatı Komandanlığı vəzifəsini almağa hazır olduğunu bildirdi. Ancaq Ənvər paşa aradan keçəcək zamanın boşa getməməsi üçün tez qərar vermək məcburiyyətində olduğunu, bu vəzifəyə ögey qardaşı yarbay Nuru bəyin təyin

olunduğunu, əgər istərsə Şimali Qafqazda vəzifə verə biləcəyini bildirdi. Albay Kazım bəy yarbaylıqdan general-leytenant rütbəsinə yüksəldilən Nuru bəyin əmrində çalışacağını öyrənincə bu vəzifədən əfvini istədi.

Ənvər paşa Qafqazda yaşayan türk və müsəlman xalqların yaşadığı bölgələrdə gərək olan təşkilatlanmanı yaratması və onlardan əmələ gələcək bir "İslam Ordusu" qurması üçün qardaşı yarbay Nuru bəyi vəzifələndirdi. Nuru bəy iki tümənlik bir korpus və bəzi milis süvari alaylarından təşkil ediləcək Qafqaz İslam Ordusuna əmr edəcəkdi.[18] Zabit heyətləri də buna görə təyin olunacaqdı. Nuru bəyin belə bir orduya yarbay rütbəsilə əmr etməsi mümkün deyildi. Bu üzdən iki rütbə yüksəldilərək fəxri general-leytenant rütbəsinə yüksəldildi. Nuru paşa ilə Qafqaza gedəcək zabitlərə də fəxri olaraq bir üst rütbə verildi.[19]

Osmanlı dövlətinin müttəfiqi olan Almaniya Qafqazda Brest-Litovsk müqaviləsi ilə müəyyən olunan sərhədlərin şərqinə keçilməsini istəmirdi. Almanların Gürcüstan və xüsusilə Bakı nefti üzərində də gizli hesabları var idi. Bu üzdən türk ordusunun Azərbaycana girməsinə kəskinliklə qarşı çıxırdı. Bu və buna bənzər səbəblərə görə Ənvər paşa bu təşkilatlanmanı son dərəcə gizli bir şəkildə yürüdürdü. Başda Almaniya və Rusiya olmaq üzrə böyük dövlətlərin diqqətini çəkməmək üçün qurulacaq ordunun Azərbaycanda yaşayan türk və müsəlmanlardan təşkil edilmiş kimi göstərilməsinə cəhd edirdi. Bu üzdən orduya da "Qafqaz İslam Ordusu" adının verilməsi uyğun görülmüşdü. Başkomandan vəkili Ənvər paşa bu ordunun qurula bilməsi üçün şəxsən çalışmışdı. Geniş bir qismin marağını çəkməmək və qarşı tədbir almalarını əngəlləmək üçün qardaşı, əmisi və çox yaxın özəl əməkdaşlıq içində olduğu dostları ilə çalışmalar aparmışdı.

Qafqazda, xüsusilə Bakı, Şamaxı və Yerevanda rus bolşeviklərin və erməni daşnakların başlatdığı türklərə qarşı etnik təmizləmə və soyqırım hərəkatı sürət qazanmışdı. Azərbaycanda yaşayan türklərin imdadına yetişə bilmək üçün Nuru paşanın çox sürətli hərəkət etməsi lazım gəlirdi. Osmanlı sultanı 5-ci Mehmet Rəşad tərəfindən Nuru paşanın Qafqaz İslam Ordusu komandanı olduğuna və bütün Qafqazda Sultan adından hərbi və siyasi fəaliyyət göstərəcəyinə dair bir fərmana verilmişdi[20].

**4.Azərbaycan Cümhuriyyətinin elan edilməsi:**

Cənubi Qafqaz Cümhuriyyəti Məclisi Seym, yalnız gürcü və erməni mənafelərini qoruyan bir təşkilat durumundaydı. Seym Məclisində önəmli vəzifələr gürcü və ermənilərə verilmişdi. Azərbaycanlı türklərə isə yalnızca sosial yardım məsələləri ilə əlaqəli sahələr saxlanmışdı.

Birinci Dünya müharibəsində türklərin müttəfiqi Almaniya, Qafqaz məsələsində Osmanlı dövləti ilə fərqli bir mənafe toqquşmasına girmişdi. Qafqazın zənginliklərini ələ keçirmək istəyən Almaniya, xüsusilə Bakı neftində söz sahibi

olmağı hədəfə alırdı. Bu mülahizələrlə almanların dəstəyini təmin edən gürcülər 26 mayda Cənubi Qafqaz Cümhuriyyətindən ayrılaraq, müstəqilliyini elan etmişdilər.

Osmanlı dövləti Gürcüstan, Ermənistan və Azərbaycan ilə ayrı-ayrı dostluq və əməkdaşlıq müqavilələri imzalamaq üçün çalışırdı. Türkiyə Qafqazda edəcəyi hərbi hərəkatın təhlükəsiz bir şəkildə yürüdülə bilməsi üçün bəzi strateji bölgələrlə dəmir yollarını nəzarəti altına almaq və erməni və gürcü qüvvələrinin türk hərbi hərəkatına müdaxilə edə bilməyəcək bir vəziyyətə gətirilməsini təmin etmək istəyirdi. Türklərin gürcü və ermənilərə qəbul etdirməyə çalışdığı bu istəklərə almanlar şiddətlə qarşı çıxdı. Almanlar gürcülərlə Potidə imzaladıqları müqavilə ilə Batum-Tiflis dəmir yolunun nəzarətini ələ keçirdilər. Bununla da kifayətlənməyən almanlar ruslara əsir düşən əsgərlərindən birliklər qurmağa başladılar. Ermənilər isə Tiflis-Culfa dəmir yolunun nəzarətini almanlara vermək istəyirdilər. Osmanlı dövləti bu dəyişikliklər qarşısında lazım gələn çalışmaları sürətlə tamamlayaraq, istəklərini qəbul etdirdi. Batumda 31 may 1918-ci ildə ermənilərlə, 3 iyun 1918-ci ildə də gürcülərlə dostluq və əməkdaşlıq müqavilələri imzaladı.[21] Bu yenilik Almaniya ilə Osmanlı dövlətinin arasını açmaqda gecikmədi. Başkomandan vəkili Ənvər paşa Türkiyə ilə Almaniya arasında ortaya çıxan bəzi anlaşılmazlıqları çözmək üçün Osmanlı Orduları kurmay başqanı alman generalı Von Seeckt ilə Batuma getdi. Məsələ burada gen-bol araşdırıldı. Fəqət almanlar daha sonra bildiklərini tətbiq etməyə çalışdılar. Buna görə 3-cü Ordu komandanı Vəhib paşa Gümrüdəki türk hərbi birliklərinin Tiflis üzərinə yürüməsini əmr etdi. 10 iyun 1918-ci ildə irəli hərəkata başlayan birliklər qarşılarına çıxan gürcü-alman birləşmiş qüvvələrini dağıtdı. Bəzi alman zabit və əsgərlərini də əsir etdilər. Alman baş Qərargahının Ənvər paşa nəzdində dövrəyə girməsi nəticəsində əsirlər sərbəst buraxıldı, türk əsgəri də irəli hərəkatı dayandırdı. Bu dəyişikliklərə rəğmən almanlar qısa bir müddət sonra türk əsgərinin Gürcüstandakı dəmir yollarından faydalanmasına müxtəlif əngəllər çıxarmağa davam etdilər.[22]

Batumda bu dəyişikliklərin yaşandığı günlərdə Nuru paşa geniş səlahiyyətlərlə təchiz olunaraq, 25 mart 1918-ci ildə 6-cı Ordunun yerləşdiyi Mosula getdi.[23] Buradan seçdiyi iyirmi nəfərlik qərargah zabiti və gərəkli hərbi personalla birlikdə 8 apreldə Mosuldan hərəkətlə Revandiz, Sovuçbulaq, Təbriz üzərindən Zəngəzura çatdı və 20 apreldə Osmanlı sultanının ona verdiyi fərmanı yayınladı. Paytaxt Bakı düşmən işğalı altındaydı. Qara dəniz-Tiflis-Bakı quru və dəmir yolu xəttinin üzərində olması və ətrafında sıx olaraq türklərin yaşaması kimi bəzi əlverişli səbəblərə görə Nuru paşa ordu mərkəzinin Gəncədə qurulmasına qərar verdi.[24]

Türk Qafqaz İslam Ordusu komandanı Nuru paşa 25 may 1918-ci ildə coşqun sevgi nümayişi altında Gəncəyə girdi. Nuru paşanın yanında Qafqaz İslam

Ordusu təşkilatı ilə bu ordunun vəzifələrini açıqlayan və "Hərbiyə naziri Ənvər" imzalı 22 mart 1918-ci il tarixli bir də təlimatnamə vardı.[25]

Nağı Şeyxzamanlı xatirələrində Nuru paşa ilə yanındakı türk əsgərlərinin Gəncəyə girişini belə anlatmışdı:

"Gəncə xalqı türk ordusunu qarşılamaq üçün şəhər meydanına toplanmışdı. Dövlət dairələri və məktəblər tətilə çıxmış, tələbələr əsgərlərin gələcəyi yolun iki tərəfinə düzülmüşdülər. Müharibədə rusların işğal etdiyi Şərqi Anadolu bölgəsindən Cəmiyyəti-Xeyriyyə tərəfindən toplanan kimsəsiz uşaqlardan dörd yaşı olanlar da qarşılama mərasiminə aparılmışdı. Azərbaycanın müxtəlif bölgələrindəki uşaq evlərindən gətirilən bu yavrular, meydanda hazır idilər. Yolun və meydanın hər iki tərəfinə toplanan qadın, kişi, yaşlı, gənc bütün xalq, əsgərləri coşquyla alqışlayırdı. Sevincdən hər kəsin gözlərindən yaş gəlirdi. Uşaq evlərindən gətirilən bu uşaqlar əsgərlərə yaxınlaşaraq əllərindən tutur və haralı olduqlarını soruşurdular. O əsnada bir bağırış, çağırış qopdu. Doqquz yaşındakı bir uşaq atasını tanıyıb, ona doğru qaçmağa başladı. Ata-oğul sevinc çığırtıları qoparırdılar. Qucaqlaşdılar, hıçqıra-hıçqıra ağlaşdılar, öpüşüb qoxlaşdılar. Bu qovuşmanı görən Gəncəli türklər Anadoluda bir-birini itirən və Qafqazda yenidən qovuşan ata-oğulun sevincinə ortaq oldular. Bütün meydan hıçqıra-hıçqıra sevinc göz yaşı tökürdü."[26]

Türk Qafqaz İslam Ordusu komandanı Nuru paşanın Gəncəyə gəlişi münasibətilə Azərbaycan şairi Əhməd Cavad bir şeir yazmışdı.[27]

**EY ƏSGƏR**

*Dağa-daşa bayrağını öpdürüb,*
*Duman kimi bu dağları bürüyün!*
*Dənizlərə salam rəsmi çəkdirib,*
*Göylərdəki bulud kimi yürüyün.*
*Yürü, yürü batan günün izinə,*
*Gülümsəyir doğan günəş üzünə.*

*Bu qarışıq duman çıxan bacadan*
*Sən gəlmədən iniltilər çıxardı.*
*Geciksəydin, məzlumların fəryadı*
*Yeri, göyü, kainatı yaxardı.*
*Yürü, yürü batan günün izinə,*
*Gülümsəyir doğan günəş üzünə.*

*Ey türk mənə sevda çiçək bu şeylər,*
*Göydə çiçək, yerdə sənin bayrağın!*

*Durnalarla göndərdiyim salamı*
*Gətirdimi sənə neynək torpağın!*
*Yürü, yürü batan günün izinə,*
*Gülümsəyir doğan günəş üzünə.*

Nuru paşanın 25 mayda Gəncəyə girməsindən bir gün sonra Tiflisdəki Zaqafqaziya Cümhuriyyəti Seym Məclisi fəaliyyətini dayandırdı. Seym Məclisinin Azərbaycanlı üzvləri sürətlə Gəncəyə gedərək qurucu mahiyyətdə xidmət edəcək Milli Məclisi yaratdılar. Gəncə keçici paytaxt olaraq müəyyən olundu və 28 may 1918-ci ildə Azərbaycan Cümhuriyyəti elan edildi.[28]

Müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin elanından sonra Qafqaz İslam Ordusu komandanı Nuru paşa vaxt itirmədən çalışmalara başladı. Qurulmaqda olan ordu Azərbaycanın hərbi təşkilatını əmələ gətirəcəkdi. Nuru paşa ilk olaraq Qafqaz İslam Ordusunun quruluş, çalışma üsul və əsasları ilə bağlı bir təlimat təsdiqlədi.[29] Ölkənin müxtəlif bölgələrindəki mülki və hərbi vəzifəlilərin işlərini davam etdirə bilmələri və mərkəzə bağlı olaraq çalışa bilmələri üçün bəzi düzənləmələr (sistemləşdirmələr) apardı. Beləcə önəmli şəhər və qəsəbələrdə asayiş və dövlət sistemi təmin edilməyə başladı. Azərbaycanda dövlət avtoriteti sürətlə təsis edilirdi.

Nuru paşa Azərbaycandakı insan qaynağı, yetişmiş kadr və imkanların məhdud olması səbəbindən, düşmən işğalından qısa müddətdə qurtulmanın asan olmayacağını gördü. 31 may 1918-ci ildə Ənvər paşa və 3-cü Orduya bölgədəki durum haqqında bir məktub göndərdi:

"Bolşeviklər Dağıstan və Şimali Qafqazı tamamən ələ keçirmək üzrədirlər. Hər yerdə ermənilərin təcavüzü artmaqdadır. Bakı sürətlə zəbt edilməzsə buralarda durum daha təhlükəli bir hal alacaqdır. Müsəlmanların təşkil etdiyi korpusda əsgərdən çox zabit vardır. Korpusun tərkibi minə qədər olub, bunun yarısı türk sıraviləridir. Bakı məsələsinin yardımsız həlli mümkün deyildir. İngilislərin Bakını gücləndirdiyi zənn edilir. Burada taxıl məhsulları, ixrac ediləcək qədər çoxdur. Əhali türk ordusunun gəlməsini səbirsizliklə gözləməkdədir. Gəncə vilayətində bəzi yerlərdə gürcülər binalara alman bayrağı ilə birlikdə öz bayraqlarını da çəkmişlər."[30]

Nuru paşa, ordunun quruluşu üçün kifayət qədər personal və mühimmatın təmin edilməsi üçün 3-cü Ordu Komandanlığı və Ənvər paşa ilə davamlı ünsiyyətdəydi. İlk olaraq Gəncədə təxminən min nəfərdən əmələ gələn bir Milli Korpus təşkil edildi. Şərqi Anadoluda ruslara əsir düşən, ancaq daha sonra bir yolunu taparaq xilas olan və ölkənin müxtəlif bölgələrində direniş güclərini idarə edən Osmanlı zabitləri ətraflarına bəzi könüllüləri toplamışdılar. Bu milislər də hərbi təlimə tabe olmağa başladı. Ancaq nizamlı hərbi birliklərin təşkil edilə bilməsi üçün kifayət qədər pul, silah və uniforma üçün parça tapılmırdı. Nuru paşa

silah və cəbbəxana ilə bərabər təxminən on min dəst hərbi forma göndərilməsi halında əsgər alımına başlayacaqlarını bildirdi. Bundan başqa kifayət qədər tərbiyəçi zabit və serjantın da göndərilməsini istədi.[31]

Qafqazdakı durumun ciddiyyətini təxmin edən Vəhib paşa istənilən silah, cəbbəxana və digər ehtiyacların təmin edilərək yola çıxarılacağını, bundan başqa bir müfrəzənin də ən qısa müddətdə göndəriləcəyini bildirdi.[32]

**5. Türk Qafqaz İslam Ordusunun quruluşu və güclənməsi:**

Osmanlı dövləti ilə Azərbaycan Cümhuriyyəti arasında 4 iyun 1918-ci ildə Batumda bir Dostluq və Əməkdaşlıq müqaviləsi imzalanmışdı. Müqaviləyə Osmanlı Dövləti Ədliyyə naziri Xəlil bəy və Şərq Orduları komandanı Vəhib paşa ilə Azərbaycan Şurayı Milli rəisi Məmməd Əmin Rəsulzadə və Xariciyyə naziri Məmməd Həsən bəy imza atmışdılar.[33] Rəsulzadə, bu müqavilə hökmlərinə görə, Qafqazdakı türk və müsəlman xalqa qarşı qətliamın bir an öncə dayandırılması üçün Osmanlı Dövlətindən hərbi yardım istədi.[34] Başkomandan vəkili Ənvər paşa isə gələn raportlara istinadən durumun ciddiliyini anladı və Şərq Orduları Komandanlığı tərkibində olan 5-ci Qafqaz piyada diviziyasının Qafqaz İslam Ordusu sıralarına qatılması üçün əmr verdi. Bundan sonra 5-ci Qafqaz piyada diviziyası, albay Mürsəl bəyin komandirliyi ilə Gəncəyə hərəkət etdi. Bu diviziyada 9, 10 və 13-cü Qafqaz piyada alayları, 19-cu və 42-ci süvari alayları, 5-ci Qafqaz səhra topçu alayı, 1-ci və 2-ci batareyalardan ibarət olan şnayder topçu taboru ilə 4-cü və 5-ci batareyalardan əmələ gələn dağ topçu taboru vardı. Bundan başqa xəbərləşmə, istehkam, tibbi, səyyar xəstəxana, nəfəsli orkestr, çörəkçi kimi dəstək qolları və yardımçı bölüklər ilə qruplar xidmət edirdi. 5-ci Qafqaz piyada diviziyasının tərkibində 257 zabit, 5575 əsgər və 1266 heyvan var idi.[35]

5-ci Qafqaz piyada diviziyasından ilk olaraq Gəncə Müfrəzəsi adı verilən və minbaşı Cəmil Cahid bəyin (sonradan general Toydəmir) əmrindəki 9-cu Qafqaz alayı ilə minbaşı Zihni bəyin komandanlığındakı mürəttəb 2-ci süvari alayı, 4 iyunda Qarakilisin şimalındakı Cəlaloğlundan Gəncəyə hərəkət etdi. Bu hərbi birliklər yollarına çıxan bəzi alman birliklərini zorla Tiflisə dönməyə məcbur etdilər.[36] Bölgədəki erməni quldurlarını da təmizlədilər. Xalqın sıx sevgi nümayişləri altında Qazax və Tovuz[37] bölgəsindən keçərək, 9-10 iyunda Gəncəyə çatdılar və Qafqaz İslam Ordusunun əmrinə girdilər. Diviziyanın geridə qalan hissəsi isə 15 iyuna qədər dalbadal Gəncəyə çatdı. Xalq Gəncədə türk əsgərlərini qurbanlar kəsərək böyük bir coşqu ilə qarşıladı. Şəhərin hər yanı qurtarıcı olaraq görülən Osmanlı dövləti və Azərbaycan bayraqları ilə bəzədildi. Beləcə Gəncədə rus Qızıl Ordu və erməni daşnak qüvvələrinin qarşısında savaşa biləcək həqiqi bir nizami ordu var idi.

Rumıniyada Qaliçya cəbhəsində xidmət edən 15-ci piyada diviziyası isə gəmilərlə Köstəncədən ayrılaraq, 28 iyunda Batum limanına çatdı və oradan

Gümrüyə keçdi. Bu diviziyadan, əvvəlcə 38-ci alay, sentyabr ayının əvvəlində də 56-cı alay, 36-cı diviziyadan da 106-cı və 107-ci alaylar yay aylarında Azərbaycana göndəriləcəkdilər.

Azərbaycan türklərinin milli şairi Əhməd Cavad xalqın bu sevincini yazdığı şeirlərlə dilə gətirirdi. Əhməd Cavad "Türk Ordusuna" adlı şeirində deyirdi:

*Ey şanlı ölkənin şanlı ordusu,*
*Unutma Qafqaza gəldiyin günü.*
*Gəlirkən qovmağa Turandan rusu*
*Ayağını Qara dəniz öpdümü,*

*İlk atarkən əski bürcə addımı,*
*Qars Qalası salam topu atdımı.*
*Sən yaparkən orda zəfər şənliyi,*
*Məğlub düşmən qaşlarını çatdımı.*

*Çıxdığın gün Allahu-əkbər dağına*
*Dağıstan dağları qibtə eylədi.*
*Baxdım Xan Sarayı viran tağına,*
*"Sən gələrsən, şən olaram" söylədi.*

*Gəldiyin gün Kürün axar-baxarı*
*Əski günahlardan silkindi çıxdı.*
*Eşidib Gümrüdə tək bir səsini,*
*Araz sevincindən dünyanı yıxdı.*

Milli şair Əhməd Cavad qəhrəman Mehmetçiyin Gəncəyə çatması münasibətilə qələmə aldığı bir başqa şeirində də bu duyğuları dilə gətirmişdi:

*Qardaşlığın fərmanına baş əyib,*
*Məzlumların imdadına yetişdin.*
*Qaranlıqda süngü sənə yol açdı,*
*Sən o yolda muradına yetişdin.*
*Yürü, yürü batan günün izinə,*
*Gülümsəyir doğan günəş üzünə.*

*Bu qarşıkı duman çıxan bacadan,*
*Sən gəlmədən iniltilər çıxardı.*
*Geciksəydin məzlumların fəryadı*
*Yeri-göyü, kainatı yıxardı.*
*Yürü, yürü batan günün izinə,*
*Gülümsəyir doğan günəş üzünə.*

Nuru paşa Gəncəyə çatdığı andan etibarən bir yandan nizamlı ordu qurmaq, digər yandan da ölkədə asayişi təmin etmək üçün çalışırdı. İşğal altında olan Bakıda vəzifəsini davam etdirə bilməyən Azərbaycan Məclisi müvəqqəti paytaxt olaraq Gəncəni seçmişdi.[38] Gəncə o illərdə 55-60 min əhalisi ilə Bakıdan sonra Azərbaycanın ikinci böyük şəhəriydi. Türkiyədə şimal-şərqi Anadolu yaylalarından başlayan Kura çayı Gürcüstana və oradan da Azərbaycana çataraq Kür adını almışdı. Gəncə Kür çayına tökülən Gəncə çayının iki tərəfində yerləşmişdi. Əhalisi iyirmi min ətrafında olan ermənilər Gəncə çayının şərq sahilində, türklər və az saylı ruslar isə qərb sahilində yaşayırdılar. Şərqi Anadolu və Qafqazda ermənilərin türklərə qarşı törətdiyi qətliam və soyqırım bu bölgədə yaşayan erməniləri də həyəcanlandırmışdı. Türk hərbi birliklərinin bölgəyə girməsindən son dərəcə narahat olmuşdular. Gəncədə yaşayan türklərlə ermənilər arasındakı gərginlik davamlı olaraq artırdı. Çünki Gəncədə yaşayan ermənilər Şaumyan idarəsinin əmrindəki Qızıl Ordunun Gəncəyə çatmasını gözləyirdilər. Şərqi Anadoludakı rus işğalı sona çatdığı zaman Gəncə və çevrəsində 600 nəfərlik silahlı bir milis təşkilatı qurmuşdular. Əllərində pulemyotlar, gərəkli sursat və piyada tüfəngləri var idi. Şaumyanın vəzifələndirdiyi bəzi rus zabitləri də bunlara təlim verirdi. Türk əsgərini arxadan vurmaq üçün fürsət gözləyirdilər.

Nuru paşa paytaxtdakı ermənilərin itaət altına alınması üçün əllərindəki silahlarının toplanması gərəkdiyinə qərar verdi. Minbaşı Cəmil Cahid bəy komandasındakı 9-cu Qafqaz alayı ilə minbaşı Zihni bəy komandasındakı 2-ci süvari alayı Gəncəyə çatınca bunlara Gəncə Müfrəzəsi adı verilmişdi.[39]

Gəncə Müfrəzəsi ermənilərin silahlarını buraxmasını və idarəyə itaət etməsini təmin etmək üçün hərəkətə keçdi. Bunun üçün 10 iyunda gecə yarısından sonra Gəncə çayını keçərək şərq tərəfdə olan erməni məhəlləsini arxadan mühasirəyə aldı. Beləliklə, daha arxadakı erməni kəndləri ilə məhəllənin əlaqəsi kəsilmiş və 11 iyun sabahından etibarən mühasirə başlamış oldu.[40] Erməni məhəlləsinin çox yaxınında olan Yelenendorfda (indiki Göygöl) isə almanlar yaşayırdı. Bunlar da ölkədəki anarxiya vəziyyətindən zərər görməmək üçün əli silah tutan gənclərdən bir milis təşkilatı qurmuşdular. Əllərində yüngül silahlarla bərabər dörd də pulemyot var idi. Gəncə Müfrəzəsi komandanları, alman milislərin başındakı səlahiyyətlilərlə görüşərək, onlarla əməkdaşlıq aparmalarını, əks halda silahlarının alınacağını bildirdilər. Almanlar türklərlə mücadilə etmələri halında zərərli çıxacaqlarını anlayınca, bu təklifi qəbul edərək Gəncə Müfrəzəsinə qatıldılar. Alman milislər Zurnabad-Hacıkənd xəttinə yerləşdirildi. Beləliklə bu kəndlərin ermənilərlə əlaqəsi kəsilərək, Gəncə Müfrəzəsinin arxası əmniyyətə alındı. Alman milis taborunun vəzifəsini layiqincə yerinə yetirə bilməsi və nəzarət altında saxlanılması üçün başçılıq etməyə komandir olaraq türk zabitlər gətirildi.[41]

Şəhərin cənubundakı bəzi kəndlərdə nəzarət təmin edildikdən sonra 2-ci süvari alayı erməni məhəlləsinin girişinə yerləşdirildi. Burada yaxaladıqları bir neçə ermənidən məhəllənin durumu və silahlı milislər haqqında bilgi aldılar. Bundan sonra baş leytenant Səlahəddin bəy ilə Səməd bəy erməni məhəlləsinə gedərək silahlarını təslim etmələrini istədilər, ancaq ermənilər bu istəyə atəşlə qarşılıq verdilər. Bununla da kifayətlənməyib daha öncə bağların izinə yerləşdirilən militanlar yaylım atəşi açdılar və hücuma keçdilər. Heç gözlənilməyən bu hücum qarşısında 9-cu Qafqaz alayının bəzi qüvvələri geri çəkilmək məcburiyyətində qaldı. Bu hücumda Gəncə Müfrəzəsindən 13 əsgər şəhid oldu, biri zabit 7 əsgər də yaralandı.[42] Gəncə ermənilərinin itaət altına alınmaları və silahlarını təslim etmələri üçün başladılan hərəkata qatılan türk zabitlərdən Mucip Kemalyeri, daha sonrakı illərdəki xatirəsində belə söyləyir:

"Ermənilərə təslim olmaları üçün verilən müddət dolunca ertəsi gün hərbi hərəkat başladı. Küçəyə yenicə girmişdik ki, birdən ətrafımız sarıldı. Ağacların üzərindən belə üzərimizə atəş açılırdı. İçində olduğumuz pis vəziyyətdən istifadə edən 20-30 erməni üzərimizə atıldı. Qarşı tərəf atəşi kəsmişdi. İndi heç alışqın olmadığımız küçə boğuşması başlamışdı. Zabitlərimiz tapançaları ilə atəş açır, Mehmetçik isə hələ süngü taxmağa belə fürsət tapmadan hücum edən erməniləri əzişdirirdi. Qısa sürən vuruşmada basqınçılar ortadan qeyb oldular. Biz də bu fürsətdən istifadə edərək 10-a qədər yaralımızı da götürərək yavaş-yavaş geri çəkildik. Ən öndə gedən manqanın şəhid düşən 4 əsgərinin cəsədini orada qoymağa məcbur olduq. Ermənilər isə 15-ə qədər ölü qoymuşdular".

Bu hücumdan sonra erməni məhəlləsi tamamən mühasirəyə alındı. Mühasirənin başlamasından sonra bir keşiş ilə bir sivil və bir zabit minbaşı Cəmil Cahid bəyin yanına gələrək silahlarını təslim edəcəklərini, ancaq Gəncənin yerli sivil əhalisinin hücumundan qorxduqlarını bildirdilər. Cəmil Cahid bəy erməni heyətə can və mal təhlükəsizliyi təminatı verdi və silahların təslim edilməsi üçün axşama qədər vaxt qoydu. Bu arada məhəlləni mühasirəyə alan türk birliklərindən 15-ə qədər əsgərin erməni bağlarında eyni Anadolunun bir çox yeriylə Bakı, Şamaxı və başqa bölgələrdə də olduğu kimi, zalımcasına, vəhşicəsinə parçalanaraq qətl edildiyinə dair xəbərlər ordu qərargahına çatdı. Paşa buna rəğmən qan tökülməsini istəmirdi. Nuru paşa Yelenendorflu bir alman vasitəsiylə ermənilərə bir məktub göndərərək atəşi kəsmələrini və artıq müqavimət göstərmədən təslim olmalarını, əks halda məhəllənin topa tutulacağını bildirdi. Ermənilər bu məktubu da diqqətə almadılar və bir yarma hərəkatına girişdilər, ancaq süvarilər tərəfindən geri oturduldular. Ermənilərin axşam saat 17.00-a qədər təslim olması bir daha istənildi, ancaq ermənilər müqavimət göstərdi. Bundan sonra, silahlarını vermədikləri təqdirdə saat 18-dən etibarən top atışının başlayacağı və hər kimdə

silah yaxalanırsa dərhal edam ediləcəyi bildirildi. Saat 18.00 olunca, axşam olması səbəbindən hərəkatın sabah qaldığı yerdən davam etməsinə qərar verildi.

Səhər günəş çıxınca mühasirə yaxşıca daraldıldı və məhəlləyə doğru bir neçə topçu atışı atıldı. Həqiqətdə türk əsgərində top mərmisi də azdı. Nuru paşa məhəllədəki erməni irəli gələnlərinə göndərdiyi məktubda silahların ən qısa müddətdə təslim edilməsini, gün batmadan iki saat öncə silahların verilməməsi halında hərbi hökmlərin tətbiq olunacağını sərt bir dillə ifadə etdi. Türk Qafqaz İslam Ordusu Komandanlığı məhəllənin təxrib olunmasını istəmirdi. Ermənilər də silahlarını təslim etmirdi. Daha müqavimətin bir fayda gətirməyəcəyini anlayan ermənilər, nəhayət təslim olmağa qərar verdilər. Gəncə Müfrəzəsi erməni məhəlləsinə girərək 13 və 14 iyun günlərində tamamən nəzarəti ələ aldı və silahları topladı.[43]

Gəncənin erməni məhəlləsində meydana gələn bu hadisə türk əsgərlərinin Azərbaycandakı ilk silahlı vuruşması oldu. Mehmetçik Qafqazda ilk dəfə Gəncədə torpağa tapşırıldı. Şəhidlər, silahdaşları və xalqın qatıldığı təntənəli bir mərasimlə Gəncə məzarlığında torpağa verildi. Sovet İttifaqı dövründə bu şəhidlərin məzarları dağıldığı üçün bu gün harada olduqları bilinmir.

1. Qasımlı, Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, s. 83.
2. Mirzəbala Məmmədzadə, Milli Azərbaycan hərəkatı, s. XXII.
3. Yenə orada, s. 83-84.
4. Mustafa Görüryılmazın şəxsi arxivi.
5. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 554.
6. Yenə orada.
7. Kurat, Türkiyə və Rusiya, s. 479-480.
8. Mirzəbala Məmmədzadə, Milli Azərbaycan hərəkatı, s. 85.
9. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 555.
10. Yenə orada, s. 554.
11. "Vəhşi diviziya deməkdir. Ruslar özlərini mədəni, rus əsilli olmayanları, xüsusilə də Qafqazlı türkləri vəhşi millətlər olaraq gördükləri üçün, qurduqları hərbi birliyə bu adı vermişdilər.
12. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 555.
13. Yenə orada.
14. Kurat, Türkiyə və Rusiya, s. 527.

15. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 551.
16. Yenə orada, s. 553.
17. Yenə orada.
18. Qafqaz İslam Ordusunun təşkilatı və vəzifələri haqqında bax: Əlavə 8.
19. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 553.
20. Yenə orada, s. 554.
21. Yenə orada, s. 552.
22. Kurat, Türkiyə və Rusiya, s. 529.
23. Xəlil paşanın yavəri Səlahəddin bəy, Nuru paşa ilə qarşılaşmasını xatirələrində belə nəql etməkdədir: "Nusaybində ikən Ənvər paşanın qardaşı Nurunun qatarla İstanbuldan gəldiyini öyrəndim. Mən Nurunun Azərbaycana gedəcəyini bilirdim. Xəlil paşa da, yolda rast gəlsəm, onunla danışmağı əmr etmişdi. Bu əmri yerinə yetirmək üçün gedərkən, qatarın yanında bir zabitin dolaşmaqda olduğunu gördüm. "Nuru bəy buradamı? deyə soruşdum. Üzümə baxdı və «Paşa içəridədir» dedi. "Paşa sözünün nə mənaya gəldiyini anlamadım. "Mən Xəlil paşanın yavəriyəm, izin versə, onunla görüşmək istəyirəm dedim. Adımı bilərək söyləmədim ki, birdən məni görəndə təəccüblənsin, onunla zarafatlaşım. Daha əvvəl də qeyd etdiyim kimi, bu Nuru, mən Hərbiyədə ikən Dolmabağçada Padişahın məiyyət birliyində teymen idi. Hüseyn Rəhmi, mən və o, bizə türklüyümüzü öyrədən Xalid bəyin evinə gedərdik. Sonra səfərbərliyin başlanğıcında, Heydər paşadan 5-ci Qüvvəyi-səfəriyə qatarı ilə birlikdə yola düşmüşdük. O, Hələbdə bizdən ayrılaraq Trablisə getmişdi. Son olaraq yarbay olduğunu eşitmişdik. Yoldaşları hələ də yüzbaşı idi. Mən bunları fikirləşəndə, zabit gəldi və paşanın məni gözlədiyini dedi. Bu səfər təəccübüm artdı. Görəsən biz başqa bir Nuru paşanın yanınamı gəlmişdik? Vaqona girdiyim zaman təəccübüm büsbütün artdı. Nuru, əzəmətli bir şəkildə ayaq üstündə dururdu. Əynində də general forması var idi. Mənimlə görüşdü. Xəlil paşa və Mosul haqqında məlumat aldı. Vaqondan heyrət içinə çıxarkən, dəyərli bir zabit olaraq tanıdığım minbaşı Nazim ilə qarşılaşdım. Bu, Milli Mücadilədə şəhid olan albay Nazim idi. Anladım ki, Nazim, Nurunun qərargah zabitlərindədir. Bir daha təəccüb elədim. Çünki Nazim həm Nurudan yaşlı, həm də təcrübəli idi. Özü elə çox ağıllı və bilgili idi. Nazim o vaxt 29, Nuru isə 27 yaşında idi. 29 yaşında bir minbaşı, 27 yaşında bir general... Vaqondan çıxarkən məni Nuru paşanın yanına aparan zabitlə qarşılaşdım. Özünü təqdim elədi, «Nuru paşanın yavəri Asəf» dedi. Yüzbaşı Səlahəddinin romanı, s. 368.

24. Birinci Dünya hərbində Türk hərbi. Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 553.

25. Yenə orada, s. 554.

26. Bu mövzuda daha geniş məlumat üçün bax: Məmmədəmin Rəsulzadə, Azərbaycan Cümhuriyyəti Bakı, 1990, s. 38-39; Şeyxzamanlı, Azərbaycan istiqlal mücadiləsi xatirələri, s. 71-81.

27. Bu şeir "Azərbaycan qəzetinin 27 təşrini-əvvəl 1918 tarixli nömrəsində çap edilmişdi.

28. Xəritə 3.

29. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 554.

30. Yenə orada, s. 555; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 5.

31. Birinci Dünya hərbində Türk hərbi. Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c. s. 555; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 5.

32. Vəhib paşanın 2.6.1918 tarixli cavabı üçün bax: Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s.6.

33. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 555. Müqavilə mətni üçün bax: Əlavə 2 və 3.

34. Bax: Əlavə 4.

35. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c. s. 555-556; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 8-10.

36. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 556.

37. Yarbay Rüşdü bəy, xatirələrində, Qazaxdakı qarşılamanı belə nəql etməkdədir: "Firqənin Qazaxa yaxınlaşdığı bir sırada minlərlə atlı, bölgənin öndə gələnləri və burada milis təşkilatını qurmaqla vəzifələndirilən yüzbaşı Səbri əfəndi bizi qarşıladı. Buranın əhalisi həqiqətən də məharətli süvarilər idi. Atlar dördnala gedərkən, atın üstündə müxtəlif məharətlər göstərir və çox sevinirdilər. Qazax qəsəbəsi başdan-başa Osmanlı bayraqları ilə bəzənmiş və bütün dükanlar bağlanmışdı.

Sovet İttifaqı dağıldıqdan sonra, erməni və rus birləşmiş qüvvələri Qarabağda və Azərbaycanın müxtəlif bölgələrində türklərə qarşı hücuma keçdilər. Qarabağ ilə Şuşa, Ağdam, Xocalı kimi bir çox yerdə Azərbaycan torpaqlarını işğal eləməyə girişdilər. Azərbaycanın şimal-qərbində, Gürcüstan-Ermənistan sərhədinə qonşu olan Qazax və Tovuz bölgəsində də türklərə qarşı hücumlara başladılar. Zöhrab Məmmədli və Etibar Əmiraslanın başçılığı altındakı Qazax və Tovuz gəncləri silaha sarılaraq, ermənilərə qarşı böyük bir müqavimət göstərdilər və bu bölgədən bir qarış torpaq vermədilər.

38. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 556.
39. Xəritə 4.
40. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 557.
41. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 28-29.
42. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 557.
43. Yenə orada, s. 557; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 32-33.

# IV HİSSƏ

## TÜRK QAFQAZ İSLAM ORDUSU VƏ AZƏRBAYCANDAKI SİLAHLI MÜBARİZƏ

### 1. Bolşevik və daşnakların Türk ordusuna qarşı hərəkətə keçməsi:

Osmanlı dövləti Qafqazda yaşayan soydaşlarının diri-diri boğazlanmasına seyrçi qala bilməzdi. Türk hərbi qüvvələri və Nuru paşanın 25 mayda Gəncəyə çatması, üç gün sonra da Azərbaycan Cümhuriyyətinin elan edilməsi, Gəncənin də müvəqqəti paytaxt olması Bakıdakı Şaumyan idarəsini təlaşlandırdı. Nuru paşa Cümhuriyyətin elan edilməsindən dərhal sonra Azərbaycanın bir çox bölgəsinə hərbi kadrlar göndərərək, əyalətlərdəki mülki və hərbi təşkilatlanmanı gözdən keçirdi, mövcud olanların da Gəncə idarəsinə bağlanmasını təmin etdi. Türk ordusu paytaxt Gəncədə hakimiyyəti təsis etmiş, erməniləri itaət altına almışdı. Azərbaycan Cümhuriyyəti və Milli Məclisi ilə Nuru paşa, bir dövlətin hakimiyyət və hökmranlığı nəyi lazım bilirsə, onları bir-bir gerçəkləşdirdi. Geriyə Qafqazda yaşayan türklərin milli ordusunun qurulması və vətən torpaqlarının işğalçılardan təmizlənməsi vəzifəsi qalmışdı.

Gəncədəki bu irəliləyişlər işğal altında olan paytaxt Bakıda böyük əks-səda doğurdu. Bakıda idarəni qəsb edən bolşevik ruslar və erməni daşnaklar ittifaqının başında duran Stepan Şaumyan, durumu Moskvada olan Leninə bildirdi və təcili olaraq Qızıl Ordunun yardıma gəlməsini istədi.

Qafqazdakı gedişatı və türk ordusunun hərəkatını diqqətlə izləyən bolşeviklər Bakının türklərin əlinə keçməsindən də əndişələnirdi. Bolşevik Sovet idarəsinin Xarici İşlər komissarı Çiçerin Moskvadakı səfir Qalib Kamali bəyə bir nota verdi. Çiçerin notada Sovetlərin Brest-Litovsk müqaviləsi gərəyi Qars, Ərdahan və Batuminin böyük fədakarlıqlarla Osmanlı dövlətinə buraxdığını, ancaq bundan sonra türklərə heç bir torpaq parçası verilməyəcəyini bildirdi. Türk hərbi qüvvələrinin Gümrünü ələ keçirdiyini, bununla da kifayətlənməyib Azərbaycanın daxilində Bakıya doğru irəlilədiyini, zatən yetəri dərəcədə ağır olan Brest-Litovsk müqaviləsi hökmlərinin bu şəkildə sürəkli pozulmasına etiraz etdiyini, hərbi hərəkatın təcili sürətdə dayandırılması gərəkdiyini qeyd etdi.[1]

Bu yeniliklər yaşanarkən Azərbaycan Milli Şurasının sədri Məmməd Əmin Rəsulzadə İstanbula getdi. Ənvər paşa ilə apardığı görüşmələrdə iki ölkə arasındakı anlaşmalar çərçivəsində türk ordusunun Azərbaycana yardım etməsini rəsmi olaraq istədi. Almaniya türk ordusunun Azərbaycana hərbi yardım göstərməsinə qarşı çıxırdı. Bu sıxıntını aşmaq üçün qurulacaq təşkilatın "Qafqaz İslam Ordusu" adını daşıması uyğun görüldü. İstanbulda bu hazırlıqlar görülərkən ingilislərin Azərbaycana girməsini və Bakı neftini ələ keçirmək üçün aparacağı hərbi hərəkatın

qarşısını almaq üçün də Yaqub Şövqü paşa komandasında 9-cu Ordu adı altında yeni bir hərbi təşkilatlanmaya gedildi. Türk ordusu Təbriz, Xoy və Urmiyə gölü ətrafına hərbi qüvvələr göndərdi və beləcə ingilislərin Azərbaycana girməsinin qarşısını almış oldu.

Qafqazdakı bu yeniliklərə görə bolşevik Sovet rəhbərləri Almaniya və Osmanlı dövlətindən məsələ haqqında bilgi istədilər. Sovet idarəsinin Xarici İşlər komissarı Çiçerin Qafqaz neftində gözü olan almanları Osmanlı dövləti əleyhinə qaldırmaq üçün təşəbbüslər göstərdi. Almaniyanın İstanbul səfiri Bernsdorff, Sədrəzəm Tələt paşa, Başkomandan vəkili və Hərbiyyə Naziri Ənvər paşa, Xariciyyə vəkili Nəsimi bəy ilə görüşmələr apardı. Türk səlahiyyətliləri bu görüşmələrdə gündəmdə olan hərbi hərəkatı ilk dəfə eşidirmiş kimi davranmış və Qafqazdakı hərbi fəaliyyətin Osmanlı dövləti ilə bir əlaqəsnin olmadığını bildirmişdilər. Qafqazda aparılan hərbi çalışmanın, Nuru paşanın, bəlkə heç kimdən əmr almadan girişdiyi şəxsi bir təşəbbüsü və Azərbaycandakı türk könüllülərlə yürütdüyü bir fəaliyyəti olaraq dəyərləndirilməsinin vacib olduğunu bəyan etmişdilər. Alman səfir Osmanlı rəhbərləri tərəfindən əmin edilmiş olmalı idi ki, Berlinə göndərdiyi bilgiləri və qənaəti bu doğrultuda olmuşdu. Berlində aparılan analizlər və bu intibalar Çiçerinə də ötürülmüşdü. Buna görə Çiçerin və Sovetlər rahat bir nəfəs almışdılar.

Moskva, Berlin və İstanbulda bu yeniliklər yaşanarkən Ənvər paşa, Qafqaz İslam Ordusu Komandanlığına göndərdiyi açıq əmrdə Gəncədəki hərbi hərəkatın bir an öncə dayandırılmasını istəyirdi. Şərq Orduları Qrupu komandanı Xəlil paşa va Qafqaz İslam Ordusu komandanı Nuru paşaya göndərdiyi gizli və şəxsi əmrlərdə isə Bakının düşmən tapdağından bir an əvvəl qurtarılması üçün çox sürətli hərəkət edilməsini istəyirdi. Ənvər paşa Qafqazda aparılan hərbi hərəkatdan qısa müddətdə nəticə alınması üçün davamlı olaraq təlimatlar verirdi.

Sovet ixtilal idarəsi, Sankt Peterburq və Rusiyada qayda-qanunu təmin etmək üçün menşeviklərlə mücadilənin davam etdiyi və ölkədə xaosun hakim olduğu bir dövrdə Bakıya ciddi bir hərbi yardım göndərə bilmədi. Qafqazdakı rus bolşevik hərbi qüvvələrini bəzi zabitlərlə gücləndirərək Bakı idarəsinin əmrinə verməklə kifayətləndi. Azərbaycandakı erməni daşnak qüvvələri də zatən ayrı hərəkət etmədikləri rus Qızıl Ordusu ilə birləşərək Gəncədə qurulmağa çalışılan Qafqaz İslam Ordusuna qarşı hərbi hərəkat üçün hazırlıqlara başladı.

Həmçinin Bakıdan Gəncədəki Azərbaycan hökumətinə 19 iyun 1918-ci il tarixində çatan bir məktubda bolşevik liderlərdən Amabasın maiyyətində 20 min nəfərlik bir hərbi qüvvə olduğu və bu qüvvənin böyük bir hissəsinin ermənilərdən ibarət olduğu bildirilirdi. Bakıda türklərin xaricində 15-50 yaş arasındakı kişilər silahlandırılmışdı. Bunlar məcburi hərbi təlimə cəlb olunmuşdu. Amabasın qüvvələri arasında rus yəhudiləri və iki minə qədər də müsəlmanlardan ibarət əsgər

var idi. Şəhərdə yaşayan türklərin əhvalı isə son dərəcə pis idi, böyük bir qorxu və həyəcan içində çarəsiz gözləyirdilər. Bakıdan kənara çıxılmasına qəti izin verilmirdi. Şəhərin kənarındakı önəmli çıxış yerlərinə və strateji bölgələrdə torpaq altına partlayıcı maddələr yerləşdirilmişdi. Erməni və ruslar arasında ingilislərin Bakıya yardıma gələcəyinə dair söyləntilər də gedərək yayılırdı.[2]

Azərbaycandakı hadisələri diqqətlə təqib edən İngiltərə Bakı neftinin bolşeviklər ilə Osmanlı dövləti və Almaniya arasında maraq toqquşmasına səhnə olduğunu və bunlardan birinin əlinə keçməsi halında, özləri əleyhinə nəticələr doğuracağını düşünürdü. İngiltərə Başkomandanlığı bu hadisələr səbəbindən İraqdakı qüvvələrdən bir hissəsini Bəsrə körfəzi üzərindən Cənubi Azərbaycanda Xəzər dənizi sahillərinə göndərmə qərarı aldı. Çünki Bakı neftinin türklərin və bilavasitə almanların əlinə keçməsi halında neftin borularla Batum limanına çatdırılması mümkün olacaqdı. Bundan da Alman savaş iqtisadiyyatı böyük bir qazanc əldə edəcəkdi. Bundan başqa, Osmanlı dövləti pantürkist əməlləri üçün önəmli bir mövqe əldə edərək, Bakıdan İran və Türküstana və oradan da Əfqanıstana keçmələri halında, Hindistandakı ingilis müstəmləkə idarəçiliyinin böyük bir təzyiq altına girəcəyini hesabladı. Bunun üçün Bakının türklərin əlinə keçməməsi lazım gəlirdi. İngilis hərbi qüvvələri Cənubi Azərbaycandakı Ənzəli limanına asanca çatdı. Bu bölgədə olan rus kazakı albay Biçeraxov çarlıq yanlısı və bolşeviklərə düşmən olduğu üçün ingilislərlə əməkdaşlıq etmişdi. İngilis hərbi qüvvələrinin komandiri general Denstervil, Biçeraxov ilə anlaşdı və rus kazaklarının əvvəlcədən gəmilərlə yola çıxaraq Bakının cənubundakı Ələtə daşınmasını və arxadan da özünün ingilis hərbi qüvvələri ilə Bakıya getməsini qərarlaşdırdı.[3]

Bakıdakı bolşevik Şaumyan idarəsi isə Gəncə üzərinə yerimək üçün 30 tabordan ibarət olan bir hərbi dəstə yaratmışdı. Bu hərbi dəstənin təxminən 60 faizini ermənilər təşkil edirdi.[4] Bolşevik rus və erməni daşnaklarının qurduğu Qızıl Ordunun Bakıda təşkil etdiyi hərbi qüvvələrin gücünü Gəncəyə çatan məktub və başqa bilgilər də təsdiq edirdi. Bu hərbi qüvvələr Bakı və ətrafında olan neft və sənaye müəssisələrində çalışan işçilər və erməni könüllülərlə də gücləndirildi. Kommunist Şaumyan idarəsi "Bakı ilə Gəncə arasındakı bölgələrdə yaşayan erməni və rusları türk əsgərindən qorumaq üçün" hərbi hərəkata başladıqlarını elan etmişdi, ancaq gerçək səbəb, müstəqilliyini yeni elan edən Azərbaycan Cümhuriyyətini yıxaraq ölkədəki türk əhalini qətliam, köç və etnik təmizləmə yolu ilə azaldıb, müvazinəti erməni və rusların lehinə dəyişdirməkdi. Bu düşüncənin gerçəkləşməsi halında isə Azərbaycan, Sovet Rusiyasından ayrılmayacaqdı.

**2. Göyçay savaşı:**

Qızıl şef Şaumyanın liderliyindəki Bakı Soveti, türk ordusunun Gəncədə toparlanmasına fürsət verməmək üçün hərbi hərəkata başlanması istiqamətində

qərar aldı. Bakı Xalq Komissarları Sovetinin Hərbi və Dəniz işləri üzrə komissarı Korqanov, 4 iyun 1918-ci il tarixində bir əmr imzalayaraq, Qızıl Ordu qüvvələrinin hərəkətə keçməsini istədi. Rus bolşevik və erməni daşnaklardan ibarət olan hərbi qüvvələrə Yevlax şəhərinə qədər olan düzlükdəki bölgələri işğal etməsi və Yevlax körpüsünü ələ keçirməsi üçün təlimat verdi. Erməni və rus dəstələri 6 iyun 1918-ci il tarixində Bakıdan yola çıxaraq toplanma yeri olan Hacıqabula doğru hərəkət etdilər. Yolları üzərindəki yaşayış məntəqələri ilə Qazıməmməd və ətrafındakı kəndləri talan etdilər. Bir çoxunu yandırıb məhv etdilər. Türklərin heyvanlarını və yeyəcək-içəcəklərini əllərindən aldılar.

Hacıqabul stansiyasında toplanmağa başlayan Qızıl Ordu qüvvələri 10 iyundan etibarən Gəncəyə getmək üzrə yola çıxdı. Qızıl Ordu qüvvələrinin qarşısında gürcü və türklərdən ibarət kiçik bir hərbi dəstə vardı. Bu dəstəyə gürcü əsilli Maqalov komandirlik edirdi.[5] Birləşmiş qüvvələr 11 iyunda Sığır stansiyasını ələ keçirdi. Şaumyan türk hərbi qüvvələrinin hələ hamısının Gəncəyə çatmadığını da xəbər almışdı. Gəncəli ermənilər isə o günlərdə türk əsgəri ilə toqquşma halındaydılar. Bakı Soveti komissarı lehinə olan bu durumdan faydalanmaq istəyirdi.[6] Sığır stansiyasının ələ keçirilməsi Şaumyanı son dərəcə ümidləndirdi. Leninə göndərdiyi teleqrafda hadisəni anladarkən belə demişdi:

"Hərbi qüvvələrimizin ön qüvvələri 11 iyunda Sığır stansiyasını işğal etmişdir. Kəşfiyyat qolumuz isə Kərrar stansiyası yaxınlarında top atəşinə tutulmuşdur. Hərbi qüvvələrimiz irəli hərəkət etməkdədir".[7]

Qızıl Ordu hərbi qüvvələrindən birinci qol Bakı-Hacıqabul dəmir yolu boyunca qərbə doğru irəliləyərək Müsüslü stansiyasına qədər olan bölgəni nəzarət altına aldı. Digər qol isə Hacıqabuldan keçərək Kürdəmir şəhərinin önlərinə çatdı. Bölgədəki Qızıl Ordu qüvvələri burada toplanaraq, Gəncədən təxminən 150 kilometr uzaqlıqda olan Kürdəmir üzərinə hərəkət etdi. Şəhəri müdafiə etməyə çalışan Azərbaycan türklərindən ibarət milis qüvvələrinin müqaviməti bir nəticə vermədi. Qızıl Ordu qüvvələri Kürdəmir ilə buradakı stansiyanı nəzarət altına aldılar. Kürdəmirdəki bolşevik qüvvələri tam mövcudlu iki piyada taboru ilə bir dəmir yolu bölüyü, iki batareya səhra topu və bir qaubitsa batareyasından ibarət idi.[8]

Kürdəmirin düşmən qüvvələrinin əlinə keçməsi Gəncə üçün böyük təhlükə ərz edirdi. Çünki dəmiryolu boyunca irəliləyərək Yevlaxa çatmaları halında Kür çayı üzərindəki körpünü nəzarət altına alıb, Gəncə yolunu kəsmələri hər an mümkün idi. Bu da Qafqaz İslam Ordusunun şərq istiqamətində Bakıya doğru irəliləməsinə qarşı ciddi bir əngəl törədə bilərdi.

Bolşeviklərin üçüncü qolu da Bakının şimalından hərəkət etdi. Bakı-Gəncə yolu boyunca şimal-qərb istiqamətində irəliləyərək Mərəzə və Şamaxıya daxil oldular.[9] Sonra da Ağsu təpələrini aşaraq Ağsu qəsəbəsini işğal etdilər. Daha

irəlidə olan Qaraməryəm və qərbdəki Bığır kəndi və ətrafını işğal və talan etməyə başladılar. Qafqaz Qızıl Ordu qüvvələrinin 1-ci və 3-cü diviziyaları Qaraməryəmin şimalında yerləşən İsmayıllı və ətrafındakı qəsəbə və kəndləri də ələ keçirmişdi. Qızıl Ordunun 3-cü diviziyaya bağlı qüvvələri 16 iyun səhəri bölgədəki Azərbaycan və Dağıstan türkləri ilə gürcülərdən ibarət milislərə qarşı hücuma keçdilər. İsti bir havada yeddi saat davam edən qanlı vuruşmanın sonunda say və silah baxımından üstün olan düşmən qarşısında dayana bilməyən bu türk birliyi Göyçaya geri çəkilmək məcburiyyətində qaldı. Qızıl Ordu qüvvələri bölgədəki erməni və rus kəndlərindən də gücləndirici qüvvə, silah, yemək və su təmin etməyə başladılar.[10]

Gəncədə yerləşən Türk Qafqaz İslam Ordusu Qərargahı, bolşeviklərin irəli hərəkata başlaması ilə birlikdə, qarşılarında heç bir fiziki əngəl qalmadığını və dəmir yoluna da hakim olduqlarını görüncə bu durumun paytaxt üçün böyük bir təhlükə yaradacağı nəticəsinə gəldi. Nuru paşa Gəncə üçün əsl təhlükənin Göyçay yaxınlıqlarındakı Qızıl Ordu qüvvələrindən gələcəyini hesabladı. Paşanın bu görüşü, müharibənin sonrakı mərhələlərində də görüldüyü kimi düzgün alınmış bir qərar idi. Çünki Göyçay bölgəsində aparılan müharibələr, Qızıl Ordunun Azərbaycandan qovulması və ölkənin müstəqilliyini qazanması yolunda bir dönüm nöqtəsini təşkil etmişdi.[11]

5-ci Qafqaz piyada diviziyasının bütün qüvvələri hələ Gəncəyə çatmamışdı. 10-cu Qafqaz alayı Karakilsə-Dilican yolunu yeriyərək keçmiş və Qazax yaxınlığındakı Ağstafaya daxil olmuşdu. Bakıdan çıxıb şimaldan irəliləyən Qızıl Ordu qüvvələrinə qarşı qoymaq üçün bölgəyə yeni gələn 10-cu Qafqaz alayı uzun bir yol gələrək Azərbaycan torpaqlarına yeni girmiş olmasına rəğmən, Mehmetçik dincəlməyə belə vaxt tapmadan Ağstafadan qatara mindirildi və Ucara göndərildi. Oradan da 15 iyunda Göyçaya çatdı. Türk Qafqaz İslam Ordusu qərargah rəisi yarbay Nazim bəy komandanı ələ almaq üçün Müsüslü və Kürdəmir cəbhəsinə göndərildi. Yarbay Osman bəy komandasındakı 10-cu Qafqaz alayı isə Göyçaya çatdıqdan sonra Qaraməryəm qəsəbəsində olan Qızıl Ordunun qarşısında cəbhədəki yerini aldı. Osman bəy 10-cu alaya bağlı 30-cu taboru Sultankənd, Mollaishaqlı və Veysəlli kəndləri ətrafında olan erməni quldur dəstələrini bölgədən uzaqlaşdırmaqla vəzifələndirildi. 30-cu taborun şiddətli hücumu nəticəsində erməni dəstələri Qalakər kəndinə doğru qaçdı.[12]

Müsüslüdə olan Türk Qafqaz İslam Ordusu qərargah rəisi yarbay Nazim bəy Osman bəyə bolşevik qüvvələrinə qarşı bir kəşfiyyat hücumu aparması üçün təlimat verdi. Osman bəyin əmrinə görə 28-ci tabor Qaraməryəmin qərbindəki düşmən qüvvələrinə qarşı 17 iyunda hərəkətə keçdi. Yol boyu irəliləyən 28-ci tabor lazımi tədbirləri vaxtında almadığı üçün bolşeviklərin pusqusuna düşdü. Cəbhədən

və yandan düşmən təcavüzünə uğradı. Bir an şaşqınlıq keçirdi və məğlub olaraq geri çəkilmək məcburiyyətində qaldı.[13]

Durumun təhlükəli bir hal aldığını görən Osman bəy 28-ci taboru yandan qorumaq üçün 30-cu taboru hərəkətə keçirdi, 29-cu taboru da yardıma göndərdi, ancaq son dərəcə dik vadilərin və təpələrin olduğu bölgədə bu qüvvələr də bolşevik qüvvələrin hücumuna uğradı. İki tərəfdən də mühasirəyə alınan 29-cu tabor olduqca qanlı müharibədən sonra Veysəlli kəndinə çəkilə bildi.[14]

Tərəflər gün boyunca isti havada aparılan bu müharibədə bir-birinə üstün gələ bilmədi və axşam qaranlıq düşdükdə vuruşmalara ara verdilər və mövqelərinə çəkildilər. Türk Qafqaz İslam Ordusunun Azərbaycandakı bu ilk ciddi savaşı Qaraməryəm yaxınlıqlarında uğursuzluqla nəticələndi. Qızıl Orduya bağlı 3-cü diviziyanın və onun başındakı Hamazaspın əhvalı isə olduqca yüksəlmişdi. Beləcə işğal altındakı Qaraməryəmdə daha da güclәndilər və Göyçaya hücum üçün bəzi önəmli mövqeləri ələ keçirdilər.

10-cu Qafqaz alayı komandiri kurmay yarbay Osman bəyə, düşmənin Göyçay üzərinə yeriməsini əngəlləmək üçün Qaraməryəm yaxınlıqlarında onların başını qatmaq vəzifəsi verilmişdi.[15] Osman bəy Gəncədən gələcək əsl qüvvələrin cəbhəyə çatmasını gözləməmişdi. Müsüslüdə olan Qafqaz İslam Ordusu kurmay başkanı Nazim bəy ilə birlikdə öz təşəbbüsləri ilə komandan Nuru paşadan izin almadan Qızıl Ordu qüvvələrinə qarşı kəşfiyyat hücumu aparılmasına qərar vermişdilər. Bu ciddi müharibədə qabaqcıl kəşfiyyat qollarından istifadə etmədən və düşmənin gücü və mövqeləri haqqında kifayət qədər bilgi toplamadan yürüş etmişdilər. Hücum anında ehtiyat qüvvələri də buraxılmamışdı. Bütün bunlarla bərabər, türk ordusunun bu cür savaşlarda sıx istifadə etdiyi yandan hücum və düşmən arxasına uzanma taktikaları da tətbiq olunmamışdı.

Qızıl Ordunun 28-ci tabora qarşı tətbiq etdiyi pusqu və cəbhə hücumu qarşısında alınan uğursuzluq, 10-cu alayda böyük şaşqınlığa yol açdı. Bolşeviklərin 3-cü diviziyası, bu şaşqınlığı vaxtında duyub, irəli hərəkata çıxa bilsəydi, 10-cu alayın əsgər itkisi daha çox ola bilər, tamamən dağıla bilər və Göyçay da düşmənin əlinə keçə bilərdi. Türk Qafqaz İslam Ordusunun Azərbaycandakı ilk məğlubiyyəti beləcə erkən və acı biçimdə təcəlli etmişdi.

10-cu alay taborlarının bir-iki gün ərzində apardığı müharibələrin qısa, lakin çox qanlı olduğu anlaşılır. Bolşevik Qızıl Ordu qüvvələri ilə aparılan Qaraməryəm yaxınlıqlarındakı bu ilk savaşda türk ordusu 200 şəhid verdi. Yaralıların sayı isə 156 idi. Şəhidlər arasında 28-ci tabordan ehtiyat teyməni Lütfü əfəndi, 29-cu tabordan kiçik teymən İsmayıl Hakkı və teymən Zəki əfəndilər ilə 30-cu tabordan teymən Kazım və İbrahim əfəndilər şəhid oldu. 2 top və 41 top mərmisi, 2 avtomat tüfəng ilə çox sayda piyada tüfəngi, bunlara aid mərmi və süngü də düşmənin əlinə keçdi.[16]

Nuru paşa bu məğlubiyyətdən sonra Azərbaycanlı türklərdən ibarət hərbi qüvvələrin komandanı general Əlağa Şıxlinski və 5-ci Qafqaz piyada diviziyası qərargah rəisi Rüştü bəy ilə birlikdə 18 iyun 1918-ci ildə Gəncədən cəbhəyə hərəkət edərək Müsüslü stansiyasına çatdılar.[17] Orada Qafqaz İslam Ordusu qərargah rəisi Nazim bəy və Veysəllidəki 29-cu tabor komandirindən Qaraməryəm savaşı haqqında bilgi aldılar. Nuru paşa və yanındakılar Müsüslüdən Göyçaya keçdilər. Burada 10-cu Qafqaz alayı komandiri yarbay Osman bəy ilə apardıqları görüşmədə savaşın gedişi haqqında vəziyyəti dəyərləndirdilər. Türk kurmay heyəti 200 şəhid və 156 yaralı ilə 2 topun itkisini ciddi bir hadisə olaraq dəyərləndirdi. Nuru paşa və yanındakılar cəbhə xəttini və hərbi qüvvələrin nizamını vaxt itirmədən yenidən qurdular. Ətrafdan gələn kəşfiyyat bilgilərini də hamısı birlikdə analiz etdilər.[18]

Bu bilgilərə görə bolşevik Qızıl Ordu hərbi qüvvələri Bakıdan Qaraməryəmə gedərkən ətrafdakı 50-dən artıq kəndi yandırmış, bölgədə yaşayan türkləri acımadan öldürmüşdülər. At, araba və başqa tapa bildikləri vasitələrlə və ya piyada evlərini, ocaqlarını tərk edənlər, canlarını qurtara bilənlər isə Göyçay və ətrafındakı qəsəbə və kəndlərə sığınmışdılar. Şamaxı, İsmayıllı və ətrafdakı qəsəbə və kəndlərdən qaçaraq, Göyçay, Ağdaş və Yevlax ətrafına sığınan türklərin sayı bir həftə içində 400 mini keçmişdi.[19]

Qızıl Ordu qüvvələri ətrafdakı erməni və rusların da qatılması ilə 30 min nəfərlik bir heyətə sahib olmuşdu. Sayca bu qədər üstün, silah baxımından yaxşı təchiz olunmuş, yemək və su təmini baxımından bir sıxıntı çəkməyən düşmənə qarşı yalnız 5-ci Qafqaz piyada diviziyasının qarşı gəlməsi imkansızdı. Üstəlik 5-ci Qafqaz piyada diviziyasının bütün qüvvələri də hələ Gəncəyə çata bilməmişdi.

Nuru paşa Qafqaz İslam Ordusunun qurulması əsnasında Azərbaycanlı türklərdən böyük qatılım olacağını düşünmüşdü. Ancaq bu gözləntilər boşa çıxmışdı. Orduya qatılan az sayda milislərdən də umulan fayda təmin edilə bilməmişdi. Nuru paşa bu təsbitlərdən sonra Göyçayda xalqa xitabən tənbeh dolu bir çıxış etdi. Osmanlı dövlətinin, öz vətəninin ehtiyacı olmasına rəğmən qardaş Azərbaycanı və burada yaşayan türkləri düşmən çəkməsindən qurtarmaq üçün Qafqaza əsgər göndərdiyini anlatdı. Bu orduya hər kəsin könüllü olaraq qatılması və can-başla xidmət etməsi lazım gəldiyini, ancaq bunu hələ görə bilmədiyini bildirdi. Paşa çıxışında Mehmetçiyin yandırıcı istidə düşmənə qarşı var gücü ilə savaşdığını bildirərək:

"Bu şiddətli istidə savaşan əsgərlərimizdən bir çoxu susuzluqdan ölmüşdür. Madam ki, könüllü olaraq orduya qatılmırsınız, heç olmazsa bu əsgərə yemək və su daşıyaraq yardım etməniz lazımdır" dedi.[20]

Nuru paşanın Göyçay ilə ətraf qəsəbə və kəndlərdə yaşayan ağsaqqal və ağıllı adamlarla apardığı görüşmələrin nəticəsində Azərbaycan türklərindən

könüllülər toplanmağa başladı. Göyçay, Ağdaş, Yevlax, hətta Bərdə ətrafından toplanan gənclər və əli silah tutanlar qısa müddətdə cəbhə xəttindəki yerlərini almaq üçün hərbi təlimə cəlb olundu.[21]

İstər Nuru paşa və istərsə Şərq Orduları Komandanlığı tərəfindən İstanbula göndərilən raportlarda bolşeviklərin bölgədə ciddi bir hərbi qüvvə yerləşdirdiyi, buna qarşılıq olaraq Azərbaycan türklərinin Qafqaz İslam Ordusunda önəmli bir güc təşkil edə bilməyəcəyinin anlaşıldığı bildirilərək, bu şərtlər altında 5-ci Qafqaz piyada diviziyasının bölgədə heç bir varlıq göstərə bilməyəcəyi qeyd edildi.[22]

Nuru paşanın Göycayda xalqa xitabən dediyi sözlərdən də məlum olduğu kimi, Azərbaycan türklərinin Qafqaz İslam Ordusuna girməyə istəkli olmadıqları gerçəyi türk kurmay heyətində ruh düşkünlüyü yaratmışdı. Vətən düşmən işğalı altında ikən, erməni quldurları tərəfindən kəndlər, qəsəbələr yandırılarkən uşaq, qadın, yaşlı demədən qarşılarına çıxan türklər acımadan öldürülərkən bu canilərə qarşı silaha sarılmamaq türk zabitlərinə olduqca qəribə təsir bağışlayırdı.

Həmçinin Nuru paşa və Şərq Orduları Komandanlığı tərəfindən 27 iyun və 1 iyul 1918-ci ildə İstanbula göndərilən raportlarda Azərbaycandakı durum acı bir şəkildə ortaya qoyulur və belə deyilirdi:

"Yeni qurulmağa çalışılan Qafqaz İslam Ordusu çalışmalarından bir nəticə əldə edilmir. Buradakı türk gənclərindən silah altına ən az 30 min nəfərin toplanacağını ümid edirdik. Buna qarşılıq hərbiyə qatılanların sayı 37 nəfərdir. Bu şərtlər altında Bakı məsələsini öz başımıza həll edə bilmək üçün Qafqaza daha bir diviziya göndərilməsi uyğun olacaqdır. Buradakı müsəlmanlar çox söz söyləyir, az iş görürlər. Kef çəkən və pulu çox sevən insanlardır. Yardım və fədakarlıqlarını çox az görürük. Orduya qatılan yox deyəcək qədər azdır. Bu şərtlər altında Azərbaycanın və Bakının qurtuluşunu təmin etmək, Osmanlı dövlətinin xalq nəzərindəki etibarını qorumaq üçün daha çox gərəkli hala gəlmişdir. 5-ci diviziyanın təcili gücləndirilməyə ehtiyacı var. Əks halda durumumuz heç də yaxşı deyildir."

Türk və Qızıl Ordu qüvvələri, Göyçay-Qaraməryəm cəbhə xəttində bir müddət qarşılıqlı müdafiədə qaldılar. Türk Qafqaz İslam Ordusu Komandanlığı Qərargahı və Nuru paşa bolşeviklərə qarşı hücumun 28 iyunda aparılmasına qərar verdi. Nuru paşa 5-ci Qafqaz piyada diviziyası komandiri Mürsəl bəyə 22 iyunda göndərdiyi əmrdə belə deyirdi:

"Vətənindən uzaqda ağır bir vəzifə daşıyan Osmanlı zabitlərinin üstün düşmən qüvvələri qarşısında uğursuzluğa uğrama təhlükəsi mövcuddur. Bütün ümidimiz ordumuzun başlayacağı hərbi hərəkatda bolşevik qüvvələri əzməsinə bağlıdır. Zaman, gözləməyə müsaid deyildir və arxadan təzə gücləndirici qüvvə göndəriləcəyinə dair bir işarə də yoxdur. Bu baxımdan zabit və əsgərlərimizin üzərinə düşən vəzifə son dərəcə ağırdır, ancaq bu vəzifənin də yerinə yetirilməsi

şərtdir. 5-ci piyada diviziyasının düşmənə vuracağı ilk zərbə bizə Qafqazın bu zonasında güclü və qüvvətli bir mövqe qazandıracaqdır. Hücumdan əvvəl bir həqiqətin əsgərlərə lazım gəldiyi şəkildə anladılması zəruridir. Diviziyanın hissələri imkanlar daxilində 23-24 iyunda cəbhəyə göndəriləcəkdir. Bolşeviklərə qarşı 27-28 iyunda ümumi bir hücum aparılması düşünülür. Bu durum göz önünə alınaraq, gərək olan hazırlıqların aparılması lazımdır."[23]

Gəncədəki qərargah, 5-ci Qafqaz piyada diviziyasının arxa cəbhədə olan bütün qüvvələrini və ölkənin bəzi bölgələrinə göndərilən bütün qrupları, Göyçaydakı cəbhə xəttində topladı. Hücum üçün gərəkli silah və cəbbəxana təchiz etdi. Gəncədən Göyçaya göndərilən hərbi qüvvələr arasında 46-cı taborun istehkam bölüyü, şnayder və dağ topçu taboru ilə 9-cu alayın avtomat tüfəng bölüyü kimi dayaq və müharib siniflərlə bərabər, Azərbaycan türklərindən ibarət könüllü dəstələr də var idi. 5-ci Qafqaz piyada diviziyasının qüvvəsi 225 müharib zabit, 5277 müharib piyada, 4342 tüfəng, 36 avtomat tüfəng ilə 14 dağ topu və 1939 heyvan idi. 5-ci Qafqaz piyada diviziyası əmrində olan Azərbaycan türklərindən isə 30 müharib zabit, 727 müharib əsgər, 605 tüfəng, 21 avtomat tüfəng və 6 top mövcud idi. Erməni daşnak və rus bolşeviklərin hərbi varlığı olaraq da 10 mindən artıq piyada ilə 16 top, iki zirehli tank və çox sayda avtomat tüfəng var idi.[24]

Ermənilərin hücum hazırlıqları haqqında bilgi sahibi olmalarının və bunu Qızıl Ordu qüvvələrinə çatdırmalarının qarşısını almaq üçün Göyçayda və ətrafdakı erməni kəndlərində bəzi tədbirlər görüldü. Göyçaydakı az sayda erməni 5-ci Qafqaz piyada diviziyası Komandanlığı Qərargahının qarşısındakı bir həkimin evinə doldurularaq nəzarət altında saxlanıldı.[25]

Hücum hazırlıqlarının son dərəcə gizli aparılmasına rəğmən, Qızıl Ordu qüvvələrinin görülən işlərdən xəbərdar olduğu bilinir. Bolşeviklər 27 iyunda üç tabor piyada ilə səhər tezdən hücum etdi. Düşmən qüvvələri Göyçay-Qaraməryəm yolunun şimalındakı 10-cu Qafqaz alayına şimal tərəfdən və arxadan təcavüz etdilər.[26] Cənubda yerləşən Müsüslüdə isə göstəriş hücumu etdilər. 10-cu Qafqaz alayının əmrinə verilən diviziya ehtiyatı 25-ci tabor və nizami 2-ci süvari alayının da savaşa qatılması ilə şimaldakı bu təhlükə qısa müddətdə aradan qaldırıldı.[27] Alayın hər pilləsindəki komandirlər, Qaraməryəm-Göyçay yolu boyunca irəliləyən düşmənin atəşinə qarşılıq olaraq, cəbhədən və yandan müdafiə edərək, ciddi bir müqavimət və qərarlılıq göstərdilər. Bolşeviklərin taktika və manevralarını vaxtında sezərək, müharibənin gedişini dəyişdilər və düşmənin qarşısını aldılar. Hardasa döş-döşə aparılan bu müharibədə rus bolşevik və erməni daşnak qüvvələri süngü taxıb irəliyə keçməyə cəsarət edə bilmədilər. 10-cu alayın qüvvələri qarşı hücuma keçərək Qızıl Ordu qüvvələrini səhərki mövqelərindən təxminən 3 kilometr geriyə atdı.[28]

5-ci Qafqaz piyada diviziyası Azərbaycan torpaqlarında ilk dəfə 29 iyunda birgə hücuma hazırlaşırdı. Hücum 10-cu və 13-cü Qafqaz alayları ilə aparılacaq, nizami 2-ci süvari alayı da düşmənin sol yan və arxasına Qaraməryəm istiqamətində axın edərək, düşmənin qaçmasına əngəl olacaqdı. Səhər tezdən başlayan hücumda komandirləri ən çox düşündürən içməli su və məhdud olan cəbbəxana idi.[29]

Günorta saatlarında havanın isti olması səbəbindən, hər iki tərəfin hərəkət qabiliyyəti qalmırdı. Ona görə də tərəflər vuruşmaya ara verirdilər. Türk əsgərlərinin içməli suyu arabalarla Göyçaydan gətirilirdi. Cəbbəxanası da məhdud idi. Bu üzdən daha çox atəş açmaq əvəzinə süngü taxaraq savaşırdılar. Susuzluq isə günortadan sonra kəskin həddə çatmışdı.[30] Günün sonunda Qaraməryəmin qərbi tamamən, şimal-şərqi də qismən türk hərbi qüvvələrinin əlinə keçmişdi. Qaraməryəmdə yerləşən Qızıl Ordu qüvvələrinin qərbində düzənlik var idi. Bu istiqamətdən tamamən sıxışdırılmışdılar. Şərq istiqamətində isə Ağsu var idi. Ağsu qəsəbəsinin düz arxasında isə dik təpələr yüksəlirdi. Düşmənin qaçış yolları ciddi mənada kəsilmişdi. Bu üzdən axşama doğru Qaraməryəmin şərqindəki təpələrə doğru çəkildilər. Beləliklə Qaraməryəmin şərqi tamamən türk hərbi qüvvələrinin əlinə keçdi.[31]

Qızıl Ordunun səhər etdiyi ani hücum qarşısında bir an şaşqınlıq yaşayan 10-cu alay qısa müddətdə toparlanmış və düşməni geri oturtduqdan sonra irəli gedərək, yeni mövqelər də ələ keçirmişdi. Bu uğur cəbhə xəttindəki türk qüvvələrinin əhvalını olduqca yüksəltmişdi. Bu savaşda Müsüslüdən gətirilən Həbib Səlimovun komandasındakı Azərbaycan könüllü süvari birliyinin də böyük qatqısı olmuşdu.[32]

Qızıl Ordu hərbi qüvvələri qərb və cəbhə istiqamətindən hücum imkanı qalmadığını və arxalarında da dağlar olduğunu görüncə, 5-ci Qafqaz piyada diviziyasının sol tərəfindən arxasına doğru, o bölgədəki erməni və rus kəndlərinin də yardımı ilə gecədən istifadə edərək şimaldan bir hücum hərəkatına girişdilər.[33] Bu bölgənin olduqca eniş-yoxuşlu bir ərazi quruluşu var idi. 30 iyunda səhərə yaxın min nəfərlik piyada, iki top və iki avtomat tüfənglə Göyçaya basqın etdilər.[34] Erməni əsilli Emirov komandasındakı bolşevik qüvvələri Pəzəvənd və Kırdadut kəndlərindən hərəkata başladı. Topçu və avtomat tüfəng atışları ilə Göyçaya doğru hərəkət edirdilər. Xalq təlaş içində Ucar istiqamətində qaçırdı. Bu arada Göycayda nizamlı bir hərbi qüvvə yox idi. Çox təhlükəli bir durum ortaya çıxmışdı. O gecə Qazaxdan Gəncəyə yeni gəlmiş olan könüllü süvari birliyinin başına öz təşəbbüsü ilə keçən minbaşı Əhməd Həmdi bəy şəhərin şimalına doğru hərəkət etdi. Bu arada Qərargah başqanı Qaraməryəm cəbhəsindəki 25-ci tabora telefonla xəbər verərək Göyçayın yardımına tələsməyi əmr etdi. Ağdaş ərazisi komandiri minbaşı İhsan bəyə də əmr verərək, əlindəki bütün qüvvələrlə yardıma gəlməsini istədi.[35] Əhməd

Həmdi bəyin idarə etdiyi Azərbaycan süvari milisləri bolşeviklərə qarşı ləngitmə taktikası aparırdılar, ancaq davam gətirə bilmədilər və səhər saat 07.00 radələrində tamamən dağıldılar.[36]

Qaraməryəm cəbhəsindəki 25-ci piyada taboru və bəzi milis qüvvələri Göyçaya çatmışdı. Göyçayın alınmaq üzrə olduğunu və cəbhənin arxadan mühasirə təhlükəsi olduğunu görən Nuru paşa Qaraməryəm ilə Ağdaş ətrafındakı bəzi qüvvələri ilə Göyçaydakı bolşeviklərin üzərinə göndərdi. Poylu stansiyasında yerləşən 9-cu Qafqaz alayı komandiri Cəmil Cahid bəy ilə Şəki və Zaqatala bölgəsindəki albay (polkovnik) Yusif bəyə dəstələri ilə Göyçaya hərəkət etmələrini əmr etdi. Topçu və avtomat tüfəng dəstəyindəki 25-ci piyada taboru Ağdaş milis və piyada bölüyü, bolşevik qüvvələrini Göyçaya girmədən mühasirəyə aldı. Şəhərin talan və məhv edilməsinin qarşısını aldı və qarşı hücuma keçərək, böyük hissəsini burada məhv etdi. Göyçayı talan etmə imkanı tapa bilməyən bolşevik qüvvələrinin geridə qalanı gəldikləri yoldan Pəzəvənd, Kırdadut və İvanovkadan Qaraməryəmə doğru məğlub halda qaçarkən, 13-cü Qafqaz alayı da cəbhədən hücuma keçmişdi. Bundan sonra əsas bir təqibə girişən 5-ci Qafqaz piyada diviziyası, bolşevik rus və erməni daşnak qüvvələrinə böyük itkilər verdirdi. Bu müvəffəqiyyət cəbhə hakimiyyətinin 5-ci Qafqaz piyada diviziyasının əlinə keçməsini təmin etdi. O biri qüvvələrin də şiddətli hücuma başlamasından sonra bolşeviklər Qaraməryəmdə də davam gətirə bilməyərək, məğlub halda şərq istiqamətində qaçmağa başladılar.[37]

Göyçay və Qaraməryəm savaşlarında Qızıl Ordu qüvvələrindən çox sayda silah və sursat ələ keçirildi. Ağdaş, Göyçay, Qaraməryəm və İsmayıllı ilə bölgədəki qəsəbə və kəndlərdə yaşayan erməni və ruslar qəti olaraq itaət altına alındı. Əllərindəki silahlar da toplandı.[38]

Göyçay savaşında şəhid olan türk əsgərlərinin böyük bir hissəsi ilə yaralılar Gəncəyə aparıldı. Şəhidlər Gəncə ilə daha şimal-qərbdəki Xanlar və Goranboy qəbiristanlıqlarında dəfn edildi. Bəzi şəhidlər isə İslam adət-ənənəsinə uyğun olaraq qanlı libasları ilə və şəhid olduqları yerdə dərhal o gün torpağa tapşırıldı. Bu məzarlardan bəziləri Göyçay, Qaraməryəm, Bığır və İsmayıllı bölgələrindədir. Türk əsgəri Anadolunun bağrından qopub, Qaf dağından yüksələn imdad fəryadına yardıma gəlmiş və özlərinə heç də yabançı olmayan bir başqa vətən torpağının qara bağrında əbədi yuxuya getmişdilər.

Türk Qafqaz İslam Ordusu Göyçay yaxınlarında savaşarkən, çarlıq tərəfdarı rus kazakı albay (albay: polkovnik) Biçeraxov, 1500 tərkibli hərbi qüvvəsi ilə bərabər, Ənzəlidən gəmilərlə hərəkət etdi və 2 iyul 1918-ci ildə Bakının cənubundakı Ələt qəsəbəsində quruya çıxdı. Şaumyan ilə görüşüb, cəbhə bölgəsində araşdırmalar apardılar. Biçeraxov 6 iyulda da rus bolşevik-erməni daşnak qüvvələrinin komandanlığına gətirildi. Rus-erməni birləşmiş qüvvələrində cəbhənin sağ qanadının komandiri isə Korqanov idi.[39] Türk Qafqaz İslam Ordusu

komandiri Nuru paşa erməni daşnak və rus bolşeviklərin ruslardan və ətrafdakı erməni kəndlərindən davamlı dəstək alaraq, arxadan və yandan basqın şəklindəki hücumlara qalxmalarının ordu üçün təhlükə törətdiyini düşünürdü. Bu hücumların davam etməsi halında 5-ci Qafqaz piyada diviziyasının böyük təhlükə altında olacağından əndişələnirdi. Bakının mövcud qüvvələrlə ələ keçirilə bilməyəcəyi qənaətinin qüvvətlənməsi səbəbiylə Şərq Orduları Qrupu Komandanlığından bir dəfə də dəstək istəməyə qərar verdi.

**3. Ağsu və Kürdəmirin qurtuluşu:**

Qaraməryəmdə məğlub olan və darmadağın edilmiş halda qaçan Qızıl Ordu qüvvələrinin bir hissəsi türk ordusunun sıx təqibi altında Ağsuya gedərək burada bir müdafiə xətti təşkil etməyə çalışdı. 5-ci Qafqaz piyada diviziyası isə cəbhəni Müsüslü-Kilisli arasındakı xətt üzərində qurdu. Qaraməryəmdəki müvəffəqiyyətdən sonra cəbhəyə gedən Nuru paşa 10-cu və 13-cü Qafqaz alaylarına 5 iyul 1918-ci ildə hücuma keçmələri üçün əmr verdi.[40] Erməni daşnak və rus bolşevik qüvvələri təxminən 7 min nəfərlik bir hərbi qüvvə ilə Kürdəmirə doğru çəkilirdi. Türk ordusunun hərbi hərəkat planı bu şəkildə idi:

Müsüslü dəstəsi Kürdəmirə basqın edəcək, mürəttəb süvari alayı da Xəlilli-Qarasaqqal istiqamətində hərəkət edərək Ağsu-Kürdəmir yolunu kəsəcəkdi. 13-cü alay isə Şamaxı-Ağsu xəttinə qarşı hücuma keçəcək, 10-cu alay da Kəlağaylı-Ağsu-Gürcivanın şimalındakı dağlıq bölgəyə basqın edəcəkdi. Beləcə ordunun arxadan mühasirə olunması imkanı ortadan qalxdıqdan sonra Ağsu tamamən işğal ediləcək və daha sonra Kürdəmir üzərinə yeriyərək, şəhərə şimaldan giriləcəkdi. Türk Qafqaz İslam Ordusu düşməni burada tamamən məhv etdikdən sonra Şamaxı üzərinə yeriyəcəkdi. Burada qüvvələr yenidən nizamlanacaq və Bakının ələ keçirilməsi üçün hərəkətə keçiləcəkdi.[41]

İnsanın hövsələsini daraldan isti bir havada başlayan hücum, yavaş irəliləyirdi. Ərazinin dik və eniş-yoxuşlu olması hərbi qüvvələrin yeni bir pusquya düşməmək üçün ehtiyatlı davranması və havanın qaralması kimi səbəblərlə hərəkat 6 iyula saxlanıldı.[42] Ertəsi gün səhər tezdən hərəkata yenidən başlayan Mehmetçik Qızıl Ordu cəbhəsini yarıb, onları geri çəkilməyə məcbur etdi. Təlaş içində qaçan düşmən əsgərlərinin bir hissəsi Kürdəmirə, bir hissəsi də Ağsu təpələrini aşaraq Şamaxı istiqamətinə doğru çəkilirdi. 13-cü Qafqaz alayının qabaqcıl qüvvələri günortadan sonra Ağsuya girərək, qəsəbəni Qızıl Ordu qüvvələrindən tamamən təmizlədi. Erməni daşnak dəstələri, Şərqi Anadoluda Sarıqamış, Van, Ərdahan və bir çox yerdə etdikləri kimi, Ağsu qəsəbəsini də tamamən yandıraraq qaçmışdılar.[44]

Ağsunun qurtarılması üçün aparılan əməliyyatlarda Qızıl Ordu birliklərindən bir səhra topu, beş pulemyot, bir cəbbəxana arabası, on beş nəqliyyat arabası və bir tibb çadırı ilə birlikdə çoxlu tibbi ləvazimat ələ keçirilmişdi.

Cəbhədə savaşan türk əsgərinə içməli su təmin etmək, önəmli bir məsələ olaraq qalırdı. Qafqaz İslam Ordusu qüvvələri arasında havanın isti olmasının da təsirilə yoluxucu xəstəliklər ortaya çıxmışdı. Qaraməryəm bölgəsində dizenteriya və vəba, Müsüslü xəttində isə qızdırma xəstəliyi yayılır və Mehmetçiyin sağlamlığını təhdid edirdi. Bir çox Mehmetçiklə bərabər, 5-ci Qafqaz piyada diviziyası təchizat komandiri minbaşı Fuad bəy də vəba xəstəliyinə tutularaq həyatını itirmişdi. Bu da ordu komandanlığını ciddi mənada əndişələndirirdi. Cəbhədəki yoluxucu xəstəliklərlə bərabər, cəbbəxananın yetərsizliyi də komandirləri düşündürürdü.[45]

Göyçay basqınından sonra gücləndirmə qüvvəsi və xüsusilə cəbbəxana göndərilməsi ilə bağlı istəklərin sonunda, 9-cu Ordu komandanlığı 38-ci alayın 6 iyulda Gümrüdən hərəkət etdiyini və 11 iyulda Qazax stansiyasına daxil olacağını bildirdi. Bu yaxşı bir xəbər idi. Çünki Türk Qafqaz İslam Ordusunun tərkibi yaralanma, itkilər və yoluxucu xəstəliklər üzündən getdikcə azalırdı. 38-ci alayda 65 zabit, 2475 əsgər, 701 heyvan, 2092 tüfəng, 16 ağır pulemyot və 4 güclü dağ topu, bir güclü dağ batareyası var idi.[46]

Qaraməryəm və Ağsudan qaçan Qızıl Ordu qüvvələrinin bir hissəsi cənub istiqamətində irəliləyərək, Müsüslü-Kürdəmir bölgəsinə çəkilmişdi. Cəbhə xəttinin Müsüslü bölgəsində isə bir bolşevik hərbi dəstəsi mühasirəyə alınmışdı. Həsən bəyin dəstəsi 250 piyada ilə gücləndirilərək 7 iyulda Kürdəmirə doğru qaçan düşməni təqib etməyə başladı. Şiddətli çarpışmalardan sonra Mehmetçik Qarasaqqal stansiyasını ələ keçirdi. 13-cü Qafqaz alayı bölgəni nəzarət altına alaraq Müsüslü yaxınlarına gəldiyində Həsən bəyin dəstəsi ilə Müsüslü dəstəsi də onlara qatıldı. Mehmetçik Kürdəmir yaxınlıqlarında axşama qədər davam edən qanlı vuruşmalardan sonra bolşevik qüvvələrini cənuba doğru sıxışdırdı. Göydəlikli-Çaylı xəttində İbrahimbəyli və Musabəyli kəndlərinə çatdı və gecəni burada keçirdi. 8 və 9 iyulda irəliləyişini davam etdirən 5-ci Qafqaz piyada diviziyası Kürdəmiri qəti olaraq qurtarmaq üçün 10 iyul səhəri hərəkətə keçdi. 13-cü alay şiddətli bir hücuma başladı. Döş-döşə gedən vuruşmalar oldu. Axşama doğru Dikaya diviziyanın süvari bölmələri ilə bir dağ topçu dəstəsi və 46-cı tabor da Kürdəmirə çataraq müharibəyə qatıldı. Burada tamamən mühasirəyə alınmaq və məhv edilmək üzrə olduğunu anlayan bolşevik zabitləri bölgəni tərk etməyə başladı. Aparılan təqib nəticəsində düşmən məğlub halda axşam saatlarında dağlara doğru çəkilməyə başladı. Beləcə üç gün davam edən şiddətli və qanlı vuruşmalardan sonra Kürdəmir və ətrafı rus bolşevik və erməni daşnak qüvvələrindən təmizlənərək tamamən nəzarət altına alındı. 5-cı Qafqaz piyada diviziyası cəbbəxana yoxluğunu düşmənə etdiyi basqınlardan əldə olunan ləvazimatlarla aradan qaldırmağa çalışırdı.[47]

5-ci Qafqaz piyada diviziyasının Bakı istiqamətində irəliləyə bilməsi üçün biri Ağsu-Şamaxı istiqamətindəki dağlıq ərazidən, digəri də Kürdəmir-Kərrar-Hacıqabul istiqamətində düz ərazidən hərəkatı sürdürməsi lazım gəlirdi. Bu da hərbi qüvvələrin bir-birindən uzaqlaşmasına və yardımlaşmalarının kəsilməsinə yol açacaqdı. İrəliyə doğru hərəkətin davam edə bilməsi üçün düzənlikdəki dəstələrin düşməni qısa müddətdə bölgədən qovub çıxarması şərt idi. Kərrar bölgəsindəki düşmənin geri oturdulması üçün 5-ci Qafqaz piyada diviziyası komandiri belə bir əmr verdi:

"Bir tabor piyada, mürəttəb və milis süvari alayı Müsüslü dəstəsindəki süvari bölmələri və səhra topları ilə piyadaları və 13-cü alayın əmrindəki rus səhra topu qrupundan ibarət dəstə podpolkovnik Həbib Səlimov (Azərbaycanlı yarbay) komandasında 12 iyul 1918-ci ildə hərəkətə keçərək, Kərrar stansiyası və ətrafındakı düşməni geriyə oturdacaq və bölgəni işğal edəcəkdir. Eyni zamanda bir qisim dəstələr də Qarasaqqal kəndindəki düşməni zərərsizləşdirəcəkdir."

Müsüslü dəstəsinin 12 iyulda Kürdəmir yaxınlarındakı Kərrar stansiyasına etdiyi hücum uğurlu olmadı. Bunun başlıca səbəbi, ərazinin düz olması və düşmənin zirehli avtomobillərlə etdiyi qarşı hücumlar olmuşdur. 14 iyulda Kərrara edilən ikinci hücuma 13-cü piyada alayı da qatıldı və buradakı bolşevik rus və erməni daşnak qüvvələri geri oturdula bildi.[48]

Göyçay yaxınlarında vuruşmalar davam edərkən bolşeviklər Gürcüstan hökumətindən dəmir yolunu kəsmələrini və türk hərbi qüvvələrinin istifadə etməsinə əngəl olmalarını istəmişdilər. Tiflisdə çap olunan qəzetlər Gürcüstan hökumətinin buna müsbət cavab verdiyini yazmışdılar. Türk Qafqaz İslam Ordusu tərəfindən Göyçayda əsir alınan erməni və rus zabitlərdən öyrənildiyinə görə, rus kazakı Biçeraxovun hərbi dəstələrindən 3 min nəfərin Cənubi Azərbaycandakı Ənzəlidən Bakıya çatdığı xəbəri gəlmişdi.[49] Biçeraxovun Bakıdakı təxminən min nəfərlik əsir alman əsgərini silahlandıracağı və Bakını ələ keçirəcəyi, bolşevik və erməniləri şəhərdən qovacağı da gələn xəbərlər arasında idi.[50]

**4.Göyçay savaşının siyasi və hərbi nəticələri:**

Türk Qafqaz İslam Ordusuna bağlı 5-ci Qafqaz piyada diviziyası başkomandan vəkili Ənvər paşa da gücləndirici qüvvə göndərilməsi ilə bağlı cəbhədən gələn raportları dəyərləndirirdi. Osmanlı dövləti ilə müttəfiq olan Almaniya türk əsgərinin Bakıya girməsinə qarşı çıxırdı. Ənvər paşa isə almanları ləngitməyə çalışırdı.

Başkomandan vəkili Ənvər paşa Şərq Orduları Qrupu Komandanlığına 26 iyun 1918 tarixində göndərdiyi açıq əmrdə:

"Bakı üzərinə irəliləmənin Bakıdakı neft qaynaqlarının bolşeviklər tərəfindən məhv edilməsi təhlükəsini doğuracağından ümumi hərb sövq və idarəsi baxımından nə bahasına olursa olsun bundan qaçınmaq lazımdır. Bu səbəblə 5-ci

Qafqaz piyada diviziyasının mənim razılığım olmadan kəskinliklə Bakı üzərinə hücum etməməsini əmr edirəm" şəklində ifadələr işlədirdi.

Başkomandan vəkili Nuru paşaya göndərdiyi açıq əmrdə isə:

"Sizə yardım göndərmək qabil deyildir. Vəzifənizin Bakı üzərinə getmək olmayıb, qüvvələrinizi cəmləşdirərək, bolşeviklərin Gəncə üzərinə hərəkətinin qarşısını almaq olduğunu bir daha təkrar edirəm" demişdi.

Ənvər paşa Şərq Orduları Qrupu Komandanlığına göndərdiyi açıq əmrdə də:

"Məndən izin alınmadan Nuru paşaya heç bir əlavə qüvvə göndərməmənizi, Nuru paşa üçün yola çıxarılan qüvvələri də geri almanızı rica edirəm. Əvvəlcə bildirildiyi kimi Nuru paşa qüvvələrini cəmləşdirəcək və yalnız bolşeviklərin irəliləməsinə mane olmaqla kifayətlənəcəkdir" şəklində əmr verdi.

Ənvər paşa Şərq Orduları Qrupu Komandanlığına yardım barədə göndərdiyi gizli əmrdə isə "38-ci piyada alayı ilə bir dağ topçu taborunu Qazax şosesi ilə Nuru paşaya yardıma göndərdiyini" bildirərək, komandiri xüsusi olaraq məlumatlandırmışdı.[51] Ənvər paşa, bir tərəfdən türk əsgərinin Bakı üzərinə hücum etməyəcəyi məsələsində almanları inandırmağa çalışırdı, o biri tərəfdən də Nuru paşaya gizli əmrlər göndərərək Bakının ən qısa müddətdə ələ keçirilməsi üçün təlimat verirdi. Həmçinin Ənvər paşa 1-2 iyul 1918-ci ildə Şərq Orduları Qrupu komandan vəkili Əsad paşaya "şəxsi" qeydi ilə yazdığı əmrdə Hərbiyyə hərəkat şöbə müdiri Feldmanın son savaş durumunu görmək və yerində araşdırmalar aparmaq üçün bir gəmi ilə Batuma hərəkət etdiyini və Tiflisdə Almaniyanın təmsilçisi ilə görüşəcəyini bildirərək, başkomandan vəkilindən göndərilən əmrlərdən ona heç bir şəkildə bəhs edilməməsini və çox gizli tutulmasını istədi. İstanbulla xəbərləşmə məsələsində bəzi sıxıntılarla qarşılaşa biləcəyini bildirərək, Bakının ən qısa müddətdə ələ keçirilməsi üçün lazım gələn əsgər, silah, sursat, cəbbəxana və pulun Nuru paşaya istədiyi qədər verilməsini əmr etdi.

Ənvər paşa davam edərək belə dedi:

"Xülasə, Nuru paşanın və Gəncədəki qüvvələrimizin mümkün olan əlavə əsgər, silah və cəbbəxana ilə gücləndirilməsi işinə, vaxt keçirmədən, Feldmanın gəlməsi ilə durum çox çətin bir hal almadan, mümkün olduğu qədər sürətlə önəm verilməsini və sizə şəxsi və gizli olaraq yazdıqlarımın eyni şəkildə Nuru paşaya da bildirilməsini və almanlara hiss etdirilməsi qəti doğru olmayan bu xəbərləşmə tərzinin, sizin tərəfinizdən və Nuru paşa tərəfindən də mənimsənilməsinin lazımi şəxslərə xəbər verilməsini rica edirəm."[52]

Sovet İttifaqı dövründə Göyçay savaşını araşdıran bəzi tarixçilər türk hərbi qüvvələrinin sayı baxımından Qızıl Orduya qarşı açıq bir üstünlüyü olduğunu bildirirlər. Həqiqətdə isə mövcud sənədlərə görə bu görüş doğru deyildir. Savaşın başladığı dövrdə Azərbaycana çatan türk hərbi qüvvələrinin sayı beş min belə

deyildi. Qızıl Ordu qüvvələrinin sayı isə erməni dəstələrin qatılması ilə 30 mini aşmışdı. Rus tarixçilərin türk zabit heyətinin bu savaşdakı sövq və idarəsi ilə təşkilatçılığını görməməzliyə vurduqları açıqdır. Bundan başqa türk zabit heyətinin qardaş Azərbaycanın düşmən işğalından qurtarılması üçün göstərdiyi əzm və qərarlılıq ilə Mehmetçiyin çox çətin şərtlərdə ortaya qoyduğu fədakarlığı yox saymağa çalışdıqları da ortadadır.

Şaumyan və ona bağlı Qızıl Ordu qüvvələri hər şeydən əvvəl Azərbaycan torpaqlarında yaşayan yerli xalqdan təşkil edilməmişdi. Çar Rusiyası ordularında xidmət edən zabit və əsgərlərdən təşkil olunmuşdu. Daşnak qüvvələri isə böyük çoxluğu Şərqi Anadolu bölgəsi və qismən də bugünkü Ermənistan və Azərbaycanda yaşayan ermənilərdən ibarət idi. Erməni daşnak qüvvələri təxminən 3 ildir rus ordusunun zabitləri nəzarətində təlim görmüş və savaşlara qatılaraq nizamlı hərbi dəstələr halına gəlmişdilər.

Şaumyan Leninə göndərdiyi teleqrafda rus bolşevik-erməni daşnak hərbi qüvvələrinin Göyçay savaşında üstün bir səy göstərdiyini, ancaq ordunu idarə edən komandirlərin son dərəcə qorxaq davrandıqlarını bildirdi. Bundan başqa ingilis gizli xidmətinin ordu içində bolşeviklər əleyhinə apardığı təbliğatın da təsiri olduğunu bildirdi.[53] Ənzəlidən gəmilərlə hərəkət edərək Ələt stansiyası yaxınlığında quruya çıxan çarlıq tərəfdarı rus kazakı albay Biçeraxovun qüvvələri də Kürdəmir müharibəsində iştirak etmişdi. Rus kazakları ağır bir məğlubiyyətə uğramışdı. Biçeraxov 300-ə yaxın adamını savaş meydanında qoyaraq Bakıya qaçmışdı. Birləşmiş düşmən qüvvələrinə komandirlik etdiyi bu qısa müddətdə Biçeraxov heç bir uğur əldə edə bilmədi. Böyük ümidlərlə gəldiyi Kürdəmir cəbhəsindən zərərlə ayrıldı. Türk hərbi qüvvələrinin qarşısında məğlubiyyətə uğradı və komandirlik vəzifəsini 22 iyuldan etibarən erməni əsilli Avetisova vermək məcburiyyətində qaldı.[54]

Bolşevik Qızıl Ordu və erməni daşnak birləşmiş hərbi qüvvələri Azərbaycanda yaşayan türkləri etnik təmizləmə aparmaq yolu ilə yox etmək və bölgədən sürgün edib çıxarmaq üçün Cənubi Qafqaza girmişdilər. O tarixlərdə Cənubi Qafqazın və xüsusilə Azərbaycanın yerli xalqı tamamən Oğuz türklərindən ibarət idi. Birinci Dünya müharibəsi illərində bugünkü Gürcüstan və Ermənistan coğrafiyasında da yenə türklər çoxluq təşkil edirdilər. Bu baxımdan bolşeviklər və ermənilərin əsl niyyəti, Azərbaycan və xüsusilə Bakı neftinə sahib olmaq və bu hakimiyyət gerçəkləşdikdən sonra da Azərbaycanı Sovetlərin ayrılmaz bir parçası olaraq işğal altında saxlamaq idi. Zatən Lenin və Stalin də bu istiqamətdəki baxışlarını hər fürsətdə açıqca dilə gətirmişdilər.

Türk əsgərinin Qafqaza getməsinin əsl hədəfi isə hər şeydən əvvəl erməni daşnakların Şərqi Anadoluda başlatdığı və Azərbaycanın bir çox bölgəsində davam etdirdiyi qətliamı dayandırmaqdı. Çünki Anadolu ilə Azərbaycanda dili, dini,

tarixi, mədəniyyəti və coğrafiyası bir olan Oğuz türkləri yaşayırdı. Hər iki xalqın Oğuz xan, Mete xan, Göytürk kitabələri, Dədə Qorqud, Nizami Gəncəvi, Füzuli, Nəsimi, Nəsirəddin Tusi, Koroğlu və bir çox başqa ortaq tarixi və mədəni dəyərləri mövcuddur. Və bu tək millətin birlikdə qurduğu Türk Qafqaz İslam Ordusu Azərbaycanın azad və müstəqil bir dövlət olaraq öz ayaqları üstündə dura bilməsi üçün imperializmə və istilaçılara qarşı savaşırdı.

Göyçay savaşının Türk Qafqaz İslam Ordusu və Azərbaycan üçün çox əhəmiyyətli nəticələri ortaya çıxmışdır:

a. Sank-Peterburq və Bakıdakı bolşevik Sovet rəhbərləri yeni rejimin və xüsusilə Qızıl Ordunun qarşısında heç bir hərbi gücün dura bilməyəcəyini düşünürdülər. Qafqazda yaşayan xalqlar da rus bolşevik ordusunun məğlubedilməz bir hərbi güc olduğuna inandırılmışdı. İnsanların düşüncəsində yer alan "Qızıl Ordu məğlub edilə bilməz" mifologiyasını Türk Qafqaz İslam Ordusu Göyçay yaxınlarında tamamilə aradan qaldırdı. Mehmetçik dosta, düşmənə bunu göstərdi:

"Bu ordu heç də məğlubedilməz deyildi. Qızıl Ordunun Qafqazdakı arzularına çatması mümkün olmayacaqdır."

b. Azərbaycanda yaşayan xalq əvvəlcə Türk Qafqaz İslam Ordusuna qatılmaq istəmirdi. Çünki bu ordunun Qızıl Ordu qarşısında heç bir varlıq göstərə bilməyəcəyinə inanırdılar. Türk ordusunun eynilə ruslar kimi Azərbaycana istila və istismar məqsədilə gəldiyi yolunda bolşeviklərin apardığı qara təbliğatlardan da təsirlənmişə bənzəyirdi. Təşkil edilən az saydakı milislər isə əsasən Qazax, Tovuz, Gəncə, Borçalı, Zaqatala və Quba bölgələrində yaşayan türklərdən ibarət idi. Azərbaycan türkləri Göyçay savaşından sonra Mehmetçiyin yalnızca öz qardaşlarına yardım üçün yenə bir türk torpağı olan Azərbaycana gəldiyinə və onları qətliamdan qurtarmağa çalışdığına inandı. Xalq artıq bu qənaətə gəlmişdi ki, Qafqaz İslam Ordusu türklərin əsgəridir və məqsədləri Qafqazdakı türk və müsəlmanların qurtuluşu üçün Anadolu yaylalarından gəlib, buralarda savaşmaqdır. Qafqazdakı türk vətəninin işğal edilməsiylə ortaya çıxacaq etnik təmizləmə və soyqırımın qarşısını ala biləcək olan yeganə qüvvə də bu ordudur.

c. Paytaxtdakı 26 Bakı komissarı idarəsinin Bakı və ətrafındakı Abşeron yarımadasından kənarda qalan bölgələrdən və xüsusilə Gəncədə yaşayan erməni və ruslardan könüllü əsgər toplamasının qarşısı bu savaşla kəsilmiş oldu.

d. 5-ci Qafqaz piyada diviziyası Azərbaycana daxil olduqdan sonra 10-cu Qafqaz alayının Göyçayın şərqində 28-ci və 29-cu taborların uğradığı fəlakət ilə Kürdəmirin qurtarılması üçün gedən hücumda Müsüslü və Həsən bəy dəstələri qanlı itkilər vermişdi. Bunların başlıca səbəbi, lazımi tədbirlərin vaxtında alınmaması, müxtəlif istiqamətlərdən aparılan hərəkatda xəbərləşmə və əlaqənin lazım gəldiyi kimi təmin oluna bilməməsi və birlikdə hərəkət edilə bilməməsi kimi

problemlər olmuşdu. Kürdəmir hərəkatında Müsüslü yaxınlarındakı düşmən qüvvələri dəmiryolundan ayrılmamaq məcburiyyətindəydi. Bölgəyə göndərilən gücləndirici bir piyada alayı ilə mürəttəb (nizami) süvari birliklərinin və milis dəstələrinin çəkilən düşməni mühasirəyə alıb əsir və hətta məhv etməsi lazım gəlirkən bu vəzifəni yerinə yetirə bilməmişdir.

e. Düşmən qüvvələri geri çəkilərkən, dəmir yolunu təxrib edir və önəmli körpüləri də dağıdırdı. Əsgərlərin cəbbəxanası kifayət qədər deyildi, su və yemək sıxıntısı da artmışdı. Təmiz içmə suyunun təmin oluna bilməməsi nəticəsində yoluxucu xəstəliklər ortaya çıxmışdı. Türk Qafqaz İslam Ordusunun bu və buna bənzər həyati məsələlərdə tədbir alması lazım gəlirdi. Ordunun dayanacaq və istirahət edəcək yerlərinin yaxşı sistemləşdirilərək, tamamlama işlərinin vaxtında görülməsi bir zərurət halını almışdı.

f. Türk Qafqaz İslam Ordusu Göyçay savaşından sonra bütün enerjisini və qüvvəsini Bakının qurtarılmasına yönəltdi.

**5. Göyçay və Qaraməryəm ətrafındakı şəhidliklər:**

Azərbaycanda şimaldakı Qafqaz ilə qərb bölgələrini əhatə edən Qarabağda yüksək dağlar və yaylalar var. Ölkənin orta zonalarında isə bu iki dağlıq bölgənin arasında qalan çuxur və düzənliklər yer alır. Bu düzənliklərə Aran və Muğan düzənlikləri deyilir. Azərbaycandakı bu çuxur və düzənliklərdən iki önəmli çay keçir. Bunlardan birincisi, Türkiyədən başlayan və Gürcüstanı keçib, şimaldan Azərbaycana girən Kür, digəri də yenə Şərqi Anadoludan Naxçıvana, oradan da Azərbaycana axan Araz çayıdır. Bu iki çay Azərbaycanın cənub bölgəsində Sabirabad yaxınlarında birləşərək, Bankə ətrafında Xəzər dənizinə tökülür. Xüsusilə Kür çayı Azərbaycanı şimaldan cənub-şərq istiqamətində keçərək hər iki tərəfindəki kənd təsərrüfatı sahələrinə həyat verir.

Göyçay, Bakı şose yolundan təxminən iki saat uzaqlıqdadır. Şose yolu, dik yamacları və sərt döngələri aşaraq əvvəlcə Mərəzə və Şamaxıya çatır. Türkiyədəki Bolu dağları keçidinə bənzəyən dolambaclı dağ yolunu aşdıqdan sonra təpələrin ətəyindəki Ağsu qəsəbəsinə çatır. Ağsudan sonra isə Qaraməryəm və Göyçaya uzanır, Ağsu təpələrində eynilə Bolu dağlarında olduğu kimi, türklərin milli yeməyi olan şiş kababı bişirən bir çox dincəlmə yerləri vardır. Buradakı kəkotulu kababın dadından doymaq olmaz.

Göyçay-Qaraməryəm zonasının yerli camaatının önəmli dolanacaq mənbələrindən biri də nar yetişdirməkdir. Qafqazın hər yerində Göyçayın narı bilinir və tanınır. Bakıdan Tiflisə, ya da Gürcüstanın Borçalı bölgəsində yaşayan qohumlarını ziyarətə gedən Azərbaycanlı türklər özləri ilə hədiyyə olaraq mütləq Göyçay narı götürürlər.

Qaraməryəmdən Göyçaya uzanan yolun hər iki tərəfində nar bağları var. Yerli xalq bu bölgədəki nar ağaclarının Göyçay savaşlarında torpağa düşən

qəhrəman Mehmetçiyin qanı ilə bəsləndiyinə inanır. Mehmetçik Göyçay narına özünəxas dadını və qan qırmızısı rəngini vermişdir. Bu nar ağaclarının bitdiyi yerdə bir neçə söyüd və palıd ağacı var. Yolun solunda isə Göyçay şəhidlərinin xatirəsini yaşatmaq üçün bir abidə düzəldilmişdir. Buradakı qovşaqdan sağa dönən yol isə Mollaishaqlı kəndinə gedir. Şəhidlikdən sola ayrılan yol da nar bağlarının ortasından keçərək Bığır kəndinə çatır.

Qaraməryəm, Bığır, Hacı Hətəmli və Türk dağı ətrafındakı dik yamaclı təpələrdə, keçid və boğazlarda, qurumuş çay yataqlarında sinə-sinəyə çətin və qanlı vuruşmalar yaşanmışdı.

5-ci Qafqaz piyada diviziyası ilə Anadoludan Qafqaza gedən qəhrəman əsgərlərdən biri də Sivaslı əsgər Mehmet oğlu Turan idi. Turan bəy Qafqaz cəbhəsindəki hərbi hərəkata qatılmış, Bakı düşmən işğalından qurtarıldıqdan sonra oraya yerləşmiş, evlənmiş və oğul-uşaq sahibi olmuşdu. Turan bəyin nəvələri indi Bakıda yaşayırlar. Böyük nəvəsi Mahmud Turanoğlu babasından eşitdiklərini bizimlə də bölüşdü:

"Babamın bizə anlatdıqlarına görə, Göyçayda süvari dəstəsində vuruşurmuş. Boy-buxunu yerində olduğu üçün, onu Azərbaycanlı türklərdən ibarət olan bir süvari dəstəsinə vermişdilər. Həqiqətən də igid bir görünüşü vardı. Savaşda silahları son dərəcə az imiş. Mərmiləri belə qənaətlə işlədir və lazım olmadıqca atəş açmırlarmış. Mərmiləri az olduğu üçün çarə olaraq süngü hücumunu seçmişlər. Düşmənin üzərinə sıx-sıx süngü hücumu edirlərmiş. Havanın son dərəcə isti olması, əsgərləri və heyvanları canından bezdirirmiş. İçməli suyun az olması və arabalarla daşınması üzündən əsgərlər arasında böyük bir susuzluq dərdi çəkilirmiş. Bu da Mehmetçiyi pərişan edirmiş, taqətdən salırmış." (Şəxsi arxiv).

Savaşlarda zaman-zaman əsir dəyişimi, hətta həyatını itirənlərin cəsədinin savaş meydanından bəlli bir müddət sonra qarşılıqlı olaraq alınması keçmiş tarixlərdən bəri davam edən bir ənənədir. 5-ci Qafqaz piyada diviziyasının komandirləri, bolşevik səlahiyyətlilərinə əsirlərin qarşılıqlı olaraq dəyişdirilməsini təklif etmişdi. Mahmud Turanoğlunun babasının anlatdıqlarına görə, Qızıl Ordu bu istəyə uymuş, ancaq fərqli bir cavab vermişdi:

"Bizim hərbi dəstələrdən 13 Mehmetçik əsir düşmüşdü. Komandirlərimiz onlara xəbər verdilər və "əsirlərimizi sərbəst buraxın, biz də sizinkiləri buraxaq" dedilər. Biz əlimizdəki bəzi rus və erməni əsirləri sərbəst buraxdıq. Onlar da bizim əsirləri arabalarla gətirib uzaqda yolun bir kənarına atdılar. Çatıb baxdığımızda dəhşətverici mənzərə ilə qarşılaşdıq. Bizim əsir düşən 13 Mehmetçiyimiz tanınmaz haldaydı. Bütün orqanları, qolları, ayaqları parçalanmış, kəsilmiş, doğranmış vəziyyətdəydi. Acı və ələm verici işgəncələrdən sonra öldürüldükləri anlaşılırdı. Silah qardaşlarımızın bu şəkildə zalımca öldürülməsi bizdə böyük bir üzüntüyə yol açmışdı." (Şəxsi arxiv).

Müharibənin də bir qanunu və əxlaqı vardır. Türklər aman diləyənə əl qaldırmaz, canını bağışlayar. Əsir alınan düşmən əsgəri ilə yeməyini və suyunu paylaşar, həkimlər müalicə edər. Bu bir türk adətidir. Erməni daşnaklarının və rus bolşeviklərinin gücü isə müdafiəsiz və silahsız olan insanlara, qadınlara, uşaqlara, yaşlı və qocalara çatırdı. Keçdikləri hər yeri yandırıb dağıdırdılar, fəqət qarşılarına qəhrəman Mehmetçik çıxınca nə edəcəklərini şaşırırdılar. Bəslədikləri kin, nifrət və qəzəblərini də əsir düşən Mehmetçikdən çıxarırdılar.

Mehmetçik, Qızıl Ordu qalıqlarını təmizləmək üçün bölgədəki hərəkata davam edirdi. 13-cü Qafqaz alayının qəhrəmanları yenə düşməni təqib edirdi. Göyçay düzənliyi isti günlərindən birini yaşayırdı. Günəş bütün pərdələrini açmış, elə bil qəzəbli oxlarını Bığırın təpələrinə və vadilərinə sancırdı. Türk Qafqaz İslam Ordusunun savaşdığı bu ərazi Qafqazın cənub ətəklərində Kür çayına enən bölgədədir və son dərəcə eniş-yoxuşlu idi. Düzənlikləri dərin yarğanlarla bir-birindən ayrılmışdı, yüksək təpələr və yamacları da son dərəcə dik idi. Nizamlı ordunun hərəkatını çətinləşdirirdi.

Qaraməryəm yaxınlarında məğlubiyyətə uğrayan erməni daşnak və rus bolşevik qüvvələrinin bir hissəsi cənubdakı Bığır kəndinə doğru qaçırdı. Mehmetçiklər isə birləşmiş düşmən qüvvələrini təqib edirdi. Düşmən əsgərləri təpələrin üzərində səngər tutmuş, aşağıdakı dərə yatağında olan Mehmetçiyə yuxarıdan atəş yağdırırdılar. Səngərdəki pulemyotların susdurulması üçün əmr alan bir manqa Mehmetçik divar kimi dik yamacdan sürünərək, dırmanmağa başladı. Yuxarıya çatdıqlarında süngü taxıb Qızıl Ordu əsgərləriylə boğaz-boğaza savaşdılar. Səngərlərin qarşısında qanlı toqquşmalar yaşandı. Sonunda Mehmetçik bu təpələri ələ keçirmişdi. Şəhid olan əsgərlərini də dərhal orada qanlı libasları ilə torpağa vermişdi. Rus bolşevik və erməni daşnak əsgərlərinin bu təpələrdə qazdığı səngərlər, pulemyot yuvaları indi də durmaqdadır. Buradakı yaşlılar igidlərin bu dərə yatağında, vadinin yamaclarında, silahların lüləsi od kimi qızarıncaya qədər düşmənlə savaşdıqlarını danışırlar.

Qədir əfəndi də qəhrəmanlarla bərabər bu təpəyə dırmanmışdı. Qəhrəman silahdaşları kimi o da süngü taxmışdı. Ancaq yağlı gülləni o təpənin üstündə yedi. Son nəfəsində tək bir istəyi vardı: "Bir damla su...".

Bu üzdən yerli xalq Qədir əfəndinin məzarını ziyarətə gedərkən, özləri ilə mütləq bir şüşə su aparırlar. Son nəfəsində su istəyən Qədir əfəndinin məzarının üstünə tökürlər.

Təpənin başında və Qədir əfəndinin yatdığı məzarın ətrafında torpağı eşələdiyimiz zaman o illərdə baş verən vuruşmalardan qalan gilizləri tapmaq hələ də mümkündür. Tapacağımız gilizlərin birindən çıxan güllə bəlkə də Qədir əfəndiyə dəymiş və qəhrəmanı şəhid etmişdir, kim bilir!...

Məzarın yerləşdiyi təpəyə çatmaq üçün dağın şərq tərəfindəki dərələr, yarıqlar və keçidlərdən keçib, uzunca bir yolu demək olar ki dırmanaraq çıxmaq lazım gəlir. Məzarın yerləşdiyi təpənin üstündəki kiçicik bir düzlükdən Göyçay ovası və Bığır qəsəbəsinə doğru baxınca, bölgədəki çətin təbiət şərtlərini daha yaxşı anlamaq mümkün olur. Şəhid Qədir əfəndinin əbədi yuxuya getdiyi yerdən aşağılara baxınca, oradakı müharibənin hansı şərtlər altında getdiyi bir daha aydın olur.

Ətraf kəndlərdə yaşayan türklərdən biri, çölün ortasındakı təpələrin üzərində yatan Qədir əfəndinin məzar yeri itməsin deyə baş ucuna bir ağac parçası yerləşdirmişdir. Üzərinə də kiril hərfləri ilə "Mərhum Qədir əfəndiyə qara qızın nəvəsi İlhamdan yadigar" şəklində yazılı bir lövhə asmışdır. Bir başqa kəndli də məzarın ətrafını dəmir barmaqlıqlarla hasara almışdır. Yerlilərdən biri məzarın baş hissəsinə bir alça ağacı əkmişdir. Alça ağacı indilərdə Şəhid Qədirin məzarındakı torpaqdan aldığı qida ilə qıpqırmızı və meyxoş meyvələr verməyə davam edir.

Qafqazdakı türklər Qədir əfəndinin məzarını müqəddəs bir məkan halına gətirmişlər. Məzarlıq zamanla yaxşı bir qismət gözləyən gənc qızların, sevdiyinə qovuşmaq istəyənlərin, uşağı olmayanların və başqa dilək sahiblərinin ziyarət yeri halına gəlmişdir. Ziyarətçilər alça ağacının budaqlarına rəngarəng parçalar bağlamışlar. Bu cür ənənələr türk millətinin Orta Asiyada keçmiş dövrlərdə mənsub olduğu Göy Tanrı inancından bu günümüzə qədər daşıdığı bir davranış formasıdır. Bu ənənə Anadolu, Balkanlar, Qafqaz və Orta Asiya ilə Orta Şərq kimi türklərin yaşadığı bir çox coğrafiyada günümüzdə hələ də yaşadılmaqdadır.

Atalarını daima hörmətlə anmaq və keçmişini əsla unutmamaq, qəhrəman Türk Silahlı Qüvvələrinin bir xüsusiyyətidir. Bakıdakı Türk Silahlı Qüvvələri Attaşeliyi qəhrəman Mehmetçiyin torpağa düşdüyü yer olan Bığır kəndinin təpəsində Qədir əfəndinin əziz xatirəsini yaşatmaq üçün məzarını kəsmə daşlarla yenidən inşa etdirərək, kitabəsini də səliqə ilə yerləşdirmişdir. (Foto: Özəl arxiv).

Qədir əfəndiyə Allahdan rəhmət diləyir və bir başqa təpəyə istiqamətlənirik. Dərin yarıqları aşaraq, qarşıdakı Türk Dağına dırmanırıq.

Bığır kəndi düz bir ərazidə təpələrin tükəndiyi və düzənliyin başladığı yerdə qurulub. Yerli əhali Bığırın şərqində və arxasındakı bu yüksək və dik təpəyə, orada yatan Mehmetçiyə görə Türk Dağı adını vermişdir. Təpənin hakim nöqtəsində yatan qəhrəmanın adı bilinmədiyi üçün dağa bu adı layiq görmüşlər.

Bu təpələrə dırmanmaq olduqca çətindir. Yoxuşlar, cığırlar, dərə yataqları və dik yamacları dırmanmaq lazım gəlir. Təpənin ətəklərinə çatınca vadidən yuxarıya doğru baxıldığı zaman qəhrəman Mehmetçiyin hansı şərtlərdə savaşdığını, Qafqazda yaşayan türklərin səsini, imdad çığırtısını və bunun mənasını daha yaxşı qavramaq mümkün olur...

Türk Dağındakı məzar, Bığır kəndi ilə qarşısında uzanan düzlüyü və ovanı yuxarıdan aşağı seyr edir. Daha irəlilərdə Kür çayının suvardığı bərəkətli torpaqlar uzanır. Türk Dağında yatan bu qəhrəmanın məzarı da yenə Türk Silahlı Qüvvələr Attaşeliyi tərəfindən kəsmə daşlarla inşa edilmişdir. Qədir əfəndinin məzarında olduğu kimi, ətrafı dəmir barmaqlıqla əhatə olunmuşdur. Məzarın yerləşdiyi əraziyə girmək üçün dəmir barmaqlıqlı kiçik bir qapı qoyulması da diqqətdən yayınmamışdır. Ətrafdakı məzarların hamısı da eyni memarlıq üslubda düzəldilmişdir... (Özəl arxivimiz).

Türk Dağından uzaqlara baxınca göy üzündə süzülən bir qartal gözünüzə çarpar. Bəllidir ki, ətrafda gəzişən bir dovşan, ya da bir başqa ov axtarır. Qafqazın imdadına çatan qəhrəmanlar da bu qartal kimi Anadoludan, Ərciyəsdən, Toroslardan, Palantökənlərdən çıxmışlar, düşmənin üstünə atılmışdılar. Düşmənin qadın və uşaqları öldürməsinin qarşısını almışdılar.

Bığır kəndinin kənarında da bir şəhidlik var. Qarabağda ermənilərə qarşı savaşarkən həyatını itirənlər üçün düzəldilmişdir.

Bığır təpələrindən şərq istiqamətində uzaqlara baxınca, Bakı-Göyçay yolunun üzərində yerləşən Türk şəhidliyi görünür... Şəhidlik Qədir əfəndi ilə qucaq-qucağa yatan, ancaq sayı və məzar yeri belə bilinməyən adsız qəhrəmanların, Göyçay şəhidlərinin xatirəsini yaşatmaq üçün inşa edilmişdir.

Göyçayın şərqində Qaraməryəm ilə Bığır kəndləri ətrafında davam gətirə bilməyən bolşevik Qızıl Ordu hərbi qüvvələrinin bir qolu şərq tərəfdə İsmayıllı-Şamaxı istiqamətində qaçmağa başlamışdılar. 13-cü Qafqaz alayı isə düşməni təqib etməkdə idi. Qəhrəmanlar gözü dönmüş qatillərə nəfəs almağa imkan vermirdi. Bu ətrafdakı təpələrdə, dik yamaclarda, dərələrdə və düzlüklərdə bolşevik və daşnakları təqib edir, onlara aman vermirdilər.

Anadoluda hər bir türkün evində uşaqlara nağıllar danışılır. Ağbirçək nənələrin anlatdığı bu hekayələrdən biri mütləq Qaf dağı haqqında olur. 13-cü alayın qəhrəmanlarından Mustafa Çavuş da, ehtimal ki, Anadoluda hər bir türkün evində danışılan Qaf dağı nağıllarını dinləyərək böyümüşdü. Və tale onu 1918-ci ildə Türk Qafqaz İslam Ordusu ilə birlikdə uşaqlığındakı nağıllar dünyasında önəmli bir yeri olan Qaf dağına gətirdi. Yeyəcək çörəyi, içəcək suyu da buraya qədərmiş. Erməni daşnak-rus bolşevik qüvvələri ilə qəhrəmancasına vuruşarkən Mustafa Çavuşa şəhadət şərbəti içmək burada nəsib olmuşdur. Yağlı güllə Mustafa Çavuşu Mollaishaqlı kəndi yaxınlarında vurmuşdur. İndi Bığırdan Mollaishaqlıya uzanan vadilərdən birinin yerləşdiyi İrəmə məntəqəsində yatır. Məzarı kiçicik təpələrin arasında, bir yoxuşun döşündə durur və qarşısında uzanan bərəkətli ovanı seyr edir.

İsmayıllının Hacıhəsənli kəndində yaşayanlar da ermənilərin təcavüzünə məruz qalmışdılar. Çəkidə yüngül, qiymətdə ağır nə varsa daşıya bildikləri

əşyalarını at və öküz arabalarına yükləyib Göyçaya sığınmışdılar. İsmayıllının Hacıhətəmli kəndindən Ağası Ağasıyev də böyüklərindən, ağsaqqallardan bu savaşları, qəhrəmanların necə şəhid olduqları haqqında hekayələri dinləyərək böyümüşdü:

"Babamın, nənəmin anlatdıqlarına görə, bütün kənd əhalisi ermənilərdən canlarını qurtara bilmək üçün Göyçaya doğru qaçırlarmış. İstifadə edə biləcəkləri əşyalarını atlara, arabalara toplayıb, qoyun və inəklərini də qabaqlarına qatıb, kənddən qaçmışlar. Göyçayın yaxınlığında indiki asfalt yolun yerləşdiyi yerdə türk əsgəri ilə qarşılaşmışlar. Əsgərlər onlara "Biz düşmənlə savaşmağa gedirik. Kəndinizə, ev-eşiyinizə, ailənizə yenə qayıdacaqsınız. Heç bir şeydən qorxmayın" demişlər. Ermənilər buralardan qovulduqdan sonra onlar da evlərinə qayıtmışlar. Türklərdən biri burada şəhid olmuşdur. Onu öldüyü yerdəcə basdırmışdılar." (Şəxsi arxiv).

Sovet İttifaqı dövründə böyük bir mədəniyyət təxribatı aparılmışdı. İnsanların öz keçmişi ilə bağlarını qoparmaq istəyirdilər. Ancaq insanların ruhundan və yaddaşından tarixi silib atmaq, aparılan təbliğatlara rəğmən asan olmurdu. Hacıhəsənli kəndindəki məscid də Sovet dövründə bağlanmışdı. O dövrdə bəzi böyük şəhər mərkəzlərində bir-iki məscid açıq saxlanılırdı.

"Sovet dövründə İsmayıllının məscidi bağlanmışdı. Amma Göyçay daha böyük olduğu üçün məscidi açıq imiş. Babam cümə günü kənddən çıxıb, bəzən atla, bəzən də piyada gedərək bu məsciddə namaz qılarmış. Yenə bir gün cümə namazına gedərkən görmüşdür ki, buradakı türk qəbrinin üzərində bir ağac parçası basdırılmışdır. Ətrafında hasarı yox imiş. Mal-qoyun ayaqlayırmış. Atam məzarın ətrafını hasara almışdır. Bir müddət sonra baş hissəyə qoyulan ağac çürümüş və atam onun yerinə böyük bir daş gətirib qoymuşdur. Oradan hər gəlib-keçəndə ona dua edir və Quran oxuyur və məzarın ətrafını təmizləyirmiş." (Şəxsi arxiv).

Ağası bəy təhsilini davam etdirə bilmək üçün qonşu kəndə gedib-gələrkən Mustafa Çavuşun məzarının qarşısındakı yoldan keçmək məcburiyyətində qalırmış. Böyüklərindən öyrəndiyi qədərilə hər oradan keçəndə şəhid Mustafa Çavuşa hörmət və ehtiram göstərirmiş.

"Bizim kənddə orta məktəb yox idi. O üzdən 48-52-ci illərdə Bığır məktəbində oxudum. Hər həftə kənddən çıxıb bu yolu keçər, Bığıra məktəbə gedər, həftənin sonunda təkrar evə ailəmin yanına gəlirdim. Bu gediş-gəlişdə atamın anlatdıqlarını xatırlardım. O illərdə bizə dini bilgi və dua öyrədilməsi qadağan idi. Ancaq atam bizə [Bir türk qəbri var, oradan keçərkən "bismillah" deyin, "Allah rəhmət eləsin" deyin] deyə tənbeh edərdi. Biz də gedib-gələrkən bildiyimiz duaları oxuyardıq". (Şəxsi arxiv).

Türk Silahlı Qüvvələr Attaşeliyi Mustafa Çavuşun yatdığı məzarı da kəsmə daşlarla inşa etdirdi və məzara dəmir barmaqlıqlardan qapı düzəltdirdi.

Ağası bəy istər gənc, istər yaşlı olsun, hər kəsin öz keçmişinə hörmət və ehtiram göstərməsinin zəruri olduğunu bildirir. Edilən yaxşılıqların, yardımların heç bir zaman unudulmayacağını söyləyir:

"Bizim ağsaqqalların dediyinə görə, türk əsgəri bizim köməyimizə gəlməsəydi, ermənilər burada yaşayanların hamısını qıracaqmış. Onlar gəlib buraları düşmənlərdən qurtarmışdır. Ona görə biz eyni qandan gəldiyimiz türk xalqına minnətdarıq. Onların ölənlərinə rəhmət, qalanlarına can sağlığı diləyirik." (Şəxsi arxiv).

Yolumuz İsmayıllıya aid olan Hacıhətəmli kəndinə düşdü. Rus bolşevikləri və erməni daşnakları bölgədə yaşayan erməni və rus kəndlərinin də yardımı ilə Göyçaya bir basqın təşkil etmişdilər. Türk Qafqaz İslam Ordusunun qəhrəmanları bu basqını geri oturdaraq, irəliyə doğru hərəkətə keçmişdilər. Bu təqib əsnasında şəhid olan iki igid Mehmetçik şəhid olduqları yerdə qanlı libasları ilə dəfn edilmişdi. Hacıhətəmlidə yaşayan kəndlilər də o tarixdən etibarən vəfat edən yaxınlarını müqəddəs insanlar olaraq qəbul etdikləri şəhidlərə qonşu olsunlar deyə bu qəbirlərin ətrafındakı sahəyə dəfn etməyə başlamışdılar. Kənd qəbiristanlığının yeri də beləcə dəyişmiş və yerli əhali qucaq-qucağa yatan iki igidin ətrafını müqəddəs bir məkana döndərmişdi. Beləcə şəhidlərin məzar yeri də itirilməkdən qurtarılmışdı. Burada yatan qəhrəman şəhidlərin də adları bilinmir... (Foto: Şəxsi arxiv).

Türk Silahlı Qüvvələri Hacıhətəmli şəhidliyini də yenidən abadlaşdırdı. Şair demişdi:

*"Bayraqları bayraq yapan üstündəki qandır,*
*Torpaq, əgər uğrunda ölən varsa, vətəndir".*

Bu şeir şəhidlərin məzar daşına yazıldı və ətrafdan gəlib-keçənlərə o torpaqların hansı şərtlərdə vətən olduğunu anlatmaqdadır.

Qaraməryəm-Mollaishaqlı və Bığır qəsəbələrinə gedən yolların kəsişdiyi yerdə bir abidə yüksəlir. Yolun düz başında yerləşən abidənin hazırlanmasında türk mədəniyyətinin incə zövqünü əks etdirən gözəl bir memari üslubdan istifadə olunmuşdur. Abidə Göyçay bölgəsində erməni daşnakları və rus bolşeviklərliyə gedən qanlı vuruşmalarda həyatını itirənlərin xatirəsini yaşatmaq üçün ucaldıldı. Qəhrəman Türk Silahlı Qüvvələri bu abidəni də Mərdəkan, Acıdərə və Şəkidəki kimi eyni memari üslubda, eyni xüsusiyyətdə və eyni materiallarla inşa etdirdi... Ay ilə ulduz ağ mərmərdən, sütun isə qranit daşdan düzəldildi... (Foto: Şəxsi arxiv).

Göyçay savaşında torpağın qara bağrına düşən qəhrəmanların xatirəsini əbədiləşdirmək üçün düzəldilən şəhidliyin divarlarına mərmər kitabələr yerləşdirildi. Kitabələrə isə diqqətlə seçilən şeirlər qazılmış və ziyarətçilərin oxuması təmin olunmuşdur...

*"Basdığın yerləri torpaq deyərək, keçmə, tanı,*
*Düşün altındakı minlərcə kəfənsiz yatanı,*
*Sən şəhid oğlusan, incitmə, yazıqdır, atanı,*
*Vermə, dünyaları alsan da, bu cənnət vətəni."*

Türk dastanları göy üzünü Oğuz xanın çadırı, günəşi də onun tuğuna bənzədirlər. Orxondakı Göytürk kitabələrində də bu anlayış mövcuddur. Bilgə Kağan kitabəsində yer ilə göy arasındakı insanları idarə etsinlər deyə, Göy Tanrının İstəmi Xan ilə İl Bilgə Xatunu vəzifələndirdiyindən söz edilir. Şəhidliyə qoyulacaq kitabə də bu anlayışın bir davamı xarakterində və diqqətlə hazırlanmışdır...

*"Göy qübbənin altında yatar qanlar içində,*
*Ey yolçu, bu torpaqlar üçün canı verənlər.*
*Haqqın bu vəli qulları daş türbəyə girməz,*
*Qüfrana bürünmüş, yalnız "Fatihə" bəklər."*

Türk Qafqaz İslam Ordusu Azərbaycandan qatılanlarla birlikdə Göyçay, Qaraməryəm və Kürdəmir ətrafındakı vadilərdə və təpələrdə 13 zabit və 235 əsgərini şəhid verdi. Ancaq onların məzarları bu gün haradadır, bilinmir. Keçən zaman içində qeyb olmuş, Sovet İttifaqı dövründə tamamən dağıdılmışdır.

**6.Azərbaycanın cənub bölgələrindəki savaşlar:**

***Salyan və Bankə ilə ətrafının düşməndən təmizlənməsi:*** Kür çayı Şərqi Anadoluda Ərzurum yaylalarından başlayır. Yüksək dağlardan fışqıran bulaqlardan, çeşmələrdən bəslənir, suyu boldur. Dərin vadiləri aşarkən coşur, çağlayır və şırıl-şırıl axır. Gürcüstandan keçərək Azərbaycana çatır. Qardaşı Araz çayı ilə Sabirabad yaxınlarında qucaqlaşır, həsrətə son verir və coşquyla Xəzər dənizinə qovuşur. Anadolunun sevgisini, məlahətini, havasını, ruhunu, türklərin təmkinliliyini alır, Xəzər dənizinə və ətrafına daşıyır, oradakı insanlarla qucaqlaşdırır.

Salyan və ətrafına Muğan bölgəsi deyilir. Muğan düzü ucsuz-bucaqsız bir ovadır. Azərbaycanın taxıl anbarıdır. Kür çayı keçdiyi torpaqlara və ətrafdakı kənd təsərrüfatı sahələrinə həyat verir. Kür çayı Muğan düzündə sakitləşir, sərtliyindən əsər-əlamət qalmır. Kür çayı dərin və suyu boldur. Çay gəmilərinin səyahəti üçün uyğundur. Birinci Dünya müharibəsi illərinin ölçülərinə görə orta böyüklükdəki hərbi gəmilər və balıqçı qayıqları Kürdə rahatlıqla hərəkət edə bilirdilər.

Bakıdakı erməni daşnaklarının və rus bolşeviklərinin qurduğu hökumətə bağlı olan silahlı qüvvələr dəmir yolu boyunca irəliləyərək Türk Qafqaz İslam Ordusunun mərkəzi olan Gəncə üzərinə yeriməyə qərar vermişdilər. Bunun üçün də əvvəlcə Yevlaxda Kür çayı üzərindəki iki sahili birləşdirən tarixi körpünü kəsib, bölgəni nəzarət altına almaq istəyirdilər. Göyçaya qədər də irəliləmişdilər. Ancaq qəhrəmanlar Qızıl Ordu qüvvələrinin qarşısını Göyçayda kəsdilər. Erməni

daşnakları və rus bolşevikləri burada heç gözləmədikləri ağır bir məğlubiyyətlə qarşılaşdılar. Şose və dəmir yolu boyunca irəliləmələri artıq mümkün deyildi.

Erməni əsilli Stepan Şaumyanın rəhbərlik etdiyi bolşevik 26 Bakı Komissarlarının, Türk Qafqaz İslam Ordusunun Kür çayının şərqinə keçməsini mütləq əngəlləmələri lazım gəlirdi. Fəqət quru hərəkatının bir nəticə verməyəcəyini də görmüşdülər. Göyçay, Qaraməryəm və Kürdəmir yaxınlarında savaş davam edərkən Kür çayının Xəzər dənizinə töküldüyü yerdən çay gəmiləri ilə girib şimala doğru irəliləyərək, türk ordusunu arxadan mühasirəyə almağı planlaşdırdılar. Yevlaxı və üzərindəki körpünü ələ keçirərək, ikmal yollarını kəsməyi də düşündülər.

Muğan düzündə yay mövsümü yeni başlamışdı. Muğan ovalarında sünbüllər boy atmışdı. Bakını işğal edən erməni daşnakları və rus bolşevikləri qış mövsümünü rahat keçirə bilmək üçün Muğanın arpa və buğdasına da göz qoymuşdular. Ancaq bundan daha önəmli səbəbləri də vardı. Azərbaycanın önəmli ziyalılarından, düşüncə adamlarından araşdırmaçı-yazar Azər Turan bu mövzuda baxışlarını dilə gətirir:

"Türk Qafqaz İslam Ordusu əgər o torpaqlara gəlməsəydi, təbii ki, bu gün Azərbaycan xəritəsində Cavad qəzasının, Neftçala və Salyan bölgələrinin adı olmayacaqdı. Çünki buraları tarixdən və xəritədən silmək istəyirdilər. Rus və ermənilər bunun üçün hərəkətə keçmişdilər. Bakıdan gəmilərlə yola çıxdılar və Kürün dənizə töküldüyü yerə getdilər. Kürdən Qaraqaşlıya qədər, Salyan ərazisinə qədər, sahilyanı bütün kəndlərdə qətl törədərək irəliləmişdilər." (Şəxsi arxiv).

Bəs, ermənilər, durduğu yerdə özlərindən olmayan insanları hansı səbəb üzündən öldürürdülər? Sivil insanlara niyə təcavüz edirdilər? Azər Turana görə, ermənilərdəki bu davranış formasının uzunca bir tarixi keçmişi var. Və bu qəzəbin, kinin 1990-cı illərdə Xocalıda, Qarabağda bir daha ortaya çıxdığını bildirir:

"1918-ci ildə Muğan bölgəsinin Cavad qəzasında baş verən hadisələrə baxsaq, ermənilərin bu torpaqlarda törətdiyi gerçək bir soyqırımdır. Yəni o tarixlərdə törətdikləri qətliamlar bu günün Xocalı mənzərəsinə yalnızca bir hazırlıq mahiyyətindəydi. O günkü bir başlanğıc idi. Nə mənada desəniz, bizim bu gün gözümüzün önündə yalnız Xocalı var. Əhalisi ilə, insanı ilə məhv olmuş bir Xocalı var qarşımızda. Ermənilərin çirkin üzü və təcavüzkarlığı var. Amma 1918-ci ilin iyun ayında ermənilər Cavad qəzasının Uzunbabalı kəndini tamamilə tarixdən silib atmışdılar. Yəni hər tərəfi yandırıb, kəndi xarabalığa çevirmişdilər. Qaralı kəndində bütün əhalini, xüsusilə kişiləri, silahsız kişiləri, bir sözlə bütün başıpapaqlıları[55] qətlə yetirmişdilər. Ümumiyyətlə, onların törətdiyi fəlakət, onların törətdiyi faciə xalqın yaddaşında bu günə qədər yaşayır. Erməni vəhşətini heç bir vaxt unutdurmur. Amma bu məsələnin başqa bir tərəfi də var, Qafqaz İslam Ordusunun buralara gəlişini və buralarda müzəffər döyüşlərini də xatırladır. Sözün

həqiqi mənasında bir cihad səviyyəsində yüksəlmiş döyüşlər və bu döyüşlərin sonunda da bu torpaqların birlik və bütünlüklə qurtuluşa nail olması da məsələnin bir başqa tərəfidir." (Şəxsi arxiv).

Bakıdan yola çıxan Qızıl Ordu qüvvələri 2 mindən çox piyada, 12 pulemyot, 6 top, iki zirehli və dörd nəqliyyat gəmisi ilə 26 iyun 1918-ci ildə ölkənin cənubunda Kür çayının Xəzərə qovuşduğu Bankə qəsəbəsinə çatdılar.[56] Bu hərbi dəstənin 200-ü rus, 300-ü İranlı müsəlman və qalanı da ermənilərdən ibarət idi. Zirehli gəmilərdə iki top və iki də pulemyot var idi. Gəmilərlə Kür çayına girən piyadalar şimala doğru irəliləməyə başlamışdılar. Bankə ətrafındakı qəsəbə və kəndlərdə yaşayan malakan və xaxol deyilən rusların da qatılması ilə sayları gedərək artırdı. Keçdikləri yerlərdə sahilin hər iki yanında yerləşən türk evlərini talan edir və yandırırdılar. Düşmən əsgəri bu şəkildə Salyana doğru irəliləyərək, şəhərin üç kilometr cənubuna qədər yaxınlaşmışdı.[57]

Salyanın ağsaqqallarından kərbəlayı Eyvaz Məmmədov o illərdəki hadisələrə şahid olan böyüklərindən eşitdiklərini belə anlatdı:

"Kür çayının sahilindəki kəndləri bir-bir yandırır, adamları qırırdılar. Onlar heç baxmırlar hansı tərəfdəndir, kimliyi nədir, qocadır, cavandır, hər kəsi öldürürlər. Kürün balaca bir qolu var, Ağquş çayı, əhali hamısı çayın o biri tərəfinə qaçır. Ermənilər bunları qıra-qıra gəlib, Beşlər kəndini keçirlər. Ərəbqardaş kəndində bir molla Quran oxuyurmuş. Quran oxuyan molla qaçmır. Deyirlər ki, sən də qaç. O isə deyir ki, mən Quran oxuyuram, mənə nə edəcəklər... Ermənilər oraya çatdığı zaman onu başından bir güllə ilə vururlar, başı düşür Quranın üstünə. Sonra gəlirlər Qaraqaşlının o tərəfində Beşlərin bəri yanında bir qayalıq var, yüksək bir yerdir, orada dururlar." (Şəxsi arxiv).

Araşdırmaçı Azər Turan bölgədəki rus bolşevik və erməni daşnak hərbi qüvvələrinin sayının bilinəndən daha artıq olduğunu söyləyir:

"Ermənilər buraya 6 min nəfərlik bir qoşunla gəldilər. Tarixi mənbələrdə 2 min deyilir, amma onun 1500-ü erməni idi. O qoşunların arasında Şahsevənlər deyilən, tarixi mənbələrdə əcəmlər, ya da farslar deyilən 300 nəfər ermənilərə yardım edirdi. Qalan qüvvələr isə yerli, bədməzhəb, kommunist qüvvələr idi. Buralardakı rus və ermənilər də onlara qoşuldu." (Şəxsi arxiv).

Erməni daşnakları və rus bolşevikləri o illərdə böyük-kiçik, yaşlı-gənc, qadın-kişi fərqi qoymurdular. Onlara görə qarşılarına çıxan insanların öldürülməsi üçün türk əsilli olması kifayət idi. Salyanlı ağsaqqallar ermənilərin və rusların 1918-ci ildə törətdiyi qətliamı anladarkən bu gün belə kövrəlir, qəzəblənirlər. Onların gözləri yaşla dolur, ağlayırlar.

Sürahi, hələ oyun oynayan dövründə, 6-7 yaşlarında kiçik bir qızdı. Uşaqlığının ən gözəl günlərini yaşayırdı. Ətrafda olan-bitəndən xəbərsizdi. Həmyaşıdları ilə oyunlar oynayaraq, dünyanı qavramağa, həyatı yeni-yeni

öyrənməyə çalışırdı. Bir gün gözlərinin qarşısında dostlarını öldürdülər. Qolunun biri artıq yerində yox idi. Qatillər dirsəyindən kəsib, əlinə verdilər. Böyük-böyük adamlar dostlarını niyə öldürdü, qolundakı izah edilməsi mümkünsüz olan acının, ürəyindəki o dəhşətli qorxunun, uşaq ruhundakı fırtınaların səbəbi nə idi, bilmirdi...

Kiçik Sürahinin yaşadıqlarını kərbəlayı Eyvaz Məmmədov belə anlatdı:

"Rəhmətlik Sürahi xala mənə belə anlatmışdı: Biz 12 nəfər uşaq idik. Gördük ki, ermənilər gəlir, qaçdıq bir təpəyə. Orada isti su var idi, onun yanına qaçdıq. Oraya çatmazdan əvvəl baxdım daldan 5-6 nəfər adam gəlir, bizi çağırırlar. Bizim dilimizdə danışırdılar. Biz də nə bilək, elə bildik öz adamlarımızdır. Orada dayandıq, yanımıza gəldilər. Silahlı idilər, uşaqların hamısını öldürdülər və toplayıb yandırdılar. Mənim qolumu dirsəkdən kəsdilər. Qan çox axıb ölməyim deyə üst tərəfini bağladılar. Sonra kəsilən əlimi o biri əlimə verdilər. Dedilər, kənddəkilərə get söylə, de ki, baxın, ermənilər adama belə zülm edirlər. O vəziyyətdə gəldim çıxdım kəndə." (Şəxsi arxiv).

Salyan, Bankə və Neftçala bölgəsində yaşayan türklər vəziyyəti Gəncəyə bildirdilər. Türk Qafqaz İslam Ordusu bu vəziyyətə seyirçi qala bilməzdi. Dərhal hərəkətə keçdi. Cavad dəstəsindən minbaşı Nazim Ramazanovun komandasında bir piyada bölüyü, bir pulemyot dəstəsi, bir dağ topu və 73 atlıdan ibarət milis süvari alayı, 26 iyun 1918-ci ildə Qaraağacdan paroxodla Salyana doğru hərəkət etdi.[58] Rus çarlığı ordularında xidmət edərək minbaşı rütbəsinə qədər yüksələn və daha sonra Türk Qafqaz İslam Ordusu sıralarına qatılan minbaşı Nazim Ramazanov düşmənin Salyana hələ çatmadığını görüncə şəhərin cənubunda 3 kilometr məsafədə Cavad kəndi ətrafında müdafiə xətti qurdu. Türk dəstələrinə bölgədə yaşayan türklərdən də qatılanlar oldu. Minbaşı Nazim bəy ilk olaraq 60 nəfərlik bir milis qüvvəsini bolşeviklərin üzərinə göndərdi. Erməni daşnakları və rus bolşeviklərindən ibarət qüvvələr 28 iyunda Surra kəndi yaxınlarında bir türk dəstəsinə hücum etdilər, ancaq bir uğur əldə edə bilmədilər. Rus bolşevikləri və erməni daşnakları 29 iyunda türk qüvvələrini sağ tərəfdən mühasirəyə almaq istədilər. Türk süvariləri düşmənin Surra və Qarabucaq kəndləri ətrafındakı bu təşəbbüsünü də uğurla geri oturtdu. Tərəflər arasındakı qarşılıqlı taqətdən salma hücumu 2 iyula qədər davam etdi. Türk birlikləri sayca üstün olan düşməni bu müddətdə çox pis əzdi, böyük zərər verdirdi. Onların Salyana girməsini əngəllədi. Göyçayda yerləşən 26-cı tabor komandiri minbaşı Əhməd Həmdi bəy Cavad dəstəsi və minbaşı Nazim Ramazanovun yardımına göndərildi. Türk süvari alayı 2 iyulda hücuma keçərək, düşməni pərişan bir vəziyyətdə cənuba doğru çəkilməyə məcbur etdi. Ancaq bu təqibdə düşmən qüvvələri məhv edilə bilmədi.[59]

**Kərbəlayı Eyvaz Məmmədov:**

"Burada Qaraqaşlı kəndinin yanında bir kanal var. Salyanlıların sevib, saydığı bir ağa varmış. Əhalini bu kanalın o tərəfində toplayıbmış. Adi tüfənglərlə

onların qarşısına çıxmışlar. Ancaq bir şey edə bilməmişlər. Ağa dərhal türklərə xəbər vermişdir. Türklər də yardıma gəlmiş və yanlarında da bir top varmış. Ermənilər isə Kür çayında gəmidə durub Salyana uzaqdan top atəşi açarmış. Türk topçuları elə bir mərmi atmışdır ki, gəminin tüstü çıxan yerindən içəri girmiş və partlayıb hamısını məhv etmişdir. Ruslar, Azərbaycanda belə atış atan ola bilməz, demişlər. Onlar da anlamışdır ki, bunlar türklərdir. Oradan da çəkilib getməyə başlamışlar. Çəkilərkən də ətrafdakı kəndləri dağıda-dağıda getmişlər."[60]

Salyan savaşında türklərdən 13 əsgər şəhid olmuş, 17 əsgər də yaralanmışdı. Düşmən qüvvələri isə 132 ölü və 600 də yaralı vermişdi. 30 sandıq rus piyada cəbbəxanası, bir səyyar mətbəx ilə kabel və s. ləvazimat da ələ keçirilmişdi.[61]

Salyan bölgəsindəki ikinci toqquşma 12 iyul 1918-ci ildə rusların yaşadığı Yeni Vasilyevka xəttində meydana gəldi. Düşmənin 400 piyada və 50 süvarisi ilə əlində 12 makinalı tüfəng, 3 top və 2 zirehli gəmi var idi. Hacıqabul qəsəbəsində olan iki düşmən təyyarəsi də hər gün havaya qalxaraq türk qoşunlarının üzərinə bomba yağdırırdı. Türk qoşunları isə Salyan ilə Qaraqaşlı arasında müdafiə xətti qurmuşdu. Ərazinin düz olması səbəbindən Kür çayındakı gəmilər və havadan açılan atəşlə davamlı bombardman altında olurdular.

Qızıl Ordu qüvvələri top atəşi dəstəyi altında türk mövqelərinə qarşı üç-dörd dəfə hücuma keçdilər. Ancaq hər dəfəsində ağır itkilər verərək geri çəkilmək məcburiyyətində qaldılar. Xıllı kəndi ətrafında da davam gətirə bilməyən düşmən qüvvələri bu dəfə də Bankədə toplanmağa başladı.

Salyan hərbi dəstəsi minbaşı Əhməd Həmdi bəy komandasında, Yeni Vasilyevka-Bankə bölgəsində yerləşən erməni daşnak və rus bolşevik qüvvələrinə 12 iyulda bir basqın etdi. Düşmənin böyük bir hissəsi burada məhv edildi. Gəmilərə çatıb canlarını qurtara bilənlər isə Xəzər dənizinə doğru qaçmağa çalışdılar. Bankə ətrafında quruda olan düşmən əsgərlərinə də basqın edildi və böyük bir çoxluğu məhv edildi. Canlarını qurtara bilən qana susamış quldur dəstələri buradan düz Bakıya getdilər.[62]

**Azər Turan:**

"Erməni gəmisi Qaralı kəndi ətrafından Salyan tərəfə gedirdi. Demosdin gəmisi Bakıdan gəlmişdi. Bu, Əli Bayramovun idarə etdiyi gəmi idi. İçində ermənilər var idi. Gəmi Qaraqaşlı istiqamətində gedirdi. O tərəfdə olan türk topçusu gəmiyə dəqiq atəş açır, topun mərmisi gəminin bacasından içəri düşür və gəmini məhv edir."

Qızıl Ordunun gəmi və qayıqlarının Kürə bir daha girməsinin qarşısını almaq üçün çayın ağzı köhnə pantonlarla qapadıldı, bəzi köhnə gəmilər də batırıldı. Düşmənin sahilə çıxmasını əngəlləmək və bölgədəki asayişi təmin etmək üçün də minbaşı Nazim Ramazanov bir bölük piyada, iki rus pulemyotu və bir topla

birlikdə bölgədə vəzifələndirildi. Geri qalan qüvvələr 15 iyulda Palat-Toqay bölgəsinə çəkildi.[63]

Salyan müharibələrində Türk Qafqaz İslam Ordusuna bağlı kiçik bir hərbi dəstə özündən say, silah və sursat baxımından çox üstün vəziyyətdə olan daşnak və bolşevikləri bir daha məğlub etmişdi. Hacıqabuldakı iki düşmən təyyarəsi hər gün Qaraağac üzərində uçaraq türk qoşunlarını bombalayırdı. Salyan-Bankə-Neftçala bölgəsindən qovulan düşmən qüvvələrindən dörd pulemyot, 63 piyada tüfəngi, 100 sandıq piyada və top mərmisi, 7 kiçik qayıq, bir miqdar benzin, duzlu balıq kimi bəzi əşya və yemək ələ keçirilmiş, 31 nəfər də əsir alınmışdı. Türk hərbi qüvvələrindən isə ikisi milis olmaq üzrə 11 əsgər şəhid olmuş, bir zabit ilə 13 əsgər yaralanmışdı.[64]

Salyan və Bankə ətrafında gedən müharibənin nəticəsində bölgədə yaşayan türklər böyük bir qətliamdan qurtarılmışdı. Rus bolşevik və erməni daşnak qüvvələrinin Kür çayı boyunca irəliləyərək, Yevlax şəhərini ələ keçirmələri və türk ordusunu arxadan mühasirəyə almaları əngəllənmişdi. Bolşevik Qızıl Ordu hərbi qüvvələrinə qarşı cəbhə xəttini bütöv tutmaqla vəzifələndirilən 5-ci Qafqaz piyada diviziyası düşmən hücumlarına qarşı Azərbaycanın hər tərəfinə yetişməyə çalışırdı. Diviziyanın tərkibi isə təxminən 5800 nəfərdən ibarət idi. Bu qədər az sayda hərbi Qüvvənin geniş bir coğrafiyada savaşması, hərb sənəti baxımından mümkün deyildi. Buna rəğmən Mehmetçik düşmənin Azərbaycanda törətdiyi qətliamı dayandırmaq və işğala son vermək üçün fövqəlbəşər bir cəhd göstərmişdi. Türk ordusu Göyçay savaşında əvvəlcə böyük bir sarsıntı keçirmiş, sonra girdiyi bütün savaşlarda Qızıl Ordu qüvvələrinə qarşı həmişə qalib gəlmişdi.

Mehmetçiklər Anadoludan qopub gəldilər. Soydaşlarının imdadına yetişdilər. Ancaq təəssüf ki, Salyan və Neftçala bölgəsində də bəzi qəhrəmanlar həlak oldular. Bir gül bağçasına girərcəsinə şəhadət şərbətini daddılar.

Salyan şəhər qəbiristanlığında Türk Qafqaz İslam Ordusunun igidləri yatır. Bu məzarlıqda yatan qəhrəmanlardan birinin rütbəsi naməlumdur. Fəqət topçu zabiti Ömər bəy olduğu bilinir. Yerli xalq Ömər bəyə "paşa" ünvanını layiq görmüşdür. Qəbir daşına bir top rəsmi yazılmış, ölüm tarixi olaraq isə 1337, yəni 1918-ci il işlənmişdir. Qərənfillərlə süslənən məzar abidəsinin üstünə ay-ulduz ilə süslənmiş qara qranit daşdan bir də kitabə yerləşdirilmiş, altına da "Bu qəbir 1918-ci ildə vəfat etmiş Ömər paşanındır" sözləri yazılmışdır.

Türklər özlərinə edilən yardımı unutmazlar, qədir-qiymət bilən bir millətdir. Qafqazda və Azərbaycanda yaşayan türklər də Anadoludakı qardaşları kimidir. Salyanlılar öz vətəninin önəmli bir hissəsi işğal altında olmasına rəğmən 1918-ci ildə Qafqazda yaşayan qardaşlarının imdadına çatan qəhrəman Mehmetçiyi heç bir zaman unutmadılar.

Sovet İttifaqı dövründə Qafqazda yaşayan türklərin hafizəsini silmək istədilər. "Türk" kəlməsinə qadağa qoydular. Milli kimliyi ilə yaşamaq istəyən türklərə böyük təzyiqlər göstərdilər. Acımasız işgəncə və qorxutma metodları tətbiq etdilər, bir çoxunu sürgünə yolladılar. Bunlara rəğmən müasir marksist rus çarları millətin ruhundakı, hafizəsindəki tarixi qazıyıb yox edə bilmədilər.

Hafizəsindəki qeydi silinməyənlərdən biri olan, Salyanın dünyagörmüş ağsaqqallarından Kərbəlayı Eyvaz bəy o qorxu illərini bu sözlərlə dilə gətirir:

"O illərdə mən komsomolun katibi idim. Orada məndən başqa bir dostum da var idi. Getdim onunla danışdım, dedim ki, türkün qəbir daşları yerə yıxılmışdır, heç kəs baxmır, təmir edək. Bir saat keçmədi ki, bütün rayon əhalisi ayağa qalxıb üstümə gəldi. Sonra məni sorğuya çəkdilər, dedilər ki, "sən türklərin agentisən?". Dedim nə agent, mən türkəm. Bu etdiyiniz nədir, belə şeymi olar? Getdim onların böyüklərinə dedim ki, dostumu çağırın gətirin, o nə danışdığımızı söyləyər. Onu da tapıb gətirdilər. Mən ona "daş böyrü üstə yıxılıb, onu təmir edək demədimmi?". Sonra başa düşdülər ki, pis bir niyyətimiz yoxdur, bizə heç nə eləmədilər. Uşaqlar da o daşı yenidən yerinə qoyub bərkitdilər. Sonra 1957-ci ildə gəldik buraları təmizlədik. Bələdiyyə idarəsinin rəisi vardı, o mənim uşaqlıqdan bəri dostum idi. Ondan xahiş etdim ki, o məzarın üstünə mərmər qoyaq və üstünü də yazdıraq. Sonra da hər kəsdən xahiş etdim, xəbər verdim, onlar da gəldilər təmir etdilər. Amma bu türklərin Azərbaycana gəlməsi haqqında, Zülfəli İbrahimov vardı, onun kitabında hamısı geniş yazılmışdı. Ermənilərin türklərə qarşı törətdiyi qırğınlar haqqında o kitabda ətraflı yazılıb. İndi yazılanlardan danışmıram, o yazıb 1935-ci ildə. Həmin işdən də müdafiə edib elmlər doktoru adı alıb. 1937-ci ildə qorxusundan iflic oldu. Çolaq idi deyə Sibirə sürgün etmədilər və həbs də etmədilər. Yoxsa dərhal içəri basar, Sibirə göndərər, öldürərdilər. Bizdə Yusif Kazımov var idi, o da türk qəbirlərinə qayğı göstərərdi. O,1924-cü ilə qədər Türkiyə tərəfdarı idi. Müsavat partiyasının üzvü olmuşdu. 1937-ci ildə öldürmək istədilər, amma ölmədi. Sonra Sibirə sürgünə göndərildi."

Şəhid topçu zabiti Ömər bəyin məzarından bir az irəlidə dörd qəhrəman da yatır. Salyan qəbiristanlığında əbədi yuxuya getmişlər. Onlar da Qafqazın imdadına çatanlardandır. Böyük Turan dövləti yolunda həlak olanlardandır. Rus bolşevik və erməni daşnak ordusunun Qafqazdakı türkləri öldürməsinin qarşısını alanlardandır. Salyan xalqı bu qəhrəmanların xatirəsinə də bir qəbir düzəltdirmişdir. Ad-soyadları bilinmir, ancaq salyanlılar onları ürəklərində yaşadırlar.

Salyanlılar erməni və rusların törətdiyi vəhşətdən, qırğından, zülmdən özlərini qurtaran bu adsız qəhrəmanları qucaqlayıb, bağırlarına basdılar. Sovet İttifaqı dövründəki təzyiqlərə rəğmən qəbirləri qorudular. Şəhidlərin cənazələrini şəhər qəbiristanlığında dəfn edərək yerlərinin itməsinin qarşısını aldılar.

Azərbaycan müstəqilliyini qazandıqdan sonra salyanlılar da keçmişə sahib çıxmanın ən gözəl nümunələrini göstərməyə başladılar. Bu coğrafiyada yaşayanlar Anadoludakı insanlarla eyni soydan gəldiklərini artıq açıqca və rahatlıqla dilə gətirə bilirlər. Dili bir, dini bir, qanı bir millətin övladları olduqlarını hayqıraraq dilə gətirməkdən çəkinmirlər. Yüksələn bayrağın və müstəqilliyin qiymətini çox yaxşı bilirlər. Bu duyğuların daşıdığı mənanı, müstəqilliyini itirməyən və vətəni düşmən ayaqları altında əzilməyən insanlar bəlkə anlamaqda çətinlik çəkə bilər. Fəqət o qorxunc hadisənin başa gəlməməsi üçün azadlığın, müstəqilliyin, vətən və torpağın qiymətini, al bayraq altında yaşayarkən önəmini bilmək lazım gəlir.

Salyanlılar vətənin və bayrağın qiymətini artıq çox yaxşı dərk edirlər. Çünki onlar bu xoşbəxt dəyərləri keçmişdə itirmişdilər. Bunun acısını ürəklərində duymuşdular. İndi yüksələn bayrağın bir daha enməməsi üçün səy göstərirlər. Salyan İcra Hakimiyyəti ictimai-siyasi şöbəsinin müdiri Şəmsəddin Əbilov yerli idarəçi olaraq şəhidlərə lazım olan qayğını göstərdiklərini anladır:

"Salyandakı iş adamları şəhidlərin məzarında bərpa işləri aparmaq üçün bələdiyyə rəisinin yanına getdilər. Bələdiyyə rəisi ilə birlikdə icra başçısı Vaqif bəyə durumu anlatdılar. Vaqif müəllim də bu təklifi həyəcanla qarşıladı və qəbirlərin baxımı və bərpası və ətrafının təmizlənib, düzəldilməsinin öz vəzifəsi olduğunu bildirdi. Əvvəlcə qəbirlərin üstlərindəki yazıları oxuması üçün Salyan və ətrafında elminə, biliyinə hər kəsin hörmət etdiyi alim və etnoqraf Rəşid müəllimə müraciət etdik. Qəbir daşlarının üstündə olan yazılar ərəb dilində yazılmışdı. Bu yazılar zamanla itməyə başlamışdı. Yazıların fotolarını çəkdikdən sonra Rəşid müəllim onun üstündəki yazıları aydınlaşdırdı. Rəşid müəllim uzun və yorucu bir çalışmadan sonra dedi ki, qəbir üstündə "Bu qəbir Allahın rəhmətinə getmiş Ömər paşanındır. Vəfatı 1337 hicri, 1918 miladi" sözləri yazılıb. Biz bunları yenidən düzəltdikdən sonra 31 mart 2002-ci ildə Azərbaycan türklərinin soyqırımı günündə burada bir mərasim təşkil etdik. Bütün Salyan xalqının, sakinlərinin iştirakı ilə böyük bir tədbir keçirdik. Salyan əhalisi olaraq türk paşası Ömər paşaya olan məhəbbətinə görə hamı ürəkdən iştirak etdi. Mərasimdə çıxış edənlər atəşli sözlər söylədi. Türk qardaşlarımızın bizə göstərdikləri hörmət daxilində biz də onlara öz məhəbbətimizi və hörmətimizi göstərdik. Hal-hazırda Salyan İcra Hakimiyyəti və rəsmi dairələr, türk soyqırımı ilə bağlı olaraq, bu qəbiristanın girişində bir abidə qoyulmasına qərar verdik. Onun qoyulmasını, inşallah, başa çatdıracağıq. Qəbiristanlıqdakı digər qəbirlər də naməlum əsgərlərin, adsız qəhrəmanların, türk əsgərlərinin qəbridir. Bizim məktəblilər müəllimlərin nəzarəti ilə bu qəbirləri ziyarət edirlər. O qəbirlərin üstündə şeirlər oxuyur, ora gül-çiçəklər qoyurlar. Bütün Azərbaycan əhalisi kimi Salyan xalqı da türkləri heç bir vaxt unutmayacaq, onların qəbirlərini ziyarət edəcək."

Rus bolşevik və erməni daşnak qüvvələri Neftçala yaxınlarındakı Bankə ətrafında toparlanmağa çalışdıqları vaxt yeni bir basqınla dağıdılmışdılar. Bankə vuruşmalarında şəhid olan Mehmetçiklər Bankə qəbiristanlığında dəfn edildilər. Yerli ağsaqqallar burada yatan qəhrəmanları ziyarət edib, dua oxuyurlar. Bu ibadəti keçmişlərinə hörmətin bir ifadəsi olaraq mütləq yerinə yetirdiklərini bildirirlər.

**Azər Turan:**

"Sovet ideologiyası insanların beynini zəhərlədi. Əslində rəhbərlər keçmişdən bəri zaman-zaman gəlib bu qəbirləri ziyarət etsəydilər, onlara ehtiramlarını bildirsəydilər, onlar bu gün belə vəziyyətə düşməzdi, üstündə nişan olardı, işarə bilinərdi. Uzun illər bu qəbirlər xalqa düşmən qəbri kimi, istilaçılar olaraq tanıdıldı. İndi bu günlərdə xalqın yaddaşında dəyişiklik yaşanır, insanlar başqa cür düşünür. Mən sizə bir söz deyim, o torpaqlarda türk millətinin müqəddəsliyi var. Bunu o mənada deyirəm ki, Ənvər paşa Türküstana o torpaqlardan getdi, Neftçaladan keçdi. Son səfərinə Neftçala torpağından gəmi ilə getdi. O orada bir gün qalmışdı. Xalqın yaddaşında, ruhunda bir Ənvər paşa abidəsi vardır. Xalqın yaddaşında bir Ramazan paşa abidəsi olub. Yəni Qafqaz İslam Ordusuna ruhani bir sevgi, bir bağlılıq vardır." (Şəxsi arxiv).

Bankə qəbiristanlığında doqquz qəhrəman yatır. Orada Neftçala İcra Hakimiyyətinin düzəltdirdiyi bir abidə var.

**Kərbəlayı Məşədi Mehman** (Bankəli ağsaqqal):

"Bu ermənilər Bakıdan zirehli gəmilərə minmiş, top-tüfəng və bir çox silahla gəlmişdilər. Gəlib buradan Kürə girmişdilər. Bunların niyyəti bu imiş ki, ta Yevlax şəhərinə qədər getsinlər. Yevlaxdan başı aşağı Kür qırağı camaatını qıra-qıra gəlsinlər."

Kərbəlayı Mehman bəy yerli ağsaqqallardan biridir. Dünyagörmüş, sözü-söhbəti yerində, hər kəsin hörmətini və heyranlığını qazanmışdır. Böyüklərindən öyrəndiklərini yeni nəsillərə anladır.

**Kərbəlayı Mehman:**

"Bu qəbiristanın tarixi 1916-cı ilə qədər gedir. Şəhidləri 1918-ci ildə bizim ağsaqqallarımız gətirib buraya dəfn etmişlər. Türklər bizi ölümdən qurtardı. Bizim babalarımızı, nənələrimizi rusun, erməninin əlindən qurtardı. Yuxarıda Allahın, aşağıda onların hesabına yaşayırıq. Onlar bizim üçün canlarından keçdilər."

Muğan ovasında şimal küləkləri bəzən sərt əsir. Qarşısına qatdığı nə qədər çör-çöp, zibil varsa Xəzər dənizinə tökür. Kür çayı boylarına gedən və oraya aid olmayan Qızıl Ordu artıqlarının taleyi də bu çör-çöp ilə eyni olmuşdu.

**Kərbəlayı Mehman:**

"Buralarda xəzri küləyi əsəndə zir-zibili aparıb Kürə tökür. Burada ermənilər özlərini tökdürdülər Kürə. Türklər də bizə dayaq olanda ürək ürəyi salamlar. Buralarda bir söz vardır: dildə ərəbdir, farsı şəkərdir, türk hünərdir (elmi

dili ərəbcə, şeir və ədəbiyyatda farsca, doğruluq, çalışqanlıq, mədəniyyət və namuslu olmaq isə türklərə aiddir). Türkün danışdığı bütün sözlər hamısı hünər üstündən, namus üstündən, qeyrət üstündən gəlir." Neftçala rəhbərləri və Bankə bələdiyyəsi səlahiyyətliləri qəbirlərin ətrafını yenidən bərpa etdilər. Qəbrin üstünə ay-ulduzu səliqə ilə yerləşdirdilər.

**Qabil Məmmədov,** ***Neftçala icra başçısının müavini:***

"Bundan sonra bu qəbrin qorunması, saxlanması üçün Bankə bələdiyyəsindən bir adam ayrıldı. O adam gəlib burada güllərə, çiçəklərə qulluq edəcək, abidənin qorunmasına nəzarət edəcəkdir. Sovet dövründə bizim burada olduğu kimi Azərbaycanın digər bölgələrində olan türk qardaşlarımızın qəbrinə də o qədər müsbət münasibət göstərilmirdi. O vaxtlar Sovet dövrü idi. İndi Azərbaycanın hər tərəfində xalq, icra başçıları və rəhbərlər bu işə ürəkdən can yandırırlar. Çalışırlar ki, bizi o vaxt ermənilərin əlindən qurtaran bu türk qardaşlarımızın abidələri, xatirələri gələcək nəsillərə çatdırılsın və gələcək nəsil başa düşsün ki, Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı həmişə davam edib və edəcək." Neftçala və Bankə ətrafında yaşayan qadınlar, gənc qızlar və uşaqlar atalarının imdadına çatanları unutmurlar. Sürahi xala və dostlarını daima xatırlayır, yaddaşlarında saxlayırlar. Evlərinin həyətlərində əlləri ilə yetişdirdikləri çiçəkləri qəhrəmanların qəbrinə bir ərməğan olaraq götürürlər.

**Azər Turan:**

"Bu qəbirlər bu torpağı qurtaran əsgərin, şəhidlərin qəbirləridir və adsız-soyadsızdır. Birinin atası rəhmətə gedəndə başına böyük bir abidə qoyar. Atası həyatda cəmiyyət üçün heç bir şey etməsə də, atasının qəbrini əbədiləşdirir, bu onun haqqıdır. Amma burada o insan ki, bu torpağı xilas edir, imanımızı xilas edir, namusumuzu, arımızı xilas edir, o insanın qəbrində bir başdaşı belə yoxdur. Ətrafı bərbad vəziyyətdədir. Və mən hansı haqla deyə bilərəm ki, mən uzun illər gəlib burada bir "Fatihə" vermişəm. Hamısı ayaqlar altında qalmışdı. Heç bir şey yox idi orada. Biz deyə bilərikmi ki, buraya hər zaman hörmətimiz olmuşdur. Xeyr!.. Keçmişin heç bir rəhbəri bunu deyə bilməz. Deyə bilməzlər... Elə şey olmadı. Amma xalqın yaddaşında, könlündə, insanların o kədərli xatirələrində bu möhtəşəm xatirə yaşayırdı. İnsanlar bu Qafqaz İslam Ordusunu böyük məhəbbətlə xatırlayırdılar. Böyük bir sevgi ilə yad edirdilər. /Ənvər paşa çıxdı qaladan, Allah, saxla onu sən bəladan/. İnsanlar bu mahnını hər yerdə oxuyurdular. "Ey gülü gülşən edən sərvi-rəvan Ənvər paşa" - bu sözlər o zamanlar Xıllı qəsəbəsinin küçələrində, döngələrində şüar kimi plakatlara yazılıb asılmışdı. O dövrün insanlarının yadında bunlar qalmışdı. Ancaq o demək deyildir ki, bolşevik idarəsi, sovet idarəsi sənə imkan verə, gedib qəbrin başında "Fatihə" verəsən. Bu, heç bir vaxt olmadı və ola da bilməzdi. Buna görə ayaqlar altında qaldı, itib getdi. Allahın böyük bir lütfüdür ki, o qəbirlər, nəhayət ki, tapıldı." (Şəxsi arxiv).

**7. Şamaxının düşmən işğalından qurtuluşu:**

**a.** Türk Qafqaz İslam Ordusunda yeni təşkilatlanma: Türk Qafqaz İslam Ordusu Göyçay ilə Salyan-Neftçala bölgələrindəki düşməni təmizlədikdən sonra iyul ayının ortalarında paytaxt Bakıya 130 kilometr yaxınlaşmışdı. Qarşılarında Ağsu təpələri və bundan sonra isə Şamaxı qəsəbəsi vardı. Ənvər paşa Nuru paşaya göndərdiyi əmrdə Bakının tezliklə düşmən işğalından qurtarılaraq hərbi hərəkatın sona çatmasını istəyirdi. Çünki Almaniya və Rusiyadakı bolşevik Sovet idarəsi hərbi hərəkatın dayandırılması üçün təzyiqlərini get-gedə artırırdılar.

Nuru paşa almanların müdaxiləsi qarşısında Osmanlı hərbi qüvvələrinin Bakı üzərinə yürüşünü gizləyə bilmək üçün yeni bir təşkilatlanmaya getdi. Əvvəlcə Şərq Cəbhəsi və ya Bakı Cəbhəsi Komandanlığı quruldu. Başına da Mürsəl paşa gətirildi. Hərbi qüvvələr iki qrupa ayrıldı. Şimal qrupu, kurmay yarbay Osman bəy komandasında Şamaxı üzərindən Bakıya hərəkət edəcəkdi. Şimal qrupunu təşkil edən hərbi dəstələrindən 10-cu Qafqaz alayına yarbay Səlim bəy, 13-cü Qafqaz alayına yarbay Əhməd Rza bəy və süvari minbaşı Zihni bəyin komandirlik etməsi qərarlaşdırıldı. Bundan başqa 25, 26 və 28-ci taborlar da ehtiyat olaraq vəzifələndirildi. Bakı üzərinə yeriyəcək əsl qüvvələrin isə Şimal qrupu olması qərarlaşdırıldı.[65] Cənub qrupuna da Azərbaycan türklərindən Həbib Səlimov komandirlik edəcəkdi. Bu qrup Müsüslü-Kürdəmir-Hacıqabul-Bakı dəmir yolu xətti boyunca cənuba doğru irəliləyəcək və qarşılarındakı düşməni təmizləyəcəkdi. Cənub Qrupu Komandanlığının tərkibində Müsüslü dəstəsi, 26-cı tabordan bir piyada bölüyü, bir süvari dəstəsi, 38-ci alayın 3-cü taboru, 27-ci tabordan iki piyada bölüyü, 5-ci Qafqaz piyada istehkam bölüyü ilə 2 top və bir zirehli qatar var idi.[66]

5-ci Qafqaz piyada diviziyasını möhkəmləndirmək məqsədilə iyul ayının 6-da Türkiyədən bir hərbi birləşmə yola salınmışdı. Bu birləşmədə 65 zabit və 2.475 sıravi var idi. Uzun bir yol gəldikdən sonra 38-ci alay iyul ayının ortalarında cəbhə xəttinə çatdı. Bu alayın 3 batalyonu müvəqqəti paytaxt olan Gəncədə qaldı. 2 batalyonu Müsüslü dəstəsinə qoşuldu, 1 batalyon da ehtiyatda saxlanıldı. Beləliklə, 38-ci alayın əsgərləri digər birliklərə paylandı. 38-ci alayın komandanı yarbay Səlim bəy Şimal qrupu Komandanlığına gətirilən 10-cu alay komandiri yarbay Osman bəyin yerinə keçdi.[67]

Bakı üzərinə yeriyəcək qüvvələrin əsas hissəsini 5-ci Qafqaz piyada diviziyası və 38-ci alay təşkil edirdi. Bakının azad edilməsi üçün hazırlıqların getdiyi bir vaxtda, Almanlar şəhərin Türklərin əlinə keçməsini istəmədiklərindən Türkiyə Baş Qərargahına etdikləri təzyiqi daha da qüvvətləndirmişdilər. Baş Komandan vəkili Ənvər paşa və Şərq Orduları Komandanlığı, Nuru paşaya ardıcıl təlimatlar göndərərək, Bakının tez bir zamanda düşməndən təmizlənməsini tələb edirdilər. Ancaq, Türk Qafqaz İslam Ordusunun bir çox hərbi birləşmələri,

ermənilərin Azərbaycanın müxtəlif bölgələrində törətdikləri qırğınların qarşısını almağa, asayişi təmin etməyə çalışırdı. Top və silah sarıdan korluq çəkən Türk hərbi birləşmələri cəbhə bölgəsində toplaşaraq, düşmənə sarsıdıcı zərbə vura bilmirdi. Silahın azlığından, lüzumsuz yerə atəş açılmırdı. Əslində, Göyçayda daha çox süngü davası olmuşdu. Döyüşlərin getdiyi yerlərdə su qıtlığı olduğundan, əsgərlər arasında yoluxucu xəstəliklər yayılmışdı ki, bu da ordunun gücünə öz mənfi təsirini göstərirdi. Lakin bütün bunlara baxmayaraq, Türk əsgərlərinin tezliklə Bakıya girməsi lazım idi.[68]

Türk Qafqaz İslam Ordusu Komandanı Nuru paşa 5-ci Qafqaz piyada diviziyası komandanlığına göndərdiyi gizli əmrdə belə deyirdi:

"Almanlar Bakının Osmanlı qoşunu tərəfindən ələ keçirilməsi ilə barışa bilmədiklərindən, işə müdaxilə etməyə hazırlaşırlar. Vəhib paşa, əməliyyatın sürətlə icra edilməsini əmr edir. Bizə başqa kömək və sursat da gəlməyəcəkdir. Əsgərlərimizin yerləşdiyi mövqe susuz və insan sağlamlığı üçün əlverişsiz olmaqla bərabər, yoluxucu xəstəliklərin də ortaya çıxması işin getdikcə çətinləşəcəyindən xəbər verir. Hal-hazırda bolşevik qüvvələrinin sayı yüz mini keçməkdədir. Vaxt ötdükcə düşmənin İranda yerləşən Baratov qüvvələrindən istifadə etməsi və kənardan əlavə kömək alması mümkündür. Allahın köməyinə sığınaraq, ümumi hərəkətə şənbə günü, sübh tezdən başlamağı münasib bilirəm. Hədəfiniz Bakı olacaqdır"[69].

Türk Qafqaz İslam Ordusunda yeni təşkilatlanma gedərkən, rus bolşeviklərinin və erməni daşnaklarının Şamaxı üzərinə hücum etdikləri tarixlərə qısaca nəzər salaq.

Azərbaycanın şimal-şərqində Kür çayı ilə Dağıstan arasında qalan bölgəyə, Şirvan adı verilmişdir. Göyçay, Ağsu, Kürdəmir, Ağdaş və Şamaxı - Şirvan bölgəsinin ən əhəmiyyətli əraziləridir. Şamaxı bölgənin şərqində yerləşərək Qafqaz dağlarının ətəyinə söykənmişdir.

Birinci Dünya müharibəsindən sonra, erməni daşnakları və rus bolşevikləri, Şirvan bölgəsindəki şəhər və kəndləri talan edib yandırır, əhalini öldürürdülər. Rus bolşevikləri və erməni daşnakları Bakıdan Gəncə üzərinə hücum zamanı, Şamaxı və ətrafındakı 50 kəndi xəritədən silmişlər. Erməni daşnakları ölkənin şimalındakı Quba və onun ətrafında 2.800 müsəlmanı qətlə yetirmişlər. Bu vəziyyət, Türk Qafqaz İslam Ordusu Komandanlığını çox məyus etmişdi. Türk dünyasının ən böyük şairlərindən olan, vətən, ana, könül və türk dili şairi Bəxtiyar Vahabzadə, Şamaxı və ətrafındakı yanğının, Anadoludan köməyə gələn əsgərlərin ürəklərini dağlamasının səbəbini belə qələmə almışdır:

"Türkiyə və Azərbaycan arasında qardaşlıq deyil eynilik, bir-birinə bərabərlik vardır. Bunun tarixi kökləri vardır. Biz eyni millətik. Və bu, sözdə deyil, işdədir. Antanta zamanında, 1914-cü il müharibəsində, bildiyimiz kimi, Türkiyə

müharibədəydi. "Üçlüklə bərabər Almaniya ilə də mübarizədəydi. Buna baxmayaraq, Türk Ordusu və türk milləti bizi unutmadı. Çünki o zaman ermənilər burada hakimiyyəti ələ almışdılar və azərbaycanlıları qırıb, məhv edirdilər. O zaman Türkiyə, özü müharibə şəraitində olmasına baxmayaraq, bizə ordu göndərdi, bizi xilas etdi. Bu bizim üçün çox əhəmiyyətli və mənalıdır" (Şəxsi arxiv).

1918-ci illərdə Qafqaz qan ağlayırdı, anaların, körpələrin fəryadı yeri-göyü inlədirdi. Göz yaşları sel olub axmış, Arazı, Kürü yasa batırmışdı. Qorxu və hiddət Qafqazın dörd bir yanını bürümüşdü. Azərbaycan bu zaman fırtınalı dənizin üzərindəki qayığa bənzəyirdi. Səssiz-səmirsiz, çarəsiz və haraya gedəcəyini bilmirdi. Yalnızca fəryadını eşitdirməyə çalışırdı.

Azərbaycanın o fırtınalı günlərinin şahidlərindən biri, bu gün də həyatda olan şamaxılı Misir İbrahimov olur. Misir baba 1906-cı ildə Şamaxıda doğulmuşdur və Qaf Dağındakı o acı günlərdə - 1918-ci ildə o, 12 yaşındaydı:

"Onlar - ermənilər - 1918-ci ildə münaqişəyə başladılar. Birdən-birə bizimlə düşmən oldular. Onlar Rusiya ilə birləşdilər. Üç millət bir yerdə, Azərbaycanın üzərinə hücuma keçdilər. Dağıstanı aldıqdan sonra gəlib buralara çıxdılar. Şamaxının Qız meydanı kəndinə yetişdilər. Qız meydanı kəndindən bizə xəbər gələndə, ağsaqqallar "Biz də kəndi tərk edək" - dedilər. Kəndi tərk edib Şamaxıya köçdük. Kənd boşaldı, xaraba qaldı". (Şəxsi arxiv).

Ermənilər və rus bolşevikləri Şamaxı ətrafındakı qəsəbə və kəndlərdə qarşılarına çıxan hər nə varsa yandırır, insanları qətlə yetirirdilər. Erməni daşnak birləşmələrinə Lalayan adlı birisi başçılıq edirdi. Qızıl Ordu Şamaxı üzərinə hücuma keçəndə, ətraf kəndlərdəki müsəlman əhali kəndlərini, evlərini tərk edərək Şamaxıya qaçmışdılar. Düşmənin birləşmiş qüvvələri Şamaxı üzərinə yürüş edəndə şəhərin başbilənləri şəhəri boşaltmaq qərarına gəldilər.

**Misir baba:**

"Şamaxı elə bir hala gəlmişdi ki, ana balasını tanımırdı. Adam adamın ayağı altında qalırdı. Hərə çıxıb bir tərəfə dağıldı. Biz də buradan çıxıb Zaraxan kəndinə tərəf getdik, Zaraxan kəndindən keçib Nügədiyə, oradan isə Yaylı kəndinə endik. O taya (tərəfə) keçdik - Kürdərəyə. Burada qalası olduq." (Şəxsi arxiv).

Qaf dağının ağsaqqalları bu günə qədər bir çox hekayətlər söyləyiblər. Qulu Qasımov da bu hekayətləri atalarından, nənələrindən eşidib. O da bu gün doxsan yaşına çatmış bir ağsaqqaldır. Eşitdiklərini, bildiklərini övladlarına, nəvələrinə danışır. Bu hadisələrin gələcək nəsillərə ötürülməsini istəyir.

**Qulu Qasımov:**

"O vaxtlar Azərbaycan hansı tərəfə gedəcəyini bilməyən gəmi kimi dənizin üstündə qalmışdı. Elə bir vəziyyət yaranmışdı ki, o tərəfdən ingilislər, bu tərəfdən ermənilər, digər tərəfdən isə ruslar üstümüzə ayaq açmışdı. Bunların hamısının gözü Azərbaycana dikilmişdi. Hamısı Azərbaycan torpaqlarını ələ keçirmək

istəyində idi. Və bunu həyata da keçirdilər. Bir müddət rusların, bir müddət farsların, bir müddət ingilislərin işğalında qaldıq." (Şəxsi arxiv).

Türklərlə ermənilər Anadoluda olduğu kimi, Qafqazda da yüz illər boyu bir yerdə yaşayıblar. Lakin ermənilər Birinci Dünya müharibəsinin qızğın çağında birdən-birə türklərin üzərinə hücuma keçdilər. Türklər buna bir məna verə bilmirdilər. Erməni daşnakları rus bolşevikləri ilə birləşib Şamaxıda, ətraf kənd və qəsəbələrdə yaşayan türkləri qətlə yetirməyə başladılar. Nə istəyirdilər, məqsədləri nə idi?"

**Qulu Qasımov:**

"Ermənilər azərbaycanlıları tamamilə məhv etmək istəyirdilər. Bakıya gəlmək, Bakını zəbt etmək istəyirdilər. "Dənizdən dənizə" - yəni Xəzər dənizindən Qara dəniz və Aralıq dənizinə - Ermənistan yaratmaq idealı bir daha ortalığa çıxmışdı. Bu ideal o vaxtlardan qalmışdı. Mən çox millətlər görmüşəm, çox oxumuşam. Bu ermənilər kimi bir-birini sevən, bir-birinə dayaq duran, bir-birini qoruyan irqçi və alçaq millət yoxdur." (Şəxsi arxiv).

Dənizdən dənizə Ermənistan ideyasını, yüz illər boyu birlikdə yaşadıqları insanları - qonşularını öldürmək, məhv etmək bahasına həyata keçirmək. Bu etnik təmizləmənin mərkəzi isə Xəzər dənizi, Qara dəniz və Aralıq dənizi arasındakı üçbucaq seçilmişdi.

**Qulu Qasımov:**

"Qonaqkənd, Kürdəmir, Tağsuri, Erzuman, Dəmirçi, Mirkənd, Zaraxan, hətta Göylər, sonra bizim kəndimiz Cavanlı... Cavanlıdan hamısı qaçıb getdi. Mənim babam o zamanlar burada böyük hörmət sahibi olan dövlətli bir adam imiş. Adı Kəlmətağa imiş. Ermənilərə də, ruslara da vaxtında çox yaxşılıqlar edibmiş. Bütün kənd qaçanda o, "mənə toxunmazlar" demiş və qaçmayıb kənddə qalıbmış. Amma ermənilər onu öldürüb, sonra isə evlə birlikdə yandırıblar". (Şəxsi arxiv).

Can şirindir. Şamaxı və ətraf kəndlərdə yaşayan türklər də canlarını qurtarmağa çalışırmışlar. Gedə biləcəkləri, sığına bidəcəkləri bir yer isə yox idi. Özlərini qorumaq üçün əsgərləri və silahları yox idi.

Məndən olmayan, mənim millətimdən olmayan qadın və uşaqları, ahıl qocaları məhv etmək, insanları, Allahın evi olan cami və məscidlərə doldurub diri-diri yandırmaq: "Elə bu gün Qarabağda olduğu kimi". Bu necə bir hirs, necə kin, necə məntiqdir? Hansı din bunu buyurur. Türk milləti bu sualların cavabını tapa bilmir. Çünki tarix səhnəsinə çıxdığı gündən belə bir düşüncənin, belə bir ruhun içində heç bir vaxt olmamışdır. Buna dünyada yalnız erməni daşnakları və rus bolşevikləri cavab verə bilər.

**Qulu Qasımov:**

"Bunu mənə atam, anam danışmışdı. Gözləriylə görmüşlər, qardaşlarım iştirak etmişlər. Orda görmüşdülər ki, bunlar çox vicdansız millətdirlər. Bizimkilər

gecə Göyçaya - orada yaşayan qohumlarımızın yanına qaçırlar. Orada bir müddət yaşamış, ermənilər getdikdən sonra yenə də buraya, öz evlərinə dönmüşlər. Ailəmiz Şamaxıya dönərkən mən Kürün kənarında doğulmuşam. Erməni-müsəlman davası vaxtında başımıza belə bir əhvalat gəlib." (Şəxsi arxiv).

Şamaxı ətrafında o illərdə 6 erməni, 6 da malakan kəndi vardı. Türk kəndlərinin sayı isə 60 olardı.

Şamaxı yaxınlığındakı Mərəzə qəsəbəsi, adını Oğuzların Marası oymağından almışdı. Tarixi qaynaqlar burada təxminən 500 çadırdan ibarət Marası türklərinin yaşadığını bildirirlər. Marası da, sonradan şifahi dildə öz əvvəlki formasını dəyişərək Mərəzə şəklinə düşmüşdür. Erməni daşnakları mərəzəlilərlə danışmaq və bir nəticə əldə etmək bəhanəsilə qəsəbənin sayılıb-seçilən adamlarını bir təpənin arxasındakı dərəyə dəvət etmiş, orada onları amansızcasına öldürmüşlər. Bu hadisədə 115 nəfər adam həyatını itirmişdir.

**Mərəzəli Nəriman Heybətoğlu,** o acı dolu günlər haqqında böyüklərdən eşitdiklərini belə ifadə edir:

"Bizim ağsaqqalları Mərəzənin Şamaxı tərəfindəki bir dərəyə, bir kəndə deyil, məhz bir dərəyə çağırıblar. Bizimkilər də heç nədən şübhələnməyərək oraya gediblər. O dərədə 115 adam öldürülüb. Bu xəbər kəndə yayılır. Hərə bir tərəfə qaçır - uşaq, qadın, qız, cavan, qoca - hamı özünü dağa-daşa vurur. Gizlənib canlarını qurtarmağa çalışırlar. Kəndin başbilənləri, ağsaqqalları qətlə yetirildiyindən, hərə bir tərəfə dağılışır. Ermənilər boş qalmış Mərəzənin mal-mülkünü talan etmiş, evləri yandırmışlar. Əhali çox pis vəziyyətə düşür. Ta ki, Türk Ordusu Azərbaycana gəlib əmin-amanlıq yaradana qədər" (Şəxsi arxiv).

Şamaxılı Misir İbrahimovun atası son Rus çarı İkinci Nikolayın ordusunda xidmət etmiş və yüzbaşı rütbəsinə qədər yüksəlmişdi. Erməni daşnakları və rus bolşeviklərinin hücumu zamanı o, ətrafda əli silah tutanları başına yığıb, hücumların qarşısını almağa çalışır, lakin əllərində kifayət qədər silahları yox idi. Silahla davranmağı bacaranların sayı da yox dərəcəsində idi.

**Misir baba:**

"Gəldilər xəbər verdilər ki atama, atam da yüzbaşıdır, çar Nikolayın ordusunda yüzbaşıydı, ruslarla ermənilər gəlir, nə edək, dedilər. Bəzi silahlı insanlarla onlara qarşı çıxmağa çalışdılar, lakin bacarmadılar. Sonra biz də çıxıb getdik Şamaxıdan. Şəkər ilə Bığır kəndi arasında bizim Cavanlının qışlağı vardı. Hər il yay aylarında buraya gələrdik. Bığır ilə Şəkər camaatı bizi görəndə təəccübləndilər, bunlar bu vaxtı niyə yaylaqdan döndülər. Aradan iki gün keçdi, heyvanlarla mal otlayırdı. Üçüncü gün mallar bağların kənarında otlayarkən, həvəsləndim, çobanların yanına getdim. Bir az durmuşdum ki, bağın hər tərəfindən qoşun doldu bağa. Malların otlaması üçün yer qalmadı. Başlarında şiş papaq əsgərlər doldu. Türklərin papağı imiş onlar. Mən bilmirdim onlar kimdir. Baba,

baba deyə qışqırdım, qorxdum, ağladım, gedib dedim ki, ermənilər doldu bağa, mallarımızı aparacaqlar, uşaqları öldürəcəklər. Kişi bir az fikirləşdi, sonra yüyürüb onların yanına getdi. Baxıb gördüm ki, onlarla qucaqlaşıb-öpüşürlər. Babamın yanına gəldim. Komandir mənə dedi: "Oğul bala, qorxma, qorxma, gavurları tezliklə qovacağıq. Biz qardaşlarıq, atalarıq, sizə köməyə gəlmişik, qorxma." (Şəxsi arxiv).

Şamaxı və ətrafında yaşayan əhali türk əsgərini bağrına basdı. Mal-davar kəsib əsgərlərin qarnını doyurdu, su və çörəyini onlarla yarı böldü.

**Misir baba:**

"Atam gedib bir qazan gətirdi. Böyük bir qazan. İçi qatıqla dolu idi. Malımız, davarımız çox idi, qatıq dolu qazanı gətirdi bunlara. Onlar dedilər ki, "dünyada yemərik, yaxın durmarıq. Biz bunu hələ qazanmamışıq, borcun olsun, sonra yeyərik". "Siz böyük çətinliklərlə qaçıb canınızı qurtararaq buralara gəlmisiniz, biz bunu yeyə bilmərik". Babam dedi ki, "ay kişi, fikir eləməyin. Onun haqqı mənə çoxdan çatıb. Sizin buraya gəlişiniz mənə bəsdir". (Şəxsi arxiv).

Misir baba Türk əsgərlərilə erməni daşnakları arasındakı silahlı döyüşlərin də şahidi olmuşdu.

**Misir baba:**

"Onu gözümlə gördüm ki, bir xəbər gəldi, çay fincanı əlindəydi. Onu yerə qoydu, durdu ayağa, papağı qaldı, ayaqqabısı qaldı yerdə. Qopub getdilər. Bu qobunun (qurumuş su yatağı) qırağında bir gurhagur qopdu ki, Allah göstərməsin... O tərəfdən pulemyotlardan atəş açılırdı. Sonra ermənilərin hamısı qaçmağa başladı. Bizimkilər gəldilər, sonra orada Ağsunun bərisində bir quyu vardı. Ermənilər quyunun yanında dayandılar, müdafiə üçün mövqe tutdular. Türk əsgəri gəlib oraya çatdı, bir gurhagur da burada qopdu. Bu dərələr, təpələr sanki bir-birinə qovuşdu. Erməniləri qırıb-çatdılar. Sonra rus və ermənilər oradan çıxıb Acıdərəyə qaçdılar. Burada da dayandılar ki, türkün qabağını kəssinlər. Burada da qırıldılar. Orada türkün bir zabitinə güllə dəyib, qəbri indi də oradadır. Türklər sonra məzarı başqa yerə köçürmək istədilər, amma bizimkilər qoymadılar, buraxmadılar." (Şəxsi arxiv).

Türk-Qafqaz İslam Ordusu ilə Türkiyədən Azərbaycana gedən şair Arif İrfan Qaraosman "Qafqaz Türklərinə" bir çox şeir həsr etmişdir. Misir baba Arif İrfan bəyin o günlərdə yazdığı şeiri oxuyur:

**QAFQAZ TÜRKLƏRİNƏ**

*Ey Qafqazın nurlu siması,*
*Ey əcdadımın şirin yuvası,*
*Ey türk irqinin böyük anası,*
*Ey uca dağın münbit obası,*

*Gül, sevin, artıq sənə biz gəldik,*
*Səni qurtarmaq üçün yüksəldik.*

*Elə meşələrin matəm ağlardı,*
*Dərələrində qanlar çağlardı,*
*Körpələrini ataş dağlardı,*
*Qoca-cavan qara bağlardı,*
*Gülsün, sevinsin onlar, biz gəldik,*
*Səni qurtarmaq üçün yüksəldik.*

*Dünənki hal, dünənki ataş, dünənki qan,*
*Dünənki ələmlər, dünənki ah, hicran,*
*Dünənki əsarət, çəkilən xüsran,*
*Artıq yox onlar. Hamısı bitdi, inan.*
*Gül, sevin, Qafqaz, sənə biz gəldik,*
*Səni qurtarmaq üçün yüksəldik.*

**b.** Türk Ordusunun Şamaxı üzərinə yürüşü: Şamaxı və onun ətrafında törədilən qətllər barədə xəbərlər, tez bir zamanda Gəncədə Türk Qafqaz İslam Ordusunun qərargahına çatdırıldı. Göyçay həndəvərində Qızıl Ordunun hərbi birləşmələrinin dağıdıldığını görən rus bolşevikləri və erməni daşnakları Şamaxıdan Bakıya doğru qaçırdılar. Nuru paşa 19 iyul 1918-ci il tarixində 13-cü Qafqaz alayının Şamaxı istiqamətində hücuma keçməsi və şəhərin ələ keçirilməsi barədə əmr verdi[70]. Şimal qrupunun sərəncamında olan 10-cu Qafqaz alayının vəzifəsi Qızıl Ordu birliklərini şərq və cənubdan mühasirə edərək, Bakıya doğru çəkilmələrinin qarşısını almaq və tamamilə məhv etmək idi.[71]

Hərəkətə gəlmək üçün əmr alan 13-cü Qafqaz alayı, Ağsudan Mədrəsə istiqamətində hücuma keçdi. Gecə boyunca leysan şəklində yağan şiddətli yağış və palçıq rabitəni pozmuşdu. Yağış altında və palçıq izində irəliləyişini davam etdirərək, Alpaqut yüksəkliklərini aşdı və səhər saatlarında Şamaxının cənubunda yerləşən Mədrəsə qəsəbəsinin ətrafındakı aşırım və təpələri ələ keçirdi[72].

Qızıl Ordu birləşmələri Şamaxının cənubundakı Mədrəsə qəsəbəsi ətrafında cəmləşməyə çalışırdılar. Malakan kəndi və ətrafındakı rusların da qoşulması ilə Qızıl Ordunun min nəfərdən ibarət əsgəri heyətinin sayı get-gedə artırdı. Mədrəsə qəsəbəsində olan 13-cü alay günorta saatlarında yeni bir hücuma başladı. Düşmən müqavimət göstərə bilməyib Şamaxı istiqamətində geri çəkilməyə başladı. Mədrəsə ətrafında gedən qanlı döyüşlərdə Türk Qafqaz İslam Ordusu bir yüzbaşı və dörd sıravi şəhid vermişdi.

Qızıl Ordu birləşmələrinin Mədrəsədə məhv edilməməsi Nuru paşa və qərargahdakıları məyus etmişdi. Verilən əmrə görə düşmənin mütləq darmadağın

edilməsi lazım idi. Çünki Bakıya çatan düşmənin yenidən öz qüvvələrini möhkəmlətməsi, Türk Qafqaz İslam Ordusu üçün yeni bir təhlükə olardı[73].

Nuru paşa düşmənin Şamaxı yaxınlığında məhv edilə bilməməsi səbəbiylə cəbhə komandanlığına belə bir gizli əmr göndərdi:

"Bugünkü hərəkətin nəticəsi məni razı salmadı. Çünki düşmənin əsir və məğlub olmasını, o cümlədən Bakıya çəkilməyə müvəffəq olmamasını istəmişdim. Daha əvvəl də sizə Göylər kəndi üzərindən Şamaxı-Bakı yolunu kəsmək üçün bir qolun hərəkətə gətirilməsinin münasib olacağını yazmışdım. Düşmənin qüvvəsi az və geri çəkilərkən, xırda-xuruş ardzı hissələrlə iki alayın məşğul olması və bunlardan 13-cü alayın Mədrəsəyə dönməsi məqsədə uyğun bir hərəkət deyil. Bundan başqa, əlinizdəki süvari ordunun hamısıyla və təcili olaraq düşməni uzaqdan mühasirəyə alacaq surətdə hərəkətə keçin. Ya piyada qüvvələrini sövq edərək, ya da hər süvari heyvanına bir piyada mindirərək əsl süvari qüvvələri gücləndirə bilərsiniz. Sabahkı hərəkətin nəticəsi bundan asılıdır"'[74].

Şimal və Cənub birlikləri Şamaxı yaxınlığında düşməni sıxışdıraraq arasıkəsilməz atəşə tutmağa çalışırdı. Mehmetçik, Məlikçoban-Çuxalı xəttində, 20 iyul gecəsinə qədər davam edən şiddətli döyüşlər nəticəsində bolşevik birləşmələrini dağıtdı və Şamaxı üzərinə yürüş etdi. Buranı qısa bir vaxt ərzində düşməndən azad etdi. Öndə piyada, ardınca isə süvari bölüklərinin təqibi düşmənə göz açmağa imkan vermirdi. Qızıl Ordu birliklərinin başçısı Kazarov ordunun geri çəkilməkdə olduğunu anlayaraq, geri dönmək əmri verdi. Mərəzə istiqamətinə doğru çəkilən düşmən, burada da müqavimət göstərə bilmədi. Get-gedə sıxışdırılan Hamazasp və Kazarov məğlub olacaqlarını başa düşərək, qəti bir hərəkətlə Bakı istiqamətində qaçmağa başladılar. Ətrafda yaşayan rus və erməni əsilli sakinlər də pərakəndə halda qaçan əsgərlərlə bərabər Bakıya doğru hərəkət edirdilər[75]. Mərəzədə içməli su var idi. Mərəzə-Bakı arasında isə ordunun istifadəsi üçün təmiz su tapmaq mümkün deyildi[76]. Düşmən birlikləri 21 iyulda Mərəzədən Bakı istiqamətində pərakəndə halda qaçmağa başladı. Şamaxı və Mərəzə bölgələrindəki döyüşlərdə düşməndən iki top, üç top arabası, iki pulemyot, ikisi zirehli olmaqla üç avtomaşın, mərmi və əşya ələ keçirildi[77].

**8. Acıdərə şəhid məzarlığı:**

Şamaxı və ətrafda yaşayan türklər də Türk Qafqaz İslam Ordusuna qoşulmuşdu. Vətənlərini Anadoludan gələn qardaşlarıyla birgə müdafiə edirdilər.

**Misir İbrahimov:**

"Burada bizimkilərdən Türk ordusuna bir çox adam qoşulmuşdu. Burada yeni bir hərbi birlik təşkil olundu. Mən də həvəsləndim, getmək istədim, uşaq olduğum üçün məni qəbul etmədilər. O əsgərlərdən heç kim indi həyatda yoxdur. Hamısı dünyasını dəyişib; Əjdər, Qərib, Cəlal...Hansını deyim... Hamısı rəhmətə gedib". (Şəxsi arxiv).

Şamaxıdakı Cümə məscidinin tarixi yüz illər əvvələ gedib çıxır. Qızıl Ordu birlikləri ətraf camaatdan qaça bilməyənləri və ya tutduqlarını buraya doldurub diri-diri yandırdılar. Məscidi top atəşinə tutdular. Aradan doxsan il keçməsinə baxmayaraq, yanğının izləri hələ də qalmaqdadır. Məşhur şamaxılı memar Zivər Əhmədbəy məscidi yenidən bərpa etdi. Kəsmə daşdan düzəldilmiş qübbə yıxılmışdı. Yerinə taxta qübbə qoyuldu və dəmir profillərlə də dayaq vuruldu.

Şamaxı və ətrafında 12 mindən çox türk məhv edildi, yalnız türk əsilli olduqları üçün. Qəsəbə və kəndlər yandırıldı. Şamaxılılar 1918-ci ildə erməni daşnakları və rus bolşevikləri tərəfindən qətlə yetirilən yaxınlarının qəbirlərinə uzun müddət yaxın düşə bilmədilər. Çünki Sovet vaxtı təzyiq və diktatorluq illəri idi. Qırmızı Rus İmperiyası dağıldıqdan sonra Azərbaycan müstəqillik əldə etdi və şamaxılılar o illərdə qətlə yetirilmiş qohumları üçün bir abidə ucaltdılar.

Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdi. Bundan sonra mərəzəlilər də 1918-ci il qırğınında həyatlarını itirmiş insanların xatirəsini əbədiləşdirmək üçün abidə ucaltdılar. O illərin dəhşətlərini gənc nəslin unutmaması üçün bu abidəni bir orta məktəb bağçasında ucaltdılar. Abidənin hər iki tərəfinə simvolik olaraq şəhidlərdən bəzilərinin adını yazdılar.

Türk Qafqaz İslam Ordusu, başıpozuq halda qaçan Qızıl Ordu hərbi birləşmələrini Mərəzə yaxınlığındakı Acıdərədə məhv etmək haqqında verilən əmri yerinə yetirmək üçün hücuma keçmişdi[78]. Bakıya doğru qaçan Qızıl Ordu hərbi birləşmələrinə Şamaxı və ətrafında yaşayan rus və ermənilər də qoşulmuşdu. Lakin Acıdərədə baş verən döyüşlərdə də fərqlənə bilmədilər. Ölü və yaralıları döyüş meydanında qoyub qaçdılar.

Acıdərədə yerdə yatan yaralı bir daşnak erməni 28-ci batalyon komandiri, yüzbaşı İzzət bəyə arxadan atəş açdı və onu kürəyindən ağır yaraladı. İzzət bəyin yarası dərin idi. Erməni daşnaklar arxadan vurmağı, namərd hərəkətləri sevirlər. Həmişə etdikləri kimi, Acıdərədə də gənc bir komandiri arxadan vurdular. İzzət bəy bir neçə gündən sonra şəhid oldu[79].

**Mərəzəli Qəribxan Əşrəfoğlu:**

"Ermənінin biri yerdə yaralı yatarkən türk zabitini arxadan güllə ilə vurur. Türk zabiti də silahını çıxarıb o ermənini güllələyir. Sonra Təklə kəndindən Məlik Məmməd həmin zabiti evinə gətirib, bir neçə gün yarasını müalicə elətdirir. Türk zabiti deyir ki, mənim yaram dərindir, sağalan deyil və vəsiyyət edir ki, məni yaralandığım yerdə torpağa tapşırın. Bir neçə gündən sonra zabit ölür. Kənd əhli onu gətirib indiki məzarın olduğu yerdə dəfn edirlər. Başdaşı qoyub, ətrafını hasarla əhatələyirlər. Sonra Sovet hakimiyyəti illərində 1937-ci illərdə türk zabitinin qəbrinə başdaşı qoyduğu üçün Məlik Məmmədi Sibirə sürgün edirlər. O vaxtdan ondan bir xəbər yoxdur." (Şəxsi arxiv).

Azərbaycanın milli şairi Əhməd Cavad xalqın xilaskarı olan Türk əsgərinin etdiyi fədakarlıqlara duyğu dolu bir şeir həsr etmişdi.

**ŞƏHİDLƏRƏ** (Sarmaşıqlı məzar)
Azərbaycandakı Osmanlı şəhidlərinə
*Qalx, qalx! Sarmaşıqlı məzar altından!*
*Gəlmiş ziyarətə qızlar, gəlinlər.*
*Ey karvan keçidi yollar üstündə*
*Hər gələn yolçuya yol soran əsgər!*

*Sənin vurduqların yabançı xanlar,*
*Qurtardı ölkəmi tökdüyün qanlar!*
*Bax, nasıl öpməkdə tozlar, dumanlar,*
*Qərib məzarını mənlə bərabər!*

*Sənin qanındanmı, düzlərdə böylə*
*Qüdrət bitirmişdir sayılmaz lalə?!*
*Dost elindən qopdu bir yanıq nalə,*
*Yoxsa o nalənin ruhumu söylər?!*

*Keçərkən göylərdən bir qatar durna*
*Ağlar buraxdığın gözləri sorma!*
*Bax, doğru çıxmaqda gördüyün röya*
*Bəslədiyin əməl bütün gülümsər!*

*Çarıqlı qardaşın, sadədil ərdi!*
*Gəlib məzarına bir çələng hördü.*
*Toplaşıb baş-başa hər üçü durdu,*
*Hər gün köylü qızlar dərdini dinlər!*

10 may1919 - Gəncə.

Sovet hakimiyyəti illərində, Stalin hakimiyyətdə olan vaxtlarda türk əsgərlərinin, şəhidlərinin məzarlarına yaxın getmək cəsarət tələb edirdi. Şamaxıya bitişik Təklə kəndi ağsaqqallarından Məlik Məmməd, İzzət bəyin uyuduğu məzarın itməməsi üçün ona başdaşı qoymuş, ətrafını düzəltmişdi. Lakin keçmişə bağlılığı və türk əsgərinə qarşı olan hörməti ona həyatı bahasına başa gəldi. Məlik Məmməd 1937-ci ildə Sibirə sürgün edildi.

**Bəxtiyar Vahabzadə:**

"Azərbaycanın bir çox kəndlərində, o cümlədən Bakı kəndlərində - Pirşağıda, Maştağada, Şəkinin kəndlərində türk əsgərlərinin məzarları vardır.

Allaha şükürlər olsun ki bizim millətimiz onların qədir-qiymətini bildi. O zamanda, Sovet dövründə ziyarət etmək qadağan olunmuşdu. Amma insanlar öz şəxsi vəsaitləri ilə onların məzarlarını düzəldirdilər, ətrafını təmizlədirdilər. Onlardan biri də Mərəzə qəsəbəsi yaxınlığındadır. Biz hər zaman Şəkiyə gedib-gələrkən, oranı ziyarət edərdik". (Şəxsi arxiv).

Ziyarət qadağan edilsə də, şamaxılılar onların imdadına yetişənləri unutmadılar. Acıdərədə uyuyan İzzət bəyi tək qoymadılar.

**Mərəzəli Nəriman bəy:**

"Sovet hakimiyyəti qurulduqdan sonra bu söz, bu işlər unutduruldu, məcburi şəkildə türk sözü unutduruldu, qadağan edildi. İnsanlar bu sözü ağızlarına ala bilmirdilər. "Türk" nədir, "türk" sözünü demək olmazdı. Türk kəlməsi, türkçülük hamıya qadağan edilmişdi. Acıdərədəki türk zabitinin, şəhidinin qəbrinə bir vaxtlar abidə qoyulmuşdu. Ancaq 1937-ci ildə bu abidə dağıdıldı. Mənim xatırladığım 1960-cı illərdə gördük ki, bizim adamlar oraya gizli-gizli, bir-bir gedirdilər. Babaxan Qaraoğlu adında bir sürücü vardı. Şamaxının Qaracüzlü kəndindən idi. O, türk zabitinin qəbrinin üstünü götürdü, oraya sinə daşı, baş daşı qoydu". (Şəxsi arxiv).

Sürücülük edərək ailəsini dolandıran Babaxan Qaraoğlunun, vətənini erməni daşnakları və rus bolşeviklərinin hücumlarından qurtaran qəhrəmanları unutması mümkün deyildi. Onlara borclu olduğunu düşünürdü. Babaxan Qaraoğlu, Məlik Məmmədin yolu ilə getdi. Əslinə sadiq qalaraq məzarı yenidən bərpa etdirdi.

**Babaxan Qaraoğlunun qızı, atasının gördüyü işlər barəsində deyir:**

"Gündüzlər ermənilər məzarı uçurur, dağıdır, gecələr isə bizimkilər, yerli sakinlər məzarın baş daşını, sinə daşını yerinə qoyurmuşlar. O dövrdə heç kim o məzara gözünün ucu ilə belə baxa bilməzmiş. Bunu görən atam baxır ki, məzar artıq itmək üzrədir. Məzarı yenidən bərpa etmək qərarına gəlir. Böyük sal daşlar, kəsmə daşlar gətirir, bu daşları elə düzür ki, onlar heç vaxt aralanmasın, qopmasın, yağış, sel təsir etməsin. Atam bu məzarı qoruyub saxlamağa qərar verir. Öz şəxsi vəsaiti ilə üç nəfər fəhlə tutub, onlarla birlikdə üç-beş gün ərzində məzarı yenidən tikib bərpa edir. Məzarın üzərindəki yazılar pozulmuşdu. O yazılar Məlik Məmmədin qoyduğu daşda var idi. O yazıları, sinə daşının üzərində ərəb əlifbası ilə yazılmış yazıları, düzgün köçürmək üçün bir molla gətirir, molla da həmin yazıları bu gün olduğu şəkildə yenidən köçürür". (Şəxsi arxiv).

Babaxan bəy şəhid məzarının hər tərəfdən görünməsi üçün əlindən gələni edərək, yoldan gəlib keçənlərin şəhid İzzət bəyə bir salam vermələrini istəyirdi.

**Babaxan Qaraoğlunun qızı:**

"Sinə daşını təzələmiş, ətrafına daş hasar hördürmüş, pillələri düzəltdirmiş, məzarın olduğu yerə işıq çəkdirmişdi. Gecələr işıq yanırdı. Biz hər yay kəndimizə gedərkən orada dayanardıq, atamla bərabər salavat çevirib, dualar oxuyardıq. İndi

mənim uşaqlarım da oraya gedib-gəlməyə, oranı ziyarət etməyə can atırlar". (Şəxsi arxiv)

Dünyada soyuq müharibə hökm sürürdü. Türk kəlməsini, əsli-nəsli türk olan bu insanlara keçmişlərini zorla unutdurmaq istəyirdilər. Tarixi hafizələrdən silməyə çalışırdılar. 1960-cı illərdə Şamaxı ətrafında beş erməni kəndi vardı. Buna görə də Kommunist Partiyası Şamaxı rayon komitəsinin üç katibindən biri mütləq erməni olmalı idi. Erməni əsilli Nikolay Matevosov Babaxan Qaraoğludan Moskvaya şikayət edir.

**Nəriman bəy:**

"Erməni katib şəhidin məzarının bərpasına etiraz etdi. Buradan Mərkəzi Komitəyə, Moskvaya şikayət etdi. Bu səs hər tərəfə yayıldı. Bu işə görə Babaxan çox əziyyət çəkdi. Onu çox incitdilər. Ancaq o qəbir daşı götürülmədi. Babaxan, indi də bu camaatın qəlbində yaşayır. Biz hamımız, Allah ona rəhmət eləsin, deyirik. Necə ki, o şəhid türk gəlib orada şəhid oldu və bizim qəlbimizdə qaldı, Babaxan da o vaxtlar şəhid ola bilərdi. O hərəkətinə görə kommunistlər onu tuta, həbs edə bilərdilər, şəhid edə bilərdilər. Ancaq o, qorxmadı. Məzarın itməməsi üçün onu təmir elətdirdi. Ona görə də o bizim qəlbimizdə türk şəhidi kimi qaldı". (Şəxsi arxiv).

Babaxan Qaraoğlunun atası, oğlunu Sibirə sürgün edilməkdən qurtarmaq üçün KQB işçilərinə qızıl və pul verərək oğlunu bu təhlükədən qurtarmışdı.

**Babaxan Qaraoğlunun qızı:**

"Bibilərimin danışdığına görə, bizə söylədiklərinə görə, gecə saat 3-də KQB-nin işçiləri bizim evə gəlib, atamı aparmışlar. Gedərkən nənəmə - anasına deyir ki, "soruşsalar, bizim heç nədən xəbərimiz yoxdur" deyərsiniz. KQB-də atama bir həftə, on gün əziyyət veriblər. KQB işçiləri qızıl kəməri, pul və qiymətli əşyalar aldıqdan sonra atama deyirlər ki, "səni buraxacağıq, ancaq gedib məzarı söküb-dağıdarsan". Atam da deyir ki, mən onu sökmək üçün tikməmişəm. Onun dağılmaması, möhkəm olması üçün 30 kilo sement sərf etmişəm. O məzar sökülmək üçün düzəldilməyib. Əgər sökə bilirsinizsə, gedin siz sökün. Məzarın sökülməsi Şamaxı Kommunist Partiyasının bürosunda müzakirəyə qoyulur. Burada iki səs çoxluğu ilə məzarın yerində qalmasına qərar verilir. Sökülməsi beləcə dayandırılır." (Şəxsi arxiv).

Babaxan Qaraoğlunu tanıyanlar onun açıq ürəkli, təvazökar bir insan olduğunu bilirdilər. Elədiyi işlərdən danışmağı heç xoşlamazmış. Bu işin də şəhidlərə qarşı bir borcu, bir vəzifəsi olduğunu düşünürdü. Kremldə oturanların qəzəbindən Sovet İttifaqında yaşayan hər kəs çəkinirdi. Şamaxıdakı Kommunist Partiyası katibləri, xüsusilə erməni əsillilər, məzarın dağıdılmasını istəyirdilər. Lakin Babaxan Qaraoğlu, şəhidlərə olan borcunu ödəmişdi. Onların izi ilə

getmişdi. Oraların camaatı Babaxan bəyi indi də minnətdarlıqla yada salırlar. Şəhid məzarları olan yeri də bir ziyarətgaha çeviriblər".

**Babaxan Qaraoğlunun qızı:**

"Soruşanlara bir şey deməzdi. "Mən onu şan-şöhrət qazanmaq üçün təmir etmədim, mən yalnız insanlıq borcumu yerinə yetirdim. Onlar bizə köməyə gəlmişdilər. Tarixdə qalması üçün etdim" deyirdi. Öz nəvələrinə bunları bildirirdi. Atam çox türkpərəst bir adam idi. Bir vaxtlar, heç kimsə gözünün ucuyla belə bu məzara baxa bilməzdi. Ziyarət etmək qadağan edilmişdi. Sonralar bir ziyarətgaha çevrildi. 1993-cü ildə orada böyük bir mərasim keçirildi. Biz də oraya getmişdik. Türk səfiri Altan Karamanoğlu da oradaydı. Səfirliyin nümayəndələri, dövlət adamları, türkiyəli və azərbaycanlı jurnalistlər, dövlət adamları da oradaydılar. Atam orada bir nitq söyləmişdi". (Şəxsi arxiv).

Bakıdan şimal-qərbdə Şamaxı istiqamətində gedərkən təxminən 130 km məsafədə, ətrafı təpələrlə əhatə olunmuş bir vadi var. Vadinin aşağısında yolun lap yanında bir abidə ucalır. Türk Qafqaz İslam Ordusunun 28-ci batalyon komandiri, minbaşı İzzət bəy burada uyuyur. Ətraf təpələrin hər yanından Acıdərə vadisi və şəhid məzarı görünür. Əsl qəbir isə təxminən 200 metr irəlidədir. Babaxan Qaraoğlunun vəsiyyətini yerinə yetirərək, yoldan keçənlər burada ayaq saxlayır, İzzət bəyi yad edir, Fatihə verirlər.

Azərbaycan müstəqillik qazandıqdan sonra Bakıda vəzifəsini icra edən Türk Silahlı Qüvvələri Atteşesi, General-mayor Saldıray Berk paşa[80], şəhidlərin məzarlarının yerinin təyin edilməsi məqsədilə işə başladı. Ondan sonra eyni vəzifəni icra edən General-mayor Sadık Ercan paşa[81] da Azərbaycanda işlədiyi dövrdə, 1918-ci ildə Qafqaza köməyə gələnləri, bu torpaqlarda həlak olanları unutmadı. Saldıray paşanın başladığı işi davam etdirdi və şəhidliklərin bərpasına başlandı.

Türkiyədən gələn ustalar məzarın bərpası üçün memarlıq işlərinə başladılar. Əvvəlcə məzarın yeri təyin edildi. Məzar sel gələn yerdə yerləşdiyindən, onun yerini dəyişmək məsləhət idi. Lakin həlak olduğu yerdə basdırılmaq İzzət bəyin öz arzusu olduğundan yerli əhali məzarın yerinin dəyişdirilməsinə razı olmadı. İzzət bəyin Məlik Məhəmmədə etdiyi vəsiyyət və xalqın istəyi nəzərə alınaraq, məzarın yeri dəyişdirilmədi.

Məzarın ətrafındakı divarlar kəsmə daşlarla üzləndi, ətrafı dəmir hasara alındı. Dövlət başçısı bayrağında 16 ulduz var. Bu ulduzlar tarixdəki 16 böyük Türk dövlətlərini təmsil edir. Şəhidin uyuduğu yerə qalxan pillələrin sayı da 16-dır. Babaxan Qaraxanoğlunun məzarın baş tərəfində əkdiyi şam ağacı şəhidə kölgə salır.

Qəhrəman Türk Silahlı Qüvvələri məzara kitabə də qoydurdu. Kitabədə bu yazı var:

**"Bu məzar Osmanlı alayı birliklərindən olan bir zabitin qəbridir. Qafqaza gəldi, vuruşdu və şəhid oldu. 1918-ci ildə şərəfli şəhidliyə qovuşdu. Ruhu şad olsun!".**

Məzar daşının üzəri çiçəklərlə bəzənmiş, Qurani-Kərimdən götürülmüş ayələri Məlik Məmməd və Babaxan Qaraxanoğlu yazdırıb. Məzar daşının üzü ay-ulduzlu motivlərlə işlənmişdir.

Acıdərə-Şamaxı yolunun sağında da bir abidə qoyuldu. Bu abidə türk mədəniyyət və sənətinin gözəl bir nümunəsidir. Şəhidliyin ətrafı düzəldilmiş, yola qədər olan hissəsinə də asfalt döşənmişdir. Abidənin girişində hər iki tərəfdə kitabə var. Soldakı kitabədə olduqca təsirli sözlər yazılıb:

**"Bu abidə qardaşları uğrunda sevə-sevə canını fəda edib, ayrılırmı könül candan, Türkiyə Azərbaycandan, düsturunu ürəklərimizə pərçimləyən o möhtəşəm naməlum qəhrəmanların xatirəsinə, 19 may 2000-ci il tarixində inşa edilib, ətraf əhalinin istəyi ilə mövcud məzarın yeri dəyişdirilməmişdir".**

Sağdakı kitabədə isə bunlar yazılıb:

"Bir türk oğlu qəhrəmanındır bu məzar
Gör necə yer ilə yeksan eyləyibdir Xəzər
Qafqaz İslamı uğrunda eyləyib zinhar canın
Ərsəyi-hərb izrə bir aslanındır bu məzar

**"Bu məzar Osmanlı alayı birliklərindən olan bir zabitin qəbridir. Qafqaza gəldi, vuruşdu və şəhid oldu. 1918-ci ildə şərəfli şəhidliyə qovuşdu. Ruhu şad olsun!"**

Abidə 120x120 sm-lik bir postament üstündə qoyulub və hündürlüyü 2 metrə qədər olan qranitdən düzəldilib. Dörd bucağı olan sütun yuxarıya qalxdıqca incəlir. Qəhvəyi və qara rənglərin qarışığı rəngində olan qranit mərmərdən inşa edilib. Ağ mərmərdən hazırlanmış aypara və ulduz sütunun dörd tərəfinə səliqəylə yerləşdirilib. Qranit sütun şəhidin dik başı və açıq alnı kimi göylərə yüksəlir. Elə arxasında yatan qəhrəman kimi.

Bəxtiyar Vahabzadə türk dünyasının ən böyük şairlərindən biridir. Həmişə Bakıdan-Şəkiyə və ya Şəkidən-Bakıya gedib-gələrkən, mütləq İzzət bəyin məzarını ziyarət edirmiş. Buna aid bir fotoşəkli də kitabında çap elətdirib. Bizə də göstərdi:

"Bu şəkli Acıdərədəki şəhidlikdə çəkdirmişik. Oğlum İsfəndiyar və dostum Nurəddin Rzayevlə birlikdə. Acıdərədə 1918-ci il erməni-müsəlman qırğınında qardaşlarına köməyə gəlmiş Türk zabitinin məzarı başındayıq. Şəklin altında 1966-cı il yazılmışdır. Bunu söyləməkdə mənim məqsədim nədir? Azərbaycan türklərinin qardaşlarına sevgisi elə-belə yaranmamışdır. Bu sevgi özünü doğrultmuşdur. Yəni onlar bizə köməyə gəldi, bizi ermənilərdən xilas etdilər, bunun qarşılığında azərbaycanlıların əlindən də o gəldi ki, o məzarı qoruyub

saxlasınlar. Bu məzarlardan biri də mənim doğulduğum Şəkidədir. Orada gözəl bir abidə qoyuldu. Yanına da Türk və Azərbaycan bayraqları sancıldı." (Şəxsi arxiv).

Şair bir millətin görən gözü, eşidən qulağı, hayqıran səsi, vuran ürəyidir. Bəxtiyar Vahabzadə Qafqazın milli şairidir. Şairlər şairidir. Türk dünyasının ən böyük şeir ustalarındandır. Bəxtiyar bəyin içindəki yanğı heç sönməyib, qəlbindəki coşqu 18 yaşlı bir gəncin qəlbi kimi döyünür. Həyəcanını gizlətmədi. Acıdərədəki şəhidliyin yanında, yolun lap kənarında, buradan gəlib-keçənlərin görməsi, duyması üçün mərmərdən bir lövhə asdırıb.

**Bəxtiyar** bəy sözünə belə davam edir:

"Şairin nəyi olar. Şair öz sevgisini, məhəbbətini şeirlə ifadə edər.

*Yolun kənarında tənha bir məzar,*
*Üstündə nə adı, nə soyadı var.*
*Yolçu, maşınını saxla bu yerdə,*
*Bir soruş, bu kimdir tənha qəbirdə?*
*O, bir türk əsgəri, qəhrəman, mətin,*
*O, öz qardaşına köməyə gəldi.*
*Gülləyə tutulan millətimizin*
*Haqlı savaşına yardıma gəldi.*
*Uzaqdan səs verib sənin səsinə*
*Gəldi. O dönmədi öz ölkəsinə.*
*Düşmən səflərini o soldan sağa*
*Biçdi dostlarıyla, cəbhəni yardı.*
*Torpağın yolunda düşdü torpağa*
*Sənin torpağını sənə qaytardı.*
*Özü qoruduğu, həm can verdiyi*
*Yolun kənarında dəfn edildi o,*
*Uğrunda canını qurban verdiyi*
*Torpağı özünə vətən bildi o.*
*Yolçu, maşınını sən burda əylə*
*O məzar önündə sən təzim eylə.*
*Əl aç, dua eylə onun ruhuna*
*Ayaq basdığın yer borcundur ona.*

Bu gün həmin məzarın ətrafında bizim ayaq basdığımız o torpaq, o şəhidə, türk əsgərinə borcludur. Bunu bu şeirimlə millətimə təlqin etmək istəyirəm". (Şəxsi arxiv).

Hər millətin bayrağı özü üçün əziz, müqəddəsdir. Ancaq rəngini qəhrəmanların al qanından alan ay-ulduzlu sancağın göylərdəki görünüşü bir başqa şeydir. Üçrəngli yoldaşının, qardaşının yanında isə daha da məğrur, başı dik və nazlı-nazlı dalğalanır.

**9. Şəki şəhid məzarlığı:**

Qafqazın hər guşəsi insanlara ayrı bir gözəllik, ayrı bir dünya bəxş edir. Qaf dağı ucadır, keçilməzdir. Füzulinin baharı, yazı vəsf edərkən ***"yüz min çiçək dərildi"*** şeirinə nəzirə yazırmış kimi, yaz gələndə Qaf dağı yaşıla bürünür, al-əlvan çiçəklərlə bəzənir. Şəki və ətrafında təbiətin bu incə naxışlarını görmək mümkündür. Şəki, ya da qədim adı ilə desək, Nuxa, Qafqaz dağlarının qoynunda yerləşir. Dərələri, təpələri yaşıldan don geyinib.

Qafqaz sıra dağlarının cənub-şərq hissəsində yerləşən Şəki, bölgədəki türk tarixi və mədəniyyətinin ən əhəmiyyətli izlərini özündə əks etdirir. İpək qurdu və ipəkçilik sahəsində böyük şöhrət qazanmışdır. Qədim mədəniyyət tarixinə malikdir. Yüz illər boyu Şəki xanlığının mərkəzi olmuşdur.

Şəkidəki Yuxarı Karvansara yüz illər boyu buradan gəlib keçənlərə ev sahibliyi etmişdir. Elə bu gün də yerli və əcnəbi turistlərə xidmət göstərir. Xoruzlar sübhün xəbərçisidirlər. Bülbül isə ən gözəl nəğmələrini səhər vaxtı gül üçün oxuyur. Günün ilk şəfəqləri ilə karvansarada həyat başlanır. Yolunuz Şəkiyə düşərsə, gözəl bir günə başlamaq üçün sizi salamlayan bülbüllərin səsini dinləyin və dağlarda günəşin ilk şəfəqlərinə mütləq baxın.

Şəkidən çıxıb Bakıya gedərkən, təxminən 10 dəqiqə sonra sola, Qaf dağına doğru bir yol ayrılır. Bu yol Vərəzət kəndinə qalxır. Qafqaz dağlarına söykənib uzaqdan Kür çayını seyr edən Vərəzət kəndinin girişində, Çələngəz deyilən yerdə bir qəhrəman uyuyur.

**Əşrəf Məmmədov:**

"Çələngəz" abidə-xiyaban kompleksi 2002-ci ilin may ayının 28-də Azərbaycanın müstəqilliyinin elan edildiyi gündə xalqımızın üzünə açıldı. Yeni ailə quran övladlarımız buraya gələrək dua edir, şəkil çəkdirirlər. Gələn qonaqların içərisində nazirlər, səfirlər, millət vəkilləri, tarixçilər, əsgərlər, din xadimləri də olur.

Abidə kompleksini ziyarət edənlər arasında Türkiyə Respublikasının Dəyanət İşləri Başqanı Mehmet Nuri Yılmaz, bütün Qafqazın şeyxi Hacı Allahşükür Paşazadə, Şəki-Qəbələ bölgəsinin Qazısı Hacı Səlim Əfəndi, Hollandiyadan çağdaş dünyamızın böyük səyyahı - missioner Tur Heydral xanımı ilə birlikdə, Moskvadan SSRİ Ali Məhkəməsi Rəyasət Heyətinin qırx il ərzində üzvü olmuş, dünyanın ən görkəmli hüquqşünaslarından biri, hüquq elmləri doktoru, professor İsmayıl Alxasov, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Xarici Kəşfiyyat İdarəsinin rəisi olmuş, general Hacı Əlihüseyn Əliyev, İstanbuldan görkəmli türkoloq alim, xeyriyyəçi Turan Yazqan, Kalininqraddan hərbi xadim Nurməmməd Musayev, Türkiyə silahlı qüvvələrinin yüksək rütbəli hərbçiləri də vardı. Buraya gələn hər kəs erməni terrorunu, acgözlüyünü, təcavüzkar xislətini lənətləyir.

Türk Qafqaz İslam Ordusunun 1918-ci ildə erməni daşnak-rus bolşevik qırğınına son qoyduğu illərdə, Şəkidə də böyük həyəcan var idi. Şəkililər Nuru paşanın ordu birləşmələri yaratmaq üçün müxtəlif bölgələrə göndərdiyi zabitləri, qəhrəmanları mehribanlıqla qarşıladılar. Onlarla əlbir olub qırğının qarşısını aldılar. Çələngəzdə əbədi uyuyan qəhrəman Mehmetçik də Şəki bölgəsində namərd gülləsindən şəhid olan bir türk əsgəri idi.

Ətraf camaat, bu barədə olan əhvalatları hər vəchlə yeni nəslə çatdırmaq istəyirlər. Bunlardan biri də Azərbaycan və Türk dünyasının ən böyük şairlərindən biri olan **Bəxtiyar Vahabzadədir:**

"Mənim atamın baldırında bir yara vardı. O yara erməni gülləsinin yarası idi. 18-ci ildə Türkiyə türkləri buraya gəldiyi zaman, atam da onlara qoşulmuş, ermənilərə qarşı vuruşmuş və ayağından yaralanmışdır. Atam o müharibədən danışardı. Atam o qırğından bəhs edərkən, ağlayardı, "Türklərin o yaxşılığını unutmaq olmaz, oğlum" - deyərdi. Bəzi hadisələri xatırlayardı. Atamla bərabər döyüşən türk əsgərləri arasında Xülusi adlı bir əsgər var imiş. Atam o əsgərin qəhrəmanlığından danışardı. O necə qəhrəmancasına, cəngavərcəsinə "Allah, Allah" deyib hücuma keçərdisə, o biri əsgərlər, könüllülər də onun arxasınca hücuma keçərmişlər. Atam onu hər zaman xatırlayırdı. Mən 1925-ci ildə doğulmuşam. O döyüşdə iştirak edənlər və ya o qırğının şahidi olanlar həmişə o çağlardan danışardılar. Türk adı gələndə gözləri yaşarardı. Mənə deyirdilər ki, "Oğlum, əgər türklər gəlməsəydi, azərbaycanlılardan bir nəfər belə sağ qalmayacaqdı. Hamısını qıracaqdılar." Bunu yalnız mənim qohum-əqrəbalarım demirdi, bütün millət danışırdı. Ona görə də mən hələ uşaq ikən, 7-8 yaşlarından etibarən qəlbimdə türklüyə qarşı bir sevgi, bir məhəbbət yaranıb, qəlbimdə türkün böyüklüyünə, qəhrəmanlığına qarşı bir sevgi yaşadıram. Mən özüm də türkəm. Amma bilirsiniz ki, o zamanlar türk demirdilər, adımızı dəyişdirib "azərbaycanlı" dedilər. Amma türk sevgisi millətin arasında yaşayırdı. Mən bunun şahidiyəm. Bunu bir-iki nəfər deyil, bütün Şəki əhli danışırdı." (Şəxsi arxiv).

Xalq şairi Bəxtiyar Vahabzadənin atası da Türk Qafqaz İslam Ordusu sıralarında vətənin müdafiəsinə qalxmışdı. Şairin uşaqlığı bu hekayələri dinləyərək keçmişdi.

**Bəxtiyar bəy:**

"Atam və silahdaşları Şəkidən 30- kilometr uzaqda - Söyüdlü kəndində döyüşmüşlər. O haqda mənə hekayətlər danışardı. Türk əsgərinin qəhrəmancasına döyüşməsini xatırlayardı. Deyərdi ki, türk əsgərinin gözündə qorxu yoxdur. "Allah, Allah" dedilərsə, vəssalam, qarşıda dağ olsa belə, sanki vurub dağıdacaqlar. Atam bunları danışarkən ağlardı. Atam deyirdi: "Biz azərbaycanlılar uzun illər rus yumruğu altında yaşadıq. Bizim öz dövlətimiz olmadı, ona görə də ruslar bizdən əsgər aparmazdılar. Bizim əsgərlik edəcəyimizə inanmazdılar. Bizdən ancaq əsgər

vergisi toplayardılar. Ona görə də "biz də türkük, biz də eynən onlar kimiyik, bəs nə üçün biz onlar kimi döyüşə bilmirik" deyə düşünürdük. Ruslar bizdə o hissi öldürdülər, əsgər hissini yox etdilər, qəhrəmanlıq duyğusunu məhv etdilər, bizi mütiləşdirdilər. Ona görə də biz döyüşməyi o zaman türklərdən öyrənirdik. Bizimlə bərabər döyüşürdülər, ancaq biz heyrət edirdik; Allah, Allah, bu necə olur deyə, heyrətimizi gizlətmirdik. Necə olub ki, bizdə bu qəhrəmanlıq, düşmənə qarşı amansızlıq yoxdur. O zaman türklərin buraya gəlib döyüşmələri azərbaycanlıların gözünü açdı. Vətəni belə müdafiə edərlər, vətəni belə qoruyarlar, dedik". (Şəxsi arxiv).

Sovet hakimiyyəti illərində kommunistlər Şəkidə uyuyan Mehmetçik haqqında tarixə, ağıla və vicdanlara sığmayan iftiralar atmaq istədilər. Hətta daha da irəli gedərək, burada yatan adamın bir tacir olduğu haqqında şayiələr yaydılar. İyrənc yalanlar uydurdular. Guya duz satırmış, yun ticarəti ilə məşğul olurmuş. Quldurlar yolunu kəsib pullarını almış, özünü isə öldürmüşlər...

Sovet dövründə, "Tək qəbir"də uyuyan şəhid türk əsgəri haqqında söylənən iftiralar barəsində, **Əşrəf Məmmədov** (Şəki şəhər İcra hakimiyyətinin sabiq başçısı), belə məlumat verməkdədir:

Mən hələ uşaq olarkən tez-tez kəndimizdən buranı ziyarət etməyə gələrdik. İlk əvvəl insanlara buranın ətrafını çəpərləməyə belə imkan vermirdilər. Sonralar ağacdan çalçax düzəldərək qəbiri hər tərəfdən haşiyəyə aldılar. Daha sonralar isə gördüyünüz kimi dəmir məhəccərlə əvəz etmişlər. Azərbaycan nə qədər ki, rus-sovet imperiyasının tərkibində zorla saxlanılırdı, buraya vəzifəli şəxslərin gəlməsi qadağan idi. Bununla belə qadağalar sıravi insanlara öz təsirini göstərməkdə çox aciz idi. Şəki şəhərindən və ətraf kəndlərdən adamlar gizlin olaraq buraya gəlir və "Tək qəbiri" yad edirdilər. 1930-cu illərdə həmin qəbiri yaddaşlardan silmək, izini itirmək üçün buradan keçən dədə-baba yolumuzu bağladılar, indi həmin yoldan nişanə belə yoxdur. Qəbirin ətrafındakı mühafizə çəpərini sökdülər. Görəndə ki, insanlar buranı yenə də ziyarət edirlər, bu dəfə qəbirin əsas nişangahını - nəhəng palıd ağacını kəsərək yox etmək istədilər. Amma adamlar palıd ağacına müxtəlif rəngli əsgilər bağlamaqla onu toxunulmaz etdilər. Buranın fiziki məhvindən ehtiyatlanan imperiya əyanları ideoloji maşının bütün gücünü "Tək qəbirin" tarixinin saxtalaşdırılmasına yönəltdilər. Əsas hədəf gənc nəslin düşüncəsinin yanlış formalaşdırılması idi. Yaşlı nəsil bu qəbirdə kimin uyuduğunu yaxşı bilirdi. Yalanla yüklənmiş təbliğat, dünənini özündə yaşadan qafalarda çətin ki, hər hansı bir dəyişikliyə yol aça bilərdi. Ona görə də yetişməkdə olan gənc nəsil arasında təbliğatın aparılmasına daha çox üstünlük verirdilər. Günlərin bir günü Vərəzət kəndində ibtidai sinif şagirdlərini həyətə toplayaraq mühazirə söyləməyə başladılar. Mühazirəni şəhərdən gəlmiş Maarif Şöbəsinin inspektoru oxuyurdu. "Tək qəbirin" tarixindən də danışdı. O, dedi:

- Uşaqlar, savadsız adamların kor-koranə söhbətlərinə inanmamalısınız, bir çox məsələlər barəsində uydurma danışırlar. Məsələn: götürək sizin kəndinizin girəcəyindəki "Tək qəbir" barəsində danışılan sözləri. Həmin "Tək qəbir" kimindir? Sizlərə bunu anlatmaq istəyirəm ki, Ərəbistandan bu yerlərə dəvə ilə nöyüt, duz gətirərlərmiş. Həmin adamlar mallarını satdıqdan sonra qayıdıb gedərlərmiş. İldə bir neçə belə ticarət karvanı gələrmiş. Həmin səfərlərdən birində ərəblər öz malını satıb qayıdarkən, bizimkilər onları tamah məqsədi ilə öldürərək pulunu ələ keçirmiş və elə oradaca torpağa basdırmışlar. Uşaqlar bu barədə eşitdiklərinə mütləq həqiqət kimi baxırdılar, əsas da ona görə ki, müəllimləri də inspektorun söylədiklərini sonrakı günlərdə təkrarlayaraq, uşaqlara çatdırırdılar. İbtidai sinif şagirdləri isə müəllimlərinin dediklərinə pozulmaz qanun kimi baxırdılar. Hətta evdə valideynləri həqiqəti söylədikdə belə, uşaqlar öz müəllimlərinin dediklərinə inanmaqda davam edirdilər. Şəhərdən gələn inspektorun mühazirəsinə qulaq asan ibtidai sinif şagirdlərindən biri də mən idim. Həmin gün evə qayıdaraq inspektorun söylədiklərini olduğu kimi anama danışdım.

Anam Zərqələm xanım bu fikrə dərhal öz etirazını bildirdi:

- Tək qəbir övliyadır, bala, - dedi. - çox keçməz ki, həmin adamların cəzasını Allah özü verər. Sən heç zaman oraya şəkk-şübhə gətirmə.

Amma tarixi həqiqətləri nə yolla olursa olsun gənc nəslə ötürməyə çalışan qədirbilən adamlar da var idi. Bunlardan biri - Əşrəf müəllimin atası İsrafil kişi, "Tək qəbir" haqqında bildiklərini övladlarına belə danışarmış:

Keçmişdə gavurlar (erməni və rusları nəzərdə tuturdu) bizləri yurd-yuvalarımızdan didərgin salanda, körpə uşaqlarımızı, ahıl qocalarımızı öldürəndə bizi bu bəladan qurtarmaq üçün türk qardaşlarımız Anadoludan, Osmanlıdan gələrək arxa durdular, erməninin, rusun əlindən bizi aldılar. Gavurların planı torpaqlarımızı ələ keçirmək, özümüzü isə yer üzündən yox etmək idi. Həmin vaxt türk generalı Nuru paşanın komandanlığı altında Naxçıvana, Bakıya, Gəncəyə, Şamaxıya, Qarabağa, Qubaya gələn türk əsgərləri gavurlarla mücadiləyə girişdi. Türk ordusunun 130 nəfərlik bir heyəti də, Şəki rayonunun ərazisində yerləşdirilmişdi. Onlar Şəkinin ərazisinə Ağ Piləkən, Səbətli kəndləri, Oğuz rayonunun Calıd kəndi istiqamətindən erməni-rus silahlı birləşmələri tərəfindən edilən təcavüzün qarşısını alırdılar. Erməni-rus silahlı qrupları azərbaycanlıların hər gün qanını tökür, günahsız insanları öldürürdülər. Şəkidə ən böyük müdafiə zolaqları Zəyziddə, Göynükdə idi. Bu yerləri ələ keçirdikdən sonra Şəki şəhərini tutmaq istəyirdilər. Vərəzət kəndinin girəcəyində gavurlarla döyüş başlayır. Bizimkilərin tərəfində Nuru paşanın 60 nəfərdən ibarət kəşfiyyatçı əsgərləri də vuruşurdu. Bir ay gecə-gündüz davam edən silahlı və əlbəyaxa toqquşmalardan sonra erməni-rus birləşmələri darmadağın edilərək məğlubiyyətə uğradıldı. Əgər türk əsgəri olmasaydı çətin ki, bizimkilər təpədən-dırnağa silahlanmış düşmənin

öhdəsindən gələ bilərdi. Türk əsgəri öz vətənində, öz torpaqlarını, qardaş-bacılarını, analarını-atalarını qoruyurdular. Ona görə də güclü idilər. Gavurların silah-sursatları çox olsa da, onlar bizim torpaqlarımıza təcavüz etmişdilər, heç bir günahı olmayan dinc insanları qırırdılar. Allah da bunu heç zaman bağışlamazdı. Bağışlamadı da!

Oradakı döyüşlərdə 6 nəfər türk əsgəri, 70 nəfər şəkili şəhid oldu. Camaatımız şəhid türk əsgərlərini öz övladları kimi mücadilə etdikləri torpaqlarda - Vərəzət kəndinin girəcəyində yolun kənarında, çəmənlikdə dəfn etdilər. Camaatımız bu qəbiri ziyarətgaha çevirdi, qorudu və indiyədək də qorumaqdadırlar. Həmin qəbirin yerinin itirilməsi üçün çox cəhdlər, fitnə-fəsadlar olmuşdur. Lakin camaatımız bu fitnəkarlıqların qarşısını almağı hər zaman bacarmışdır. Görəndə ki, "Tək qəbir"i fiziki olaraq məhv edə bilmirlər, başladılar buradakı qəbirdə yatan şəhidlərin alverçi ərəblər olduğunu təbliğ etməyə. Həyasızlıq o həddə çatdı ki, utanmadan hələ bu alverçi ərəbi bizimkilərin tamah məqsədi ilə öldürdüyünü də üzümüzə dedirtdilər...

Gün gələcək Allah hər şeyin öz adı ilə çağırılmasına imkan verəcəkdir!

Ora Türk qəhrəmanı Nuru paşanın əsgərinin qəbridir. Allahdan onlara rəhmət diləyirəm! Bu qeyrətli türk generalı olmasaydı, kim bilir indi biz harada idik...

Şəkililər Vərəzət kəndinin girişində kərpicdən bir tağ düzəltdilər, yolu da işıqlandırdılar. Burada yatan qəhrəman Mehmetçiyin torpağa üz qoyduğu yerdə bir məzar tikdilər. Bu naməlum əsgərin əbədi yuxuya getdiyi bu yerdə bir abidə yüksəltdilər. Bu, adı heç kimə bəlli olmayan əsgər Qafqaz dağının döşündə ənginlikləri seyr edərək, nazlı bayrağın kölgəsində, rahat və səssizcə uyuyur. Orada palıdların və qaraağacların kölgəsində yatır. Dədə Qorqud diyarından, qarşı yatan qara dağların ardındakı Anadoluya dikilmiş gözlərinin yuxusuna kim bilir nələr və kimlər gəlir.

Sovet dövründə 1918-ci il Qafqazda erməni-müsəlman qırğınının üstünü örtməyə çalışırdılar. O zamanlar qəhrəmanların Azərbaycanın köməyinə gəlməsi, bu torpaqda qəhrəmanlıqla vuruşub şəhid olmasını unutdurmaq istəyirdilər. Məzarlar dağıdıldı, ziyarət qadağan edildi. Bu məkanların "qorxu mərkəzi" olması üçün hər vasitəyə əl atıldı. Ancaq bacarmadılar. Bu gün isə o yerlərə - şəhid məzarlarına şəhər idarələri və dövlət adamları sahib çıxırlar.

**Firudin İbrahimov** - (Şəki rayon İcra Hakimiyyəti İctimai-Siyasi şöbəsinin müdiri):

"Azərbaycan Qırmızı İmperiyanın hakimiyyətinə girmişdi. Bu imperiyanın başlıca məqsədi, müxtəlif yollardan istifadə edərək Azərbaycan və digər dövlətləri öz əsarəti altında saxlamaq idi. Ən başlıca yol isə millətin özünü dərk etməkdən məhrum edilməsi idi. Türk qəbri olan bu yerdə yatan şəhid, Azərbaycanın

müstəqilliyi üçün mübarizədə özünü qurban vermişdi. Lakin bu həqiqət xalqdan uzun illər gizlədilmişdi." (Şəxsi arxiv).

Şəki xalqı bu yalanlara heç bir vaxt inanmadı. Ancaq əllərindən də bir şey gəlmirdi. Bu yalanların cavabı yalnız Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra verilə bildi.

**Firudin İbrahimov:**

"Görün nə qədər amansız, nə qədər riyakar bir siyasət yeridilirdi. Millət dostunun-düşməninin kim olduğunu dərk etməsin, onunla bərabər Azərbaycan torpağı üçün kimlər mübarizə aparır? Yəni millət, həqiqətləri bilməkdən məhrum olsun. Qırmızı imperiya bunun üçün çox mübarizə apardı". (Şəxsi arxiv).

Həqiqətləri bilmək gələcək nəsillərin haqqıdır. Millətləri öz mənliyindən, ruhundan qoparmaq mümkün deyildir. Şəkililər də Azərbaycan müstəqillik qazandıqdan sonra, 1918-ci ildə Qaf dağından qopan harayı eşidib, köməyə gələn qardaşlarını heç bir zaman unutmadıqlarını, onların xatirəsini əbədiləşdirməklə göstərdilər.

Abidə 1999-cu ildə inşa edildi. Digər şəhid məzarlıqlarında olduğu kimi Şəkidəki abidə də eyni ölçülərdə hazırlandı. Qəhrəmanların xatirəsinə yaraşan bir yerdə par-par parıldayan, tərtəmiz, geniş bir parkın içərisində qoyuldu.

Xalq şairi Bəxtiyar Vahabzadə şəkilidir. Vərəzət kəndindəki şəhidlikdə də bir şeiri həkk olunub. Şeir bir daş parçasının üzərində qazılaraq yazılmış və əbədiyyətə əmanət edilmişdir:

*"Yolçu, dayan burda, düşün bu yerdə*
*Soruş, kimdir yatan bu daş qəbirdə.*
*O bir türk əsgəri, yarandı Haqdan*
*Sənin köməyinə gəldi uzaqdan.*
*O, sənin arxanda bir dağa döndü*
*Bu torpaq yolunda torpağa döndü.*
*Yolçu, bir anlığa burda dayan, dur*
*Ayaq basdığın yer ona borcundur.*

Böyük şairlərin arzuları da, sözləri də böyük olur. Millətin ürəyindən keçənləri dilə gətirirlər. Bəxtiyar bəy: "Bu gün həmin o məzarın ətrafında bizim ayağımızı basdığımız o torpaq, o şəhid türk əsgərinə borcludur. Yazdığım şeirlərlə bunu millətimə bildirmək istədim" - deyərək üzərinə düşən vəzifəni yerinə yetirməyə çalışır.

Bəxtiyar Vahabzadə bu şeiri əslində iki variantda qələmə almışdır. Şeirin yazılmasının tarixçəsini **Əşrəf Məmmədov** (Şəki şəhər İcra hakimiyyətinin sabiq başçısı) belə anlatmaqdadır:

Bütün Türk dünyasının fəxri olan Bəxtiyar Vahabzadə Şəkidə naməlum türk əsgərinin qəbrinin üstündə olarkən, olub keçənləri təkrar yaddaşına qaytarırdı.

Gözlərində yaş olsa da sifətində işıq, əhval-ruhiyyəsində sevinc duyulurdu, burada görülən işlərdən hədsiz məmnun idi:

- Çox sağ ol, Əşrəf müəllim. Sən hamımızın içindən gələn bir səsi tutmusan. Bu abidəni ucaltmaqla birinci növbədə bizim insanlıq naminə, vətən naminə, haqq-ədalət naminə canını fəda etmiş türk əsgərinə olan borcumuzu, Azərbaycan xalqının, yetişməkdə olan yeni nəsillərin qarşısında yaddaşlarımızın bərpası ilə bağlı olan borcumuzu yerinə yetirmisən. Türk əsgəri təkcə qan, məslək qardaşlarını erməni taunundan xilas etməmişdir. O, həm də yer üzündə demokratik dəyərlərin, insanlığın, mədəniyyətlərin mühafizə edilməsinə özünün töhfəsini vermişdir. Əbəs yerə türk əsgərini "Mehmetçik" deyə çağırmırlar. Türk əsgərinin ayağı haraya dəymişsə orada özgürlüyü, barışı, ədaləti təmin etmişdir. Bizdən əvvəlki nəsillərimiz bunun şahidi oldular. Bizim nəsillər bunları öz ata babalarından eşitdilər, bizdən sonrakılar da, bu abidəni ziyarət edəcək və tariximizi öyrənə biləcəklər.

Mən yaranmış bu tarixi andan istifadə edərək, təşəkkürümü bildirir və bəzi istəklərimi buradaca açıqlayıram. Bəxtiyar müəllim, istəyirik "Tək qəbirlə" bağlı, şəhid türk əsgərinin şəninə bir şeir həsr edəsiniz. Bu şeir parçasını oxuyan hər kəs "Tək qəbirin" tarixini, türk əsgərinin məqsədini öyrənə bilsin, şəhid əsgər kimdir, haradan gəlmişdir, nə üçün və kimlərə qarşı bu torpaqlarda döyüşmüşdür.

O, razılaşır və dərhal:

- Nə vaxta lazımdır bu şer? - deyə soruşur.

- Buranı Allah qoysa 2002-ci ilin birinci yarısında istifadəyə verəcəyik. Həmin vaxta qədər olsa yaxşı olar. Şeri xususi olaraq mərmər lövhəyə nəfis yazdıraraq xiyabanın görkəmli yerindən asa bilərik. Lakin inanmıram ki, mərmər lövhə şəhid ruhunu qəlblərdə səsləndirə bilsin. Allah qoysa biz "Tək qəbirə" həsr edilmiş şeiri Şəkinin ruzili-bərəkətli, güllü-çiçəkli torpağında, sel-suların coşub-daşdığı çaylarına, yeri-göyü titrədən küləyinə min illər ərzində sinə gərmiş, türk ərənlərinin ləpirini özündə yaşadan çay daşına həkk edəcəyik. Fikrimiz belədir.

Bəxtiyar Vahabzadə aradan iki ay keçdikdən sonra mənə aşağıdakı məzmunda bir məktub ünvanlayır:

"Salam Əşrəf müəllim!

...Naməlum türk əsgərinin abidəsi üçün istədiyiniz şeiri iki variantda yazdım. Özünüz seçin. Mən iki bəndlik şeiri daha münasib bilirəm, hər halda məsləhət sizindir...

Hörmətlə, Bəxtiyar Vahabzadə. 30.04.2002"

Şerin birinci variantı belə idi:

*Gərək ibrət ola bu günə keçmiş,*
*Gətir xatirinə ötən illəri.*

*Basdığın torpağı xilas eyləmiş,*
*Qan qardaşın olan, bu türk əsgəri.*

Əşrəf müəllim, şəkili ağsaqqallarla müzakirədən sonra, şeirin ikinci - bilinən variantını seçdiklərini söyləyir.

Ziyarətçilər, Qaf dağının dadlı suyunu doya-doya içsinlər deyə, məzarın ətrafında bir gözəl çeşmə də inşa edilib. Türk şəhidi, yanında kövsər kimi dadlı su, kürəyini Qaf dağına söykəyib, uzaqları, düzənlikləri, təpələri seyr edir. Gün batanda Qarasu, Mollalı və Çayarxı obalarını salamlayır. Qafqaz dağının dörd bir yanında uyuyan qəhrəmanların məzarında olduğu kimi, Şəkidə yatan Mehmetçiyin dəfn olunduğu yer də bir ümid qapısı olub. Ürəyində arzusu olanlar, xüsusilə də gənc qızlar buranı bir ziyarətgaha çeviriblər.

Şəki ilə Qara dəniz sahilindəki şirin Girəsun qardaşlaşmış şəhərlər elan edildi. Şəki şəhər İcra Hakimiyyəti Çələngəzdəki şəhidliyin yerləşdiyi yerlərə turist səfərləri təşkil etməyi planlaşdırır. Dörd bir yandan gələn qonaqları qəhrəmanların hekayəti ilə tanış etmək istəyirlər.

Gün yavaş-yavaş əyilir, qarşı yatan dağların arxasında gözdən itir. Göy üzü qızılı rəngə boyanır, qaranlıq səssizcə Qaf dağını ağuşuna alır. Qaf dağı da bir ana şəfqətiylə Şəkini qoynuna alıb. Eyni ilə bu torpaqlar üçün torpağa düşmüş adsız qəhrəmanı qolları üstündə uyutduğu kimi. Çələngəzdəki şəhidliyi ziyarətə gələnlər məzarın ətrafında gün batmasını bu duyğularla seyr edirlər. Adsız şəhidlə birlikdə, günbatandakı Anadolu yaylalarına salamlarını yollayırlar.

**10. Baş Göynük şəhid məzarlığı:**

Qaf dağı hər mövsümdə gözəldir. Qoynundan çıxan, köksündən fışqıran sular obalara bərəkət verir. Göy üzü, bəzən sanki deşilir, leysan yağış yay aylarında belə güclü sel olub aşağılara doğru axır, düzə doğru enərkən daşqınlara səbəb olur. Baş Göynük qəsəbəsi də Qafqaz dağlarının qoynuna, ətəyinə sığınmış fındıq bağlarının içindədir. Ağcaqayınların, palıdların, şamların, fındıqların arasında gizlənmiş kimi görünür. Şəkiyə yaxın, şirin, gözəl bir qəsəbədir.

Baş Göynük qəsəbəsinə gedişimizdən bir həftə əvvəl bölgədə şiddətli yağış yağmışdı. Sel beton körpünü uçurmuşdu. Dağlardan qopub gələn çayın suyu azğın, bulanıq, lilli axırdı. Baş Göynüyə çatmaq üçün çayı keçməmiz lazım gəlirdi. O taya yalnız ciplə keçmək mümkün idi.

Baş Göynük qəsəbəsinin şərqində, bir təpənin ətəyində Türk Babanın məzarı var. Türk Baba 1918-ci ildə bu torpaqların ermənilərdən təmizlənməsi üçün Türk Qafqaz İslam Ordusunun heyətində buraya gəlmiş əsgərlərdəndir. Əsl adı Şəhabəddin bəydir. Ancaq yerli əhali ona Türk Əhməd və ya Türk Baba adını verib.

Türk Qafqaz İslam Ordusu Azərbaycandan gedəndən sonra Şəhabəddin bəy bu bölgədə qalır və Baş Göynükdə məskunlaşır. Baş Göynüklü Fatma xanım ilə

evlənir. Bu evlilikdən Saleh adında bir oğlu dünyaya gəlir. Şəhabəddin bəy Baş Göynüklülərlə qaynayıb-qarışmışdı. 1930-cu ildə Baş Göynüklülər hakimiyyətə qarşı üsyana qalxıb, 3 gün müddətində Şəkini ələ keçirərək siyasi dustaqları azadlığa buraxıblar. Ancaq Qızıl Ordu və KQB qarşısında aciz idilər. Bu üsyanın iştirakçılarından ələ keçənləri bir fındıq bağçasında sıraya düzüb güllələdilər. Bu bağçanın sahibi Şahbaz Abdullayeva indi 85 yaşındadır. Şəhabəddin bəylə qonşu olmuşlar, onu tanıyanlardan biridir. Şəhabəddin bəyin məzarı Şahbaz ananın fındıq bağçasındadır.

Sovet hakimiyyəti dövründə, Stalin rejimində vətənsevərlər çox böyük məhrumiyyətlərə düçar idilər. Sovet rejiminə qarşı çıxanlara, öz dövlətində azad və müstəqil yaşamaq istəyənlərə, xalq düşməni, rejim müxalifi damğası vurulurdu. Türk Əhməd də bunlardan biriydi. Türk Babanın edamı son dərəcə acınacaqlıdır. Qızıl Ordu əsgərləri Şəhabəddin bəyin öz məzarını özünə qazdırmış, məzara düşmək üçün məzarın baş tərəfinə keçməyi və kürəyini silahlılara tərəf döndərməyi əmr etmişlər. Şəhabəddin bəy qorxu bilməyən bir qəhrəman idi. 1918-ci ildə çox xain pusqusundan qurtulmuş, düşmən mərmilərinin üzərinə atılmışdı. Bu əmri heç düşünmədən rədd etdi. Düşmənin gülləsinə tərəf arxasını deyil, üzünü çevirdi və qəhrəman olduğunu bir daha sübuta yetirdi.

**Şahbaz Abdullayeva:**

"Əsgərlər Türk Babaya arxasını çevirməyi əmr etdilər. O isə "mən düşmənə arxamı çevirmərəm, sinəmdən vurun" dedi. Sonra vurdular. Bir gülləyə yıxılmadı, ikinci, ardınca üçüncüsünü vurdular. Yıxıldı. Sonra "La-ilahə-illəllah, Muhəmmədən Rəsulullah" dedi və qiblə tərəfə yatdı. 5-10 dəqiqə sonra yanına getdilər, ayaqlarıyla yoxladılar. Biri - hələ də ölməyib, burda bir sehr var, - dedi. Sonra biz uşaqları oradan qovdular. Onu məzara saldılar, üstünü torpaqla örtüb, çıxıb getdilər." (Şəxsi arxiv).

Türk Əhməd düşmən gülləsinə arxa çevirmədi. Onun bu igidliyi xalq arasında dildən-dilə gəzdi, beləcə, əfsanəyə döndü. Məzarı yerli əhali tərəfindən müqəddəs bir yer kimi qəbul edildi. Türk dünyasının bir çox yerlərində olduğu kimi, Türk Babanın qəbri də Sovet hakimiyyəti illərində qada qurbanlarının kəsilib kasıblara paylanıldığı yer halına gəldi.

**Şahbaz nənə:**

"Camaat bura gizlicə, qorxa-qorxa gəlirdi. Kimsənin eşitməməsi üçün duaları sakit səslə oxuyurdular. Qurbanı burada kəsib, sonra aparıb məhəllələrdə paylayardılar. Sovet hökuməti illərində burada qorxu hakim idi. Mənim İmanullah adında bir əmim oğlu var idi, 3 uşağı doğulmuş, lakin yaşamayıb ölmüşdülər. Burada qurban kəsdi, ondan sonra 5 uşağı oldu. Bizdə Yaqub adında bir həkim var. O, canlı şahiddir. Bir xəstəsi vardı, çox ağır xəstə idi, nəfəs ala bilmirdi. Burada qurban kəsdi, indi yaşı 70-i keçib. Sağ-salamatdır. Çox yerdən çox adam gəlib

burada qurban kəsir, niyyət edirlər. Bu Türk Əhməd Baba həqiqətən bir pirdir. Məzarının üstünə nur endiyini bütün camaat görüb". (Şəxsi arxiv).

Şahbaz ana məzarın ətrafına dəmir barmaqlıqlar qoydurmuş, məzarın itib-batmamasına nəzarət etmişdir. 1930-cu ildə Şəhabəddin bəylə birlikdə daha 14 nəfər də qətlə yetirilib. Onlar da bu fındıq bağçasında, Türk Əhmədin məzarından 20-30 metr qabaqda bir-biri ilə yanaşı uyuyurlar. Baş Göynük xalqı Şəhabəddin bəyin məzarının olduğu yerdə bir abidə qoydurmaq istəyirlər. Bunun şəhidə bir vəfa borcu olduğunu düşünürlər.

**Nadir İmanov,** Baş Göynük bələdiyyə sədri:

"Bizim el-oba günahsız Türk Əhmədin qəbrini Sovet dövründə qoruyub saxlamışdır. İndi də bu mərhumun qəbir-abidəsini ucaltmaq fikrindəyik. Bunun üçün işlər gedir." (Şəxsi arxiv).

Şairə Ümmügülsüm, Azərbaycan türklərinin hisslərini, duyğu və düşüncələrini şeirə hopduran sənətkarlardan biriydi. Şanlı Türk Ordusuna ithaf etdiyi şeirlərindən biri də belədir:

**YOLUNU GÖZLƏRDİM!**

*Yürüyərkən ölüm saçan fırtınalar önündən,*
*Uçqun dərələrə uzdum, təpələrə dırmandım.*
*Baxdım ki, yox xilas yeri fələkətin cəngindən,*
*Qara yaslar amma yenə gözlərimə çarpındı*
*Səmimi bir məhəbbət bir an məni saxladı.*

*Görürdüm ki, ağ dumanlar, qara sislər altında,*
*Türk elinin səadəti, xanimanı yıxılır,*
*Ləpədöyən qan izində, girdabların ağzında*
*Qəhrəmanlar çapalayır, mərd igidlər can verir,*
*Ah, sevimli yurdum, dözə bilməm bu kədərə,*
*Dözəmmərəm, ciyərimi parçalayan bu zəhərə.*

*Yaşamaram səndən uzaq, dözmərəm o hicrana,*
*Yaşamaram, əziz anam, çəkəmmərəm o dərdi.*
*Heç sönməyən kinlərimlə üzü qara düşmənə*
*Alov saçan dodaqlarım bəd dualar söylərdi.*
*Halsız-halsız sürünürdüm, birdən qalxıb yeridim.*
*Düşmən məni izlədikcə namusumu qorudum.*

*Qəlbi yanıq sızlayaraq gəzdim vəhşi çölləri,*
*Ürəyimdə yuva salmış böyük arzu, böyük kam.*

*Boğularaq, inləyərək rübabımın telləri,*
*Dağlara əks-səda verir: İntiqam, intiqam!*
*Dinlədikcə o səsləri, mənə qarşı anlardım,*
*Bir qurtuluş ümidilə izlərini axtardım.*

*Hanı mənim ardı-önü düşmən kəsən qılıncım?*
*Haradadır igid qardaş, hayanda gözlədiyim?*
*Neyçün susmuş biləklərim, hanı mənim o gücüm?*
*Neyçün gəlmir böyük ordu, neyçün gəlmir sevdiyim?*
*Uca dağlar, arzumuzun salamına yetişin,*
*Məni qurtarmağa gələn dostlarıma yol verin.*

*Budur gəldin, gözlərimin yaşlarını qurutdun,*
*Nəvazişin ovunmayan qərib ruhu oxşadı.*
*Heç ölçüyə sığmayan dərdlərimi ovutdun.*
*Qara günüm hilalının işığıyla parladı.*
*Artıq mənə nəsib deyil şadlıq, sevinc, - deyərkən*
*Gəldin, aldın ürəyimi: - ağlama, gül, - dedin sən.*[82]

Şəki Qafqazda müstəsna bir yerə malikdir. Miladdan sonra 7-ci əsrdən etibarən Xəzər türklərinin əlverişli bir məskunlaşma mərkəzinə çevrilmişdi. Daha sonrakı yüz illərdə isə Şəki xanlığının paytaxtı olmuşdu. Şəki baramaçılıq və ipəkçiliklə dünyada məşhurdur. Qafqaz dağlarının qoynunda, Ərgənəkon vadisi kimi bir yerdə, dörd bir yanı uca dağlarla əhatələnmiş, yaşıllıqlar əhatəsində, kirəmitlə örtülmüş evləri olan şəhər. Tosya, Kütahya, Amasya, bəlkə elə Tokat kimi özünə məxsus memarlıq üslubu var. Sarayları, məscid və mədrəsələri, karvansaraları olan bir mədəniyyət mərkəzidir.

Şəkidə acılar içində çırpınan bir ürək var. Adı Məmməd Əmin Hacıməmmədov, bir Türk zabitinin oğlu. Türkiyədəki qohumlarını axtarır. O, böyük ümidlə, inadla uçan quşdan da xəbər gözləyir. Atası minbaşı İsmayıl Haqqı bəy Nuru paşanın komandanı olduğu Türk Qafqaz İslam Ordusu ilə 1918-ci ildə Qafqaza gəlmişdi. Erməni daşnakları və rus bolşeviklərinin Qafqazda yaşayan türklərə qarşı həyata keçirmək istədikləri qırğının qarşısını almağa gələn qəhrəmanlardan biriydi.

Minbaşı İsmayıl Haqqı bəy Şəki bölgəsində də döyüşdü. Birinci Dünya müharibəsinin sonunda Osmanlı Dövləti Mudros müqaviləsini imzalamaq məcburiyyətində qalmışdı. Müqaviləyə görə Türk Ordusu Qafqazdan çıxmalı idi. İsmayıl Haqqı bəyin ürəyinə bir od düşmüşdü və o, ən çətin seçimlərdən birini etdi. Şəkidə qalmağa qərar verdi. Öz soyundan, qanından olan bir xanımla evləndi. 1930-cu ilə qədər sakit bir ömür yaşadı.

Minbaşı İsmayıl Haqqı bəyin oğlu **Məmməd Əmin bəy,** əhvalatı belə söyləyir: "Sovet hökuməti qurulduqdan sonra, atam gedib hökumət adamlarından xahiş edir ki, məni burada sakit qoymurlar, incidirlər, narahat edirlər, məni qoruyun. Ona heç kim məhəl qoymur. O da yazır ki, "qürbətə gələn şadiman olmazmış, qəribə heç kimsə mehriban olmazmış". Nəticəsi də bu olur ki, atamı öldürürlər". (Şəxsi arxiv).

İsmayıl Haqqı bəyə heç kim kömək etmirdi. İnsanlar öz canlarının hayında idilər. "Millətlər həbsxanasının dəmir yumruğundan çəkinirdilər. O illərdə Moskvada, Kremldə oturan kommunist diktatorlar, türk kəlməsini qadağan etmişdilər. Xalqın hafizəsini silmək istəyirdilər. Sovetlər coğrafiyasında insan ovuna çıxmışdılar. Türkçü, Turançı, millətçi və rejim düşməni elan etdikləri insanları axtarırdılar. Bu qruplar o illərdə, xalqı yeni rejimdən soyutmamaq məqsədi ilə özlərini qaçaqları axtaran dövlət qulluqçuları adlandırırdılar. Minbaşı İsmayıl Haqqı bəy də bundan öz payını aldı. Sözdə qaçaqlar, İsmayıl Haqqı bəyi Şəkinin şimalında, Qafqaz dağlarının təpəsində yerləşən Kilsə Burnu deyilən yerə aparmışdılar. Minbaşı İsmayıl bəy, Kilsə Burnundan bir daha evinə dönmədi. 1931-ci ildə şəhid edildi.

**Məmməd Əmin bəy:**

"Özlərinə qaçaq adı verən bu quldur dəstələri atamı qaçırıb dağa aparıblar. Bir müddət orada saxlayıblar. Bir gün yemək yeyirmişlər. Atam onlara deyir ki, mənə hallalıq verin, halallıq alın. Buraxın, mən öz yerimə, evimə gedim. Sonra ayağa durur və qaçmağa başlayır. Onlardan biri arxadan onu nişan alaraq, vurub yerə sərmişdir. Atam silahını çəkib onu vuran quldurun alnından vurmuşdur. Atamı elə orada da basdırıblar. Atamın şəkli KQB-də varmış. Ancaq bizə vermədilər. Bizə heç kim kömək etmədi". (Şəxsi arxiv).

İsmayıl Haqqı bəyin meyitini ailəsinə vermədilər. Məmməd Əmin bəy, 1930-cu illərin sonlarında dünyaya gəlmişdi, atasının üzünü görməyib, onu heç xatırlamır. Doğulduqdan bir neçə ay sonra atası onlardan ayrı düşmüşdü. Balaca Məmməd Əminin məktəb illəri çox böyük əzablar içində keçib. Sovet İttifaqında bir rejim müxalifinin - bir türk zabitinin övladı olmaq, bu adla yaşamaq, həqiqətən də çox çətindir. Anası da çox böyük sıxıntı çəkmişdi. **Məmməd Əmin** bəy bunları belə bildirdi:

"Atasız böyümək çox çətindir, atasız uşaq yiyəsiz toyuq kimi künc-bucaqda gəzər. Bizə çox zülm etdilər. Ancaq bizim arxamızda duranlar da vardı. Aşkarda qorxsalar da, gizli-gizli bizə yardım edənlər tapılırdı. Atam öldükdən bir il sonra bizə pislik etmək istəyənlər də oldu. Allah onların bəlasını verdi. Şəkidə bəzi pis adamlar da vardı. Bir dəfə mən işlədiyim kolxozda yaxşı işimə görə Moskvaya sərgiyə göndəriləcəkdim. Orada mənə mükafat veriləcəkdi. Mənim haqqımda bəziləri şikayət etdilər, "O, türk zabiti İsmayıl Haqqının oğludur, onu Moskvaya

göndərmək, mükafat vermək olmaz", - dedilər. Atamın ölümündən sonra anamı da həbs etmək istəyirmişlər. "Onun arvadı filankəsin evində saxlanılır" - deyə KQB-yə şikayət ediblər. KQB rəisi müavinini göndərərək, get o qadını bura gətir, - demişdi. Müavin də gəlib evi yoxlamış, ev sahibinə "Siz heç qorxmayın, mən gedib lazımi cavabı rəisə çatdıracağam" - deyib çıxıb gedibmiş. Sonra rəisə "Oradakı qadın İsmayıl Haqqının arvadı yox, mənim bacımdır" cavabını çatdırmışdır. Belə insanlar da vardı. Bizim üstümüzə qanadını gərənlər də vardı." (Şəxsi arxiv).

İsmayıl Haqqı bəy əslən Kayserilidir. Oğlu Məmməd Əmin bəy, anasının, atası haqqında söylədiklərini çox yaxşı xatırladığını deyir. Məmməd Əmin bəy sözünə belə davam etdi:

"Rəhmətlik anamın dediyinə görə atam Türkiyənin Kayseri şəhərindənmiş. Qohumlarımızın bizdə heç bir ünvanı-filanı yoxdur. Orada, Kayseridə mənim əmilərim yaşayır, adları İbrahim Haqqı, Cəlaləddin, Cəmaləddin, bibilərim Zakirə və Səkinə. Onlardan heç bir xəbər almadım. Əmilərimin, bibilərimin adlarını öz uşaqlarıma və nəvələrimə qoymuşam." (Şəxsi arxiv).

Məmməd Əmin bəy Kayseridəki qohumları ilə görüşmək istəyir. Ancaq ünvanlarını bilmir. İndi isə əmiləri İbrahim Haqqı, Cəlaləddin, Cəmaləddin və bibiləri Zakirə və Səkinə xanımları və onların övladlarını axtarır. Minbaşı İsmayıl Haqqı bəy 1918-ci il Qafqaza gəlməmişdən qabaq evli imiş, iki uşağı varmış. Məmməd Əmin bəy heç görmədiyi, ancaq varlıqlarından məlumatı olduğu qardaşlarıyla da görüşmək, onları bağrına basmaq istəyindədir:

"Sərhədlər açılandan sonra bir dəfə Türkiyəyə getmişdim. İstanbulda bəzi alimlərə sual verdim. Mənə "əmilərinin, oğul uşaqlarının adını, ünvanını ver ki, biz də arxivdən tapıb sənə verək" - dedilər. Mənim isə heç bir məlumatım yox idi. Bu günə qədər gözümüz yolda, onlardan bir xəbər gözləyirik. Həsrətlə yollarını gözləyirəm". (Şəxsi arxiv).

Atası İsmayıl Haqqı bəydən nə bir şəkil, nə də bir əşya qalmayıb, Qaf dağındakı şəhid məzarından başqa. Məmməd Əmin əmi, bizləri Kayseridə yaşadıqlarına inandığı əqrabalarının yerinə qoydu, həsrətlə qucaqladı, sevgiylə yola saldı. Qaf dağından göy üzünə yüksələn və Şəkinin şimal-şərqində yerləşən Babadağın zirvəsi 3 min 600 metrdir. Yüksəkliyi Ərciyəs dağından bir az kiçikdir. Məmməd Əmin bəy ömrünün son baharında, indi Ərciyəsdən Qafqaza boylanaraq bir xəbər gözləyir. Qaf dağı milyonlarla insanın hekayətinə şahiddir. Onların ağrı-acısına şərik olub, hamısını bağrına basdı. Məmməd Əmin bəyin də son arzusu yerinə yetəcəkmi, kim bilir.

1. Kurat, Türkiyə və Rusiya, s. 529-530.

2. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 558-559.

3. Kurat, Türkiyə və Rusiya, s. 532-533.

4. M. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, Hərbi nəşriyyat, Bakı,1999, s.188.

5. Yenə orada, s. 189-190.

6. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 37-38.

7. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 191.

8. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 557.

9. Yenə orada.

10. Yenə orada, s. 558; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 38.

11. Xəritə 5.

12. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 558; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 33-35-38.

13. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 44-45.

14. Yenə orada, s. 45.

15. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 558.

16. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 46.

17. "Gümrüdə olduğumuz günlərdə, çarlıq ordusunda topçu komandiri olmuş general Əliağa Şıxlinski, bizə xidmət etmək üçün gəlmişdi. Əliağa Şıxlinski, Şıxlı kəndindən idi. Yeni qurulan Azərbaycan İslam Ordusunda və ya məmləkəti olan Şimali Qafqaz Dövləti ordusunda xidmət etmək istəyirdi. Xəlil paşa bu adama çox hörmət göstərdi. Şıxlinski bizə gəldiyi zaman əynində hələ də rus hərbi forması və çarın nişanları vardı. Xəlil paşa ona bir türk nişanı verdi və rus ordusundakı rütbəsinə bərabər olan "tümgeneral (general-leytenant) türk forması geymə səlahiyyəti verdi. Üstəlik, atlarından birini hədiyyə etdi. General Əliağa Şıxlinski təxminən bir həftə Gümrüdə qaldı. Bir vaxtlar komandanlıq elədiyi şəhəri gəzdi. Bəzən mən də onunla birlikdə gəzirdim. Bir gün Gümrüdə kazarmaların yanındakı hərbi kilsəni gəzərkən mənə belə dedi: «Siz bu kilsədə gəzərkən nə hiss edirsiniz?» «Heç bir şey». «Mən həyatımda iki dəfə Çar həzrətləriylə birlikdə bu kilsədə mərasimdə iştirak etdim. Böyük Rus İmperiyasının varlığını, dəbdəbəsini o mərasimdə görmək çox gözəl idi. İndi sanki o günləri yenidən yaşayıram kimi bir həzz içindəyəm. Çar həzrətləri çox böyük insandı. Heyf ondan». Altmış yaşını ötmüş bu adamın dedikləri qarşısında özümü çətinliklə saxladım. Amma vəziyyəti Xəlil paşaya danışdım. Yüzbaşı Səlahəddinin romanı, s. 417-418.

18. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 559; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 46-47.

19. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 557.
20. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 47.
21. Yenə orada, s. 48.
22. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 559. 5-ci Qafqaz piyada diviziyası komandanı, 21 iyunda 9-cu Ordu və Qafqaz İslam Ordusu komandanlıqlarına göndərdiyi raportda, bu görüşlərə yer vermişdi: "Öz vətəni ilə əlaqəsi qopmuş, hər cür kömək qaynağından çox uzaqda və İslam dünyasına düşmən olan ermənilərin mühasirəsində olan bir məntəqədə yerləşən 5-ci Qafqaz diviziyasının, bir neçə dəfə bildirildiyi kimi, cəbbəxanaya böyük ehtiyacı var. Hələlik hər əsgərə 500 güllə hesabı ilə 3.000 sandıq piyada gülləsi və 4.000 atımlıq top mərmisinin təcili göndərilməsini xahiş edirəm. Buna baxmayaraq, 5-ci Qafqaz piyada diviziyasına 80 sandıq piyada tüfəngi gülləsi ilə 800 top mərmisi ancaq 30 iyunda göndərilə bilmişdi.
23. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 559; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 53-54.
24. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 560; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 54-55.
25. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 58.
26. Yenə orada, s. 59.
27. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c., s. 560.
28. Yenə orada; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 59-60.
29. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 560; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 62.
30. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 64.
31. Yenə orada.
32. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 561.
33. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 68.
34. Xəritə 6.
35. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 69.
36. Yenə orada, s. 69-70.
37. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 561; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 70-72.
38. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 73-79.
39. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 220.
40. Rüşdü. Böyük Hərbdə Bakı yollarında, s. 81.

41. Birinci Dünya hərbində Türk hərbi. Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 565: Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 81.

42.Xəritə 7.

43. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 85.

44. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 566.

45. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 84.

46. Yenə orada, s. 86.

47. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c. s. 567-568: Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 95-96.

48. Yenə orada, s. 99-100.

49. Biçeraxov, çar tərəfdarı olub, bolşeviklərə düşməndi. Cənubi Azərbaycanda ikən, türklərə qarşı işgəncə və zülmlərlə məşhur olmuşdu. Bolşevik inqilabından sonra, süvari başına bir qızıl alaraq, ingilislərə xidmət etmişdi.

50. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 562.

51. Yenə orada, s. 563.

52. Yenə orada, s. 564.

53. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 242.

54. Yenə orada.

55. "Kişilər mənasına gəlir. Əvvəllər Azərbaycanlı kişilər, uşaq yaşlarından - beş-altı yaşlarından etibarən papaq qoyurdular. Bu, son dərəcə vacib bir adət idi.

56. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 564; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 90.

57. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 564; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 90-94.

58. Xəritə 8.

59. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 74-91.

60. Çanaqqala müharibəsində onbaşı Seyidin mərmisi, ingilis admiral gəmisini belə bir top atışı ilə batırmışdı. Bu hadisə, Salyan və Neftçala bölgəsində bir əfsanə kimi hələ də anladılmaqdadır.

61. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 565.

62. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 102-103.

63. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi. III ordu hərəkatı, II c, s. 569; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 103.

64. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 103.

65. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s, 101.

66. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 568; Rüşdü, Böyük Hərbdə Bakı yollarında. s. 101.
67. Rüşdü. Böyük Hərbdə Bakı yollarında, s. 86.
68. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 569.
69. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 102.
70. Xəritə 9.
71. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 570; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s, 104.
72. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 105.
73. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 570; Rüşdü. Böyük Hərbdə Bakı yollarında, s. 106.
74. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 106.
75. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 238-239.
76. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 570.
77. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı. II c, s. 571; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 108-110.
78. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 109.
79. Yenə orada, s. 110.
80. Bu əsərin yazıldığı 2006-cı ildə 4-cü korpus komandiri, general-polkovnik.
81. Türk Silahlı Qüvvələri Ali Baş Qərargahı Özəl Qüvvələr komandirliyindən istefaya çıxdı.
82. "Bəsirət qəzeti, N-219; "İstiqlal qəzeti, N-9, 1919.

# V HİSSƏ

## TÜRK QAFQAZ İSLAM ORDUSUNUN BAKI ÜZƏRİNƏ YÜRÜŞÜ

### 1. Şimal və Cənub qruplarının irəli hərəkəti.

Bakıdakı Xalq Komissarları Soveti və Şaumyan bütün ümidini Rusiyadan köməyə gələcək hərbi qüvvələrə bağlamışdı. Lenin iyulun ortalarından etibarən silah və ləvazimat yardımını artırdı. Ukrayna cəbhəsində xidmət edən Petrovun sərəncamında olan son dərəcə yaxşı hazırlıq keçmiş və üstün silahlarla silahlanmış 780 nəfərlik bir ordu birləşməsi də Bakının köməyinə göndərildi.[1] Petrov və tabeliyindəki qoşun birləşməsi iyul ayının 19-da Bakıya çatdı. Şaumyan tərəfindən Bakı Hərbi Komissarlığına gətirildi. Bakı və ətrafında yaşayan rus əsilli fəhlə və kəndlilərə xitabən bir bildiriş yayan Petrov, Sovet Rusiyasının müstəqilliyi üçün hər kəsin silaha sarılaraq onlara kömək etmələrini istəmişdi[2]. Bakının şimalındakı Şamaxı və Mərəzə ilə cənubundakı Salyan, Neftçala bölgəsini düşməndən təmizlədikdən sonra, Türk Qafqaz İslam Ordusu Bakının 60-70 kilometrliyinə qədər yaxınlaşmışdı. Hərbi birləşmələr son dərəcə ağır bir vəziyyətdə irəliləməkdə davam edirdilər. Ordu silah-sursat, rabitə, nəqliyyat, su və ərzaq çatışmazlığı kimi bir çox çətinliklər içindəydi. Əsgərlərin ehtiyacını ödəmək üçün qurulan mərkəzlər ilə ordu arasındakı məsafə də artmışdı. Türk Qafqaz İslam Ordusunun Cənub qrupu 22 iyul 1918-ci il tarixində Sığır məntəqəsində, Şimal qrupu isə Mərəzə-Qalaçandağı xəttində yerləşmişdi[3].

Qızıl Ordu birləşmələri geri çəkilərkən rabitə xətlərini, dəmir və şose yolu ətrafında işə yarayacaq su və ərzaq mənbələrini məhv edirdilər. Türk Qafqaz İslam Ordusunun istehkam qurmaq imkanları məhdud idi. Belə ki, əllərində lazımi ləvazimat yox idi. Düşmənin məhv etdiyi rabitə xətlərini və dəmir yolunu istifadəyə yararlı hala salmağa çalışırdı. İxtisaslı mütəxəssis tapmaq çətin oluduğundan, işlər ləng gedirdi[4].

Şərq cəbhəsi komandanlığı, bəzi çatışmazlıqlar səbəbindən irəli getməyə bir az ara vermək fikrindəydi. Bu fikrini Nuru paşaya bildirdi. Bakı üzərinə yerimək üçün ehtiyac duyulan cəbbəxana, su və ərzaq təminatını yoluna qoyana qədər irəli getməyə ara verilməsini xahiş etdi. Türk əsgəri Bakının dərhal ələ keçirilməsi üçün canla-başla vuruşurdu. Şimal qrupu iaşə maddələrinin təminat mərkəzi olan Kürdəmirdən 100 kilometr uzaqlaşmışdı. Şimal qrupu komandiri, məsafənin uzaqlığını nəzərə alaraq və su sıxıntısının aradan qaldırılması üçün, Şamaxıda 15-20 günlük ərzaq ehtiyatı hazırlanmasının yerində olacağını bildirdi[5]. Nuru paşa bu təklifə verdiyi cavabda, dünyadakı siyasi şərtlərin vaxt itkisini qəbul etmədiyini nəzərə çatdıraraq, Bakının tezliklə ələ keçirilməsini bildirdi. Nuru paşanın cavabı belə idi:

"Cəbhədəki düşmən pərişan, gücsüz və mənəviyyatı da pozuqdur. Uşaq-muşaqdan meydana gələn xalq, düşmənin çəkilməsini çətinləşdirir. Bakı ətrafındakı türk kəndlərindən su, ərzaq və çörək tapmamız mümkündür. Lüzumsuz dayanmalar olmadan, tezliklə əməliyyatın bitirilməsi gözlənilir."[6].

Bu əmrə əsasən ordu birləşmələri 26 iyulda olduqları yerdən irəli hərəkətə başladılar. Cənub qrupu Qarasu stansiyasına girdi və minbaşı Əhməd Həmdi bəyin başında durduğu Cavad dəstəsi ilə əlaqə saxlaya bildi. Daşnak və bolşevik birlikləri Qarasu-Hacıkənd istiqamətində geri çəkilirdi[7].

Şimal qrupu isə Mərəzə yaxınlığında bir düşmən birliyinə basqın edərək, biri zirehli olmaqla üç yük maşını ələ keçirdi. Burada gedən mübarizədə ölənlər arasında, bir az əvvəl İrandan Bakıya gələn ingilislərdən, biri zabit olmaqla dörd əsgər də var idi. Əsir götürülənlər arasında isə, biri zabit olmaqla dörd ingilis və bir erməni var idi.

Şimal qrupu hərbi birləşmələri 28 iyulda Cəngibostan bölgəsini aldı. Cəngibostanda olan 150 süvari və 200 piyadadan ibarət düşmən qüvvələri, bir top və iki zirehli maşın qoyaraq geri çəkilmişdi. Kəşfiyyat nəticəsində Cəngibostan ətrafındakı Kosalar kəndinə qədər gedilmişdi[8]. Cənub qrupu da 27 iyulda Hacıqabul məntəqəsini düşməndən aldı. Bu qrupun tabeliyində olan 38-ci piyada alayının 2-ci batalyonu Şimal qrupunun tabeliyinə keçərək Boyanata dağı istiqamətində hərəkət etdi. Nuru paşa Bakıya ediləcək həmlədə Şimal qrupunun mümkün qədər güclü olmasını istəyirdi. Bunun üçün Gəncədə dayanan 38-ci piyada alayının 3-cü batalyonunun da Kürdəmirə göndərilməsini əmr etdi[9].

Şimal qrupunun önündə irəliləyən 2-ci nizami süvari alayı, 28 iyulda Kosalar ətrafında, 150 süvari, iki top və zirehli maşınlardan ibarət düşmən qüvvələri ilə qarşılaşdı. Bolşevik və ermənilərin 200-ə qədər piyada və 50 süvaridən ibarət əlavə qüvvələri 10-cu Qafqaz alayının təzyiqi altında geri çəkilmək məcburiyyətində qaldı. Cənub qrupu da eyni gündə Pirşağı stansiyasının qərbinə çatmışdı. Düşmənin atıcı birlikləri ilə zirehli qatarının bu stansiyada, Xəzər dənizindəki zirehli döyüş gəmilərinin də Ələt yaxınlığında olduğunu təyin etdi. Düşmən təyyarələrindən biri Cəngibostan-Boyanata dağı bölgəsində, digəri isə Hacıqabul və ətrafında kəşfiyyat uçuşları həyata keçirirdi[10].

Türk Qafqaz İslam Ordusu Komandanlığı Bakının ələ keçirilməsi üçün verilən əmrləri dayanmadan təkrarlayırdı. Hərəkət, mənzil təşkilatı, qol və qatarı olmadan yürüdülürdü. Cəbbəxana isə çox uzaqlardan, təhlükəli yollardan keçərək gəlirdi. Əsgərlər, bir çox döyüşlərdə sursat yoxluğundan süngü hücumuna keçmiş, bəzi yerlərdə hərəkəti dayandırmaq məcburiyyətində qalmışdılar. Kürdəmirdə olduğu kimi, qalib gəlmək şansı olan bir əməliyyatda geri çəkilmək əmri verilmişdi. Bu əskikləri nəzərə alan komandanlıq, Mənzil-Qərargahın Şamaxıda qurulmasını əmr etdi. Lazımi işlərin başlanılması üçün 5-ci Qafqaz piyada

diviziyası komandanlığı sərəncamındakı qollar Mənzil Müfəttişliyinin tabeçiliyinə verildi.[11]

Türk Qafqaz İslam Ordusu, Bakıya yaxınlaşdıqca, Bakı Xalq Komissarları ətrafındakı siyasi qüvvələr də ayrılmağa, get-gedə parçalanmağa başlamışdı. Azərbaycan türklərinin milli mənafelərini təmsil etməyən bu dairələr, Bakının əldən çıxacağı təqdirdə, etdikləri qırğın və zorakılıqların hesabını verməkdən qorxurdular. Bu vəziyyətdən çıxış yolu axtarmağa başladılar. Şaumyana müxalif dairələr, İngilis ordu birləşmələrinin Bakıya gələrək, türklərə qarşı vuruşmasının yeganə çıxış yolu olduğu qənaətinə gəldilər[12].

Bakı istiqamətində irəliləyən Türk orduları, şəhərin ətrafındakı mühasirəni get-gedə daraldırdı. Bakıda böyük bir gərginlik hökm sürürdü. Düşmən təyyarələri tez-tez havaya qalxır, Türk orduları üzərində kəşfiyyat uçuşları edirdi. Bakıda 32 batalyonluq Rus bolşevik və erməni daşnak qüvvələri toplanmışdı. Böyük bir qorxu içərisində olan Qızıl Ordu birlikləri bu sayın az olduğunu düşünürdülər. Cəngibostan bölgəsində əsir alınan ingilis zabitinin verdiyi ifadəyə görə, ingilislərin kömək təklifini daha əvvəl rədd edən bolşeviklər, bu dəfə onlardan kömək istəmişdilər. Ancaq Qəzvində olan General Deustervil, bunun mümkün olmayacağı cavabını vermişdi. Bolşeviklər, daha sonra, bəzi erməni qrupların da təkidi ilə təkrarən İranda olan ingilislərdən kömək istədilər. İngiltərə bolşevizmə, onların dünyagörüşünə qarşı idi. Lakin Bakının Türk Qafqaz İslam Ordusunun əlinə keçməsini də istəmirdi. Bakıda bir də, bolşeviklərə qarşı olan və çarizm tərəfdarı rus kazakı podpolkovnik Biçeraxovun orduları var idi[13].

Podpolkovnik Biçeraxov, böyük ümidlərlə gəldiyi Ələtdən döyüşmək üçün cəbhəyə getmişdi. Kürdəmir ətrafındakı döyüşlərdə də iştirak etmişdi. Ağır bir məğlubiyyətdən sonra, 22 iyulda komandirlik vəzifəsindən ayrıldığını və öz yerini də Avetisova verdiyini bəyan etdi. Biçeraxov Bakının müdafiəsinə isə kömək edəcəyini bildirirdi[14].

Ələt və Hacıqabul ətrafında min nəfərlik bir bolşevik qüvvələri toplanmışdı. Bakıda olan Biçeraxova tabe qüvvələr Bakının şimalındakı Biləcəri stansiyasında müdafiə tərtibatı almışdılar. Bakı istiqamətində Biçeraxovun Qızıl Ordu birliklərinə kömək edəcəyinə inam son dərəcə az idi. Biçeraxovun orduları bəzi hallarda Qızıl Ordu birlikləri ilə kiçik çaplı da olsa, silahlı münaqişəyə girirdilər. Biçeraxovun Dağıstana getmək üçün hazırlıq gördüyü də gələn xəbərlər içərisində idi. Bakıya Biçeraxov ilə birlikdə dörd ingilis zabiti və əlli əsgər gəlmişdi. Yanlarında zirehli maşın və yük maşınları da vardı. Bakıya köməyə gələcək əsl birliklər bundan sonra Ənzəlidən yola çıxacaqdılar. Əsir ingilis zabitinin verdiyi məlumata görə, Şaumyan ilə bəzi bakılı ermənilər arasında ciddi bir anlaşılmazlıq ortaya çıxmışdı. Yerli ermənilər Türk Ordusu ilə sülh imzalamaq istəyirdilər. Buna görə də iki qrup arasında şiddətli bir mübahisə və münaqişə yaşanırdı[15].

Şaumyan hökumətinin Türk Qafqaz İslam Ordusunun qarşısını kəsmək üçün göstərdiyi cəhdlər bir nəticə vermirdi. Rus bolşevik və erməni daşnak birliklərində fərarilik artaraq davam edirdi. Bakı hərbi komissarı Petrov, Şaumyan və Karqanova 24 iyulda cəbhədən göndərdiyi məktubda bolşevik Sovet əsgərləri arasında olan vəziyyəti bu cür təsvir etmişdi:

"Mən başa düşə bilmirəm, insanların "xalq azadlığı yolunda canlarını fəda etmək" kimi böyük bir mübarizəyə getdiyi cəbhəyə düşmüşəm, yoxsa Allah bilir, haraya gəlmişəm. Amirov ilə Hamazasp öz tabeliklərində olan süvariləri cəbhədən çəkmək istədilər. Mən də onlara, "Cəbhədəki əsgərlər yeni qüvvələrlə əvəz olunmayana qədər cəbhədəki əsgərlərin çəkilməsi, cəbhəni boşaltmaq deməkdir, əgər belə olarsa, mən də vəziyyəti Moskvadakı Xalq Komissarları Sovetinə bildirəcəyəm,"- dedim"[16].

Erməni daşnakları Böyük Ermənistan dövləti qura bilmək üçün əvvəllər Çar Rusiyası ilə əməkdaşlıq etmişdilər. İndi də Rus bolşevik təşkilatları ilə ortaq hərəkət edirdilər. Hansı dövlət və quruluş olursa-olsun, ideallarına çata bilmək üçün hər yoldan istifadə edirdilər. Bolşevik Qızıl Ordu birləşmələri ilə ortaq hərəkət edərək, Qafqazdakı türkləri qətlə yetirmişdilər. Türk Qafqaz İslam Ordusunun Bakı yaxınlığında dayanması, şəhərdə yaşayan erməni daşnaklar və bolşevik ruslarda olduğu qədər, bu qruplara daxil olmayan erməni və ruslarda da bir qorxu və həyəcan meydana gətirmişdi. Bu səbəbdən də Şaumyanın liderliyində Böyük Ermənistan dövləti qurmaq istəyinə çatmayacaqlarını anlayan ermənilər, bu dəfə də İranda olan ingilislərdən kömək istəmişdilər.

**2. Mühasirədə olan Bakıda siyasi və hərbi vəziyyət**

Türk Qafqaz İslam Ordusu, Bakı yaxınlığına qədər irəliləmiş və şəhəri mühasirəyə almışdı. Bakının ətraf aləmlə əlaqəsi tamam kəsilmişdi. Bakıya giriş yalnız Xəzər dənizi vasitəsilə mümkün idi. İqtidarda olan kommunist bolşeviklərin Şaumyan liderliyindəki hökuməti və 26 Bakı Komissarları iqtidarı çox çətin günlərini yaşayırdı. Şaumyan, Çiçerinə göndərdiyi bir teleqramda cəbhədəki vəziyyətin get-gedə pisləşdiyini, Bakı Sovetinin sağçı qanadından bəzi qrupların ingilisləri dəvət etmək qərarına gəldiklərini və şəhərin üzərinə hücum edən qüvvələrin nizami Türk Ordusu olduğunu bildirərək, Rusiyadan təcili kömək göndərilməsini istəyirdi. Bu aralarda Rusiyanın əlində tutduğu İdil (Volqa) boylarında üsyan qalxmışdı. Qırmızılar bölgədəki hakimiyyətlərini itirmək təhlükəsi ilə qarşılaşmışdılar. Bu səbəbdən Həştərxan və Saritsin (Volqaqrad) kimi şəhərlərin müdafiəsini təmin etmək üçün Stalin dərhal bu bölgəyə getmişdi. Stalin Saritsindən Şaumyana bir-birinin ardınca təlimatlar göndərərək, Bakının türklərin əlinə keçməməsinin vacibliyini bildirir və nəyin bahasına olursa-olsun, şəhərin müdafiə olunmasını tələb edirdi.

Bakı Xalq Komissarları və Şaumyan, Petrov silahlı qüvvələrinin də Türk Qafqaz İslam Ordusunun qarşısında dura bilməyəcəyini başa düşürdülər. Ukrayna cəbhəsindən köməyə gələn birliyin komandir və əsgərlərinin soyğun, qarət, talanla məşğul olduqlarını düşünürdülər. Ona görə də böyük bir qorxu və təlaş içində idilər. Leninə göndərdiyi 20 iyul tarixli teleqramda, hərbi qüvvələrin say və silah yardımının artırılmasını xahiş edirdi. İstər Leninə, istərsə də Moskvadakı hərbi təmsilçilərə göndərdiyi yazılarda Qafqaza bacarıqlı komandirlər və ordu başçıları göndərilməsini rica edirdi. Lenin və Stalinin ordunun döyüş qabiliyyətini möhkəmlətmək üçün göndərdikləri ərzaq və yardım isə 23-24 iyulda artıq Bakıya çatmışdı[17].

Şaumyan Bakıdakı rus və ermənilər vasitəsilə türk olmayan xalqlara ünvanlanan vərəqələr yayaraq, onların milli hisslərini oyatmağa çalışırdı, əli silah tutanı cəbhəyə çağırırdı[18].

Rus bolşevik və erməni daşnak qüvvələri Şamaxı yaxınlığında da duruş gətirə bilməyincə, Bakıdakı təlaş və fikir ayrılıqları daha da dərinləşdi. Bir az əvvəl qurtuluş ordusu kimi qələmə verilən Qızıl Orduya olan xalq inamı get-gedə itirdi. Bakı Soveti 25 iyulda fövqəladə iclas çağırdı. Şaumyan iclasdakı çıxışında Bakıya dəvət ediləcək ingilis hərbi qüvvələrinin, türk hərbçilərinin qarşısında dura bilməyəcəyini, tək çıxış yolunun Sovet Rusiyasında olduğunu bildirirdi. Lenin və Stalinin beş gəmi ilə 80 top, 160 pulemyot, 10 min piyada tüfəngi, 20 min top mərmisi və çox sayda geyim əşyası göndərdiyini vurğuladı. Astraxandan çıxan gəmilərin də Bakıya çatmaq üzrə olduqlarını qeyd etdi. Şaumyan, xarici ölkələrdən kömək istəmək əvəzinə, Rusiyadan yardım istəməyin daha düzgün olduğunu, üstəlik proletarların bütün qüvvələri ilə ordu və donanmanın səfərbər ediləcəyini söylədi. Görüləcək tədbirlər haqqında məlumat verdi. Buna rəğmən daşnaklar və menşeviklər ingilislərin Bakıya dəvət edilməsinə qərar verdilər. Yaranmış bu gərginlikdən bolşeviklər şok vəziyyətinə düşdülər.

Şaumyan və silahdaşları, belə olduğu halda rəhbərlikdən gedəcəklərini bəyan etdilər. Lakin buna baxmayaraq rəhbərlikdə qalmaq üçün hər yola əl atırdılar. Şaumyan Leninə göndərdiyi 26 iyul tarixli teleqramda Bakının Türk ordusunun əlinə keçməməsi və öz hakimiyyətinin davam etməsi üçün təcili olaraq nizami ordu göndərilməsini xahiş etdi[19].

Bakı Soveti İcraiyyə Komitəsi 26 iyulda keçirdiyi iclasda düşdükləri çətin vəziyyətdən çıxış yolu axtarırdı. Bunun üçün bəzi qərarlar verildi. 26 Bakı Komissarının verdiyi qərarlar belə idi: Bakı Sovetinin verdiyi qərarın bolşeviklərin əqidəsinə uyğun olmadığı, Biçeraxovun tabeliyində olan qüvvələrin şəhərdən çıxarılaraq cəbhəyə cəlb edilməsi və Qızıl Orduya birləşdirilməsi, Bakıda hərbi vəziyyət elan edilərək, şəhərin Donanma komissarlığının tabeliyinə verilməsi, axşam saat 10-dan sonra küçəyə çıxmağa qadağa qoyulması, xalq komissarlarının

iş başında olması və bu qərarların hər vasitə ilə xalqa bildirilməsi. Şaumyan və silahdaşlarının yaydığı bildirişlərdə Bakı Soveti idarəsini devirməyə yönələn hər hansı bir hərəkətin qarşısının dərhal alınacağı bildirilirdi. Həmçinin Türk Qafqaz İslam Ordusunu dayandırmaq üçün ordunun bütün imkanlarını səfərbər etmələri çağırışı da səslənirdi[20].

Bakı Soveti 28 iyulda yaydığı bir əmrdə şəhərdə səfərbərlik elan etdi. Bakıda daimi və müvəqqəti yaşayan, 1885-1892-ci illərdə doğulmuş kişilər 6 ay müddətinə məcburi hərbi xidmətə çağırılırdı. Bunlardan yararlı olanları ön cəbhədə, digərləri isə arxa cəbhədə xidmət edəcəkdilər. Xidmətdən boyun qaçıranlar isə ən ağır cəza ilə cəzalandırılacaqdılar. Bakı məhəllə başçıları bu əmrin yerinə yetirilməsi üçün qərar verib kənd idarəçilərinin iki günün içində 50 nəfərlik qruplar yığaraq, bunların şəhərin kənarındakı müdafiə xətləri və istehkam mövqelərinə sövq edilməsini istədilər.[21]

Bakı Soveti rəhbərliyi cəbhə xəttindəki əsgərlərin mənəviyyatını zənginləşdirmək üçün də cəhdlər edirdi. Karqanov, Çaparidze, Malıgin, Mikoyan, Berq və Solntsev kimi bolşevik liderlər cəbhə xəttində bəzi işlər görürdülər. Xüsusilə Çaparidze və Malıgin kimi marksist liderlər Cəngi cəbhə xəttində təxminən bir həftə qalmış, əsgərləri döyüşə ruhlandırmış, silah, ərzaq və su ilə təmin etmişdilər[22].

Belə qarışıq bir vaxtda ermənilərin və rusların varlı, ziyalı və savadlı təbəqəsindən ibarət olan Milli Erməni Təşkilatı bir həmlə ilə idarəetməni öz əllərinə keçirmək yollarını axtarırdılar. Bu fürsət də ələ düşmüşdü. Bu qrup özünə Mərkəzi Xəzər (Sentrokaspi) Diktaturası adını vermişdi.

Bu qrup, Şaumyanı və 26 Bakı Komissarlarını həbs etdi. Bakını müdafiə etmək məqsədi ilə ingilislərdən kömək istədi. Kazak podpolkovnik Biçeraxov da ordu birlikləri ilə Dağıstana getmək məqsədi ilə Bakıdan ayrılmaq istəmiş və əlbəttə, Türk Qafqaz İslam Ordusu da buna göz yummuşdu[23]. Beləliklə, Bakıda ermənilər və ruslar bolşevik qüvvələri ilə tək qalmışdı. Bu vəziyyət Türk Qafqaz İslam Ordusunun Bakını azad etmək qərarında israrlı olmasından yaranmışdı və Mehmetçiyin bir uğuru kimi qiymətləndirilə bilərdi.

Moskvadakı bolşeviklərin lideri Lenin isə Türk Qafqaz İslam Ordusunun Bakıya doğru irəlilədiyini bilincə, hər cür yola əl atırdı. Bakını itirməmək üçün avqustun əvvəllərində Almaniya ilə danışığa girdi. Lenin, Türklərə qarşı, Osmanlı Dövlətinin müttəfiqi olan Almaniyadan yardım istəyirdi. Danışıqlar nəticəsində Almaniya ilə Rusiya arasında 27 avqust 1918-ci il tarixində "Brest-Litovsk Müqaviləsinə əlavə" adı verilən bir razılaşma imzalandı. Bu razılaşmaya görə Almaniya Kür çayına qədər olan Azərbaycan torpaqlarının Sovetlərin tərkibində qalmasına kömək edəcək, bunun müqabilində Bakı neftinin yarısı onlara veriləcəkdi. Eləcə də Almaniya bu xəttə üçüncü ölkənin müdaxiləsinin də qarşısını

alacaqdı. Bu müqavilə bağlanmadan bir gün əvvəl isə Bakıda Şaumyan hakimiyyəti devrilmişdi[24]. Məmməd Əmin Rəsulzadə dövlətlərarası konfrans üçün getdiyi İstanbulda, Almaniya ilə Rusiya arasında bağlanan bu müqaviləni rədd etdi. Hazırladığı protest notasını Almaniya və digər ölkələrin təmsilçilərinə verdi. Rəsulzadə notada Qafqaz xalqlarının uzun illər boyu rus əsarətində çəkdiyi acını dilə gətirdikdən sonra, Bakının Azərbaycanın ayrılmaz bir parçası olduğunu tarixi, coğrafi və iqtisadi dəlillərlə izah etmiş və belə yazmışdı:

"Bütün bu səbəblərlə, məmləkətin istiqlalını təmin etməkdən heç vaxt əl çəkməyən Azərbaycan xalqı Bakını azad etmək arzusundan heç bir şəkildə geri çəkilməyəcəkdir. Bu məsələ, Azərbaycan üçün sadəcə bir ərazi mövzusu deyil, bir ölüm-dirim məsələsi şəkli almışdır"[25].

Almaniya ilə Sovetlər arasında əldə olunan bu razılaşma da göstərir ki, Lenin Rusiyada hakimiyyəti ələ keçirdikdən sonra Çar Rusiyası sərhədlərini yenidən nəzərdən keçirməyi və nəyin bahasına olursa-olsun, Bakı neftini ələ keçirməyi planlaşdırırdı.

Şaumyan və 26 Bakı Komissarları Soveti hakimiyyətini devirən Sentrokaspi Diktaturasının dəvəti ilə avqustun 4-də 70 piyada və bir neçə zabitdən ibarət olan ingilis ordusu Bakıya çatdı. Qısa müddətdən sonra diviziya generalı Deustervilin komandası altında üç piyada batalyonu Bakıya daxil oldu. İngilis ordusunda bir səhra topçu batareyası və bəzi zirehli vasitələr də var idi[26]. Bu ordunun sayı ermənilərin gözlədiyindən az idi. Sentrokaspi Diktaturası idarəçiliyi ən azı 30 min, heç olmasa 20 min nəfərlik ingilis ordusunu gözləyirdi. İngilis ordusunun Bakıya girməsi ermənilərin ürəyində bir ümid çırağı yandırmışdı. Türk ordusu tərəfindən də dinlənilən telefon danışıqlarında şəhəri nəyin bahasına olursa-olsun müdafiə edəcəklərini deyirdilər[27].

Bakı yaxınlığında şiddətli döyüşlərin getdiyi bir zamanda, şəhər sakinlərindən olan Həsənov soyadlı bir adamın yazdığı məktub Mürsəl paşaya çatdırıldı. Məktubda Bakıdakı erməni və rusların qorxu və təlaş içində olduqları, Türk Ordusunun onlarla yaxşı davranacağı təqdirdə təslim olacaqları və bu iş üçün elçi göndərməyi düşündükləri barədə yazılmışdı. Mürsəl paşa da verdiyi cavabda görüşüb danışmaq üçün ermənilərin təmsilçi göndərmələri və şəhərin təslim olacağı təqdirdə heç kimin malına və canına heç bir xətər toxunmayacağı barədə təminat verdi. Bu məktubun məzmunu Nuru paşa vasitəsilə Baş Komandan Vəkili Ənvər paşaya da bildirilmişdi. Ənvər paşa ermənilərin Bakını qeyd-şərtsiz təslim edəcəkləri təqdirdə İrəvan bölgəsinə köçürüləcəklərini bildirmişdi[28].

Türk Ordusu qərargahına gələn bir başqa məktubda isə ingilis ordusuna kömək məqsədi ilə Ənzəlidən beş min nəfərlik bir ordunun artıq yola çıxdığından, ermənilərin buna güvənib təslim olmayaraq şəhəri müdafiə etməyə qərar

vermәsindәn bәhs olunaraq, Türk әsgәrinin tezliklә Bakıya girmәsinin vacibliyi vurğulanırdı[29].

**3. Bakı cәbhәsindә döyüşlәr:**

Türk Qafqaz İslam Ordusunun Şimal qrupu orduları, çox çәtin şәrtlәr altında etdiklәri yürüşü 30 iyul günü dә davam etdirәrәk, Atbatan hәndәvәrinә çatdı. Burda Qızıl Ordu birliklәrinin Bakı yaxınlığındakı birinci mövqeyi ilә qarşılaşdı. Şamaxı-Bakı yolunun hәr iki tәrәfini tutan düşmәn ordusunun әlindә iki batalyondan artıq piyada, 200 süvari, iki top vә üç zirehli maşın vardı. Türk Ordusunun hәmlәsinә tab gәtirmәyәrәk Bakının şimal-qәrbindәki Qobu kәndinә tәrәf çәkildilәr. Düşmәnin gözünü açmasına macal vermәyәn Türk ordusu Qobu vә yaxınlıqdakı tәpәlәri qısa bir vaxt içәrisindә әlә keçirdi. Bakının şimalındakı Sumqayıt istiqamәtindә geri çәkilәn düşmәn qüvvәlәri yenә dә arasıkәsilmәz tәqibә mәruz qalmışdı. Bolşevik qüvvәlәrindәn bir qismi Sumqayıta, bir bölüyü dә Bakı yaxınlığındakı Xırdalan qәsәbәsinә sığındı. Bununla da, Şimal qrupu komandanlığına tabe olan ordu birlәşmәlәri hәdәf Bakıya 15-20 kilometr yaxınlaşmış oldu[30].

Sumqayıt şimaldakı Bakı-Quba-Dәrbәnd şose vә dәmir yolu üstündә yerlәşirdi. Şimal qrupu komandanlığına bağlı 38-ci piyada alayının 1-ci batalyonu, o bölgәdә olan süvari alayından 19-cu bölük vә bir topçu heyәti Sumqayıt mәntәqәsindә olan bolşevik rus vә ermәni daşnak birliklәrini mühasirәyә aldı. Daha sonra isә Göllәr, Saray, Corat, Novxanı vә Duzlugöl әtrafı ilә Xırdalana qәdәr olan bölgәlәri düşmәndәn tәmizlәdi. Bu bölgәlәrdә Bakıya doğru qaçmağa çalışan düşmәnlә әlbәyaxa döyüşlәr dә olurdu. Türk piyadası Heybәt kәndinin şimal-qәrbindә yerlәşәn tәpәlәri dә әlә keçirdi. Әtrafdakı bu tәmizlәmәdәn sonra ordu, Bakının şimalında yerlәşәn Xırdalan üzәrinә yeridi. Çünki Xırdalanın cәnubundakı tәpәlәri aşdıqdan sonra Bakı artıq Türk ordusunun qarşısında olacaqdı. Bolşeviklәrin vә ermәni daşnaklarının müdafiә xәtti son dәrәcә yaxşı qurulmuş vә tikanlı mәftillәrlә әhatәlәnmişdi. Şimal qrupu ordu birlәşmәlәri Qızıl Ordunun Xırdalanda qurduğu ön sәngәrlәri qısa müddәtdә әlә keçirdi. Bundan sonra bolşeviklәr Bakı istiqamәtindәki ikinci müdafiә xәttinә çәkildilәr.[31]

Bakı o illәrdә, içmәli su ilә ölkәnin şimalında Qafqazın Xәzәr dәnizinә qovuşduğu bölgәdә yerlәşәn Quba tәrәflәrdәn tәmin edilirdi. Tәxminәn 170 km mәsafәdәn şәhәrә su ötürәn borular Sumqayıt yaxınlığından keçirdi[32]. Türk ordusu iki aya yaxın bir müddәtdә tәmiz içmәli suya hәsrәt qalmışdı. Çox ağır şәraitdә, istidә döyüşürdü. Bu su borusunun bir tәsadüf nәticәsindә aşkar edilmәsi Türk ordusu arasında böyük bir sevincә sәbәb oldu. Bununla Şimal qrupunun içmәli su mәsәlәsi kökündәn hәll edilmiş oldu. Şimal qrupunun әldә etdiyi bu nemәt, böyük su sıxıntısı çәkәn Cәnub qrupunun da su probleminin hәlli demәk idi[33].

Şərq cəbhəsi komandanlığı kəşfiyyat və araşdırma nəticəsində, Bakıya qısa bir zamanda girə biləcəyini hesab edirdi. Komandanlıq qərargahı Bakının şimal-qərbində olan yüksəklikdə quruldu və yayılan əmrdə 31 iyulda hücuma keçiləcəyi bildirilirdi. Qobu kəndinin şərqində yerləşən Şimal qrupu sübh tezdən hücuma keçdi və 03.30-da Heybətin şimal-qərbindəki 905 m yüksəklikli təpəni işğal etdi. Xırdalanı isə səhər saatlarında ələ keçirdi. Hər iki tərəfdən mövqeyini itirən düşmən, dəmir yolunun şərqində qabaqcadan hazırlanmış ikinci müdafiə xəttində yerləşməyə çalışırdı. 38-ci piyada alayının 1-ci batalyonu da günorta saatlarında Sumqayıt döyüş məntəqəsini və qəsəbəni zəbt etdi. Düşmən qüvvələri dənizdən və qurudan top atəşi ilə təpəni bir ara yenidən ələ keçirdisə də, axşama doğru bu ərazi yenə də Şimal qrupu əsgərlərinin əlinə keçdi. Şimal qrupu gecə boyunca bu təpələrlə Hacı Həsən kəndinin cənub-qərbindəki mövqelərində möhkəmləndi[34].

Cənub qrupu isə 31 iyul axşam saatlarında Nəvayi və Ağbulaq məntəqələrinə qədər irəliləyə bildi. Cənub qrupu ordularına komandanlıq edən azərbaycanlı Həbib Səlimov su çatışmazlığının aradan qaldırılması üçün Ordu Qərargahına bir neçə dəfə müraciət etsə də, bu məsələ həll olunmayaraq qalırdı[35]. Cənub qrupuna tabe olan ordu birləşmələri hələ Ələt yaxınlığında idi. Çünki qarşıdakı düşməndən deyil, su çatışmazlığından əziyyət çəkirdilər. Ordu isti hava, bataqlıqlar və ağcaqanadla mübarizə aparırdı. Lokomotivləri hərəkətə gətirmək üçün belə su qalmamışdı. Qrupa 18 qazan suyun dünən axşamüstü Yevlaxdan göndərildiyi və 6 qazan suyun da bu saatlarda yola salınacağı barədə xəbərlər daxil olsa da, su ünvanına çatmamışdı. Ələtdən Heybət istiqamətində dəmir yolu boyunca irəliləmək böyük risk tələb edirdi. Çünki qurudan və dənizdən atılacaq düşmən toplarına hədəf olmaq qorxusu vardı. Mümkün qədər sahildən uzaq və kəsə yollarla irəliləmək lazım gəlirdi[36].

Hacıqabul məntəqəsinin və ətrafının əldən çıxması bolşevikləri və Moskvada oturanları mütəəssir etmişdi. Şaumyanın Leninə göndərdiyi teleqramda deyildiyinə görə, bolşevik qüvvələri Hərbi Dəniz Donanması komissarı Karqanovun əmri ilə Hacıqabuldan Ələtə doğru geri çəkilmişdi[37].

Şərq Cəbhəsi Komandanlığı 38-ci piyada alayının 2-ci batalyonu ilə Ləzgi süvari alayı və iki dağ topunu, cəbhə ehtiyatı olaraq, 31 iyul axşamından etibarən 2.933 m yüksəkliyi olan Boyanata dağı həndəvərinə göndərdi. Buradakı Güzdək kəndini və ətrafını nəzarət altına almaq tapşırığı verdi.

30 və 31 iyul tarixlərində əldə edilən uğurlar rus bolşeviklərini və erməni daşnakları mənəvi cəhətdən məhv etmişdi. Həqiqətən, Biçeraxov, tabeliyində olan qoşunlarla Cənub qrupu qarşısından geriləyərək zirehli qatarlarla Bakının Biləcəri məntəqəsinə çəkilmişdi. Biçeraxovun bu hərəkəti Türk Qafqaz İslam Ordusuna qarşı olan müqaviməti tamamilə ortadan qaldırmışdı. Bakı Soveti Komissarlarından müdafiə naziri vəzifəsini icra edən Hərbi komissar Karqanovun

bildirdiyinə görə, Bakı ətrafında Ələtdən çəkilən 1.600 nəfərlik hərbi qüvvədən yalnız 200-ü qalmışdı, Şimal qrupunun qarşısında olan Petrov qüvvələrindən də yenə təxminən 200 nəfərlik bir ordu qalmışdı. Çox yaxşı təchiz olunmuş 780 nəfərlik ordu ilə Bakıya gedən Petrovun tabeliyində olan qüvvələr qısa bir müddət ərzində dağıdılmışdı[38].

Türk Qafqaz İslam Ordusunun hücumları qarşısında Bakıda böyük bir qorxu və təlaş yaşanırdı. Qızıl Ordu komandiri Avetisov Bakıda yaşayan təqribən 160 min xristianın həyatını qurtarmağın yeganə yolunu təslim olmaqda görürdü. Avetisov Bakı Sovetinə etdiyi müraciətdə Türk Qafqaz İslam Ordusu Komandanlığı ilə sülh şərtlərinin təyin olunması barədə tədbirlər görməyin vacib olduğunu təklif etmişdi[39]. Xalq Komissarları Soveti 30-31 iyul gecəsi Bakıda olan bütün silahlı birləşmələrin cəbhəyə getməsi çağırışı ilə çıxış etdi. Fəhlə və qulluqçuları silahlanaraq, asayişi təmin etmək üçün şəhərin küçələrinə çıxmağa çağırdı. Hamazasp və Kazarov kimi erməni Daşnak Partiyası rəhbərləri ilə bir görüş keçirilərək, özlərinə tabe olan kişilərin də cəbhəyə sövq edilməsini təşkil etmələrini xahiş etdilər. Bu danışıqların nəticəsi olaraq ermənilərdən təşkil olunmuş 16 və 18-ci batalyonların cəbhəyə getməsinə qərar verildi. Bu iki batalyonda təxminən 1.300 döyüşçü var idi. Erməni daşnak liderləri, danışıqların nəticəsi olaraq cəbhəyə 3.000 adam cəlb edə biləcəklərini bəyan etdilər. Bu görüşlərə və alınan qərarlara rəğmən 16-cı batalyondan cəbhəyə ancaq 320 silahlı adam göndərildi.

Bakı rəhbərliyini əllərində saxlayan bolşeviklər bütün ümidlərini Rusiya və Leninə bağlamışdılar. Moskvadan qüvvə gələnə qədər, Bakıda əldə olan qüvvələrlə şəhərin müdafiəsini təmin etməyə cəhd göstərirdilər. Erməni daşnakları isə artıq, Rusiyadan kömək gəlməsinin mümkün olmayacağını, gəlsə də, gec olacağını və Bakını əldə saxlamağa yetməyəcəyini düşünürdülər. Onlar bütün ümidlərini İrandakı ingilis qüvvələrinin köməyinə bağlamışdılar. Buna görə də vaxt qazanmaq məqsədilə Bakının müdafiəsinə yardım edirdilər.

Təzyiqlər qarşısında daha duruş gətirə bilməyən 26 Bakı Komissarı rəhbərliyi 31 iyul gecəsi istefaya getdiyini bəyan etdi. Rusiya Kommunist Partiyası Bakı Komitəsi, vərəqələr yayaraq bunu ictimaiyyətə bildirdi. Bildirişdə belə deyilirdi:

"Ordu komandiri Avetisov ilə Petrovun, Qərargah rəisi yoldaş Stepanovun Bakının təslim edilməsinin qaçılmaz olduğu və bunun yaxın vaxtlarda həyata keçiriləcəyi haqda bəyanatlarını, digər tərəfdən xalqın, qaliblərin lütfünə təslim olmaq kimi son vasitədən istifadə etmək arzularına mane olmamağı nəzərə alaraq, Xalq Komissarları Soveti, fəaliyyətlərini dayandırmağı, Sovet Rusiyasına aid olan əmlakı və hərbi qüvvələri gəmilərə yükləməyi qərara almışdır. Biz nə Bakının sərvətlərini türk paşalarına təslim etməyi düşünənlərin və nə də şəhəri ingilislərə

verməyə hazırlaşanların tərəfində deyilik. Biz, Rusiyadakı Sovet hakimiyyətinə sadiq olan qüvvələri Astraxandan gələcək qüvvələrlə birləşdirib, türk və ingilis imperialistlərinə qarşı müharibə elan etməyi qərara almışıq. Beləliklə, Bakını inqilabçı Rusiya üçün qoruyacağıq".[41]

26 Bakı Komissarlarının yaydığı bəyanatın Türk ordusuna qarşı açıq bir nifrət hissi ilə yazıldığı açıq-aydın görünür, Türk Qafqaz İslam Ordusu Bakını ələ keçirsə belə, şəhəri yenidən Sovet Rusiyası torpaqlarına qatacaqlarına olan inam vurğulanırdı. Şəhərin gələcəyinin, qorxaq Avetisov və Hamazaspın təklifi ilə ingilislərdən kömək gözləyənlərin deyil, Rusiyadan gələcək Sovet qüvvələrinin əlində olacağı qeyd edilirdi.

Beləliklə, 31 iyul 1918-ci ildə Şaumyanın rəhbəri olduğu Bakı Xalq Komissarları Soveti hakimiyyətdən getdi. Yerinə isə "Sentrokaspi və Sovetlərin Müvəqqəti İcraiyyə Komitəsi Rəyasət Heyətinin Diktaturası" hakimiyyəti quruldu. Bu hökumətdə rus menşevikləri və ermənilər çoxluq təşkil edirdilər. Ancaq əsl icra qüvvəsi erməni daşnaklarının əlində cəmlənmişdi[42].

26 Bakı Komissarları hakimiyyətdən getdikdən sonra şəhərdən gəmi ilə qaçmağa cəhd göstərdilər. Lakin, Sentrokaspi Diktaturasına tabe olan Xəzər hərbi donanmasına məxsus gəmilərlə geri qaytarıldılar və həbs edildilər. Bu hadisə ilə bağlı Petrov və Əmirovun tabeliyindəki qüvvələr, 26 Bakı Komissarlarının şəhərdən çıxmamaq şərti ilə azadlığa buraxılmasına nail oldular[43].

Sentrokaspi hökumətinin yürütdüyü ideologiyanın təməlində, əvvəlki rəhbərlikdə olduğu kimi, Bakı və Qafqazı bir erməni torpağı kimi görmək düşüncəsi vardı. Azərbaycan və Qafqaz xalqları arasında ədalətli bir idarəetmə sistemi yaratmaq kimi fikirləri yox idi. Rus bolşeviklərinin və erməni daşnaklarının Türk Qafqaz İslam Ordusu qarşısında uğradığı məğlubiyyətdən sonra, bu uğursuzluğu aradan qaldıracaqlarını və Türkləri məğlub edəcəklərini iddia edərək hakimiyyətə gəlmişdilər. Bu səbəbdən, Bakı və Azərbaycanda yaşayan türklərin həyatında milli mənafe baxımından heç bir dəyişiklik olmayacağı göz qabağında idi[44].

Türk Qafqaz İslam Ordusu 1 avqust 1918-ci il tarixində səhər saatlarında yeni bir hücuma başladı. Qızıl Ordu hərbi qüvvələri Bakını müdafiə etmək üçün Biləcəri-Heybət dəmir yolunun cənubuna və şərqinə çəkilərək müdafiə xətti qurmağa çalışırdılar. Bakının qərbində yerləşən Heybət dəmir yolunun şəhərə tərəf olan hissəsindəki yüksəkliklər onların əlində idi. Türk mövqelərini atəş altında saxlayan düşmənin üç səhra topu, top batareyalarının atəşi ilə susduruldu. Şimal qrupu birliklərinin hücumunu, Bakının qərbində və dəmir yolunun şərqində olan və olduqca əlverişli bir yerdə mövqe tutmuş düşmənə yaxınlaşmağı, əsgərlər, adətən, sürünərək həyata keçirirdilər. Bolşevik rus və erməni daşnak birlikləri müqavimət göstərməyə cəhd edir, topları ilə Türk qoşunları üzərinə od yağdırırdılar. Xəzər

dənizində olan döyüş gəmiləri də topların ağızlarını Türk ordusu tərəfə çevirmişdilər və arasıkəsilmədən atəş açırdılar. Düşmən təyyarələri isə havadan bombardman edirdi.

Güclü bir həmlə ilə Bakının qərbindəki Qurd qapısı təpəsini ələ keçirən 13-cü Qafqaz alayı, saat 14.30-da artıq Bakını görə bilirdi. Düşmən birlikləri Qurd qapısı təpələrini ələ keçirmək üçün bir neçə dəfə hücuma keçdi. Ancaq hər dəfə də ağır itki verərək, geri çəkilməyə məcbur oldu. Şimal qrupu birlikləri 10-cu Qafqaz alayının 29-cu batalyonu Qurd qapısı təpəsi ilə Hacıhəsən kəndi arasındakı ərazidən hücuma keçmişdi. Dik yamaclardan çıxaraq Salxana və Qışla yüksəkliklərini də qısa bir vaxt ərzində düşməndən təmizlədi. Şimal bölgəsində Bakıya iki kilometrə qədər yaxınlaşdı. Göstəriş hücumu ilə 60-cı batalyon da Hacıhəsən kəndini ələ keçirdi. Xırdalandan qərb və cənub istiqamətində davam edən hücuma qarşı, zirehli qatarların hərəkət etməsinin də qarşısını alırdı[45].

1 avqust hücumu və gün boyu davam edən müharibə çox şiddətli olmuşdu. Düşmən Salxana və Qışla yüksəkliklərində dayanan beş topu ilə cəbhəni güclü top atəşinə tutmuşdu. Döyüş gəmiləri də Qurd qapısı təpəsindəki 13-cü alayı sağ cinahdan və arxadan atəşə tuturdu. Düşmənə aid üç təyyarə isə cəbhəni havadan bombardman edir, pulemyotlardan atəş açırdı. Qurd qapısı təpəsində yerləşən Şimal qrupuna, buranı tamamilə təmizlədikdən sonra, cənub-şərq istiqamətinə dönərək Badamdar və Bayıl təpələri istiqamətində irəliləmək lazım idi. Üstün cəhd və fədakarlıqlarına baxmayaraq bu irəliləmə bir müddət baş tutmadı və şimal-qərbə dönərək son anda mühasirə manevri mümkün olmadı. 1 avqust hücumunu hazırlayan komandirlər top atəşi üçün münasib hədəflər seçmişdilər, lakin əllərində kifayət qədər top mərmisi yox idi[46].

Cəbhənin hərbi cinahında bu hadisələr yaşanarkən, Bakıdakı bəzi erməni qruplarının böyük qorxuya düşdükləri və sülh danışıqlarına başlamaq üçün bir heyət göndərməyin yollarını axtardıqları barədə xəbərlər yayıldı. Mürsəl paşa bu xəbərə əsasən, Bakı ermənilərinə göndərdiyi məktubda, sülh şərtlərinin danışıq əsnasında razılaşdırılacağı, bununla belə şəhər sakinləri arasında heç bir ayrı-seçkilik etmədən hər kəslə yaxşı davranılacağına dair təminat barədə yazırdı. Bakını tamamilə mühasirəyə alan Şərq Cəbhəsi komandiri Mürsəl paşa, 1 avqust 1918-ci il tarixində Qafqaz İslam Ordusu Komandanı Nuru paşaya, axşam saatlarında orduların yerləşdiyi mövqelər barədə məlumat verdi[47]. Bakının düşməndən təmizlənməsinin an məsələsi olduğunu bildirdi. Gəncədən Bakıya göndərilən 30-cu piyada alayının 3-cü batalyonu da Şərq Cəbhəsi Komandanlığının sərəncamına verildi[48].

Nuru paşa Mürsəl paşaya göndərdiyi əmrdə Bakının ələ keçiriləcəyi təqdirdə, qarətə yol verilməməsi, asayiş və əmin-amanlığın qoruna bilməsi üçün dərhal fövqəladə hal elan edilməsi, şəhərdə çaxnaşma və qətllərə yol verilməməsi,

düşmənin əlindəki top və pulemyotlarla Xəzər dənizindəki gəmilərin dərhal ələ keçirilməsi barədə təlimat verdi. Ancaq Türk əsgərinin əlində top mərmisi yox dərəcəsinə qədər azalmışdı. Buna görə 1 avqustda elə güclü bir top atəşi olmadı və Qızıl Ordunun müdafiəsini qırmaq mümkün olmadı[49].

Avqust ayının 2-də sübh saatlarında 29 və 60-cı batalyonlar yenidən hücuma keçdilər. Bakı yaxınlığındakı döyüşlərdə böyük təzyiq altında qalan düşmən piyadaları Salxana və Qırmızı Qışlanın qərbində bir ara geri çəkilməyə başlamışdılar. Düşmən süvari qoşunu bunların qabağını kəsərək, piyadalar arasındakı başıpozuqluğu bərpa etdilər və cəbhədəki yerlərini qoruyub saxlaya bildilər. Şəhərdən göndərilən birləşmələr də 60-cı batalyonun olduğu cəbhəyə yönəldilirdi. Qurd qapısı təpəsində olan düşmən ordusu isə gecədən aldıqları əlavə qüvvələrlə hücuma keçir və hər dəfə də böyük itkilərlə geri çəkilirdi[50].

Cənub qrupu isə saat 14.25-də hərəkətə gələrək, Sanqaçal körpüsünü təmir etdikdən sonra yürüş edəcəyini və ancaq 3 avqustda Heybətə yetişə biləcəyini bildirdi.

Şimal qrupu cəbhəsindəki müharibə axşam saatlarına qədər davam etdi. Düşmənin etdiyi saysız hücumlar, hər dəfəsində geri oturduldu. Bakının astanasında gedən bu çətin döyüşlər, düşmən üçün ölüm-dirim məsələsi idi. Türk topçusu isə cəbbəxana çatışmazlığı səbəbindən piyadalara lazımi qədər dayaq ola bilmirdi. Xüsusilə Salxana və Qırmızı Qışla ətrafında olan topları məhv edib susdura bilmədi. Buna görə Bakını müdafiə edən rus, erməni və ingilis birləşmiş qüvvələrinə öldürücü və həlledici zərbə vurula bilmədi.[51]

Bakının şimalındakı Xırdalan-Biləcəri cəbhəsində də qanlı döyüşlər gedirdi. Düşmənin Biləcəridə olan zirehli lokomotivinin arxasına və önünə birləşdirilən açıq vaqonlar üzərindəki toplardan Türk ordusuna atəş açılırdı. Türk topçusunun sərrast atəşi ilə bu zirehli lokomotiv tamam məhv edildi. Bakı-Biləcəri-Xırdalan dəmir yolu telefon xətti düşmən tərəfindən kəsilmədiyindən, düşmənin danışıqları dinlənilir və əhəmiyyətli informasiya əldə edilirdi. Üstəlik Bakıdan qərargaha gələn bir məktubda da belə məlumatlar var idi:

"Bakının tezliklə ələ keçirilməsi üçün hücuma keçməyiniz vacibdir, Çünki erməni komitəsi tərəfindən Ənzəlidəki ingilis birləşmələrinin 48 saat ərzində şəhərə köməyə gələcəyi və bunun üçün 7 gəmi göndərildiyi, Biçeraxov və Petrov əsgərlərinin də şəhəri qoruduqları, banklarda hökumətə aid olan pul və qiymətli əşyaların hamısını gəmilərə yükləyib qaçmağa hazırlandıqları" bildirilirdi[52].

Şərq Cəbhəsi komandanı Mürsəl paşa Bakıda olan Sentrokaspi Ordusu Komandanı və Erməni Milli Şurası İdarəsinə 3 avqustda bir məktub da göndərdi. Türkcə və rusca yazılan məktubun məzmunu belə idi:

"Bakıdakı Erməni Milli Şurası rəhbəri. Bakının ətrafında Türk Qafqaz İslam Ordusunun döyüşdüyünü və şəhəri mühasirəyə aldığını bilirsiniz. Əgər şəhəri

döyüşsüz təslim etsəniz, milli və dini mənsubiyyətindən asılı olmayaraq, Bakıdakı bütün insanların hüququ qorunacaqdır. Xüsusilə Ermənistana getmək istəyən ermənilərə heç bir məneə törədilməyəcəyinə zəmanət verirəm. Əgər şəhər təslim olmasa, axıdılacaq qanlara və dəymiş zərərə görə cavabdeh siz olacaqsınız. Şəhəri təslim etməyə razısınızsa, tezliklə cavabınızı adamlarınızla göndərin"[53].

Erməni Milli Şurası və Daşnak Partiyası bu məktuba cavab vermədi. Çünki həmin gün köməyə gələcəyi barədə Biçeraxovdan məktub almışdılar. Lakin Biçeraxovun Quba və Xaçmaz bölgələrində dayanmayaraq qüvvələrini Dərbəndə çəkməsi Bakıdakı yeni hökuməti çıxılmaz vəziyyətdə qoydu. Belə olan halda Sentrokaspi rəhbərliyi Bakıda yeni bir səfərbərlik elan etdi. Bakı və ətrafı Səfərbərlik Komissarı Bekzadyan və köməkçisi Qukasyanın imzası ilə bir əmr yayıldı. Bu əmrə görə orduya yararlı bütün əhali ilə ev, fabrik, iş yerləri və mədən komitələrində çalışanların siyahısının çıxarılaraq 3 avqust axşam saat 18-ə qədər hökumətə bildirilməsi istənilirdi. Əks təqdirdə cəza tədbirləri görüləcəyi qeyd edilirdi[54].

Stepan Şaumyan isə Bakıdan qaça bilmək üçün 3 avqustda daha bir cəhd etdi. Ter-Qabrielyan ilə birlikdə gizləndikləri gəmidə Sentrokaspi hökumətinin tabeliyində olan donanma tərəfindən nəzarətə götürüldülər və Bakıya qaytarıldılar. Bakı hökuməti silah və təchizatı təhvil vermək şərti ilə 26 Bakı Komissarlarının şəhərdən çıxmalarına icazə verəcəyinə və bunun üçün on gəmi ayıracaqlarına dair söz verdilər. Bolşevik liderlər, əllərindəki silah, sursat və digər şeyləri təhvil verməyə razı oldular[55].

Bakı yaxınlığındakı döyüşlər, 3 avqustda qarşılıqlı pulemyot atəşi ilə davam etdi. Cənub qrupu ordu birləşmələri 4 avqustda Bakı cəbhəsinə çata bilmişdi[56]. Puta stansiyasına çata bilən ordunun piyada və topçu qüvvələri Şimal qrupunun sərəncamına verildi. Türk ordu birlikləri, başlanılacaq həlledici hücuma hazırlıq ilə məşğul ikən, düşmən qüvvələri ani bir həmlə ilə Qurd qapısı təpəsini ələ keçirdi. Şərq Cəbhəsi Komandanlığı, bütün birliklərə göndərdiyi əmrdə, düşmənə, 5 avqust 1918-ci il tarixində sübh saat 4-də, basqın şəklində bir hücum təşkil ediləcəyini bildirdi. Hücum planına görə, əsl qüvvə mərkəzi yenə də cəbhənin sağ cinahında, yəni Bakının aşağısındakı yüksəkliklərin önündə yerləşən birliklərdə olacaqdı. Mürsəl paşa bu bölgənin ərazi strukturunun şəhərdəki uzun mənzilli toplar ilə gəmilərdəki toplardan açılan atəşin təsirini qırdığını düşünürdü. Türk ordusunun sol cinahının yerləşdiyi bölgənin şəhərə daha uzaq olması səbəbiylə, yüksəkliklərin keçilməsindən sonra qarşıdakı düz ərazinin arxadan bəslənməyi çətinləşdirəcəyini, eləcə də Mehmetçiyin, düşmən topçusunun açıq hədəfi halına düşəcəyini hesab edirdi. Düşmən cəbhəsinə ilk həmlə, süngü hücumu şəklində ediləcəkdi. Cəbhədən yarılaraq geri oturdulan düşmən birləşmələri tamamilə dağıdıldıqdan sonra, şəhərə giriləcək və ehtimal olunan küçə döyüşlərindən sonra, Bakı ələ keçiriləcəkdi. Əsl

hücum birlikləri şəhərə girərkən, Bakının qərbindəki Bayıl yüksəkliklərinə çıxarılacaq səhra topu ilə limandakı sərnişin gəmisi və dənizdəki gəmilərin qaçmasına fürsət verilmədən batırılacaqdı[57].

**4. Hücumdan əvvəl Türk Qafqaz İslam Ordusunun vəziyyəti**

Şimal qrupu komandanı vəzifəsini, Ştab zabiti yarbay Osman bəy yerinə yetirirdi. Qrupun tabeliyindəki 13-cü Qafqaz alayı Bakının qərbindəki Qurd qapısı təpələrində mövqe tutmuşdu. Alay, 17 topla mühafizə olunacaqdı. 38-ci piyada alayının 2-ci batalyonu 13-cü Qafqaz alayının ehtiyatı rolunda çıxış edəcəkdi. Ordunun əsas qüvvə mərkəzi bu alayın ətrafında olduğu üçün, 25, 26 və 29-cu batalyonlardan ibarət ehtiyat qüvvələr də alayın sağ cinahında yerləşdirilirdi. 19-cu süvari bölüyü də 13-cü Qafqaz alayının sağında idi. Qrupun 10-cu Qafqaz alayının 29 və 60-cı batalyonları, 13-cü Qafqaz alayının solunda və Xırdalana qədər olan cəbhə qismində idi. 38-ci piyada alayının 1-ci batalyonu, 10-cu Qafqaz alayının ehtiyatı idi. 10-cu Qafqaz alayını on bir top dəstəkləyirdi. Süvari minbaşı Zehni bəy komandası altında isə nizami süvari alayı, "Dikaya diviziya"nın süvari bölükləri və rus əsarətindən qaçan türklərdən ibarət bir piyada bölüyü ilə, 9-cu Qafqaz alayı pulemyot bölüyü və Ləzgi alayının bir qismi xidmət edirdi. Zehni bəyin ordu birləşmələri Şimal qrupunun sol cinahını təşkil edirdi və Xırdalandan Masazır bölgəsinə qədər olan geniş bir düzənliyə yayılmışdı[58].

Sumqayıt məntəqəsinin şimalında isə 38-ci piyada alayı 11-ci batalyondan bir bölük, bir milis süvari dəstəsi ilə bir pulemyotçu dəstəsi var idi. Bu birliyin vəzifəsi, şimaldan qatar yolu ilə gələ biləcək təhlükənin qarşısını almaq idi. Cənub qrupu, azərbaycanlı podpolkovnik Həbib Səlimovun komandanlığı altında 26-cı piyada batalyonundan bir bölük, Diviziya istehkam bölüyü, bir süvari dəstəsi, iki rus səhra topu və zirehli qatar ilə Ələtdə yerləşmişdi. Bunların vəzifəsi isə Xəzər dənizindən gələ biləcək hər hansı təhlükənin qarşısını almaq idi[59].

**5. Birinci Bakı hücumu:**

Şərq Cəbhəsinə tabe olan ordu, 5 avqust 1918-ci il tarixində səhərə yaxın saat 04.30-da bütün istiqamətlərdən Bakıya tərəf irəli hərəkətə başladı[60]. Türk topçusunun güclü atəşi ilə müşayiət olunan hücum qarşısında, birləşmiş düşmən qüvvələri mövqelərini qoruyub saxlamağa çalışırdılar. Havanın işıqlanması ilə hücumu şiddətləndirən türk əsgəri qarşısında ingilis, rus və erməni birləşmiş qüvvələri Bakıya doğru addım-addım geri çəkilməyə başladılar. Şimal qrupu Bakının cənub-qərbindəki Bayıl yüksəkliklərini ələ keçirərək, şəhərə daha da yaxınlaşdı. Düşmən qüvvələri cəbhənin ortasındakı koridordan Salxana istiqamətində və arxadakı məzarlığa doğru qaçmağa çalışırdılar. Türk topçu atışları şəhərə zərər vermək istəmirdi və yalnız əsgər səngərlərini hədəfə alırdı. Top səslərini eşidən rus və ermənilər qorxu və təlaş içində sahildəki gəmilərə tərəf qaçırdılar. Bakı limanında 5-6 gəminin şəhərdən qaçmağa hazırlaşan insanlarla

dolu olduğu görünürdü.[61] Hücum xəttinin sol tərəfinə qarşı irəliləməyə çalışan düşmən, geriyə oturduldu. Xırdalandakı bəzi piyada və süvarilərin də geriyə çəkildiyi görünürdü. Düşmən gəmilərindən atılan top atəşləri hücumda olan türk əsgərini dayandıra bilmirdi.

Türk Qafqaz İslam Ordusu, düşmən birliklərinin telefon danışıqlarını da dinləyirdi. Bunlardan birindən başa düşüldüyü qədərincə, türklərin şəhərə girməsi halında mümkün olan yol və istiqamətlərin top atəşinə tutulması kimi tədbirlərdən söhbət gedirdi. Başqa bir dinləmədə də şəhəri qorumağa çalışan düşmən qüvvələrinin sol və sağ cəbhələrinin süqut etmək üzrə olduğu məlum oldu. Buna görə adının podpolkovnik Əzizov olduğu bildirilən bir bölük komandiri, Bakının müdafiəsini idarə edən general Kornilovu təcili telefona çağırırdı. Əzizov müdafiə xətlərinin qırıldığını və türk əsgərinin şəhərə girmək ərəfəsində olduğunu bildirərək, bu vəziyyətdə nə edəcəklərini soruşurdu. Bu və buna bənzər məlumatları vaxtında qiymətləndirən Şərq Cəbhəsi Komandanı Mürsəl paşa, vəziyyəti Nuru paşaya vaxtında çatdırır və hücumun planlaşdırılan şəkildə uğurla davam etdiyini söyləyirdi. Türk ordusu, Bakının yandırılıb-dağıdılmasını, xaraba olmasını istəmədiyi üçün, şəhərin ziyan vurulmadan alınacağına olan ümid getdikcə artırdı[62].

Bakı yaxınlığındakı hücumun ilk anlarında düşmənin birinci müdafiə xətti tamamilə məhv edilmişdi. Türk əsgərləri ikinci müdafiə xəttinə doğru irəliləyirdi. Bu şərtlər altında Bakının ələ keçirilməsi artıq an məsələsi idi. İkinci müdafiə xəttinə edilən hücum əsnasında türk topçu atəşinin, əvvəlkilərə nisbətən getdikcə azaldığı nəzərə çarpırdı. Topçular günorta saatlarına doğru irəliyə hərəkəti davam etdirən piyadalara lazımi səviyyədə dəstək verə bilmirdilər. Günortadan sonra isə top mərmisi tamamilə qurtardı. Top atəşlərinin kəsilməsindən sonra çaşqınlığı aradan qaldıran düşmən, 38-ci alayın birinci batalyonunun olduğu yerə tərəf hücuma keçdi. Ehtiyat bölüyünün vaxtında müdaxiləsi nəticəsində bu hücum dəf edildi. Düşmənin top və pulemyotları 38-ci alay ilə 60-cı batalyonu şiddətli atəşə tutmuşdu. Xüsusilə, pulemyot atəşi altında piyadalar ağır vəziyyətə düşmüşdülər. 10-cu alay da topçu dəstəyindən məhrum bir vəziyyətdə idi. Top və pulemyot çatışmazlığı səbəbindən ağır itkilər verilməyə başlamışdı. Qrup komandanı vaxtında yaxşı bir tədbir görərək, qrupun sağ cinahının arxasındakı uc batalyonda olan ehtiyat qüvvələri döyüş meydanına çıxara bilmədi. Bunun nəticəsində 13-cü alay geri çəkilmək məcburiyyətində qaldı[63].

Top mərmisinin tükənməsi və pulemyotların əksəriyyətinin susması Şimal və Cənub qruplarının səhərki mövqelərinə çəkilməsi ilə nəticələndi. Çünki çox dəyərli zabit və əsgərlər döyüş meydanında həlak olur, silahları daşıyan qatırlar ölürdülər. Beləliklə, ordu Heybət-Biləcəri dəmir yolunun qərbinə keçmişdi. Böyük dəyanət və fədakarlıqlarla, adətən, sürünərək çıxılan düşmən səngərlərinə çatan

Türk Qafqaz İslam Ordusu, beləcə, daha çox itki verməmək üçün geri çəkilmək məcburiyyətində qalmışdı. Əgər ordunun bu vəziyyətində düşmən onları təqib etsəydi, şübhəsiz, Heybət-Biləcəri dəmir yolunun qərbindəki yüksəkliklər də əldən çıxar və itkilər daha ağır olardı. Türk ordusu ordunu bir yerə yığmağa və yüksəkliklərdə mövqe tutmağa çalışırdı. Kifayət qədər silah və kömək gələnə qədər bu vəziyyəti qoruyub saxlamağa çalışırdı. 5 avqustdakı hücumun top mərmiləri olmadan başlanılması, uğursuzluqla nəticələndi[64].

Bakıdan əldə edilən telefon danışıqlarına əsasən, eyni gündə Cənubi Azərbaycandakı Rəşt şəhərindən gəmi ilə 300-ə qədər ingilis əsgərinin gəldiyi və düşmən qüvvələri ilə birləşərək, ertəsi gün, yəni 6 avqustda bütün cəbhələrdən hücuma keçəcəkləri haqda məlumat əldə edilmişdi. Biləcəri-Heybət dəmir yolunun qərbinə çəkilən Cənub və Şimal qruplarının cəmləşərək döyüş vəziyyətinə gətirilməsi, 6 avqust səhərinə qədər davam etdi. Ordu qərargahındakı zabitlərlə süvarilər və digərləri, mövqelərində möhkəmlənməyə çalışan Mehmetçiyin yenidən təşkil olunmasına kömək edirdilər. Düşmən qüvvələri eyni gündə yeni bir həmləyə başladıqda da itkilər verərək geri çəkilməyə məcbur oldular[65].

Birinci Bakı hücumunda erməni, rus və ingilis birləşmiş qüvvələrindən 2 mindən çox ölən və yaralanan olmuşdu. Türk ordusunun itkiləri isə, zabitlərdən - 9 şəhid, 19 yaralı, əsgərlərdən -139 şəhid, 444 yaralıdan ibarət idi. Cəmi 547 piyada tüfəngi, 37 pulemyot yararsız hala düşmüşdü.[66]

Şərq Qrupu Komandanı Xəlil paşa, 31 iyul 1918-ci il tarixində Batumdan keçərək Tiflisə getmişdi. Bakıya birinci hücum Xəlil paşanın Tiflisdə olduğu günlərə təsadüf edirdi. Gürcü qəzetləri hadisəni "Türklər Bakıya hücum etdilər, məğlub oldular, geri qaçırlar" kimi ifadələrlə oxuculara çatdırırdılar.

Bu xoşagəlməz xəbərlərdən narahat olan əsgər, iki səhra batareyası, düşmən Xəzər dənizində olan döyüş gəmilərindən açdığı atəşi susdurmaq məqsədi ilə dörd ağır top batareyası, hava hücumundan müdafiə üçün bir dəstə, müxtəlif çaplı 28 min top mərmisi, min qutu mauzer tüfəngi mərmisi və rus piyada tüfəngləri üçün beş yüz qutu mərmi, telefon və teleqraf rabitəsinin lazımi qaydada yerinə yetirilməsi üçün lazımi avadanlıqlar və iyirmi hərbi nəqliyyat vasitəsinə təcili ehtiyac duyulduğu qeyd edildi.[73]

5 avqust hücumundan sonra Türk Qafqaz İslam Ordusu arasında Bakıdan göndərildiyi güman edilən bir dəvət məktubu yayıldı. Məktubda belə deyilirdi:

"Bakı kimi milyon və milyardlarla sərvətin olduğu şəhərin qapıları qarşısında günlərdən bəri zəfər quşunun qanadını yaxalamaq istəyən Türk ordusuna:

Ürəkaçan bu gözəl şəhəri əgər siz zəbt etməsəniz, Türkün və ordusunun şərəfini indi içində olduğunuz xəndəklərdə basdıracaqsınız. Əgər siz bu sərvət və

qızıl şəhərini ələ keçirməsəniz, sevgili böyük vətənimizə ən qiymətli bir hədiyyəni vermək fürsətindən məhrum olacaqsınız.

Əgər siz mavi dənizin bu məşhur şəhərini ələ keçirməsəniz, Qafqaz türkləri və Türküstan müsəlmanlarının qəlbinə saplanmış olacaq zəhərli xəncərin üzərinə "eyvah, Türk bizə imdada gəlmədi" cümləsi yazılacaqdır. Qafqaz fəryad edəcək, Türküstan ağlayacaqdır. Əgər siz bu böyük İslam şəhərini zəbt etməsəniz, "Allah" deyənlərin varlığını ortadan qaldıran və qaldırmaq istəyən düşmənlər sizi öndən və arxadan əhatəyə alacaq, qıcırdılmış dişlər, yeni zülmlər üçün itilənmiş olacaqdır. Əgər siz dəmir borulardan dünyaya var-dövlət axıdan və dünyanın tərəzisində çox ağır gələcək olan bu hərb şəhərini zəbt etməsəniz, tarixin hüzurunda utancla yerə baxacaqsınız. Və bu gün dost-düşmən məmləkətlərində, ən kiçik bir evdə, ən adi adamların belə dillərində gəzən Bakı şəhəri nağılı türklərin məğlubiyyəti ilə bitmiş olacaqdır. Düşmənlər böyük və çox əzəmətli bir zəfərin açarlarını əllərinə keçirmiş olduqlarını, bəlkə də bir az haqlı olaraq elan edəcəklər.

Dostlar belə bir itkidən doğan üzüntülərini gizlətməyəcəklər və bizi qəmləriylə üzəcəklər.

Ey Türk əsgəri, əgər sən bu şəhəri almasan, Bakıda sənin üçün hazırlanan süfrələr qonaqsız qalacaq, sənin üçün tikilən paltarı düşmən geyəcəkdir. Sənə verilən vədlər yerinə yetirilməyəcək, sənin ayağın altında kəsilməli olan qurbanlar düşmənə qalacaq. Sənin üçün hazırlanan qızılı düşmən qarət edəcək. Əgər sən bu şəhəri almasan, İslam gəlinlərinin duvaqlarını kafirlər yırtacaq, yenə də mübarək İslam qanları qızıl şərab kimi vəhşi işgəncələrlə axıdılacaqdır. Sənin zəfərin üçün duaya açılan əlləri zalımlar kəsəcəkdir.

Əgər sən bu sarı işıqlı qızıl şəhəri almasan, qadınlar saçlarını yolacaq, ağıllarını itirəcəklər. İndiyə qədər axan qanlar boş yerə axmış olacaq. Sən də bu tozlu-torpaqlı yerlərdə pərişan və səfil dolaşacaqsan. Türkün gözlərini oyub saplara düzən düşmənlərə bayramlar hazırlayacaqsan.

Lakin sən, ey Türk əsgəri, ingilislərin gücünü Çanaqqalada qırdın. Ən böyük döyüş gəmilərinin böyük top mərmilərinə aylarla sinə gərdin. Qut-ül-Amarədə 14 min əsir aldın. Qarşıdakı düşmənin çoxunu, erməniləri Qarsdan, Azərbaycandan bəri qabağına qataraq bu şəhərə qovdun. Türk adını ucaldan Çanaqqala, Qut-ül-Amara, Qalisiya, Rumıniyadan sonra Qafqaz gələcək və Bakı şəhəri də igidlik tacının bir almazı olacaqdır. Al Bakını. Vətəninə bir qızıl ərmağan apar"[74].

1. Petrov da ermənilər kimi talan, qarət, vəhşət və xalq arasına qorxu salmaqla ad çıxarmışdı. Voronej bölgəsinin yerli xalqı, onları Petrov və adamlarının təzyiq, şiddət və qarətlərindən qurtarması üçün Leninə dəfələrlə müraciət etmişdilər. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 243.
2. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 243.

3. Bakıdan gələn bir şəxsdən alınan məlumata görə, təxminən 15 gün əvvəl İrandan Xəzər dənizi sahilində yerləşən Ələt qəsəbəsinə çıxan çar tərəfdarı rus kazakı polkovnik Biçeraxovun 1.300 nəfərlik ordusu var idi. Bunlardan 300-ü Kürdəmir müharibəsində olmuşdu. Bakıda müxtəlif din və millətdən olan gəncləri ayda 1.200 rubl qarşılığında zorla əsgər alırdı. Biçeraxov İrandan gələrkən ingilislərdən 18 milyon manat pul almışdı və bu pulla 15 gün içində 10 min əsgər toplayacaqdı.
Kürdəmir müharibəsində düşmənin zirehli vaqonlarından biri xarab olmuşdu. Dörd ədəd zirehli avtomobil də Qarasu stansiyasında qalmışdı. Düşmənin bütün gücü 32 tabor olub, hər biri 150 nəfərlik iki taboru dəmir yolu xəttində yerləşirdi. Bakıda 10 mindən çox türk, bolşeviklərə təslim olmamaq və türk ordusu ilə birlikdə hərəkət etmək üçün səbirsizliklə gözləyirdi. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 571; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 109-110.
4. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 108-109.
5. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 571; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 112.
6. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 113-114.
7. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 572; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 114-119.
8. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 572; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 121.
9. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi. III ordu hərəkatı, II c, s. 573.
10. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 573; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 121.
11. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 116-122.
12. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 245.
13. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 571.
14. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 24.
15. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 122-123.
16. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 245.
17. Yenə orada, s. 243-245.
18. 24 iyul tarixli bildiriş belə idi: "Yoldaşlar! Vəhşi Türkiyə bizim üstümüzə ordu göndərmişdir. Silaha sarılan Bakı fəhlə və kəndliləri bu orduya qarşı ayağa qalxdılar və qəhrəmanca döyüşərək isbat etdilər ki, inqilab uğrunda mübarizə aparmağı və ölməyi bacarırlar. Müharibəyə gedərkən yalnız zəfəri deyil, məğlubiyyəti də düşünmək lazımdır. Biz indi məğlubiyyət anlarını yaşayırıq.

Bizim yorulan və gücləndirilməyən hərbi birliklərimiz, sağ cinahda geri çəkilməkdədirlər. Ancaq bu vəziyyət çarəsizliyə və bədbinliyə səbəb olmamalıdır. Silahı ataraq düşmənin şəhərə girməsinə icazəmi verəcəyik? Xeyr, yoldaşlar! Bizim aramızda, silahı ataraq türklərin təzyiqinə baş əyməyi təklif edən satqınlar yoxdur. İndi cəbhədə yeni qüvvələrimiz var. Öz aramızda yeni birliklər qura bilərik. Bu surətlə, yorulan və geri çəkilən birliklərimiz, bir müddət dincəlmək imkanı əldə edər. Sonra yenidən gəlib silaha sarılar və düşmənlə savaşar. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 244.

19. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 246-247.
20. Yenə orada, s. 247-248.
21. Yenə orada, s.248.
22. Yenə orada.
23. Qafqaz İslam Ordusunun əlindəki məlumatlara görə Biçeraxovun üç min əsgəri var idi. Bəzi ingilis və rus mənbələrində isə bu sayı min nəfər olaraq göstərilməkdədir.
24. Mirzəbala Məmmədzadə, Milli Azərbaycan hərəkatı, s. XXII.
25. Yenə orada, s. 97-98.
26. V. E. D. Allan, P. Muradov, Türk-Qafqaz sərhədindəki müharibələrin tarixi (1828-1921) Genelkurmay mətbəəsi, Ankara, 1966, s. 456.
27. Nasir Yücəər, Birinci Dünya savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan hərəkatı. Ankara, 1996, s. 103.
28. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 134.
29. Yenə orada, s. 133.
30. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 573; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, 123-124.
31. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 126.
32. Bu təmiz içməli suyu Bakıya, Azərbaycan türklərindən, zənginliyi və xeyirsevərliyi ilə tanınan Hacı Zeynalabdin Tağızadə, öz vəsaiti hesabına çəkdirmişdi. Köhnə Bakının mərkəzindəki məhəllələrdə bu gün də "Şollar suyu" adlanan bu sudan istifadə edilməkdədir.
33. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 124.
34. Yenə orada, s. 126.
35. Yenə orada, s. 127. Səlimovun su çatışmazlığı haqqındakı raportu belə idi: "Bu gün Ağbulaq stansiyasını ələ keçirirəm. Sabah (1.7.1334) Ələti, düşmən olsa belə, Allahın köməkliyi ilə ələ keçirmək üçün irəli gedəcəyəm. Daha sonra da Bakı istiqamətində hərəkət edəcəyəm. Fəqət birliyin suyu qətiyyən yoxdur. Susuzluqdan əsgərlər bayılmış bir haldadır. Sürətlə su çatdırılması üçün lazımi şəxslərə əmr verilməsini təkrar-təkrar rica edirəm.

36. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 574; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 130.

37. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 250.

38. Yenə orada, s. 253-254.

39. Yenə orada, s. 254.

40. Yenə orada.

41. Yenə orada, s. 255.

42. Bakıda hakimiyyətin Sentrokaspi Diktatorluğunun əlinə keçməsindən sonra, bolşeviklərə bağlı olan hərbi qüvvələr, silah və sursatlarıyla birlikdə Petrovski meydanına yığışdılar. Onların arasında yeni hökumətə xidmət etmək istəməyən Petrovun qüvvələri və Popova tabe 19-cu alay ilə gedəcək başqa yeri olmayan avaralar, silahlı dəstələr və fəhlələr vardı. Əllərində də silah, top, cəbbəxana və zirehli avtomobillər vardı. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 256.

43. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 256.

44. Yenə orada, s. 255-256.

45. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 575; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 129.

46.Yenə orada.

47.Xəritə 10 və 11.

48.Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 575; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 130.

49. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 576.

50. Türk ordusunda top mərmisinin tükəndiyi hiss olununca, Bakıda Petrova bağlı qüvvələrdən gəmilərə köçürülmüş bir topçu batareyası Şaumyanın təlimatı ilə yenidən şəhərə qayıtdı və Petrovsk meydanında olan Petrova tabe bir topçu batareyası ilə birləşərək Bayıl, Bibiheybət və Qurd qapısı istiqamətində güclü atəş açmağa başladı. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 266-279.

51. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 576; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 132.

52. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 133.

53. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 271.

54. Yenə orada, s. 275.

55. Yenə orada, s. 302.

56. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 578.

57. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 578; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 137.

58.Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 578; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 138-139.

59.Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 579; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 139.

60. Xəritə 12.

61. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 579.

62. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 139.

63. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 579-580; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 140.

64.Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 579; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 140

65.Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 580; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 140

66. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 580. Bu döyüşdə 5-ci Qafqaz piyada diviziyasındakı heyvanlardan 43-ü ölmüş, 32-si yaralanmış, 19-u itmişdi. Ayrıca 485 mauzer, 62 rus tüfəngi, 3 pulemyot, 4 revolver, 538 xəncər, 10 süngü, 7 daşıma sandığı, 1 buxar qəlyanı, 1 tüfəng durbini, 4 tüfəng qalxanı, 1 cihaz sandığı, 1 cihaz çantası, 6 tüfəng üçayağı, 3 ehtiyat lülə, bir su qabı, bir işarə tapançası, 3 aydınlatma tapançası, 27 əl qayçısı, 619 portativ çadır, 22 kürək, 101 güllə qayışı, 2 top cəbbəxanası daşıma sandığı sıradan çıxmışdı. Bu döyüşdə 542 şnayder, 120 rus səhra, 270 qüdrətli və 100 dağ topu mərmisindən istifadə edilmişdi. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 143.

67. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 163.

68. Yenə orada, s. 142.

69. Yüzbaşı Səlahəddinin romanı, s. 415-416.

70. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s.142.

71. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 581; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 145-146.

72. Hərbi birliklərdə, döyüşə bilməyəcək vəziyyətə düşən, yəni şəhid olan və ya yaralananlar, itki sayılır.

73. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 581.

74. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 281-282.

# VI HİSSƏ

## BAKININ AZAD EDİLMƏSİ

### 1.Türk Qafqaz İslam Ordusunun güclənməsi:

Türk Qafqaz İslam Ordusu silah, xüsusilə də top mərmisi çatışmazlığından sıxıntı çəkməsinə baxmayaraq, Bakıya hücum etməyi qərara almışdı. Bakı kimi təbii səngərlər - təpə və vadilərlə əhatələnmiş bir şəhəri ələ keçirmək üçün hücuma keçən ordunun aramsız atəşə tutulması qorxusu vardı. Ona görə də düşmənin müqavimətini qıracaq və piyadalara dəstək verəcək top atəşinə ehtiyac duyulurdu. Mehmetçik, buna rəğmən Bakının ətraf məhəllələrinə qədər irəliləmiş, ancaq bu əsnada toplar tamamilə susmuşdu. Türk qərargahında bu ehtimallar hesablanmışdı. Çünki Baş Komandanlıq vəkaləti göndərdiyi əmrlərdə, Bakının tez bir zamanda ələ keçirilməsini istəyirdi. Müharibənin gedişi və almanların Bakıya girmək istəməsi Ənvər paşa başda olmaqla, bütün hərbi qulluqçuları Bakını tez bir zamanda ələ keçirmək barədə eyni cür fikirləşməyə vadar edirdi. Türk Qafqaz İslam Ordusu komandanlığı, 3-cü Ordu komandanlığına bir raport yazaraq, vəziyyəti bildirməyi lazım bildi. Nuru paşa, türk əsgərləri Hacıqabul-Mərəzə xəttində olarkən əsir alınan düşmən əsgərləri arasında ingilis zabitlərinin də olduğunu və Ənzəlidən Bakıya 4 min nəfərlik güclü bir heyət göndərilməsi üçün hazırlıq görüldüyü barədə onlardan məlumat alındığını, bu xəbərə əsasən Bakıya basqın şəklində bir hücum təşkil etmək üçün 02.08.1918-ci il tarixində əmr verildiyini bildirdi. Düşmənin Bakı yaxınlığına qədər heç bir əsaslı müqavimət göstərmədiyinə eyham vuran Nuru paşa, onların şəhəri müdafiə etmək iqtidarında olmadıqları qənaətinə gəlmişdi. Türk ordusunun Bakıya qəhrəmancasına hücuma keçdiyini və düşmənin müdafiəsini yardığını, ancaq top cəbbəxanası çatmaması üzündən piyadaların lazım olduğu qədər dəstəklənmədiyini nəzərə çatdıran Nuru paşa, düşmənin əks-hücuma keçərək türk əsgərini geri oturtduğunu və üstəlik Puta-Xırdalan dəmir yolunun qərbini də ələ keçirdiklərini yazdı. Nuru paşa raportunda belə deyirdi:

"Düşmən Bakıda əli silah tutan və hər millətdən olan kişiləri silahlandırmaqdadır. Bakıdakı düşmən qüvvəsinin 10 min nəfər olduğu təxmin edilməklə bərabər, əlavə qüvvə aldıqları da casuslar vasitəsilə öyrənilmişdir. Bakının zəbti üçün aşağıdakı gücə və cəbbəxanaya ehtiyac vardır:

1. Beş min yeni qüvvə,
2. İki səhra batareyası və düşmənin döyüş gəmilərinin Ələt-Puta dəmir yolu xəttindən və Bakı limanından uzaqlaşdırılması üçün 4 ağır batareya,
3. Bir təyyarə bölüyü,
4. Bir teleqraf bölüyü (telefon və teleqraf xətlərinin işləməsini təmin etmək üçün)

5. Buradakı toplar üçün 10 min qüdrətli top, 8 min şnayder, 4 min Rus dağ, 6 min Rus səhra topu mərmisi ilə min qutu piyada mauzer və 500 Rus piyada tüfəngi cəbbəxanası,

6. Təxminən iyirmi ədəd nəqliyyat vasitəsi.[1]

Nuru paşa, Gəncəyə çatdıqdan sonra Azərbaycan türklərindən ibarət bir ordu yaratmaq üçün işə başlamışdı. Lakin, gözlənilən nəticə alınmamışdı. Təşkil edilən az saylı milis qüvvələrinin də istər Göyçay və istərsə də Bakı hücumlarında göstərdikləri hərbi qabiliyyətlər qənaətbəxş olmamışdı. Azərbaycan ordusunun özəyini təşkil edən bir korpus yaratmaq üçün fəaliyyətə başlayan Nuru paşa 13 avqust 1918-ci il tarixində, yaradılması vacib olan Azərbaycan Korpusunun əsaslarını bu şəkildə bəyan etdi:

1. Azərbaycan Cumhuriyyətində ordu təşkil etmə işlərini "Qafqaz İslam Ordusu" tənzim və idarə edəcəkdir.

2. Qurulacaq korpusun hərbi nizamnaməsi hazırlanaraq 6 avqust 1918-ci il tarix və şöbə 173/5 nömrəsi ilə göndərilmişdir.

3. Süvari dəstələri müxtəlif məntəqələrdə təşkil edilərək, sonradan ehtiyac olduqda daha böyük birliklər halına gətiriləcəkdir.

4. Təşkil edilməkdə olan kiçik birliklər korpus və diviziya qərargahlarının təşkilinə qədər Qafqaz İslam Ordusuna tabe olacaqdır.

5. Korpusun zabitlərinin hamısı müsəlman olmalıdır. Bütün zabit və əsgərlər Osmanlı hərbi formasını geyəcəklər, süvarilər mərasimdə Çərkəz uniformasını geyəcəklər.

6. Mövcud Azərbaycan korpusu ləğv olunacaqdır. Korpusun Gəncə və digər məntəqələrdə olan hər növ silah, cəbbəxana, mühümmat, araba, heyvan və geyimləri yeni təşkil ediləcək korpusda istifadə edilmək üçün Qafqaz İslam Ordusunun tabeliyinə veriləcəkdir. Azərbaycan korpusu 15 avqust 1918-ci il tarixinə qədər bunların siyahısını Qafqaz İslam Ordusuna göndərəcəkdir.

7. Yeni təşkil ediləcək birliklərdə danışma və yazışma türkcə olacaqdır. Yayınlanan bu təlimat Azərbaycanda fəaliyyət göstərən bütün Osmanlı birlikləri ilə Azərbaycan Korpusu Komandanlığına və Azərbaycan hökumətinə göndərilmişdir.

Qurulmasına çalışılan Azərbaycan ordusu dörd piyada alyından ibarət olan iki piyada diviziyası şəklində təşkil olunacaqdı. Gənclər ölkənin müxtəlif yerlərindəki yerli komandanlıqlar vasitəsilə orduya çağırılacaqdı. Qurulacaq batalyon, alay və diviziyalara Osmanlı zabitləri komandanlıq edəcək, daha sonra yetişdirilən Azərbaycanlı zabitlər tədricən bunların yerini tutacaq. Bu ordunun təchizatını isə Azərbaycan hökuməti, məhəlli idarələr və yerli komitələr edəcəkdilər. Azərbaycan Milli Korpusu Komandanı vəzifəsinə Rus Çar ordusunda general rütbəsinə qədər yüksələn Əliağa Şıxlinski təyin olundu[2]. Türk Qafqaz İslam Ordusunun cəbbəxana çatışmazlığı üzündən Bakı yaxınlığında çarəsiz

gözləməsi, labüd Dağıstan və Cənubi Azərbaycan hərəkatlarını da təxirə salırdı. Bu da, İstanbulda Osmanlı Baş Qərargahının planlarına mənfi təsir göstərirdi. Xüsusilə Cənubi Azərbaycanda Ənzəli, Rəşt, Tehran və Təbriz ilə Urmiya gölü ətrafında təşkil olunması vacib olan hərbi əməliyyatlar gecikdikcə, İraqdakı Mosul və Bağdad ətrafında olan türk əsgəri birliklərinin vəziyyəti də çətinləşirdi. Türk Qafqaz İslam Ordusunun əlavə güc və təchizata ehtiyacı olduğundan Şərq Orduları Qrupu Komandanlığı 9-cu Ordunun sərəncamında olan 107-ci Qafqaz alayının Bakıya göndərilməsini qərarlaşdırdı. 107-ci Qafqaz alayının 1.200 nəfərlik şəxsi heyəti və 12 pulemyotu vardı. Əsgəri birlik, 9 avqustda Qarakilsə ətrafından hərəkətə başladı. 13 avqustda Azərbaycanın Gürcüstan sərhədi yaxınlığındakı Ağstafa məntəqəsinə çatdı.[3]

Baş Komandan vəkili Ənvər paşa 3 və 9-cu Ordulardakı qüvvələrin azalmasını münasib bilmirdi. Bakının mövcud qüvvələrlə ələ keçirilə biləcəyi fikrində idi. Şərq Orduları Komandanı Xəlil paşa isə Ənvər paşaya 12 avqustda göndərdiyi raportda Bakı yaxınlığındakı uğursuzluğun, xalq arasında mənfi təsir oyandırdığını və əldəki mövcud qüvvələrlə də bunun mümkün olmadığını bildirdi. Xəlil paşa Bakı cəbhəsini qüvvətləndirmək üçün 36-cı piyada diviziyası, bir piyada alayı ilə diviziya topçusunun tezliklə Azərbaycana göndərilməsini 9-cu Ordu Komandanlığına əmr etdiyini, Gürcüstandakı dəmir yollarının istifadəyə yararlı olduğu halda 10-cu Qafqaz diviziyasını Bakı cəbhəsinə sövq etməyi düşündüyünü, Bakının ələ keçirilməsindən sonra asudə qalan əsgəri birliklərin isə Cənubi Azərbaycana sövq edilməsinin mümkün olacağını bildirdi[4].

Edilən bu dəyərləndirmələrdən sonra Türk Qafqaz İslam Ordusunun 15-ci piyada diviziyası ilə qüvvətləndirilməsi qərara alındı. Bu diviziya, 56 və 106-cı piyada alayları, bir dağ topçu batalyonu, bir 10,5-lik dağ və bir 10,5-lik səhra qaubitsa artilleriya batareyası ilə bağlı bunlarla birliklər və qollardan ibarət idi. 15-ci piyada diviziyasının 38-ci piyada alayı isə iyun ayında 5-ci Qafqaz piyada diviziyasına əlavə qüvvə olaraq göndərilmişdi. 15-ci piyada diviziyasının Bakıya çatdığı tarixə görə yeni bir hücum günü təyin olunacaqdı və bu tarixin də güman ki, 11 sentyabr olacağı hesablanmışdı. Şərq Orduları Qrupu Komandanı Xəlil paşanın da Bakıya gedərək hücumda şəxsən iştirak etməsi qərarlaşdırıldı[5].

**2. Bakıdakı hərbi qüvvələr:**

Bakı rəhbərliyi erməni əsilli həkim Araratyanın başçılığı ilə bir heyəti, ingilis generalı Deustervildən kömək istəmək üçün təlimatlandırmışdı. General Deustervil Azərbaycan heyəti ilə keçirdiyi görüşlərdə Bakıya köməyə gələcəklərini, müdafiə üçün bəzi təşkilati işlər görəcəklərini, ancaq türk ordusuna qarşı erməni və rusların da onlarla birlikdə döyüşmələrinin vacibliyini qeyd etmişdi[6].

Azərbaycanın cənubundakı Lənkəran bölgəsində yaşayan ruslar, 10 avqustda Ənzəlidə olan Deustervil ilə əlaqə yaratmışdılar. Lənkəran və ətrafındakı ruslar 5 min nəfərlik bir hərbi birləşmə də təşkil etmişdilər. Əllərində kifayət qədər top və tüfəngləri də var idi. İngilislərə un, ərzaq, taxıl tədarükü görmüş, iki dənə də gəmi hədiyyə etmişdilər. Türklərə qarşı ingilislərlə birlikdə döyüşəcəklərini bildirmiş, üstəlik Muğan düzündə yaşayan ruslara hərbi təlim verilməsini də istəmişdilər.

Deustervil bu təkliflərdən son dərəcə məmnun olmuşdu. Bakı-Gəncə dəmir yoluna yaxın olan Lənkəran və Muğan düzündən, Türk Qafqaz İslam Ordusuna arxadan zərbə vurulacağı hesablanırdı. Ərazinin dəniz kənarında yerləşməsi, üstəlik yaxşı silahlanmış beş min nəfərin türklərə qarşı müharibəyə hazır olması və taxılla bolluca təchizat, Deustervili həddindən artıq məmnun etmişdi. O, bölgəni tədqiq etmək və hərbi vəziyyətə əlverişli əraziləri təyin etmək məqsədi ilə Muğan düzünə bir hərbi heyət göndərdi[7].

Ənzəli limanından yola çıxan Stoskun komandanlığı altında olan İngilis hərbi birləşmələrinin öncül qüvvələri də 4 avqustda Bakının dəniz sahilinə çıxmışdı. Bu vəziyyət Bakıda olan rus və ermənilərin ruhunu yüksəltmişdi[8]. İngilis ordusunun son bölüyü - general Deustervil də 17 avqustda Bakıya çatdı. Sentrokaspi hökuməti, cəbhə rəhbərliyinin ingilislərdə olmayacağı bəyanatını vermişdi. Lakin qısa müddətdən sonra bütün hərbi fəaliyyət Deustervilin komandanlığına keçdi.

İngilislər Bakıya çatdıqdan sonra cəbhə xəttində bir araşdırma, kəşfiyyat apardılar. Müdafiə xəttinin ərazisi, əsgərlərin vəziyyəti və döyüş gücü barədə araşdırma apardılar. Əsaslı bir müdafiə sistemi tərtib etmək lazım olduğu barədə qərar verdilər. Bakıdakı birləşmiş qüvvələrin və səngərlərin yenidən təşkil olunması üçün işə başladılar. Türk Qafqaz İslam Ordusu hərbi birləşmələrinin şəhərə çox yaxın yerdə olduqlarını görən ingilislər, bunların geri oturdulması barədə əmr verdilər. Ancaq qısa bir müddətdən sonra bunun mümkün olmadığını başa düşdülər[9].

Deustervil Bakıdakı hərbi qüvvələrin vəziyyəti və cəbhə bölgəsindəki araşdırmalardan sonra vaxt itirmədən lazımi təşkilati işləri yerinə yetirdi. Şimal Stanford alayına tabe hərbi birləşmələr, cəbhənin sol cinahında olan Qurd qapısı dağı və Bibiheybət ətrafında yerləşdirilərək, bölgədəki müdafiə xəttini möhkəmləndirdi. Bu cəbhə xəttində əvvəlcə qazılan səngərlər xeyli yaxşı vəziyyətdə idi. Səngərlər piyadaların atəş açmağı və Türk Qafqaz İslam Ordusunun top atəşlərindən qorunmaq üçün çox əlverişli idi. Bu alayın sağında isə erməni alayı yerləşirdi. Qurd qapısından başlayaraq şimala doğru uzanan dik yamaclar və qayalıqlar, buraların müdafiəsini daha da gücləndirirdi. Qurd qapısından başlayaraq şimala doğru uzanan bu cəbhə xətti Stanford alayı ilə, birləşmiş Bakı

qüvvələrinin tabeliyinə verilmişdi. Biləcərinin qərbindən başlayan şimal cəbhə xətti isə Palçıq vulkanına (Yanardağ) və oradan da şərq istiqamətindəki Binəqədi təpələri və Xəzər dənizinə qədər uzanırdı. Şimal Stanford alayına tabe ordulardan bir bölüyü Yanardağ ətrafındakı müdafiə xəttində də iştirak edirdi. Buradakı ingilis hərbi birləşmələrinə yerli iki batalyon da dayaq dururdu. Bu geniş cəbhə xəttində Vervisk və Vourchester batalyonları da iştirak edirdi.

Deustervil Bakının müdafiəsini gücləndirmək üçün yollar axtarırdı. Bu məqsədlə Dağıstana gedib, Biçeraxovun köməyindən yararlanmağı planlaşdırmışdı. Lakin quru və dəmir yolu türklərin, dəniz yolu isə bolşevik gəmilərinin nəzarəti altında idi. Bu səbəbdən onun bu planı baş tutmamışdı[10].

Bakının türklərin əlinə keçməsini istəməyən yalnız almanlar, bolşeviklər, ermənilər və ingilislər deyildi. Sayları təxminən 4 minə çatan farslar da Bakının Osmanlı dövlətinin əlinə keçməsini istəmirdilər. Əvvəllər bir-birinə düşmən kəsilən bu tərəflər, Türk Qafqaz İslam Ordusuna qarşı güclərini birləşdirmişdilər. O tarixdə Bakıda təxminən 18 min erməni silahlı qüvvələri, 1200 ingilis və 1500 nəfərlik də Biçeraxovun hərbi qüvvələri var idi. Bakıda olan ermənilər ingilislərin, şəhəri Türk Qafqaz İslam Ordusunun hücumundan qoruyacağını və sonra da onların köməyi ilə Bakının türklər və müsəlmanlardan təmizlənəcəyini düşünürdülər. Beləliklə də, Bakıda, eləcə də Azərbaycanda etnik təmizləmə işləri başa çatacaqdı. İngilislər isə bütün ümidlərini ermənilərə bağlamışdılar. General Deustervil erməniləri qorxaqlıq və zəiflikdə günahlandırırdı. Onların daha fəal olmalarını istəyirdi. Bunun üçün Dağıstan, Gürcüstan və Orta Asiyadakı çar tərəfdarları və İranın Ənzəli şəhərində olan ingilis birlikləri ilə əlaqəyə girdi. Ənzəlidən əlavə qüvvələr gətirdi. Lakin yenə də şəhəri türklərdən qorumaq ümidi boşa çıxdı. O, xatirələrində bu hadisədən bəhs edərkən, şəhər əhalisinin böyük bir coşqu ilə Bakıda Türk Qafqaz İslam Ordusunu görmək istədiyini etiraf edir. Əhali türkləri istəyirdi. Bu şərtlər altında Azərbaycan hökuməti də ciddi tədbirlərə əl atdı. Bunlardan biri də Məmməd Əmin Rəsulzadənin İstanbulda hökumət rəhbərləri ilə keçirdiyi görüşlərdə Bakının azad edilməsinin zəruriliyini vurğulaması idi. Rəsulzadə İstanbuldakı Almaniya səfirliyinə etdiyi müraciətdə "Bakısız Azərbaycanın başsız bir bədənə bənzəyəcəyini" deyərək, Azərbaycanın Bakısız olmayacağını bildirmişdi.

Türk Qafqaz İslam Ordusu Bakıda olan erməni-rus-ingilis birləşmiş qüvvələri haqqında müxtəlif yollarla məlumatlar ala bilirdi. Düşmən hərbi birləşmələrinin Salyan kazarmasından[11] Bakının qərbindəki Qurd qapısı təpələrinə qədər olan sol cinah cəbhəsində 6 min, bu kazarmadan cənuba doğru uzanan bölgədəki Biləcəri məntəqəsi və şərqindəki cəbhədə (düşmənin şimal və qərb cəbhəsi) 4 min və şəhər teatrı ətrafında da 2.300 olmaqla cəmi 12.500 nəfərlik qüvvəyə malik olduğunu təxmin etmişdi. Düşmən qüvvələri avqust ayında Bakıya

edilən hücumlar nəticəsində 2 min itki vermiş, şəhər xəstəxanaları yaralılarla dolmuşdu. Bakıda bahalaşma, qıtlıq artmışdı, əhalinin yeməyə çörəyi belə tükənmək üzrə idi. Orduda isə belə bir sıxıntının olmaması barədə xəbərlər gəlirdi[12].

Bakını müdafiə edən Qızıl Ordu birliklərinin çox hissəsini erməni daşnakları və rus bolşevikləri təşkil edirdi. Onlar, Türk ordusunun Bakı üzərinə yeriməsindən böyük bir qorxu və təlaşa qapılmışdılar. Çünki Bakıda türk əhaliyə qarşı həyata keçirdikləri 31 mart soyqırımı ilə Şamaxı və Qubada gerçəkləşdirdikləri etnik təmizliyin hesabını verə bilməyəcəklərindən əndişə duyurdular. Həqiqətən də o tarixlərdə, sayı on minlərlə ifadə edilən günahsız türk soylu əhalini vəhşicəsinə qətlə yetirmişdilər. Bu səbəbdən də Bakını müdafiə etmək üçün hər çarəyə baş vururdular.[13] Bakıda olan rus və erməni ittifaqı, əvvəllər ingilislərin bölgəyə girməsinə qarşı çıxırdı. Kommunist Şaumyan və 26 Bakı Komissarları hökuməti devrildikdən sonra Bakıda nə edəcəyini bilməyən yeni hökumət Cənubi Azərbaycanda Xəzər dənizinin yaxınlığında yerləşən Ənzəlidəki ingilis qoşunlarını köməyə çağırmışdı. İngilislər bu çağırışı Bakı neftindən pay ala biləcəklərini, bəlkə də hamısına sahib olacaqlarını düşünərək böyük məmnuniyyətlə qəbul etmişdilər. İngilis ordularının rəhbəri general Deustervil, əslində İraq cəbhəsində xidmət edirdi. Aldığı əmr əsasında 17 fevralda Bağdaddan hərəkət edərək, o tarixlərdə heç bir hərbi qüvvənin əlində olmayan Bakının neft yataqlarını ələ keçirmək üçün yola çıxmışdı. Tabeliyindəki ordu ilə Cənubi Azərbaycandakı Rəşt, Qəzvin və Həmədandan keçərək Ənzəliyə yetişmişdi. Ancaq Ənzəlidə olan rus ordusu ilə münaqişələr nəticəsində qarşısı kəsilmiş, şimala, yəni Bakıya gəlib neft diyarını işğal edə bilməmişdi[14].

Diviziya generalı Deustervilin komandanlığı altında olan 39-cu ingilis briqadası 4-7 avqust 1918-ci il tarixləri arasında gəmi ilə Ənzəlidən Bakıya gəlib çatmışdı. Bakıya gələn ingilis ordu birləşmələrində 3 piyada batalyonu və bir səhra topu batareyası var idi. Biçeraxovun Bakıdan çıxaraq Dərbəndə getməsi ermənilərdə ruh düşkünlüyü yaratmışdı. Ancaq Deustervilin köməyə gəlməsi onları bir az ruhlandırmışdı.

Deustervil birliklərinə əlavə olaraq, çox yaxında daha 4 min ingilis əsgərinin Bakıya hərəkət edəcəyi xəbəri alınmışdı. Bu halda Bakıda olan düşmən qüvvələrinin sayı 10 mini aşacaqdı. Əsir götürülən bir ingilis çavuşundan alınan məlumatlara görə, Deustervil Bakıya çatdıqdan sonra 26 batalyonluq bir ordu təşkil edildiyi ingilis əsgərlərinin sayının 1.550 nəfər olduğu bəlli oldu. Türk Qafqaz İslam Ordusu Komandanlığı, 3-cü Ordu Qərargahına müraciət edərək, Təbrizdə olan türk qüvvələrinin Ənzəli üzərinə yeriməsini, ya da Rəşt və Qəzvin bölgəsindəki Kiçik Xana kömək üçün hərəkətə keçilməsini tələb etdi[15].

İngilislərin Bakıya girməsindən ruhlanan erməni və ruslar, 1.500 nəfərlik qüvvənin ardınca 20-30 min nəfərlik bir qüvvənin də Ənzəlidən hərəkət edəcəyini söyləyirdilər. Bu arada, Dərbənddə olan rus kazakı podpolkovnik Biçeraxovun qüvvələrindən də beş yüz nəfərlik bir ordu gəmi ilə yenidən Bakıya gəldi. İkinci Bakı hücumunun ediləcəyi təqdirdə Bakının müdafiəsini təmin edəcək döyüş qabiliyyətli ordunun sayı 10 min nəfərdən çox idi[16].

Bakının mühasirəsi yaxşıca düşünülmüş, qurudan kömək gələ bilən yollar tamamilə kəsilmişdi. Şəhərə ərzaq isə Cənubi Azərbaycandakı Ənzəli və Lənkərandan gəmilər vasitəsilə çatdırılırdı. Mühasirə daralsa da, Bakıdakı hərbi qüvvələr yemək sarıdan korluq çəkmirdilər. Ancaq əhali yemək tapa bilmirdi. Şərq Qrupu Komandanlığı xalqın müqavimətini qırmaq və hərbi qüvvələri şəhəri təslim etməyə məcbur etmək məqsədilə, 19 avqustda Qafqazdan Bakıya gələn içməli suyu kəsdi. Şəhərdə ərzaq qıtlığı başlandı. Ərzaq və su çatışmazlığı qadınların küçələrə çıxaraq hökuməti protest etməsinə gətirib çıxardı. Xalq arasında bəzi şayiələr də dolaşırdı. Türk ordusunun Xəzər dənizinə sualtı qayıq salıb onunla ərzaq daşımaları barədəki söhbətlər də gəzən şayiələr arasında idi. Bu hadisələr Bakıda vəziyyətin get-gedə çətinləşməsindən xəbər verirdi. İngilislər isə idarəetmənin onların ixtiyarına keçdiyi halda əhalini su və ərzaqla təmin edəcəkləri barədə vəd verirdilər[17].

Şərq Cəbhəsi Komandanı Mürsəl paşa, Bakıda baş verənləri diqqətlə izləyir və Nuru paşaya məlumat verirdi. İkinci Bakı hücumuna hazırlıqların getdiyi bu dövrdə türk topçusu, şəhərdəki kazarmaları dayanmadan vururdu. Bu bombardmanda sahildəki ingilis hərbi qərargahı da vurulmuş və təxminən 200 əsgər olmuş və ya yaralanmışdı[18].

Bakı Bolşevik Partiyası Mərkəzi Komitəsi 10 avqustda keçirdiyi yığıncaqda, yüksək vəzifəli üzvlərinin şəhərdən çıxmaması barədə qərar qəbul etdi. Ayrıca, Sentrokaspi Diktaturasına heç bir silah və mühümmat verilməməsi və hakimiyyəti yenidən ələ keçirə bilmək üçün şəhərdə daxili müharibəyə hazırlaşmaq qərara alındı. Vəziyyətin get-gedə ağırlaşdığını görən və əllərindəki silahı təhvil vermək istəməyən Petrov və ona bağlı birliklər, 13 avqustda 19 gəmi ilə şəhərdən qaçmaq istədilər. Bakı hökuməti bunun qarşısını aldı. 26 Bakı Komissarları da Sentrokaspi Diktaturasına qarşı inqilab hazırlamaq adı ilə həbs edildilər[19].

**3. Bakı ətrafının düşməndən təmizlənməsi**

Birinci Bakı hücumunun uğursuzluqla başa çatması nəticəsində Türk ordusu 5 avqustda geri çəkilmişdi. Bakını müdafiə edən birləşmiş qüvvələr 6 avqustda Türk ordusuna özünə gəlməyə imkan verməmək məqsədilə əks-hücuma keçmişdi. Türk ordusu bu hücumu dəf etmiş, üstəlik bir az da sursat ələ keçirmişdi. Birləşmiş qüvvələr o tarixdən etibarən kiçik çaplı çarpışmalara keçdilər. Ancaq yenə də əsasən müdafiədə qalmağa üstünlük verirdilər. İngilislərin də türklərə qarşı

ediləcək hücumda uğur qazanmayacaqları aydın idi. Buna görə də Bakıda olan rus, erməni və ingilis birləşmiş orduları bütün qüvvələrini şəhərin müdafiəsinə yönəltmişdilər. Türklər ikinci bir həmlə edəcəkləri halda, bu həmlənin qarşısı alındıqdan sonra, əks-hücuma keçilməsi və türk qüvvələrinin bütün Azərbaycandan çıxarılması planlaşdırılmışdı.

Şərq Cəbhəsi Komandanlığı Abşeron yarımadasında yerləşən qəsəbə və kəndlərə bəzi komandirlər göndərərək, türklərdən milis birlikləri qurmağa başladı. Bəzi yaralıları da bu kəndlərə daşıyaraq müalicələrini təmin etdi. Binəqədi, Sabunçu və Balaxanı ətrafında yeni cəbhələr qurdu. Cəbhə xəttində olan tərəflər 25 avqust 1918-ci il tarixinə qədər heç bir ciddi hərəkət etmədilər, əhəmiyyətli bir döyüşə girmədilər. Birləşmiş düşmən qüvvələri şəhərin müdafiəsi üçün mövqelərini möhkəmləndirirdi. Türklərin Bakıya ən yaxın mövqe hesab etdikləri Biləcəridən hücuma keçə biləcəklərini güman edən düşmən qüvvələri bu bölgədəki Yanardağ və Binəqədi yüksəkliklərini də tutmağa başladı. Türk Qafqaz İslam Ordusu Komandanlığı 22 iyul 1918-ci il günü Bakıya planlaşdırılan hücumda sol cinah birliklərinin yolu üzərində olan bu bölgənin tutulmasına mane olmağı qərara aldı. Bakının şimalında olan 364 m yüksəklikli Yanardağ ilə 311 m yüksəklikli Binəqədi təpələri və Digah kəndinin ələ keçirilməsinə ehtiyac duyulurdu.[21]

Hücuma keçəcək 13-cü Qafqaz alayına bağlı topçu və piyada bölüklərinin komandirləri, lazımi hazırlıq işlərini görərək, 26 avqust günü səhər saatlarında hərəkətə başladılar[22]. Orduya, mümkün qədər mərmidən istifadə edilməməsi, bunun əvəzinə top atəşləri və süngü tətbiq edilməsi tapşırılmışdı. İlk olaraq Yanardağın qərbində olan və tikanlı məftil və başqa maneələrlə bərkidilmiş Sarıtəpə, süngü və bomba hücumu ilə saat 11-də ələ keçirildi. Dağınıq halda Sarıtəpədən qaçmağa çalışan düşmən əsgərləri pulemyot atəşi altında ağır itkilər verirdi.

Binəqədi təpələrinə qarşı hücuma keçən Maştağa dəstəsinə tabe olan 29-cu batalyon isə şiddətli müqavimətlə qarşılaşdı. Top atəşinin hədəfi vura bilməməsi və təpəni qoruyan birləşmiş düşmən qüvvələrinin iki batalyon əlavə qüvvə alması səbəbindən türk əsgərləri ancaq təpənin ətəklərində dayanmaqla kifayətləndi. 31 avqusta qədər tərəflər bu vəziyyəti saxladı. 13-cü Qafqaz alayı ilə 38-ci alayın 1-ci və 26-cı batalyonu səhər erkən hərəkətə keçdi. Binəqədi Yanardağ təpəsindəki üç sıralı tikanlı məftillər səhər saat 6.30-da kəsilərək birləşmiş düşmən əsgərlərindən təmizləndi. İngilislərin Bakının müdafiəsinə qoşularaq, rus və erməni birlikləri ilə birgə döyüşə girdikləri də görüldü[24].

Binəqədi və Bakı istiqamətində qaçmağa çalışan düşmən əsgərlərini təqib edən Türk ordusu güclü pulemyot atəşi ilə onları ağır itkilərə məruz qoyurdu. Bakıdan qalxan bir təyyarə də top atəşi ilə vurulub salındı. 38-ci alayın 29-cu

batalyonu Sarıtəpənin şərqindəki Digah kəndini ələ keçirmək üçün başladığı hücumu da uğurla başa çatdırdı[23].

364 m yüksəklikli təpədən geri çəkilən ingilislər Binəqədi kəndinin şimalından Biləcəri məntəqəsinə gələn cəbhə xəttində müdafiə olunmağa çalışırdılar. Burada iki yerdə müdafiə xətti qurdular. Yanardağın şərqindəki neft quyuları Varvisk batalyonunun bir bölüyü tərəfindən mühafizə olunurdu. Stanford alayının bir bölüyü də bir az cənub tərəfdən Biləcəri məntəqəsi yaxınlığındakı cəbhə xəttində müdafiə təşkil etmişdi. Biləcəridə ehtiyat qüvvələri saxlanırdı. General Deustervil, əgər ingilis əsgərləri olmasaydı, türklərin 26 avqust tarixində Bakıya girə biləcəkləri barədə yazır[25].

26 avqustda gedən Yanardağ və Biləcəri döyüşlərində ingilislərin cəbhədəki komandirinin Deustervilə yazdığı raportda belə deyilirdi:

"Türklərin hücumu, 26 avqust 1918-ci il.

Yanardağ sahəsi Stanford alayının D bölüyü tərəfindən müdafiə olunurdu. Yanar dağın cənub-qərbində düşmənin hərəkətləri başlandı. Türklər sol cinahdan süvari ordusu ilə dörd düz xətli zəncir şəklində hücuma keçmişdi. Sayı təxminən min nəfər olan düşmən, topçu atəşi ilə müşayiət olunurdu. Zəncir şəklində hücum edən Türk orduları, bizim pulemyot və piyada atəşləri qarşısında dayanmaq məcburiyyətində qaldılar. Cəbhə xəttinin lap başlanğıcında, birinci müdafiə xəttində olan əsgərlərimizə beş dəfə hücum etdilər. Birliklərimiz beşinci hücumdan sonra səngərləri tərk edərək, geri çəkilmək məcburiyyətində qaldılar. Düşmən günorta saatlarından etibarən 12.30 radələrində Yanardağın sağ tərəfinə çıxmağa müvəffəq olaraq, orada pulemyotlar yerləşdirdi. Buradan ikinci və üçüncü müdafiə xəttimizi atəşə tutdular. Bu arada türklərin bizə sol tərəfdən başladığı hücumun qarşısını almağa başladıq. Lakin 13.30 radələrində ikinci və üçüncü müdafiə xətlərimiz də düşmənin əlinə keçdi. Buradan yalnız 6 əsgərimiz xilas ola bildi. Zabit və sıravilərdən ümumilikdə 80 adam itirdik. Müdafiə xəttində bu döyüşlər gedərkən, saat 13.30-da yük maşınları ilə Bakıdan göndərilən 130 nəfərlik əlavə qüvvə cəbhə xəttinə çatmaqda gecikdi. Vəziyyəti düzəltmək mümkün olmadı. 9-cu Vourçester alayından göndərilən əlavə kömək isə 15.30 radələrində cəbhəyə çatdı. Düşmən, Binəqədi kəndinin şimalındakı yüksək təpələrə qarşı hücuma keçmişdi. Bu təpələr erməni batalyonu tərəfindən qorunurdu. Yanardağa edilən həmlə əsnasında bir bölük əsgər, oradakı erməni diviziyasına kömək məqsədilə Binəqədiyə göndərildi. Oraya saat 12.15-də çatan birliklərimiz erməni birliklərindən heç birini tapa bilmədi. Sonra dağa çıxdılar, dağın şimal istiqamətindən təxminən 250 nəfərlik bir Türk ordusunun irəlilədiyi göründü. Təpəni və buradakı səngərləri ələ keçirən birliklərimiz, piyada tüfəngləri və pulemyotlarla atəş açdı. Düşmən ağır itkilər verərək geri çəkildi"[26].

Sentrokaspi hökumətinə tabe hərbi komandanlıq 26 avqustda Türk Qafqaz İslam Ordusuna qarşı hücuma keçilməsini əmr etmişdi. Bu əmrdə Türklərin Novxanı, Pirşağı, Goradil, Kürdəxanı və Fatmayı kəndlərini ələ keçirdiyi bildirilir və Fatmayıda bir topçu batareyası yerləşdirildiyi, Maştağa və Hökməli kəndləri ilə Şabandağdakı mövqelərini də gücləndirdikləri qeyd edilirdi. Bundan əlavə, Fatmayı, Pirşağı və Goradil kəndlərinin də ələ keçirilməsi əmr edilirdi. Bu bölgədəki göllər ilə dəniz arasındakı sahədə ələ keçiriləcək mövqeləri gücləndirdikdən sonra, hücumu davam etdirərək Novxanı kəndinin də zəbt edilməsi istənilirdi. Birləşmiş düşmən qüvvələrinin 27 avqustda cəbhə xəttinin sağ tərəfindən planlaşdırdığı hücum baş tutmadı[27].

Yanardağ və Binəqədi təpələrində meydana gələn döyüşlərdə 13-cü alaydan üç zabit şəhid oldu, ikisi yaralandı. Sıravilərdən 20 nəfər şəhid oldu, 55-i isə yaralandı. 29-cu batalyondan isə üç sıravi şəhid olmuş, bir zabit və 15 sıravi isə yaralanmışdı[28]. Birləşmiş düşmən qüvvələrindən isə bir ingilis zabiti ilə çoxu ingilis olan 150 sıravi öldürülmüş, üç rus və iki ingilis zabiti ilə birlikdə 51 ingilis əsgəri əsir götürülmüşdü. Bu müharibədə 14 pulemyot, yüz ədəd top mərmisi və 70 qutu tüfəng mərmisi ələ keçirildi[29].

General Deustervil, şimaldakı cəbhə xəttində çoxlu itkilər verilməsində bakılı rus və erməni əsgərlərini günahkar sayırdı. Sentrokaspi Diktaturası Hərbi Şurası 31 avqustda bir yığıncaq keçirərək, düşdükləri vəziyyətdən çıxış yolu axtardılar, ancaq əhəmiyyətli bir qərar çıxara bilmədilər. Bundan sonra general Deustervil 1 sentyabr səhəri Qərargah heyəti və ingilis ordu komandirlərinin iştirakı ilə bir yığıncaq keçirdi. Yığıncaqda Bakıdakı birləşmiş hərbi qüvvələrin Türk Qafqaz İslam Ordusu qarşısında dayana bilməyəcəkləri və Bakını müdafiə etməyəcəkləri barədə qərar verildi. Deustervil bu qərarı bəyan etmək üçün Bakıdakı mülki və hərbi idarə təmsilçilərini saat 16.00-da bir yığıncağa dəvət etdi. Deustervil yığıncaqdakı çıxışında belə dedi:

"Yer üzündə heç bir qüvvə, Bakını türklərdən qoruya bilməz. Şəhərin müdafiəsinin davam etdirilməsi, təslim gününü uzatmaqdan başqa bir şeyə yaramır. İndiyə qədər yalnız ingilis əsgərləri döyüşdü. Mənim əsgərlərimin qəhrəmancasına döyüşməsinə baxmayaraq, türklər hər hücumda qalib gəldilər. Yerli hərbi birliklər bizimkilərə kömək etmədi. Mən adamlarımın boş yerə həlak olmasına razı ola bilmərəm. Biz türklərə qarşı vuruşmaq üçün sizin əsgərlərinizə köməyə gəlmişdik. Ancaq sizin əsgərlərinizin yerinə biz vuruşuruq. Sizlərə, Bakının təslim edilməsi barədə danışıqlara başlamaq üçün türklərə bir nümayəndə göndərməyi tövsiyə edirəm. Qadın və uşaqların şəhərdən çıxarılmasına imkan verəcək uyğun şərtlərin əldə edilməsi, sizin üçün çətin olmayacaq. Sizlər bununla da türklərin şəhəri silah gücünə ələ keçirməsindənsə, hadisələrin gedişinə daha yaxşı istiqamət verə bilərsiniz"[30].

Sentrokaspi hökumətinin general Deustervilə göndərdiyi məktubda "Bakıda yaşayan əhalinin evakuasiyasından sonra və ancaq bizim əsgərlərimizlə birlikdə şəhəri tərk etmək şərti ilə, ingilis hərbi birləşmələrinin getmələrinə icazə verə biləcəkləri" qeyd edilirdi. Bakı rəhbərliyi məktubda ingilislərin şəhərdən getməsinə razılıq verə bilməyəcəkləri kimi, əlavə qüvvə gətirmələrini də istəyirdi. Çünki, ingilislərin Azərbaycana girməsi səbəbindən bolşevik rusların köməyi dayandırdıqlarını, hətta Leninin ingilisləri Bakıdan uzaqlaşdırılması şərti ilə hər cür kömək edəcəyi barədə təminat verdiyini də qeyd etdilər. Sentrokaspi hökuməti Lenin tərəfindən edilən təklifi ingilislərin kömək etmək vədinə güvənərək rədd etdiklərini, ancaq ingilis ordusunun Bakıya kifayət qədər əsgər gətirmədiyini bildirdilər.

Məktubda; əgər Lenin və bolşevik Rusiyadan vaxtında kömək alınsaydı, Bakı və ətrafındakı vəziyyətin bugünkü qədər mürəkkəbləşməyəcəyi və cəbhənin şimal bölgələrində də torpaq və insan itkisinin meydana gəlməyəcəyi vurğulanırdı. Məktubda belə deyilirdi:

"Bütün bu hadisələrin nəticəsi olaraq siz dərhal ya İrandan, ya da Britaniyadan Bakıya kifayət qədər hərbi qüvvə gətirməlisiniz. Biz bu köməyi özümüz üçün lazımlı, sizin üçün isə məcburi hesab edirik. Biz, eyni zamanda Mahaçqaladakı Biçeraxovdan və Şimali Qafqazdan hərbi kömək gözləyirik. Bu kömək gələnə qədər, türklərə qarşı mövcud vəziyyəti qoruyub saxlamalıyıq. Biz şəhərin türklərə təslim edilməsi barədəki hər cür təklifi rədd edirik və bunu da sizin üçün eyib bilirik. Bütün imkanlarımızla Bakını müdafiə etmək əzmindəyik".

İngilislər bu məktubdakı sözləri özlərinə qarşı bir təzyiq kimi qiymətləndirdilər. Quru yolu ilə şəhərdən gedə bilməyəcəklərini bilirdilər. Xəzər dənizi isə Sentrokaspi hökumətinə tabe olan donanmanın ciddi nəzarəti altındaydı. Deustervil çıxılmaz vəziyyətdə qalmışdı. Bakıdakı hərbi və siyasi böhranın qarşısını ala bilmək məqsədi ilə bir sıra yeni tədbirlərə əl atıldı.[31]

**4. Hücuma hazırlıq**

Bakıda müharibə edən qüvvələr arasında mənəvi və siyasi baxımdan, hazırlıq və ruh yüksəkliyi baxımından vəziyyət Türk Qafqaz İslam Ordusunda daha üstün idi. Çünki Türk Qafqaz İslam Ordusunun Bakını azad etməsini xalq istəyirdi. Bu hücum ərəfəsində, Bakıda olan Azərbaycan ziyalıları, Türk Qafqaz İslam Ordusuna bir müraciət qəbul etdilər. Belə bir müraciət həm Türk Qafqaz İslam Ordusu, həm də Azərbaycan türkləri üçün çox əhəmiyyətli idi. Çünki Azərbaycanda milli azadlıq hərəkatının önündə hər zaman ziyalılar getmişdi. Azərbaycandakı ziyalıların belə bir müraciət qəbul etməsi, Türk Qafqaz İslam Ordusuna dayaq idi. Eləcə də, Osmanlı dövlətinin Azərbaycan siyasətinə də müsbət istiqamətdə təsir göstərirdi. Müstəqil Azərbaycan Dövlətinin vəziyyətini isə gücləndirirdi.

Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri professor Nizami Cəfərov, bu haqda belə deyir:

"Bu qələbə bizim milli mənafelərimizə uyğun bir qalibiyyət olacaqdı. O dövrdə Türk ordusuna ünvanlanan müraciəti bu gün belə oxuyarkən, həyəcanlanmamaq mümkün deyil: Ey Türk əsgəri, səni Bakı gözləyir. Bakıda sənin üçün doğma (qardaş) olan insanlar yolunu gözləyir... Düşmən tapdağı altında qalmaq istəməyən analar, bacılar səni gözləyir. Bu ifadələri bu gün belə eşidəndə, insanın tükləri biz-biz olur". (Şəxsi arxiv).

Bakıda olan erməni, rus və ingilis hərbi birlikləri müdafiəni gücləndirməyə çalışırdılar. Əsirlərdən alınan məlumatlara görə Bakıda sayı 20 ilə 30 min arasında olan düşmən qüvvələri var idi. Bunların arasında bolşevik erməni olan Petrov ilə Biçeraxovun nizami ordularını diqqətdə saxlamaq vacib idi. Bu əsgərlər döyüşkən sinfə mənsub olub, sayı 10 min nəfər idi. Bu ordunun silah və mühümmat sarıdan heç bir korluğu yox idi. Bunların 33 topu vardı.

İngilis qüvvələri isə 13-cü piyada diviziyasının 39-cu briqadasından üç batalyon ilə 6 topu olan qaubitsa batareyasından meydana gəlirdi. İngilislərin hər batalyonunda 500 sıravi və 16 pulemyot vardı. Ayrıca beş zirehli maşın ilə iki təyyarə və texniki xidmət dəstələri ilə müşayiət olunurdu[32].

İngilis qüvvələrinin Bakıya girməsi və şəhərin müdafiəsinə qoşulması ilə, cəbhədəki hərbi vəziyyət tamamilə dəyişdi. Rus bolşevikləri Bakını ingilislərə tərk etmiş kimi idi. Şəhəri yenidən ələ keçirəcək və Bakının sərvətindən istifadə edə biləcək gücləri də yox idi. Bolşeviklərə görə, ingilislərin şəhərdə daha bir müddət qalacaqları halda, bölgəyə tamam yerləşəcəkləri və cəbhənin ələ keçirilməz bir vəziyyətə düşməsi təhlükəsi ortaya çıxacaqdı. Bakıda yerləşən ingilislərin, Azərbaycanın böyük bir qismini ermənilərə verməsi, bölgədə güclü bir Ermənistan qurulmasına kömək etməsi və bu dövlətin İran, Gürcüstan və digər Qafqaz ölkələri üçün də təhlükə yaradacağı şübhəsizdi. Bu vəziyyətdə Bakının tez bir zamanda düşmən işğalından qurtarılaraq, rus bolşevikləri və erməni daşnakları ilə ingilis ordularının bölgədən uzaqlaşdırılması tələb olunurdu[33].

Bakıda iki rus və iki ingilis təyyarəsi, altı ədəd zirehli maşın var idi. Türk Qafqaz İslam Ordusunda təyyarə olmadığından, hava üstünlüyü ingilislər tərəfindəydi. Bu da Deustervili qane edirdi[34]. İkinci Bakı hücumundan əvvəl Biçeraxov, Bakıdakı birləşmiş düşmən qüvvələrinə yardım məqsədilə 500 nəfərlik hərbi qüvvə və 10 ədəd pulemyot göndərmişdi[35].

Baş Komandan Vəkili Ənvər paşa bir yandan Bakıya ediləcək hücumu tezləşdirmək istəyirdi, bir yandan da Cənubi Azərbaycana ordu göndərməyi qərara almışdı[36]. Bununla ingilislərin bölgədəki zəif hərbi qüvvələrini gücləndirməyin qarşısını almaq istəyən Ənvər paşa, onların Bakıya əlavə qüvvə göndərməsinə də mane olmaq fikrində idi. Türklərin Azərbaycana etdiyi hərbi müdaxiləyə, müttəfiq

almanlar isə əvvəldən razı deyildilər. Şərq Orduları Qrupu Komandanı Xəlil paşa, Türk Qafqaz İslam Ordusunun əlavə qüvvələr hesabına gücləndirilməsi üçün ən münasib yolun Gümrü-Tiflis-Gəncə dəmir yolu olduğunu bildirərək, bu xətdən mütləq istifadə edilməsinin lazım gələcəyini düşünürdü. Ancaq gürcülər buna əngəl olurdular. Xəlil paşa bu sıxıntının aradan qaldırılmasının vacibliyini bildirərək, xatirələrində bunları belə qeyd edir:

"Bunun birinci səbəbi alman generalı Von Kressin gürcülər ilə Osmanlı Dövləti arasında bəzi sərhəd dəyişikliyi etmək üçün kömək edəcəyi vədi idi. İkincisi isə gürcülərin fabriklərini işə salmaq və şəhəri işıqlandırmaq üçün ehtiyac duyulan yanacağı ya havayı, ya da münasib qiymətə Azərbaycan hökumətindən ala bilmək idi. Baş qərargahla məsləhətləşib, iki nöqtədəki hərbi qüvvələri bir az geri çəkdim, onlar istədikləri çarın saraylarının yerləşdiyi kəndləri aldılar, bizə də Bakı yolu açılmış oldu. Gürcülərin də yanacaq ehtiyacı təmin edildi və dəmir yolunda Türk birlikləri dolaşmağa başladı. Bakıya kifayət qədər qüvvə göndərildikdən sonra mən də Bakıya getdim"[37].

Almanlar Bakının iqtisadiyyatına sahib olmaq məqsədi ilə Tiflisdə olan bir alman batalyonunun Türk Qafqaz İslam Ordusuna qoşularaq Bakının azad edilməsində iştirak etmək üçün cəhd göstərirdi. Bu arzularını çoxdan dilə gətirirdilər, lakin hər dəfə bir maneə ilə rastlaşırdılar. Berlin hökumətinin Tiflisdə yerləşən Osmanlı Dövləti təmsilçisi Əbdülkərim paşa da almanların bu istəyini Nuru paşaya bildirmişdi. Türk Qafqaz İslam Ordusunun əlində olan hərbi qüvvə ilə Bakını düşməndən təmizləyə biləcəyini qeyd edən Nuru paşa almanların bu təklifini qəbul etmədi. Ənvər paşa da bu barədə ciddi mövqe tutaraq, İstanbuldan ona qəti bir təlimat verilməyincə, alman hərbi qüvvələrinin Azərbaycana girməməsi üçün Xəlil paşaya əmrlər verdi[38].

"Şərq Orduları Qrupu Komandanı Xəlil paşa həzrətlərinə,

Çox təcili və şəxsi - 21.9.334 (3 sentyabr 1918)

Bakıya göndərilmək istənilən alman batalyonu haqqında Nuru paşa, mərkəzin əmr və icazəsi olmadan buna rəy verməyəcəyini, general Von Kressə bildirsin. Əgər bunu eşitməyərək zorla qüvvə göndərməyə təşəbbüs göstərsələr, bu halda dəmir yolu körpüsünün dağıdılması və hər halda keçmələrinə mane olunması məqsədə müvafiqdir" - 441- ***Ənvər.***

Ənvər paşa, Nuru paşanın bu xüsusda almanların Tiflisdəki təmsilçisi Von Kressi məlumatlandırmasını da istəyirdi. Ənvər paşa Nuru paşaya bu əmri göndərdi:

"Qafqaz İslam Ordusu Komandanı Nuru paşaya, çox təcili və şəxsi;

25 və 27 tarixliyə cavab:

Alman podpolkovniki Goltsun Bakıya alman əsgəri gətirməsi və asayişi qorumaq üçün bir batalyon göndərməsi qətiyyən düzgün deyil. Golts, öz xidməti

personalı olan bir-iki adam ilə gələ bilər, ancaq az miqdarda olsa, əsgər gətirməsinə icazə verilməsi Gəncədə olduğunu yazdığınız Alman əsgəri dərhal geri göndərilsin. Bundan əvvəlki teleqramımda sizə yazdığım kimi, Azərbaycan və Şimali Qafqaz hökumətlərinin istiqlallarını tanımaq üçün Tehrandakı Amerika və ingilis səfirlərinə ünvanlanacaq müraciətinizdə Almanların Bakıya əsgər yeritmək istədiklərindən də bəhs edə bilərsiniz. General Von Kressə belə cavab verə bilərsiniz:

Bakıda asayiş bərpa olunmuşdur. Azərbaycan hökuməti Bakıya ingilislərin təkrar hücum edəcəyi təhlükəsindən ehtiyatlanaraq, paytaxtlarına alman qoşunu dəvət etməməyə qəti qərar vermişdir. Əks təqdirdə, Azərbaycan qüvvələrinin əks-tədbirə əl atmaq məcburiyyətində qalacaqlarını bildirirəm" -N494 - Ənvər"

Xəlil Paşanın yavəri Yüzbaşı Səlahəddin də xatirələrində bu əhvalatı belə şərh edir:

"Xəlil Paşa Von Kress ilə Tiflisdə keçirdiyi müzakirələrdə, Bakıya ediləcək hücuma Almanların da qoşulacağına qərar vermişdilər. Von Kress bir Alman süvari alayı hazırlayacaq və Xəlil paşa ona müraciət edən kimi, bu alayı Azərbaycan dövlətinin sərəncamına verəcəkdi.

Von Kress, bizim Azərbaycana gizlicə göndərdiyimiz hərbi qüvvələr barədə bir şey bilmirdi. Bu işdən hətta Xəlil paşanın qərargah rəisi Parakuinin də xəbəri yox idi. Biz 5-ci Qafqaz diviziyasından başqa 15-ci piyada diviziyasını və bir çox süvari və topçu birliklərini Azərbaycana yollamış, orada məhəlli qüvvələr meydana gətirmişdik.

Tiflisdəki bu qərardan sonra, Bakını mühasirədə saxlayan Ordu Qərargahında olmaq üçün Azərbaycan hüdudlarına daxil olduq. İlk məntəqə Ağstafa idi. Bizi burada Ənvər paşanın kiçik qardaşı və Xəlil paşanın qardaşı oğlu - Türk Qafqaz İslam Ordusu Komandanı 29 yaşlı Nuru paşa qarşıladı. Gecə yarısından bir saat sonra Gəncəyə çatdıq. Stansiyada bizim şərəfimizə çay süfrəsi hazırlanmışdı. Çaylarımızı içərkən bir aşıq bizə saz çaldı. Vətəndən uzaqda bu türk səsi hamımızı mütəəsir etdi. Turan yollarında Türklərlə qarşılaşırdıq. Aşıq yüz illərlə davam edən türk iztirablarını elə gözəl söyləyirdi ki, hamımızın gözləri yaşarmışdı. Aşıq:

*"Qatarlar əsgər daşıyar Bakıya, Bunda bir iş var*
*Söylə, Xəlil paşa, Allah eşqinə, Bunda bir iş var" - deyirdi.*
*Zatən hər kəsin həyəcanı son həddində idi:*
*Çaylarımızı içib ayağa qalxanda aşıq elə hey oxuyurdu:*
*"Söylə, Xəlil paşa, Allah eşqinə, Bunda bir iş var..."*
*Komandan Xəlil paşa dözə bilmədi və ucadan dedi:*
*"Bu gün Bakı, sabah Mərv, o biri gün Qaraqurum... Nə olacaq, Turan var!" Bir alqış, bir hıçqırıq, bir ürpərmə hər yeri bürüdü...*

*Qatar hərəkətə gəldi, aşıq isə hələ də oxuyurdu:*
*"Allah yolun açıq etsin Turana,*
*Səni verdim Yaradana,*
*Səndən istərəm Bakını*
*Türk Xəlil paşa."*

Qatar Gəncə stansiyasından aralandıqdan sonra təpələri qarlı Qafqaz dağlarını seyr edərək, aşığın həyəcanlı səsindən aldığımız ilhamla cəbhəyə gedirdik.

Ertəsi gün, yəni 10 sentyabr 1918-ci il tarixində günorta Bakının yaxınlığında bir kənddə yerləşmiş Türk Qafqaz İslam Ordusu qərargahına gəldik. Qatardan düşəndən sonra bir saat da maşınla irəlilədik. Getdiyimiz yerdən Bakının gözəl mənzərəsi və Xəzər dənizini də görə bilirdik[39].

Nuru paşanın, Bakını mütləq ələ keçirməsi üçün Osmanlı Dövləti Şərq Orduları Qrupu Komandanlığından kömək istəməsi ilə əlaqədar, 15-ci piyada diviziyası komandanı podpolkovnik (yarbay) Süleyman İzzət bəy, qərargahıyla birlikdə, 3 sentyabrda Gümrüdən hərəkət etdi. Süleyman İzzət bəyin sərəncamındakı birliklərdə, əsgər və yaxşı təchizat avadanlığı olan 15-ci piyada diviziyasından 56-cı alay və 36-cı Qafqaz diviziyasından 106-cı Qafqaz alayı vardı, 191 zabit və 5.541 sıravi xidmət edirdi. Podpolkovnik Süleyman İzzət bəy, tabeliyindəki əsgəri birliklərlə 9 sentyabrda Bakıdakı cəbhə xəttinə çatdı. Əlavə qüvvələr gəlib çatdıqdan sonra Nuru paşa şəhəri ələ keçirmək üçün hazırlıqlara başladı. İlk olaraq Bakı ətrafındakı mühasirəni daraltdı.[41]

Türk Qafqaz İslam Ordusu Komandanı Fəxri General-leytenant Nuru paşa Bakı hərəkatını daha yaxından idarə etmək məqsədilə 8 sentyabr 1918-ci il tarixində axşam saatlarında Gəncədən Bakı istiqamətində hərəkətə başladı və 10 sentyabrda da Puta stansiyasına çatdı. Buradan Qərargah rəisi yarbay (podpolkovnik) Nazim bəy ilə qərargahın qurulduğu Güzdək mövqeyinə gəldi. Osmanlı Dövləti Şərq Orduları Qrupu Komandanı Xəlil paşa da Güzdəyə getdi[42].

**5. İkinci Bakı hücumu**

15-ci piyada diviziyasının yardıma gəlməsiylə, Türk Qafqaz İslam Ordusu Komandanlığı 10 sentyabrda bir əmr yayaraq, cəbhədəki bütün hərbi birləşmələrin hücum hazırlığına başlamasını tələb etdi. Şərq Cəbhəsi Komandanlığı və buna tabe olan Şimal Qrupu ləğv edilərək, hərəkata başçılıq edəcək Türk Qafqaz İslam Ordusunun tabeliyinə verildi. 5-ci Qafqaz piyada diviziyasında Mürsəl paşa, 15-ci piyada diviziyasında podpolkovnik Süleyman İzzət bəy, Cənub Qrupu hərbi birliklərinə isə polkovnik (albay) Cəmil Cahid bəy komandanlıq edəcəkdi. Podpolkovnik Həlim Pərtəv bəy də Cənub Qrupu tabeçiliyində olan Azərbaycan Türklərindən təşkil olunmuş milislərdən ibarət 4-cü alayı sövq və idarə edəcəkdi[43]. Türk Qafqaz İslam Ordusu Qərargahı ilə 5-ci Qafqaz piyada diviziyasının

qərargahı Güzdəkdə, 15-ci piyada diviziyasının qərargahı isə Binəqədidə olacaqdı[44].

General Deustervilin xatirələrində yazdığına görə, 12 sentyabrda ingilislərə sığınan ərəb əsilli bir əsgər, Bakıya ediləcək əsl hücumun ayın 14-də Qərb cəbhəsindən başlayacağını bildirmişdi. Bu halda, Lənkərandakı rus əhalidən təşkil olunmuş milisin gücü ilə Muğan düzündə Türk ordusuna arxadan həmlə edilməsini düşündü, ancaq vaxtın az olduğunu nəzərə alaraq, bu fikrindən daşındı[45].

İkinci Bakı hücumundan əvvəl şəhərdə əhval-ruhiyyələr xeyli fərqli idi. Şəhərdəki türklər səbirsizliklə Türk Qafqaz İslam Ordusunun hücuma keçməsini gözləyirdi, rus, erməni və ingilislər isə təlaş içində idilər. Xalq qorxu içindəydi. Sentrokaspi hökuməti də Bakıda növbəti səfərbərlik elan etmişdi. Belə ki, küçəyə çıxan xəstə, axsaq, əlini, bir gözünü itirən kişiləri belə cəbhəyə sürükləyirdilər. Bakıdakı rus əhali isə erməni daşnakların bu hərəkətindən bərk narahat idi. Zorla səfərbərliyə alınanların sayı Sentrokaspi hökumətinin hesabına görə 72 minə çatmışdı. Bunlardan 30 mini rüşvət verərək cəbhəyə getməkdən canını qurtarmışdı. Silah verilmiş  min nəfərdən isə, ancaq 3-5 mini cəbhəyə getmişdi. Bunlar arasında peşələrinə görə də hərbi qruplar təşkil olunmuşdu[46].

Hücum hazırlıqlarını yerindəcə görmək və lazımi təlimatlar vermək üçün Şərq Orduları Qrupu Komandanı Xəlil paşa cəbhə xəttinin ən ön nöqtələrinə qədər getdi[47]. Ordu və diviziya komandirləri ilə cəbhə xəttindəki mövqelərdə məsləhətləşmələr, hücumun necə olacağı barədə fikir mübadiləsi apardı. Mehmetçiyin vəziyyətini yoxladı və onları ruhlandırdı[48].

Qafqaz İslam Ordusu Komandanlığı Qərargahı, hazırladığı döyüş planına görə, Bakıya əsaslı hücumun sentyabrın 13-dən 14-nə keçən gecə yarısı, qərb istiqamətindən başlanmasını qərara aldı. Düşməni çaşdırmaq üçün də bəzi tədbirlər görüldü. Bakıya hücumun şimaldan ediləcəyi görüntüsünü vermək üçün cəbhədəki ordunun böyük bir bölüyü 3 sentyabrdan etibarən Yanardağ və Binəqədi ətrafına yığılmışdı. Bakı hökumətinin əlində olan təyyarələr, hücum başlayan günə qədər hər gün kəşfiyyat uçuşları keçirirdi və türk əsgərinin şimal bölgəsinə cəlb edilməsini müşahidə edirdi.

Komandirlərin müşavirəsində 15-ci piyada diviziyası komandanı podpolkovnik Süleyman İzzət bəy, hücum haqqında fikirlərini söyləyərkən, 5-ci Qafqaz piyada diviziyasının yerləşdiyi mövqelərdən gecə basqını şəklində hücuma keçmənin uyğun olacağını bildirdi. Əsl hücum qüvvələrinin güclü top atəşinin müşayiəti ilə Biləcərinin şərqindən və bu qəsəbənin yüksəkliklərindən hücuma keçməsini təklif edən Süleyman İzzət bəy azərbaycanlılardan qurulan süvari birliklərinin də Əhmədli bölgəsindən hücuma keçərək, Bakını müdafiə edən düşmənin diqqətini yayındırmasının ağlabatan olduğunu bildirdi. Beləliklə, üzük qaşı kimi əhatə olunan erməni, rus və ingilis ordularının, limandakı gəmilərə minib

qaçmalarına fürsət verilmədən, məhv edilmələrini qeyd etdi. Ancaq Komandanlıq bu döyüş planını bəyənmədi[49].

Qafqaz İslam Ordusu qərargahının bəyəndiyi hücum planı belə idi: düşmənə, türk hərbi qüvvələrinin hərəkəti nəticəsində, əsl hücumun Bakının şimal bölgələrindən başlanacağı görüntüsü verilməli idi. Düşmən yanlış hazırlıq görəcək, o zaman əsl hücum qrupu qərb cəbhəsində toplanan 5-ci Qafqaz piyada diviziyası olacaqdı. Diviziyanın tabeliyindəki qoşun hissələri Hacıhəsən kəndinin şərqindən, Sarıxaçlı Kilsəsi kəndi istiqamətində basqın şəklində irəli hərəkətə başlayaraq, ağır silah işlətmədən, yalnız qumbara və süngü hücumu ilə düşmənin ilk müdafiə xəttinə basqın edərək düşmənin birinci səngərlərini ələ keçirəcəkdi. Bura çatdıqdan sonra dərhal düşmənin ikinci müdafiə xətti üzərinə yeriyərək oranı da işğal edəcəkdi. Bu vaxtlar havanın işıqlanacağı nəzərə alınaraq, 35 topun müşayiəti ilə, vaxt itirmədən irəli hərəkəti davam etdirəcəkdi[50]. Eyni zamanda zirehli qatar Heybət stansiyasına doğru hərəkət edərək, Qurd qapısı təpəsində yerləşən düşmən mövqelərinə atəş açaraq onların diqqətini özünə cəlb edəcəkdi. Beləliklə, hücuma keçən 5-ci Qafqaz piyada diviziyasının sağ cinahını, düşmənin atəşindən qoruyacaqdı. 5-ci Qafqaz piyada diviziyasının əsl qüvvə mərkəzi sol tərəfdə olacaqdı. Ordu ehtiyatı olaraq ayrılan 106 və 107-ci Qafqaz alayları, Çəkmal kəndi ətrafında yerləşəcək və hər an hazır vəziyyətdə gözləyəcəkdilər. Salyan dəstəsi isə 5-ci Qafqaz piyada diviziyasının əmrində Ələt-Puta bölgəsində dayanacaqdı. Diviziyanı yan tərəfdən qoruyacaq və dəmir yolu ilə əlaqəsini təmin edəcəkdi.[51]

15-ci piyada diviziyası isə düşmənin, əsl hücum istiqaməti zənn etdiyi şimal cəbhəsində idi. Bu diviziyanın vəzifəsi hücum görüntüsü yaratmaq idi. Gecə yarısından etibarən Biləcəri, Balaxanı, Suraxanı və Əhmədli istiqamətlərində, aramsız top və pulemyotların müşayiəti ilə, şimaldan güclü bir hücum başlandığı görüntüsü yaradacaq, kəşfiyyat edərək düşmən üzərinə yeriyəcəkdi. Bu diviziyanın hədəfi Əhmədli bölgəsini ələ keçirərək Bakının şimal və şərq istiqamətlərindən şəhərə girmək idi. Digər tərəfdən də əsl hücumu gerçəkləşdirməli olan 5-ci Qafqaz piyada diviziyasına qarşı əlavə qüvvə göndərilməsinə mane olacaqdı. Beləliklə, qərb cəbhəsindən edilən əsl hücumun uğurla nəticələnməsi üçün heç bir müqavimətlə qarşılaşmadan düşmənin müdafiə xəttinin qərb və şimal istiqamətlərindən parçalamasını təmin edəcəkdi[52].

Tofiq bəy və ya Maştağa dəstəsi, Balaxanı bölgəsindən Bakıya doğru irəliləyəcək və Zehni bəyin Süvari dəstəsinin qarşısındakı düşməni arxadan mühasirəyə alacaqdı. Zehni bəyin dəstəsi isə Tofiq bəyin dəstəsi ilə birləşərək Əhmədli üzərinə yeriyəcəkdi[53].

Ediləcək hücum haqqındakı Bakı Hazırlanmış Qərargahı 1918-ci ilin 13 sentyabr günü Xəlil və Nuru paşalar ilə diviziya komandanlarına göstərildi.

Türk ordusunun əlavə qüvvələr aldığını görən düşmən ordusunda ruh düşkünlüyü yaranmışdı. Hücum hazırlıqları davam edərkən, son bir neçə gün içərisində Ənzəlidən 900 nəfərlik ingilis qüvvəsi və Dağıstanın Mahaçqala şəhərində olan Biçeraxova tabe qüvvələrdən rusların çoxluq təşkil etdiyi 500 nəfərlik bir qüvvə da Bakıya köməyə gəlmişdi. Bu əlavə qüvvələr belə, Bakıdakı mənəvi məğlubiyyəti aradan qaldıra bilmirdi. Birləşmiş düşmən qüvvələri arasında fərarilik artmışdı. Komandirlər isə sərt tədbirlərə əl ataraq bunun qarşısını almağa çalışırdılar. Türk ordusundan qaçan ərəb əsilli əsgərdən alınan məlumatlar ilə Deustervilin gördükləri və gələn məlumatlar tutuşdurulurdu. Türk Qafqaz İslam Ordusunun Bakıya şimaldan hücum edəcəyi qənaətinə gələn erməni və ingilis hərbi birləşmələrinin böyük əksəriyyəti Heybət-Biləcəri-Balaxanı cəbhəsinə yığılmışdı. Süvari birlikləri isə Bakının qərbindəki Zığ bölgəsində toplanmışdı. Bakının ərzağı dəniz yolu ilə cənubdakı Lənkəran bölgəsindən gətirilirdi. Borular bir az əvvəl Türk ordusu tərəfindən kəsildiyi üçün şəhərdə dəhşətli su qıtlığı yaranmışdı[54].

General Deustervil öz xatirələrində yazdığına görə, 13 sentyabr axşamı Bakıdakı birləşmiş qüvvələrin qərarı belə idi:

Sol cinaha Veqsurab başçılıq edirdi. Bibiheybət və Qurd qapısı dağında Stanforda tabe Şimal A bölüyü, onun sağında erməni batalyonu, Qurd qapısında rus əsgəri birlikləri, Qurd qapısının şərqində 800 metrlik ərazidə də Stanforda tabe Şimal B qrupu yerləşmişdi. Bu bölüyün yanında Hacıhəsən kəndinin qarşısında erməni ordu birləşmələri yığılmışdı. Sol cinahda münasib yerlərdə toplar və ehtiyat qüvvələri yerləşdirilmişdi.

Bakıdakı birləşmiş düşmən qüvvələrinin sağ cinahı Kazarovun komandanlığı altındaydı. Bu cinahın sol tərəfini - Hacıhəsən kəndindən Biləcəriyə qədər olan cəbhə xəttini Biçeraxova tabe əsgərlər qoruyurdu. Biləcəri stansiyasından Dərnəgülə qədər olan bölgə də ingilislərin nəzarəti altındaydı. Dərnəgül gölünün şimalında ermənilər, onlardan şərqdə isə yenə də ingilislər yerləşmişdi. Bakı-Binəqədi yolunun şərqindən başlayaraq 3 km-lik bir ərazidə ingilislərin 39-cu alayı, bu cəbhənin sağ üçündə isə ermənilər mövqe tutmuşdu. Birləşmiş qüvvələrin sağ cinahı da kifayət qədər pulemyot, topçu batareyaları və ehtiyat qüvvələrlə təchiz edilmişdi.

Cəbhədəki Sentrokaspi ordusuna general Dokuçayev, ingilis hərbi birləşmələrinə də Kayvorth komandanlıq edirdi. Bakı əsas müdafiə xətti isə Sentrokaspi Müdafiə Naziri Baqratun ilə ingilis generalı Deustervilin idarəsi altında idi[55].

Nuru paşanın verdiyi əmrə əsasən, Şimal Cəbhəsində yerləşən 15-ci piyada diviziyası komandanının sərəncamında 38 alay, 2 süvari alayı, Azərbaycan türklərindən ibarət süvarilər və milis batareyaları var idi. Qalan bütün hərbi qüvvələr 13-14 sentyabr gecəsində qərb cəbhəsinə göndərildi[56]. Bakı cəbhəsindən

əsl hücuma keçəcək 5-ci Qafqaz piyada diviziyasının tabeliyindəki 9, 10, 13 və 56-cı piyada alaylarının orduları bütün günü bölgədəki dəmir yolunun ətrafında olan vadilərdə düşmən kəşfiyyatçılarından gizlənərək keçirdi. Cəbhədəki topçu dəstəsinin böyük bir bölüyü də 5-ci Qafqaz piyada diviziyasının tabeliyinə verildi. Diviziyanın cəbhə uzunluğu 1500 metr, 15-ci piyada diviziyasının cəbhə genişliyi isə təxminən 30 kilometr olardı. Üstəlik iki diviziyanın sərəncamındakı hərbi qüvvələrin münasibətində də böyük bir qeyri-sabitlik var idi. Qərb cəbhəsindəki 1.500 metrlik sahədə dörd alay döyüşəcəkdi. Belə dar bir sahədə bu qədər ordunun döyüş qabiliyyətini tam göstərərək müharibədə iştirakı bir qədər çətin olardı[57].

Bakı cəbhəsində döyüşə hazır olan Türk Qafqaz İslam Ordusunda Anadoludan gələn təxminən 8 min türk əsgəri, 7 min də Azərbaycanlı türklərdən ibarət milis qüvvələri dayanmışdı. Türk Qafqaz İslam Ordusunun 5 avqustdakı məğlubiyyətinin üstündən düz 39 gün keçmişdi. Qəhrəman türk əsgəri hücumun əzm və həyəcanı ilə o gecəni heç yatmayaraq hücum əmrinin verilməsini gözləmişdi[58]. Bakıdakı birləşmiş düşmən qüvvələrinin müdafiə xəttini yarmaq üçün 9 və 5-ci alaylar hazırlanmışdı[59].

Xəlil paşa, Türk Qafqaz İslam Ordusunun Bakını tam mühasirəyə alması və hücum hazırlıqlarının son mərhələsini belə təsvir edir:

"Türk Qafqaz İslam Ordusunun Bakı yaxınlığında tutduğu mövqe, düşmən mövqelərinə hakim vəziyyətində idi. Əlavə qüvvə kimi gətirilmiş ağır və yüngül batareyaları lazım bildiyim yerlərə yerləşdirdik. Bakıya tam hücum hazırlığı vəziyyətindəykən, Tiflisdə olan alman generalı Von Kressin bu şifrəsini aldım:

"Bir və ya bir neçə Alman batalyonunu şəhərin alınmasında və ya şəhərdə asayişin qorunmasında istifadə etməniz üçün sərəncamınıza vermək məcburiyyətindəyəm. Qəbul etmənizi xahiş edirəm".

Alman dostların davranışı ürəyimcə olmadı. Bəzilərinin yaxşı niyyətiylə birlikdə, bəzilərinin də hər müvəffəqiyyəti öz adlarına çıxmaq istəyi məni təbdən çıxarırdı. Buna görə mümkün qədər təmasdan qaçırdım. Yoxsa, bir gün Baş Qərargahda xoşagəlməz münasibətlərin yaranmasına səbəb ola biləcək bir vəziyyət yaranardı...

Nuru paşa ilə Von Kressə baş qatmaq üçün bəzi xəbərlər göndərməyə başladıq. Lakin Von Kress niyyətimizi anlamış olacaqdı ki, "qərargahındakı" xəbərçilərimdən biri mənə bu xəbəri çatdırdı:

"Von Kress bir alman batalyonunu sərəncamınıza göndərmək üzrədir..." Məsələ aydınlaşırdı. Batalyonu geri qaytarmaq daha pis olardı. Çox inandığım bir çavuşum vardı.

Çağırtdım, gəldi, farağat durdu:

"Bir bölük hazırla, kənarda əmrə hazır ol." Yarım saat sonra çavuşun bölüyü hazır idi, qarşımda hərbi duruşdaydılar. Çavuşu kənara çəkdim, ona bu əmri verdim:

"Gürcü sərhədindəki dəmir yol körpüsü bu gecə dağıdılacaq və teleqraf xətləri də kəsiləcəkdir. Səhər raport gözləyirəm".

... Və səhərə yaxın körpünün dağıdıldığı və teleqraf xətlərinin də kəsildiyi xəbəri gəldi. Beləliklə də Von Kressin qüvvələrinin də Bakının zəbtində iştirak etmə ehtimalı ortadan qalxmış oldu.[61]

a) Bakıya hücum əmrinin verilməsi: Hücum hazırlıqlarının başa çatdığını görən Qafqaz İslam Ordusu Komandanı Nuru paşa, 13 sentyabr 1918-ci il tarixində diviziya komandanlıqlarına göndərdiyi əmrdə, 14 sentyabr gecə saat 02.00-da hücumun başlayacağını bildirdi.

Xəlil paşanın yavəri Yüzbaşı Səlahəddin, o gecə yaşananları bu şəkildə təsvir edirdi:

Bakı şəhərində ingilis, rus və erməni birlikləri vardı.

Hücumu necə təşkil edəcəkdik?

Başda alman Qərargah rəisi Parakuin olmaqla alman zabitləri bu fikri irəli sürürdülər:

Böyük müharibələrin təcrübəsindən bilirik ki, düşmənin səhra mövqeyi top atəşiylə əzilməsə, oraya süngü döyüşü ilə həmlə etmək olmaz. Bu halda əvvəlcə düşmən səngərlərini darmadağın edək, sonra isə hücuma keçək.

Türk qərargahı isə podpolkovnik (yarbay) Bəsri (1934-cü ildə ölən general-polkovnik Bəsri), minbaşı Saleh (Omurtak), minbaşı Nazim (1920-ci ildə Kutahya döyüşlərində həlak olan topxanalı albay Nazim), minbaşı Səffət (Arıkan), yüzbaşı Tofiq (sonradan Dövlət katibi) olmaqla bu fikri müdafiə etmirdilər:

Əldə kifayət qədər top mərmisi olmadığından, belə bir top atəşi düşməni oyadacaq. Düşmən əzici bir top atəşinə məruz qalmayacağı halda, gündüz həmlə etmək bir fayda verməyəcək. Ona görə də top atəşindən istifadə etmədən gecə süngü hücumuyla səssizcə düşmən səngərlərinə girmək daha düzgün olar.

Bu iki bir-birinə zidd fikrin nəticəsini Xəlil paşa təyin edəcəkdi. İki gün davam edən müzakirələrdən sonra Xəlil paşa, tək məni yanına salaraq bütün cəbhəni gəzdi. Düşündü. Cəbhədəki əsgərlərlə, zabitlərlə, komandirlərlə görüşdü. Düşmən bir yüksəklikdə, biz isə başqa bir yüksəklikdə idik. Aramızdakı vadidən dəmir yolu keçirdi. Düşmənlə aramızda müxtəlif yerlərdə 600 metrdən iki kilometrə qədər məsafə vardı. Günəşin batmasına yaxın qərargaha gəldik. Komandan Xəlil paşa mənə bu əmri verdi:

"Bəsriyə de, bu gecə yarısından sonra saat ikidə birliklər süngü hücumuyla düşmən səngərlərinə girəcəkdir. Bu əmr ən geci axşam saat 9-da bütün orduya təbliğ edilməlidir. Bəsri bunu gizli saxlasın. Mən saat 24-də idarəetməni ələ almaq

üçün yerimdə olacağam. Bu əmrimi eyni ilə alman Qərargah rəisinə də söyləyin. Tiflisə - Von Kressə süvari alayını qatarla Bakıya göndərməsini yazsın.

Gürcüstan-Azərbaycan sərhəddində dəmir yolu körpüsünü dağıtmaq üçün orada hazır olan dəstəyə, Bəsri indi telefonla xəbər versin. Bunu kimsə bilməsin. Sonradan bunun bir səhv olduğu elan ediləcəkdir."

Xəlil paşanın məqsədi alman birliklərinin Bakıya gəlməsinə imkan verməmək idi.

Komandanın əmrini Bəsriyə məruzə etdiyim zaman onun yanında olan türk qərargah rəhbərləri böyük sevincə qapıldılar. Alman Qərargah rəisi isə yubanmadan Xəlil paşanın yanına gedərək, bu qərara qoşulmayacağını və bu qərarın nəticəsinə görə cavabdehlik daşımayacağını, türk birliklərinin Bakıya girə bilməyəcəyini, Xəlil paşanın bu hərəkətinə görə tarix qarşısında cavab verməli olacağını bildirdi.

Gecə saat on iki. Əmr edilən təpəyə gəlmişdik. Həyəcanımız ən yüksək həddə çatmışdı. Müharibənin başlanmasına iki saat qalırdı. Hava ayaz idi. Gündüzün cəhənnəm istisindən sonra, gecə dondurucu bir soyuq hakim kəsilmişdi. Xəlil paşa maşının içində yatdı. Hər kəs bir kənara çəkilib azacıq yuxulamağa çalışırdı. Səffət, Saleh və mən bir xəndəyin kənarında uzandıq. Altımıza bir adyal sərdik, üstümüzə bir adyal çəkdik. Amma yuxuya gedə bilmədik. Həm soyuqdan, həm həyəcandan dişlərimiz bir-birinə dəyirdi. Saat tam iki oldu.

Ayağa qalxdıq. Bir kənarda qaynatdığımız çayı içərək özümüzə gəlməyə və isinməyə çalışırdıq.

Saat üçün yarısı... Üç... Hələ sakitlikdir.

Alman Qərargah rəisi əsəbi və həyəcanlı halda gəzişir... İki şey gözləyir.

Alman süvarisini Azərbaycana gətirən qatarın Azərbaycana daxil olduğunu bildirən teleqramı...

Və türklərin düşmən səngərlərinə girmədən, düşmən tərəfindən aşkar olunaraq müvəffəqiyyətsizliyə uğramasını...

Saat dördün yarısına doğru bir neçə əl silah, bir neçə dəfə də işıqlandırma atəşi atıldı. Bir az sürəkli pulemyot atəşi eşidildi. Demək, iki tərəf təmasa başlamışdı. Alman zabiti bu işarələri düşmən səngərlərinə girmədən ələ keçdiyimizə bir sübut sayaraq:

- Mən demədimmi?! Düşmən sizi aşkar etdi. Uğur qazanılmayacaqdır... - deyirdi.

Elə bu arada telefonla bir raport gəldi. Oxudum. Düşmənin birinci xəttinə girilmiş, düşmən geriyə qaçır, bizimkilər tərəfindən təqib edilir.

Bu xəbər hamımızı sevindirdi.

Alman:

- Ola bilməz, bu kəşfiyyat təmasıdır, - deyirdi.

Rapotlar davam edirdi. Hər yandan türklərin düşmən səngərlərinə girdiyi və düşmənin mühasirədə olduğu xəbər verilirdi"[62].

Qərargahdan "irəli" əmri verilincə, birliklər, gecənin qaranlığında Heybət-Biləcəri dəmir yolu xəttinə doğru irəliləməyə başladılar. Hədəfdə düşmənin birinci müdafiə xətti idi. 56-cı piyada alayı saat 01-də Şabanı-Bakı yolunun şimalından, 9-cu Qafqaz alayı isə bu yolun cənubundan hücuma başladı. Bu alaylar 03.00-da verilən tapşırığı uğurla yerinə yetirdi və erməni, rus və ingilislərin birinci müdafiə xəttini səssizcə işğal etdi[63].

5-ci Qafqaz piyada diviziyasının rəhbəri podpolkovnik (yarbay) Rüştü bəy, hücumun başlanmasını bu cümlələrlə ifadə edirdi:

"Bu gün 5 avqust tarixinin üzərindən 39 gün keçir. 5-ci Qafqaz firqəsi heç ana vətəndəki döyüşlərdə belə, Azərbaycanda olduğu qədər çətin, qanlı itkilərə uğramamışdı. Həm din, həm də irqini qurtarmaq üçün, mənsub olduğu ordunun qəhrəmanlıq dastanını yerə salmamaq üçün əsgər və zabit heyəti səylə çalışmış, qan axıtmış və canlarını fəda etmişdilər. İstiqlalına vurğun Anadolu türkü, nəhayət, qonşu və qardaş millətin istiqlalını da çətin mübarizələr ilə təmin və azərbaycanlılara təhvil verirdi.

Sentyabrın 13-dən 14-nə keçən gecə bütün firqə heç yatmamışdı. 5 avqustdakı məğlubiyyətin acısını çıxarmaq və intiqam almaq üçün hər kəs hücum vaxtının gəlməsini səbirsizliklə gözləyirdi. Axır ki, gözlənilən o saat gəlmiş və kontingent gecənin dərin qaranlıqları içində gündüzdən bələdlənmiş Heybət-Bakı dəmir yoluna doğru axmağa başlamışdı. Bu dəfə Bakının ələ keçiriləcəyinə hamıda inam var idi. Ruh yüksəkliyi hökm sürürdü. İlk qumbara səsləri düşmənin ilk mövqelərinə çatıldığından xəbər verirdi"[64].

9-cu alayın sağ cinahını qorumaq üçün 13-cü alay, 56-cı alayın sol cinahını düşmən hücumundan qorumaq üçün isə ehtiyatdakı 106-cı alay irəli hərəkətə başlamışdı. Ağır toplardan başqa bütün toplar sürətlə ələ keçirilən düşmən səngərlərinə daşındı. Düşmənin birinci müdafiə xəttində yerləşmənin başa çatdığını görən komandirlər, yenidən irəli hərəkətə keçdilər. 56-cı alay səhər saat 06.00-da ikinci müdafiə xəttini də işğal etdi.

Yüzbaşı Səlahəddin, döyüşün canlı səhnələrini bu cümlələrlə dilə gətirirdi:

"Hava yavaş-yavaş işıqlanırdı. 14 sentyabr 1918-ci il səhəri güclü bir duman gəldi. Amma döyüş davam edirdi.

Saat doqquza işləmiş duman çəkilməyə başlayanda mənzərəni gördük. Bir çox gəmi Bakıdan aralanır, şəhərin bəzi yerlərində yanğınlar gözə dəyir, düşmən son mövqelərində müqavimət göstərirdi. Xüsusilə, düşmən mövqelərinin tam ortasında olan Salyan kazarması müqavimət göstərir və türk birliklərinin irəliləməsinə mane olurdu.

Bu mənzərə qarşısında hamımız sevinc içində idik. Qərargah zabiti minbaşı Saleh, Qərargah rəisi Parakuinə almanca dedi:

- Gəmilərin açılması düşmənin qaçmağına və bizim uğurumuza işarədir.

Qərargah rəisi buna cavab olaraq:

- Qaçan düşmən deyil, sizin zülmünüzü göz önünə alan ermənilərdir. Təəssüf ki, siz dünyanın ən namuslu və işgüzar milləti olan ermənilərə bu zülmü etməklə tarixin ən pis damğasını qazandınız.

Saleh bəy:

- Onlara yazığı gəlmək bizə düşməz, - dedi.

Alman əlavə etdi:

- Bunu türkün talançı və vəhşi ruhu etdi.

Saleh:

- Əgər söhbət vəhşilikdən gedirsə, bunu bizə siz öyrətdiniz. Yüz illərdən bəri türk qanı içən Xristian dünyasıdır...

Sonra davam etdi:

- Bu anda üstün olduğumuz üçün sizə bir şey deməyəcəyəm. Ancaq mən Türk ordusunda minbaşıyam. Siz Alman ordusunda... İkimiz də əmrə tabeyik. Namuslu bir əsgərsinizsə, sizi bugünkü vəzifənizdən ayrıldığınız vaxt duelə dəvət edirəm. Və bu gündən etibarən sizi rəis olaraq tanımıram.

Mübahisə ciddi bir qarşıdurma şəkli almışdı. Müttəfiqlərimiz, Almaniya nümayəndəsi öz sözləri ilə öz iç üzlərini açmışdı[65].

Qurd qapısı dağında olan düşmən birləşmələri hərəkətə keçməyə hazırlaşarkən, ora güclü top atəşinə tutuldu və bu hərəkətləri nəticəsiz qaldı[66]. Sallaqxana və Salyan kazarmalarındakı topçu batareyaları da türk topçusunun atəşləri ilə susduruldu[67]. İrəli hərəkəti uğurla davam etdirən 56-cı alay, düşməni geri oturtdu. 13 və 19-cu alaylar da düşmən səngərlərini dağıdaraq, sərt maneələri aşıb qəbiristanlığın qərbindəki düzənliyə çıxmağa müvəffəq oldular.

İkinci Bakı hücumunda qeyri-adi bir şövqlə döyüşən 56-cı alayın əsgərləri, komandirləri başda olmaqla Qurd qapısı cəbhəsindən qaçan düşmənə, Bayıl həndəvərində daha bir ağır zərbə vurdu. Bundan sonra birləşmiş düşmən qüvvələri tamamilə pozuldu və Məhmətçiyin təqibi altında Bakıya tərəf qaçmağa başladı. Xristian qəbiristanlığının yaxınlığındakı Qırmızı kazarma ətrafında cəm olmağa çalışan düşmən birlikləri, top atəşi və 56-cı alayın inadlı təqibi nəticəsində buradan da qovuldular və tamamilə dağılaraq, şəhərin içindəki ara küçələrlə sahilə doğru qaçdılar. Qərb Cəbhəsində nizamı pozulmuş rus, erməni və ingilislərdən ibarət birləşmiş qüvvələr, sahilə yığılaraq, limandakı gəmilərə minməyə çalışırdılar. Lakin sahilə tuşlanan top atəşləri altında buna müvəffəq olmadılar[68].

Xəlil paşa Bakıya edilən hücumun ilk günü döyüş meydanında gördüklərini və yaşadıqlarını bu cümlələrlə ifadə edir:

"Hava təzə işıqlanmağa başlamışdı ki, piyadanın özünə məxsus qışqırıqları (Allah, Allah) ilə qumbara və süngü hücumuna başlanıldı. Hücum qoluna sağdan və soldan həmlə edən düşmən ehtiyat qoşunları, "qəmə" şəklində irəliləyən türk birliklərinin sağa-sola açdığı yaylım atəşləri ilə geri oturdulurdu.

"Qəmə"nin önündəki birliklər düşmən cəbhəsini yarmış, şəhərin mərkəzinə doğru irəliləyirdi. Düşmən fasilələrlə əks-hücuma keçir, lakin yenə də olduqları yerə qayıtmaq məcburiyyətində qalırdılar... Bakı qarşımızdaydı... Düşmən ehtiyat qüvvələri şəhərin mərkəzinə doğru çəkilməyə məcbur olmuşdular...

Bakı möhkəmləndirilmiş mövqeyinin sol tərəfində, yəni mövqenin şimal tərəfində ingilis qüvvələri yerləşmişdi. Bunu batareyaların atəşindən təxmin etmişdik. Sübhdən başlayan döyüş axşama qədər davam etdi. Bu döyüşdə, ara-sıra özümü əlimdə mauzer ön xətlərin arasında gördüyüm anlar da oldu... Bir həmlə zamanı bir sıravinin yalvara-yalvara yanıma soxulduğunu gördüm:

"Komandan Paşam, mən səninlə hələ Ərəbistan ellərindən bir yerdə idim. Bax, yenə özünü qorumursan!... Güllə dəyəcək, komandan paşam, az da olsa, başını qorusana?..."

Qucaqlayıb, dodaqlarımı, yaşı qırxı keçmiş bu dəliqanlının alnına dayadım. Çiyinlərini buraxanda əlimdə qan izləri gördüm...

"Yaralısan, oğlum!..."

Əlini çiyninə apardı... Sıxdı, bir ara ağrıdan üzünü turşutdu...

"Unutmuşam, komandan paşam!..." dedi, sıçrayışla irəli yüyürdü. Bir ucdan mauzerindəki gülləri doldururdu... Və imperiya dastanı davam edirdi... Yanımdan gənc bir zabitin parçalanmış bədənini keçirdilər. Pulemyot bədəninin bir hissəsini aparmışdı...[69]

İkinci Bakı hücumunun birinci günündə türk əsgərinin düşmənin müdafiə xətlərini surətlə ələ keçirməsi, general Deustervili heyrətə gətirmişdi. Xatirələrində bunları belə qeyd edir:

"İnanmaq mümkün deyil. Cəbhəmizin ən güclü xətti türklər tərəfindən ələ keçirilmişdi. Həm də türklərin hücuma keçəcəyinin bütün birliklərə xəbər verilməsinə baxmayaraq, işğal edildi. İnanmaq çətin olsa da, mövcud vəziyyət belə idi. Cəbhədəki bütün üstünlüklərin bizim tərəfimizdə olmasına baxmayaraq, hücumun ilk anlarında darmadağın olan hərbi qüvvələrimizin artıq nəsə edə biləcəyinə ümid qalmamışdı. Bu vəziyyətdə üzərimizə düşən əsl vəzifə, geri çəkilmək və düşmənin hərəkət sürətini azaldaraq, hərbi birləşmələri yenidən nizamlamaq idi"[70].

5-ci Qafqaz piyada diviziyasının əldə etdiyi uğurun davamı kimi, Bakının şimal cəbhəsindən hücuma keçən 15-ci piyada diviziyası da verilən tapşırığı layiqincə yerinə yetirirdi. Birləşmiş düşmən qüvvələri, şəhərin şimal bölgəsində olan 5-ci Qafqaz piyada diviziyasının cəbhəsindəki hərbi qüvvələri

möhkəmləndirməmişdi. Türk Qafqaz İslam Ordusunun döyüş planı və taktikası uğurla həyata keçmişdi. 15-ci piyada diviziyası, gecə yarısından etibarən 40 nəfərlik güclü kəşfiyyat qolları halında düşmən mövqelərinə yaxınlaşdı. Bu şəkildə tərəflər arasında piyada döyüşlərinin başladılması, düşmənin diqqətini şimal cəbhəsinə çəkirdi. Biləcəri yüksəklikləri istiqamətində hərəkətə başlayan 38-ci alay, düşmənin müdafiə xəttinə girdi və çətin bir müharibəyə başladı. Birləşmiş düşmən qüvvələrinin müdafiə xəttinə 500-600 metr yaxınlaşdığı zaman, düşmənin Biləcərinin şərqində gizlətməyə müvəffəq olduğu altı pulemyot, türk əsgərinin sağ tərəfini güclü atəşə tutdu. Bu səbəbdən böyük itkilər oldu. Piyada diviziyası komandanlığı sərəncamına ağır toplar verilmişdi. Kiçik çaplı toplarla düşmən pulemyotlarını susdurmaq çətin idi. Diviziya komandiri yarbay (podpolkovnik) Süleyman İzzət bəy bu alayı gücləndirmək üçün bir neçə ağır top göndərilməsini tələb etdi. Bununla da, qərb cəbhəsi ilə şimal cəbhəsi arasında sıxışdırılacaq düşmən birliklərinin tam məhvinə nail olunacaqdı. Şimal cəbhəsində alınan əsirlərdən əldə edilən məlumata görə, 38-ci alayın lap qarşısında, 100-ü ingilis, 700-ü rus və 800-ü ermənilərdən ibarət olan təqribən 1.600 nəfərlik düşmən qüvvələri yerləşirdi. Əllərində isə ikisi uzun mənzilli olmaqla 12 top və 16 pulemyot vardı.[71]

Komandanlıq, 107-ci Qafqaz alayına 38-ci alayı sağ cinahdan qorumaq tapşırığı vermişdi. Ancaq güclü atəş altında qaldığı üçün, tapşırığı yerinə yetirmək çətinləşirdi. 107-ci Qafqaz alayı günortadan sonra iki diviziyanın arasındakı boşluğu doldurmaq üçün Hacıhəsən kəndi ətrafına göndərilmişdi. Bir saata yaxın davam edən qanlı müharibədən sonra 38-ci alay, saat 15.00 radələrində Biləcərinin cənubundakı yüksəklikləri ələ keçirə bildi. Biləcərinin yüksək yerlərində yerləşmiş və üstün atəş mövqeyi tutan düşmənin sayı bu bölgədə təxminən 2 min nəfər idi. Düşmən birləşmələrinin iri çaplı topları qarşısında, dörd kiçik çaplı topla mübarizə aparan 38-ci piyada alayı, irəli hərəkətini qəhrəmanlıqla davam etdirərək, axşamüstü saat 19.00 radələrində Bakının bir kilometrliyindəki Ermənikənd kəndinə qədər irəlilədi[72]. Şimal cəbhəsinin şərqində 15-ci piyada diviziyasının rəhbərliyi altında döyüşən və Azərbaycanlı türklərdən ibarət olan Maştağa dəstəsi isə Sabunçunu ələ keçirdi[73]. Bakının şərqində mövqe tutmuş Zehni bəyin dəstəsi də Əhmədli istiqamətində irəliləyərək əhəmiyyətli uğurlar əldə etdi[74].

15-ci piyada diviziyası komandanı yarbay Süleyman İzzət bəyin xatirələrində yazdıqlarından, ikinci Bakı hücumunda, diviziyalar arasındakı rabitənin mükəmməl olmadığı başa düşülür. Süleyman İzzət bəy, Biləcərinin cənubundakı yüksəklikləri ələ keçirən 38-ci alayın bu bölgədə tam yerləşmək üçün hazırlıqlar gördüyü əsnada, Ordu Komandanlığından alınan bir telefon əmrində, alayların sövq və idarəedilməsinin daha yaxşı olması üçün Biləcərinin cənubundakı yüksəkliklərə getməsi istənmişdi. Həmin yerdə düşmən qüvvələri vardı və bura 15-

ci piyada diviziyasının xidmət dairəsi xaricindəydi. Süleyman İzzət bəy bu əsnada Biləcəri yüksəkliklərindəki atəş xəttində pulemyot atəşi mövqelərinin təşkili ilə məşğul idi. Bu arada düşmənin birləşmiş qüvvələri 38-ci alayın sol tərəfindən pulemyot və top atəşlərinin müşayiəti ilə hücuma keçmişdi. Üstəlik köməyə gəlməsi vacib olan 107-ci alay da öz yerini tuta bilməmişdi. Sərəncamında başqa alay da yox idi. Cəbhənin təxminən 30 kilometrlik bir ərazisinə yayılmış qüvvələrini, cəbhənin qərbindən bu istiqamətə yönəltməsinin də mümkün olmadığını bilirdi. 15-ci piyada diviziyası komandanı yarbay Süleyman İzzət bəy, bu telefon əmrinə: "Saat 15.30-dan etibarən mən Biləcərinin cənub yüksəkliklərindəyəm və atəş xəttindəyəm. Vəziyyət və əhvala görə daima lazımi şəkildə hərəkət edəcəyimi təmin və ərz edirəm" - cavabını verdi. Ordu Komandanının bu vəziyyətdə, düşmən atəşi altında olan və üstəlik də əlində hücum üçün böyük çaplı top olmayan diviziya komandirinə, hara getməsi gərəkdiyini söyləyərək müdaxilə etməsi, hücum halındakı hərbi birliklərin idarəsində qərar vermə və məsuliyyət daşıma məsələsində qarışıqlıq yarada bilərdi. İştirak etdiyi bir çox döyüşlərdə üstün bacarığı və parlaq bir hərbi keçmişi olan Süleyman İzzət bəyin bu şəkildə müdaxilədən çox mütəəssir olduğu aydın olur[75].

Maştağa dəstəsi - Tofiq bəyin dəstəsi Sabunçu stansiyasını ələ keçirdi. Bu dəstə, sayı bilinməyən piyadalar ilə 100 süvari və beş topdan ibarət olan düşmən qüvvələrinə qarşı Hövsandan hücuma keçdi və Əhmədli bölgəsinə tərəf irəlilədi[76].

5-ci Qafqaz piyada diviziyası da verilən tapşırığı uğurla yerinə yetirmiş və Bakının kənar məhəllələrinə qədər soxulmuşdu. Küçə döyüşlərində tələfat verilə biləcəyi düşüncəsiylə, saat 16.00-da hərəkətə ara verildi. 14 sentyabr 1918-ci il axşamında 5-ci Qafqaz piyada diviziyası, sağdan olmaqla 13, 9, 56 və 10-cu alayları ilə Xristian qəbiristanlığı-Sallaqxana-Qırmızı kazarma-Ağ kazarma xəttində mövqe tutmuşdu[77].

İkinci Bakı hücumunun birinci günündə yaşanan qanlı döyüşlərdə 56-cı alay bir zabit və 16 sıravi şəhid vermiş, iki zabit və 74 sıravi yaralanmışdı. 15-ci piyada diviziyasına tabe olan 38-ci alaydan bir zabit şəhid olmuş, bir zabit və 116 sıravi yaralanmışdı. 5-ci Qafqaz piyada diviziyasına tabe 56-cı alaydan isə bir zabit, on altı sıravi şəhid olmuş, iki zabit və 47 sıravi yaralanmışdı[78].

General Deustervil, İkinci Bakı hücumunun birinci günündə Türk Qafqaz İslam Ordusu qarşısında müqavimət göstərməyin bir fayda verə bilməyəcəyi qənaətinə gəldi. İngilis birliklərinə axşam saat 20.00 radələrində geri çəkilmə əmri verdi. Saat 22.00-da isə bütün ingilis hərbi birləşmələri Kreyzer gəmisinə minmişdi. İngilislərin Bakıdan aralanmasına mane olmaq məqsədilə Sentrokaspi üzvlərindən Liyamlin və Sadovski, Deustervil ilə görüşmək üçün Kreyzer gəmisinə gəldilər. Sadovski Deustervilə xitabən hökumət adından bir məktub gətirdiyini və şəhərin müdafiəsindən qaçmaması gərəkdiyini bildirdi. İngilis birliklərinin geri

çəkilməsinin xəyanət kimi qiymətləndiriləcəyini və buna qarşı sərt tədbirlər görüləcəyini bildirərək, hərbi birləşmələrin yenidən cəbhənin müdafiə xətlərinə göndərilməsini tələb etdi. Türklərin hələ şəhərə girmədiyini və müharibəni davam etdirəcəklərini də qeyd etdi.

General Deustervil də Sadovskiyə bu cavabı verdi:

"Mənim Bakıdan getməyim heç də xəyanət deyildir. Çünki mənim fikirlərim sizin hökumətə bəlli idi. Mənim hərbi qüvvələrim heç bir kömək almadan 16 saat döyüşdülər. Sizin əsgərləriniz isə çox zəif döyüşürdülər. Belə bir vəziyyətdə mən əsgərlərimin həyatını qurban vermələrinə razı olmaram. Hərbi birləşmələrimin dərhal cəbhənin ön sıralarına sövq edilməsinə gəlincə, dəyişdirilmədən və yardım almadan 16 saat vuruşmaq, fiziki baxımdan mümkün deyildir. Mən belə bir əmr verməyəcəyəm və elə indicə yola çıxıram."

İngilis birləşmələri Bakı və ətrafında qaldıqları  gün ərzində 180 əsgərini itirmişdi.

İngilislərin geri çəkilməsindən xəbər tutan Biçeraxova tabe qüvvələr də öz gəmilərinə yığılaraq Mahaçqala istiqamətində yola düşdülər.

Beləliklə general Deustervilin sərəncamındakı ingilis hərbi qüvvələri sentyabrın 14-dən 15-nə keçən gecə Bakıdan ayrılaraq Ənzəliyə doğru hərəkət etdi. Türk Qafqaz İslam Ordusu qarşısında Bakının qorunmasında iştirak edən qüvvələrdən yalnız yerli rus və erməni daşnaklarının hərbi birləşmələri qalmışdı[79].

Türk Qafqaz İslam Ordusu Komandanlığının, ikinci Bakı hücumunun birinci günündə, yəni 14 sentyabr axşamı diviziyalara yaydığı əmrə görə 15 sentyabr səhərə doğru saat 04.30-da başlanılacaq hazırlıq top atəşindən sonra hücuma keçiləcək və bu hücum şəhərin ələ keçirilməsi başa çatana qədər davam edəcəkdi. Bakının ələ keçirilməsi tapşırığı 5-ci Qafqaz piyada diviziyasının 56-cı alayına verilmişdi. 56-cı alay şəhərə qərb istiqamətindən girəcək və hər yeri nəzarət altına alacaqdı. Daha sonra şimaldakı Xırdalana gedən yolun iki tərəfində cəmləşəcəkdi[80].

b) Bakıya hücumun ikinci günü: Bakının kənar məhəllələrində olan Məhmətçiyin üzərinə, gecə boyunca ara-sıra pulemyot və piyada tüfəngindən atəş açılırdı. Bakını müdafiə etməyə çalışan düşmən qüvvələri, şəhərin qərb bölgəsindəki Qırmızı kazarma ətrafında toplaşmışdı. Türk topçusunun səhərə yaxın başladığı hazırlıq atışı tamamlandıqdan sonra, 5-ci Qafqaz piyada diviziyasına bağlı 13, 19 və 56-cı alaylar, havanın işıqlanmasıyla bərabər şəhərə girməyə başladılar. Erməni və rus əsgərləri, ara küçələrdə, yaxud da gizləndikləri binaların üstündən atəş açırdılar. Bu həmlələr planlı bir müqavimət deyildi. Bu son müqavimətlər də fayda vermədi və qısa sürən küçə döyüşləri də dayandırıldı. Rus və erməni birliklərinin böyük qisminin gəmilərlə qaçmaq üçün limana yığışdıqları məlum olan kimi, sahil boyu güclü top atəşinə tutuldu. Bu arada Bakı körfəzi

açıqlığındakı Nargin adasının ətrafında, şəhərdən qaçan ingilis əsgərlərini daşıyacaq yeddi gəmi hərəkətə hazır vəziyyətdə gözləyirdi. Birləşmiş düşmən qüvvələri Bakıdan qaçarkən, şəhərdəki yanacaq məntəqələri və bəzi başqa əhəmiyyətli yerləri yandırmış bir neçə ölü gördük. Ordu komandanı verdiyi telefon əmrində "şəhərdəki yanğının söndürülməsini və təslim olan ermənilərin qorunmasını" tələb etdi. Ancaq şəhərdəki işğal hələ o nöqtəyə çatmamışdı.[81]

İngilislər, Çanaqqalada ağır bir məğlubiyyətə uğramışdılar. Bundan sonra İraqda Qut yaxınlığında onları ağır bir şəkildə məğlub edən və komandirləri general Thovnsendi əsir alan Xəlil paşa, bu dəfə də Bakıda ingilislərə, Birinci Dünya müharibəsindəki ən ağır üçüncü məğlubiyyəti dadızdırmaq üzrəydi. Xəlil paşa cəbhədəki ən yüksək rütbəli komandir olmasına və hücumu idarə etməsinə rəğmən bəzən hücum edən ən ön sıralarda, əlində silah vuruşurdu. Döyüşlərə ikinci gün də qoşulmuşdu:

"Axşam qaranlıq düşəndə döyüşün dayandırılmasına işarə verdim. Sabaha qədər son hücum hazırlıqları görüldü. Səhər açılar-açılmaz hücum edib Bakını ələ keçirəcəkdik. Revolverimi təmizlədim. Əmrimdəki sıravi mauzerimin vəziyyətini yoxladı. Ön xəttə getdim. İlk hücum edəcək birliyin başına keçdim. Birlik komandanını çağırdım.

- Bu birliyin komandasını üzərimə götürürəm. Komandanlıq Qərargahı buradır. Yavərlik vəzifəsini də siz aldınız...

Şəstlə hərbi salam verib dik gözlərimin içinə baxdı. Bu baxışıyla "Ölüncəyə qədər sərəncamınızdayam" demək istədiyi məlum idi.

Səhərin ilk şəfəqlərində başlanan həmləmiz, hələ ilk mərhələsindəydi, birlik komandirləri ilə Bakının alovlar içində yanmağa başladığını gördük. Düşmən, təyyarələrini və yanacaq çənlərini yandırır, məhv edirdi. Və başa düşürdüm ki, Bakı da Qut kimi məğlub olmaq üzrədir. Gecədən gəmilərə mindirilmiş ingilis qüvvələri əlli gəmilik bir konvoy halında Şimala doğru uzaqlaşırdılar.

İngilis birlikləri geri çəkilərkən, yerdə qalan digər düşmən birlikləri Bakıdakı böyük bir kazarmaya dolmuşdular. Bu xəbəri alan kimi, top atəşi ilə böyük bir cəbhə təşkil edilə biləcək bu kazarmanı yerlə yeksan elədik..."[82].

Bakıda olan ingilis qüvvələrinin hamısı "Avropa" və "Metropol" otellərində yerləşmişdilər. Türk topçusunun hədəfi bu otellər idi. General Deustervil isə komandir gəmisində yerləşmişdi. Xalq arasında ingilislərin Bakıdan qaçmağı xəbəri sürətlə yayılırdı. Deustervil, şəhərin müdafiə oluna bilməyəcəyini anlamış və hakimiyyətdəki Mərkəzi Xəzər hökuməti ilə görüşərək, yaralı, xəstə və yaşlıların evakuasiya olunmasını təklif etmişdi. Bu məsləhətləşmələrdən sonra, ingilislərin şəhərdən qaçmağa başladığını anlayan Bakı hökuməti, Türk komandirləri ilə təmas yaradıb şəhərin təslim edilməsi üçün şərtlərin hazırlanmasını qərarlaşdırdı. Bu qərar ingilislərlə Sentrokaspi hökuməti arasında

ciddi bir anlaşılmazlıq yaratdı. Bu qayğılar içində şəhərdə qalan hökumət üzvləri Bakıdan qaçmağın yollarını axtarırdılar. Ruslar və ermənilər Dağıstandakı Mahaçqala (Petrovsk) istiqamətində getmək üçün gəmilərə doluşdular. İngilislər isə gəmilərlə Cənubi Azərbaycandakı Ənzəli və Türkmənistandakı Krasnovodsk istiqamətinə qaçmağa başladılar. Bakıda olan 26 Bakı Komissarları isə ingilislər tərəfindən həbsdən çıxarılaraq Türkmən gəmisinə mindirildilər və onlarla birlikdə Türkmənistan istiqamətində hərəkət etdilər. 26 Bakı Komissarları Türkmənistanda Qaraqum çölündə ingilislər və tərəfdarları tərəfindən güllələnib öldürüldülər.

Şimal cəbhəsində isə 15-ci piyada diviziyasına tabe 38 və 107-ci alaylar tezdən saat 05.20-də hücuma başladı. 38-ci alayın sağında 107-ci Qafqaz alayı hücuma keçmişdi. Diviziya komandiri podpolkovnik Süleyman İzzət bəy hücumu gücləndirmək məqsədi ilə özü də qüvvələrin lap ön sıralarında zabitlərlə bərabər vuruşurdu. Komandirlərini cəbhənin ön sıralarında görən Məhmətçik, bütün yorğunluğunu, yuxusuzluğunu unutmuşdu. Ciddi müqavimətlə qarşılaşan 38-ci alay Erməni̇kənd istiqamətində güclü həmlə edərək, erməni və rus əsgərlərinin geri çəkilməsinə və nizamı pozulmuş halda geri qaçmasına nail oldu. Hava işıqlananda, artıq Ermənikənd işğal edilmişdi. Burada bəzi evlərdə gizlənən və Məhmətçiyi atəşə tutan ermənilərin təmizlənməsi bir az vaxt aparmışdı. 38-ci piyada alayı burada iki uzun mənzilli top, səkkiz səhra topu ilə iki dağ topu və iki təyyarə ələ keçirdi. Bakının şimalındakı düşmən mövqeləri də beləcə dağıdıldı. Düşmən piyadaları özlərini itirdiklərindən səhvən bir-birinə atəş açır, hətta süngülərlə də bir-birlərini vururdular.

Düşmən piyadaları dağınıq halda şəhərin içərilərinə doğru qaçarkən, onları təqib edən 38-ci alay, Bakının şimal və cənub bölgələrini və əsasən rusların yaşadığı Malakan kəndi tamamilə nəzarət altına aldı. 38-ci və 107-ci alaylar, Bakının Çernoqoqrad, yaxud da Qaraşəhər adlanan məhəlləsini ələ keçirmək üçün irəliləyirdi. Bu əsnada Əhmədli bölgəsində Türk süvari milislərin önündən qaçan və çoxu erməni olan piyada və atlılar Qaraşəhərdəki düşmən qüvvələrinə qoşuldu. Evlərdə və küçələrdə pusqu quran ermənilər pulemyot və əl tüfəngləri ilə atəş açmağa başladılar. Bu atəşlər nəticəsində iki zabit öldürüldü, ikisi də yaralandı, sıravilərdən isə 23-ü öldürüldü, 27-si yaralandı. Bundan sonra erməni və rus qalıqlarının gizləndikləri binalar top atəşinə tutuldu. Qaraşəhər ətrafında küçə döyüşləri davam edərkən, Əhmədli bölgəsindəki Zehni bəyin dəstəsinə tabe milis qüvvələri də qarşılarına çıxan erməni və rus qüvvələrini geri oturdaraq, küçə araları ilə yol açaraq irəliləyirdi[83].

Qaraşəhər bölgəsində döyüşlər davam edərkən, 5-ci Qafqaz piyada diviziyasından gələn bir telefonda, Bakının təslim olması üçün şəhər təmsilçiləriylə görüşüldüyü bildirilərək, top və pulemyot atəşlərinin kəsilməsi tələb olunurdu. Podpolkovnik Süleyman İzzət bəy "təslim olma şərtlərinin ələ alındığı bir

zamanda, əvvəlcə ermənilərin atəşi kəsmələrinin lazım olduğunu, bunun üçün vəziyyətin Bakı təmsilçilərinə bildirilərək tədbir görmələrini, əks halda özünümüdafiə məqsədi ilə atəşi davam etdirmək məcburiyyətində qalacaqlarını" bildirdi. Bu sərt cavabdan da başa düşüldüyü kimi, erməni və ruslar döyüş meydanında edə bilmədiklərini, küçə və evlərdə gizlənərək həyata keçirməyə çalışır, pusqu quraraq türk əsgərinə tələfat vermək istəyirdilər. Barışıq şərtlərinin razılaşdırılacağı bir zamanda, Məhmətçiyin üzərinə atəş açılması və bunun nəticəsində çox qiymətli komandir və əsgər heyətinin öldürülməsi, Süleyman İzzət bəyi hövsələdən çıxarırdı. Evlərin damında qurulan pulemyot atəş nöqtələrinin hamısını top atəşi ilə susdurmağı əmr etdi. Bir çoxu vurulduqdan sonra əllərində ağ bayraq tutmuş dörd erməni, saat 14.30-da 38-ci piyada alayına müraciət edərək, saat 16.00-da təslim olacaqlarını bildirdi. Onlara verilən bu vaxt tamam olduqdan sonra, ermənilər əllərindəki silahlarla birlikdə təslim olmağa başladılar[84].

Qaraşəhərdə erməni və rusların silahı atıb təslim olduqları ilk saatlarda 800 piyada tüfəngi və 6 pulemyot təhvil verildi. İki zabit və 80 sıravi təslim oldu. Lakin küçə aralarında gizlənib Məhmətçiyə atəş açan erməni və rus əsgərlərinin böyük bir hissəsi mülki paltar geyərək camaata qarışmışdılar. Bu canilər haqqında bir tədbir görülə bilmirdi[85].

İkinci Bakı hücumunda Azərbaycan milislərinin gücündən də kifayət qədər istifadə olundu. Maştağa dəstəsi Qışla məntəqəsini döyüşsüz ələ keçirdi. Zehni bəyin dəstəsi isə Zığ təpələrinə sığınan iki yüz erməni daşnak və bolşevik rus əsgərinə böyük ziyan vurdu və geri oturdaraq şəhərin şərq tərəfini tamamilə öz nəzarəti altına götürdü. Ləzgi süvari alayı da nəzarət və mühafizə tapşırığı ilə Zığ təpələrində yerləşdirildi[86].

Bakı küçələrində saat 15.00-a qədər davam edən döyüşlərdə erməni və rus birləşmələrinin müqaviməti tamam qırıldı. Artıq təslim olmaqdan başqa çarələri qalmamışdı. Hələ 14 sentyabrda Bakının kənar məhəllələrinə girən türk əsgəri, tələfat verməmək üçün irəliyə hərəkəti dayandırmışdı. Türklərin şəhərə girmək istədiyini görən ingilislər, gəmilərə minərək səhər saatlarında Bakıdan qaçmışdılar. Erməni və rus komandirləri ilə şəhər rəhbərləri də gəmilərlə qaçırdılar. Buna görə də birləşmiş düşmən qüvvələrində böyük bir çaxnaşma meydana gəlmiş, cəbhələri və qoşunları tamamilə dağılmışdı[87].

Bakıda küçə döyüşləri davam edərkən, saat 10.30 radələrində İran bayrağı ilə ağ bir bayrağın olduğu bir avtomaşının 13-cü alaya doğru yaxınlaşdığı göründü və bu barədə 5-ci Qafqaz piyada diviziyası qərargahına xəbər verildi[88]. İranın Bakı Konsulluğu ilə birləşmiş düşmən qüvvələrinin qərb cəbhəsinin erməni əsilli komandiri, şəhərin təslim olacağını bildirdilər. Şəhərin təslim olması ilə əlaqədar görüşlərin, Bakıda iqtidarda olan Mərkəzi Xəzər hökuməti ilə İran, İngiltərə, ABŞ, İsveç və Danimarka konsulluqları və ya təmsilçilərinin də iştirakı ilə həyata

keçirilməsini təklif etdilər. Yeni təkliflər Nuru paşaya çatdırıldı. 5-ci Qafqaz piyada diviziyası rəisi podpolkovnik Rüşti bəyin, bu təmsilçilərlə Bakıya gedərək, şəhərin təslim olma şərtlərini həll etməsi uyğun bilindi[89].

Bakıya gedən Qərargah rəisi Rüşti bəy şəhərdə tam bir qarışıqlığın hökm sürdüyünün, azərbaycanlılarla ermənilər və fars əsilli iranlılar arasında küçə döyüşləri başlandığının, erməni daşnakların küçələrdə atəş açaraq türkləri qətlə yetirdiklərinin şahidi oldu.

Rüşti bəy, gördüklərini belə dilə gətirmişdi:

"Maşınımız bu atəşlər arasından keçərək irəliləyərkən, bir güllə sürücünün əlinə dəyib barmağını yaraladı. Yanımızdakı erməni əsilli cəbhə komandiri, kiminləsə görüşəcəyini bildirərək, öz qərargahlarının qarşısında maşından düşdü. Bu arada evlərindən çıxan bir neçə qadın, kişi həyəcanla maşınımızı dövrəyə aldılar.

Onları sakitləşdirməyə çalışdığım zaman "Türk zabitləri fransızca bilirmi?" sualını verdilər. Bəlkə də mənim türk olduğumu zənn etməmişdilər. Lakin İran konsulu təsdiq edəndə, heyrətləri daha da artdı.

Bundan sonra Danimarka Konsulluğuna getdik. Qapıları bağlı idi. Çətinliklə açdıraraq içəri girdik. Konsulluqdan baxıldığı zaman şəhərin ətrafındakı yüksək yerlərdə olan əsgərlərimiz aydın görünürdü. Konsul, digər konsullara və şəhər bələdiyyə rəhbərlərinə də telefonla xəbər verdi. Bu əsnada şəhərdə küçə döyüşləri getdikcə qızışırdı. Erməni əsgərlərin axın-axın konsulluğun önündən həyəcanla keçdiklərini görürdük. Şəhərin vaxtında təslim edilməsini və xalqla ermənilər arasındakı ziddiyyətlərin təcili surətdə dayandırılmasını təşkil etməyi konsuldan xahiş etdim. Ancaq nümayəndələrin yığılıb maşınla konsulluğa gəlməsi gecikirdi. Nəhayət, ağ bayraqlı üç-dörd maşından ibarət bir kolon şəklində hərəkət edərək firqə qərargahına gəldik[90].

c. Bakının təslim olması: 5-ci Qafqaz piyada diviziyası qərargahında Bakıdan gələn heyətlə şəhərin təslim edilməsi üçün keçirilən görüşlərdə, aşağıdakı şərtlər qərarlaşdırıldı:

1. Bakı qeydsiz-şərtsiz dərhal təslim ediləcək.
2. Şəhəri müdafiə edən əsgərlər təslim olacaq.
3. Şəhərdəki hər cür silah və sursat ilə dövlətə məxsus əşya və binalar təhvil veriləcək.
4. Nargin adasında saxlanan türk, alman və avstriyalı hərbi əsirlər təhvil veriləcək.
5. Silah və ərzaq anbarları ilə zirehli maşınlar, minik və yük maşınları, təyyarələr və bunlara aid olan hər şey bütövlüklə təhvil veriləcək.

Bakıdan gələn heyətə, şəhərdə yaşayan insanlara heç bir zərər verməyəcəyinə dair Türk Qafqaz İslam Ordusu Komandanlığında hazırlanan

bildirişlər verilərək, bunu xalq arasında yaymaq göstərişi verildi. Beləliklə də, küçə döyüşləri tezliklə dayandırılaraq, daha çox şəhid və yaralı verilməsinin qarşısı alınmış oldu.[91]

Hacıqabulda yerləşən Cənub Qrupu Komandanı Cəmil Cahid (Toydəmir) bəy Bakı Mövqe Komandiri vəzifəsinə təyin olundu və axşama doğru şəhərə girdi[92]. Şəhərdə asayişi bərpa və mühafizə etmək minbaşı Fəhmi bəyin başçılığı altında iki batareya ilə 56-cı alaya həvalə olundu[93]. Şəhərin şərq hissəsindəki Qaraşəhər bölgəsini isə bir batareya ilə 38-ci piyada alayının qoruyacağı qərara alındı. Düşmən gəmilərinin Bakını bombalamasının qarşısını almaq üçün şəhərin qərb bölgəsindəki Bayıl təpələri ilə şərqdəki Zığ təpələrinə də topçu batareyası yerləşdirildi[94].

Xəlil və Nuru paşaların, əmi-qardaşoğlunun, o gecə yaşadığı sevinci yüzbaşı Səlahəddin bu şəkildə söyləyir:

"O gecə Bakı, sanki işıqlarını yandırıb bizi gözləyirdi. 15 sentyabr 1918-ci il səhəri qüvvələrimiz nizami şəkildə daxil olaraq, Bakını azad etdi. Bizlər də bir az dincəlmək və bir gün sonra Bakıya girmək üçün bir kəndə gəldik.

Yol dağıdıldığı üçün alman süvariləri gəlməmiş, Bakı isə alınmışdı. Vəziyyət Baş Komandanlığa bildirildi. Gecə yarısı Baş Komandanlıqdan Xəlil paşaya bu əmr gəldi:

"Bakı ruslara veriləcək, neftini də almanlar alacaqdı. Nə üçün ora hücum etdiniz, niyə bunu Baş Komandanlığa xəbər vermədiniz. Sizin yeriniz Qarsdır. Bakıda nə işiniz var?

Dərhal Qarsa dönün və bir daha Baş Komandanlıqdan icazəsiz belə işlərə qarışmayın."

Bu əmr Hərbiyyə Nazirliyinin teleqrafxanasından gəlmişdi.

Aradan üç saat keçdikdən sonra Ənvər paşa öz evindəki teleqrafxanadan bu teleqramı vurmuşdu:

"Böyük Turan İmperiyasının Xəzər kənarındakı zəngin bir mənzil yeri olan Bakı şəhərinin zəbti xəbərini böyük şadlıqla qarşıladım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözlərindən öpürəm, şəhidlərimizin ruhuna fatihə ithaf edirəm."

Görünür, birinci şifrə Alman İmperatorluğu müttəfiqi olan Osmanlı Dövlətinin Baş Komandanlığı adından, ikincisi Türk Ənvər paşa adından gəlmişdi.

O gün hamımız həyatımızın ən xoş günlərindən birini yaşadıq. Və ertəsi günün səhəri Bakıya girəcəyimiz xəyalı ilə yatağımıza girdik. Biz Fuad ilə bir otaqda qalırdıq. Çox təmiz və kübar bir türk balası ilə o gecə (15-16 sentyabr 1918-ci il) nələr və nələr danışdıq.

Mənim türk ruhumun sevincli günlərindən biri idi o gün...

16 sentyabr 1918-ci il səhər qatarla Bakıya gəldiyimiz zaman ara qarışıq idi. Bizi qarşılayanların müşayiəti ilə "Metropol" otelinə gəldik. Gözəl bir çay qonaqlığı verildi. Oteldə iynə atsaydın, yerə düşməzdi[95].

Türk Qafqaz İslam Ordusu Komandanlığına verilən raportlara görə, Bakının ələ keçirilməsində 17 erməni, 9 rus və 10 gürcü zabiti ilə 1.151 erməni, 383 rus, 4 ingilis və müxtəlif millətlərə mənsub 113 əsir alındı. Bakıda olan təxminən 5-6 min ingilis piyadası 100 pulemyot və 20 top ilə gəmilərə minib Ənzəliyə yollanmışdı. Rus və ermənilərin əsas qüvvələri isə gəmilərlə Dağıstana - Mahaçqalaya getmişdilər. Türk Qafqaz İslam Ordusunun ehtiyacını ödəmək üçün Kürdəmir sursat anbarında olan 500 qutu mauzer və 200 rus piyada tüfəngi Puta stansiyasına gətirildi. Şəhər iqtisadiyyatını nəzarətə götürmək üçün də bəzi komissiyalar yaradıldı[96].

Nuru paşa qəhrəmanlıqla döyüşərək Bakını azad edən Məhmətçiyin bu xidmətinin əvəzini ödəmək lazım olduğunu bilirdi. Türk Qafqaz İslam Ordusu Komandanı Nuru paşa Bakını zəbt etmələri münasibəti ilə bütün diviziyalara təbrik göndərdi. Təbrikdə deyilirdi:

"Bakının ələ keçirilməsi üçün edilən müharibələrdə xidməti olan bütün zabit və sıravilərin hər birinə, göstərdikləri şücaət və fədakarlığa görə təşəkkür edirəm. İlk piyada hücumunu uğurla yerinə yetirən 9 və 56-cı alaylara, düşmən qüvvələri üstün olduğu halda hücumla qısa zaman ərzində Biləcərinin yüksəkliklərini ələ keçirən 38-ci alaya, xüsusi təşəkkürümü bildirirəm. 56-cı alayın topçu atəşi müşayiəti olmadan düşmənin iki xəttini işğal etməsi təqdirəlayiq haldır. Buna görə alay komandiri minbaşı Fəhmi bəyin yarbay rütbəsi ilə təltif olunması barədə Hərbiyə Nazirliyinə təqdimat verdim. Bu döyüşlərdə fərqlənən zabit və sıravilərin təyin olunaraq, 17 sentyabr axşamına qədər Ordu Komandanlığına göndərilməsini xahiş edirəm"[97].

İkinci Bakı hücumunda 5-ci Qafqaz piyada diviziyası və 15-ci piyada diviziyasında şəhid və yaralıların sayı tam olaraq dəqiqləşdirilməyib. Bakını işğal edən Türk Qafqaz İslam Ordusunda şəhid və yaralıların sayı 800 ilə 1000 arasındadır. Avqust ayının ilk günlərindən etibarən Bakı yaxınlığına qədər gələn 5-ci Qafqaz piyada diviziyasının 16 sentyabra qədər verdiyi tələfat 30-u zabit olmaqla 1.330-a çatır. Bakının təmizlənməsi ilə başa çatan 14-15 sentyabr döyüşlərində 15-ci piyada diviziyasından 5 zabit şəhid olmuş və 11-i yaralanmış, 84 sıravi şəhid olmuş və 347-si yaralanmışdı. İtkin düşənlərin sayı isə 73 olmuşdu. Şəhid olanların çoxu 107 və 38-ci alaylara mənsub əsgərlərdi. Bu döyüşlərdə iştirak edən azərbaycanlılardan ibarət Maştağa dəstəsi 11 şəhid, 44 yaralı vermişdi. Türk Qafqaz İslam Ordusunun iyun 1918-ci il tarixində başlayan döyüşlərdən Bakının işğal olunmasına qədər keçən dövrdə, cəmi 1.142 şəhid verildiyi barədə də fikirlər mövcuddur. Lakin bu barədə dəqiq bir rəqəm deyilməyib[98]. Aparılan

araşdırmalara görə 14 sentyabr axşamından etibarən Bakıdan gəmilərlə qaçmağa başlayan düşmənin od vurduğu yanacaq çənləri və ərzaq anbarları nəzərə alınmazsa, şəhərdə elə də böyük bir dağıntı olmamışdı. Yandırılan, yaxud türklər tərəfindən dağıdılan binaların sayı isə, bir-iki hərbi kazarma müstəsna olmaqla, o qədər də çox olmamışdır. Azərbaycanlılar rus bolşeviklərinin və erməni daşnaklarının 31 mart 1918-ci ildə etdiyi qətliamın intiqamını almaq istəyirdilər. Çünki vəhşicəsinə qətl edilənlərin yaxınlarının, qohumlarının yarası dərin və hələ təzə idi. Buna rəğmən görülən tədbirlərlə azərbaycanlıların erməni və ruslarla münaqişəsinə yol verilmədi"[99].

Bakını qorumaq və türklərə təslim etməmək tapşırığı alan ingilislər, 14 sentyabr gecəsində gəmilərə minmişlər və saat 22.00-dan etibarən Cənubi Azərbaycandakı Ənzəliyə getmək üçün limandan ayrılmağa başlamışdılar. Verilən tapşırığı yerinə yetirməyən və böyük itkilər verərək, üzgün və əzilmiş bir şəkildə geri çəkilmək məcburiyyətində qalan ingilislərin 39-cu Briqada Komandanı general-leytenant Deustervil Ənzəliyə çatan kimi vəzifəsindən kənarlaşdırıldı. Yerinə isə general Tomson gətirildi.

Rus və ermənilərdən ibarət düşmən qüvvələri də 5-6 min piyada, 100 pulemyot və 20-yə qədər top ilə gəmilərə doluşaraq şimaldakı Dağıstanın Dərbənd və Mahaçqala şəhərlərinə getmişdilər. Dağıstana qaçan bu qüvvələr, Dərbənddə olan Kazak Biçeraxovun ordusunda xidmətə qəbul olundular. Bir qismi də fərarilik edərək evlərinə və kəndlərinə qayıtdı[100].

İkinci Bakı hücumunun başlandığı ilk günün axşamından 15 sentyabr günorta saatlarına qədər Xəzər dənizindəki gəmi, paraxod və kiçik dəniz vasitələrinə doluşan çox sayda əsgər və mülki əhali, şimala doğru hərəkət etmişdi. İngilislərin Bakıya girməsindən az əvvəl həbs olunan 26 Bakı Komissarları və onların lideri Qırmızı Şef Stepan Şaumyan ilə Vəzirov, Əzizbəyov[101], Caparidze, Korqanov, Fioletov kimi kommunist liderlər, Türk Qafqaz İslam Ordusu Bakıya girməmişdən qabaq həbsxanalardan çıxarılıb, Xəzər dənizinin şimalındakı Astraxana aparılacaqları söylənərək, "Türkmən" adlı gəmiyə mindirildilər. İngilislər, Şaumyan və silahdaşlarını Türkmənistanın Xəzər dənizi yaxınlığındakı Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinə gətirdilər. Türkmənistanda ingilislərin dəstəklədiyi Beloruslardan ibarət "Sosialist İnqilabçıları" deyilən bir qrupa təhvil verdilər. Onlar da bu kommunistləri Qaraqum çölünə gətirərək güllələdilər. Bu hadisədən yalnız bolşevik Bakı hökumətinin "Dövlət başçısı" elan etdiyi erməni əsilli Mikoyan sağ qalmışdı[102].

Türklərin Bakıya girməsi xəbəri, Hərbiyə Naziri və Baş Komandan vəkili Ənvər paşaya 16 sentyabr 1918-ci il tarixində bildirildi. Nuru paşanın bununla bağlı şifrə teleqramı belə idi:

"Surət:

Allahın yardımı ilə Bakı şəhəri otuz saat davam edən şiddətli müharibədən sonra 15.9.334-də saat 9 radələrində zəbt edilmişdi. Bütün ordunun, xüsusilə minbaşı Fəhmi bəyin komandası altındakı 56-cı alayın qəhrəmanlığı təqdirəlayiqdir. Təfsilat ərz olunacaqdır. - N 424-"[103].

Azərbaycanın və Bakının düşmən işğalından qurtuluşu münasibəti ilə Hərbiyə Naziri və Baş Komandan vəkili Ənvər paşa ilə bir çox dövlət nümayəndələri, 29 yaşlı gənc komandir Nuru paşanın şəxsində türk əsgərini bu uğur münasibəti ilə təbrik etmişdi. Ənvər paşa Şərq Orduları Qrupu Komandanı Xəlil paşa ilə yanaşı Nuru paşaya da məxsusi bir mesaj göndərmişdi. Mesajda belə deyilirdi:

"Böyük Turan İmperiyasının Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin zəbti xəbərini böyük şadlıqla qarşıladım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözlərindən öpürəm, şəhidlərimizin ruhuna fatihə ithaf edirəm."

Ənvər paşa Şərq Orduları Qrupu Komandanı Xəlil paşaya da şəxsi bir təbrik teleqramı göndərdi. Ənvər paşa, teleqramda bir tərəfdən Xəlil paşanın şəxsində qəhrəman türk əsgərini təbrik edir, digər tərəfdən də Türk Qafqaz İslam Ordusuna verəcəyi yeni tapşırıqlara işarə edirdi:

"Bakı uğuru münasibəti ilə gözlərindən öpərək təbrik edirəm. Bakını zəbt edən birliklər bir az dincəldikdən sonra, Azərbaycanda hələlik bir diviziya saxlanaraq, qalanını 9-cu Orduya geri almaq fikrindəyəm. Şimali Qafqazda sürətlə Dərbənd, Temirxan-Şura, Mahaçqala və sairəni işğal və oralara gedən kadrlara əsas olmaq şərti ilə dolğun heyətli yaxşı bir alay, qüvvətli topçu, hətta iki qaubitsa topu da verərək və çoxsaylı pulemyotlarla da təchiz edərək, mürəkkəb bir dəstə halında şimala sövq etməsini Nuru paşaya yazdım. Ayrıca Ənzəli və Rəştin də tezliklə işğalı üçün geriyə alınacaq qüvvənin münasib bir dəstəsinin Xəzər dənizi sahillərini təmizləyərək, cənuba göndərilməsini və bu surətlə Təbriz-Qəzvin istiqamətində irəliləyən dəstə ilə Kiçikxana yardım edilməsini və bu məqsədlə sizinlə görüşməsini də bildirdim. Sürətlə hərəkəti rica edirəm"[104].

Bu teleqramdan da başa düşüldüyü kimi, Türk Qafqaz İslam Ordusunun yeni tapşırıqlar üçün hazırlıqları qısa vaxtda bitirməsi tələb olunurdu. Ənvər paşa, ilk olaraq Bakı və Azərbaycanda istiqlalın təmin edilməsindən sonra, ordunun Dağıstan və Cənubi Azərbaycana girərək, buralardakı düşmən işğalına son qoymağını istəyirdi. Cənubi Azərbaycanda isə ingilis işğalı davam edirdi. Dağıstan və Şimali Qafqazda da bolşevik ruslar ilə Çar tərəfdarı rus kazakı Biçeraxovun tabeliyindəki hərbi qüvvələrin təzyiqi və zülmü hakim idi.

**6. Türk Qafqaz İslam Ordusu Komandanı Bakıda**

Şərq Orduları Qrupu Komandanı Xəlil paşa və ikinci Bakı hücumunu idarə edən Türk Qafqaz İslam Ordusu Komandanı Nuru paşa 16 sentyabrda Güzdəkdəki

müvəqqəti Ordu Qərargahından hərəkət edərək Bakıya daxil oldular. Komandirlər, əvvəlcə Qırmızı kazarmanın yaxınlığında saat 10.00-da təşkil olunmuş rəsmi keçid mərasimində iştirak etdilər[105]. Mərasimdə şəhərdəki asayişi təmin edən 56-cı alaydan başqa, cəbhədə döyüşən hərbi qüvvələrin hamısı iştirak etdi. Keçid mərasiminə podpolkovnik Süleyman İzzət bəy rəhbərlik edirdi. 5 və 15-ci piyada diviziyalarından 9, 10, 13, 38, 106 və 107-ci alaylar və süvarilər, eləcə də döyüşlərdə istifadə olunan 59 pulemyot və müxtəlif çaplı 50 ədəd top da iştirak edirdi. Qalib komandirlər at üstündə mərasim meydanına daxil oldular və Süleyman bəy tərəfindən təqdim edilən raportu qəbul etdilər. Mehmetçiyin kef-halını soruşduqdan sonra, alayları tək-tək müşahidə etdilər. Daha sonra manqa qolu ilə bir rəsmi keçid oldu[106]. İki saat davam edən mərasimdən sonra, qəhrəman türk hərbi birləşmələri xristian qəbiristanlığının altındakı yolla irəliləyərək, bugünkü Əzizbəyov[107] heykəlinin olduğu meydana, oradan da indiki Fəxri Xiyabanın önündən, Müdafiə Nazirliyi və Azərbaycan Milli Məclisinin önündəki küçələrdən keçərək, Çəmbərəkənd qəbiristanlığına, indiki Şəhidlər Xiyabanının olduğu yerə gəldilər. Qəbiristanlığın kənarındakı yolu tutaraq, Bakı Sovetinin yerləşdiyi İstiqlaliyyət küçəsinə çatdılar. Xəlil paşa, Nuru paşa və Fətəli Xan Xoyski ilə bəzi dövlət adamları, bugünkü Əlyazmaları İnstitutunun yerləşdiyi binanın eyvanında qəhrəman Məhmətçiyin keçidinə tamaşa etdilər[108]. Türk Qafqaz İslam Ordusunun keçdiyi yolun hər iki tərəfində yerli əhali dayanmışdı. Qadın-kişi, qoca-cavan və uşaqlar küçə və meydanlara axmışdı. Xalq sevinc göz yaşları tökür, Məhmətçiyi alqışlayır və bağrına basırdı[109].

Nuru paşa Bakının qurtuluşu münasibəti ilə xalqa müraciətlə bir nitq etdi. Bu nitqdə xalqın öz gündəlik işi ilə məşğul olmasını, Azərbaycan hökumətinin ən qısa zamanda vəziyyətə nəzarəti ələ alacağını və günahkarların cəzalandırılması üçün tədbirlər görəcəyini elan etdi. Nuru paşa dil, din və irq ayrılığına yol verilməyəcəyini, hər kəsin qanunlar qarşısında cavabdeh olacağını, insanların can və mal mühafizəsinin Azərbaycan hökumətinin təminatı altında olduğunu bildirdi.

Azərbaycan xalq yazıçısı Qılman İlkin Türk Ordusunun Bakıya girdiyi günün coşqu və həyəcanını yaşamışdı. O mübarək günü belə xatırlayır:

"Türklər gələndə şəhər çox qarmaqarışıq idi. Türklərin gəldiyi ikinci gündən etibarən şəhərdə, yaxşı yadımdadır, Bakıda türklər dar ağacı qurmuşdular. Burada ermənilər və hətta bəzi türk əsgərləri də edam edilmişdilər. O baxımdan türklərdə böyük nizam vardı. Onlar, türk əsgəri, günah işlədənin, öz adamları və ya başqası olmalarına baxmırdılar. Günahı olanlar cəzalandırılırdı. Azərbaycanda milli hökumətin qurulmasında bizim türk qardaşlarımızın böyük xidməti oldu. Mən deyə bilərəm ki, bu hökumətin əsasını quranlardan ən güclü ünsür, türklər olmuşdur" (Şəxsi arxiv).

İsmailiyyə binasının qarşısında yerləşən ikimərtəbəli otel, Nuru paşa üçün ayrıldı. Mürsəl paşa bir vaxtlar Müzəffərəddin şahın qaldığı oteldə yerləşdi. Xəlil Paşa isə tezliklə Təbrizə qayıtmalı olduğu üçün Zeynalabdin Tağızadənin evində qonaq edildi[110].

Nuru paşa Bakıda asayişi bərpa etmək məqsədi ilə bir əmr verdi. Bu əmrə görə əhali, ov tüfənglərindən başqa əllərində olan bütün silahları axşam saat 18.00-a qədər təhvil verməli idi. Silahını təhvil verməyənlərin güllələnəcəyi bildirilirdi. Bakının Quba, Qurubağ, Parapet, Vağzal, Bulvar meydanlarında və şəhər körpüsündə dar ağacları quruldu. Müharibə qaydalarına görə günahı olanlar buralarda edam edilirdi. Şəhərdə axşam saat 19.00-dan səhər saat 7.00-a qədər küçəyə çıxmaq qadağan edilmişdi. Beləliklə də, şəhərdə sabitlik qorunub saxlandı.[111]

Şərq Orduları Qrupu Komandanı Xəlil paşa da Bakının azad edilməsi gününü və şəhərə girişi bu cümlələrlə ifadə edir:

"Şəhərdə gecə-gündüz silah səsləri eşidilirdi. Şəhər ingilislərin nəzarəti altında olanda, bolşeviklər və ermənilər yerli camaata qarşı böyük bir qətliam hərəkatına başlamışdılar. Şəhərin hər məhəlləsində ermənilər yerli əhalidən "cəsəd qalaları" qurmuşdular... Və bütün vəhşiliklərini ortaya qoymuşdular... Kiçik uşaqlar qala bürcləri olmuş, qadınlar ayıb yerlərindən süngülənərək öldürülmüşdülər... İndi növbə yerli camaatın idi. Onları dayandırmaq çətin idi... Düşmən qalıqları və ermənilər küçələrdə yerə sərilirdilər... Güclü hərbi qüvvələrin köməyi ilə türkləri qətl etmə "şücaətini" göstərən ermənilər, indi onlarla eyni səviyyədə olan yerli türk əhali qarşısında bir sürü kimi ovlanırdılar.

Ordu yorğun idi. Orduya bir günlük istirahət verildikdən sonra hərbi hissələr şəhəri işğal etdi. Şəhərdə törədilən yanğınları söndürməklə yanaşı, asayişi təmin etmək vəzifəsi də öhdəmizə düşürdü. Nuru paşa, məndən əvvəl Bakıya girərək böyük bir oteli özünə qərargah seçmişdi. Mən şəhərə ondan sonra girdim. Bu, bəlkə də, cəngavər ruhlu və böyük vətənpərvər Nuru paşanın həyatının ən gözəl günüydü...

Mən şəhərə girərkən yanımda qərargah zabiti polkovnik Parakuin də vardı. Şəhərin girişində vurulmuş, lakin cəsədləri yığışdırılmamış bir neçə ölü gördük... Parakuin birdən-birə əsəbiləşdi və var gücü ilə qışqırmağa başladı:

- Burada əliyalın insanlar öldürülmüşdür...

- Əsəbiləşməyin, dostum. Bu, müharibədir. Silahlı da, silahsız da həlak ola bilər. Sakit olun. - deyə onu susdurmaq məcburiyyətində qaldım.

Nuru paşanın qərargahı olan otelə yaxınlaşdığımız vaxt Parakuin yenə də dəli kimi qışqıra-qışqıra danışmağa başladı. Bu dəfə sərt halda dedim:

- Artıq susun. Biz müharibədəyik və siz hər an təlaş keçirirsiniz. Susmanızı tələb edirəm. Parakuin susmaq məcburiyyətində qaldı.

Otelə çox az qalmışdı ki, meydan kimi bir yerdə 43 adamın Nuru paşanın əmri ilə asdırılmış olduğunu gördük. Bunlar ingilis qüvvələri şəhərdə olarkən yerli xalqa zülm edən və qarətçiliklə məşğul olan bəzi ermənilər idi. Nuru paşa müharibə qanunlarına əməl etmiş, onları divani-hərb qərarı ilə asdırmışdı. Parakuin bu dəfə yekəxanalıqla danışmağa başladı:

- Bu, doğru deyil, bu, bir qətliamdır.

Artıq səbrim tükənmişdi. Onu da belə bir dar ağacı gözləyə bilərdi. Çünki hərəkəti, müharibə qanunlarına uyğun deyildi. Biz bir dövlət üçün döyüşürdük. Onun-bunun nə düşündüyü bizi maraqlandırmırdı. Görəsən, Parakuin bu şəkildə asılmış türkləri görsəydi, eynən bu hərəkəti elərdimi? Bunları sərt bir şəkildə ona söylədim:

- Parakuin, qərargah zabitimsən, yoxsa hər cür bəhanələrlə siyasi və ya dini nəticələr çıxaran bir diplomat və ya bir keşişsən? Ya sus, ya da sənin aqibətin hərb divanında həll olunacaq...

Susdu. Sonradan oteldə yanıma gələrək:

- Mən artıq sizin yanınızda xidmət etməyəcəyəm. - deyə bildirdi.

- Sizin xidmətinizə ehtiyacım yoxdur, azadsınız. - dedim.

Parakuindən sonra qərargahımın ikinci şöbə müdiri olan minbaşı Qrassman da istefa vermək məcburiyyətində qaldığını bildirdi. Bu minbaşını çox sevirdim. Parakuinin təzyiqi altında istefa verdiyini anladım. Və sonra bu təbliğatı yaydım:

- Qərargahımda olan bütün alman zabitləri istefa verərək, Tiflisdə oturan Von Kressin sərəncamına keçəcəklər.

Bu aralarda isə ermənilər tərəfindən qətlə yetirilmiş yerli əhalinin - yüzlərlə uşaq, qoca-cavan, qadın-kişi cəsədləri küçələrdən yığılaraq, əbədi yuxuya getmək üçün qazılan məzarlarda basdırılırdı. İnsanlığın gördüyü vəhşiliklərdən biri də ingilis işğalı altında olan Bakıda ermənilərin yerli əhaliyə qarşı etdikləri vəhşilikdir.

Alman zabitlərini məyus edən əsl səbəb, Von Kressin Bakının zəbtində iştirak etmək üçün göndərdiyi qüvvələrin qarşısının alınması idi"[112]. Komandirlər Bakıya girərkən xalqın duyğuları ilə ermənilərin təlaşlarını yüzbaşı Səlahəddin bəy belə ifadə edir:

"Bakıdakı erməni və ruslar əmniyyət altında olmaq istəyirdilər. Onlardan bir qrupu Xəlil paşanın yanına gəldi. Aralarında alman, erməni, rus və digər millətdən olan insanlar vardı. Halları pərişan idi. Kimi yaralanmış, kimi qorxmuşdu. Geyim və hərəkətlərindən savadlı, varlı adam təsiri bağışlayırdılar. Evlərinin qarət edildiyini, ailələrinin zorakılığa məruz qaldığını söyləyirdilər. Şəhərdə aramsız güllə səsləri eşidilirdi. Küçə döyüşlərinin davam etdiyi hiss olunurdu.

Alman Qərargah rəisi Xəlil paşanın yanına gəlib vəziyyəti anlatdı. Xəlil paşa:

- Mən bu işlərə qarışmıram və qarışa da bilmərəm. Burada Azərbaycan hökuməti və Azərbaycan Ordusu Komandanı Nuru paşa var. Bu işlərə o baxır. - dedi.

Bundan sonra Parakuin:

- O, uşaqdır. - deyə etiraz etdi. - Ordu komandanı deyil. Ənvər paşanın qardaşı olduğu üçün buraya göndərilmişdir. Bu məmləkətin idarəsi belə adamlara tapşırıla bilməz. - dedi.

Bu, Nuru paşanı təhqir etmək idi. Xəlil paşa:

- Bir türk komandanına hörmətsizlik etdiyiniz üçün sizi xidmətdən kənarlaşdırıram. İndi ölkənizə dönərək, türk hüdudlarını tərk edəcəksiniz. Sizə daha ağır cəza vermirəmsə, bu, türk millətinin xarici qonaqlara göstərdiyi hörmətlə əlaqəlidir.

Çox şey edəcəyini zənn edən Qərargah rəisi bir anın içində bir heç oldu, çaşdı, donub qaldı. Otağına qayıtdı. Xəlil paşa qərargahdakı bütün alman zabitlərinin Parakuinlə birgə geriyə dönmələrini əmr etdi. Eyni zamanda mənə, Nuru paşanın köməkçisi Asəfə (Qılınc Əli) və Milli Xalq Komitəsi rəisi Aşurbəyova, birlikdə şəhəri gəzərək sabitliyi yoxlamağı, xalqı sakitləşdirməyi və nəticəsini ona məruzə etməyi əmr etdi.

Biz üç saat şəhəri gəzdik. Gördüyümüz mənzərə faciə idi. Bunlara mane olmağa çalışdıq.

Üç günə qədər Bakıda qaldıqdan sonra, bir qüvvə ilə Xəzər dənizini keçərək Türküstana çıxmaq üçün Nuru paşaya, Şimali Qafqaz istiqamətində hərəkətə keçməsi üçün General-leytenant Yusif İzzət paşaya əmr verdikdən sonra Gümrüyə hərəkət etdik.

Şərq Orduları Qrupu Komandanlığı, Qərargah rəisi alman Parakuin və başqa zabitlərdən də yaxa qurtarmışdıq. Bizimlə vidalaşaraq Batuma getdilər"[113].

Nuru paşanın nitq söylədiyi yerdə bu gün bir park vardır. Adı da 26-lar bağıdır[114]. Bakıda Türkiyə Səfirliyinin qarşısında yerləşir. 26-lar bağı - Azərbaycanın və Bakının bolşevik və daşnaklar tərəfindən işğal edilməsi, Bakıda və ölkənin müxtəlif bölgələrində minlərlə türkün, yalnız türk olduqları üçün amansızlıqla öldürülməsi, qətlə yetirilməsi və etnik təmizləmə aparılması üçün əmr verən Qızıl Şef Stepan Şaumyan və silahdaşlarının qurduğu Bakı Soveti Hökuməti şərəfinə - Sovet vaxtında salınmışdır. Azərbaycan hökuməti Sovet hökuməti dağıldıqdan sonra müstəqillik dövründə də 26-lar bağının adını dəyişməmiş və heykəli oradan götürməmişdir.

Bakını azad edənə qədər Gəncədə yerləşən Türk Qafqaz İslam Ordusunun Qərargahı ilə Azərbaycan Cümhuriyyətinin idarə mərkəzi və hökuməti Bakıya

köçdü. Bakıda olan hərbi bazalar və ərzaq anbarlarını nəzarətə götürdülər. Bəzi fabriklərin fəaliyyəti dəyişdirilərək hərb yönümlü fəaliyyətə keçirildi.

Bakının düşmən əlindən qurtarılması üçün 36 saat davam edən qanlı müharibələrdən sonra, Türk Qafqaz İslam Ordusu Komandanlığı, yenidən qurulma və vəzifələri haqqında bir ordu əmri yaydı. Bu əmrə görə yeni təşkilatlanma və xidmət yerləri bu şəkildəydi:

Biləcəri, Binəqədi, Masazır, Xırdalan, Hökməli və Hacıhəsən bölgəsində toplanacaq 5-ci Qafqaz piyada diviziyası, Puta körfəzindən Abşeron yarımadasının şərqinə qədər olan sahil zolağını mühafizə edəcəkdi. Diviziyanın quruluşu bu tərkibdən idi:

- 9-cu Qafqaz alayı,
- 10-cu Qafqaz alayı,
- 13-cü Qafqaz alayı,
- İkinci nizami süvari alayı,
- 5-ci Topçu Alayı (birinci şnayder, ikinci qüdrətli batalyonlar, rus səhra və qaubitsa batareyaları)[115].

Bakının işğaldan qurtarıldığı gün Qurban bayramına təsadüf etmişdi. Xalq iki bayramı bir yerdə keçirirdi. O gün günortadan sonra 19 ilə 36 yaş arasında olan azərbaycanlı milislərdən təşkil olunmuş qazi milislər, Qurban bayramı şərəfinə, 4 günlük məzuniyyətə buraxıldılar[116].

Azərbaycan və Bakı düşməndən təmizlənərək əsl sahiblərinə qaytarılmışdı. Lakin Şimali Qafqazdakı Dağıstan işğal altında idi. Azərbaycanlıların yaşadığı Dərbənd, Mahaçqala və Temirxan-Şura kimi yerlərin azad edilməsi vacib idi. Qarabağ bölgəsi də ermənilərin işğalı altındaydı. Şimali Qafqaza 15-ci piyada diviziyası, Qarabağ bölgəsinə isə 1-ci Azərbaycan diviziyası hərbi hərəkət edəcəkdi[117].

Bakıda xidmət edən 56-cı alay tabe olduğu 15-ci piyada diviziyasına qatılaraq öz yerini 13-cü Qafqaz alayına verdi. 15-ci piyada diviziyası, Şimali Qafqaza hərəkət etmək üçün Biləcəri və Xırdalan məntəqələrində toplaşmağa başladı. 9-cu və 106-cı alaylar da 5-ci Qafqaz piyada diviziyasından ayrılaraq, 1-ci Azərbaycan diviziyasının əsasını təşkil etməklə bu diviziyanın tabeliyinə verildi. Qarabağ hərbi hərəkətinin bitməsindən sonra 9-cu alayın bu diviziyanın özəyini təşkil edəcəyi qərara alındı[118].

Bakı sahillərində təslim olmayan beş düşmən gəmisi qalırdı. Mövcud topların atəş mənzilindən uzaqda dayanıb gözləyirdilər. Bu səbəbdən Türk Qafqaz İslam Ordusu bu gəmilərə qarşı istifadə etmək üçün Qarsdan dörd ədəd uzun mənzilli 10,5-lik qaubitsa topu istədi. Toplar Qarsdan Biləcəri stansiyasına 30 sentyabrda gəldi[119].

Almaniya Bakıda bir hərbi hissə yerləşdirmək istəyirdi, ancaq əvvəllər onların bu istəklərinin qarşısı alınmışdı. Bakı ələ keçdikdən sonra şəhərə girə bilmək üçün yollar axtarmağa başladılar. Gürcüstanda olan alman hərbi qüvvələri komandanı, Qərargah rəisi, podpolkovnik Qoltz, Bakının heç olmasa açıq şəhər olması üçün təbliğat aparırdı. Alman zabitləri, Bakıya hücum zamanı şəhərdə yaşayan yerli əhalinin xristianlara basqın edərək onları tamamilə məhv etmələrinin şahidi olduqları haqda, Avropa və İstanbulda əsası olmayan şayiələr yaymaqda davam edirdilər. Podpolkovnik Qoltz, Bakıda yaşayan almanların mühafizəsi üçün bir batalyon əsgər göndərəcəyini bildirdi. Bütün israrlara rəğmən, Xəlil və Nuru paşalar və Azərbaycan hökuməti bu istəyi qəbul etmədilər. Bu istəkləri də baş tutmayan almanlar, bu dəfə də Bakıya, podpolkovnik Qoltzun başçılığı altında bir əsgəri heyət göndərmək istədiklərini bildirdilər. Bu istək "az sayda personal" gəlməsi şərti ilə qəbul edildi. Böyük bir heyətlə yola çıxan Qoltzun qatarı relslər xarab olduğu üçün Gəncə yaxınlığında dayanmalı oldu. Alman zabiti yanında bir neçə zabit və sıravi ilə Bakıya çata bildi. Eyni günlərdə, Bakıda olan Avstriya hərbi heyəti isə bundan əvvəl ruslar tərəfindən Şərqi Avropada əsir alınan və Nargin adasında saxlanılan əsgərlərini götürərək, Bakıdan Tiflisə getdi[120].

Birinci Dünya müharibəsində öz torpaqlarına düşmən təcavüzü olduğu halda, bir millətin Qafqazdakı qardaşlarının köməyinə gəlməsi, Avropa xalqlarının qavraya biləcəyi bir davranış və anlayış forması deyildir. Bunu ancaq Türk milləti edə bilər. Azərbaycanın və işğal altında olan paytaxtının Türk ordusu tərəfindən ələ keçirilərək əsl sahibinə qaytarılması, Qafqazda yaşayan başqa türkdilli xalqlar arasında böyük bir sevinc və həyəcanla qarşılandı. Xəlil və Nuru paşalar, şəhərə girərkən, Bakı əhalisi tərəfindən, "xilaskar komandirlər" kimi qarşılandılar. Qəhrəman Türk ordusu da eyni şəkildə "qəhrəman qazilər" kimi xalqın coşqun sevgisiylə salamlandı. Bakının qurtuluş günü Qurban bayramına təsadüf etmişdi. Buna görə də əhali ikiqat bayram sevinci içində idi. İnsanların gözləri gülür, bu sevinci hərə bir cür ifadə edirdi. Türkiyədən gələn xilaskar qardaşlarıyla qovuşan, qucaqlaşan və bütünləşən Bakılı türklər, bəlkə də tarixin ən həyəcanlı günlərindən birini yaşayırdı. Rusların 1804-cü ildə Gəncəyə girməsi ilə başlayan bu qara gün 15 sentyabr 1918-ci il tarixində sona yetmişdi. Bu mübarək gün əsarət, istismar, zorakılıq, terrorun aradan qalxdığı, hürriyyət günəşi və azadlıq işığının Qaf dağlarını işıqlandırdığı tarix olmuşdu. Bakı əhalisinin gözlərində və ürəklərindəki bu sevginin bir nümunəsi də çevik qanadlı "Türk Yıldızları"nın 2001-ci ilin yay aylarında Bakı səmalarında uçuş nümayiş etdirdiyi gün yaşanmışdı.[121]

Azərbaycanda erməni daşnaklarının və rus bolşeviklərinin törətdikləri qətliamının sona yetməsini və Bakının düşmən zülmündən qurtulmasını Qafqaz Türkləri çox gözləmişdi. Türk Qafqaz İslam Ordusunun Bakını düşmən işğalından qurtarması münasibəti ilə "Açıq söz" qəzetində Abdulla Talıbzadənin - Abdulla

Şaiqin bir şeiri dərc olunmuşdu. Abdulla Şaiq 20 sentyabr 1918-ci il tarixində dərc olunan şeirdə azərbaycanlı və Bakılı türklərin ürəklərindəki sevgi və coşqun duyğuları tərənnüm etmişdi[122].

**İNTİZAR QARŞISINDA**

*Neyçün belə gecikdin?*
*Sənsiz qəlbim qırıq, sönük, çeynənmiş, paralanmış.*
*Ömür şüşəm daşa dəymiş, həyatım parçalanmış,*
*Qırıq bir saz kimi sızlar qanlı, yorğun telləri,*
*Yıxılar da, yaxar bütün qayğı vurmuş illəri,*
*Şu vətənin öksüzləri, gəlinləri, dulları,*
*Göz yaşıyla sulamışdır keçdiyiniz yolları,*
*Yolunuzu gözləməkdən bənizləri saralmış,*
*Həç gəlmədin. O şən, gülər ürəkləri qəm almış*
*Sən gəlməsən, doluxsunmuş ürəklər heç şad olmaz,*
*Sən gəlməsən, xarabaya dönən qəlb abad olmaz.*
*Sən gəlməsən, günəş doğmaz, ümid gülüm açılmaz*
*Dodaqlarım gülməz, bəxtimə nur saçılmaz.*
*Başqasını istəmirəm, ey Türk, tez ol sən gəl, sən,*
*Gözləməkdən yoruldum. Nə üçün gecikdin, nədən?*
*Yollarına daş döşənib? Yoxsa azğın quldurlar*
*Buraxmır? Daş, dəmir, polad, nə olsa da onlar,*
*Ürəyində şöləl追ənən mətin, qızğın atəşlə*
*Yax onları, ərit, söndür, çeynə, boğ, əz, xırpala.*
*Xain alçaq düşmənlərə qol gücünü sən göstər,*
*Aç yolları, tez ol gəl ki, qəlbim hey səni istər."*

Azərbaycan Cümhuriyyəti 28 may 1918-ci ildə qurulmuşdu. Ancaq həqiqi mənada müstəqilliyinə 15 sentyabrda qovuşdu. Anadoludan qopub gələn məhmətçik ilə Qafqazda, Azərbaycanda yaşayan məhmətçik çiyin-çiyinə verdi və bu hürriyyətə qovuşdu. Bakıya girən Türk ordusu xalqın qarşılaşdığı əzab və zorakılığı, qətliamı araşdırdı. Şərq Ordusu Qrupu Komandanı Xəlil paşa Bakıda yaşayan əhalinin qarşılaşdığı erməni və rus vəhşiliyini bu cümlələrlə bildirmişdi:

"Bakı ingilislərin nəzarəti altında olarkən ermənilər və bolşeviklər yerli xalqa qarşı geniş bir qətliam hərəkatına başlamışdılar. Ermənilər şəhərin hər məhəlləsində türklərin cəsədlərindən bir qala qurmuş və bütün vəhşiliklərini ortaya qoymuşdular. Kiçik uşaqlar qala bürcləri olmuş, qadınlar ayıb yerlərindən süngülənmiş və bıçaqlanmışdılar"[123].

Türk Qafqaz İslam Ordusu Komandanı Nuru paşa isə Hərbi Nazir və Baş Komandan Ənvər paşaya 16 sentyabrda göndərdiyi raportda belə deyilirdi:

"Bakının qurtarılması əsnasında, şəhərdə asayiş təmin edilincəyə qədər, ermənilərlə yerli türklər arasında silahlı münaqişələr meydana gəlmişdi. Türk əsgərləri sabitliyi bərpa edənə qədər keçən müddətdə, bəzi qarət hadisələri də baş vermiş, ancaq bu qarət və talanı bakılı türklərin deyil, iranlı fəhlələrin törətdikləri məlum olmuşdur. Bu vəziyyət qarşısında ordunun dərhal müdaxiləsi sayəsində, qarətçilərdən 100-dən çoxu tutulub edam edilmişdir. Bu tədbirlər nəticəsində şəhərdə asayiş təmin olunmuşdur. Bundan razı qalan hər millətdən olan əhali və ziyalılar Türk Ordusuna təşəkkür etmişlər. Ancaq Bakıdakı bu qarşılıqlı münaqişə zəminində ölənlərin vəziyyətini, İran, Danimarka və İsveç Konsulluqlarının, Almaniya və Avstriya nəzdində protest edəcəkləri xəbərini aldım. Bu protestin səbəbi, bizim, şəhərdə asayişi vaxtında təmin edə bilməməyimiz fikrini ortaya atmaqla, buradakı əcnəbiləri və xristianları himayə etmək üçün Alman və Avstriya əsgərinin Bakıya gəlməsini təmin etməkdir. Bu hərəkətin Almaniyanın tərtib etdiyi bir plan olduğunu hiss edirəm. Parakuinin teleqrafla ərz edəcəyim bugünkü halı bunu sübut etdi"[124]. Nuru paşa Baş Komandan Vəkili Ənvər paşaya 22 sentyabr 1918-ci il tarixində göndərdiyi bir raportda isə bunları qeyd edir:

"Bakının zəbti günü bir qisim İslamlar, bir qisim ermənilər ilə bir neçə rusu öldürmüş və qarət etmişsə də, bu hal ermənilərin keçən 18 martda (31 mart) müsəlmanlara qarşı törətdikləri qətliamın yüzdə birini təşkil etməz. Bu dəfəki qarətləri törədənlərin əksəriyyəti iranlı fəhlələr olmuşdur. Ordu tərəfindən verilən əmrə görə, qarətçilərdən 100-dən çoxunun tutulub edam edilməsi qarətin qarşısını dərhal almışdır. Bu gün Bakıda asayiş tam nəzarət altındadır".

Bəzi tarix araşdırmaçıları, azərbaycanlılardan təşkil olunmuş hərbi birləşmələrin 15 sentyabrda şəhərə girdiklərini, 31 mart qırğınının heyfini ala bilmələri üçün Türk Qafqaz İslam Ordusunun üç gün ərzində şəhər kənarında gözlədiyini yazırlar. Erməni mənbələrinin, bunun nəticəsində Bakıda 8.988 adamın öldüyü fikrini irəli sürdüklərini deyirlər. Bu tarix araşdırmaçıları, ermənilərin verdiyi bu rəqəmin həqiqətə uyğun olmadığını və buna şübhə ilə yanaşdıqlarını bildirərək belə demişlər:

"Burası qeyd edilməlidir ki, bu saylar obyektiv olması şübhə doğuran Erməni Milli Şurası tərəfindən elan edilmişdir. Bununla bərabər hadisələrin inkişafına nəzər saldıqda, bu rəqəmin olduqca çox göstərildiyi və şişirdildiyi ortaya çıxır".

Necə ki, daha sonrakı illərdə erməni mənbələrində Bakıda ölənlərə dair 20.000, hətta 30.000 rəqəmlərinin də ortaya çıxması görülmüşdür[125].

Rus bolşevikləri və erməni daşnakları Türk Qafqaz İslam Ordusunun Gəncəyə gəlməsindən qabaq, 31 mart 1918-ci il tarixində, yalnız Bakıda 12 mindən çox azərbaycanlını qətlə yetirmişdilər. Azərbaycanın başqa bölgələrində də bu qətliam və etnik təmizləmə hərəkətini davam etdirmişdilər. Türk əsgərinin,

avqust ayının ilk həftəsində, Bakı astanasında dayandığı günlərdə də şəhərdəki yerli əhalini vəhşicəsinə qətl etmişdilər. Ermənilər, ikinci Bakı hücumunun başladığı 14-15 sentyabr günlərində belə, küçə aralarında azərbaycanlıları qətlə yetirirdilər. Düçar olduqları bu zorakılıq və təcavüzün intiqamını almaq istəyən azərbaycanlılarla ermənilər arasında küçə və məhəllə münaqişələri olmuşdu. Türk əsgəri Bakıya girənə qədər bu münaqişələr davam etmiş və hər iki tərəfdən də ölənlər olmuşdu. Türk Qafqaz İslam Ordusu, Azərbaycanın dörd bir tərəfinə çata bilməmişdi. Əli qanlı qatil Andranik və dəstəsi Qarabağ bölgəsində azərbaycanlıları qətl etməkdə davam edirdi[126].

**7.Azərbaycan Cümhuriyyəti və hökumətinin paytaxta köçməsi**

Azərbaycan hökuməti, paytaxt Bakı işğal altında olduğu üçün, fəaliyyətini müvəqqəti paytaxt olan Gəncədə davam etdirirdi. Bakı işğaldan qurtardıqdan sonra isə əsl paytaxta köçdü. Azərbaycan Baş Naziri Fətəli Xan Xoyski və hökumət, hərbi işlərin xaricindəki bütün vəzifələri öz üzərinə aldı. Gənc Azərbaycan Cümhuriyyətinin ilk Nazirlər Kabineti yeni bir həvəslə işləməyə başladı. Dövlətin ehtiyac duyduğu milli müəssisələri yenidən bərpa edirdi.

Türk Qafqaz İslam Ordusu Komutanı Nuru paşa və 5-ci Qafqaz piyada diviziyası Komandanı Mürsəl paşa, Azərbaycan Milli Məclisi Rəyasət Heyəti və hökumət üzvləri ilə yüksək rütbəli türk zabitlərinə 27 sentyabr 1918-ci il tarixində bir yemək verdi. Yeməkdə, 15-ci piyada diviziya komandiri yarbay Süleyman İzzət bəy və qərargahı ilə digər diviziya və alayların komandirləri də iştirak edirdilər. Azərbaycan dövlət və hökumət üzvləri ilə Türkiyədən gələn komandirlər tanış edildi. O tarixdə Azərbaycan hökumətinin üzvləri bunlar idi: Baş Nazir Fətəli Xan Xoyski, Xarici İşlər naziri Məmmədhəsən Hacinski, Daxili İşlər naziri Cavanşir bəy, Maliyyə naziri Əbdüləli bəy, İaşə naziri Aşurov, Kənd Təsərrüfatı naziri Xosrov Sultanov, Qazı Mustafa əfəndi. Heyət üzvləri yeməkdən sonra Təzəpir məscidinə gedərək cümə namazı qıldılar. Məscidin bir tərəfi rus topu və pulemyot mərmiləri ilə dağıdılmışdı. Xalqın da axın-axın qoşulduğu namazda, günün mənasına uyğun xütbə oxundu. Cümə namazından sonra Bakı döyüşlərində şəhid olan məhmətçiyin ruhu üçün mövlud oxundu[127]. Hökumətin Bakıya köçməsi ilə bərabər, Baş Nazir Fətəli Xan Xoyski, 20 sentyabr 1918-ci il tarixində bir bildiriş yaydı:

"Artıq Bakıda yerləşən Azərbaycan hökuməti, bununla, şəhər və ətrafında yaşayan bütün əhaliyə, din və milliyət fərqi qoymadan əmr edir: Azərbaycan hökumətinin tabeliyi altında yaşayan heç bir millətə fərq qoyulmadan caniləri, qarətçiləri, qatilləri və asayişi pozanları, edam cəzası da daxil olmaqla, böyük cəzalar gözləyir. Bütün xalq bunu bilməlidir ki, Türk millətinin qəhrəman və fateh əsgərlərinə əmr verilmişdir ki, cinayətlə, qarət və soyğunçuluqla məşğul olanları harada görsələr, güllələsinlər. Türk Azərbaycan hökumətinin paytaxtında, günahsız

insanların haqq və hüquqlarına təcavüz edilməsi, onun şan və şərəfinə yaraşmaz"[128].

Azərbaycan hökumətinin, ölkədə hakimiyyəti qoruyub saxlamaq üçün, əlbəttə, ən böyük yardımçısı türk əsgəri idi. Türk Qafqaz İslam Ordusunun zabitləri bilik, bacarıq və təcrübələrini Azərbaycan hökumətindən əsirgəmirdilər. Bundan başqa Türkiyədən müəllim və digər müxtəlif peşələrdən olan adamlar dəvət olunurdu. Türk əsgərinin gördüyü tədbirlər nəticəsində, qısa müddətdə vəziyyət normallaşmağa başladı. Azərbaycan dövlətinin güclənməsi üçün ələ tarixi bir fürsət düşmüş, məhmətçik də azərbaycanlılara, qardaşlarına qarşı bu tarixi xidmətini ifa edirdi. Qəhrəman Türk Ordusu elə bunun üçün Bakıya gəlmişdi[129].

Qəhrəman Türk Silahlı Qüvvələri, tarix boyu, getdiyi ölkəyə, yerə, hər şeydən əvvəl hürriyyət və istiqlal gətirmişdir. Sülh, sabitlik və istiqlalın təminatçısı olmuşdur. 15 sentyabr 1918-ci ildə də Bakını zəbt edən türk əsgəri, ilk növbədə, şəhərdə asayişi təmin etmişdir. Bu sabitlik şəraiti şəhərdə yaşayan rus və ermənilər tərəfindən də razılıqla qarşılanmışdı. Sosial və iqtisadi həyat sürətlə yaxşılaşmış bir neçə günün içində normallaşmışdır. Dükanlar açılmış, başda çörək olmaqla, digər gündəlik tələbat malları ilə meyvə və tərəvəzin topdan satışı bərpa edilmişdi. Bolşevik hökumətinin dövründə isə gündəlik tələbat mallarının qıtlığı yaranmışdı. Tapılan malların da qiyməti əhalinin alıcılıq qabiliyyəti səviyyəsindən çox yüksək idi. Hətta, son aylarda Bakı aclıq təhlükəsi ilə də qarşılaşmışdı[130].

Fətəli Xan Xoyskinin yaydığı bildirişdə də göstərildiyi kimi, hökumət insanlar arasında dil, din, irq, peşə və başqa fərqliliyə görə heç bir ayrı-seçkilik olmayacağını bildirmiş və Azərbaycanda yaşayan insanların hamısının eyni hüquqlu vətəndaş olduğu xüsusilə vurğulanmışdır. 15 sentyabr səhərində belə, türkləri qətl edən erməni və ruslar əfv edilmiş, insanlar arasında fərq qoymadan, hər kəsin canı, malı və yaşama haqqı dövlətin təminatı altına alınmış, bu humanist dəyərlərə məhəl qoymayanlara isə ən ağır cəzanın veriləcəyi qeyd edilmişdir.

Azərbaycan şairi Salman Mümtaz, "Öyün, millət!" adlı şeirində sevincini ifadə etməklə bərabər, azərbaycanlıların uzun illərdən bəri yadellilərdən çəkdiyi əzablara diqqəti cəlb edərək, bunları tərənnüm edirdi:

**ÖYÜN, MİLLƏT!**

Təfaxür eylə, ey millət, muradın hasil oldu,
Daha əflakə yüksəlməz əninü-ahu-əfqanının,
Ziyasız rus zülmündən o yüksək ruhun ölmüşdü,
Tuturdu şüşəyə hər dəm şərabi-nab tək qanın.
Qızılgültək açıl, gül, gör ki, Türkün şanlı ordusu
Rəvaqı-ərşə nəsb etmiş böyük Osmanlı ünvanın,
.. Bütün mümtaz ellərdən olar türk milləti mümtaz,
Sürər bundan sonra türklük şərəfli şanlı dövranın.

## 8. İkinci Bakı hücumuna qiymət verilməsi

Bakının düşmən işğalından qurtarılmasının bəzi nəticələri oldu. İlk növbədə 26 Bakı Komissarı hökuməti - Bakı Soveti və Sentrokaspi (Mərkəzi Xəzər) hökumətinin fəaliyyətinə son qoyuldu. Bakıda olan işğalçı qüvvələr şəhərdən qaçdılar. Azərbaycan dövləti öz paytaxtına qovuşdu. Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Hökumətin Bakıya gəlməsilə dövlət və hökumət idarələri normal iş fəaliyyətinə başladı. Türk Ordusu Komandanlığı Bakıda qərargah qurdu. Miralay Cəmil Cahid bəyin əmrilə Fövqəladə Hallar İdarəsi yarandı. Şəhərdə yaşayan əhali arasında dil, din, irq və cins fərqi qoymamaq elan edildi. Bakının qurtuluşu ilə şəhərdə həyat canlandı. Dükan, bazar və digər alış-veriş yerləri açıldı. İnsanların üzü gülməyə başladı. Şəhər öz sahibinə və hökumətinə qovuşmuşdu.

Azərbaycan xalqı xilaskar Türk ordusunu duz-çörəklə qarşıladı. Başqa cür ola da bilməzdi. Azərbaycanda yaşayan ziyalılar və tarixçilərin ortaq qənaətinə görə, əgər Türk ordusu Bakını ələ keçirməsəydi, Azərbaycanın tarixi çox acı yazıla bilərdi.

Türk ordusunun Bakını işğal etməsi nəticəsində, itirilmiş Azərbaycan torpaqlarının şərqdəki hissəsi özünə qayıtdı. Bu nəticə əlbəttə, Türk ordusunun böyük tarixi missiyasını icra etməsilə əldə edilmişdi. Əgər Bakı itirilsəydi, Azərbaycan hər tərəfdən təcavüzə məruz qalacaqdı. Sovet hökuməti dövründə ölkənin hər tərəfində böyük təhlükələr meydana çıxmışdı. Azərbaycan bunların qarşısını ala bilməmişdi. Ölkənin qərb tərəfində bir Ermənistan dövləti quruldu. Bundan sonra da Bakıya müxtəlif təzyiqlər oldu. Bakı nefti dünyanın bir çox siyasi qüvvələrini özünə cəlb edirdi. Bu həqiqəti açıq ürəklə dilə gətirmək lazımdır ki, Türk Ordusunun Azərbaycanı qurtarmasından sonra Bakı daima Azərbaycanın oldu. Başqa dövlətlərin, başqa millətlərin iştahası get-gedə azaldı.

Bakı şəhərinin azad edilməsinin böyük hərbi və siyasi əhəmiyyəti vardır. İlk olaraq Qafqaz İslam Ordusunun Bakını azad etməsilə, Azərbaycan hökuməti və Osmanlı Dövləti Xəzər dənizinə nəzarət etməyə başladı. Bunun nəticəsində Orta Asiyaya gedən yol açılmış oldu. Azərbaycanın təbii sərvətləri və nefti, o günə qədər Osmanlı dövlətinə qarşı müharibə edən düşmənlərə xidmət edirdi. Beləliklə, bunun qarşısı alındı. Türkiyənin vacib strateji müttəfiqi olan Azərbaycan Dövləti quruldu və gələcəkdə də geniş əməkdaşlıq etmə imkanı yaranmış oldu. Hökumət Bakıya köçdükdən sonra, Osmanlı Dövləti ilə Azərbaycan arasında əhəmiyyətli müqavilələr imzalandı.

Azərbaycan xalq yazıçısı və o günlərin canlı şahidi Qılman İlkin belə deyir:

"Ermənilər, 31 martda, azərbaycanlıları Bazar küçəsindən İçərişəhər qala divarlarına qədər sıxışdırmışdılar. Bunların liderləri Şaumyan və Mikoyan, bu qırğını bütün dünyaya bir vətəndaş müharibəsi, daxili münaqişə kimi göstərməyə çalışırdılar. Əslində isə belə deyildi. Məqsəd Azərbaycandakı yerli müsəlman

əhalini yox etmək idi. Türklərin Bakıya girməsi bizim üçün böyük bir bayram oldu. Azərbaycan xalqını xilas etdilər. Əgər Türklər geciksəydi, Bakı əhalisinin yarısı məhv olacaqdı. Bakı və ətrafındakı qəbiristanlıqlarda ölü basdırmaq üçün yer qalmamışdı. Türklər burada milli dövlətin və milli hökumətin qurulmasını təmin etdilər. Biz canı bir, qanı bir olan türk xalqına ömrümüz boyunca minnətdar olmalıyıq. Çünki onlar olmasaydı, azad Azərbaycan yaranmayacaqdı. Bu ancaq türk süngüsü sayəsində mümkün olmuşdur." (Şəxsi arxiv).

Heç şübhəsiz, Bakının Türk Qafqaz İslam Ordusu tərəfindən azad edilməsinin böyük bir tarixi əhəmiyyəti vardır. Bu əhəmiyyət ilk növbədə paytaxtı İstanbul olan Osmanlı Dövləti ilə bərabər, ikinci bir Türk dövlətinin müstəqilliyinə və paytaxtına qovuşmasıdır. Osmanlı dövləti ilə bərabər, daha bir müstəqil Türk dövləti qurulmuşdu. Azərbaycanın müstəqilliyi və Bakının qurtuluşu, Birinci Dünya müharibəsi illərində Türk diplomatiyası və hərb sənətinin ən böyük uğurlarından birini təşkil edir. Bunun nəticəsində Azərbaycan, sonrakı illərdə bir çox sıxıntılardan qurtulmuşdır. Azərbaycan dövlət adamları Osmanlı Dövlətinə müraciət edərək, "Bakı Türk Ordusu tərəfindən azad edildi" demişdilər. Osmanlı Dövlətinin Tiflisdəki təmsilçisi Əbdülkərim paşa da "Mən də sizləri təbrik edirəm. Bakı Azərbaycan ordusu tərəfindən qurtarılmışdır" deyə cavab yazmışdı. Yəni Bakının azad olunması hərbi, siyasi və diplomatik cəhətdən çox ustalıqla işlənib hazırlanmışdı. Bu, Azərbaycan və Türkiyə üçün heç bir problem meydana gətirməmişdir. Beləliklə, Bakı böyük bir paytaxt şəhərinə çevrilmişdir.

Bakının qurtuluşunun mənəvi tərəfi də vardı. Azərbaycan xalqı İstanbula tarix boyu türklüyün və islamçılığın mərkəzi kimi baxmışdı. Azərbaycan xalqı soyqırıma məruz qaldığında belə, ümidini İstanbula bağlamışdı. Bakının qurtuluşu ilə Azərbaycan xalqının üstündən ağır bir yük qaldırılmış oldu. Bunu da qeyd etmək lazımdır ki, Bakıda bir çox hərbi birliklər, xüsusilə də rus, erməni və ingilis hərbi birləşmələri var idi. Bunlar yerli müsəlman əhalini öldürdükləri üçün şəhərdən çıxarılmışdılar. Ancaq türk komandanlığı şəhərdə ciddi rejim elan edib, qayda-qanun qoyduqdan sonra bu qətliamlar sona yetmiş, anarxiya və özbaşınalıq ortadan qalxmışdır.

Bakının qurtuluşundan əvvəl və sonra bəzi dövlətlər, türk əsgərinin Bakıya girməsinin əleyhinə çıxmışdılar. Rusiya, Osmanlı Dövlətini "Bolşevik Rusiyasının bir şəhərini işğal etməkdə" günahlandırdı və bu işğala dərhal son qoyulmasını tələb etdi. Tələt paşa ilə Rusiya təmsilçisinin Berlində keçirdikləri görüşdə ruslar nə qədər iddialar ortaya atdılarsa, Tələt paşa bunları rədd etdi. Tələt paşa Bakının Qafqazda yaşayan yerli xalqın qurduğu milli ordu tərəfindən azad edildiyini, Azərbaycan xalqı və hökumətinin öz paytaxtına qovuşduğunu və Osmanlı Dövləti tərəfindən işğal edilməsinin danışıqlar mövzusu olmadığını qeyd etdi.

Bakının ələ keçirilməsinə Osmanlı Dövlətinin müttəfiqi olan almanlar da etiraz etmişdi. Alman hərbi birliklərinin Gürcüstandan keçərək Azərbaycana girmək cəhdinin qarşısı, şimal bölgələrdə yaşayan əhalinin də köməkliyi ilə alındı. Dəmir yolu bağlandı. Bu hadisə almanları məyus etdi. Azərbaycan hökuməti də almanların Bakıya gəlməsini pislədi. Avstriya-Macarıstan hökuməti isə Osmanlıları təbrik etdi. İngilislər də hadisələrin gedişindən çox narahat idilər. "Manchester Guardion" qəzeti belə yazmışdı: "Bakının Türklər tərəfindən ələ keçirilməsi, bizə bir dərs olmalıdır. İngilis ləyaqətini alçaldan, ayaqlar altına atan belə bir hərəkətə girişmək, gücünün çatmayacağı işə girmək lazım deyildi" deyərək öz hökumətlərini günahlandırmışdılar.

15-ci piyada diviziyası Rumıniyadan Batuma və oradan da Ermənistan sərhəddinə sövq edilmişdi. Diviziyaya tabe 30-cu alay, Gəncəyə 18 iyulda gəlmiş və 5-ci Qafqaz piyada diviziyasının tabeliyinə keçmişdi. Rus bolşevik və erməni daşnak birliklərinə qarşı Göyçay, Qaraməryəm, Kürdəmir, Şamaxı, Mərəzə kimi yaşayış sahələrində əhəmiyyətli döyüşlər oldu. Bakı istiqamətində pərakəndə halda qaçan düşmənin bir cinahı Bakıya, digəri isə Sumqayıta getmişdi. Bu arada, Kürdəmirdən etibarən döyüşlərə qatılan Rus kazakı Biçeraxov da qüvvələrinin bir bölüyü ilə şimala hərəkət edərək, əvvəlcə Xaçmaza gəlmiş, sonra isə Dərbəndə çəkilmişdi. Biçeraxov qüvvələrinə bu bölgədə bir çox rus və erməni də qoşulmuşdu. Biçeraxov, daha sonra görüləcəyi kimi, Dağıstan hərəkatında Türk ordusunu ciddi surətdə ləngitmiş və boş yerə itkilər verilməsinə səbəb olmuşdu.

Bakıda isə çox az sayda nizami və böyük qisminin döyüş qabiliyyəti aşağı olan hərbi qüvvə qalmışdı. Göyçay yaxınlıqlarından etibarən uğurlu bir hücum planı həyata keçirən 5-ci Qafqaz piyada diviziyası, Bakı qapılarına çatmışdı. Düşməni Xəzər dənizinə doğru qovan Türk Qafqaz İslam Ordusu, bu yüksək döyüş ruhu ilə hücumu durmadan davam etdirə bilsəydi, dalbadal məğlub olan və nizamsız halda qaçan düşmənə özünə gəlməyə fürsət vermədən, 1 avqust 1918-ci ildə Bakını ələ keçirə bilərdi. Lakin, bu güclü hücumu Bakı yaxınlarında davam etdirə bilməyərək, düşmənin kənardan hərbi qüvvə cəlb etməsinə və müdafiəni möhkəmlətməsinə imkan verdi.

Görünür, birləşmiş düşmən qüvvələri, Bakı yaxınlığında olduqca tədbirli hərəkət etmişdi. Türk ordusunu Bakı yaxınlığında uzun müddət ləngitdi və vaxt qazanaraq kənardan hərbi yardım aldı. İçəridə də, müsəlman olmayan əhalini hərbi xidmətə cəlb edərək şəhərin müdafiəsini gücləndirdi. Dəniz yolu ilə Cənubi Azərbaycandakı Ənzəlidən ingilis qüvvələri ilə Xəzər dənizi sahillərində yaşayan rus və ermənilər də köməyə getdi.

Türk Qafqaz İslam Ordusu, 5 avqustda Bakıya hücum etdi. İkinci hücumda olduğu kimi, bunda da ordunun sol cinahını, yəni Bakının qərbindəki bölgəni əsl qüvvə mərkəzi hesab edirdi. Ordunun sağ cinahı, yəni Bakının şimal və şərqindəki

cəbhə isə nisbətən zəif idi. Birinci Bakı hücumundakı uğursuzluğun ən başlıca səbəblərindən biri, heç şübhəsiz, sursat çatışmazlığı, xüsusilə də top mərmisinin az olmasıdır. Məsələn, 4 avqustdakı hücumda 38-ci alayın tabeliyində olan dağ topçu batareyasında yalnız 4 ədəd top mərmisi qalmışdı. Bu dörd mərmi ilə 5 avqustda ediləcək hücumun uğurla nəticələnəcəyini fikirləşmək düzgün olmazdı. Lakin, Məhmətçik, top atəşi əskikliyinin yerini pulemyot atəşi ilə doldurmağa çalışırdı. Ancaq bu cəhdlər də nəticəni dəyişdirmədi.

Birinci Bakı hücumuna qiymət verdiyimiz zaman bu uğursuzluğun, Şimali və Cənubi Qafqaz ilə Güney Azərbaycana ediləcək hərbi hərəkat və siyasi cəhətdən əhəmiyyətli sayılması lazım olan digər nəticələrinin ortaya çıxdığını söyləməliyik. Düşmənin qazandığı bu uğur, Qafqazdakı hadisələrin nəticəsini sakitcə gözləyən qeyri-müsəlman ünsürlərə ümid vermişdir.

Nuru paşa Qafqaza girdiyi zaman Azərbaycan türklərindən hərbi baxımdan kifayət qədər fayda əldə edilə bilməyəcəyini başa düşmüş və bu fikrini də Osmanlı Hərbi Nazirliyi ilə bölüşmüşdü. Bu səbəbdən, əlavə hərbi qüvvələr göndərilməsi yoluna əl atılmışdı. Ancaq bu yardımlar kifayət etmir, sursat, ərzaq, xüsusilə də su çatışmazlığı Məhmətçiyin döyüş qabiliyyətini zəiflədirdi. Buna baxmayaraq birinci Bakı hücumundan sonra da əsgəri yardımlar davam etdirildi. 15-ci piyada diviziyasına tabe 56 və 106-cı alaylar ilə topçu və yardımçı hissələrdən ibarət hərbi birləşmələr, Qarakilsədən cəbhəyə sövq edildi.

Nuru paşa 15-ci piyada diviziyasını Rumıniyadan Batuma və oradan da Ermənistan sərhəddinə gəlməsindən çox qabaq, əsgəri yardım alınmasının vacibliyini nəzərə çatdırmışdı. Gümrü, Qarakilsə və o bölgədə əsgərlik baxımından uzun müddət döyüşməyən, kifayət qədər dincəlmiş və sursat təchizatı tamamlanmış olan hərbi qüvvələr var idi. Bu zaman, Türk Qafqaz İslam Ordusunun tabeliyinə vaxt itirmədən kömək göndərilə bilər və kifayət qədər mühümmat da sövq edilə bilərdi. Çünki Osmanlı dövləti və döyüşü idarə edən Nazirlər Kabineti ilə Hərbi Nazir və Baş Komandan Vəkili Ənvər paşanın hədəfi böyük idi. Türkiyənin, İran və Qafqaz üzərindən Orta Asiyaya yol açması və bu geniş coğrafiyada rus və ingilislərin müstəmləkəçilik siyasətinə son qoymaq iddiası var idi.

Rumıniyadan Batum və Gümrüyə yeni gələn 15-ci piyada diviziyasının hissələri parçalanmışdı. Əvvəlcə 39-cu alay Gümrüyə çatan kimi, ardından da 106-cı alay buna əlavə edilərək cəbhəyə göndərildi. Yuxarıda bildirilən böyük hədəflərin gerçəkləşdirilməsi üçün, Avropa cəbhələrində üstün uğurlar əldə etmiş, son dərəcə nizamlı və döyüş qabiliyyəti ilə fərqlənən 15-ci piyada diviziyasının Batuma çatan kimi Gəncəyə, oradan da Bakı istiqamətinə sövq edilməsi düzgün olardı. Çünki dövlətin hədəfi böyük idi. Üstəlik Baş Komandanlıq Vəkaləti ilə digər Ordu Komandanlıqları, 15-ci piyada diviziyasının şöhrətindən xəbərdar idilər və komandir, zabit və sıravi heyətinə sonsuz güvənirdilər.

İstanbuldakı bu tərəddüdə rəğmən, 15-ci piyada diviziyası, hər şeyi geridə buraxaraq, yalnız döyüş personalı ilə Bakı cəbhəsinə gəldi. Beləliklə, Türk Qafqaz İslam Ordusu olduqca güclənmişdi. İlk verilən əmrdə 5-ci Qafqaz piyada diviziyası ilə 56-cı alayın qərb istiqamətindən, 15-ci piyada diviziyasının isə şimal və şərq istiqamətlərindən eyni vaxtda hücuma keçməsi tələb olunurdu. Bu plan Süleyman İzzət bəyin fikrincə, ən yaxşı hücum şəkli idi. Əlavə olaraq, 107-ci alayın da 15-ci piyada diviziyasının tabeliyinə verilməsinə ehtiyac yox idi. 5-ci Qafqaz piyada diviziyasının əlində on beş batalyon olacaqdı. Bunlar, 9, 10, 13, 56 və 106-cı alaylar və bunların pulemyot dəstələri və 32 topdan ibarət idi. Bu hərbi qüvvələr Bakıya qərb istiqamətindən nəzərdə tutulan hücum üçün də kifayət edirdi. Üstəlik 1.500 metr ərazidən hücum edəcəkdi. 15-ci piyada diviziyası komandanlığının sərəncamına isə 38 və 107-ci alaylardan ibarət 6 batalyon və müxtəlif çaplı 12 top verilmişdi. Müharibə baxımından ikinci dərəcədə qəbul edilməsi lazım bilinən 3 milis batalyonu ilə milis süvariləri bu diviziyanın sol cinahındakı boşluğu dolduracaqdı. 15-ci piyada diviziyasına hücum üçün təqribən 30 kilometrlik bir cəbhə həvalə edilmişdi. Süleyman İzzət bəy 5-ci Qafqaz piyada diviziyasının qərbdən, 15-ci piyada diviziyasının isə bir piyada alayı ilə Biləcəri-Bakı və Binəqədi-Bakı yolları arasından, digər piyada alayı ilə Binəqədi-Bakı və Digah-Bakı yolları arasından, milis piyada batalyonunun Zabrat-Sabunçu-Keşlə və süvarilərin isə Hövsan-Zığ-Qaraşəhər istiqamətindən Bakıya hücuma keçilməsi fikrindəydi. Diviziya tabeliyindəki 12 topun müşayiəti ilə hücum daha tez bir zamanda başa çatar, itkilər də son dərəcə az olardı. Bu surətlə 14 sentyabrda, yəni hücumun birinci günündə Bakı ələ keçirilər və düşmənin çox hissəsi ya məhv, ya da əsir edilə bilərdi. Beləliklə, ilk günün axşamı gəmilərə minərək Bakıdan Ənzəli və Mahaçqala istiqamətində qaçmalarının qarşısı alınar, silah, hərbi ləvazimat və sursata da yiyələnmək mümkün olardı.

Müharibənin gedişinə nəzər saldıqda, Komandanlıq Bakıya əsl hücumun şimal istiqamətindən ediləcəyi zənnini yaratmağa çalışmış və hərbi qüvvələrin yerini son gecə dəyişdirmişdir. 5-ci Qafqaz piyada diviziyası nəzərdə tutulan güclü hücumla həm özünün, həm də 15-ci piyada diviziyasının qarşısında olan düşmən qüvvələrini arxadan mühasirəyə alaraq onların şəhər ilə əlaqəsini kəsəcəkdi. Düşmənin Xəzər dənizindəki hərbi gəmilərindən atılan top atəşinin çox ziyan vurmaması üçün qərb istiqamətindən hücuma keçmək əmri verilmişdi. Lakin, Heybət-Biləcəri dəmir yolunun şərqindəki dik təpələri aşdıqdan sonra Qurd qapısı təpələri ilə Salyan və Qırmızı kazarmaların ətrafı gəmilərin hədəfində idi. Şimal cəbhəsində 38-ci alay, qarşısındakı düşmən qüvvələrinə qarşı güclü bir həmlə etdi, hətta ilk gün və gecə, düşməni dayandığı yerdən tərpənməyə qoymadı. Ancaq 5-ci Qafqaz piyada diviziyası irəliləyərək Biləcəri yüksəkliklərindəki düşmən qüvvələrini arxadan mühasirəyə ala bilmədi. Nəhayət, 38-ci alay hücumunu uğurla

başa vuraraq, Biləcəri yüksəkliklərini də işğal etdi. Hücumun ikinci günündə də 5-ci Qafqaz piyada diviziyası düşmənin, Bakının şimalında yerləşən əsas qüvvələrini mühasirəyə alıb əsir edə bilmədi.

İkinci Bakı hücumunda iştirak edən qüvvələr arasında da böyük bir fərq hiss olunurdu. Qərb cəbhəsində 1.500 metrlik bir sahədə 5-ci Qafqaz piyada diviziyası sanki sıxışdırılaraq hücuma keçməyə sövq edilmişdi. Gecə basqını şəklində hücum edilməsinə baxmayaraq, Bakının şimalında Biləcəri cəbhəsində dayanan düşmən geriyə oturdulmayınca, bu birliklərin yan tərəfdən atəş altında qalma ehtimalı vardı və beləliklə də, irəliləməsi çox gec olacaqdı. Biləcəri təpələrini tək başına işğal edən 38-ci alayın yalnız 4 ədəd Krup topu (alman topu) var idi. 5-ci Qafqaz piyada diviziyası qərb cəbhəsində uğur qazansa belə, şimal cəbhəsindəki zəif qüvvələrin geri çəkilməyə məcbur edilməsi halında, birləşmiş düşmən qüvvələrinin şimala çəkilərək döyüş gəmiləri ilə birlikdə yeni bir cəbhə təşkil etməsi və Bakını təhlükə altında qoyması ehtimalı var idi. Çünki şimal cəbhəsindəki düşmən qüvvələrinin, 1.600-2.000 piyada, 16 pulemyot və ikisi uzun mənzilli olmaqla 12 səhra topundan ibarət olduğu təxmin edilirdi. Üstəlik 8 ədəd də anfilada atəşi (düşmən cəbhəsi boyunca atəş) üçün topu vardı. Bakı hücumunun ilk günü olan 14 sentyabrda tutulan əsirlər və ələ keçirilən top və pulemyotların sayı da bu təxminin doğruluğunu təsdiq etmişdi.

Bakının şərqindəki milis piyadaları ilə süvari qüvvələrinin qarşısında dayanan düşmən gücləri bu hesabların xaricindədir.

Şimalda Quba və Xaçmaz ilə Dərbənd bölgəsində olan Biçeraxova tabe qüvvələr, 800 piyada, bir qədər süvari, 20 pulemyot və 14 top ilə zirehli maşınlar və zirehli qatardan ibarət idi. Bu qüvvələrin də Dərbənd-Xırdalan-Biləcəri dəmir yolu vasitəsilə Bakıya getməsi də ehtimal edilirdi.

Bakının qərbində toplaşmış 5-ci Qafqaz piyada diviziyasının tabeliyindəki 56-cı alay, gecə həmlə edərək düşməni geri oturdu və səngərlərini də ələ keçirdi. Lakin digər alaylar istənilən şəkildə irəliləyə bilmədilər. Çünki, Biləcəri-Heybət dəmir yolunun hər iki tərəfi bataqlıq və piyadanın irəliləməsinə əngəl törədən yarğan, çala-çuxur idi. Əlbəttə, bəzi yerlərdə bu maneələri qismən aradan qaldırmaq üçün taxta körpüyə bənzər qurğular qoyulması mümkün olmuşdu. Səhər açıldıqdan sonra düşməni olduğu yerdə saxlamaq və qərb cəbhəsinə köməyə getməsinin qarşısını almaq tapşırığı alan 15-ci piyada diviziyası adı altında yalnız 38-ci alaydan ibarət əsl qüvvə, səhərdən axşama qədər davam edən bir səbir və inadla düşməni olduğu yerdə saxlamış və həddindən artıq itki bahasına olsa da, Biləcərinin cənub yüksəkliklərini ələ keçirmişdi. Əgər bu uğur əldə edilməsəydi, 5-ci Qafqaz piyada diviziyasının irəliləməsi çox çətin olacaqdı. Yuxarıda da izah edilməyə çalışıldığı kimi, ilk hücum əmrinə görə, hərəkətə hər iki cəbhədən eyni anda və bir-birinə yaxın qüvvələrlə başlaya bilmək mümkün olsaydı, düşmən hərbi

birləşmələri tamamilə geriyə oturdularaq məhv edilə və ya əsir alına bilərdi. Bütün bu çətinliklərə baxmayaraq, 38-ci alayın qəhrəmanları böyük bir səylə irəli hərəkətə başlamış və həddindən çox itki verərək, hücumu uğurla başa çatdırmışdı.

İkinci Bakı hücumunun birinci günündə diviziyaların arasında boşluq yaranmışdı. Bu boşluğu doldurmaq üçün ordu ehtiyatı olaraq ayrılmış 107-ci alay Hacıhəsən kəndindən 15-ci piyada diviziyasının sərəncamına göndərilmişdi. Lakin, 107-ci alayın yürüşü çox gec olmuşdu. Süleyman İzzət bəy, telefon və əmr zabiti vasitəsilə bu alaya əmrlər göndərərək, 38-ci alayın sağ cinahındakı boşluğu təcili olaraq doldurmasını bir neçə dəfə tələb etmişdi. Ancaq bütün bunlar nəticəsiz qalmışdı. Çünki hərbi hissələr arasındakı xəbərləşmədə böyük sıxıntılar yaşanırdı. 107-ci alay ilk başdan 15-ci piyada diviziyasının tabeliyinə verilmiş olsaydı, bu sıxıntılar yaşanmaz və 38-ci alay da düşmənin yan atəşinə məruz qalmazdı. Çünki Biləcərinin şərqində olan gizli mövqelərdə böyük ustalıqla yerləşdirilmiş düşmən pulemyotları 38-ci alayın irəliləməyə çalışan zabit və əsgər heyətinə göz açmağa imkan vermirdi. Bu səbəbdən də 5-ci Qafqaz piyada diviziyası da nəzərdə tutulmuş irəliləməni gerçəkləşdirə bilməmişdi.

15-ci piyada diviziyası Komandanı podpolkovnik (yarbay) Süleyman İzzət bəy, Bakının zəbti üçün verilən ilk əmrin yerinə yetirilməsi və 56-cı alayın da tabe olduğu diviziya ilə şimal cəbhəsindən hücuma başlaması, piyada və süvari milislərin isə şərqdən hərəkətə başlayacaqları halda, şəhərin axşama doğru tamamilə ələ keçiriləcəyini düşünürdü. Çünki 14 sentyabr saat 15.00 radələrində işğal edilən Biləcəri yüksəkliklərinin, günəş bir az qalxdıqdan sonra ələ keçirilə biləcəyini güman edirdi. Şimal qrupunun ləğv edilməsi ilə boşda qalan Qərargah zabiti Osman bəyin şərq cəbhəsindəki piyada və süvari milis diviziyaları üzərində rəhbərliyinin də faydalı nəticə verə biləcəyini qeyd etmək lazımdır.

5-ci Qafqaz piyada diviziyası tabeliyindəki 56 və 9-cu alaylar, top atəşi olmadan gecə basqınını etmişdilər. Ordunun hücumu ilə bağlı raportlardan da anlaşıldığı kimi, 10 və 13-cü alaylar ilə ehtiyat qüvvə kimi nəzərdə tutulan 106 və 107-ci alaylar, yəni dörd piyada alayı ilə bir çox topçu batareyası, döyüşlərə qoşula bilmədilər. Hava işıqlandıqdan sonra isə 5-ci Qafqaz piyada diviziyasının öz topçusu hücum üçün kifayət edərdi. Bunun qarşısında 4 ədəd kiçik topla irəliləməyə çalışan 38-ci alay hərdən çıxılmaz vəziyyətə düşməsinə baxmayaraq, qərb cəbhəsindəki topçu birlikləri, şimaldakı düşmən birliklərinə də atəş aça bilməmişdi.

Əsirlərdən alınan və müharibədən sonra əldə edilən məlumatlara görə, Bakını qorumaq üçün Ənzəlidən gələn ingilis generalı Deustervilin sərəncamında 2.500 nəfərlik ingilis hərbi birləşməsi, bir xeyli rus əsgəri və rus ordusunda təlim görmüş erməni birləşmələri var idi. Deustervil Bakıda səfərbərlik elan edərək, qeyri-müsəlman millətlərə mənsub olan və əli silah tutan hər kəsi cəbhəyə sövq

etmişdi. İki təyyarə ilə top və pulemyotların hamısını ingilislər idarə edirdilər. Xəzər dənizində isə rus flotu ilə ingilislərin top çəkənləri və nəqliyyat gəmiləri vardı.

Sonradan əldə edilən məlumatlara görə, ermənilər Türk ordusuna təslim olmaq istəyiblərmiş. Ancaq ingilislər və ruslar buna mane olublar. Türk ordusu haqqında kifayət qədər məlumat toplaya bilməmiş, əllərindəki qüvvələri də idarə edə bilməmişdilər. Biləcərinin şimal yüksəkliklərindəki mövqelərini itirdikdən sonra, şəhərdəki ingilis komanda heyəti və zabitləri, qərargah gəmisi ilə şəhərdən qaçmağın təlaşına düşmüş, şəhəri müdafiə edən əsgərlər isə başsız qalmışdılar. Çünki, Biləcəri bölgəsində düşmənin telefon danışıqlarından da başa düşüldüyü kimi, aşağı rütbəli rus və erməni zabitləri komanda heyəti ilə əlaqə saxlamağa çalışmış, lakin buna müvəffəq ola bilməmişdilər. Bundan sonra düşmən qüvvələrində geriləmə müşahidə olunmağa başlamışdı. Erməni daşnaklardan bir bölüyü 31 mart 1918-ci il tarixində etdikləri qətliamı birdən xatırlayaraq şəhəri müdafiə etməyə qərar vermiş və bunun üçün də Stanislavskaya məhəlləsini seçərək, binalarda və münasib yerlərdə pulemyot və top yerləşdirmişdilər. Pulemyot atəşi ilə bu bölgədə daha çox şəhid verilmişdi. Türk əsgəri də cavabsız qalmırdı. Ermənilərin çox hörmət etdikləri Tailyatosov adlı birisinin vasitəsilə silahı yerə qoymağa razı olmuşdular.

Süleyman İzzət bəy Bakı Mövqe Komandanlığına podpolkovnik Cəmil Cahid bəyin təyin olunduğu barədə xəbəri 15 sentyabr axşam saatlarında aldığını bildirir. Bu təyinatın əvvəlcədən edilməsi, bunun da bütün diviziya və alay komandirlərinə vaxtında xəbər verilməsi lazım gəlirdi. Beləliklə şəhərdəki qarışıqlığın qarşısı alınar və limanda böyüklü-kiçikli gəmi, yelkənli qayıq və sandallara minməyə çalışan düşmən zabit və əsgərləri əsir alına bilərdi.

Bakının və eləcə də Qafqazın zəngin neft və mis mədənləri Birinci Dünya müharibəsi boyunca imperialist dövlətlərin hədəfində olmuşdur. Osmanlı dövlətini idarə edən kadrlar Qafqaz və Türküstanı, Turan Dövləti adı altında birləşdirmək, ingilislərin işğalı altında olan Hindistanı Orta Asiya bölgəsindən mühasirəyə almaq və yenə Bəsrə körfəzinə İrandan keçərək ingilislərin Ərəb yarımadasından çıxarılmalarını təmin etmək istəyirdilər. Bunun üçün də Qafqaz, xüsusilə də Bakı, çox əlverişli mövqedə yerləşirdi. Bu ərazinin insanlarının əksəriyyəti türk əsilli idi.

Bu hədəflərə irəliləyə bilmək üçün döyüş gücü ən yaxşı səviyyədə olan qitələrin seçilməsi lazım gəlirdi. Bu hədəflər üçün 5-ci Qafqaz piyada diviziyasına hissə-hissə əlavə kömək göndərməkdənsə, Rumıniyadan Qafqaza gedən 15-ci piyada diviziyasının Qarakilsə və Gümrü yerinə, Tiflisdən keçərək Gəncəyə istiqamətləndirilməsi doğru bir seçim olacaqdı. O tarixlərdə Osmanlı Dövləti ilə Gürcüstan və Ermənistan sülh müqaviləsi imzalamışdılar, artıq dost ölkələr olmuşdular.

Süleyman İzzət bəyə istinadən alınan məlumatlara görə, 15-ci piyada diviziyasının Rumıniya cəbhəsində ikən 23.07.1917 tarixindəki heyəti bu şəkildəydi: 6.333 döyüşən və 1,771 qeyri-döyüşkən - cəmi 8.104 piyada, 212 süvari, 285 istehkam, külli miqdarda silah-sursat, 1.800 əl qumbarası, 62 ədəd pulemyot, 10 ədəd bomba topu, 74 ədəd bomba qurğusu, 28 səhra və 12 ədəd 12,5 və 15 santimetrlik qaubitsa, 4 ədəd mortira (qısalüləli top), bir ədəd 15 santimetrlik uzun olmaqla cəmi 45 top, 2 ədəd Belçika topu və iki tank batareyasından ibarət idi.

15-ci piyada diviziyasının qüvvəsi parçalanmadan birbaşa Gəncəyə sövq edilmiş olsaydı, Bakı 15 sentyabr əvəzinə bəlkə də 1 avqustda və ya daha əvvəl ələ keçirilə bilərdi. Bu da Türk Ordusuna bir aydan da çox vaxt qazandırmış olardı. Dağıstan və Qarabağda da vaxt itirmədən hakimiyyət qorunub saxlanardı. Azərbaycan və Dağıstan türklərindən qurulacaq milli ordular da qısa zamanda təşkil edilər və ciddi hərbi təlim keçərdi. Türk Ordusu da əlindəki mövcud qüvvə ilə Şimali Qafqazdan rus və bolşevikləri tamamilə çıxarar, İranda da Cənubi Azərbaycan və Tehranı azad edər, bölgədə yeni təşkilatlanma aparar, ingilisləri İraq və Ərəbistandan çəkilməyə məcbur edər və Orta Asiya türklərinə də planlaşdırıldığı kimi yardım edə bilərdi.

**9. Bakının qurtuluşu və bolşevik Rusiya**

Bolşevik Rusiya Bakının əldən çıxmasına görə bərk narahat idi. Daxili İşlər Komissarı Çiçerin Moskvadakı Alman Baş Konsulu Hauşildə 19 avqust 1918-ci il tarixində verdiyi notada Qafqazda cərəyan edən hadisələr barədə məlumat verdikdən sonra alman və türk hökumətlərinin verdikləri sözə əməl etmədiklərini bildirmiş və Bakının Türk ordusu tərəfindən ələ keçirilməsinin tam mənasıyla bir fəlakət olduğunu qeyd etmişdi. Çiçerin Bakı neftinin Rusiya və onunla iqtisadi əməkdaşlıq edən ölkələr üçün əhəmiyyətli olduğunu qeyd etmişdi. Sovet Rusiyasında Bakı neftindən almanlara pay veriləcəyi təqdirdə Berlin hökumətinin türklərə mane olacağı ideyası hakim idi.

Sovetlərin Berlin təmsilçisi Joffe 14 sentyabr 1918-ci il tarixində Moskvaya göndərdiyi raportda, türklərin Bakıya hücumunun almanlar tərəfindən mütləq dayandırılacağını bildirmişdi. Bakının Türk Qafqaz İslam Ordusu tərəfindən ələ keçirildiyini öyrənən Çiçerin 19 sentyabrda Joffeyə göndərdiyi teleqrafda Türklərin Bakıda "misli görünməmiş bir vəhşilik" törətdiyini iddia edərək, alman hökumətinin diqqətini bu məsələyə yönəlmək istəmişdi. Çiçerin, Osmanlı Dövlətinin Brest-Litovsk Müqaviləsini də pozduğunu və dolayısıyla Sovet hökumətinin bundan sonra Türkiyə ilə sülh və əməkdaşlıq münasibətində olmadığını bildirdi. Bakının Türk Ordusu tərəfindən ələ keçirilməsinin Almaniyada nəşr olunan bəzi qəzetlərdə müsbət bir hal kimi dəyərləndirilməsi, Moskva ilə

Berlin arasında qarşılıqlı notaların verilməsi və münasibətlərin gərginləşməsi ilə nəticələndi.

Bakının Türk Ordusu tərəfindən ələ keçirilməsindən sonra, Sovet Rusiyası Osmanlı Dövləti ilə əlaqələri kəsmək qərarına gəldi və bunu Almaniyaya da bildirdi. Rus Bolşevik hökuməti Daxili İşlər Komissarı Çiçerin, Osmanlı Dövləti Xarici İşlər Naziri Əhməd Nəsimi bəyə də 20 sentyabr 1918-ci ildə bir nota göndərdi. Bu nota, bolşeviklərin və Çiçerinin imperialist əməllərini, erməni tərəfkeşliyini və Qafqazda yaşayan türklərin yaşamaq hüquqlarını tanımaq istəmədiklərini açıqca ortaya qoyurdu. Notanın xülasəsi belə idi:

"Rusiya və Türkiyə arasında 3 mart 1918-ci ildə imzalanan Brest-Litovsk müqaviləsi ilə yeni ərazi və siyasi münasibətlər təsdiq edilmişdi. Buna rəğmən, Osmanlı Dövləti üç sancaqda (Qars, Ərdahan və Batum) keçirilən xalq səsverməsində bir çox qanunsuzluğa yol vermişdir. Buralarda yaşayan xristianlara (ermənilər nəzərdə tutulur) zorakılıq edilmiş, irəli gələnləri öldürülmüş, qarətlər olmuşdur. Yəni səsvermə arzuolunan şəkildə keçməmiş və deməli məsələ öz həllini tapmamışdır. Müqaviləyə əsasən əldə olunan atəşkəsə görə hərbi hərəkətin də dayandırılması lazım idi. Bu həyata keçmədiyi kimi, Türk ordusu yerli partizanlarla (azərbaycanlı türklər nəzərdə tutulur) əməkdaşlığa girmiş, rus hökumətinin torpaqlarını ələ keçirmiş, qəsəbə və kəndləri talamış, xristianları (ermənilər nəzərdə tutulur) öldürmüşdür. Sovet hökuməti bunlara qarşı çox etiraz notası göndərmişdisə də, bir nəticə alınmamışdır.

Ən son olaraq Türk Ordusu, Rusiya hökumətinin ən əhəmiyyətli şəhərlərindən biri olan Bakıya həmlə etmiş və onu ələ keçirmişdir. Bakıda çox sayda mülki əhali öldürülmüş və qarət edilmişdir. Osmanlı Dövləti, Rusiyanın etiraz notalarına həqiqətə uyğun olmayan cavablar vermişdir.

Son altı ayda Osmanlı hökuməti Rusiyanın protestlərinə əhəmiyyət vermədən, Brest-Litovsk müqaviləsini dalbadal pozmuşdur. İndi də Rusiyanın ən əhəmiyyətli limanlarından birinə əl qoymuş və orada dağıntılara yol açmışdır. Bununla da Rusiya ilə Osmanlı Dövləti arasında artıq Brest-Litovsk müqaviləsinin qüvvədə olmadığını göstərmişdir".[131] Osmanlı dövləti də bu etiraz notasına qarşı Əhməd Nəsimi bəy vasitəsilə Çiçerinə 24 sentyabrda belə bir cavab vermişdir:

"Osmanlı Dövlətinin Brest-Litovsk müqaviləsinin şərtlərini pozulduğuna dair bolşevik hökumətinin irəli sürdüyü bəzi maddələrin həqiqəti əks etdirmədiyi və düzgün başa düşülməsi məqsədilə aşağıdakı düzəlişlərin edilməsi zəruridir:

Brest-Litovskda imzalanan müqavilənin 4-cü paraqrafının 2-ci bəndindəki maddələr ilə bu müqavilənin əlavə mətninə əsasən, Türkiyə və Rusiya, Osmanlı Dövlətinə keçəcək yerlərin ruslar tərəfindən boşaldılması məsələsini yoluna qoyacaqdı. Osmanlı ordusu gələnə qədər ruslar o yerlərdə asayiş və sabitliyi qoruyacaq və partizanların silahlarını alıb, onları dağıdacaqdı. Lakin Rusiya

hökuməti bu müqavilənin şərtlərinə görə hərəkət etmək əvəzinə, işğal altında olan bölgələrdən öz qoşunlarını çəkdi və oralarda partizanlar qaldı. Bu partizanlar, oradakı müsəlman əhalinin həyatı, namusu və mal-mülklərinə qarşı hər cür təcavüzə son qoymadılar.

Qafqazda qurulan üçlü birləşmiş dövlət isə Brest-Litovsk müqaviləsini tanımadı, bizə keçəcək üç sancağı boşaltmadı və biz oralara döyüşərək girmək məcburiyyətində qaldıq. Biz oralarda xalqa zülm etmədik. Bütün iddialar yanlışdır. Bizim əleyhimizə səs verənlər yerlərində qaldılar. Böyük bir çoxluq təşkil edən müsəlmanların isə bizə səs vermələri normaldır.

Rusiyanın, Brest-Litovsk müqaviləsinin 4-cü maddəsiylə ümumi və dövlətlərarası hüquq baxımından üç sancaqdakı yeni vəziyyətə müdaxilə etməməyi vəd etdiyi nəzərə alınarsa, hal-hazırda bu sancaqlarla maraqlanmaq üçün hansı hüquqi əsaslara sahib olduğunu təyin etməkdə, Osmanlı Xarici İşlər Nazirliyi çətinlik çəkməkdədir.

Bakıda ingilislər vardı və onlara qarşı da hərəkət etdik. Üstəlik, Osmanlı ordusuna Brest-Litovsk sülhü xəttinə, yəni Osmanlı hüdudlarına qədər çəkilmələri əmri verilmişdir."[132].

Osmanlı Dövlətinin Berlin Böyük elçisi (səfiri) Rifat paşa 29 sentyabrda İstanbula göndərdiyi məlumat notasında rusların, Bakı məsələsi həll olunmayana qədər, Birinci Dünya müharibəsində dustaq edilən türk əsgərlərinin azadlığa buraxılması məsələsini dayandırdığını bildirdi.

Türk əsgərinin Azərbaycanın köməyinə gəlməsinin və Bakının işğaldan azad olmasının daşıdığı mənanı, Azərbaycan Cümhuriyyətinin ilk Milli Məclis Sədri Məmməd Əmin Rəsulzadə 15 sentyabrın birinci ildönümü münasibətilə yazdığı bir məqalədə dilə gətirmişdi:

"Türk ordusunun, Azərbaycan və Bakı üzərinə hər hansı bir müdaxiləsi və işğalından danışmaq mümkün deyildir. Çünki Ənvər paşa Türk əsgərinin Azərbaycanda qala bilməsi üçün lazım olan xərcləri ödəmək üçün Osmanlı Dövləti büdcəsindən ayda 50.000 lirə pul vəsaiti ayrılmasını tələb etmişdir. Üstəlik, Azərbaycan hökumətindən, mümkün olan ən qısa müddətdə milli ordu qurmalarını rica etmişdir. İstilaçı bir dövlət, müstəmləkəsinə qətiyyən borc pul verməz və milli ordu qurulmasını da istəməz. Əgər Türk Ordusu işğalçı olsaydı, Azərbaycan, xüsusilə də Bakı əhalisi, hansı əsasla Mərkəzi Xəzər Diktaturası və ingilislərdən şəhəri qurtarmaq uğrunda şəhid olan Türk əsgərlərinin xatirəsinə abidə ucaltmaq üçün özləri öz aralarında pul toplayardı?"[133].

Türk dövlətinin böyük fədakarlığı və Türk Ordusunun səyi nəticəsində Azərbaycan düşmən işğalından qurtarılmış və əsl sahibi olan azərbaycanlılara təhvil verilmişdir. Bakını erməni daşnaklarının və rus bolşeviklərinin zülmündən qurtararaq, 15 sentyabrda həqiqi sahiblərinə verən mehmetçiyin bu davranışı,

başda Lenin və Stalin olmaqla, Çiçerin, Qaraxan kimi Sovet Rusiyasındakı kommunist liderləri qəzəbləndirmişdir. Sovet Rusiyası və Qızıl Ordu Bakı neftini istədiyi kimi mənimsəmək imkanını əldən buraxdı. Sovet Rusiyasında ziyalılar, yazıçılar və tarixçilər aparılan araşdırmaların nəticələrinin Sovet İttifaqı Kommunist Partiyası Siyasi Bürosunun görüş, anlayış və istəklərinə uyğun şəkildə yazılmasına cəhd etmiş və buna xüsusi əhəmiyyət vermişlər. Bu, bir ənənədən savayı, bir məcburiyyətdir. Bu anlayışın təsiri altında, bolşevik liderlərin Bakının əllərindən çıxması səbəbiylə qapıldıqları hiddəti əks etdirmək üçün bəzi marksist-kommunist yazıçılar və araşdırmaçılar, türk əsgərinin Azərbaycana və bu ölkədə yüz illərlə yaşayan və o torpaqları özünə vətən edən yerli türklərə yardım etməsini, bir işğal və təcavüz kimi dəyərləndirmişdilər. Bu təhrifləri də yazdıqları kitab və məqalələrdə düşməncəsinə ifadə etmişdilər.

**10. Bakının qurtuluşu və Almaniya**

Osmanlı Dövlətinin müttəfiqi olan Almaniya, Türk Ordusunun Bakıya girməsini heç bir zaman qəbul etməmişdi. Buna mane ola bilmədiyi kimi, türk əsgəri ilə bərabər bu hərəkatda iştirak da edə bilmədi. Bu səbəbdən Berlində böyük bir həyəcan yaşanırdı. Sədrəzəm (baş vəzir) Tələt paşa Almaniyadakı bu həyəcanı yatırmaq üçün Berlinə getdi. Türkiyənin öz gələcəyini təhlükədən qorumaq istədiyini bildirən Tələt paşa, eləcə də, Qafqazdakı türk və müsəlman xalqların yenidən təşkilatlanmasını təmin etməyə çalışdıqlarını bildirdi. Tələt paşa, Türkiyənin, Batum sülh müzakirələrində təsdiq edilən ərazilərdən başqa, hər hansı bir torpaq iddiasında olmadığını bildirdi. Tələt paşa, bu və ya buna bənzər hərəkətləri vaxtı ilə Rusiyanın da etdiyini və bunu da Balkanlarda yaşayan "Slavyan qardaşlarına və ortodoks xristianlara" kömək etmək şəklində izah etdiyini bildirdi. Türkiyənin də Qafqazdakı türk və müsəlman əsilli xalqlara əlindən gələn köməyi göstərməyə çalışdığını qeyd etdi. Alman hökuməti isə Tələt paşanın irəli sürdüyü görüşlərlə razılaşmadı. Bununla da kifayətlənməyərək, bolşevik Rusiyanın Berlin səfirindən türklərin istəkləri barədə nə düşündüklərini soruşdular. Ruslar isə buna cavab olaraq, Osmanlı Dövlətinin Zaqafqaziya hökuməti ilə sülh müqaviləsi bağlamasının mümkün olmadığını bildirdi. Bu dövlətin heç bir ölkə tərəfindən tanınmadığını bildirən rus səfiri, dolayısı ilə ölkə ərazisinin də Rusiyanın bir parçası olduğunu qeyd etdi. Türk ordusunun, rus hərbi birləşmələrinin çəkilməsinin təmin etmək üçün müddət qoymadığını irəli sürən rus nümayəndəsi, türk əsgərinin heç bir xəbər vermədən hərəkətə keçdiyini iddia etdi. Bolşevik Rusiyanın Qafqazda Azərbaycan və Dağıstan Cümhuriyyətlərinin qurulmasını arzulamadığını və bu ölkələri də tanımadığını ifadə etdi[134].

Almanlar, Qafqazda türk hakimiyyəti və nüfuzunun artmasını heç bir zaman istəmirdi. Bu istək və arzularını Gürcüstanda və Bakının qurtuluşunda müxtəlif vasitələrlə biruzə vermişdilər. Baş vəkil (sədrəzəm) Tələt paşaya qarşı bu iradlarını

Berlində açıq şəkildə söylədilər. Almanlar Tələt paşanın 10 sentyabrda verdiyi memorandumda göstərilənlərə qoşulmayacaqlarını, bolşevik rusların fikirləri ilə şərik olduqlarını bəyan etdilər. Almanların yürütdüyü siyasət, öz məqsədlərinə uyğun idi. Çünki, qərb cəbhəsində çıxılmaz vəziyyətə düşən Almaniya, bolşevik Rusiyasını narazı salmaq istəmir, qərb sərhədlərində yeni bir cəbhə açılmasını arzu etmirdi. Nəticədə, Almanlar Tələt paşanın 10 sentyabr 1918-ci il tarixli memorandumuna 12 sentyabrda verdikləri cavabda "Osmanlı Dövlətinin Qafqazda müstəqil dövlətlər qurmaq arzusunu tamamilə təqdir etməklə bərabər", Gürcüstanın tanınması Azərbaycan və Şimali Qafqaz Cümhuriyyətlərinin isə "tanınmaması" gərəkdiyini bildirdilər. Beləliklə, almanların ikiüzlülüyü bir daha ortaya çıxdı. Bu halda müzakirələrin uzadılmasının mənası yox idi. Lakin, Tələt paşa 23 sentyabrda Almaniya ilə gizli bir razılaşmaya gəldi. Bu razılaşmaya əsasən, Osmanlı Dövləti Azərbaycanı ən qısa bir müddətdə tərk edəcəkdi. Bunun qarşılığında Almaniya da Azərbaycanın Rusiya tərəfindən müstəqil dövlət kimi tanınmasını təmin edəcəkdi. Türkiyə Qafqazı tərk etdi, ancaq Almaniya öz vədini yerinə yetirmək üçün heç bir iş görmədi[135].

Tələt paşa Berlində olduğu müddətdə bolşevik Rusiyasının Berlindəki səfiri Yoffe ilə də görüşdü. Bakının rus bolşevik və erməni daşnak qüvvələrindən tamamilə təmizlənməsi Moskvada böyük bir çaxnaşma yaratmışdı. Bolşevik liderlər, Berlin səfirinə verdikləri təlimatda, Bakı məsələsinə görə Tələt paşa ilə görüşməsini və "Bakının türklər tərəfindən Sovetlərə təslim edilməsini təmin etmək üçün" müzakirələr aparmasını istəyirdilər. Tələt paşa isə hər hansı bir torpaq parçasını bolşevik ruslara təslim etməyin mümkün olmadığını, eləcə də Türkiyənin Qafqazdakı millətlərin daxili işlərinə əsla qarışmayacağını açıq şəkildə bəyan etdi[136].

Tələt paşa Berlində istədiyi nəticəni ala bilməmişdi. Birinci Dünya müharibəsində Osmanlı Dövləti Almaniyanın müttəfiqi idi. Balkanlarda və Qafqazda ruslara qarşı aparılan müharibələrdə, xüsusilə Sarıqamışda çoxlu qan axıtmışdı. Bütün bu fədakarlıqlara qarşı almanlar, müttəfiqi Osmanlı Dövlətinin istəklərinə qarşı ən kiçik bir güzəştə belə getməmişdi.

Şərq Orduları Qrupu Komandanı Xəlil paşa ilə birlikdə Bakıya gələn Ordu Qərargahı rəisi, alman podpolkovniki Parakuin isə mühasirə və hücum, yaxud küçə döyüşləri zamanı ölən xristianların cəsədlərini görüncə, böyük səs-küy salmışdı. Parakuin, silahsız insanların öldürüldüyünü və bunun qətliam olduğunu söyləmək cürətini göstərmişdi. Komandan Xəlil paşa, ona dəfələrlə xəbərdarlıq edərək gələn raportları diqqətlə oxumasını və yoxlamasını tapşırmışdı. O isə danışmağına davam edincə, Xəlil paşa, müharibədə belə halların baş verməsinin labüdlüyünü, Parakuinin də bir ordu rəhbəri vəzifəsini icra etdiyini xatırladaraq bu məsələni böyütməməsini ona bildirmişdi. Parakuinə bir diplomat, ya da bir din adamı, yaxud

keşiş kimi davrandığını bildirən Xəlil paşa, ya susmasını, ya da onu divani-hərbə verəcəyini qəti bir şəkildə ifadə etmişdi. Bu mübahisədən sonra vəzifəsindən istefa verən Parakuinə "Xidmətinizə ehtiyacım yoxdur, azadsınız" deyərək xidmətdən və yanından qovmuşdu. Bu hadisədən sonra Şərq Orduları Qrupu Komandanlığı Qərargahında xidmət edən bütün alman zabitləri xidmətdən kənarlaşdırılaraq Tiflisdə yerləşən Almaniya hərbi təmsilçisi general Von Kressin yanına göndərildilər.[137]

Xəlil paşanın xatirələrində açıq və aydın şəkildə dilə gətirdiyi kimi, almanlar döyüşlərdə şəhid olan türk əsgəri ilə Bakıda və Azərbaycanın bir çox bölgəsində qətlə yetirilən türkləri yox hesab edirdilər. Onların məsum və zülmə uğrayan tərəf olduqlarını heç ağıllarına da gətirmirdilər. Almanların bu və bu kimi hərəkətlərinin əsl səbəbi isə general Von Kressin, Bakının ələ keçirilməsi üçün Türk ordusuna kömək adı altında Tiflisdən göndərilən alman hərbi birləşməsinin Azərbaycana çatmadan geri qayıtmasıdır. Almanlar, Bakının Türk Ordusu tərəfindən ələ keçiriləcəyini başa düşdükdə, qazanılacaq qələbəyə ortaq olmaq və bununla da Bakı neftinə və sərvətinə sahib olmaq istəyində idilər. Bu istəyin həyata keçməməsi Alman Baş Qərargahında böyük bir gərginlik yaratmışdı. Hətta almanlar daha da irəli gedərək, Türk Qafqaz İslam Ordusunun Bakıda asayişi təmin edə bilməyəcəyini iddia edərək, İran, İsveç və Danimarka Konsulluqlarını, Osmanlı Dövlətinə qarşı etiraz notası verməyə təhrik etmişdilər.

İngilis general Deustervil Bakıdan çəkildikdən sonra, şəhərdə təxminən 3-4 min erməni silahlısı qalmışdı. Bunlar hərbi formalarını çıxarıb mülki paltar geyinərək küçələrdə türk əsgərinə pusqu qururdular. Yerli əhalinin evlərinə basqınlar edərək onları qətlə yetirirdilər. Küçə döyüşlərində hər iki tərəfdən ölənlər olmuşdu. Ancaq qısa müddətdə şəhərdə asayiş bərpa edilmişdi. Almanlar bu hadisələri təhrif edərək öz istədikləri kimi qələmə vermişdilər.

General Ludendorff xatirələrində bu barədə bunları qeyd edir:

"Bir çox sisternalı vaqonu olan Batum-Tiflis-Bakı dəmir yolu, Türkiyə ilə razılaşdırılaraq Von Kress tərəfindən işlədiləcəkdi. Əsl məsələ Bakıya necə çatmaq idi. Sovet hökumətinə qarşı göstərilən cəsarətsizlik, orada da operativ və qəti hərəkət etməmizə mane oldu. İngilislər Ənzəlidən Xəzər dənizini keçərək bizdən əvvəl Bakıya girdi. İngilislər Bakıya girməklə Kubandakı könüllü ordu (Çar tərəfdarı general Alekseyev ilə Denikinin komandirlik etdiyi və Xəzər dənizindən şimalda yerləşən Belorus ordusu) ilə əlaqəyə girdilər. Onlar Bakıda bizim əlimiz çatan yerdə idilər. Az bir qüvvə ilə uğurlu bir basqın mümkün olardı. Baş İdarə Tiflisə bir neçə batalyon süvari göndərib, Nurunun birliklərini də onlara qataraq, bir basqın hazırladı. Bu birliklərin daşınması başa çatmamışdı ki, Nuru Bakını aldı. Bundan sonra da Bolqarıstan hadisələri ordularımızı Rumıniyaya daşımağa vadar etdi"[138].

General Ludendorffun bu izahından və Parakuinin bundan əvvəl bəhs edilən münasibətindən də başa düşüldüyü kimi Makedoniya cəbhəsi süqut etməsəydi, Türk Qafqaz İslam Ordusunun şəhərə girməsinə rəğmən almanlar Bakıya əsgər göndərməkdə israrlı olacaqdılar. Osmanlı Dövləti isə bunun qarşısını almaq üçün hər üsula əl atmışdı. Bakıya ordu soxa bilməyən almanlar podpolkovnik Von der Goltzu 60 nəfərlik bir dəstənin müşayiəti ilə göndərmək istədilər. 26 sentyabrda Gəncəyə çatan Von der Goltz burada üç gün qaldıqdan sonra ancaq 2 oktyabrda Bakıya çata bildi. Beləliklə də Von der Goltzun Bakıdakı işlərə qarışmasının qarşısı alınmış oldu.

**11. Bakının qurtuluşu və İngiltərə**

Bəzi araşdırmaçılar Ənvər və Tələt paşaların Birinci Dünya müharibəsi boyunca türkçü və turançı bir siyasət yürütdükləri barədə fikirlər söyləyirlər[139]. Pantürkist, türkçü, turançı kimi adları və ifadələri siyasi mənada ilk əvvəl hansı dövlət işlətmiş olursa-olsun, bunun heç bir fərqi yoxdur. Əsas odur ki, bu uydurmaya Türkiyəni idarə edənlərin münasibəti necədir, bunun üçün nəyi necə etdilər, bu siyasət doğruydumu, nəticə necə oldu - əvvəlcə bunları başa düşmək, qavramaq yerinə düşərdi. Bu barədə münasibətimizi yuxarıda bildirmişdik. Ənvər və Tələt paşalar ilə dövləti idarə edən kadrların fikirləri düzgün idi. Ancaq bu hədəfə çatmaq üçün lazım olan dayaq və imkanlar o dövrdə Osmanlı Dövləti ilə Qafqaz və Türküstanda kifayət qədər deyildi. Bu hədəfə doğru irəliləyən və bu yolda uğurlar əldə edən Türkiyənin, düşmənlərinin əks fəaliyyətlərinin də nəzərdən qaçırılmaması yerində olacaqdır.

İngiltərənin türkçülük - turançılıq ideyasına münasibəti necə idi; əvvəlcə buna nəzər salmaq yerinə düşər. İngilislər hər şeydən qabaq pantürkist hərəkatın Rusiyaya verəcəyi zərər qədər onlar üçün də təhlükə olacağını bilirdilər. Zəngin mədənlərə və neft yataqlarına sahib olan Qafqaz, İran (Cənubi Azərbaycan, Qaşqaylar və Xorasanda yaşayan Oğuz türkləri) və Türküstanda təşəkkül edəcək böyük bir Türk-İslam Dövləti, yəni Turan Dövləti, Əfqanıstan üzərindən Hindistandakı ingilis müstəmləkə idarəsini təhlükəyə məruz qoyacaqdı. Əfqanıstan və Hindistanın şimalında yaşayan türklərin, Orta Asiyada yayılan turançılıq hərəkatına maraq göstərmələri qaçılmazdı. Bu vəziyyətdə imperialist və istismarçı olan Britaniya imperiyasının, Turan qısqacında boğulması və istismarçılığı əlindən verməsi təbii bir aqibət olacaqdı.

Britaniya İmperiyası üçün yaxınlaşan təhlükəni böyük bir dəhşətlə qavrayan İngilislər, 1800-cü illərdən etibarən diplomat və casusları ilə müstəmləkələrindən əldə etdikləri xəzinələrindəki qızılları hərəkətə gətirdilər. Ruslarla birlikdə eyni hədəfə vurmaq üçün əməkdaşlıq etmək qərarına gəldilər. Bunun üçün ilk növbədə casuslar vasitəsilə türk elləri və xalqları haqqında məlumatlar əldə etdilər. Elm adamlarını səfərbər edərək araşdırmalar apardılar. Əldə edilən nəticələr, dövlət

təşkilatına və türk torpaqlarına gedəcək adamlara paylandı. Bu əməllərin qayəsi elmi olmaqdan çox, siyasi məqsədlərə xidmət etmək üçün idi. Kökləri 16 və 17-ci əsrlərə söykənən Şərq dünyası (türk və islam dünyası və onun bir üzvü olan Türkiyə) ilə Qərb dünyası (xristian ölkələri və onların lideri İngiltərə) arasında yaşanan münaqişənin davamı olaraq, Osmanlı Dövlətinin dağılması və bundan sonra da ortaya çıxacaq coğrafiyanın bölüşdürülməsi və müstəmləkə halına salınması lazım idi. İngiltərə, böyük vəsaitlər hesabına başa gələn bu elmi və casusluq fəaliyyətləri ilə Osmanlı Dövlətindən sonra əmələ gələcək dünyanın da idarə edilməsi üçün hazırlıq görürdü.

İngiltərə, Osmanlı Dövlətinin yıxılması və "Şərq" millətlərinin əsir edilməsi üçün Orta şərqdən hərəkətə keçdi. Rusiya isə Balkanlardakı slavyan xalqların müdafiəsi üçün əməliyyatlara başlamışdı. Serblər, yunanlar, bolqarlar, rumınlar, polyaklar, gürcülər və ermənilər kimi millətlərin müstəqillik hərəkatını xoş qarşıladılar və öz milli dövlətlərini qurmaqda onlara dayaq oldular. İngiltərə və Rusiyanın bu hərəkətini, Fransa və Almaniya, hətta İtaliya və digər Avropa dövlətləri də hərarətlə alqışladılar.

Rus çarlığı dövründə əsarət altında yaşayan, onların təbirincə "müsəlman tatarların", yəni türk qövmlərinin, dünyadakı millətçilik hərəkətlərinə və müstəqillik düşüncəsinə laqeyd qalmaları mümkün deyildi. Türk ellərində yaşayan qövmlərin, müstəqil olan Osmanlı Dövlətinə, yəni Türkiyəyə qarşı sevgi və simpatiya bəsləmələri də təbiidir. Buna qarşılıq Osmanlı Dövləti və xalqının bu qardaşlarını özünə yaxın görməsi və onlarla əməkdaşlığa can atması da təbii haldır. Bu yaxınlaşma arzularının, Türkiyə ilə Qafqaz və Türküstanda başlayan millətçilik hərəkatlarının və eyni soy və mədəniyyət birliyinin bir nəticəsi, bir mənsubiyyət duyğusu, bir oyanış hərəkəti olaraq görülməsi lazımdır.

Qərb dövlətləri öz soyları və mədəniyyətlərinə mənsub millətlərin Osmanlı Dövlətindən ayrılması üçün ayağa qalxmasını vacib sayırdılar. Öz soy və dindaşları üçün rəva gördüklərini, türk və müsəlman xalqların da arzu etməsi və istəməsi halında isə vəziyyət tamam dəyişmişdi. Qərb mədəniyyətinin təməlləri, dünyadakı mədəniyyətlər arasındakı ziddiyyətlər, xaçlı səfərlərinin məqsədi və bütün bunların siyasi və hüquqi nəticələri, aydın məsələdir ki, bu araşdırmanın mövzusu xaricindədir. Lakin bunu xüsusilə qeyd etmək lazımdır ki, Ənvər paşa türklük amalı üçün Birinci Dünya müharibəsində fəaliyyətə başlamışdı. Ancaq yuxarıda qısaca izah edilməyə çalışıldığı kimi, kökü daxildə və xaricdə olan bir çox səbəblər üzündən Ənvər paşa və Osmanlı dövləti müvəffəqiyyətsizliyə uğramışdı.

### 12. Türk mətbuatında Bakının qurtuluşu

Türk Qafqaz İslam Ordusunun bölgədəki hərbi fəaliyyəti və Bakının qurtuluşu, İstanbul mətbuatı tərəfindən də yaxından izlənilirdi. Bakının rus, erməni

və ingilis hərbi qüvvələrindən təmizlənməsi, paytaxtda və bütün mətbuatda böyük sevinc yaratmışdı. "Tanin" qəzetinin 25 sentyabr 1918-ci il tarixli sayında dərc olunan xəbərdə, Osmanlı türk birliklərinin müharibədə iştirak etmədiyi zənni yaradılaraq azərbaycanlılardan qurulan ordunun Bakını düşmən işğalından qurtardığı bildirilirdi. Qəzetin baş məqaləsində bu barədə yazılmışdı:

"Çox əhəmiyyətli bir hadisə... Bir az əvvəl Cənubi Qafqazda qurulan üç dövlətdən biri - Gürcüstan, Almaniya və Rusiya tərəfindən tanınmışdı. Azərbaycan hökuməti isə Gürcüstan kimi siyasi vəziyyətdən istifadə edə bilməmişdi. Lakin öz qüvvələri ilə mövcudiyyətlərini təmin edən xalqların yaşama haqqı, bəlkə digərlərindən daha çoxdur və Bakını ingilisin əlindən qurtaran Azərbaycan hökuməti, bu gün öz qüvvələrinə arxalanaraq, həyatını təmin etmişdir"[140].

1. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 149.
2. Yücəer, Birinci Dünya savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan hərəkatı, 78-79.
3. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 581.
4. Yenə orada, s. 582.
5. Yenə orada.
6. General Denstervil, Britaniya İmperatorluğu, Bakı və İran (1917-1918), Tiflis, 1925, s. 189.
7. Yenə orada, s. 195.
8. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 275.
9. General Denstervil, Britaniya İmperatorluğu, Bakı və İran, s. 195.
10. Yenə orada, s. 202-220.
11. Salyan kazarması, Azərbaycan müstəqillik qazandıqdan sonra, Türk Silahlı Qüvvələr Attaşeliyinə ayrıldı. Kazarmada, Azərbaycan ordusuna mənsub əsgərlərə müxtəlif sahələrdə təlim və təhsil verilməkdədir. Ayrıca, burada Türk Silahlı Qüvvələrinə yaraşan bir ordu evi də var.
12. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 147.
13. İsmayıl Berkok, Böyük hərbdə Şimali Qafqazdakı fəaliyyətlərimiz, 15-ci firqənin hərəkatı və döyüşləri. 94 saylı "Hərbi məcmuənin 44 saylı tarix qismi, Hərbi mətbəə, İstanbul, 1934, s. 38.
14. Yenə orada.
15. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 149.
16. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 194; Yücəər, Birinci Dünya savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan hərəkatı, 110.
17. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 156-160-163.
18. Yenə orada, s. 194.

19. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 302.

20. Van paroxodunun kapitanı Bakıdan qaçaraq türk ordusuna sığınmışdı. Ondan alınan məlumata görə, Bakıdakı birləşmiş düşmən qüvvələri, əvvəlcə türk ordusunun hücuma keçməsini gözləyirdi. Bu hücumu dəf etdikdən sonra, əks-hücuma keçərək türkləri Qara dənizə tökməyi planlayırdılar. Bakıda əsgərə alınan insanların təlim-tərbiyəsi ilə ingilis zabitləri şəxsən məşğul olurdular. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 156.

21. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 582; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 164-168.

22.Xəritə 13.

23. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 582; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 175-176.

24. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 176.

25. General Denstervil, Britaniya İmperatorluğu, Bakı və İran, s. 234.

26. Yenə orada.

27. Yenə orada, s. 173.

28. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 171.

29. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 582; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 180.

30. General Denstervil, Britaniya İmperatorluğu, Bakı və İran, s. 247.

31. Yenə orada.

32. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 583.

33. Yenə orada, s. 584.

34. General Denstervil, Britaniya İmperatorluğu, Bakı və İran, s. 257.

35. Yenə orada, s. 258.

36. Taylan Sorgun, Xəlil paşa, İttihad və Tərəqqidən Cümhuriyyətə bitməyən savaş, İstanbul, 1997, s. 219-220. Xəlil paşa, xatirələrində belə yazır: "Baş Qərargahdan verilən əmr belə idi: «Bakı-Tiflis-Batumi yolundan istifadə edilmək surəti ilə Xəzər dənizində hökmranlıq təsis ediləcək, dənizdən də Bakı-Ənzəli yolu qurulacaqdır.» Vaxtı ilə rusların Baratov körpüsünün istifadə etdiyi Ənzəli-Qəzvin-Həmədan yolu cənuba - Dizful-Şustər (neft bölgəsi) və Bəsrə körfəzinə enirdi. Məqsəd, eyni yoldan istifadə edərək Bəsrəyə enmək və bu surətlə İraqdakı bütün ingilis qüvvələrini mühasirəyə almaqdı. İngilis donanmasının qaz və benzin ehtiyacının çoxu Dizful-Şustər bölgəsindən təmin edildiyi üçün, neft mərkəzlərinin ələ keçirilməsi ilə ingilis gücləri çətin vəziyyətə düşəcək və geri çəkilmək məcburiyyətində qalacaqdılar. İngilislərin İraqdakı ordularının geri çəkilməsi ilə müharibənin gedişatı da dəyişəcəkdi.

37. Sorgun, Xəlil paşa, İttihad və Tərəqqidən Cümhuriyyətə bitməyən savaş, s. 222-223. Xəlil paşanın yavəri yüzbaşı Səlahəddin, xatirələrində belə yazmaqdadır: "Baş Komandan Vəkili Ənvər paşadan bizə gizli bir əmr gəldi: «Almanlar, bizim şərqə - Bakıya və Rusiyanın içlərinə yayılmağımızı doğru görmürlər. Almanlar 3 mart 1918 tarixində imzaladıqları Brest-Litovsk müqaviləsinə uyğun olaraq, Bakını ruslara vermişlər. Fəqət neftini özləri almaq şərti ilə. Siz, təcili olaraq yerli qüvvələr təşkil edərək Bakını almağa çalışın. Ancaq bu işdə şəxsən bitərəf qalın. Döyüşdə Azərbaycanın yerli qüvvələri iştirak etsin.» Bu işləri yoluna qoymaq üçün sentyabrın ilk həftəsində Tiflisə getdik. Oradan Bakıya gedəcəkdik. Tiflisdəki Gürcü hökuməti ilə bəzi görüşmələr oldu. Fəqət əsas görüşmə, Gürcüstan ordusunun baş komandanı və alman ordusunun hərbi və siyasi təmsilçisi olan alman generalı Von Kress ilə oldu. Von Kress, öz dövlətindən aldığı təlimata görə, bizə qəti olaraq bunu dedi: «Bakı, Azərbaycan dövlətinin sərhədləri içində olmasın, ruslara verilsin.» Almanlar, Bakıya ordu göndərə bilməyəcəklərini başa düşdükdə, taktikanı dəyişdirdilər: azərbaycanlılar Bakıya hücuma keçsələr, müvəffəqiyyət qazanmaları mümkün deyildir; bu müvəffəqiyyətsizliyə yol verməmək üçün, hücumda bir alman birliyinin də iştirak etməsi lazımdır...

38. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 584.

39. Yüzbaşı Səlahəddinin romanı, s. 420-421.

40. Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, 103 saylı "Hərbi məcmuənin 44 saylı tarix qismi, Hərbi mətbəə, İstanbul, 1936, s. 21-22.

41. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 190.

42. Güzdək, Bakının qərbindəki dəmir yolundan sonrakı yüksək dağlardadır. Güzdəkdən bütün Bakı, cəbhə xətti və Xəzər dənizi açıq bir şəkildə görünməkdədir. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 191.

43. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 585.

44. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 192.

45. General Denstervil, Britaniya İmperatorluğu, Bakı və İran, s. 257-258.

46. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 335.

47. Xəritə 14.

48. Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 30.

49. Yenə orada, s. 38-39.

50. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 585.

51. Yenə orada, s. 586.

52. Yenə orada; Ordu və tümən əmrləri üçün bax: Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 39.
53. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 586; Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s.41.
54. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 587; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 194.
55. General Denstervil, Britaniya İmperatorluğu, Bakı və İran, s. 261.
56. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 198.
57. Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 53.
58. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 202.
59. Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 39.
60. Sorgun, Xəlil paşa, İttihad və Tərəqqidən Cümhuriyyətə bitməyən savaş, s. 223-224.
61. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 202.
62. Yüzbaşı Səlahəddinin romanı, s. 421-426.
63. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 587.
64. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 202-203.
65. Yüzbaşı Səlahəddinin romanı, s. 426.
66. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 203.
67. Yenə orada, s. 204.
68. Yenə orada, s. 205.
69. Sorgun, Xəlil paşa, İttihad və Tərəqqidən Cümhuriyyətə bitməyən savaş, s. 225-226.
70. General Denstervil, Britaniya İmperatorluğu, Bakı və İran, s. 263.
71. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 588; Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 41.
72. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 588; Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 42-44.
73. Bu dəstə hücuma davam etmək yerinə qarətlərə girişdiyi üçün hərəkatın yavaşlamasına səbəb olmuşdu.

74. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 588; Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s.40-44.

75. Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 42.

76. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 588; Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 44.

77. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 587; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 208.

78. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 207.

79. General Denstervil, Britaniya İmperatorluğu, Bakı və İran, s. 272.

80. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 589; Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 44; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 209.

81. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 589; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 211.

82. Sorgun, Xəlil paşa, İttihad və Tərəqqidən Cümhuriyyətə bitməyən savaş, s. 226-227.

83. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 590; Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 45-46.

84. Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 46-47.

85. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 591; Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 47.

86. Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 57.

87. Yenə orada.

88. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s, 587; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 211. Yüzbaşı Səlahəddin, bu barədə belə yazmaqdadır: "Gün keçir, Salyan kazarması müqavimət göstərməyə davam edirdi. Xəlil paşa bir neçə dəfə bu kazarmanı 15-lik qaubitsa topları ilə vurmaq istəsə də, alman qüvvələrinin başçısı, içində bəlkə mühacir ermənilər olar, deyə əngəllədi. Günortaya doğru komandan mənə bu əmri verdi: «Get batareya komandirinə söylə, Salyan kazarmasını dağıtsınlar.» Bu əmrdən yarım saat sonra kazarmaya düşən ilk mərmi, bir yığın qol, ayaq və kəlləni havaya uçurtdu. Bir neçə

atışdan sonra kazarma ağ bayraq qaldıraraq təslim oldu. Sülh danışığı üçün adamlar gəldi. Şəhərə döyüşərək girsək, çox qan axacaq, şəhər də xarabaya dönəcəkdi. Buna səbəb olmamaq üçün bu gecə şəhərə girməyəcəkdik. Sabah səhər şəhərdən veriləcək türk bələdçilərlə birlikdə, ordu nizami bir şəkildə şəhərə girəcəkdi. Bu barışıq, qurulan yerli türk hökuməti ilə oldu. Yüzbaşı Səlahəddinin romanı, s. 426.

89. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 212.

90. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 590; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 212-213.

91. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 591; Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 47.

92. Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 47.

93. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 213.

94. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 591.

95. Yüzbaşı Səlahəddinin romanı, s. 427-428.

96. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 592; Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 214.

97. Bakının düşmən işğalından qurtarılmasında üstün fədakarlıq göstərən zabit və əsgərlərin rütbəsinin yüksəldilməsi, İstanbulda Tələt paşa kabinetinin istefası üzündən təsdiq edilə bilməmişdi. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 214-215; Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 47-48.

98. Süleyman İzzət bəy, Bakının ələ keçirilməsi uğrunda iki gün davam edən qanlı çarpışmalarda 15-ci piyada diviziyasına mənsub 56-cı və 38-ci alayların qəhrəmanca döyüşdüyünü və çox sayda itki verdiyini bildirməkdədir. Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 45,48.

99. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 592; Rüşdü, Böyük Hərbdə Bakı yollarında. s. 216; Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 45, 48.

100. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 215; Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 48.

101. Bakıda 31 mart 1918 tarixində türk əhaliyə qarşı törədilən qırğında məsuliyyət daşıyan şəxslərdən biridir.

102. Kurat, Türkiyə və Rusiya, s. 5.

103. Şövkət Sürəyya Aydəmir, Makedoniyadan Orta Asiyaya Ənvər paşa, III c, İstanbul, 1995, s. 425.

104. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s, 592.

105. "Azərbaycan nəşriyyatının qərbindəki böyük prospektin olduğu yer. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 591.

106. Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 48.

107. 26 Bakı Komissarlarından biridir. Sovet İttifaqı dönəmində qoyulan heykəli bu meydanda hələ də durmaqdadır. Ayrıca Bakıda bir metro stansiyasına və bölgəyə də onun adı verilmişdir.

108. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 214.

109. Şəxsi arxivimizdəki foto. Bu fotoda görülən və balkona asılan üç rəngli Azərbaycan bayrağının ortasındakı hilal və altı guşəli ulduz, daha sonrakı illərdə kommunist rejim tərəfindən fotodan silinmişdir.

110. Nizaməddin Xəlil Onk, Yeni Azərbaycan Cümhuriyyəti qurularkən, "Türk dünyası tarix dərgisi, 1992, s. 34-35.

111. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan; Onk, Yeni Azərbaycan Cümhuriyyəti qurularkən, s. 33-34.

112. Sorgun, Xəlil paşa, İttihad və Tərəqqidən Cümhuriyyətə bitməyən savaş, s. 227-230.

113. Yüzbaşı Səlahəddinin romanı, s. 428-429.

114. Azərbaycanlı və Qafqazlı türklər park və bağçalara "bağ" deyir.

115. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 21.

116. Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 49.

117. 15-ci piyada diviziyası Bakının şimal və şərqindəki bölgədə toplanmışdı. Gündə ən az beş saat hərbi təlim keçilirdi. Ayrıca əsgərlərin istirahəti, təmizliyi və paltarların yuyulması ilə birlikdə cəbbəxana və ərzağın da tamamlanması hazırlıqları davam edirdi. Süleyman İzzət bəy, məsuliyyət daşıdığı bölgədə qarətlərə və qanunların pozulmasına ən ağır cəza veriləcəyini bildirmişdi. Bax: Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 50.

118. Rüşdü, Böyük Hərbdə Bakı yollarında, s. 21.

119. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 594.

120. Yenə orada, s. 593-595.

121.Türk Hava Qüvvələrinə bağlı "Türk Yıldızları 23 avqust 2001 tarixində Bakıdakı Azadlıq meydanı və Xəzər dənizi üzərində, 25 avqustda da Azərbaycan hərbi məktəbinin məzuniyyət mərasimində göstəriş uçuşu gerçəkləşdirmişdi. "Türk Yıldızlarının uçuşunu təxminən 2,5 milyon insan izləmişdi. Bu rəqəmi, Quru Qoşunları Məktəbinin məzuniyyət mərasimi səbəbiylə Bakıda olan o dönəmin Genelkurmay Başkanı (Türk Ordusu Ali Baş Qərargah Rəisi) ordu generalı Hüseyn Qıvrıqoğluna, o zaman prezident olan Heydər Əliyev söyləmişdi. İyulda və avqustun əvvəllərində İran Hava Qüvvələrinə məxsus təyyarələr Xəzər dənizinin statusu və başqa məsələlər üzündən Azərbaycana göz dağı vermək istəyirdi. Bu məqsədlə Bakıya 1 km məsafəyə qədər yaxınlaşmışdılar və Azərbaycanın hava sərhədlərini dəfələrlə pozmuşdular. "Türk Yıldızlarının uçuşunun bu hadisələrdən qısa bir zaman sonra gerçəkləşdirilmiş olmasının, xalqın nəzərində başqa bir mənası və əhəmiyyəti var idi. Azərbaycanlı türklər, "Türk Yıldızlarının uçuşundakı sevinci, 2002-ci ildə dünya çempionatında da göstərdilər. Türk milli komandası Koreya və Yaponiya komandaları ilə oynadığı oyunlarda arxa-arxaya müvəffəqiyyət qazandığı zaman, minlərcə yaşlı, gənc, qadın, kişi, uşaq əllərində Azərbaycan və Türk bayraqları ilə meydanlara və küçələrə çıxmış, qalibiyyət sevinci yaşamışdı. Bakı və Azərbaycanın digər böyük şəhərləri ilə, Türkiyədəki şəhərlərin heç bir fərqi yox idi. Nə hiss etdiyi soruşulan, xeyli yaşlı bir bakılı qadın, "Allaha şükürlər olsun, Yaponiyadakı övladlarımız bizə bu günləri göstərdi deyərək, milli komandanı və futbolçuları öz ailəsindən biri kimi gördüyünü ifadə etmişdi.

122.Alxan Bayramoğlu, Qafqazın imdadına çatan türkün könül nəğmələri, Bakı, 2000.

123.Sorgun, Xəlil paşa, İttihad və Tərəqqidən Cümhuriyyətə bitməyən savaş, s. 227.

124.Yusif Hikmət Bayur, Türk inqilabı tarixi, III c, IV qisim, Türk Tarix Qurumu nəşriyyatı, Ankara, 1991, s. 235.

125.Yenə orada, s. 236.

126.Kurat, Türkiyə və Rusiya, s. 538.

127.Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 64-65.

128.Kurat, Türkiyə və Rusiya, s. 539. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 365.

129.Kurat, Türkiyə və Rusiya, s. 5.

130.Yenə orada, s. 539.

131.Protest notasının tam mətni üçün bax: Kurat, Türkiyə və Rusiya, s. 690.

132.Osmanlı Xarici İşlər Naziri Əhməd Nəsimi bəyin Siserinə göndərdiyi cavab notasının mətni üçün bax: Kurat, Türkiyə və Rusiya, s. 693-694; Bayur, Türk inqilabı tarixi, III c, III qisim, s. 242.

133."Azərbaycan qəzeti. 15 Sentyabr 1919; Yücəər, Birinci Dünya savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan hərəkatı, s. 124.

134.Kurat, Türkiyə və Rusiya, s. 521-522.

135.Mirzəbala Məmmədzadə, Milli Azərbaycan hərəkatı, s. 98.

136.Kurat, Türkiyə və Rusiya, s. 525-555.

137.Sorgun, Xəlil paşa, İttihad və Tərəqqidən Cümhuriyyətə bitməyən savaş, s. 228-230.

138.Makedoniyadakı alman-bolqar cəbhəsi 18 sentyabr 1918-də süqut etmiş və 25 sentyabrda Bolqarıstan atəşkəs tələb etmişdi. Bayur, Türk inqilabı tarixi, III c, IV qisim, s. 237.

139.Bax: Kurat, Türkiyə və Rusiya, s. 525.

140.Bayur, Türk inqilabı tarixi, III c, IV qisim, s. 238.

# VII HİSSƏ

## TÜRK QAFQAZ İSLAM ORDUSUNUN QARABAĞ HƏRƏKATI NAXÇIVAN VƏ QARABAĞIN QURTULUŞU

### 1.Andranikin dəstəsinin Naxçıvandan çıxarılması

İstanbuldakı Baş Komandanlıq Vəkaləti, 7 iyun 1918-ci il tarixində 9-cu Orduya verdiyi əmrdə ingilislərin Cənubi Azərbaycandakı hərəkatını dayandırmaq və Şimali Azərbaycandakı bolşeviklərə köməyə gəlməsinin qarşısını almaq tapşırığı vermişdi. Bu tapşırığın yerinə yetirilməsindən sonra da 9-cu Ordu, 6-cı Ordu ilə birlikdə Bağdad və Bəsrə üzərinə yeriyəcəkdi. Bunun üçün də 9-cu Orduya bağlı bəzi elementlərin cənuba nəql edilməsi lazım idi.

Baş Komandanlıq Vəkaləti 4 iyul 1918-ci ildə 9-cu Ordunun 4-cu korpusu ilə Urmiyə-Təbriz cəbhəsini işğal etməsini, ordunun digər hissələrinin isə Gümrü ətrafında toplaşmasını əmr etdi. 15-ci piyada diviziyası komandanlığı da qərargahı ilə birlikdə 6 iyulda Gümrüyə köçmüşdü. Bu diviziyanın 38-ci alayı bundan əvvəl Gəncəyə sövq edilmişdi. Şərq Orduları Qrupu Komandanlığı bu təşkilati işlərlə məşğul ikən, komandanlıq 7 iyul 1918-ci il tarixində İstanbula göndərdiyi raportda 4-cü korpusun bir bölük ilə Təbrizi ələ keçirdiyini bildirdi. 4-cü korpus mövcud vəziyyətdə Urmiyə və Culfa-Naxçıvan bölgəsindəki ermənilərə qarşı daxili xətt manevri tətbiq edəcəkdi.[1] Birinci Dünya müharibəsi boyunca ermənilərin hərbi lideri rolunda çıxış edən Andranik, türkləri qətl etməyi özünə bir borc hesab edərək, qarşısına çıxan türkləri amansızcasına öldürür və bu zaman dünyanın gördüyü ən vəhşi işgəncə metodlarını tətbiq edirdi. Əvvəlcə Şərqi Anadoluda, sonra isə Cənubi və Şimali Azərbaycanda qətliamları davam etdirirdi. Cənubi Azərbaycandakı Xoy şəhəri ətrafında tabeliyindəki 6 minlik bir hərbi qüvvə ilə 12-ci piyada diviziyasına qarşı hücuma keçdi. Ancaq ağır bir məğlubiyyətlə Naxçıvana çəkildi. 22 iyun 1918-ci il tarixindən etibarən də Culfa və Naxçıvan ilə Ordubad ətrafındakı türk qəsəbə və kəndlərini qarət, talan, əhalisini isə qətl etməyə başladı[2]. 4-cü korpus komandanlığı Andranik qüvvələrinin Naxçıvandakı hərəkətini yaxından müşahidə edirdi. Bölgədəki türklərin qətliamına seyrçi qalmaması və arxa cəbhədən arxayın olmaq üçün 4-cü korpus komandanı, 11-ci Qafqaz diviziyasına Naxçıvanı zəbt etmək tapşırığı verdi. 11-ci Qafqaz diviziyası ilə 12-ci piyada diviziyasının Culfadakı 35-ci piyada alayı, 19 iyulda 3.000 piyada və 600-ə qədər süvari tərəfindən işğal edilən Naxçıvan üzərinə yeridi. Türk birlikləri güclü hücumla müdafiəni yararaq, 20 iyul 1918-ci ildə şəhəri ələ keçirdi. Andranikin qüvvələri bu dəfə də Qarabağa tərəf qaçdı[3].

Azərbaycan müstəqilliyini elan edincə, Qarabağ və Şuşadakı türk və ermənilər ortaq bir komitə yaradaraq, hakimiyyəti əllərinə almışdılar. Erməni Milli

Komitəsi az müddətdən sonra Şuşada bir qurultay çağırdı və bu orqanın ləğv edilməsini qərarlaşdırdı. Bu qurultay 7 nəfərlik bir icra heyəti də seçdi və Qarabağ hökumətinin qurulduğunu elan etdi.

Erməni hökuməti Qarabağın Azərbaycan və Aran ilə əlaqəsini kəsmək üçün ordu quruculuğuna başladı. Bu hərbi birliklər az müddətdən sonra bölgədə yaşayan türklərə qarşı zorakılığa başladılar. Təzyiq və hədə-qorxu siyasəti yeridərək, qış aylarının gəlməsiylə birlikdə türklərin bu erməni hökumətini tanımasını təmin etməyə çalışırdılar. Qarabağ türkləri isə bu şərtləri qəbul etməyəcəklərini bəyan etdilər. Şuşada yaşayan türklər 15-60 yaş arası kişilərin siyahısını tutaraq, ermənilərə qarşı əks tədbirlərə hazırlaşmağa başladılar[4].

Qarabağ və Şuşada bu hadisələr yaşanırkən, Andranik də Naxçıvandan çıxmaq məcburiyyətində qalmışdı. Yolu üstündəki erməniləri Qarabağa köçürərək bölgədəki vəziyyəti türklər əleyhinə dəyişdirməyə çalışırdı[5]. Hədəfi, müdafiəsi daha asan olan Qarabağda erməniləri təşkilatlandırmaq, türklərə qarşı çevirmək və bölgəni tamamilə türklərdən təmizləmək idi. Andranik Zəngəzur, Ağdaş, Şuşa kimi bölgələrdə yaşayan türklərə basqınlar edirdi. Həmin bölgədə 11 min türkün ermənilərin basqınları nəticəsində həlak olduğu tarixi mənbələrdə göstərilir. Bir müddətdən sonra Andranikin fəaliyyəti ilə razılaşmayan və təşviqatlarına qapılmayan bəzi ermənilər tərəfindən Qarabağ məntəqəsi komandanlığına xəbər göndərildi. Andranikin, ətrafına topladığı ermənilərlə, yaxında türklərə qarşı basqınlara başlayacağı bildirilirdi. Çox keçmədən Şuşa-Xankəndi yolunu nəzarət altına alan ermənilər, Şuşa və bölgədə yaşayan türklərə qarşı təzyiqi artırdı. Bundan sonra Qarabağda yaşayan türklər, böyük bir səfərbərlik elan edərək, gənclərdən bir milis təşkilatı qurdular. Qarabağ Məntəqəsi Komandanı yarbay İsmayıl Haqqı bəy (Kayserili və Şəkili), Ordu Komandanlığına göndərdiyi 9 avqust tarixli raportda Qarabağda təşkil edilən türk milis qüvvələri ilə erməni Andranikin dəstəsinə müqavimət göstərməyin mümkün olmayacağını və tərəflər arasında münaqişələrin böyüməsi halında, köməyə ehtiyacı olacağını bildirdi. Yarbay (podpolkovnik) İsmayıl Hakkı bəy Qarabağ türklərinin mənəviyyatını yüksəltmək və ermənilərə də gözdağı vermək üçün kiçik də olsa, bir hərbi birləşmənin Ağdama göndərilməsinin münasib olacağını qeyd edirdi[6].

20.08.1918 tarixində 9-cu Ordu Komandanlığının yaydığı təbliğatda Andranik qüvvələrinin Naxçıvanın şimal-şərqində və Zəngəzurda səfərbərlik elan edərək, 15-45 yaş arasındakı erməniləri silahlanmağa çağırdığı və 5.000 nəfərlik bir qüvvə topladığı bildirilirdi. Gorusdan 10 kilometr cənub-qərbdəki bölgədə olan partizanların da 700 piyada, 400 süvari, 4 pulemyot və 2 dağ topundan ibarət olduğu bildirilirdi. Andranik erməniləri bir tərəfdən çevrilişə səsləyir, digər tərəfdən isə bölgədəki türk və müsəlmanları qətl etməyə təhrik edirdi[7].

**2. Andranik qüvvələrinin Şuşanı mühasirəyə alması**

Andranikin qüvvələri avqust ayının sonuna yaxın türklərə qarşı həmlələri artırdılar. Erməni partizanları 22 avqustdan 14 sentyabr tarixinə qədər türklərin iri və xırdabuynuzlu heyvanlarını, mallarını zorla əllərindən alır, müqavimət göstərənləri öldürürdü. Bu arada Dantravir və Zayiq ətrafındakı Abdallar, Kərəviz, Ağadi ilə Mədət və Sisyan, Yaylaq və ətrafdakı bir çox kəndləri qarət etdilər, türklərin mallarını qarət edib, evləri, məktəb və məscidləri dağıdıb yandırdılar. Bölgədə yaşayan türkləri barbarcasına qətl etdilər. Xüsusilə Sisyan nahiyəsi və Ağadi kəndində törədilən vəhşilik, Şərqi Anadolu, Naxçıvan, Bakı, Şamaxıdakı insanlıq suçunu, insanlıq ayıbını geridə qoyurdu. Qocaların saqqalları yolunaraq öldürülmüşdü. Qadınların döşləri kəsilərək öldürülmüş və körpələrinin ağzına soxulmuşdu. Gənc qız-gəlinlər eyib yerlərindən süngülənmişdilər. Bu mənzərələr vicdan, insaf və imanı olan hər bir adamı dərindən sarsıdacaq və dəhşətə gətirəcək şəkildəydi.

Qətliam xəbərlərinin ardınca Şuşada bəzi ölkələrin təmsilçilərindən ibarət bir heyət təşkil edildi. Bu heyət bölgədə sabitliyi saxlamaq üçün ermənilərin tərksilah edilməsi təşəbbüsü ilə çıxış etdi, lakin bir nəticə alınmadı. İsmayıl Haqqı bəy "Türk Qafqaz İslam Ordusunun təcili olaraq hərəkətə keçməsini, əks təqdirdə qısa müddət ərzində Qarabağ bölgəsində yaşayan türklərin tamamilə qətl və məhv ediləcəyini" bildirdi.

Ermənilər Şuşa-Ağdam arasındakı Əskəran keçidini ələ keçirərək, bölgədə üstünlüyü ələ aldı[8]. Andranik qüvvələri Şuşa qalasına sığınan türkləri mühasirəyə aldı. Mühasirə uzandıqca Şuşada olan 20 min türk çox ağır vəziyyətə düşdülər. Ərzaq, su, dərman çatışmazlığı başlanmışdı.

Ermənilərin bölgədəki bu vəhşiliyindən canını qurtara bilən türklər, panika içində Şuşa qalası, Ağdam və Cəbrayıl istiqamətində qaçırdılar. Qarabağın bir başqa bölgəsi olan Ağdam cəbhəsindəki ermənilər isə hələlik sakit dayanmışdılar[9]. Türk Qafqaz İslam Ordusu isə o tarixlərdə Bakı yaxınlığında idi. Şəhəri mühasirəyə almışdı və ələ keçirmək üçün bütün gücünü sərf edirdi. Bu səbəbdən vaxt itkisinə yol verilmişdi. Bundan cəsarətlənən Andranik və partizanlarının qızışdırdığı ermənilər türklərə hücum, basqın edərək, insanlığın o vaxta qədər görmədiyi vəhşiliklər törədirdilər.

Türk Qafqaz İslam Ordusu Komandanı Nuru paşa Bakının ələ keçirilməsindən sonra Qarabağ bölgəsində misli görünməmiş bir qətliam hazırlığına başlayan erməniləri dayandırmaq üçün hərəkətə keçdi. Qarabağ hərəkatı üçün 1-ci Azərbaycan diviziyası yaradıldı. Komandanlığına da Bakı Qarnizon Komandanı (polkovnik) albay Cəmil Cahid bəy gətirildi[10]. Bu diviziyanın əsas gücünü 5-ci Qafqaz piyada diviziyasının sərəncamında olan 106-cı piyada alayı ilə 9-cu Qafqaz alayı təşkil edirdi. Azərbaycanlılardan qurulan və cəmi 1.200 nəfərlik 1-ci və 2-ci Azərbaycan alayları ilə sayı 250 olan Azərbaycan

süvari alayı da qurulan yeni diviziyanın hərbi qüvvələrinin tərkibindəydi. Atəş gücünü artırmaq üçün bir dağ topçu batalyonu ilə üç zirehli maşın, diviziyanın sərəncamına verildi.[11]

Bakı yaxınlığında qəhrəmancasına döyüşən türk əsgəri birlikləri, vaxt itirmədən yola düşdü və qatarla əvvəlcə Yevlaxa gəldi, oradan isə qərargahın qurulacağı yer olan Ağdamda toplaşmağa başladı. Cəmil Cahid bəyin qarşısında Şuşa və Gorusun ələ keçirilməsi ilə Dağlıq Qarabağda asayişin təmin edilməsi vəzifəsi dururdu. Beləliklə, Baş Komandanlıq Qərargah rəhbərliyinin Azərbaycan ilə Osmanlı torpaqları arasında ortaq bir sərhəd olması ilə əlaqədar planı həyata keçmiş olacaqdı[12].

Cəmil Cahid bəy Qarabağa girincə, ermənilərə xəbər göndərərək, əllərindəki silahları yerə qoyaraq, Azərbaycan dövlətinə tabe olmağı tələb etdi. Ermənilərin qurduğu icra heyəti isə Erməni Milli Şurasını təcili yığıncağa çağıraraq məsələni müzakirə edəcəklərini bildirdi. Erməni Milli Şurası, aldığı qərara uyğun olaraq, beş nəfərlik bir heyəti 1 oktyabrda Ağdama göndərdi və Azərbaycanın tərkibində qalmaq istəmədiklərini bildirdi. Cəmil Cahid bəy bu cavabdan sonra heyət üzvlərindən Arşavir Kamalyan, Aşot Məlik Osipov və Gerasim Məlik Şahnazaryanı həbs etdi. Ayrapet və Danil adlı təmsilçiləri isə Şuşadakı ermənilərin yanına göndərərək, tez bir zamanda təslim olmalarını, əks təqdirdə Şuşa üzərinə yeriyəcəyini, bunun günahkarının isə ermənilərin özləri olacağını bildirdi.

Erməni Milli Şurası bu sərt cavab qarşısında Qarabağ erməniləri 3-cü Qurultayını çağırdı. Qurultaydakı uzun müzakirələrdən sonra, silahı təhvil verməmək şərti ilə "hələlik" Azərbaycanın tərkibində qalmağın mənafelərinə uyğun gəldiyi barədə qərar qəbul etdilər və bu qərarı Cəmil Cahid bəyə bildirdilər. Bundan sonra Komandan hadisələrin nəticəsində ermənilərin günahkar olduğunu bildirərək, Şuşa üzərinə yerimək qərarına gəldi[13].

**3. Şuşanın qurtuluşu**

Qarabağda qətliam törədən Andranikin qüvvələrinə qarşı hərbi həmlələrə hazırlıqlar 6 oktyabrda başa çatdı. Albay Cəmil Cahid bəy Şuşada mühasirədə olan türklərə də xəbər göndərərək, bir az da müqavimət göstərmələrini istədi.

Türk hərbi qüvvələri ermənilərdən müsbət cavab almadığından, 7 oktyabrda Şuşa üzərinə yürüşə başladı. İlk növbədə Əskəran keçidinin ələ keçirilməsi lazım idi. Şuşa istiqamətində əhəmiyyətli bir keçid nöqtəsi olan Əskəran yolu ermənilər tərəfindən son dərəcə yaxşı qorunurdu. İtkilərin az olması üçün erməni birliklərinin arxasına keçmək münasib idi. 1-ci Azərbaycan alayı ehtiyat qüvvə kimi Ağdamda qaldı, 2-ci Azərbaycan alayı ilə süvari alayı Əskəran keçidinin qarşısına sövq edilərək, Kalbuk-Daşbaşı xəttində mövqe tutdu. 9-cu Qafqaz alayı iki topçu batareyasının müşayiəti ilə Ağdamdan Mirkənd-Ağbulaq xəttinə hücuma keçdi. Bu

iki kənddəki erməniləri oradan qovdu. 9-cu Qafqaz alayı Əskəranı tutan erməni daşnaklarına qarşı cəbhədən hücuma keçdi. 25-ci batalyon isə erməniləri cənubdan mühasirəyə almağa başladı. Bundan sonra Əskəranda duruş gətirə bilməyən ermənilər, dağınıq halda geri çəkilməyə çalışdı. Şuşa qalasından 8 kilometrlik məsafədə yerləşən və strateji bir mövqe olan Əskəran keçidinin əldən çıxması ermənilərin mənəviyyatını qırmışdı. Şuşa qalasında mühasirədə olan türkləri qurtarmaq üçün şərq və qərb istiqamətlərindən erməniləri sıxışdırma əməliyyatı başlandı. Bunun üçün oktyabrın 8-dən 9-na keçən gecə süvari alayı Kalfalı istiqamətinə göndərildi. Piyada birlikləri isə Şuşa yaxınlığına getdi. Türk ordusu ilə döyüşməyə cəsarət etməyən və böyük bir təhlükənin yaxınlaşdığını görən Andranik, Şuşanın mühasirəsini buraxaraq, dərhal cənuba doğru çəkilməyə başladı[14].

Albay (polkovnik) Cəmil Cahid bəy Şuşanın döyüşsüz ələ keçirilməsindən məmnun idi. Qaladakı mühasirədən xilas olan adamlar Türk ordusunu hərarətlə qarşıladı. Cəmil Cahid bəy Şuşada yaşayan ermənilərlə türklərin münaqişəsinin qarşısını almaq üçün lazımi tədbirlər görmək məqsədi ilə 8 oktyabrda Şuşaya girdi[15]. Türklərin başbilənlərini Şuşa məscidində toplayaraq, bir nitq söylədi:

"Sizin mənafeyiniz üçün, sözlərimi qəbul etməsəniz, əmrimə itaət etməsəniz, bütün vasitələrdən istifadə edərək sizi cəzalandırmaq üçün zərrə qədər tərəddüd etmərəm. İndi ermənilərə də itaət etmələrini təklif edəcəyəm. Qəbul etmədikləri təqdirdə, bir orduya itaətsizliyin cəzası nədirsə, onu da alacaqlar. İtaət edərlərsə, can, namus və malları, bizim mühafizəmiz altında olduğundan, heç bir fərdin artıq hərəkətinə yol verməyəcəyəm. İtaət etmədikləri halda, onlar haqqında ölçü götürməklə yalnız əsgərlərim məşğul olacaqlar. Əhalinin tamamilə seyrçi qalmasını və hərənin öz işi-gücü ilə məşğul olmasını tələb və əmr edirəm"[16].

Cəmil Cahid bəyin bu nitqi qarabağlı türklərin xoşuna gəlməsə də, əmrə itaət edəcəklərinə söz verdilər. Cəmil Cahid bəy və türk komandirlər, ermənilərin türklərə qarşı törətdikləri vəhşiliklər qarşısında, hissə qapılmadılar. Əsəblərini cilovladılar. İnsani duyğularla işləri yoluna qoymağa çalışdılar. Tərəflər arasında münaqişəyə yol vermədilər.

Şuşanın türklər yaşayan hissəsində asayiş təmin edildikdən sonra, Cəmil Cahid bəy erməni əsilli Bələdiyyə rəisi Kavalanı erməni məhəlləsinə göndərərək, itaət edəcəkləri halda can və mallarının təminat altında olacağı, əks halda isə müharibə qanunlarına uyğun olaraq cəzalandırılacaqlarını bildirdi ki, bunun da günahı Türk ordusunda deyil onların özlərində olacaqdır. Yarım saatdan sonra erməni başbilənləri Cəmil Cahid bəyin yanına gələrək, xalqın böyük hörmətlə Türk ordusuna bağlılığını və əmrlərə itaət edəcəklərini bildirdilər. Bundan sonra Komandan erməni başbilənlərinin böyük kilsəyə yığışmalarını tələb etdi. Cəmil Cahid bəy buradakı nitqində, ermənilərin indiyə qədər türklərə çox pisliklər

etdiklərini, bununla bərabər Türk dövlətinin onlara tam bir vətəndaşlıq hüququ verməsinə baxmayaraq onların nankorluq etməsindən söz açdı. Bu səbəbdən ermənilər cəzalandırılmalı olduqları halda, Türkün ulu vicdanının bir daha onları əfv etdiyini bildirdi. Albay Cəmil Cahid bəy ermənilərə silahı dərhal təhvil verməyi tələb etdi. Şuşanın azərbaycanlılar yaşayan hissəsində Türk ordusunun rəsmi keçid mərasimi keçirəcəyini bildirən Cəmil Cahid bəy, ermənilərin də bu mərasimdə iştirakını və beləliklə də, türklərlə barışmalarını istədiyini qeyd etdi. Bundan sonra Şuşanın erməni və türk məhəllələri arasındakı səngərlər yığışdırıldı və Türk ordusunun rəsmi keçid mərasimində ermənilərin də iştirakı təmin edildi. Şəhərin əhəmiyyətli qovşaq və məhəllələrinə Türk əsgəri yerləşdirilərək, asayiş təmin edildi.

Ermənilər, tarixin bütün dövrlərində özlərini məsum kimi qələmə veriblər. Hadisələri təhrif edərək dünya ictimaiyyətini çaşdırmağa çalışıblar. Ermənilər, Qarabağ və Şuşaya hakim ola bilmədikdə, həqiqətləri ciddi-cəhdlə ört-basdır etməyə başladılar.

Rusiyada isə vətəndaş müharibəsi gedirdi. Lenin Çar Rusiyasının sahib olduğu torpaqları əldən çıxarmamaq üçün böyük bir səy göstərirdi. Qafqazın əldən getməməsi üçün, çar dövründə olduğu kimi, Lenin də ermənilərdən istifadə edirdi. Erməni Orconikidze 12 oktyabr 1918-ci ildə Şimali Qafqazdakı Vladiqafqaz şəhərindən Leninə göndərdiyi teleqramda Cəmil Cahid bəyin etdiklərinin tam tərsini ifadə etmişdi. Teleqramda belə deyilirdi:

"Ermənistan böyük bir faciə içindədir. İrəvanın iki qəzasında 600 min qaçqın toplaşmışdır. Türklər Qarabağ ərazisini işğal edərək, orada yaşayan ermənilərin yarısını qırmışlar. Şuşa və Zəngəzur ərazilərini işğal ediblər. Andranik, Qarabağda xaincəsinə öldürülmüşdür. Erməni xalqı Sovet Rusiyadan kömək gözləməkdədir."[17].

Albay Cəmil Cahid bəy, sultankəndli Sultanovun komandanlığı altında bir türk milis dəstəsini Andranik qüvvələrinin ardınca göndərdi. Cəsarət və zəkasıyla tanınan Sultanov, Andranikin qüvvələrinə qarşı Qaladərə tərəfdən hücuma keçdi. Çox güclü həmlələr edən milislər Andranikin qoşununu dağıdaraq Gorusun cənubuna qovmağa müvəffəq oldu.[18]

Türk Qafqaz İslam Ordusu Komandanlığı, albay Cəmil Cahid bəyə 20 oktyabrda bir əmr göndərərək 1-ci Azərbaycan diviziyasının yenidən qurulmasını tələb etdi. Bu təşkilatlanmanı 9-cu Qafqaz alayı batalyonlarının Azərbaycan alaylarına bölüşdürülməsi şəklində həyata keçirmək qərara alındı. Şuşa və Ağdamın Məsudlu bölgəsində toplaşan 1-ci Azərbaycan diviziyası, yenidən qurulduqdan sonra Qarabağ bölgəsindəki erməni partizanlara həlledici zərbə vurmaq üçün hücuma keçməyə qərar verdi.

Qafqazda bu hadisələr davam edərkən, İstanbulda Tələt paşa hökuməti istefaya getdi. Sədrəzəmliyə gətirilən Əhməd İzzət paşa 9-cu Ordu və Türk Qafqaz İslam Ordusu Komandanlığına göndərdiyi əmrdə Qarabağ hərəkatının dayandırılmasını tələb edirdi. Qarabağdakı Türk hərbi qüvvələrinin dərhal geri çəkilməsini əmr edərək, iki millət arasındakı münaqişəni Azərbaycan hökuməti ilə ermənilərin siyasi yollarla həll etmələrini tövsiyə etdi. İstanbuldakı erməni lobbisi, ingilis və fransız nümayəndələrini, Qarabağ və Şuşada Türk ordusunun ermənilərə qarşı qətliam törətdiyinə inandırmışdılar[19].

Türk Qafqaz İslam Ordusu Komandanlığı Qarabağda olan hərbi qüvvələrin tabe olduqları diviziyalara qayıtmasını, 1-ci Azərbaycan diviziyasına da azərbaycanlı general Yusifovun komandirlik edəcəyini bildirdi. General Yusifov 8 noyabrda Ağdama gedərək, birliklərin rəhbərliyinə keçdi. Qarabağ hərəkatında iştirak edən 9 və 106-cı piyada alayları isə 5-ci Qafqaz piyada diviziyasına birləşdirilərək bölgəni tərk etdi.[20]

**4. Qarabağ hərəkatının sonu**

Türk Qafqaz İslam Ordusunun 1 oktyabrda başlayan Qarabağ hərəkatı 8 noyabrda başa çatmış və hərbi qüvvələr bölgəni tərk etmişdilər. Təxminən 40 gün davam edən bu hərəkatda, Şuşaya sığınan təxminən 20.000 azərbaycanlının Andranik qüvvələrinin əlinə keçməsinin qarşısı alınmışdı. Qarabağ bölgəsi erməni partizanlarından təmizlənmişdi. Türk Ordusunun Qarabağ hərəkatı, bölgədə yaşayan azərbaycanlıların mənəviyyatını yüksəltmiş, əhval-ruhiyyələrini düzəltmişdi. Ermənilərə gözdağı verilmiş, türklərə yönəlmiş azğınlıqların qarşısı alınmışdı. İstanbulda vəzifə başına gələn Əhməd İzzət paşa hökuməti, xarici ölkə nümayəndələrinin təzyiqi ilə hərəkət edərək, məsələnin əsl mahiyyətini qavraya bilməmişdir. Türk əsgəri Qarabağa girməsəydi, Andranikin dəstəsi və bölgədə yaşayan ermənilər azərbaycanlıları tamam məhv edəcəkdilər. 1-ci Qafqaz diviziyasının müdaxiləsi ilə Qarabağın müsəlman əhalisi mütləq bir ölümün pəncəsindən qurtulmuşdur. Əhməd İzzət paşa hökuməti, Birinci Dünya müharibəsinin son günlərində ixtilafda olduğu dövlətlərlə barışıq yolları axtardığı üçün Qarabağdakı hərbi qüvvələri geri çağırmışdır.

1. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 539.
2. Musayev, Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 83.
3. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 541.
4. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 376-377.
5. Qafqazdakı hərbi əməliyyatlarda iştirak edən Şövkət Sürəyya Aydəmir, xatirələrində bu mövzuda belə yazmaqdadır: "Olduğumuz yerdən, Ermənistanın

içindən və Zəngəzurdan keçərək, Qarabağa və bu surətlə Azərbaycana, Bakıya çatmaq üçün yol axtarırdıq. Bu bölgə içində bir kəşfiyyat hərəkətində mən də iştirak etdim. Girdiyimiz dağlıq Ermənistanda, pərakəndə türk kəndlərinə rast gəlirdik. Bir gecə, bu kəndlərdən birinin nağaraçısının, Mehmed Əmin bəyin bir şeirini, toy havası kimi çaldığını, zurnaçının da buna ayaq uydurduğunu gördüm: «Mən bir türkəm Dinim, cinsim uludur. Sinəm, üzüm Ataş ilə doludur. İnsan olan Vətəninin quludur.» Bu hadisə, mənə çox təsir etdi. Deməк ki, millətçi türk şairi buraya, bizdən daha əvvəl gəlmişdi.

6. Musayev, Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 84.

7. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 20.

8. Musayev, Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 84.

9. Eyni hadisələr, 1988-ci ildən etibarən, xüsusilə də Sovet İttifaqının dağılmasından sonra bir səfərə də yaşandı. Xankəndi, Şuşa, Xocalı, Ağdam və bütün Qarabağ ilə, Cəbrayıl, Füzuli, Zəngəzur kimi bir çox bölgədən türklər çıxarıldı. Bu bölgələrdə, dünya ictimaiyyətinin gözləri qarşısında etnik təmizlik aparıldı. Qarabağda yaşayan təxminən bir milyon türk, qaçqın vəziyyətinə düşdü.

10. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 598.

11. Berkok, böyük hərbdə Şimali Qafqazdakı fəaliyyətlərimiz, s. 55.

12. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 598.

13. Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, s. 377-381.

14. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 599.

15. Yenə orada.

16. Yücəər, Birinci Dünya savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan hərəkatı, s. 134.

17. Musayev, Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti, s. 85-86.

18. Yenə orada, s. 85.

19. Bax: Əlavə 5.

20. Yücəər, Birinci Dünya savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan hərəkatı, s. 134-136.

# VIII HİSSƏ

## BAKI ƏTRAFINDAKI ŞƏHİD MƏZARLARI

### 1. Novxanı şəhid məzarlığı

Bakının şimalında, təxminən 20 kilometrlik bir məsafədə duz çıxarılan Masazır və Mirdalabi gölləri var. Masazır gölünün şimalında, elə gölün yaxınlığında Novxanı qəsəbəsi yerləşir. Novxanı, Azərbaycanın müstəqilliyi üçün çalışan, "bir kərə yüksələn bayraq bir daha enməz" deyən, Azərbaycan Cümhuriyyətinin qurucusu, Milli Məclisin ilk rəhbəri və ilk dövlət başçısı Məmməd Əmin Rəsulzadənin də kəndidir.

Bu qəsəbənin qəbiristanlığında da qəhrəman bir məhmətçiyin məzarı var.

Türk Qafqaz İslam Ordusu, Bakını ələ keçirmək üçün əvvəlcə Binəqədi və Yanardağ ətrafındakı düşmən müdafiə xətlərini ələ keçirmək məqsədi ilə hərəkətə keçmişdi. Novxanı və ətrafında da qanlı döyüşlər gedirdi. Məhmətçik, ətrafdakı dərələrdə, təpələrdə qəhrəmancasına vuruşdu. Xain pusqusunun namərd gülləsinə hədəf oldu, al qanı töküldü. İndi Novxanıda və ətrafında qanı tökülən şəhidlərin məzar yerləri itib-batmışdır. Silahdaşları Zəmi məntəqəsində həlak olanları vurulduğu yerlərdə də torpağa basdırırdılar. Bir yandan müharibə bütün gücü ilə davam edir, bir yandan da ənənəyə görə şəhidlər torpağa düşdüyü yerdə və qanlı köynəyi ilə əbədiyyətə qovuşurdu.

Şəhidin yatdığı yer, Sovet hökuməti vaxtında tarla olub, əkilib-biçilməyə başladı. İllər sonra tarlanın bir guşəsində uyuyan şəhid zabitin məzarını, 1964-cü ildə traktorla dağıdıb, yer üzündən silmək istədilər.

Bu hörmətsizlik, bu vəfasızlıq novxanılı Kavus bəyə pis təsir etmişdi. Kavus bəy, hadisəni yoldaşı İnqilab bəyə danışdı. İnqilab bəy isə bizə bunları bildirdi.

**İnqilab Kazımbəyoğlu:**

"Bir gün Kavus gəlib mənə dedi ki, "Zəmidə türk zabitinin qəbrini traktorla dağıdıblar. Onu düzəltmək lazımdır. Orada qarovulçu var, mən onunla danışmışam, sənə məzarın yerini göstərəcək." Mən də ona, gəl bir yerdə gedək, dedim. Mənə dedi ki, "bilirsən zaman hansı zamandır. Mən oraya getsəm, hamısı məni tanıyır, mənə bir pislik eləyə bilərlər", dedi. Mən də binəqədili Akif Cəfərov ilə Süleyman Mirzalını götürüb getdim. Oraya çatanda qəbrin tamam dağıdıldığını gördük. Şəhid türk zabitinin sümükləri tarlanın üzünə çıxmışdı. Onları topladıq. Novxanıya, yəni indiki məzara gətirib torpağa basdırdıq." (Şəxsi arxiv).

Sovet hökuməti o illərdə bir millətlər həbsxanası, bir qorxu imperiyası idi. Müasir çarların şərindən hər kəs çəkinirdi. Sibirə sürgün edilərək, bir daha dönməmək təhlükəsi vardı. Nə edəsən ki, can əziz, can şirindi. İnqilab bəy, bu

vətəni, bu torpağı onlara hədiyyə edən qəhrəmanların əziz xatirəsini daima hörmətlə yad edirdi. Atalarını hörmətlə yad edir, keçmişə sahib çıxırdı. Məhmətçiyin yatdığı yerin itməməsi üçün bir məzar düzəldilməsinin lazım olduğuna qərar verdi. Ancaq bu işi mümkün qədər gizli etmək lazım olduğunu da bilirdi.

Azərbaycanlılar o illərdə KQB-nin hədəfinə tuş olmaqdan qorxurdular. KQB əməkdaşları bir dəfə şübhələndisə, bunun nə ilə nəticələnəcəyi bilinməzdi.

**İnqilab bəy:**

"O zamanlar çox qorxulu günlərdi. Gördüyümüz işi və bunun bir türk zabiti olduğunu heç kimə bildirmədik. Məzarın üstünə qoyduğumuz daşın üstünə də bunları yazdırmışdım:

Eşidib fəryadın Azərbaycanın,
Tərəddüd etmədən dada yetişdim,
Xalqımın yolunda keçib canımdan,
Əbədi şöhrətə, şana yetişdim.

Azərbaycanda uzun illər bizi 11-ci Qızıl Ordunun xilas etdiyini deyirdilər. Bu sözlərin mənası o idi ki, bizi 11-ci Qızıl Ordu xilas etməmişdi. Bizi Türk ordusu qurtarıb. O zamanlarda Nuru paşa, Xəlil paşa, Mürsəl paşa vardı, bizi onlar xilas ediblər." (Şəxsi arxivimiz).

Novxanıda yatan qəhrəmanın məzarının postamenti kəsmə daşdan, məzar isə betondan düzəldilib. Üzərindəki mərmərə də kiril əlifbası ilə yuxarıdakı bir bənd şeir həkk olunub. Məzarın ayaq tərəfinə, kitabənin altına yenə kiril hərfləri ilə TÜRK sözü yazılıb. Mərmər kitabədəki hərflərin bir hissəsi əlyazma, bir qismi isə çap hərfləri ilə yazılıb. 1964-cü ildə düzəldilən məzarın üstündə qoyulan kitabənin də ayrı bir hekayəti var. İnqilab bəy bu yazıları daşa yazdırarkən, özünə görə tədbir görmüşdü.

**İnqilab bəy:**

"Bu məzarı mənim düzəltdiyimi, kitabədəki sözləri mənim yazdırdığımı sübut etməsinlər deyə, belə bir üsula əl atdım. Çünki biri gedib şikayət edə bilərdi. Sübut olunsaydı, mənim də sonum ya güllələnmək, ya da Sibirdə çürümək idi." (Şəxsi arxivimiz).

Novxanı və ətraf qəsəbələrdə yaşayanlar, şəhid türk zabitini bir milli qəhrəman kimi qəbul edirlər. Məzarı fürsət düşdükcə ziyarət edərək, ruhuna dualar oxuyur və fatihə verirlər. Bunlardan biri də Hüseynağa Təvəkküloğludur.

"Bu qəbir mən göz açandan bəri, Binəqədi kəndi ilə bizim kənd arasındakı zəmidəydi. O vaxtlardakı vuruşda dəfn edilmişdi. Biz uşaq vaxtı oraya "türk qəbirinin yanı" deyirdik. Haradaydın, deyə soruşanda, türk qəbrinin yanındaydım, deyərdik. Gizli-gizli ziyarət edər, dua oxuyardıq. 1964-cü illərdə buraya köçürülüb dəfn edildiyini öyrəndik. Babamın, atamın, nənəmin məzarını ziyarət edəndə, bu

qəbri də ziyarət edirdim. O illərdə bizim namusumuz, qeyrətimiz əldən gedəcəkdi. Onlar gəldilər, bizi xilas elədilər." (Şəxsi arxivimiz).

Bakı kəndlərində, təpələrin yamacında, tarlalarda, düzlərdə bir çox adsız qəhrəman uyuyur. Al qanlarıyla bu torpaqları suladılar. Evlərini, yurdlarını, od-ocaqlarını buraxıb Qafqazdakı qardaşlarının harayına gəldilər. Can verdilər, qanlarıyla buralara yenidən həyat bəxş etdilər. Novxanı qəsəbəsinin ağsaqqalları, Azərbaycanın və Bakının düşmən işğalından qurtuluşunu, ermənilərin etdiyi qətliamın qarşısının alındığını nəsildən-nəslə ötürürlər.

**Novxanılı bir ağsaqqal:**

"Ermənilər az qalmışdı ki, Azərbaycanı yox eyləsin. Camaat Bakının kəndlərinə, bağlarına sığınmışdı. Binəqədi kəndi tam üç ay ermənilərin əlində qalmışdı. Məsələn, o tərəfdə Fatmayıya az qalmışdılar, yaxınlaşmışdılar. Bakıda bizdən 10 min türkü qırdılar. Məmməd Əmin Rəsulzadə Türkiyəyə getdi və kömək istədi. Onlar da gəldi."

**Novxanılı başqa bir ağsaqqal:**

"1943-cü ildə dəyirmana qara nöhüt (unluq buğda) daşıyırdım. Oradan keçərkən, şəhid türk qardaşın baş daşı yıxılmışdı. Onu yerinə qoydum, kənarını bərkitdim. Sonra dəyirmana nöhütü verdim. Orada Balamirzə adlı bir kişi vardı. Vəziyyəti ona danışdım. O da mənə 1918-ci ildəki döyüşlərdən danışdı, dedi ki: "Türklər gəldi, bizi, cavanları yığdılar. Binəqədi dağında ermənilər topları bağlamışdı. Biz də aşağıdakı şoranlıqdaydıq. Bizə başçılıq edən türk zabiti əmr eylədi "gavurun gülləsi adama dəyməz, irəli, hücum" dedi. Dağa hücum eylədik. Qələbə qazandıq." Mən Balamirzəyə şəhid olanlar necə oldu, dedim. Hücuma keçəndə onların şəhid olduğunu söyləmişdi". (Şəxsi arxiv).

**Novxanılı digər ağsaqqal:**

"Oğul-uşağını evində qoyub gəlmək, hər adamın işi deyil. Mənim anam deyərdi ki, "zabit bağa, atamı ziyarətə gəldiyində, mənim böyüyüm olan qardaşım vardı. Onu yanına alıb oyunlar oynarmış. "Bunun kimi, eyni yaşlarda mənim də iki dənə övladım var" deyirmiş. Onlar bu halda gəlib bizi erməni və rus qırğınından qurtardılar. Şəhid olduqları yerdə dəfn olunurdular. Onlarda qorxu-filan yox idi, deyərdi." (Şəxsi arxiv).

Azərbaycan müstəqillik qazandı. Qanlar bahasına. Ancaq azadlıq və müstəqillik uğrunda tökülən qan müqəddəsdir.

**Nəsir Ağayev:**

"Tələt paşa demişdi ki, külək əkən ermənilər tufan biçəcəklər. Biz bunun nəticəsini 1918-ci ildə gördük. Mərdəkana, Zabrata, Maştağaya qədər irəliləmişdilər. Türk ordusu Bakıya girərək, Bakını Azərbaycana və türk millətinə hədiyyə etmişdir. Biz çox istərdik ki, o döyüşlərdə şəhid olmuş türk əsgərlərinin məzarları, Mərdəkanda, Fatmayıda, Xırdalanda və Azərbaycanın başqa yerlərində,

kaş o zaman müəyyən edilmiş olaydı. Bu şəhidlər bizə nəyi göstərir: Türk dünyasının birliyi, o yolda verdiyi şəhidlərin sayı ilə ölçülür. Dünyanın hər yerində, türk əsgərinin getdiyi yerdə, hürriyyət və azadlıq üçün şəhid olduğuna hər kəs şahid olmalıdır." (Şəxsi arxiv)

Novxanı xalqı şəhid zabitin qəbrinin olduğu yerdə bir abidə ucaltmaq istəyir. Qəhrəmanın əbədi yuxuya getdiyi yerin bir daha yer üzündən silinməməsi üçün, dünya durduqca bu torpaqlar uğrunda gedən mübarizənin xatırlanmasını arzu edir. Novxanılılar qədir-qiymət bilən insanlardır. Onlara kömək əli uzadanları heç vaxt unutmadılar. Bu anlayış türk millətinin bir xüsusiyyətidir. Erməni daşnaklarının və rus bolşeviklərinin Qafqazda törətdiyi qətliamın qarşısını alan qəhrəmanları bağırlarına basırlar.

**İnqilab bəy:**

"Mənim arzum bu türk zabitinin qəbrinin olduğu yerə bir türbə, bir abidə qoyulmasıdır. Amma nə mənim, nə də dostlarımın bu işi etməyə maddi imkanı yoxdur".

Anadolunun dörd bir tərəfindən, hər guşəsindən, hər evindən ən azı bir kişi Birinci Dünya müharibəsinə getmişdir. Bunların böyük bir hissəsi geri dönməmiş, həlak olmuşdur. O qəhrəmanların adına ağılar deyilmiş, türkülər söylənmişdir. Bu türkülər, bu şeirlər Qaf dağının hər guşəsində hələ də tərənnüm edilməkdədir.

*Qəhrəmanlıq, nə yalnız bir yüksəliş deməkdir,*
*Nə də ulduzlar kimi parlayıb sönməməkdir.*
*Ölməzliyi düşünmək boşuna bir əməkdir.*
*Qəhrəmanlıq, saldırıb bir daha dönməməkdir.*

*Sızlasa da qəlbimiz ölənlərin yasından,*
*Qoşar addım getməli onların arxasından,*
*Qəhrəmanlıq, içərək acı ölüm tasından,*
*İrəliyə atılıb və sonra dönməməkdir.*

*Dayan, yolçu!*
*Bilmədən gəlib basdığın bu torpaq*
*Bir dövrün batdığı yerdir.*
*Əyilib qulaq ver, bu səssiz yığın*
*Bir vətən qəlbinin atdığı yerdir.*
*Bu izsiz, kölgəsiz yolun sonunda*
*Gördüyün bu tümsək Anadolunda*
*İstiqlal uğrunda, namus yolunda*
*Can verən Mehmədin yatdığı yerdir.*

**2. Mərdəkan şəhid məzarlığı**

Xəzər dənizinin qərb hissəsində bir yarımada var. Qartal dimdiyi kimi dənizə uzanır. Abşeron yarımadası. Bu yarımadada bir qəsəbə var, adı Mərdəkandır - mərd insanların məkanıdır, orada igidlər yaşayır. Mərdəkanda orta məktəbin bağçasında bir tut ağacı var. Keçmişə şahidlik edəcək qədər yaşı var. Bir ağsaqqal kimi sözü-söhbəti dinlənən, bildiyi çox şey olmalıdır.

Söz vermişdik, tut ağacı dururmu, gedib baxacaqdıq. Qara tutlar yenə barmaq boydadırmı? Kölgəsində çiyin-çiyinə yatan iki igidi yenə qucaqlayırmı? Getdik, gördük və qara tutların dadına baxdıq. Torpağa düşmüş bu iki igid, Mete xanın övladları, bəlkə qara tutun dadına baxa bilmirlər... Amma qanlarıyla qara tutlara həyat bəxş edirlər, qida verirlər. Vətən bildikləri torpaqlarda rahatca uyuyurlar, başları dik, qəhrəmancasına... Tut ağacı qurumayıb, yaşıldır, yaz gələndə meyvə gətirir, hər il... Qara, sulu, meyxoş və ləzzətli...

Nuru paşanın komandanlığı altında olan Türk Qafqaz İslam Ordusu Gəncədən Bakı üzərinə hərəkətə keçmişdi. Erməni-bolşevik partizanları, uşaq-qadın, qoca-cavan demədən qətlə yetirirdilər. Abşeron yarımadasındakı qəsəbə və kəndlərə də rahatlıq vermirdilər. Azərbaycanlılar isə canlarını qurtarmağa çalışırdılar...

**Əli Zəhab Əliyev (Mərdəkan):**

"Mənim anam 1918-ci ildə 18 yaşındaymış. O bizə danışırdı ki, ermənilər Bakıya gələndə, buralara da basqın ediblər. Anamın dayısı Məşədi Qüdrət var imiş. Yoldaşlarıyla axundun yanına gedib məsələni ona bildirirlər, nə edək, deyə soruşurlar. O da, əvvəlcə gedin hamamda çimin, qüsul edin, sonra da düşmənlə döyüşə girin, deyir. Mənim anamın dayıları Məşədi Qüdrət ilə Həsən və mənim dayım Əhməd ilə 8 kişi kəndi müdafiə etmək üçün silahlı mübarizəyə qalxırlar. Anamın dayısı Həsən, Bülbülə kəndi ətrafındakı döyüşdə yaralanır. Bülbüləlilər onu evlərinə aparırlar. Kimin oğlusan, deyə soruşurlar, o da mərdəkanlı Məşhədi Ramazanın oğluyam, deyir. Atasına xəbər verirlər ki, gəlib onu aparsın. Qalanları isə vuruşmanı davam etdirirlər." (Şəxsi arxiv)

**Tahir Tahirov** (Mərdəkan):

"Mənim atam 1863-cü ildə anadan olub. Türk əsgərinin Mərdəkana gəlməsini biz uşaq olanda bizə danışardı. Ermənilərin Bakıda törətdikləri qırğından sonra, ətraf kəndlərdən əli silah tutanlar yığışıb, Mərdəkana və ətraf kəndlərə girmələrinə imkan verməyiblər. Atamın danışdığına görə bizimkilər könüllü dəstələr yaradıblarmış. Ermənilər bir tərəfdən Suraxanıya, bir tərəfdən də Zabrata girirlər. Maştağalılar ilə binəlilər və biz mərdəkanlılar onlara qarşı durduq, deyərdi". (Şəxsi arxiv).

**Qılman İlkin:** Canlı şahid (Azərbaycan xalq yazıçısı) şair.

"Ermənilər Bakıda qırğınlar törədəndə Bakı kəndlərindən bir çox gənc, könüllü olaraq yığışmış, Bülbülədəki gölün yanında müdafiə xətti qurmuşdular.

Qəhrəmanca vuruşaraq, ermənilərin Bakı kəndlərinə girməsinin qarşısını almışdılar. Yaxşı yadımdadır, bizim kənddən də Paşa, Qüdrət, Əhməd və daha bir çox gənc onlarla vuruşmuşdu. Şəhid olanları gətirib kənddə dəfn edirdilər. Mən o zamanlar uşaq idim, ancaq hamısını gözlərimlə gördüm. Bir müddətdən sonra türklər bizə köməyə gəldilər. Türk ordusunun buralara gəlməsi mənim hələ də xatirimdədir. Türk əsgərinin Mərdəkana girməsini kənd camaatı hərarətlə qarşıladı, şənliklər təşkil olundu, sevinc göz yaşları axıdıldı. Hər tərəfdə bayram əhval-ruhiyyəsi hakim idi. Hamımıza böyük bir sevinc hakim olmuşdu." (Şəxsi arxiv).

Bu göz yaşları fələyin ayırdığı qardaşların qucaqlaşması idi. Mərdəkanlılar, binəlilər, Abşeronda yaşayan Oğuz türkləri uzun illərin həsrətini bir anda unutdular. Birlikdə vətəni qorumağa qalxdılar. Mərdəkan bölgəsində yerləşəcək hərbi qüvvələrin qərargahı olaraq Hacı Zeynalabdin Tağızadənin tikdirdiyi məktəb seçilmişdi. Bu məktəbin bəzi sinifləri yaralı əsgərlərin müalicə edildiyi bir səyyar xəstəxana rolunu oynayırdı.

**Qılman İlkin** - xalq yazıçısı:

"Türklər Mərdəkandakı məktəbdə yerləşdilər. Qərargahı burada qurdular. Əsgərlərin içində bir çox zabit vardı. Atam anama hər gün cürbəcür yeməklər bişirtdirirdi. Bu yeməkləri mənimlə və böyük qardaşımla göndərirdi. Yalnız biz deyil, bütün Mərdəkan əhli əsgərlərə yemək bişirib gətirirdi." (Şəxsi arxiv)

**Abdulla Əliyev** - mərdəkanlı:

"Anam Tamara, o illərdə 13 yaşındaymış, dediyinə görə, bir gün axşamüstü kəndxuda bağa gəlir. O ətrafda sayılıb-seçilən kişilərdən olan babam Nağıyev Qasım Həsən oğluna deyib ki, türk qardaşlarımız gəlib. Onlara yatmaq üçün yer lazımdır. Sizə də bəzi əsgərlər gətirib qonaq edəcəyik, deyir. Anamın danışdığına görə, türk əsgərləri bir az sonra bağa giriblər. İçlərindən bəziləri süvari imiş. Başçıları Kamal İbrahim bəy adlı bir zabit imiş. Onlar əl-üzlərini yuyub, rahatlanırlar. Sonra isə yemək yeyirlər." (Şəxsi arxiv)

Türk Qafqaz İslam Ordusu bölgədəki erməni daşnaklarını və rus bolşevik qüvvələrini dağıtdı. Xalqı ölümdən qurtardı. Bakı ətrafı və Abşeron yarımadasındakı düşmənin yox edilməsi üçün gedən döyüşlərdə yaralananlar, şəhid olanlar da vardı. Yaralılar, xəstəxana kimi fəaliyyət göstərən məktəb binalarında müalicə alırdılar. Düşmən gülləsindən qurtara bilməyənlər isə ətrafdakı müsəlman qəbiristanlıqlarında, ya da müvəqqəti xəstəxanaların bağçasında, buna da imkan olmayanda torpağa düşdükləri yerdə basdırılırdılar.

**Qılman İlkin** - xalq yazıçısı:

"Sovetlərin o qızğın vaxtlarında o məzarlara yaxınlaşmaq, türk adını dilə gətirmək qadağan idi. O qəbirlərə əhəmiyyət verən yox idi. Buna baxmayaraq, xalqın ruhunda, ürəyində o türk əsgərinə qarşı məhəbbət yaşadılmışdır. Heç bir qüvvə, heç bir qadağa türklərə qarşı olan məhəbbəti kənd camaatının ürəyindən

çıxara bilməmişdir. Türklərin bir xilaskar kimi kəndlilərlə davranışını bizlər heç bir zaman unutmarıq." (Şəxsi arxiv)

Mərdəkan və ətrafdakı kəndlərin ağsaqqalları, yaşlıları, qocaları, ağbirçəkli nənələri, türk əsgərinin köməyini heç unutmadılar. Sovet hökuməti vaxtında övladlarına, nəvələrinə bu hekayəti danışdılar, hökumət tərəfindən qadağan olunsa da.

**Qılman İlkin** - xalq yazıçısı:

"Mən orta məktəbdə oxuyarkən, 1922-23-cü illərdə, məktəbin bağçasında məzarlar var idi. Türk əsgərlərindən yaralı olub ölənləri burada dəfn etmişdilər. Məktəbin o hissəsində daşları yıxılmış, üstü pozulmuş qəbirlər gördüyümü yaxşı xatırlayıram." (Şəxsi arxiv)

Türk ordusu üzərinə düşən vəzifəni yerinə yetirib geri çəkildikdən sonra, Qızıl Ordu, yerli tərəfdarlarının köməkliyi ilə Azərbaycanı işğal etdi. Hakimiyyəti ələ keçirən yerli kommunist bolşeviklər xalqın şəhidlərin məzarlarını ziyarət etməsini qadağan etmişdilər.

**Qılman İlkin** - xalq yazıçısı:

"Bu qəbirlər bizim uğurumuzda, bizim xoşbəxtliyimiz üçün şəhid olan türk əsgərlərinindir. Ona görə onların xatirəsi bizim üçün əzizdir. Yadımdadır, kənd camaatı və biz uşaqlar məktəbin böyük qapısında durar, onların təlimlərinə tamaşa edərdik. Nə onların, nə də bizim bir-birimizdən çəkinəcəyimiz olmazdı. Onlara qarşı hər zaman öz sevgimizi ifadə edərdik. Kənd əhli türk əsgərini kənd adamlarından biri kimi, öz əsgərləri kimi qəbul edirdi. Çünki qanı bir, canı bir türk milləti idi. O tarixlərdə "azərbaycanlı" sözü yox idi. Biz özümüzü türk olaraq adlandırırdıq. Bakıda yaşayan ermənilər, ruslar da bizə "türk milləti" deyirdilər. Sonralar, 25-ci illərdən sonra türk kəlməsini işlətmək qadağan olundu. Bir-iki nəsil sonra isə türk kəlməsini tamam yaddan çıxardıq". (Şəxsi arxiv)

Azərbaycanlı türklər, Türkiyədən yardıma gələn şəhidlərin məzarını ziyarət edə bilmirdilər. Lakin torpağa üz qoyan qəhrəmanların xatirəsini ürəklərində yaşatmaqda davam edirdilər. Mərdəkanlılar qədir bilən insanlardır. Qaf dağından yüksələn naləni eşidib, Anadoludan köməyə gələn qardaşlarına bir vəfa borcları olduğunu düşünürdülər.

Bunlardan biri də mərdəkanlı **Elman Pənahov** idi:

"Məzarların yerini dəqiq müəyyənləşdirmək üçün kənd ağsaqqalları və canlı şahidlərlə dəfələrlə danışdım. Xalq yazıçısı Qılman İlkin, doktor Fərid, bəzi həkimlər, Bakının tarixi ilə maraqlanan canlı ensiklopediya dediyimiz Şeyx Sənan ilə görüşdüm. Hadisələrin gedişini öyrəndim. Məzarların yerini təyin elədim." (Şəxsi arxiv).

Elman bəy, Mehmətçiklərin yatdığı yeri təyin etdikdən sonra, buraya bir abidə qoydurmağı özünə borc bilmişdi. O illərdə Azərbaycanın müstəqillik qazanması da Elman bəyə güc, qüvvət vermişdi.

**Elman bəy** - mərdəkanlı:

"Keçmişdə babamdan, atamdan, bu hadisələrin şahidlərindən eşitdiklərimi ürəyimdə canlandırmışdım. Şükürlər olsun ki, 90-cı illərdən sonra bu işi həyata keçirmək üçün mənə qol-qanad, güc, qüvvət verildi. Daha sonra Türk səfirliyinə getdim. Məsələni onlara açdım." (Şəxsi arxiv)

Qəhrəmanların əbədi uyuduqları yerlərin təyin edilməsi və şəhid məzarlıqlarının düzəldilməsi üçün Türkiyənin Bakıdakı səfirliyi və Türk Silahlı Qüvvələr Attaşeliyinin də bu işdə böyük xidmətləri oldu. Azərbaycanda ilk dəfə türk əsgərlərinin məzar yeri tapılmış və oraya bir abidə qoyulmuşdu. Mərdəkan qəsəbəsindəki Türk şəhid məzarlığı abidəsinin açılışı 1998-ci ildə oldu. Azərbaycan Sovet İttifaqı dağıldıqdan sonra tarixi günlərindən birini yaşayırdı.

**Elman Pənahov** - mərdəkanlı:

"Bu açılış vaxtında, dövlətin ədəbiyyat və incəsənət xadimləri, Türk səfiri və işçiləri ilə mərdəkanlılar iştirak etdilər. İki ölkənin himni oxundu. Türkiyəli və Azərbaycanlı mollalar dualar oxudu, salavat çevrildi. Daha sonra məktəbin böyük salonunda milli adətlərə görə yığıncaqlar oldu." (Şəxsi arxiv)

Qəhrəmanların məzarının üstündə bu sözlər yazılmışdır:

"1918-ci ildə Bakıda ermənilər tərəfindən törədilən azəri soyqırımının qarşısını almaq üçün köməyə gələn Türk Ordusunun şəhid olmuş iki əsgəri burada uyuyur".

Məzarların ayaq tərəfində olan yaşlı tut ağacını tikinti işləri gedərkən kəsmək istəmişdilər. Ancaq ağsaqqallar buna imkan verməmişdilər. Ancaq ağacın bəzi budaqları kəsilərək, məzarların uzaqdan görülə bilməsi təmin edilmişdir. Məzarların açılış mərasimində də duyğulu anlar yaşanmışdı. Mərasimdə çox hərarətli sözlər deyildi, hər iki xalqın qardaşlığından və 1918-ci ildə Qafqazda gedən döyüşlərin əhəmiyyətindən söz açıldı. Orada olanlardan biri, bir tərəfdən danışılanlara qulaq asırdı. Bir tərəfdən də sevinc və həyəcana, eyni zamanda hüznə qapılmışdı. Bu duyğular altında dodaqlarından bu misralar tökülməyə başladı:

**NƏ OLAR ÖLMƏ, TUT AĞACI**

*"Qafqazda yatan şəhidlərimizə"*

*Tut ağacı*
*Sən fidankən,*
*İl 1918,*
*Mövsüm bahardı.*

*Gəncə, Göyçay,*
*Şamaxı, Kürdəmir,*
*Salyan küçələri*
*Qan rəvandı...*

*Ağ, sarı, bənövşəyi açan*
*Qafqaz çiçəkləri,*
*Qan rəngində,*
*Ətri də qan-qan.*

*Gəlinlik qızlar,*
*Beşikdəki balalar,*
*Ağbirçəkli analar,*
*"Onların yolunu gözlərdi".*

*Onlar:*
*Qar, boran nədi demədən*
*Toroslardan,*
*Palantökənlərdən,*
*Qatar-qatar Qopub gəldilər.*

*Qartallar kimi*
*Qanad çalıb Qafqaza*
*Xışımla*
*Düşmənin başına endilər.*

*Bir deyil*
*Min deyil*
*Yüz mindilər*
*Anadolulu igidlər.*

*"Dərin sulara qılınc çalar kimi"*
*Bakıya irəlilədilər.*
*İl 1918*
*Mövsüm son bahardı,*
*Bakı küçələri*
*Qan rəvandı.*

*Ağ, çəhrayı, sarı açan*

*Bakı gülləri*
*Qan qırmızı*
*Ətri də qan, qan.*

*Onlar*
*15 sentyabr 1918-də*
*Şəhərə girdilər.*
*Lakin ...*
*Azərbaycan uğrunda*
*Tam min yüz qırx şəhid verdilər.*

*Nə olar ölmə, tut ağacı!*
*Altında yatan,*
*Köklərinlə sarmaladığın,*
*Qanlarından sulandığın,*
*Ətindən, sümüyündən can aldığın,*
*Yarpaq açıb,*
*Bar verdiyin bu şəhidlər,*
*Sən fidankən,*
*Onlar on səkkizindəydilər.*

*Onların əhdi vardı:*
*Azad etdikləri milləti,*
*Qurtardıqları dövləti*
*Və bir də səni,*
*Yaşadacaqlardı.*

*Nə olar ölmə, tut ağacı!*
*Əgər sən ölsən,*
*Kim onlara kölgə olacaq,*
*Dam olacaq,*
*Telli, duvaqlı*
*Yar olacaq.*[1]

Onlar al qanları ilə nazlı-nazlı sallanan al bayrağı rənglədilər. Şəhidlərin baş tərəfində sancılmış üçrəngli Azərbaycan bayrağı ilə Türk bayrağı əsən yellərlə ürəklərincə dalğalanırlar. Mərdəkandakı Türk şəhid məzarlığı ətraf camaat tərəfindən "müqəddəs bir yer" olaraq qəbul edilir. İndi bir ziyarətgaha çevrilmişdir. Mərdəkan Bələdiyyəsi də bu məzarlığa sahib çıxır.

**Asəf Müftüoğlu** - Mərdəkan Bələdiyyə sədrinin müavini:

"Biz hər il 31 martda bu şəhid məzarlığında bir mərasim təşkil edirik. Mərdəkan ağsaqqalları, nümayəndələri, hökumət adamları və şagirdlər bu mərasimdə mütləq iştirak edirlər. Türk Səfirliyindən və qəzetlərdən də gələnlər olur. Mərasimdə şagirdlər şeir söyləyirlər. Qəbiristanlıq müqəddəs bir yerə çevrilmişdir. Bələdiyyə oranın qorunması qulluq edilməsi üçün heç bir köməyini əsirgəmir." (Şəxsi arxiv)

Birinci Dünya müharibəsi sona çatdıqdan sonra Türk Ordusu Qafqazdan çəkildi. Mərdəkanda olan hərbi birləşmələr də Anadoluya dönmək məcburiyyətində qaldı. Bu hadisə, uzun illər bir-birindən ayrı düşmüş, bir-birinə yeni qovuşan qardaşlara yeni bir hüzn, yeni bir həsrət də gətirmişdi.

**Qılman İlkin** - xalq yazıçısı:

"Türk əsgərləri bizdə gözəl bir xatirə, həzin bir duyğu qoyub getdilər. Və bu xatirələr heç bir zaman bizim xalqımızın ürəyindən silinməyəcək və hər zaman yaşayacaqdır."

Qafqazda, Azərbaycanda yaşayan türklər, onları bolşevik-daşnak qətliamından qurtaran qəhrəmanlara minnətdarlıq duyğularını hər fürsətdə dilə gətirirlər. Qəhrəmanların məzarlarının bərpasını təmin edən Türk Silahlı Qüvvələrinə öz minnətdarlıqlarını ifadə edirlər.

**Elman Pənahov** - Mərdəkan:

"Mənim bu çalışmalarım, şəxsən soyuma olan bir hörmətdir, hörmət ifadəsidir. Bu mənim üçün ən böyük şöhrətdir. Yaxşı bir atalar sözü var: Tikmədim özüm qalam, tikdim ki, izim qala. Mən bunu özümə bir borc kimi qəbul edir və bununla fəxr edirəm." (Şəxsi arxiv)

Mərdəkandakı tut ağacı qurumayıb, tut ağacı yaşıldır, tut ağacı hər yaz gələndə meyvə gətirir, hər il Qara, sulu, meyxoş, ləzzətli... Biz də qara tut ağacının altında əbədi yuxuya gedən Mehmətçiyin xatirəsini hörmətlə yad edirik:

*Sənin baş ucunda daş,*
*Bizim gözümüzdə yaş,*
*Sən borcunu ödədin,*
*Sıra bizdə, arkadaş.*

**3. Bakı şəhid məzarlığı**

Türk Qafqaz İslam Ordusu, Göyçay döyüşündən sonra Bakı üzərinə yerimişdi. Cənub qrupu birlikləri, Kürdəmir-Salyan-Neftçala bölgəsini erməni və rus bolşevik qüvvələrindən tamamilə təmizləmişdi. Şimal qrupu isə Şamaxı və Mərəzə istiqamətində irəliləmiş və böyük uğur qazanmışdı. Ancaq Türk Qafqaz İslam Ordusu son dərəcə ağır şəraitdə döyüşü davam etdirirdi. Buna görə əsgər yorulmuşdu. Cəbhədəki komandirlər, əsgərin dincəlməsini, ərzaq və sursatla təmin edilə bilməsi üçün, döyüşlərə bir neçə gün ara verilməsini istəyirdilər. O

günlərdəki hadisələri Azərbaycan Milli Elmlər Akademiyasının üzvü, professor Musa Qasımlı belə bildirir:

"Göyçay müharibəsindən sonra, Türk Qafqaz İslam Ordusunun qalibiyyəti, Bakının qurtarılmasının zəruriliyini daha da artırdı. Çünki Göyçay döyüşlərindəki uğur, Bakı Xalq Komissarları Sovetinin iflasını sürətləndirdi. Bakıda böhran dərinləşdi. 31 iyulda Bakı Xalq Komissarları Soveti tam dağıldı. Onun yerinə Sentrokaspi Diktatorluğu quruldu. Bu diktatura, rus, erməni və digər qeyri-azərbaycanlılardan ibarət idi. Mahiyyətinə görə bu hökumət də anti-Azərbaycan xarakteri daşıyırdı. İngilislərin məsləhəti ilə qurulmuşdu. İngilislər Bakını türk hücumundan qorumaq üçün Sentrokaspi hökuməti tərəfindən dəvət edilmişdilər. Belə bir şəraitdə Sentrokaspi hökuməti tərəfindən İngilislərin Bakıya dəvət edilməsi, əslində, yerli əhali üçün vəziyyəti dəyişdirmədi. İngilislərin avqustun ortalarında Bakıya gəlməsi, Bakı neftinə sahib durmağa yol açmışdı. Azərbaycanın zəngin təbii sərvətlərini ələ keçirmək üçün yol açmışdı. Beləliklə, ingilislər Xəzər dənizinə nəzarət etməyə başladılar. Xəzərə sahib olan Orta Asiyaya və Qafqaza hakim olurdu. İngilislərin üzünə bu yol açılmışdı. Beləliklə, Qara dənizdən Hindistana gedən yol üzərində heç bir maneə qalmırdı. Ortaya çıxan bu yeni hərbi və siyasi vəziyyət Osmanlı Dövləti və Qafqaz İslam Ordusunun xeyrinə deyildi. Digər tərəfdən Sentrokaspi hökumətinin yeritdiyi siyasət, milli və dini zülm siyasəti idi. Bakıdakı türklər ümidlərini Türk Qafqaz İslam Ordusu və Osmanlı Dövlətinə bağlamışdılar. Hər nə olursa-olsun, Bakının mütləq azad edilməsi lazım idi."[2]

İngiltərə, Rusiya və Almaniya kimi dövlətlər isə Türk ordusunun hərəkatı tezliklə dayandırması üçün Baş Komandan vəkili Ənvər paşaya arasıkəsilməz təzyiqlər edirdilər.

**Musa Qasımlı:**

"Bakının düşmən işğalından qurtarılması üçün Azərbaycan və Osmanlı Dövləti baxımından bəzi çətinliklər ortaya çıxırdı. Azərbaycan üçün olan çətinliklər bunlar idi: hər şeydən əvvəl Azərbaycan Dövləti yeni qurulmuşdu. Azərbaycanın hərbi qüvvəsi yox idi. Könüllülərdən və milislərdən meydana gələn bir qüvvə ilə hücuma keçərək Sentrokaspi hökumətini və ingilis qüvvələrini Bakıdan çıxarmaq mümkün deyildi. Şəhərə zərər vermək də olmazdı. Çünki Bakı bir Azərbaycan şəhəri idi. Azərbaycan Ordusunun kifayət qədər gücü və bazası da yox idi. Bütün ümidlərini Osmanlı Dövlətinə bağlamışdı. Türk hökuməti bir tərəfdən öz torpaqlarına basqın etmiş düşmənlə döyüşür, digər tərəfdən isə Azərbaycan hökumətinə kömək edirdi.

İkinci çətinlik isə dövlətlərarası münasibətlə bağlı idi: bu çətinlik həm Azərbaycan üçün, həm də Osmanlı Dövləti üçün vacib idi. Osmanlı Dövlətinin Bakını qurtarmasına Rusiya və İngiltərə qəti şəkildə etiraz edirdi. Eyni zamanda

Osmanlı Dövlətinin müttəfiqi olan Almaniya da buna imkan vermək istəmirdi. Bakı, tarix boyu Azərbaycanın paytaxtı olmuşdu. Eyni zamanda siyasi, hərbi, iqtisadi, mədəni və sənət mərkəzi olduğunu da almanlar çox yaxşı bilirdilər. Bakı Türk ordusu tərəfindən işğaldan qurtarılar və azad edilərsə, bu vəziyyət Azərbaycan xalqının ümidlərinə cavab verən bir nəticəyə gətirib çıxaracaqdı. Bu səbəbdən Bakını sonradan ələ keçirmək mümkün olmayacaqdı. O baxımdan, bütün qüvvələr Osmanlı Dövlətinin Bakını azad etməsinin əleyhinə idilər. Belə olduqda, bolşevik Rusiya, Bakının Osmanlı Dövləti tərəfindən azad edilməsi əvəzinə, şəhərə almanların girməsinə razı idi. Buna görə Rusiya ilə Almaniya arasında 27 avqust 1918-ci il tarixində Brest-Litovsk Müqaviləsinə əlavə olaraq 17 maddədən ibarət olan yeni bir müqavilə imzalandı. Bu anlaşmanın 14-cü maddəsi belə idi: Almaniya Kür çayının şərqinə qədər olan əraziyə üçüncü bir dövlətin keçməsinə imkan verməyəcəkdir. Yəni, Osmanlı Dövləti və Türk Qafqaz İslam Ordusu Kürü keçib Bakıya qədər gələ bilməyəcəkdi. Bakı və digər əraziləri azad etməyəcəkdi." (Şəxsi arxiv)

Ənvər paşa cəbhədəki Nuru paşaya "siyasi vəziyyət Bakının tezliklə ələ keçirilməsini tələb edir" şəklində bir təlimat vermişdi. Bu əmr, Türk Qafqaz İslam Ordusunu hər cür çətinliyə sinə gərərək irəliləməyə sövq etdi.

**Musa Qasımlı:**

"Bu vəziyyət Almaniyanın müttəfiqi olan Osmanlı Dövlətini böyük təzyiqlər altına salmışdı. Çünki Almaniya müttəfiqlik şərtlərinə əməl etməyərək, ayrı-seçkilik saldı və Osmanlı Dövlətinə arxadan zərbə vurdu. İkinci məsələ də, Bakı işğalçılardan elə şəkildə təmizlənməli idi ki, gələcəkdə siyasi meydanda Osmanlı Dövləti üçün problemlər yaranmasın. Dövləti çətin vəziyyətdə, ya da dünya dövlətləri qarşısında gülünc bir vəziyyətdə qoymaq yolverilməz idi. Buna görə də Bakı Türk Qafqaz İslam Ordusunun gücü və səyi ilə təmizlənməli idi. Almaniyanın öz sözünün üstündə durmaması, yəni müttəfiqlik şərtlərini pozması, Osmanlı Dövlətini hərəkətə keçməyə vadar etdi. Bunun üçün də həm Osmanlı Dövləti, həm də Azərbaycan bəzi tədbirlərə əl atmalı oldu. Azərbaycan hökuməti ilk növbədə, türk zabitlərinin başçılığı altında güclü bir milli ordu qurulmasının vacibliyini bir daha başa düşdü. Bunun üçün orduya gənclər cəlb edildi. Ölkə iqtisadiyyatı, Bakının qurtuluşu üçün səfərbər edildi. Azərbaycan hökuməti bütün diqqətini Bakıya yönəltdi. İkinci bir tərəfdən Osmanlı Dövləti də bəzi əlavə tədbirlərə əl atdı. Qafqaza və Azərbaycana yeni hərbi qüvvələr göndərdi. Silah və mühümmat hazırlığı gördü. Bakının azad olunmasının vacibliyi bir daha vurğulandı. Bakı üzərinə edilən hücuma, bu qərarlar çərçivəsində başlanıldı." (Şəxsi arxiv)

Bakının düşmən mühasirəsindən qurtarılması üçün gedən döyüşlərdə həyatını itirən qəhrəmanlar, bu gün Şəhidlər Xiyabanı adlandırılan Çəmbərəkənd məzarlığında torpağa verildilər.

Qəhrəmanlar, yüz illər boyu müstəqilliyə can atan Azərbaycanı əsarətdən qurtardılar. Anadolu Mehmətçiyi ilə Azərbaycan əsgəri, üç aydan çox davam edən qanlı mübarizənin iştirakçılarına çevrilmişdilər. Anadolu türkləri ilə Azərbaycan oğulları cəbhədə çiyin-çiyinə vuruşurdular. Bu vətən üçün qan tökürdülər, şəhid olub torpağın qara bağrında yan-yana uzanaraq əbədi yuxuya getmişlər. Azərbaycan xalqı bu şəhidliyi müqəddəs bir yer kimi qəbul etdilər. Qəbirlərə böyük hörmət və ehtiram bəslədilər.

Azərbaycan və Bakının düşmən işğalından qurtarılmasının birinci ildönümündə, Azərbaycan Milli Məclisi 15 sentyabr 1919-cu ildə keçirdiyi iclasda vacib qərarlar qəbul etdi. Milli Məclisin sədri Həsən Ağaoğlunun təkifi ilə bütün millət vəkilləri ayağa qalxaraq həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Sədr Ağaoğlu millət vəkillərinə müraciətlə bir nitq söylədi:

"Möhtərəm deputatlar, bugünkü iclasımız böyük tarixi bir bayrama təsadüf edir. Bunun üçün, əsas tədbir sabaha keçirilmişdir. Bu günkü bayramın nə qədər şərəfli, nə qədər tarixi olduğunu hər kəs anlayır və bilir. Bu bayram münasibəti ilə türklük və islamçılıq yolunda şəhid olan igidləri yad etmək üçün hamınızın ayağa qalxmasını rica edirəm. (Bir dəqiqəlik sükutdan sonra nitqinə davam etmişdir.) Möhtərəm deputatlar, Azərbaycanın milli mərkəzi olan Bakının düşmən işğalından azad olmasının bu gün düz bir ili tamam olur. Bizi məhv etmək, ərazimizi zəbt etmək istəyən düşmənlər, keçən il mart ayından başlayaraq, ta Kürdəmir məntəqəsindən etibarən igid türklər tərəfindən qovulub Bakıya soxulmuş və sonra dənizə tökülmüşdülər.

Beləliklə, ən müqəddəs yer hesab etdiyimiz paytaxtımız Bakını azad etmişlər. May ayının 28-də istiqlalımız elan edilmişdir. Sentyabrın 15-də isə haqq yerini tutmuş, Bakı azad olmuşdu. Qan bahasına, türklük və islamlıq uğrunda şəhid vermişdilər. Cənablar, vətənimizi qurtaran türk şəhidlərini yad etməklə bərabər, onu da əlavə edirəm ki, biz Azərbaycan xalqı, qardaşımız olan türklərin bu fədakarlığını heç zaman unutmayacaq. Böyük çətinliklər, qan bahasına alınmış və bizə bəxş olunmuş istiqlalımızı qorumağa əhd edir, hər şeydən müqəddəs tutaraq, müqəddəs amalımıza çatacağıq. Bu gün Xeyriyyə Cəmiyyəti türk şəhidlərinin xatirəsini əbədiləşdirmək üçün bir yer seçəcək. Saat 11-də bulvarda təşkil olunmuş rəsmi keçiddən sonra, qəbiristana gedib proqramda iştirak etmənizi xahiş edirəm."[3]

Xəzərin sahilində, parkın olduğu yerdəki bulvarda, saat 11.00-da hərbi qüvvələr keçid mərasimi keçirdilər[4]. Dövlət böyükləri ilə millət vəkilləri və xalq sahildəki rəsmi keçiddən sonra hamılıqla Çəmbərəkənd məzarlığına gedərək, o

torpaqlar uğrunda şəhid olan qəhrəman Mehmətçiyin xatirəsini əbədiləşdirmək üçün qoyulacaq abidənin təməlqoyma mərasimində iştirak etdilər.

Azərbaycan Cümhuriyyəti, aralarında Nəriman Nərimanovun da olduğu kommunist bolşeviklərin inqilabı nəticəsində devrildi. 27 aprel 1920-ci ildə Qızıl Ordu idarəsi və sistem, türklük düşməni olan Moskva tərəfdarlarının əlinə keçdi. Buna görə türk şəhidləri üçün Çəmbərəkənd qəbiristanlığında tikilməyə başlamış abidənin tikintisinə xitam verildi, tikinti tamamilə dağıdıldı. Az müddətdən sonra isə Çəmbərəkənd qəbiristanlığı məhv edildi. Məzarların olduğu yerin girişində Bakını işğal edən 11-ci Qızıl Ordu birləşmələrinin başçısı olan Kirovun heykəli qoyuldu. Qəbiristanlığın digər hissələrində isə restoranlar və kafelər tikildi, qəbiristanlıq istirahət parkına çevrildi.

Azərbaycan Türkiyədən yardıma gələn qardaşlarının köməyi ilə Türk Silahlı Qüvvələrinin fədakarlığı nəticəsində müstəqillik qazandı. Ancaq bu müstəqillik 1 il 11 ay davam etdi. Təəssüf ki, Azərbaycan 1920-ci ilin aprel ayında yenidən rus bolşevikləri və Qızıl Ordunun işğalı altına düşmüşdü. Kommunist idarəçiliyi, 1918-ci ildə şəhid olan Mete övladlarını qəbul edə bilmədi.

Gələcəyini yaxşı qura bilmək üçün keçmişini tanımalısan. Bugünkü Azərbaycanda yaşayan gənclər, bir müqəddəs yer kimi qəbul olunan və elə müqəddəs də olan Çəmbərəkənd qəbiristanlığı və xatirə abidəsinin kimlər tərəfindən dağıdıldığını, Azərbaycanın çox böyük çətinliklər bahasına qurulan müstəqilliyinin kimlər tərəfindən və nə üçün əldən verildiyini, buna hansı insanların rəhbərlik etdiyini, 1920-ci ildən 1991-ci ilə qədər ölkənin çəkdiyi acı və iztirabı bilməlidirlər.

Sovet hakimiyyəti illərində Türk Ordusunun Azərbaycana etdiyi kömək tamamilə yaddan çıxarıldı. Bu unutqanlıq, Sovet ideologiyasının həqiqəti inkar etmə, gizləmə və xalq tərəfindən bilinməsinin qarşısını alma siyasətinin nəticəsi idi. Kadisev kimi bəzi kommunist yazıçılar, Türk Ordusunun Azərbaycana yardımını, bir "işğal və müdaxilə" kimi qiymətləndirmişdi. Bu iddialar tamamilə əsassız və həqiqətdən uzaqdır. Çünki ruslar zəngin neft yataqlarına görə Bakını bir "rus şəhəri" olaraq görmək istəyirdilər. Azərbaycanın digər bölgələrini isə Bakıdan ayrı tuturdular. Məmməd Əmin Rəsulzadə isə "Bakısız Azərbaycan başsız bədən kimidir" deyirdi.

**Professor Nizami Cəfərovun dediklərindən:**

"Nəzərə alsaq ki, Azərbaycana edilən bütün müdaxilələrin, rus, ingilis, erməni müdaxilələrinin əsl hədəfi Bakı və ətrafındakı neft yataqları idi, bu şərtlər altında Azərbaycanın Bakını itirmək ehtimalı çox böyük idi. Ona görə ki, Bakı Azərbaycanın ən kənarında və Xəzər dənizinin sahilində yerləşirdi. Bakıya müxtəlif yollarla girmək, buranı ələ keçirmək asan idi. Başqa bir cəhət isə Bakı bəzi istilaçı millətlərin, beynəlxalq güclərin mərkəz kimi qəbul etməyə çalışdığı

əhəmiyyətli bir yer idi. Bakıda Azərbaycanın siyasi, hərbi və sosial nüfuzunun qorunması da çətin idi. Türk Ordusunun Bakını azad etməsi həqiqətən tarixi bir məsələdir. Bu azadlıq, yalnız hərbi məsələ deyildir. Eyni zamanda mənəvi və ruhi bir hadisə idi."[5]

Bakını 15 sentyabrda erməni və ruslardan alaraq həqiqi sahiblərinə verən Türk Ordusunun bu hərəkəti, Moskvada oturan kommunist rusları qəzəbləndirmişdi. Sovet İttifaqı marksizmi dövlət fəlsəfəsi olaraq qəbul etmişdi. Marksizm, təməl insan haqq və hüquqlarına, fərdin özünü və şəxsiyyətini formalaşdırmasına, azad düşüncəyə, millətlərin milli dəyərini qorumasına və yaşatmasına imkan verməz. Millətlərin öz gələcəkləri haqqında qərar verməsini qəbul etməz. Milli və mənəvi dəyərləri inkar edər. Ortaq keçmişi olan və birlikdə yaşama arzusu göstərən insanların bir yerdə, bir millət olaraq yaşamasına yol verməz.

**Qılman İlkin** Azərbaycan türklərinin yaşadıqlarını bu şəkildə bildirir:

Türklər getdikdən sonra milli hökumət bolşeviklər tərəfindən yıxıldı. Biz o tarixdən sonra türk qardaşlarımızdan ayrı düşdük, təcrid edildik. O illərdə bizim pasportlarda "milliyyəti" qrafası vardı. Orada "türk" yazardıq. Bu türk kəlməsi rusları böyük bir qorxuya salmışdı. Sonradan da bu türk kəlməsi pasportlardan yığışdırıldı, tamamilə qadağan edildi. Azərbaycanlılar da qorxudan türk kəlməsini işlətmədilər." (Şəxsi arxiv)

Bu hökuməti quran Lenin, Stalin və əqidə yoldaşları, dünyanın bir çox yerində olduğu kimi, Azərbaycan, Orta Asiya və türklərin yaşadığı başqa coğrafiyalarda da bu ideologiyanı həyata keçirirdilər. Türklər arasındakı müxtəlif şivə və ləhcələri dil halına gətirmək üçün ağla və elmə üstün gəldilər. "Sovet vətəndaşı" meydana gətirmək üçün insanları kölələşdirdilər, robotlaşdırdılar. Millətin yaddaşını silməyə çalışdılar. Novruz bayramı və dini bayramları unutdurmaq istədilər. Hətta türk millətinin milli alətlərindən biri olan "tar" bir ara qadağan edildi.

**Qılman İlkin:**

"Bir tarixdə Azərbaycandan bir heyət Moskvaya getmişdi. Stalin, bu heyətdə olan bir qadından "Sən Azərbaycan dilini bilirsənmi?" deyə soruşur. Bundan sonra biz türk sözünü işlətmədik, tamamilə qadağan olundu. Halbuki Stalinin bu sözünə qədər biz özümüzü türk adlandırırdıq. O heyətdə olan şair Səməd Vurğunun, Stalinə oxuduğu şerin bir misrasında "salam gətirmişəm hüzura mən azad türk qadınlarından" ifadəsi var idi. Bu şeirdə türk sözü var idi. Ancaq heyif ki, bizim nümayəndə heyəti Moskvaya türk kimi getdi, azərbaycanlı kimi qayıtdı. İndi də hər yerdə "azərbaycanlı" sözü işlədilir. Bu səhvdir. Biz türkük. Türk millətinin bir parçasıyıq. Qafqazda yaşayan bizlər Azərbaycan türküyük, Anadolu və Balkanlarda yaşayanlar isə Osmanlı türküdür. Biz hamımız Oğuz

türkləriyik, onun bir parçasıyıq. Bizim qanımız da, dilimiz də, dinimiz də birdir. Niyə bizi bir-birimizdən ayırmaq istəyirlər? Bunu başa düşmək mümkün deyildir. İndi şükür Allaha ki, Azərbaycan müstəqillik qazanıb. İndi azad düşünürük, azad öyrənirik. Biz Türkiyəyə gedirik, onlar bura gəlirlər. Biz Türkiyənin yazıçılarını, şairlərini və ədiblərini oxuyuruq, öyrənirik, onları öz yazıçılarımız hesab edirik. Onlar da bizimkiləri sevərək oxuyurlar. Bunu bilirəm ki, mən türklüyümlə fəxr edirəm"[6].

Sovet İttifaqında Lenin, Stalin və ətraflarındakı kommunist diktatorlar Bakı və Azərbaycanın sərvətinə yenidən əl uzatdılar. Min illərlə Azərbaycanda yaşayan Oğuz türklərinin, Dədə Qorqud nəvələrinin yurdunu işğal etdilər. Sərvətlərini talan etdilər. Bu sərvətləri, rusların və Moskvanın sərəncamına verdilər. Bu torpağın insanlarına "siz türk deyilsiniz" dedilər. Xeyr, mən türk oğlu türkəm, Dədə Qorqudun, Nizaminin, Füzulinin, Koroğlunun, Xətainin nəvəsiyəm deyənləri, 1937-ci illərdə yalnız türk olduqları üçün qətl etdilər. Sibirə sürgünə göndərdilər, odunu-ocağını söndürdülər.

Azərbaycanlıların milli şairi Əhməd Cavad türk millətinin bağrından çıxan qəhrəman ordu üçün duyuğu və həyəcan yüklü bir şer yazmışdı[7]. Türk dünyasının yetişdirdiyi, bütün dünyada məşhur olan bəstəkar Üzeyir Hacıbəyov də bu şeirə musiqi bəstələmişdi. Şeirin orijinalı bu şəkildə idi[8].

**ÇIRPINIRDI QARA DƏNİZ**

*Çırpınırdı Qara dəniz,*
*Baxıb türkün bayrağına*
*Ah, ölmədən bir görəydim,*
*Düşə bilsəm ayağına.*

*Sırmalar sarsam qoluna,*
*İncilər düzsəm yoluna,*
*Fırtınalar dursun yana,*
*Yol ver türkün bayrağına.*

*Həmidiyə və türk qanı,*
*Heç birinin bitməz şanı,*
*Kazbek oldu ilk qurbanı,*
*Əyil türkün bayrağına.*

*Türk elindən əsən yellər,*
*Sənə şirin salam söylər*
*Olsun bütün Qafqaz ellər,*

*Qurban Türkün bayrağına.*

*Qafqazlardan aşacağız,*
*Türklüyə şan qatacağız*
*Türkün şanlı bayrağını,*
*Yüksəklərə asacağız.*

Qaf dağlarında oxunan bir mahnı var: "Lalələr" Dinləyənləri şad edir. Qafqazdan yüksələn türklərin imdadına, fəryadına çatan Anadolu övladları üçün, qəhrəman Mehmetçik üçün bir nəğmə yazılmışdı. Bu nəğmənin adı "Lalələr" idi. Qəhrəman Mehmetçiyin başına geydiyi şapkanın ucları yuxarı qalxmış və sivri idi. Bu başlıq azərbaycanlılar tərəfindən laləyə bənzədilmişdi. Türklərin milli sazlarından tar kimi, milli şapkalardan qalpaq kimi, Novruz bayramı kimi, "Lalələr" mahnısı da Sovet rejimində bəzilərinin xoşuna gəlmədi. Bir ara qadağan olundu. Ancaq bu mahnının sözləri 1937-ci ildə tamam dəyişdirildi.

**LALƏLƏR**

*Yazın əvvəlində Gəncə çölündə*
*Çıxıblar yenə də dizə lalələr.*
*Yağışdan islanmış yarpaqlarını*
*Səriblər dərəyə, düzə lalələr.*

*Xəyalımdan nələr gəlib, nə keçər*
*Yaz gələr, ellərə durnalar köçər*
*Bulaqlar samovar, ağ daşlar şəkər,*
*Bənzəyir çəməndə közə lalələr.*

*Meylim üzündəki qara xaldadır,*
*Hicranın əlacı ilk vüsaldadır,*
*Nə vaxtdır Bakının gözü yoldadır*
*Bir qonaq gələsiz bizə, lalələr.*

Azərbaycanın paytaxtı Bakı, Abşeron yarımadasında yerləşir. Abşeron, Qafqazın bir qartal dimdiyi kimi Xəzər dənizinə uzanan son nöqtəsinə, düzlük olan bölgəyə verilən addır. Abşeron kəlməsi, 24 Oğuz boyundan birinin adı olan türkcə "Avşar" və ya "Afşar" ilə farsca yer və aidiyyət bildirən an şəkilçisinin dəyişikliyə uğrayaraq Abşeron şəklinə düşməsindən meydana gələn bir addır. Türklərin bu coğrafiyanı özlərinə vətən etdikdən sonra, müxtəlif zamanlarda Afşaran və ya Avşaran kəlməsi Oğuzların danışdığı qərb türkcəsindəki səs və ya hərf dəyişməsi qanununa uyğun olaraq Abşeron şəklinə düşmüşdür. Abşeron yarımadası Avşar,

Bayat, Kınık başda olmaqla, Oğuz türklərinin bir çox boyuna mənsub insanların yaşadığı qəsəbə və kəndlərin yerləşdiyi gözəl bir ərazidir.

Buzovna, Abşeron yarımadasının şərq tərəfində yerləşən gözəl bir sahil qəsəbəsidir. Adını Oğuz türklərinin Boçox qolundan almışdır. Buzovnalı Hacı İsgəndər, 1918-ci ildə erməni, rus və ingilislərin türklərə qarşı törətdikləri qırğını dayandırmaq üçün əli silah tutanları ətrafına toplamışdı. Bakının düşmən işğalından qurtarılması üçün başlanan hərbi hərəkatda o da yoldaşları ilə tapşırıq almışdı. Əhmədli və Zığ bölgələrini ələ keçirmişdilər. Qələbədən sonra Nuru paşanı evində üç gün qonaq etmişdi. Qorxu imperiyasının başındakı Stalinin əmrilə 1937-ci ildə KQB (DTK) tərəfindən sorğu-sual edilib, müasir rus çarları Hacı İskəndərdən, 1918 ildə ətrafına toplanıb vətənini, evini, namusunu qoruyan buzovnalı qəhrəman silah yoldaşlarının adını, siyahısını istəyiblər. Hacı İsgəndər, bir qəhrəman idi. Baş Göynükdə "mən sarı çiyana, düşmənə arxamı çevirmərəm deyən Türk Əhməd Baba" kimi etdi. Yoldaşlarının adını düşmənə demədi. Ağır işgəncələrə məruz qaldı. Alçalmadı, yıxılmadı, işgəncələrin önündə əyilmədi, qəhrəmancasına şəhid oldu.

Buzovnalılar, qəhrəman Hacı İsgəndər və yoldaşlarını unutmadılar. Bu gün onların xatirəsi yaşadılır. Azərbaycan müstəqillik qazandıqdan sonra 2003-cü ildə Hacı İsgəndərin evini muzey kimi yenidən bərpa etdilər. Evin küçəyə baxan divarına isə Hacı İsgəndərin mərmər üzərinə həkk olunmuş şəklini asdılar. Açılış mərasimində küçə Azərbaycan və Türk bayraqları ilə bəzədildi[9].

Rus bolşevikləri və erməni daşnakları 1918-ci ildə Azərbaycan, Ermənistan və Gürcüstanda yaşayan türkləri, eynən Anadoluda olduğu kimi vəhşicəsinə öldürürdülər. Mehmetçik Toroslardan, Ərciyəsdən, Palantökənlərdən qopub Qafqazdakı qardaşlarının imdadına çatdı. Bu düşüncənin arxasındakı əsl niyyəti, professor Nizami Cəfərov belə dilə gətirir:

"Türk ordusunun Qafqaza gəlişi Azərbaycan türklərinin taleyini tarixi baxımdan istiqamətləndirən bir hadisədir. Sadəcə bunun nəticəsində Azərbaycanda milli və siyasi dirilişi qoruyacaq, müdafiə edəcək hərbi-siyasi sistem qurula bilmişdir. Bu hərbi və siyasi sistemin əsasını isə Türk Qafqaz İslam Ordusu qoymuşdur. Bu ordu, düşmən tarixçilərin yazdığı kimi, yalnız Bakıya gəlib neft mədənlərini ələ keçirmək və talan etmək üçün gəlməmişdi. Bu ordunun məramı bütün Azərbaycan türklərini xilas etmək idi. Türk Qafqaz İslam Ordusu bu amala sona qədər sadiq qaldı. Azərbaycan və Dağıstanın hər yerində yaşayan türklərin müstəqil bir dövlət qura bilmələri üçün mübarizə apardılar. Qafqazda ən böyüyündən ən kiçiyinə qədər bütün yaşayış məntəqələrində yaşayan türklərin, müdafiə hissini və vətən sevgisini hərəkətə keçirdilər. Gəncə, Göyçay, Neftçala, Salyan və Şamaxıda olan döyüşlər və nəhayət Bakının xilas edilməsi ilə sona çatan

hərəkat, Azərbaycanın milli, mədəni və mənəvi müstəqilliyinə, hərbi və siyasi təməl olmuşdur." (Şəxsi arxiv)

Ermənilər, Sovet İttifaqının dağılmağa başladığı bir dövrdə, 1988-ci ildən etibarən bugünkü Ermənistanda yaşayan türklərə qarşı etnik təmizləmə əməliyyatına başladılar. Bugünkü Ermənistan dövlətinin hüdudları içində qalan torpaqlarda və Göyçə gölü ətrafında yüz illər boyu yaşayan türkləri evlərindən, yurdlarından qovdular. Bu etnik təmizləmədən sonra Şuşa, Laçın, Xankəndi, Xocalı ilə Qarabağın bir çox yerində yaşayan və özlərindən olmayan insanları, yəni o torpaqların yerli xalqı olan türkləri də yalnız "türk olduqları üçün" qətl etdilər, evlərindən, ocaqlarından qovdular.

Azərbaycan müstəqillik qazandıqdan sonra indiki Şəhidlər Xiyabanındakı Kirovun heykəli oradan götürüldü. Qızıl Ordunun Bakını işğal etdiyi 20 yanvar 1990-cı il tarixində şəhid olanlar və Qarabağ müharibəsində həlak olanların bəziləri burada dəfn edilib.

Azərbaycan türkləri unutdurulmaq istənən keçmişini və tarixini yenidən öyrənməyə başlamışdı. Azərbaycan və Türkiyə 1918-ci ildə əldə edilən müstəqillik uğrunda şəhid olanların xatirəsini yaşatmaq üçün bir abidə qoyulmasını qərara aldılar. Anadolu Türklərinin Qafqazda yaşayan qardaşları uğrunda Azərbaycanın müstəqilliyi üçün verdikləri ortaq mübarizənin nəsildən nəslə xatırlanmasını və bir qəhrəmanlıq dastanı olaraq anılmasını arzu edirdilər.

Bakıdakı Şəhidlər Xiyabanında bir Türk şəhid məzarlığı üçün Türkiyənin Bakı Səfirliyi və xüsusilə o vaxt Türk Silahlı Qüvvələr Attaşesi tuğgeneral Saldıray Berk Paşa işə başladı. Saldıray Berk paşa xidmət müddətini tamamlayıb Bakıdan getdikdən sonra, eyni vəzifəyə gələn tuğgeneral Sadıq Ercan paşa da bu işi davam etdirdi. Sadıq Ercan paşa qoyulacaq şəhidlik abidəsinin yer seçimindən tutmuş atına qədər yaxından maraqlandı.

Bakı İcra Hakimiyyəti, abidənin qoyulması üçün bəzi əraziləri təklif etmişdi. Aparılan araşdırmalardan sonra abidənin 1919-cu ildə təməli qoyulan və inşası yarımçıq qalan o vaxtkı Çəmbərəkənd məzarlığının olduğu indiki Şəhidlər Xiyabanında qoyulması nəticəsinə gəlindi. Çünki, 1918-ci ildəki əziz xatirənin yaşadılması və Sovet İttifaqının silməyə, yox etməyə çalışdığı milli hafizənin də təzələnməsi lazım gəlirdi. Türkiyədən gələn baş memar Hüseyin Bütüner tərəfindən hazırlanan və Səlcuqlu memarlığı üslubunda hazırlanan bir layihə təsdiq olundu. Türk şəhidliyi "Şəhidlər Xiyabanı" ilə bir vəhdət təşkil edəcək şəkildə inşa edildi. Yanında da türk-islam memarlığının gözəl bir nümunəsini təşkil edən və Memar Sinanın tərzində olan bir məscid tikildi.

Qəhrəmanların xatirəsinə ucaldılacaq abidə 1999-cu ildə tamamlandı. Açılış mərasimi isə 9 aprel 2000-ci ildə oldu. Mərasimdə o vaxt Türkiyənin Cumhurbaşkanı olan Süleyman Dəmirəl və Azərbaycan prezidenti Heydər Əliyev,

hər iki ölkənin siyasi, hərbi və mülki nümayəndələri, təmsilçiləri və çox sayda vətəndaş iştirak etdi. Azərbaycan Atatürk Mərkəzi rəhbəri, professor Nizami Cəfərov Qafqazdakı Türk şəhidlərini bu şəkildə dəyərləndirir:

"Bu gün Azərbaycan torpaqlarında, türk əsgərinin ayağı dəymiş hər yerdə mütləq bir şəhid məzarlığı vardır. Sovet hökuməti dövründə, Azərbaycan xalqı çətinliklə də olsa, bu məzarları qoruyub saxlamışdır. Məzarların olduğu yerlərdə yaşayan əhali orada yatan əsgərlərin, qəhrəmanların adını bilmirlər, unudublar. Ancaq bu qəbirləri müqəddəs bir yer kimi qəbul edərək, adına da "Türk qəbri" deyiblər. Bu da Azərbaycan xalqının Anadolu türklərinə bəslədiyi sevginin, məhəbbətin və orduya qarşı sədaqətinin bir nəticəsidir" (Şəxsi arxiv).

Xatirə kompleksinin açılışına həsr olunmuş mərasimdə Türkiyənin 9-cu prezidenti **Süleyman Dəmirəl,** belə demişdir:

"Sizin dara düşdüyünüz zaman, bu qəhrəmanlar 1918-ci ildə gəlmiş və burada şəhid olmuşdular. Sizi qurtarmışdılar. O gün qurulan Azərbaycan dövlətinin ömrü qısa oldusa da, ondan böyük dərs alındı. Ankarada dəfn edilmiş Məmməd Əmin Rəsulzadə, müstəqil Azərbaycan dövlətini qurduğu zaman, yüksələn bayraq enməyəcək, demişdi. Bir kərə yüksələn bayraq, bir daha enməz, demişdi. Ancaq təəssüf ki, bir az başqa cür oldu. İndi isə Azərbaycan yenidən müstəqilliyinə qovuşmuşdur. Bu dəfə yüksələn bayraq isə heç vaxt enməyəcəkdir. Bu yüksələn bayrağı hər yerdə görəcəyik, həmişə yüksəkdə, səmalarda görəcəyik. Azərbaycan naminə, bu torpaqlar naminə, bu gözəl torpaqlar naminə, Azərbaycan xalqı naminə. Bunu bilin ki, Anadoluda yaşayan qardaşlarınız, həmişə sizinlədir. Biz iki dövlət, bir millətik. Bir millətin iki dövlətiyik." Bu mərasimdə, o zaman Azərbaycan prezidenti olan **Heydər Əliyev** də nitq söyləmişdir:

"Azərbaycan tarixdə bir çox böyük təhlükələr, faciələr ilə üz-üzə qalmışdır. Ermənilər bir neçə dəfə Azərbaycan xalqına qarşı soyqırım həyata keçiriblər. Onlardan ən dəhşətlisi 1918-ci ilin 31 martında Bakıda törədilən soyqırımıdır. O zaman yalnız Bakıda deyil, Azərbaycanın bir çox bölgəsində belə soyqırım həyata keçirdilər, minlərlə, on minlərlə sayda məsum insanları qətl etdilər. O zaman Azərbaycan və Bakı bir çox dövlətin diqqətini çəkirdi. Azərbaycanın tarixi torpaqlarında başqa dövlətlər hökmranlıq etmək istəyirdi. Azərbaycanı və Bakını ələ keçirmək istəyirdilər. O günlərdə bizə köməyə gələn Türk ordusunun cəngavər, qəhrəman oğulları olmuşdur. Azərbaycanda Nuru paşanı, Xəlil paşanı indiyə qədər xatırlayırlar. Sovet hakimiyyəti illərində bu tarix yaddaşlardan silinmişdi. İnsanların bu tarixi öyrənmə imkanı olmamışdır. Ancaq o qəhrəman türk əsgərləri bizim xalqımızın qəlbində yaşamışdır. Burada şəhid olmuş türk əsgərlərinin ana-atasına, qohum-əqrabalarına öz təşəkkürümü bildirirəm. Və bu əsgərlərin şəxsində qəhrəman Türk ordusuna, bu gün dünyanın ən güclü ordularından biri olan Türk

ordusuna təşəkkürümü bildirirəm. Bu şəhidlərə Allahdan rəhmət diləyirəm. Allah rəhmət eləsin, qəbirləri nurla dolsun[10].

Prezidentlərin çıxışından sonra, mərasimdə iştirak edən dövlət adamları və əhali, şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Sonra himn sədaları altında Azərbaycan və Türkiyə bayraqları yuxarı çəkildi. Sonra hər iki prezident abidənin üstünü örtən Türk bayrağını, şəhidlərin nazlı örtüyünü yavaş-yavaş açdılar, xatirə dəftərinə duyğularını qeyd etdilər.

Bu şəhidlik, uzunluğu 50,85 metr, eni isə 16,80 m - 854 kvadrat metr sahəsi olan bir ərazini əhatə edir. Qranit mərmər, Azərbaycanda çıxarılan gülbaq daşı və Ankara daşı kimi tanınan andezit daşı olmaqla 3 növ təbii inşaat materialından istifadə olunmuşdu.

Şəhid məzarlığının "protokol yolu" Ankara daşı, qalan hissə isə gülbaq daşı ilə döşənib. Protokol yolu ilə digər bölmələr arasındakı zolaqlar və abidənin qoyulduğu postamentin yeri isə qranti daşı ilə döşənib. Kompleksin abidə-məzar hissəsində isə Afrika qırmızısı adlanan qranit mərmər daşdan istifadə edilib. Abidənin daxili həyəti və platformanın ətrafındakı maili divarlar da gülbaq daşı ilə örtülüb. Kompleksin girişində iki, arxa tərəfində isə 10 olmaqla, 12 bayraq dirəyi var.

Kompleksin xatirə-məzar hissəsində qoyulan abidə 8,25 m x 8,25 m ölçülərində bir postament üzərində yerləşdirilib. Abidənin oturacağının sahəsi 2,50 m, hündürlüyü isə 7 metrdir. Abidə səkkizbucaqlı prizma şəklində inşa edilib, 4 əsas tərəfində də ağ mərmərdən ay-ulduz yerləşdirilib. Postamentdə olan kitabədə bu sözlər yazılıb:

"25 may-17 noyabr tarixləri arasında cərəyan edən Qafqaz hərəkatında, Nuru paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusu; Gəncə, Göyçay, Ağsu, Kürdəmir və Şamaxı istiqamətlərində hücumu davam etdirərək 16 sentyabr 1918-ci ildə Bakıya girərək Azərbaycanı, sonra Qarabağ və Dağıstanı düşmən işğalından qurtarmışdır. Bu hərəkatda qəhrəman Mehmetçik Azərbaycanın müstəqilliyi uğrunda azəri qardaşları ilə çiyin-çiyinə döyüşmüş və 1130 şəhid vermişdir. Onlar Azərbaycanın hər yerində bir çox adsız məzarda, ikinci vətənlərində yatmaqdadırlar. Bu abidə qardaşlıq uğrunda canlarını sevə-sevə fəda edib "ayrılarmı könül candan, Türkiyə Azərbaycandan" düsturunu ürəklərimizə pərçimləyən o möhtəşəm əsgərin, şəhid Mehmetçiklərin xatirəsinə ucaldılmışdır. Ruhları şad olsun. 15 sentyabr 1999".

Kompleksin divarlarında Qafqazda həlak olan 1.130 qəhrəmanın adı, doğulduğu yer və tarixin yazıldığı kiçik lövhələr asılmışdır[11].

Azərbaycanın yetişdirdiyi görkəmli ziyalılardan biri, yazıçı və ilahiyyatçı **Nəriman Qasımoğlu** 1918-ci il tarixindəki şanlı hərəkatı bu sözlərlə qiymətləndirir:

"Qəhrəmanların 1918-ci ildə Azərbaycana gəlməsi bizə, Tanrının sevdiyi və insanlıq aləminin böyük övladı olan türk millətinin, getdiyi hər yerə sevgi və xoşbəxtlik gətirdiyini xatırladır. Tarixi hadisələr bizə göstərmişdir ki, müzəffər türk əsgərinin ayağı, izi dünyanın harasına dəymişsə, orada bir qurtuluş havası əmələ gəlmişdir. Bu köklü dəyişikliklər, zülmdən qurtuluş, zalımların nizamının pozulması, qaranlıqlardan qurtulub işıqlığa çıxmaq kimi başa düşülür. 1918-ci ildə Qafqazdakı müzəffər Türk ordusu, mənə, buralara qədər gəlib, bizlərə hürriyyət və aydınlığı hədiyyə etdiyini xatırladır." (Şəxsi arxiv)

Şair-yazıçı və tədqiqatçı **Alxan Bayramoğlunun** bu barədə fikirləri isə belədir:

"Türkiyə ordusunun, Türk Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsini, Azərbaycan türkləri və burada yaşayan türk aydınları böyük bir sevinc və coşqu ilə qarşılamışdı. Türk komandanlar sərhədi keçər-keçməz, xidmət etdikləri Gəncəyə qədər hər yerdə yüzlərlə qurbanlar kəsilərək qarşılanmışdılar. Bir çox şair və ədib "yolunuzu gözlərik" deyə şeirlər, yazılar, məqalələr, əsərlər yazıblar. Türkiyədən ordu ilə gələn həkim-şair Arif İrfan Qaraosman, "Gül, sevin Qafqaz, biz gəldik, səni qurtarmaq üçün yüksəldik" deyirsə, Ümmügülsüm, Əhməd Cavad və başqa şairlər, yazdıqları şeirlərdə və yazılarda "biz bu gəlişin yuxusunu görmüşdük, bu gəlişin yolunu gözlərdik" deyirdilər. Bu şeirlərilə özlərinin xilas olacaqlarına ümidlərinin artdığını göstərmişdilər. Eyni zamanda Birinci Dünya müharibəsində Osmanlı dövlətinin daxil olduğu ittifaq məğlub olmuşdu. Türkiyənin daxilində olan sıxıntıları Azərbaycan ədibləri Abdulla Şaiq, Əhməd Cavad, Cəfər Cabbarlı, Ümmügülsüm, Məhəmməd Hadi və digər bir çox şair və yazıçı, böyük üzüntü ilə qarşılamışdılar. Bu şairlər "Turan ellərinə salam söyləyin", "Arazdan Turana", "Yeni ay doğarkən" şeirlərində Turan dünyasının və Qafqaz ellərinin gələcəkdə daha parlaq və böyük uğurlar əldə etməsini arzu etmişdilər.

**Abdulla Şaiqin** "Yeni ay doğarkən" adlı şeirində bəhs etdiyi Yavuz adlı uşaq anasına deyir ki:

- Bilmirəm nə üçün bu yeddi ülkər məni özlərinə çəkirlər.

Anası da deyir ki:

- Bu yeddi ülkərdən biri sənin bəxt ulduzundur, oğul.

Yavuz:

- Onlardan biri məni daha çox cəzb edir, nə edim, - deyir.

Anası oğluna deyir ki:

- Sən çalış, o ulduzları birləşdir, uğurlu və böyük bir günəş əmələ gətir.

Abdulla Şaiqin bu şeirində bəhs etdiyi bu yeddi ülkər, bu yeddi ulduz, yeddi türk dövlətinin simvolu idi. Bu yeddi ülkərin bir günəş olması, yeddi dövlətin birləşib Turan dünyasını əmələ gətirməsini və bu coğrafiyaya işıq salmasını təmsil edirdi"

Türk Qafqaz İslam Ordusunun Abşeron yarımadası və Bakıdakı işğala son qoymasının canlı şahidlərindən biri xalq yazıçısı, yazıçı-şair **Qılman İlkin** hisslərini belə ifadə edir:

"Türkiyədən bizim xalqımızı heç bir şəkildə ayıra bilməzlər. Biz iki qardaş, qanı bir, dili bir, dini bir millətik. Həmişə də belə qalacağıq". (Şəxsi arxiv)

Azərbaycan Atatürk Mərkəzinin direktoru, professor **Nizami Cəfərov** Bakıda fəaliyyət göstərən bir quruluşun başında durur. İki ölkə arasında bir körpü vəzifəsini ifa edir:

"Bu mənada Azərbaycan xalqı Türk Ordusuna hər zaman minnətdar olmuşdur və bundan sonra da olacaqdır. Yalnız bu azadlıq üçün minnətdarlıq yetməz. Bundan sonrakı hürriyyətlər, yaxşılıqlar və gözəlliklər üçün də bu minnətdarlıq ifadəsinin davam etməsi lazımdır. Türk Ordusu yalnız Bakını azad etməklə kifayətlənmədi, bu ölkənin hər guşəsində bizim milli ordumuzu qurmamıza yardımçı oldu. Milli birliyin təmin edilməsinə və xalq arasındakı fikir ayrılığının ortadan qalxmasına vasitəçi oldu. Beləliklə, Rus Çarlığının Qafqazı işğalından sonra itirilən hərbi düşüncə bizdə yenidən canlandı. Bu düşüncə milli əsaslar üzərində gerçəkləşdi. Bu canlanma böyük bir ordunun ideologiyası, həyata baxışı, tarixi vəzifəsi, gələcəyə baxışı, nizam-intizam və texniki tərəqqidə özünü göstərdi. Bu saydığımız xüsusiyyətlər, Azərbaycanda milli bir ordu təşkil edilməsi, Bakının qurtuluşu və Azərbaycanın müstəqilliyini qazanması qədər ciddi və əhəmiyyətlidir. Türk Ordusu bu mənada Azərbaycan üçün çox böyük bir iş görmüşdür. Biz Azərbaycan türkləri, Türk Ordusunun Türkiyə üçün, Türk dövlətləri üçün nə qədər qiymətli olduğunu öyrənməliyik. Bu ordunun əhəmiyyətini qavramalıyıq. Azərbaycanda yaşayan ziyalılar və xüsusilə gənclər, Türk Ordusunun 1918-ci ildə bizim imdadımıza yetməsinin, bunun bizim üçün nə məna ifadə etdiyini öyrənməlidir. Azərbaycanda milli müstəqillik hərəkatının başladığı dönəmdə, Türkiyənin bütün qurumlarıyla hərbi, siyasi, ictimai və iqtisadi sahələrdə bizə göstərdiyi yardımı və fədakarlığı gənclərə öyrətməliyik. Bu gün də, yəni Sovet İttifaqı dağıldıqdan və Azərbaycan müstəqillik qazandıqdan sonra, Türkiyənin və türk əsgərinin 1918-ci ildə olduğu kimi, eyni tarixi həvəslə, bizim ölkəmizə etdiyi yardımları və xüsusilə Azərbaycan Silahlı Qüvvələrini, Azərbaycan Milli Ordusunu yenidən qurmasını təqdirlə qarşılamalıyıq". (Şəxsi arxiv).

1. Bu şeir, o dönəmdə Türkiyənin Bakı Səfirliyində Mətbuat müşaviri olan Turqut Ər tərəfindən, 15 sentyabr 1998-də Mərdəkanda şəhidlərin məzarı başında yazılmışdır.
2. Professor Musa Qasımlı ilə söhbətlər; şəxsi arxivimiz.
3. Alxan Bayramoğlu, Qafqazın imdadına çatan türkün könül nəğmələri, Bakı, 2000, s. 13.

4. Bunun kimi bir mərasim də Azərbaycan Cümhuriyyətinin ilk müvəqqəti paytaxtı olan Gəncədə tərtib edildi.

5. Professor Nizami Cəfərov ilə söhbətlər; şəxsi arxivimiz.

6. Azərbaycan xalq yazıçısı Qılman İlkin ilə söhbətlər; şəxsi arxivimiz.

7. Əhməd Cavad millətinə, vətəninə və bayrağına duyduğu sevgini şeirlərində dilə gətirdiyi üçün Moskvadakı qırmızı rus çarlarının əmri ilə 1937-ci ildə güllələnərək şəhid edildi.

8. Birinci Dünya müharibəsində dəniz qüvvələri polkovniki olan Rauf Orbay, "Həmidiyə hərbi gəmisi ilə Qara dənizdəki Odessa limanında yerləşən rus hərbi bazasına gecə basqını təşkil etmişdi. "Kazbek adlı hərb gəmisi batmış, "Kaqula adlı gəmi də böyük zərər görərək yararsız hala gəlmişdi. Bu müvəffəqiyyət, Türkiyədə olduğu qədər, Azərbaycanda da böyük sevinc yaratmışdı. Əhməd Cavad bu barədəki hisslərini bir şeirlə dilə gətirmişdi.

9. Buzovnalı Hacı İsgəndər üçün təşkil edilən mərasimdə divara asılan Türk bayrağı, 1987-ci ildə Ukraynada oynanılan Türkiyə-SSRİ komandaları arasındakı yoldaşlıq görüşünə baxmaq üçün İstanbuldan Kiyevə gedən bir türk vətəndaşı tərəfindən, Azərbaycanlı bir türk olan Ağası Huna hədiyyə edilmişdi. Bu hədiyyələr arasında 100 qr türk qəhvəsi də var idi. Bakılı türkçülər, o zamanlar Ağası Hunun evinə türk qəhvəsi içmək üçün gedirdilər. Ağası Hunun türk qəhvəsi içilən evi 1990-cı ildə Qızıl Ordu Bakıya soxulduğu zaman rus tankları tərəfindən dağıdılmış, özü də Sibirə sürgün edilmiş Qazaxıstanlı ziyalı Oljas Süleymanov tərəfindən mütləq bir ölümdən qurtarılmışdı...

10. Azərbaycanda 31 mart tarixi "Azərbaycanlıların soyqırımı günü olaraq qeyd edilir. Başda prezident olmaq üzrə, dövlətin öndə gələnləri, Qarabağda və 20 yanvar 1990 tarixində Bakıda həyatını itirənlərin dəfn edildiyi məzarların arasındakı yoldan keçərək, daha irəlidəki abidəyə doğru gedir və burada sayğı duruşu edirlər. Buradakı mərasimdən sonra, gəldikləri üst yolu altdakı yola bağlayan pillələrdən düşərək, Şəhidlər Xiyabanının girişinə doğru gedirlər. Bu yol ilə xiyabanın girişindən solda yerləşən türk şəhidliyi təxminən bir metr hündürlüyündəki bir divarla bir-birindən ayrılmaqdadır. Bu şəhidlikdə 31 mart 1918 tarixində və daha sonra Azərbaycanda qırğına məruz qalan türkləri xilas etmək üçün Qafqaza gedən və düşmənlə döyüşərkən torpağa düşənlər üçün bir abidə qoyulmuşdur. Soyqırımı günü mərasimində iştirak edən Azərbaycan prezidenti və dövlətin öndə gələnləri Türk şəhidliyinin yanında keçərək avtomobillərinə minərək Şəhidlər Xiyabanından ayrılırlar.

11. Bizim araşdırmalarımızda, türk hərbi qaynaqları şəhid sayının 1 142 nəfər olduğunu bildirmişdir.

# IX HİSSƏ

## TÜRK QAFQAZ İSLAM ORDUSUNUN DAĞISTAN HƏRƏKATI

### 1. Şimali Qafqaz və Dağıstan

Qafqazda say baxımından çox da böyük olmayan bir çox müsəlman türk etnik qrupu yaşayır. Qısaca Qıpçaq türkləri olaraq da adlandırılan Qafqaz türkləri arasında qaraçaylar, qarabulaqlar, kumuklar, balkarlar və avarlar əhəmiyyətli yer tutur. Çərkəzlər, çeçenlər, kabardinlər, osetinlər, abxazlar və sayca kiçik olan başqa müsəlman etnik qruplar, Qafqazın yerli xalqlarını təşkil edir.

Çar Rusiyası 1556-cı ildə Xəzər dənizinin şimal sahilində yerləşən və bir türk şəhəri olan Həştərxanı işğal etdi. 1784-cü ildə Qafqazı şimaldan cənuba bağlayan Darlal keçidini ələ keçirdi. Rus əsgərləri Şimali Qafqazda hakimiyyəti ələ keçirdikdən sonra, 1810-cu illərdən etibarən cənub və şərq bölgələri istiqamətində müdaxiləni artırdı. Şimali Qafqazdakı rus istilasına qarşı türk və müsəlman xalqlar birləşərək, vətənlərinin müdafiəsinə qalxdılar.

Rus istilasına qarşı Şeyx Mənsur və İmam Hadis ilə başlayan mübarizə, Tayni Beybulat ilə davam etdi. 1829-cu ildən 1859-cu ilə qədər davam edən İmamlar dövrü, rus işğalına qarşı müqavimətin ən əhəmiyyətli halqasını meydana gətirdi. Dağıstanda Qazi Məhəmməd ilə başlayan İmamlar dövrü, İmam Həmzətin ardından İmam Şamil ilə ən şanlı dövrünü yaşadı. Şeyx Şamilin ruslar tərəfindən dustaq edilməsindən sonra Qafqaz tamamilə Rusiyanın nəzarəti altına keçdi. 1860-cı illərdən etibarən, bir tərəfdən Şimali Qafqaz ilə Şimali və Cənubi Azərbaycanda işğalı davam etdirdilər, bir tərəfdən də hakimiyyətlərini möhkəmləndirdilər. Ruslar türklərə və müsəlman xalqlara hər cür təzyiq, qorxu, işgəncə və sürgün siyasətini tətbiq edərək hakimiyyəti qorumağa çalışırdılar. Bölgədən sürgünlər o həddə çatmışdı ki, bəzən bir kənd, qəsəbə və ya bir şəhər əhalisinin hamısı zorla başqa yerlərə köçürülürdü. Doğulub böyüdükləri evlərindən, yurdlarından köçürülən türklərin yerinə isə rus kazakları yerləşdirilirdi. Rus çarlığının siyasətinə baxmayaraq, Sovet İttifaqı qurulana qədər Qafqazda ortaq dil türkcə idi. Qafqazın böyüklü-kiçikli bir çox xalqı arasında hər kəs türkcə bilir və danışırdı.[1] Dağıstanda təqribən 100 müxtəlif xalq yaşayır. Kalmıklar, avarlar, darginlər, kumuklar, nogaylar, azərilər, laklar, tabasaranlar, ləzgilər, çeçenlər, rutullar, aqullar, tatlar və ruslar, say baxımından bölgədəki ən çoxsaylı qruplar arasında yer tutur.

Şimali Qafqazda xalqın böyük əksəriyyəti türk əsillidir. Dağıstan türkləri 1877-ci ildə Osmanlı-Rus müharibəsində ayağa qalxmış və bölgədən rusları çıxarmışdı. Lakin müharibənin nəticəsi rusların lehinə dönəndən sonra, Dağıstandakı oyanış da qanlı bir şəkildə yatırılmışdı. Dağıstan və Qafqazda

yaşayan türklər 1905-ci ildə rus imperializminə qarşı bir daha üsyan edib ayağa qalxmışlar, ancaq bu da nəticəsiz qalmışdı.

Birinci Dünya müharibəsi illərində Şimali Qafqazda yaşayan türk və müsəlman icmaları, rus çarları tərəfindən Terek çayı boyunca yerləşdirilən rus kazakları və qırmızı bolşeviklərin təzyiq və təsirlərinə məruz qalırdılar. Dağıstanda rus kazakları və Rusiyadan köçənlərin sayı təxminən 500 min nəfər idi. Bunlardan başqa 5 milyon da türk və müsəlman ilə digər yerli xalqlar yaşayırdı, lakin rusların və rus kazaklarının sahib olduğu ərazilər həm münbit yerlərdəydi və həm də türklərinkindən iki qat çox idi. Rusiyada inqilab baş verdikdə, başda osetin, inquş, çeçen və türklər, rus çarları tərəfindən zorla əllərindən alınan ərazilərin bir qisminə sahib olmaq üçün hərəkata başladılar. Bolşevik təhlükəsi, rus kazakları və müsəlmanları müvəqqəti olaraq bir yerə topladı. Ancaq bu süni ittifaq uzun sürmədi. Rus kazaklarının hərbi təşkilatı mövcud idi və silah baxımından da türk və müsəlmanlardan çox üstün vəziyyətdə idilər[2].

Birinci Dünya müharibəsində Rus Çarlığı devrildikdən sonra, Qafqazdakı türk və müsəlman xalqlar bir tərəfdən İngilis işğalçılarının, digər tərəfdən çar tərəfdarlarının, o biri tərəfdən isə bolşeviklərin təzyiqinə məruz qalmışdılar. Azərbaycanda isə bolşeviklərin hakimiyyəti ələ keçirməsi və ordu quruculuğu ilə məşğul olması narahatçılığı daha da artırırdı. Bu vəziyyət qarşısında birləşmək yollarını axtaran Qafqaz xalqları müstəqil bir dövlət qurmaq üçün hərəkətə keçdilər. Bölgədəki türk və müsəlman xalqlar may 1917-ci il tarixində Vladiqafqaz şəhərində bir konqres çağırdılar. Gərgin mübahisələrdən sonra bütün Qafqazı əhatə edə biləcək bir dövlət qurmaq qərara alındı. Temirxan-Şura şəhərində, Şimali Qafqaz xalqları və Dağıstan türklərini əhatə edən "Dağıstan İcmalar Birliyi" adlı milli bir komitə yaratdılar. Bu təşkilata, çar ordusunda zabit olmuş Tapa (Əbdülməcid) ,Çermoyev və Heydər Bammat ilə Pşemaho Kotsev kimi tanınmış adamlar rəhbərlik edirdilər. Şeyx Şamilin ən ləyaqətli müridi və adamlarından birinin oğlu olan Nəcməddin Gotsinski, Şimali Qafqazın imamı, yəni dini rəhbəri seçildi. Dini təəssübü ilə tanınan və bölgədə böyük nüfuza malik olan Uzun Hacı da yeni imamı dəstəkləmək məcburiyyətində qaldı. Bu iki qurum ölkənin idarəçiliyini ələ aldı və idarədəki rusları təmizlədi. Bolşeviklərə düşmən olan və rus çarlarına sədaqətləri ilə tanınan rus kazakları da özlərinə bir başçı seçərək Şimali Qafqaz Birliyinə daxil oldular. Beləliklə, Terek Kazakları və Dağıstanlılar arasında, bolşeviklərə qarşı bir ittifaq yaranmış oldu. Kazaklarla müsəlmanlar arasındakı ərazi mübahisəsi üzündən bu əməkdaşlıq tez bir zamanda pozuldu və qanlı mübarizə yenidən başladı. Çar tərəfdarı ruslar ilə rus kazakları, bolşeviklər ilə müttəfiqlik edərək, bir həmlə ilə paytaxt Vladiqafqazı işğal etdilər[3].

Şimali Qafqazdakı bu hadisələrdən sonra Dağıstandakı türklərin milli bir dövlət qurma istəkləri və cəhdləri yenidən baş qaldırdı. Nəhayət, 11 may 1918-ci

ildə Dağıstan Respublikası müstəqilliyini elan etdi. Bu hadisələr ətrafında Şimali Qafqaz və Dağıstandakı bütün türk və müsəlman icmalar, Dağıstan türklərinə güvənərək, ruslardan ayrılmaq istəyirdilər. Osmanlı Dövlətinin müttəfiqi Almaniya eyni günlərdə Gürcüstanın müstəqilliyini tanımış, ancaq Dağıstanın azadlığını görmək istəmirdi[4].

Bakını işğal edən erməni və bolşeviklərə qarşı kiçik milis qüvvələri təşkil edərək müqavimət göstərən Azərbaycan xalqı 31 mart qırğını zamanı Dağıstanlı qardaşlarından kömək istədilər. Mahaçqaladan (İnciqala) yola çıxan bəzi milis qüvvələri Bakı yaxınlığındakı Biləcəri məntəqəsinə qədər irəlilədilər. Say və silah sarıdan olduqca güclü olan rus bolşeviklərinə və erməni daşnaklarına qarşı dayana bilməyəcəkdilər. Dağıstan türklərindən ibarət az saylı milis təşkilatının ölkədən uzaqlaşdığını görən bolşeviklər, şimaldakı Həştərxandan gətirdikləri qüvvələrlə əvvəlcə Mahaçqalanı nəzarət altına aldılar, sonra da Temirxan-Şuranı ələ keçirdilər. Bolşeviklər Qafqaz xalqlarının Vladiqafqazda qurduğu Mərkəzi İcra Komitəsini də dağıtdılar. Beləliklə, Qafqazın orta bölgəsi ilə Azərbaycan və Dağıstan arasındakı əraziləri nəzarət altına almağa başladılar. Bakı-Dərbənd-Mahaçqala-Rusiya dəmir yolunu da əllərinə keçirdilər. Qafqazda fəaliyyət göstərən bolşeviklər daha çox rus, erməni, yəhudi, rus kazakı və gürcülərdən ibarət idi. Türk əsillilərdən bolşeviklərə qoşulanların sayı az idi. Bunlar da daha çox rus tərbiyəsi ilə yetişmiş bəzi oxumuş, ziyalılar arasından çıxanlar idi[5].

**2.Şimali Qafqaz Respublikasının elan edilməsi**

Əbdülməcid Çermiyev, Heydər Bammat və Məhmət Qari Dibrov kimi ziyalılar Dağıstanın qurtuluşu üçün siyasi fəaliyyətlərə liderlik edirdilər. Dağıstan türklərindən təşkil olunmuş bir heyət, 1918-ci ilin aprel ayında İstanbula getdi. Heyət Ənvər paşa ilə görüşərək, Türk ordusunun onları himayə etməsini istədi[6]. Ənvər paşa, türk əsgərinin Dağıstana girməsindən əvvəl bəzi məsələlərin həllinin başa çatdırılmasının zəruriliyini bildirərək, bölgədə yaşayan türklərdən ibarət bir korpus yaradılmasının faydalı olacağını bildirdi. Bundan əlavə, 1-ci süvari diviziyası komandanı podpolkovnik (yarbay) Nazim bəy və 4-cü piyada diviziyası komandanı yarbay Əhməd Şükrü bəy ilə qərargah kadrlarına Şimali Qafqazda Dağıstan və Çeçenistanda hərbi təşkilat qurmaq tapşırığı verildi[7].

Trabzon və Batum Konfranslarında türk nümayəndələri ilə görüşən Dağıstan heyəti, Şimali Qafqazda müstəqil bir dövlət qurmaq üçün razılıq almışdılar. Osmanlı Dövlətinin verdiyi dəstəklə 11 may 1918-ci il tarixində Şimali Qafqaz Respublikası elan edildi və bu gənc dövlət Osmanlı Dövləti tərəfindən tanındı[8]. Bu vəziyyət qarşısında Bolşevik hökumətinin Xarici İşlər Komissarı Çiçerin, Osmanlı Dövlətinin Moskvadakı Səfiri Qalib Kamali bəyə bir etiraz notası göndərdi. Çiçerin notada, Şimali Qafqazın Rusiyanın ayrılmaz bir hissəsi olduğunu və xalqın da Rusiyadan ayrılmağı heç bir zaman düşünmədiyini, Osmanlı

Dövlətinə gələn nümayəndələrin də xalqın təmsilçisi olmadığını bildirərək, qurulan Respublikanı tanımayacaqlarını bildirdi[9]. Bu notanı saya salmayan Osmanlı Dövləti, Şimali Qafqaz Respublikası ilə 8 iyun 1918-ci ildə Batumda bir dostluq və əməkdaşlıq müqaviləsi imzaladı. Buna görə Osmanlı Dövləti, Dağıstana hərbi yardım göstərəcək və xaricdən ola biləcək təhlükələrə qarşı Şimali Qafqaz Respublikasının öz torpaqlarını qorumasına yardımçı olacaqdı[10]. Sovetlər, bu müqavilədən sonra Dağıstanda olan bolşeviklərin fəaliyyətə başlamasını təmin etdi. Aralarında Vladiqafqazın da olduğu bəzi bölgələri nəzarət altına aldılar. Bu hadisə ilə əlaqədar Şimali Qafqaz hökuməti paytaxtı Nazran qəsəbəsinə köçürtdü. Türk zabit və sıravilərin təşkil etdiyi milis qüvvələri, Vladiqafqaz şəhərinə hücum edərək, on üç gün davam edən bir mühasirədən sonra 17 avqustda bolşevikləri bölgədən uzaqlaşdırdı.[11]

Bolşeviklər Dağıstanda geniş fəaliyyətə başlamışdılar. Qafqazın cənuba açılan tək qapısı olan, quru və dəmir yollarının keçdiyi Dərbənd ilə Xəzər dənizi sahilindəki əhəmiyyətli şəhərlərdən olan Mahaçqala (İnciqala, ruslar Petrovsk deyirdilər) arasındakı yolları ələ keçirərək, nəzarət altına almışdılar. Bolşeviklərin türk və müsəlman xalqlar arasında apardığı təbliğatı dayandırmaq məqsədi ilə bölgəyə göndərilən türk zabitləri, rus bolşevik qüvvələri tərəfindən təqib edilirdi. Ayrıca, ruslara əsir düşən və qaçıb qurtara bilən və Türkiyəyə dönməyə çalışan Osmanlı zabit və sıravilərinin Dağıstanda qurduqları milis qüvvələri də çox zəif idi. Dağıstanda yaşayan türk boyları, qəbilələri və din adamları isə bir-biri ilə nüfuz mübarizəsi aparırdılar. Dağıstanın dağlıq bölgələrində yaşayan avar türkləri ilə bolşevik olmağa çalışan kumuk türkləri arasında ciddi bir rəqabət və münaqişə başlamışdı. Dağıstandakı bu vəziyyət bolşeviklərin işinin xeyrinə idi[12].

Türk Qafqaz İslam Ordusu Komandanı Nuru paşa Gəncədə ikən bir hərbi təşkilat qurmaq məqsədi ilə yarbay İsmayıl Haqqı (Berkok) bəyi Dağıstana göndərdi. Yarbay İsmayıl Haqqı bəy Şimali Azərbaycanın Zaqatala bölgəsində rus əsarətindən xilas olan türk zabit və əsgərlərindən ibarət kiçik birliklərlə o bölgədə sabitliyi saxlaya bildi. Buradan Dağıstandakı Əhti bölgəsinə keçdi. Sərəncamında olan zabitlərlə Mahaçqalaya gedən İsmayıl Haqqı bəy, 21 iyun 1918-ci il tarixində Dağıstan türklərinə xitabən bir bildiriş yaydı[13]. Xalqın birlik və bərabərlik şəraitində yaşaması və bolşeviklərə qarşı birgə mübarizə edə bilməsi üçün milli duyğularını oyatmaq istəyirdi.

İsmayıl Haqqı bəy Dağıstanın müxtəlif yerlərində təşkil olunan kiçik milis qruplarını birləşdirərək, bolşeviklərə qarşı mübarizə apara biləcək bir qüvvəyə çevirməyə çalışırdı. Lakin bu milli təşkilata xalq kifayət qədər maraq göstərmirdi. Bölgədə hörməti olan din adamlarından Mamalay Əli Hacı və ətrafındakılar bu fəaliyyətlərə qoşulmadılar. Bu din adamı, İsmayıl Haqqı bəyi haqlı olduğunu, lakin bir müddətdən sonra rusların yenidən bölgəyə girərək, nəzarəti ələ alacağını və

xalqdan hesab soracağını bildirdi. Buna görə də xalqı bolşeviklərlə üz-üzə qoymamaq və Dağıstanın mənafeyini düşünərək hərəkət etmək məcburiyyətində qaldıqlarını bildirdi. Təşkil edilən bir ovuc milis gücü ilə bolşeviklərə qarşı mübarizə aparmaq mümkün olmadığı nəticəsinə gələn İsmayıl Haqqı bəy Dağıstana nizami bir ordunun gəlməsinin vacib olduğunu bildirdi.

İsmayıl Haqqı bəy Dağıstanda bu işlərə davam edərkən, Bakı-Dərbənd-Mahaçqala dəmir yolu və bu şəhərlərə yaxın olan Quba və Temirxan-Şura bolşevik rus qüvvələrinin işğalı altındaydı. Ölkənin qalan bölgələrində isə anarxiya hökm sürürdü. Bəzi dini dairələr və görüşlərin öncüləri bir-birlərini günahlandırır, bəziləri bolşevik ruslara yardım edilməsi üçün fitvalar verirdilər. Ziyalılar isə sayca çox az idilər və xalqdan ayrı düşmüş bir həyat yaşayırdılar. Ətraf əhali onları kafir elan etmişdi.

İsmayıl Haqqı bəy 8 iyul 1918-ci il tarixində Gunip qalasına getdi. Şeyx Şamil ruslara qarşı mübarizədə qərargahını Gunip qalasında qurmuşdu. Buna görə Gunip qalası Qafqaz xalqlarının nəzərində böyük hörmətə layiq bir yer idi. Ruslar, Şeyx Şamil hərəkatının sona yetməsindən sonra Gunipdə çar üçün bir saray və hərbi kazarmalar tikdirmişdilər. İsmayıl Haqqı bəy xalq tərəfindən kafir sayılan yerli zabitləri də xidmətə cəlb edərək xalq ilə aralarındakı soyuqluğu ortadan qaldırmağa çalışırdı. Qafqazda din adamları və şeyxlərin xalq kütlələri arasında nüfuzunu bilən İsmayıl Haqqı bəy bolşeviklərə alət olmayan dindarların iştirakı ilə bir konqres çağırdı. Uzun müzakirələrdən sonra onların xalqa təsir edərək, rus və bolşeviklərə qarşı aparılacaq milli müqavimət hərəkatında iştirak etmələrini təmin etdi.

Dağıstanın dağlıq bölgələrində yaşayan avarlar ilə düzdə yaşayan kumuklar arasındakı qovğalar bu ölkənin yadellilərin əlinə keçməsini asanlaşdırırdı. Hər ikisi türk və müsəlman olan avarlar və kumuklar arasındakı bu çəkişmə, elə bir həddə çatmışdı ki, kumuk türkləri, avarlara qarşı olmaq üçün bolşeviklərin tərəfinə keçmişdilər. İsmayıl Haqqı bəy bu iki türk icması arasındakı münaqişəni yoluna qoymaq üçün səy göstərdi. Dağıstanın şimalında yerləşən Kuban və Terek bölgələrindəki münbit ərazinin rus kazaklarından geri alınması üçün fəaliyyətə başladı. Digər tərəfdən iyul ayının sonuna doğru Temirxan-Şura bölgəsini ruslardan təmizləmək üçün bir hərbi hərəkat başlatdı. Bolşeviklərin müdaxiləsi nəticəsində Dağıstan birliklərinin qısa zaman ərzində dağıdılması səbəbindən bu fəaliyyət nəticəsiz qaldı.

### 3. Çar tərəfdarlarının Dağıstanı işğal etməsi

Şimali Qafqaz Respublikasının yeni təşəkkül etməyə çalışan orqanlarını aradan qaldırmaq üçün Dağıstandakı bolşeviklər bir yandan, çar tərəfdarı rus kazakları da digər yandan hücuma keçmişdilər. Bakı yaxınlığında qüvvələrinin bir çoxunu itirən Biçeraxov, Dərbənd və Mahaçqalanı işğal etmək üçün fəaliyyətə

başladı. Kifayət qədər hərbi qüvvəsi olmayan Şimali Qafqaz Respublikası, şimalda qırmızı bolşeviklər, cənubda isə Biçeraxovun ordusunun arasında sıxılıb qalmışdı[14].

Biçeraxovun əsas məqsədi Dağıstana girmək və bölgəni nəzarət altına almaq idi. Sərəncamında yaxşı təlim görmüş 2 min əsgər və 18 top ilə 40 pulemyot vardı. Dərbəndə girərkən xalqa müraciətində özünün çar tərəfdarı və bolşeviklərə düşmən olduğunu bildirərək, Dağıstanı qurtardıqdan sonra əsl sahiblərinə təhvil verəcəyini və Bakıya gedəcəyini bildirmişdi. Polkovnik Biçeraxov tabeliyindəki qüvvələrlə 15 avqustda Dərbəndi işğal etdi. Yaydığı bəyanatda isə əsl niyyətini ortaya qoyan Biçeraxov, Qafqazda yaşayan türklərin Rusiyaya xəyanət etdiyini, Osmanlı ordusuna güvənənlərin ağır şəkildə cəzalandırılacağını, yalnız ona itaət etdikləri halda Rusiyaya və çara etdikləri bu xəyanəti bağışlayacağını elan etdi[15]. Biçeraxov Dərbənddə kifayət qədər qüvvə qoyaraq, daha şimalda yerləşən Mahaçqala üzərinə yeridi. Müdafiə qüvvəsi olmayan şəhəri asanlıqla işğal etdi. Mahaçqaladan sonra Timirxan-Şuranı da ələ keçirən Biçeraxov qüvvələrinin sayı Bakıdan qaçan erməni və ruslar da daxil olmaqla 6 mini keçmişdi[16]. Osmanlı Dövləti tərəfindən müstəqilliyi tanınan və bir Türk dövləti olan Şimali Qafqaz Respublikasının mövcudluğunu davam etdirə bilməsi üçün Dağıstanın müxtəlif bölgələrini işğal etmiş bolşeviklərin və Biçeraxov qüvvələrinin ölkədən çıxarılması lazım idi. Azərbaycanda olan 15-ci piyada diviziyası və dağıstanlı milislərdən ibarət Cənubi Qafqaz Ordusu quruldu. Ordu komandanlığına da əvvəllər Çanaqqala Qrupuna komandanlıq etmiş Mirliva Yusif İzzət paşa gətirildi. Yusif İzzət paşa Ordu Komandanlığı ilə yanaşı, həm də Şimali Qafqaz Respublikası nəzdində Osmanlı Dövlətinin siyasi və hərbi təmsilçisi idi. Şimali Qafqaz Ordusu Qərargah rəisliyinə də yarbay (podpolkovnik) İsmayıl Haqqı bəy (Berkok) gətirildi[17].

Ordu Komandanı Yusuf İzzət paşa 29 avqust 1918-ci il tarixində İstanbuldan Batuma getdi. Bakının işğaldan təmizlənməsi əməliyyatlarına qoşulan Şərq Orduları Qrupu Komandanı Xəlil paşa, Batumda olan Yusif İzzət bəyə xəbər göndərərək, Gürcüstandakı Almaniya Hərbi Təmsilçisinin bəzi tələblərlə çıxış etdiyini bildirdi. Xəlil paşa almanların türk hərbi qüvvələrinin arxasından iki alman batalyonundan birini Vladiqafqaza, digərini də Çeçenistandakı Qroznıya göndərmək istədiklərini bildirərək, bu barədə nə düşündüyünü soruşdu. Yusif İzzət paşa, verdiyi cavabda, Almaniyanın hər şeydən əvvəl Şimali Qafqaz Respublikasını tanıması lazım olduğunu bildirdi. Şimali Qafqaz hərəkatına hər hansı bir müdaxiləni qəbul etməyəcəyini bildirən Yusif İzzət paşa göndərilməsi nəzərdə tutulan iki alman batalyonunun onun sərəncamına verilməsi şərtiylə, Şimali Qafqazın digər hissələrinə göndərilə biləcəyini qeyd etdi[18].

Yusif İzzət paşa Şimali Qafqaz Respublikasının başçısı Əbdülməcid Çermiyev ilə birlikdə Batumdan qatarla yola çıxdı və 5 oktyabr 1918-ci il tarixində Bakıya çatdı. Xəlil paşa, Yusif İzzət paşa və Nuru paşa, qərargah heyətləri ilə, böyük çətinliklər hesabına düşməndən təmizlənən Azərbaycanın, şimal, cənub, qərb və Xəzər dənizi istiqamətindən təcavüzə açıq olduğu və vəziyyətin təhlükə altında olduğu qənaətinə gəldilər. Bu dövlətin yaşaya bilməsi üçün qonşu ölkələrdə də sülh, əmin-amanlıq və asayişin tam bərpa edilməsinin vacibliyinə qərar verdilər.

Komandanların Qafqazdakı vəziyyəti qiymətləndirdikləri günlərdə Bakıdan çəkilən 39-cu ingilis korpusu, Cənubi Azərbaycandakı sahil şəhəri Ənzəlidə idi. Biçeraxov qüvvələri isə Dağıstanda Dərbənd və Mahaçqalaya çəkilərək özlərinə tərəfdarlar toplamağa başlamış, Bakıdan qaçan rus və ermənilər də bu birliklərə qoşulmuşdu. Bunun qarşısında Şimali Qafqazda türk və müsəlman əhalidən ibarət ciddi bir ordu təşkil olunmamışdı. İrəvandakı erməni hökuməti ilə Osmanlı Dövləti arasında isə bir müqavilə imzalanmışdı. Lakin, Andranik Qarabağ və Zəngəzur bölgələrində türklərə həmlə etmək üçün bir dəstə hazırlamaq işinə başlamış, Şuşa, Gorus, Ordubad və Naxçıvan ətrafında yolları kəsmişdi. Buna görə də türklər ciddi bir basqın təhlükəsi altında idilər. Bu vəziyyətdə Azərbaycan dörd bir tərəfdən dost olmayan qüvvələrlə mühasirəyə alınmışdı[19].

Ənvər paşanın Bakının qurtuluşu münasibətilə göndərdiyi təbrik teleqramında əks olunan xüsusiyyətləri də nəzərə alan komandanlar lazımi hazırlıqlara başladılar. Nuru paşa Baş Komandanlıq Qərargah rəhbərliyinə göndərdiyi raportda, Türk Qafqaz İslam Ordusuna tabe 15-ci piyada diviziyasının Dağıstan və Mahaçqalanın zəbti, 9 və 106-cı Qafqaz Alaylarının da Qarabağ hərəkatı üçün təlimatlandırıldığını, 5-ci Qafqaz piyada diviziyasının isə hələlik Bakıda qalacağını bildirdi. Yeni bir hərəkat tapşırığı alan hərbi birliklərin, vəzifələrini yerinə yetirdikdən sonra uyğun dıviziyalara qaytarılacaqlarını bildirdi. Bakıda, vaxt keçirmədən, 20 sentyabrdan etibarən hazırlıqlara başlandı[20].

**4. Quba və Xaçmazın qurtuluşu**

Şimali Qafqazda milli qüvvələr təşkil etmək üçün 1918-ci ilin may ayında hazırlıq işlərinə başlanmışdı. Bölgə əhalisindən bir piyada və bir süvari diviziyası ilə iki alay təşkil edilməsi nəzərdə tutulurdu. Dağıstan türklərindən qurulacaq bu hərbi birliklər üçün 6-cı Ordunun 6-cı diviziyası və 9-cu Ordunun 11-ci diviziyasından 74 zabit ilə 577 serjant və sıravidən ibarət bir "Təşkilat Diviziyası" qurulmuşdu. Yaradılacaq 4-cü piyada diviziyası komandanlığına, Şərq Cəbhəsindəki döyüşlərdə ruslara əsir düşən, ancaq Rusiyadakı bolşevik inqilabı və qarışıqlıqdan yararlanaraq qaçmağa müvəffəq olan polkovnik (albay) Əhməd Şükrü bəy gətirilmişdi. 1-ci süvari diviziyası komandanlığına isə polkovnik (albay)

Akif bəy keçmişdi. Dağıstan türklərindən qurulacaq milli orduya rəhbərlik edəcək heyət 15 iyul 1918-ci il tarixində xidmət bölgələrinə yola düşmüşdü.[21]

Türkiyədən gələn komandirlər, Dağıstanın Temirxan-Şura bölgəsi ilə Gimri, Arkaz və Qızılyar dairəsində bolşeviklərə qarşı ordu quruculuğu işlərinə başladılar. İlk olaraq Osmanlı-Rus müharibəsində əsir düşən bölgədəki türk əsgərlərini bir yerə cəmlədilər, sonra Dağıstan türklərindən 500 nəfərlik bir hərbi birlik yaratdılar. Bu hərbi birliklər Mahaçqalanı Bakı və Dərbənd ilə birləşdirən dəmir yolunu kəsmək üçün işə başladı. Dağıstanda bolşevik təbliğatı aparılan bölgələrdə isə xalqın rusların vədinə uymasının qarşısını almaq üçün fəaliyyətə başladılar[22].

Dağıstandakı türk qərargah heyəti, qısa müddətdə təşkil etdikləri hərbi birliklərlə Temirxan-Şura cəbhəsindəki Arkaz, Gimri və Qızılyar bölgələrində olan bolşevik qüvvələrinə həmlələr etdilər. 5 avqusta qədər davam edən münaqişədən bir nəticə alınmadı. Bolşeviklər, Dağıstanın daxili bölgələrində çox güclü bir müqavimətlə qarşılaşacaqlarını başa düşərək, əks-hücuma keçməyə cəsarət etmədilər.

Azərbaycanın şimal-şərqində Qafqazın ən uc nöqtəsində yerləşən Quba və Xaçmaz bölgələrində baş verən döyüşlərdə, işğalçı qüvvələrə edilən basqın uğurlu oldu. Qubadakı döyüşlərdə, sözsüz ki, 4-cü diviziya komandanı (polkovnik) albay Əhməd Şükrü bəy də iştirak edirdi. Qubanı düşmən işğalından qurtarmaq üçün süvari minbaşı Səbri bəyin komandanlıq etdiyi təxminən min nəfərlik bir milis qüvvəsi, gecə boyunca yürüş edərək Qubanın şimalındakı Qusar qəsəbəsini ələ keçirdi. Burada bir bolşevik bölüyünü əsir aldı, bununla bərabər dörd pulemyot və xeyli miqdarda sursat ələ keçirdi. Bunun ardından Quba üzərinə yeriyərək, 2 avqustda bolşevik işğalına son qoydu[23]. Qubadan qaçan bolşeviklər, Xaçmaz istiqamətində gedərkən, Qasımkənddə olan milis qüvvələri düşməni mühasirəyə aldılar, lakin bir uğur qazanılmadı. Türk hərbi birlikləri, düşməni təqib edərək Xaçmaz üzərinə yeridi, lakin düşmən Xəzər dənizindəki gəmilərdəki topçu dəstəsinin sayəsində 8 avqusta qədər şəhəri qorumağa müvəffəq oldu.

Cənubi Azərbaycandakı Ənzəli üzərindən Bakıya gələn və Türk Qafqaz İslam Ordusu qarşısında dayana bilməyəcəyini başa düşən çar tərəfdarı Biçeraxov oradan da dəmiryolu ilə Xaçmaza gəlmişdi. Polkovnik Biçeraxov, türk hərbi birliklərinin təqibi nəticəsində 11 avqustda buradan da çıxıb şimaldakı Dərbəndə keçdi. Biçeraxovun qüvvələri Xaçmazı tərk edən kimi türk milis qüvvələri şəhərə daxil oldu. Daha sonra polkovnik Biçeraxovun qüvvələrini Dərbəndə qədər təqib etdilər. Ancaq bir nəticə alınmadı[24].

Quba və Xaçmazın düşmən işğalından qurtarılması və bölgənin nəzarət altına alınması nəticəsində, Dağıstan və Rusiya ilə Bakı arasındakı dəmir və quru yolu tamamilə türklərin əlinə keçdi. Eləcə də, bolşeviklərin bölgədəki təbliğatlarının qarşısı alınmış oldu. Qafqazın bu cənub-şərq ucunda əldə edilən

uğurlarda, heç şübhəsiz, Türk Qafqaz İslam Ordusunun Azərbaycanda yaratdığı atmosferin böyük təsiri olmuşdu.

**5. Dərbəndin qurtuluşu**

Türk Qafqaz İslam Ordusu Komandanı Nuru paşa Dağıstanın ələ keçirilməsi üçün 15-ci piyada diviziyası komandanı yarbay Süleyman İzzət bəyə 20 sentyabr 1918-ci il tarixində bir əmr göndərdi[25]. Türk Qafqaz İslam Ordusunun Şimali Qafqazdakı hərbi hərəkat planı belə idi: Dağıstan hərbi hərəkatı ilə təlimatlandırılan 15-ci piyada diviziyası sürətlə Xaçmaz istiqamətində hərəkət edəcək və Dərbənd qısa bir müddətdə ələ keçiriləcəkdi. Hərbi birliklər şəhərin 5 kilometrliyinə qədər irəliləyəcək və burada mövqe tutacaqdı. Əldə edilən mövqe, bəzi hərbi qüvvələrlə gücləndiriləcək 107-ci Qafqaz alayından ibarət Dərbənd dəstəsinə təhvil verildikdən sonra 15-ci piyada diviziyası geri çəkiləcəkdi. Xaçmaz dəstəsi də 15-ci piyada diviziyasının tabeliyinə veriləcəkdi[26].

Lazımi hazırlıqlar başa çatdıqdan sonra, 15-ci piyada diviziyasının bəzi hissələri 1 oktyabrda Biləcəri stansiyasından Dağıstana getmək üçün qatarlara mindirildilər. Əvvəlcə 15-ci piyada diviziyasına tabe olan 56-cı alay yola çıxdı, 36-cı alay isə daha sonra hərəkət edəcəkdi. Quba və Xaçmaz bölgəsini düşmən işğalından qurtaran minbaşı Səbri bəyin komandası altında olan Xaçmaz dəstəsi də diviziyanın toplaşma yeri olan Xaçmazda türk hərbi birliklərinə qoşulmağa başladı. 38-ci piyada alayının əsas döyüşkən heyətindən bir bölüyün Bakıda saxlanılması əmr edildi. Buna görə də müharibə gücü bir xeyli zəifləmişdi və Xaçmaz bölgəsindəki qüvvələrlə gücləndirilməsi planlaşdırılırdı[27]. 15-ci piyada diviziyasına daha sonra iki zirehli qatar veriləcəkdi[28]. Bu hərbi hərəkatın davam etdiyi əsnada, 15-ci piyada diviziyasının İstanbula göndərilməsi məsələsi ortaya çıxdı. Bu səbəbdən 38-ci piyada alayının Dağıstan hərəkatında iştirak etməli olan heyəti yola çıxmaq üçün Bakıda qatar gözlədiyi halda, Nuru paşa təftişlər apardığı Ağdamdan Xaçmaza getmək üçün Bakıya gəldi[29].

15-ci piyada diviziyası və Dağıstan hərəkatında iştirak edəcək hərbi qüvvələrin qərargahları 2 oktyabrda Xaçmaza çatdı və bölgədəki komandirlər vəziyyətlə əlaqədar məsləhətləşmə keçirdilər. Öncül qüvvələr də Fərhadkənd və Orucabad xəttinə yerləşdirildi[30]. Nuru paşa Dağıstan hərəkatını izləmək və hazırlıqları yaxından görmək üçün, 4 oktyabrda qatarla Xaçmaza getdi. Buradan maşınla Qubaya keçdi. Yollarda maşını saxlatdıran türklər Nuru paşanı duz-çörəklə qarşıladılar. Xalqın böyük məhəbbəti ab-havasında Xaçmaza daxil olan Nuru paşa burada yaşayan türklərlə apardığı danışıqlarda vətənlərinə sahib çıxmalarını, bunun üçün də övladlarını əsgər göndərmələrini istədi.[31]

Türk ordusunun Dərbəndə yürüş etməyə hazırlaşdığından xəbər tutan Biçeraxov, Mahaçqaladan 300 nəfərlik bir birliyi Dərbəndə gətirdi. Buradakı mövqelərini möhkəmlətdikdən sonra, müdafiəni gücləndirmək istəyirdi. Hərbi

hərəkatın bir az da gecikdirilməsi halında, düşmənin daha da güclənəcəyini düşünən komandirlər 38-ci piyada alayının da cəbhə xəttinə çatmasını gözləmədən, 56-cı piyada alayının Dərbənd istiqamətində hərəkətə gəlməsini qərarlaşdırdılar. Beləliklə, Dağıstanın düşmən işğalından qurtarılması üçün gözlənilən hərbi müdaxilə 5 oktyabrda başladı[32]. 56-cı piyada alayı, cəbhəyə yenicə çatan 38-ci alayın qabaqcıl hissələri ilə birlikdə, Dərbəndin bağlarını keçdikdən sonra, stansiya ətrafında pusqu quran Biçeraxov qüvvələri ilə qarşılaşdı. Qanlı döyüşlərdən sonra Stansiyadan süpürülüb atılan Biçeraxov qüvvələri axşama doğru Dərbənd qalası ilə Qala Dəyirmanı bölgəsindən də uzaqlaşdırıldı. Havanın qaralmaq üzrə olduğunu görən komandirlər əsgər itkisi verməmək üçün hərəkata ara verdilər[33]. Ertəsi gün, türk silahlı qüvvələrinin kəskin hücumu qarşısında tab gətirməyən düşmən, dağınıq halda şəhərə yayıldı. 56-cı piyada alayı 6 oktyabr saat 10.45-də şəhərə girərək Dərbəndi tamamilə nəzarətə götürdü[34].

15-ci piyada diviziyası Qərargah rəisi yarbay (podpolkovnik) Süleyman İzzət bəy günortaya doğru qərargahı ilə birlikdə Dərbəndə daxil oldu. Süleyman İzzət bəy Dərbəndi zəbt etmələrini belə təsvir edir:

"Günorta firqə qərargahı ilə şəhərə girdim. Əvvəlcə verdiyim əmrə əsasən şəhərdə asayişə cavabdeh zabit və sıravi heyətinin işinə başçılıq etdim və bələdiyyə rəisi Müslüm İsrafilovu hökumət rəisi təyin elədim."[35]

Dərbəndin əsas küçə və meydanlarına Türk bayrağı asıldı. Bakının düşmən işğalından qurtarmasında yaxşı nəticələr göstərmiş 56-cı alay, Dərbənddə də buna oxşar fəaliyyəti ilə fərqlənmişdi. 38-ci alay isə şəhərə qərb istiqamətindən girmişdi. Düşmənin ən azı 800 piyadası, səkkiz pulemyotu və bir zirehli qatarı vardı. Xəzər dənizində rus çar ordusundan qalma Ərdəhan və Qars adlı döyüş gəmiləri isə açdıqları top atəşi ilə döyüşlərə yardım edirdilər. Düşmən əsgər və silah baxımından da 56-cı alaydan üstün idi[36]. Dərbəndi ələ keçirən 56-cı piyada alayının döyüşkən tərkibi 679 əsgərdən ibarət idi. 12 pulemyotu, 12 də topu vardı. Dərbənddə düşməndən birinin arxa qapağı çıxarılmış üç top ilə dörd pulemyot ələ keçirilmişdi. 15-ci piyada diviziyası Bakıdan 210 kilometr şimalda yerləşən Dərbəndə qədər irəliləmiş və cəmi beş gün ərzində bölgəni nəzarət altına almışdı.

Polkovnik Biçeraxov Dərbəndi müdafiə edən qüvvələrin komandiri polkovnik Bertrandı bacarıqsızlıqda günahlandırıb vəzifədən kənarlaşdırdı və həbs etdirdi.[37] Biçeraxov qüvvələri 6-7 oktyabr gecəsində bir zirehli qatarla 15-ci piyada diviziyasına qarşı cəbhəni yarmağa təşəbbüs göstərdi. Ancaq türk hərbi birlikləri tərəfindən geri oturduldu. Qatardan açılmış bir vaqonda, sursatla birgə bir pulemyot və birinin arxa qapağı çıxarılmış iki top ələ keçirildi. Gecə baş verən bu hadisədən sonra yenə 7 oktyabrda səhər saatlarında 8 pulemyot və 4 top ilə müşayiət olunan 880-ə qədər düşmən piyadası 56-cı piyada alayına qarşı hücum təşkil etdi. Bu hücum da geri oturduldu. Dərbəndin şərqindəki dağlıq və meşəlik

sahəyə çəkilən Biçeraxov qüvvələri ilə 9 oktyabrda da qanlı döyüşlər oldu. Rus birlikləri 12 və 13 oktyabrda da hücum manevrləri etdilər, ancaq hər dəfə də məğlub olaraq ağır itkilərlə geri çəkilmək məcburiyyətində qaldılar[38].

**6. Dərbənd döyüşləri əsnasında cərəyan edən siyasi və hərbi münasibətlər**

Şimali Qafqazda hərbi hərəkat davam edərkən, alman və bolqar cəbhələri süqut etmişdi. Osmanlı Dövlətinin müttəfiqləri, məğlubiyyəti qəbul edərək, sülh danışıqlarına getmək üçün Antanta dövlətlərinə müraciət etmişdilər. Belə bir şəraitdə çox böyük fədakarlıqla Qafqazda davam etdirilən hərbi hərəkatda Türk ordusu lazımi üstünlüyü təmin etmişdi. Hərbiyə Naziri və Baş Komandan vəkili Ənvər paşa, bu vəziyyətin davam edə bilməsi üçün 5-6 oktyabr tarixində Şərq Orduları Qrupu Komandanlığına bir əmr göndərdi. Ənvər paşanın əmri belə idi:

"Azərbaycan və Şimali Qafqazdakı əsgərlərimizi çəkmiş kimi bir görüntü yaratmaq məcburiyyətindəyik. Bu halda, Azərbaycan və Şimali Qafqaz Respublikalarının öz əsgəri qüvvələrinə güvənməsi lazım gələcəkdir. Bu səbəbdən, Qafqazda qalacaq qüvvələrin Azərbaycan və Şimali Qafqaz qüvvələri olması üçün indidən bu qüvvələri əsas tutaraq, bunların silahlandırılması və yenidən təşkil olunaraq qüvvətlənməsi vacibdir.

Ermənilərlə qovğa etməyərək, onlarla yaxşı davranaraq sülh müzakirəsində onlarla birlikdə olmaq üçün çalışmaq lazımdır. Orada qalacaq zabitlərlə digərləri, Azərbaycan vətəndaşı olaraq qalsın və hökumət geri çəkilmə əmri versə belə, onların orada qalması üçün tərtibat hazırlansın. Azərbaycana rus silah və cəbbəxanası olmaqla çoxlu silah və sairə göndərilsin"[39].

Şərq Orduları Qrupu Komandanı, Baş Komandanlığın bu əmri əsasında 5-ci Qafqaz piyada diviziyasının Azərbaycanda, bir piyada batalyonu dəstəsinin də Dağıstanda qalacağını bildirdi. Azərbaycanlı sıravilərlə gücləndirilən 5-ci Qafqaz diviziyası, Azərbaycanda üç diviziyalı bir korpus, Dağıstandakı piyada batalyonu dəstəsi də bir diviziya halına gətirilərək, Azərbaycan və Şimali Qafqaz Respublikalarının öz vətənlərini milli qüvvələri ilə qorumaları təmin ediləcəkdi[40].

Dərbəndin şimalında döyüşlər davam edərkən, Şimali Qafqaz Komandanı Yusif İzzət paşa və Şimali Qafqaz Respublikası Dövlət başçısı Əbdülməcid Çermiyev, 8 oktyabrda Dərbəndə getmişdi.[41] Dərbənddə vəziyyətin tamamilə normallaşmasının ardından, 13 oktyabr 1918-ci il tarixində Şimali Qafqaz Respublikası hökuməti quruldu. Türk Qafqaz İslam Ordusu Komandanı Nuru paşa ilə Şimali Qafqaz Respublikası Dövlət başçısı Əbdülməcid Çermiyev, Şimali Qafqaz Komandanı Yusif İzzət paşa, 15-ci piyada diviziyası komandanı yarbay (podpolkovnik) Süleyman İzzət bəy də hökumətin elan edilməsi münasibətilə təşkil olunan mərasimdə iştirak edirdilər.

Dərbənddə səhər saat 10.00-da Şimali Qafqaz Respublikasının bayrağı mərasimlə qaldırıldı və hökumətin qurulduğu rəsmi olaraq elan edildi[42]. Yarbay (podpolkovnik) Süleyman İzzət bəy mərasimdən sonra Dərbəndin qurtuluşu haqqında komandirlərlə brifinq keçirdi. Süleyman İzzət bəy yığıncaqda Dərbəndin ələ keçirilməsi üçün çəkilən əziyyətləri xatırlatdı. Şəhərin, Biçeraxov qüvvələrinə qarşı bir batalyon piyada və süvari bölüyündən əmələ gələcək Dərbənd dəstəsi tərəfindən mühafizə olunmasının mümkün olmadığını bildirdi. 15-ci piyada piviziyasının hərəkatı davam etdirərək, Mahaçqala və Dağıstanı işğaldan tamamilə təmizləmək lazım olduğunu bildirdi. Süleyman İzzət bəyin verdiyi məlumata görə, həqiqətən də rus döyüş gəmiləri Dərbənd sahillərində aramsız manevrlər edirdi. Düşmən hərbi birləşmələri Dərbənd-Mahaçqala yolundan rahatca istifadə edirdi ki, bunun da qarşısı mütləq alınmalı idi. Türk əsgəri, yerli xalqdan heç bir yardım ala bilmirdi[43]. Yusif İzzət paşa da bu vəziyyətdə Dərbənd dəstəsinin (107-ci Qafqaz alayı) şəhəri qoruya biləcəyinə inamı olmadığını bildirərək, 15-ci piyada diviziyasını, o bölgədən ayrılana qədər Yusif İzzət paşanın əmrinə verdi. Çünki 15-ci piyada diviziyasının Dağıstanda qalmasının vacib olduğunu bildirdi. Müzakirələrdən sonra bu təklif qəbul olundu. Nuru paşa 15-ci piyada diviziyasını, o bölgədən ayrılana qədər Yusif İzzət paşanın əmrinə verdi. 15-ci piyada diviziyasının Batuma göndərilməsi ilə əlaqədar əmr hər an gələ bilərdi. Buna görə, Mahaçqalanın ələ keçirilməsi üçün ediləcək hərbi müdaxiləni tezliklə başlamaq, ən qısa zamanda nəticə əldə etmək tələb olunurdu[44].

Hərbi birliklərdə struktur dəyişikliyindən sonra, lazımi hazırlıqlar sürətlə başa çatdı. Türk Ordusu Dərbəndin şimalından etibarən dəniz ilə dağlar arasında nisbətən geniş və düz bir ərazidə irəliləmiş və düzənliyə çatmışdı. Üzərinə hücum planlaşdırılan Mahaçqala Xəzər dənizinin sahilində yerləşirdi. Şəhərin qərbi və cənub-qərbi yüksək dağlar və təpələrlə əhatələnmişdi. Bunlardan bəziləri aşağıdakılardır: Şambol (242 m), Uçkullar (1,667 m), Teylisolqan (2,006 m), Soldat (2,499 m və 2,450 m), Tarki dağı (1,579 m və 2,362 m). Mahaçqalanın şimalında isə daha düz olan bir ərazi vardı və Xəzər dənizi boyunca uzanırdı. Dərbənd istiqamətindən gələn dəmir və quru yolları da Mahaçqaladan keçərək, şimal istiqamətində Vladiqafqaz və Rusiyaya doğru uzanırdı. Tarki dağının şimalında Mahaçqalanı Qafqazın daxili bölgələri və Temirxan-Şura şəhəri ilə bağlayan quru yolu mövcud idi. Bu yol üzərindəki Atlıboyun qəsəbəsi Tarki dağı ilə Ostra dağı arasında əhəmiyyətli bir keçid nöqtəsidir. Bu bölgədəki dağ və təpələrin bir xüsusiyyəti də son dərəcə dik olması, dərin yarğan və vadilərlə bir-birindən ayrılaraq keçməyi qeyri-mümkün etməsidir. Ərazi sıx kolluqlarla örtülüb. Dağlar payız aylarında çox vaxt dumanlı və yağışlı olur. Gecələr isə sərt ayaz hökm sürür. 15-ci piyada diviziyası da bu şərtlərlə Mahaçqalanın yerləşdiyi düzənliyi və hakim təpələri ələ keçirərək şəhərə girməyi planlaşdırırdı[45].

### 7. Türk Ordusunun Mahaçqala üzərinə yürüşü

Komandanların verdiyi qərara görə 15-ci piyada diviziyası, Mahaçqala üzərinə yeriyərək Dağıstanı işğalçılardan azad edəcəkdi. Şimali Qafqaz Respublikası Prezidenti Çermiyev, rus kazakı polkovnik Biçeraxova 13 oktyabr 1918-ci il tarixində bir ultimatum verərək, Dərbənd və Mahaçqala arasındakı ərazinin Şimali Qafqaz Respublikasının ərazisi olduğunu bildirdi və Dağıstanı boşaltması üçün 20 oktyabra qədər vaxt verdi.[46] Biçeraxov isə 16 oktyabrda göndərdiyi cavabda qafqazlı və rus kazakı olduğunu bildirərək, onu məmləkətindən heç kəsin qova bilməyəcəyini və Dağıstanı da Rusiyanın bir parçası olaraq gördüyünü bildirdi. Biçeraxov məktubda bunları yazmışdı:

"Bu torpaqlar Rusiyanındır. Tabeliyimdəki əsgər isə böyük Rus Ordusunun bir parçasıdır. Dağıstandan çıxmayacağam. Ancaq siz, özünüzün kim olduğunuzu bilmirsiniz. Şimali Qafqaza sahiblik iddia edərkən, Brest-Litovsk müqaviləsini, türklərin də sizinlə birlikdə döyüşdüyünü xatırlamırsınız. Türklərin öz ölkələrinə xeyri olmadıqdan sonra, sizə heç bir faydası olmaz. Xəbəriniz yoxdurmu ki, ingilis topları Çanaqqala yaxınlığında gurlayır. Fələstin və Suriya tamamilə işğal edilib. İki həftəyə qədər türklərin buradan tamamilə çəkiləcəyi mütləqdir. O zaman tək qalacaqsınız və bir şey etməyə qüdrətiniz çatmayacaqdır. Mən sizin bir yaxınınız və sizin yaxşılığınız üçün çalışan bir adam kimi, sizə təklif edirəm ki, gəlin danışaq. Sizin və bizim üçün ən yaxşı olan məsələləri müzakirə edək. Ondan sonra istədiyinizi edə bilərsiniz. Bu məktubuma 18 oktyabr tarixinə qədər cavab istəyirəm. Əgər cavab almasam, yazdıqlarımın nəzərə alınmadığını hesab edərək, Dərbəndin qurtarılması üçün hərəkət edəcəyəm. Dərbənddə nə qədər əsgər olduğunu və nə işlə məşğul olduqlarını da lap əla bilirəm"[47].

Türk qüvvələri Biçeraxova verilən vaxtın bitməsinə qədər hərbi əməliyyata başlamadı. Türk hərbi birlikləri, vaxtın tamam olması günündən etibarən, 20 oktyabrda şəhərə yaxın, üç qrup halında hücuma keçdi. 15-ci piyada diviziyası, yarbay Süleyman İzzət bəyin komandası altında mühasirə qrupu kimi hərəkət edəcəkdi. Sərəncamında, 38-ci və 56-cı alaylardan iki batalyon, 107-ci alaydan 1-ci batalyon və 42-ci süvari bölüyü ilə 8 topdan ibarət bir topçu batareyası var idi. Cəbhədən irəliləyəcək qrupda isə podpolkovnik Fazil bəyin komandası altında 107-ci alaydan 2-ci və 3-cü batalyon, 13-cü alaydan 46-cı batalyon ilə 5 topdan ibarət bir topçu batareyası və bir zirehli qatar var idi. Dərbənd Qrupunda isə komandir yarbay Saadəddin bəyin sərəncamında bir milis batalyonu ilə bir top vardı. Bu qrupun vəzifəsi, Dərbəndə dənizdən edilə biləcək hər hansı müdaxilənin qarşısını almaq idi. Düşmən qüvvələrinin bir qismi Caməkənddə, bir qismi isə Xanməhəmmədqalada müdafiə xətti qurmuşdu. Xəzər dənizində Ağni açıqlıqlarında isə ruslara aid "Qars" və "Ərdahan" adlı döyüş gəmiləri dayanmışdı[48].

Şimali Qafqaz Komandanı Yusif İzzət paşa, 20 oktyabr 1918-ci il saat 07.45-də hücum əmri verdi. Süleyman İzzət bəy, o gecə diviziyaya göndərdiyi əmrdə, hücumun detallarını bildirdi[49]. Hücum payızın gəlməsi ilə əlaqədar çox soyuq və yağışlı bir gündə başladı. Yusif İzzət paşa, Cəbhə Qrupu ilə birlikdə hərəkət edirdi. Şimali Qafqaz Komandanlığı Qərargah rəisi yarbay İsmayıl Haqqı bəy isə 107-ci alay komandiri vəzifəsini icra edirdi. Hərbi birliklər dağlıq və meşəlik ərazidə çətinliklə irəliləyə bilirdi[50]. 24 oktyabr axşamına qədər davam edən hərəkatda, Türk hərbi birlikləri Biçeraxov qüvvələrini geri oturda bilmişdi. Rus kazakı polkovnikinin bir çox hücumları uğursuzluqla nəticələndi. Belə olduqda Biçeraxov əsl qüvvələrini Mahaçqalaya çəkdi və bölgədəki yüksək dağlarda müdafiə xətləri qurmağa başladı.[51] 25 oktyabr gününü dincələrək başa vuran türk hərbi birlikləri, 26 oktyabrda yenidən hərəkətə başladı. Manas çayına qədər irəliləyərək, müqavimət göstərməyə çalışan Biçeraxov qüvvələrini buradan da geriyə oturdu. Tarki dağı və Mahaçqala yaxınlığına qədər irəliləyən türk hərbi birlikləri o günə qədər Biçeraxovun əsl qüvvələri ilə heç döyüşməmişdi. Süleyman İzzət bəy 27 oktyabrda Tarki dağında müqavimət xətti quran Biçeraxov qüvvələrini cənub və qərb istiqamətində tamamilə mühasirəyə aldı[52].

Polkovnik Biçeraxovun Mahaçqalada 4-5 minə qədər bir hərbi qüvvəsi dururdu. Türk hərbi qüvvələrinin Dağıstandan çəkilməsindən sonra, Şimali Qafqaz Respublikasının tabeliyində olan və elə də böyük hərbi gücü olmayan milis qüvvələri ilə ruslara qarşı çıxmaq mümkün deyildi. Buna görə də, Biçeraxova bağlı qüvvələrin tamamilə məhv edilməsi və Mahaçqalanın işğaldan qurtarılması vacib idi.

Tarki-Atlıboyun xəttinə qədər irəliləyən 15-ci Piyada Diviziyası, 4 noyabra qədər mühasirə vəziyyətini qorudu. Aparılan kəşfiyyat nəticəsində üç cərgə tikanlı məftillər və güclü istehkamlarla şəhərin müdafiəyə hazırlaşdığı, toplar, zirehli qatar və dənizdəki döyüş gəmiləri ilə müdafiənin möhkəmləndiriləcəyi məlum oldu. 5 noyabra Mahaçqala üzərinə planlaşdırılan hücumda 15-ci piyada diviziyasından 1.700 döyüşçü iştirak edəcəkdi. Milis diviziyasından isə iştirakçıların sayı 2.000 olacaqdı. Hücumun bütün ağırlığını üzərinə götürəcək 38-ci və 56-cı alayların əsgərlərinin ümumi sayı isə 1.067 nəfər idi. Türk piyadasını 40 pulemyot və 13 top müşayiət edəcəkdi. Süleyman İzzət bəy dənizdəki gəmilərə qarşı istifadə etmək üçün Nuru paşadan Bakıda olan 10,5 mm-lik dağ qaubitsa batareyasını istəmişdi. Bu batareya isə vaxtında çatmadı və ancaq 6 noyabrda cəbhədəki yerini tuta bildi[53].

Türk hərbi birlikləri 5 noyabrda səhərə yaxın hücuma keçdilər. Düşmən qüvvələri Tarki dağını müdafiə etməyə çalışırdılar. Təpə və yarğanlardan aşağıya doğru sərbəst atəş açırdılar. Bir ara uzun mənzilli top atəşinə məruz qalan 107-ci alaya aid bəzi birliklər tamamilə dağılmışdı. Cəbhənin ən ön cərgəsində döyüşlərə qoşulan yarbay Süleyman İzzət bəy bu alayın əsgərlərini çətinliklə də olsa, bir yerə

toplaya bildi. Yenidən nizama salaraq Biçeraxov qüvvələrinə qarşı hücuma keçirdi və düşmənin tamamilə geri oturdulmasını təmin etdi. Hədəfdəki Tarki dağının 2362 və 1579 m yüksəklikdəki təpələri qanlı döyüşlərdən sonra ələ keçirilə bildi. İki gün davam edən qanlı döyüşlər çox ağır şəraitdə və dondurucu soyuqlar altında cərəyan etmişdi. Başda Süleyman İzzət bəy olmaqla, zabit və əsgərlərin bir çoxu malyariyaya tutulmuşdu. Yüksək hərarət və malyariya ağrıları altında qəhrəmanlıqla vuruşurdular[54].

6 noyabr 1918-ci ildə səhərin erkən saatlarında bütün istiqamətlərdən başlayan hücumda, axşam saatlarına doğru Biçeraxov qüvvələri böyük tələfat verərək geri çəkilməli oldular. Mahaçqala istiqamətində qaçan düşmən, ciddi təqib altındaydı.

Süleyman İzzət bəy də bu müharibədə yaralanmışdı[55]. Artıq dağınıq halda qaçan Biçeraxov qüvvələrinin məhv edilməsi və Mahaçqalanın ələ keçirilməsi asanlaşmışdı. Çox ağır şərtlərlə cərəyan edən Tarki dağı döyüşü qələbə ilə başa çatmışdı[56]. 6 noyabr müharibəsi bir aya qədər davam edən qanlı döyüşlərin sonuncusu oldu. Çünki 6 noyabr 1918-ci il tarixində saat 14.00-da bir ingilis və bir fransız zabit Yusif İzzət paşanın qərargahına gələrək, Osmanlı Dövlətinin Antanta dövlətləri ilə sülh razılığına gəldiyini bildirdilər və hərbi hərəkatın dayandırılmasının lazım gələcəyini ifadə etdilər. Yusif İzzət paşa isə gecə saat 21.00-da hərbi hərəkatın dayandırılmasını bildirərək, hərbi birliklərin olduğu yeri mühafizə etməsini istədi[57].

### 8. Türk Ordusunun Mahaçqalaya (İnciqala) girməsi

İki gün davam edən qanlı müharibələrdə, cəbhədəki ərazi çox narahat idi. Ətrafda sıx kolluqlar ilə çox dik və sərt qayalıqlar vardı. Dayanmadan yağan yağışdan sonra ərazi sürüşkən və palçıqlı idi. Əsgərlər ümumiyyətlə yolu olmayan ərazini dırmanmaq, tullanmaq, sürünməklə keçib irəliləyə bilirdilər. Ağaclı-Tarki arasındakı cığırlar isə heyvanların keçməsi üçün belə əlverişli deyildi. Buna görə də bütün sursat (cəbbəxana) yalnız döyüşən əsgərlər vasitəsilə daşına bilirdi. Yaralanan Mehmetçik isə yenə də silah yoldaşlarının kürəyində daşınıb səhiyyə bölüklərinə çatdırılırdı. Mehmetçiyin üç gün boyunca gözünə yuxu getməmişdi, bu müddət ərzində Tarki dağı ətrafında düşmənə qarşı güclü həmlə etmiş, bəzən geri çəkilmiş, bəzən də qanlı döyüşlərə girmişdi. Ərazinin dik olması ilə yanaşı, duman, rütubət və yağış da əsgərləri yormuşdu.

Biçeraxova tabe əsgərlərdən canını qurtara bilənlər, Mahaçqalanın şimalındakı Həştərxana qaçdılar. Mahaçqaladan 10 nəfərlik mülki heyət, 8 noyabrda şəhərin kənar məhəllələrinə qədər yaxınlaşmış olan 38-ci piyada alayı komandanının yanına gəldi. Heyətin tərkibində iki din alimi, dəmir yolu rəisi və Mahaçqala liman rəisi də var idi. Heyət, Biçeraxovun qüvvələrinin Mahaçqalanı tamamilə tərk etdiyini, xalqın küçə və evlərdə qarətə başladığını bildirərək, sabitlik

yaranması üçün türk əsgərinin şəhərə girməsini rica etdilər. Kəşfiyyatlar nəticəsində səngərlərdə və topçu mövqelərində heç kimin olmadığı aydınlaşdı. Düşmənin yerdə qalan hissəsinin silahlarını götürüb gəmilərlə şəhərdən qaçmağa çalışdığı xəbəri gəldi. Bu əsnada Mahaçqaladan əllərində ağ bayraq bir qrup mülki şəxsin türk əsgərlərinə doğru gəldiyi müşahidə edildi[58]. Türk ordusunun bütün çətinliklərə sinə gərərək, soyuq və aclığa baxmadan, qan tökərək Şimali Qafqaza qədər gedən zabit və sıravilərinin Mudros Barışığının imzalanmış olması səbəbindən Mahaçqalaya, yəni İnciqalaya girməməsi, böyük bir üzüntüyə yol açmışdı. Məhmetçik soyuq və açıq havada, yemək sarıdan korluq çəkərək, narahat bir halda Tarki dağında və Mahaçqalanın yan-yörəsində gözləyirdi.

Mahaçqalanın düşmən birliklərindən tamamilə boşaldığına dair xəbər gəldikdən sonra 8 noyabr 1918-ci il saat 14.00-da 15-ci piyada diviziyasının bütün qüvvələri, 38-ci piyada alayı komandanı polkovnik Səlim bəyin komandası altında şəhərə girdi. 56-cı piyada alayının 2-ci batalyonuna şəhərdə asayişi təmin etmək həvalə olundu. Mahaçqala Yerli komandanlığına da 107-ci alay komandanı albay Fəzli bəy gətirildi. Şəhər tezliklə nəzarət altına alındı. Mahaçqalanın bütün meydan və küçələri türk və Şimali Qafqaz Respublikası bayraqları ilə bəzədildi[59].

15-ci piyada diviziyası komandanı yarbay Süleyman İzzət bəy şəhərin təslim olmasını belə təsvir edir:

"Günortadan sonra saat 2-də (14.00) əmr olunan sıra ilə Petrovsk (Mahaçqala) istiqamətində hərəkət başladı. Bu vaxt 38-ci alay komandanına səhər-səhər müraciət edən heyət məni ziyarət etməyə gəldi. Bunlar ikisi din alimi, biri dəmir yolu mühəndisi, biri Petrovsk liman rəisi olmaqla on nəfərdən ibarət idi. Adları belə idi: Əhmədxan İbrahimbəyov, mühəndis Martinovski, mühəndis Seridinski, keşiş Ramzadze, qazı Adilhan Hadis Hacı, musəvi Sicsim, iranlı Hacı Ağabəy, Əzmüddin bəy Alıkbaçev, Mirzə Hüseyin. Bu heyəti yaralı halda yatdığım Ağaçağıl kəndinin kənarında və iki otaqdan ibarət kiçik bir kənd evində qəbul etdim. Təşəkkür etdim və yanlarına bir zabit qoşaraq, 38-ci alay komandanı Səlim bəyin yanına göndərdim. Yürüş cinahının başında albay Səlim bəy ilə bərabər şəhərə girdilər"[60].

15-ci piyada diviziyası komandanı Süleyman İzzət bəy Dağıstan müharibələrində hər zaman əsgərlərinin başında və ən ön sıradakı döyüşlərdə olmuşdu. Komandirin Mehmetçiyin başında və bəzən də ön sıralardakı hücumlarda görünməsi, dağılma və ya pozulma halında ani qərar qəbul edərək birlikləri bir yerə yığması və yenidən hücumun davam etdirilməsini təmin etməsi təqdirəlayiqdir. Necə ki, Süleyman İzzət bəy 6 noyabr müharibələrində ayağından yaralanmasına baxmayaraq, əlində silahı ilə düşmənə qarşı vuruşmuşdu. Mahaçqala fatehi Süleyman İzzət bəy qoltuq ağacları ilə 9 noyabrda saat 10.00-da Mahaçqalaya daxil oldu.[61] 15-ci piyada diviziyasından bəzi hərbi birliklər, 10

noyabrda Mahaçqaladan Tarki, Atlıboyun, Qumtərqala kimi əhəmiyyətli bölgələrə göndərilərək, bu ətrafda nəzarəti təmin etdilər[62].

Yarbay Süleyman İzzət bəyə baş çəkmək üçün tezliklə Şimali Qafqaz Respublikasının prezidenti Əbdülməcid Çermiyev və Şimali Qafqaz Komandanı Yusif İzzət paşa, mülki və hərbi heyət gəldilər. Milli Komitə rəisi Danyal bəy, Süleyman İzzət bəyə xitabən: "Siz respublikamızın qurulması üçün bizə böyük xidmətlər göstərmisiniz. Cəsarət və şücaətinizi hər yerdə sübut etdiniz. Ən nəhayət, Tarki dağındakı döyüşlərdə yaralandınız və bizə İnciqalanı (Mahaçqala/Petrovsk) bağışladınız. Sizi heç vaxt unutmayacağıq. Milli Komitə tərəfindən bu qılıncı Sizə hədiyyə edirəm" - dedi. Bu, gümüş naxışlı və qızıl suyuna çəkilmiş gözəl bir qılınc idi. Yusif İzzət paşa da Süleyman bəyin boynuna Qılınclı Üçüncü Osmani nişanı və döşünə də qızıl şərəf medalı taxdı[63]. Şanlı Türk bayrağı, Özdəmiroğlu Osman paşanın 1580-1581 ilində qəhrəmanlıqlarla dolu xatirəsini Xəzər dənizinin kənarında təkrar yad edirdi. Dağıstan səmalarında Mahaçqala və Dərbənd bürclərində, Xəzər dənizinin sahillərində 350 illik fasilədən sonra yenidən dalğalanırdı.

Şimali Qafqaz Komandanı Yusif İzzət paşa, 15-ci piyada diviziyası Komandanı Süleyman İzzət bəyi ziyarətə getdiyi vaxtda, Osmanlı Dövlətinin İngiltərə ilə barışıq elan etdiyini və bir ingilis flotunun Qara dənizə açıldığını söylədi. Sülh şərtlərinə görə, Brest-Litovsk müqaviləsi hökmlərinin xaricində qalan işğal edilmiş bölgələrdəki, yəni Qafqazdakı hərbi qüvvələrin çəkiləcəyini bildirdi. Könüllü olaraq və üç illik kontrakt imzalanması şərti ilə bəzi zabitlərin Qafqazda qalmasına hökumətin icazə verdiyini, bu zabitlərin ailələrinin Dağıstana köçürülməsi üçün bəzi təşkilati işlər aparılacağını bildirərək, Süleyman İzzət bəydən də Mahaçqalada qalmağı xahiş etdi. Süleyman İzzət bəy də tabeliyindəki 15-ci piyada diviziyasında xidmət edən zabit və əsgər heyətini Dağıstanda qalmağa təşviq edəcəyini, ancaq özünün vətənə dönəcəyini bildirdi[64].

Mahaçqalanın ələ keçirilməsi üçün 5-6 noyabr döyüşlərində 5 zabit şəhid olmuş, 10 zabit isə yaralanmışdı. Sıravi əsgər tələfatı isə 11 şəhid və 318 yaralı şəklindəydi. Dağıstan hərəkatının davam etdiyi bir ay müddətində 15-ci piyada diviziyasından 192 şəhid, 362 yaralı və 20 nəfər itkin olmaqla, cəmi 574 tələfat verilmişdi[65]. .

**9.Dağıstan hərbi hərəkatının qiymətləndirilməsi**

Şimali Qafqaz hərəkatını uğurla yeridən 15-ci piyada diviziyası Dağıstanda üstün düşmən qüvvələrinə qarşı vuruşdu. Türk hərbi birlikləri, bölgədəki çətin təbii şəraitlə üz-üzə qalaraq mübarizə aparırdılar. Son dərəcə dik yamaclar, qayalar, dağlar, sıx meşəlik ərazilər, bataqlıqlar, körpüsü düşmən tərəfindən dağıdılan çaylar, keçilməsi lazım gələn başlıca maneələr idi. Türk əsgərləri Xaçmazdan etibarən 80 kilometrlik və bir bölüyü də Yalamadan başlayaraq 45 kilometrlik

məsafəni çox çətin şəraitdə qət edərək Dərbənd yaxınlığına qədər gəlmişdi. Olduqca yorulan birliklər, buna rəğmən vaxt itirmədən Dərbənd üzərinə yerimişdi. Dərbəndi zəbt edən qüvvələr 56-cı alaydan cəmi iki batalyon idi. Qarşısında isə polkovnik Bertrandın komandanı olduğu 800 piyada, 8 pulemyot, 5 top, piyada pulemyotu və topla təchiz edilmiş bir zirehli qatarla, Xəzər dənizində "Qars" və "Ərdahan" adlı iki döyüş gəmisi olan bir ordu dayanmışdı. Düşmən hərbi birləşmələri Mahaçqaladan arasıkəsilmədən əlavə qüvvə alırdı. Çünki Bakıdan qaçan bolşevik və erməni daşnaklarla bəzi ingilis əsgərləri, Dağıstana gedərək Bertrandın ordusu sıralarına daxil olmuşdular.

15-ci piyada diviziyası Dərbəndi ələ keçirdikdən sonra dincəlməyə macal tapmadan şəhərin şimalında düşmənlə mübarizəni davam etdirirdi. Eyni günlərdə İstanbula göndərilməsi haqqında əmr alan 15-ci piyada diviziyasından qabaq cəbbəxana və ərzaq, səhiyyə bölüyü və işçi qrupları qatarla Batuma istiqamət götürmüşdü. Dağıstan cəbhəsinə 5-ci Qafqaz piyada diviziyasının səhiyyə bölüyü əlavə olaraq göndərilmişdi. Lakin digər köməkçi elementlər olmadan yalnız döyüşçü sinfi ilə hərəkət etmək məcburiyyətində qalmışdı. 13 oktyabrdan etibarən düşmənin əks hücumlarına uğurla müqavimət göstərdikdən sonra, 107-ci alayı da özünə birləşdirən 15-ci piyada diviziyası 20 oktyabr 1918-ci ildə irəli hərəkətə başlamışdı. Düzdəki dəmir yolunun iki tərəfindən hərəkətə başlayan 107-ci alay, 10 kilometrə qədər irəliləyə bilmişdi. Bunun qarşılığında, əsl birlikləri təşkil edən qüvvələr son dərəcə namünasib olan yüksək dağlardan və balta dəyməmiş sıx meşəliklərdən yol açaraq hərəkəti davam etdirmiş, körpüsü olmayan üç çay, saysız dərə və bataqlıqlardan keçmiş, 15 saat dayanmadan hərəkət edərək təxminən 40 kilometrə qədər irəliləmişdi. Türk hərbi birlikləri ani bir hücumla Camekəndi işğal etmiş, süvari bölüyünü isə Qayakənd istiqamətinə göndərmişdi. 15-ci piyada diviziyası irəli hərəkətini növbəti günlərdə də davam etdirmiş, çoxlu maneəsi olan ərazilərdə, kolluqlar içində döyüşərək, gündə 30-40 kilometr irəliləmiş, eyni zamanda Xəzər dənizindəki gəmilərin atəşinə məruz qalmışdı. Düşmənin zirehli qatarlarının atəşinə, üstün vəziyyətdə olan düşmən qüvvələrinə qarşı mübarizə aparmış, onları geri oturtmuş, onlardan qənimət kimi pulemyot və top ələ keçirmişdi.

15-ci piyada diviziyası, 27 oktyabr 1918-ci il tarixində Mahaçqalanın qərb və cənubunu əhatə edən Tarki dağına qədər irəliləməyə müvəffəq olmuşdu. Dəniz sahilindən Tarki məntəqəsi-Üçkullar-Tebiksolqan təpəsi (2,006 m)-Soldattəpə (2,450 m.)-Atlıboyun-Ostra təpələri-Şahmal təpə (Vladiqafqaz və Temirxan-Şura dəmir yolunun ətrafı) həndəvərini işğal etmək surəti ilə Mahaçqalanı mühasirəyə almışdı. Bu irəli hərəkət daim çənli, yağışlı və soyuq havada reallaşmışdı. Hərbi birliklər açıq havada gecələməli olurdular.

Türk hərbi birlikləri Dərbənddən Mahaçqala yaxınlığına qədər dəmir yolu boyunca 130, mühasirə qüvvələrinin irəlilədiyi qərb və şimal bölgələrində isə 175 kilometrdən artıq yol qət etmişdi. Bu hərəkat əsnasında düşmən daima sayca üstün idi və arasıkəsilmədən əlavə kömək alırdı. Məğlub olaraq çəkilməyə məcbur olan düşmən birlikləri sonradan daha yaxşı müdafiə oluna biləcək mövqelərə çəkilirdilər. Düşmənin sol cinah qüvvələri Xəzər dənizinə və buradakı döyüş gəmilərində olan top atəşlərinə söykənirdi. Mərkəzdə isə çox fəal və son dərəcə dəqiq topçu atışı olan zirehli qatarlar var idi. Sağ cinahda isə süvarilər yerləşdirilmişdi. Məğlub olub geri çəkilərkən, əsgərlər və atları hazır dayanıb gözləyən qatarlara mindirərək geri mövqelərə göndərirdilər. Bəzən olduqları mövqelərdə müqavimət göstərir, bəzən də hücuma keçirdilər. Mahaçqaladan böyük sürətlə əsgər və sursat yardımı almaq imkanları vardı. Tarki dağı isə hər cür qüvvə və təchizata malik təbii bir mövqe idi. Dağıstanda döyüşən düşmən qüvvələr, əsas etibarilə bir qismi ingilis və ruslardan, böyük əksəriyyəti də rus kazakları, yerli xalq və ermənilərdən təşkil olunmuşdu. Əsgərləri yaxşı idarə edən komandir heyəti var idi. Bunun müqabilində Şimali Qafqaz Respublikası, öz ölkələrini qorumağa qalxan vətəndaşlarından kifayət qədər silahlı adam toplaya bilməmişdi.

15-ci piyada diviziyası Rumıniyadan Batuma, oradan da Gümrüyə keçdiyi zaman, 38-ci və 56-cı alayların bir çox təchizatı 9-cu Ordu Komandanlığı tərəfindən alınmışdı. Bakı yaxınlığında və Dağıstanda dayanmadan irəliləyərək döyüşmüş, itkilər və xəstəlik səbəbindən tərkibi xeyli azalmışdı. Bu itkilərin yerini doldurmaq üçün Azərbaycan və Dağıstandan əsgərlər toplanaraq bölüklərə paylanmışdı. Lakin bunların sayı az, döyüş qabiliyyətləri isə yox dərəcəsində idi. Diviziyanın sərəncamına verilən 107-ci alayın sıraviləri isə ərəblərdən ibarət idi. Döyüş gücü və qabiliyyəti aşağı idi. Bu səbəbdən 107-ci alaya daim ikinci dərəcəli tapşırıqlar verilir və güclü nəzarət edilirdi. 15-ci piyada diviziyasının pulemyot və topçu bölüyü mükəmməl hazırlıq keçmişdi. Dağıstan hərəkatında qüdrətli dağ topçu batareyasının, xüsusilə zirehli qatarlara və əhəmiyyətli hədəflərə tuşladığı atəşlər çox uğurlu nəticələr vermişdi. Diviziyanın cəbbəxanası kifayət qədər idi, ancaq təchizat bölükləri geri çəkildiyi üçün daima çətinliklərlə qarşılaşmışdı.

Yusif İzzət paşanın yerli xalqdan təşkil etməyə çalışdığı 1-ci süvari və 4-cü piyada diviziyaları, lazımi səviyyədə xidmət etməmişdilər. Dağıstan hərəkatının əsas ağırlığı 15-ci piyada diviziyasının üzərinə düşmüşdü. Uzun təcrübələrlə yaxşı yetişən diviziyadakı zabitlərin aldığı əmri tərəddüd etmədən yerinə yetirməsi, komandirin lazımi anlarda ərazidəki qoşun bölüklərinə izahat verməsi, alayların vəziyyət nəzərə alınaraq növbə ilə döyüşə cəlb edilməsi, topçuların ön sıralarda yerləşdirilməsi, komandir və qərargah rəislərinin döyüşlərdə bəzən ön sıralarda döyüşmələri və s. Dağıstandakı müharibənin qalibiyyətlə başa çatmasına gətirib çıxarmışdı.

1. Kurat, Türkiyə və Rusiya, s. 480-481.
2. Yenə orada, s. 482.
3. Yenə orada.
4. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 595.
5. Berkok, böyük hərbdə Şimali Qafqazdakı fəaliyyətlərimiz, s. 23.
6. Bu müraciət üçün bax: Əlavə 6.
7. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 595.
8. Kurat, Türkiyə və Rusiya, s. 483-485.
9. Yenə orada, s. 487.
10. Hərbi yardım haqqında müqavilə üçün bax: Əlavə 7.
11. Kurat, Türkiyə və Rusiya, s. 488: Berkok, böyük hərbdə Şimali Qafqazdakı fəaliyyətlərimiz, s. 18.
12. Bayur, Türk inqilabı tarixi, III c, IV qisim, s. 252.
13. Bu bildiriş üçün bax: Əlavə 9.
14. Kurat, Türkiyə və Rusiya. s. 488.
15. Berkok, böyük hərbdə Şimali Qafqazdakı fəaliyyətlərimiz, s. 44.
16. Bayur, Türk inqilabı tarixi, III c, IV qisim, s. 254.
17. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 596.
18. Yenə orada.
19. Yenə orada, s. 597.
20. Yenə orada.
21. Yenə orada. s. 595.
22. Berkok, böyük hərbdə Şimali Qafqazdakı fəaliyyətlərimiz, s. 39-40.
23. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 596.
24. Berkok, böyük hərbdə Şimali Qafqazdakı fəaliyyətlərimiz, s. 146.
25. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 61.
26. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c., s. 599.
27. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 68.
28. Zirehli qatarlarda bir lokomotiv və altı vaqon olurdu.
29. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 599.

30. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 69-70.

31. Süleyman İzzət, Nuru paşanın Quba səfəri haqqında müşahidələrini belə anladır: "Quba adi və kiçik bir qəsəbədir. Əhalisinin çoxu yəhudilərdir. Buradakı musəvilərin müsəlmanlara çox pisliyi keçmişdir. Ruslarla bir olaraq müsəlmanları qırmış, evlərini yandırmış və talan etmişlər. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 70-71.

32. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 70-72.

33. Birinci Dünya hərbində Türk hərbi. Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 599.

34. Xəritə 15.

35. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 78; Türk ordusu Dərbəndə girərək nəzarəti ələ aldıqdan sonra, mövqe komandiri Məhmət Səlim bəy tərəfindən, bir üzü Azərbaycan türkcəsində, bir üzü də Rusca yazılmış bir bildiriş yayıldı. Bildirişdə Allahın köməkliyi və lütfü ilə Dərbəndin düşmən işğalından qurtarıldığı, hər kəsin mal və can əmniyyətinin Türk ordusunun təminatı altında olduğu, bu gündən etibarən qiymətli əşyalar satan mağazalar istisna olmaqla bütün dükanların açılaraq şəhər əhalisinin öz işi-gücü ilə məşğul olması, şəhərdə yaşayan müsəlman, xristian və yəhudilərin – yəni hər kəsin öz evinə getməsi tələb olunurdu. Şəhərdə axşam saat 19-dan səhər 7-yə qədər küçəyə çıxmaq qadağan edilərək, kəndlərinə getmək istəyənlərin Qərargahdan vəsiqə almalarının lazım olduğu bildirilirdi; Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 84.

36. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı. II c, s. 600; Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qalqazdakı hərəkat və döyüşləri, s. 81; Berkok, böyük hərbdə Şimali Qafqazdakı fəaliyyətlərimiz, s. 72.

37. Fransız əsilli polkovnik Bertrand, rus ordusunda yetişmişdi.

38. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 600; Berkok, böyük hərbdə Şimali Qafqazdakı fəaliyyətlərimiz, s. 75; Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 85-97.

39. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 601.

40. Yenə orada, s. 602.

41. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 87. Yusif İzzət paşa və Əbdülməcid Çermiyev ilə Daxili İşlər Naziri İbrahim Heydərov və Bələdiyyə rəisinin müavini Müslim İsrafilov, döyüşlərin davam etdiyi cəbhəyə gedərək qərargah mərkəzində vəziyyətlə tanış oldular və Süleyman İzzət bəydən, düşmən qüvvələri haqqında məlumat aldılar. Cəbhədən xəstəxanaya gedərək yaralılara baş çəkdilər.

42. Mavi rəngli bayrağın sol üst küncündə daha tünd rəngli bir dördbucaqlının izində yeddi ulduz vardı. Bu yeddi ulduz, Şimali Qafqazdakı yeddi böyük tayfanı təmsil edirdi. Mərasimdə Əbdülməcid Çermiyev ilə paşalar nitq söylədilər. Rus və gürcü kilsələrinin keşişləri ilə musəvilərin dini lideri də nitq söylədilər. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 93.

43. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 94; Biçeraxovun adamları, xalq arasında apardıqları təbliğatlarda, türk ordusunun yaxın zamanda Qafqazdan ayrılacağını və bölgəni yenidən ələ keçirəcəklərini bildirərək, türk əsgərlərinə yardım edənlərin daha sonra cəzalandırılacaqlarını deyir və bu surətlə xalqa göz dağı verirdilər. Bu səbəbdən, rusların intiqamından qorxan xalq, türk əsgərlərinə yardım etmirdi.

44. Birinci Dünya hərbində türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 602; Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 94.

45. Xəritə 16.

46. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 94.

47. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c., s. 603-604; Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 111-112.

48. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 603-604; Berkok, böyük hərbdə Şimali Qafqazdakı fəaliyyətlərimiz, s. 81.

49. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 116-117.

50. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 604-605.

51. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 120-149.

52. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 603-609; Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 120-149; Berkok, böyük hərbdə Şimali Qafqazdakı fəaliyyətlərimiz, s. 86.

53. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 611; Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 163-165.

54. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 614; Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 200-207.

55. Süleyman İzzət bəy, Tarki dağı döyüşündə 107-ci alayın məğlubiyyətinin qarşısını aldıqdan sonra, əməliyyatları idarə etdiyi Ağaçağıl kəndinə qayıtdı. Olduğu yerdən 38-ci alaya kömək etmək məqsədi ilə qarşısındakı düşmənə bir müddət pulemyotdan atəş açdı. Düşmənin çəkilməsindən sonra da hadisələri təqib etməkdə idi: "38-ci alayın qarşısında, 200-400 m irəlidə, bir düşmən dəstəsi inadla müdafiəyə çəkilmişdi. Arasıkəsilmədən atəş edirdilər. Düşmənin qazmasını topçu durbini ilə izləyərkən, təqribən 4.40-da (16.40) ağır bir cismin sol ayağıma dəydiyini hiss etdim. Ayağımın yanında boş bir top mərmisinin gilizi vardı. Əvvəlcə, geri atılan boş mərminin dəydiyini zənn etdim. Çox üstündə durmadım, amma dəhşətli bir ağrı verirdi. Çəkməni kəsdirərək ayağımı çıxardım. Çəkmədən qan boşaldı. Piyada gülləsi ilə yaralanmış olduğumu anladım. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 211.

56. Xəritə 16.

57. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 616; Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 212-213.

58. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 617; Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri.

59. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 618; Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 219.

60. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 220.

61. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 618; Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 221.

62. Tarki, SSRİ-nin məşhur rejissoru Andrey Tarkovskinin kəndidir. Tarkovski bütün dünyada rus əsilli olaraq bilinir, ancaq türk soyludur. Dağıstanlı Kumık türklərindən, Terkin Şamxallarından bir ailənin övladıdır. SSRİ dönəmində millətini açıqlamaqda çətinlik çəkmişdi. Çünki SSRİ zamanında sənət və ədəbiyyat sahələrində türkcə danışanlar cəzalandırılırdı. Tarkovski də bu səbəbdən türk

olduğunu gizləmə ehtiyacı hiss etmişdi. Qumtərqala isə Mahaçqalanın 20 km qərbində, dəmir yolu üzərində önəmli bir yaşayış məntəqəsidir.

63. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 221-222.

64. Yenə orada, s. 222-223.

65. Berkok, böyük hərbdə Şimali Qafqazdakı fəaliyyətlərimiz, s. 101.

# X HİSSƏ

## TÜRK QAFQAZ İSLAM ORDUSUNUN QAFQAZI BOŞALTMASI

### 1. Mudros barışığı

**a.** Osmanlı Dövlətində Tələt paşa hökumətinin istefaya getməsi: Birinci Dünya müharibəsi davam edərkən, 1918-ci ilin yay aylarında Osmanlı dövləti və müttəfiqləri Almaniya, Avstriya-Macarıstan İmperiyası və Bolqarıstan, döyüş cəbhələrində ağır məğlubiyyətlərə uğrayaraq böyük torpaq sahələri itirmişdilər.[1] Bolqarıstan 15 sentyabrda Makedoniya cəbhəsində faciəvi bir məğlubiyyətə uğradı və Antanta Dövlətləri ilə 29 sentyabrda barışıq imzaladı. Beləliklə, Osmanlı Dövlətinin, müttəfiqləri ilə qurudan əlaqəsi kəsilmiş oldu. Cənub cəbhəsinin süqutu nəticəsində işğal təhlükəsi ilə üz-üzə qalan Avstriya-Macarıstan İmperiyası da 5 oktyabrda İtaliyada qalib dövlətlərlə barışıq imzaladı. Almaniya isə 11 noyabrda Fransada barışığa imza atdı[2].

Müharibənin sona çatmasının hiss olunduğu bir dövrdə, Ənvər paşa Şərq Orduları qrupu Komandanı Xəlil paşaya göndərdiyi məxsusi əmrdə belə deyirdi:

"Mövcud vəziyyətdəki dəyişiklik səbəbi ilə, ehtimal ki, bizdən sonra gələcək kabinet, Azərbaycan və Şimali Qafqazın boşaldılması şərtini qəbul edəcək və yerinə yetirəcək. Əvvəlcə yazdığım kimi, Nuru (Nuru paşa), orada özü ilə işləmək üçün qalacaq zabit, serjant və birlikləri, indidən elə hazırlasın ki, boşaltma əmrindən sonra da fasiləsiz çalışmaq üçün qala bilsin."[3]

Müharibə boyunca Osmanlı Dövlətini sövq və idarə edən, orduları istiqamətləndirən İttihad və Tərəqqi Partiyası və hökumət başçıları Tələt, Ənvər və Cəmil paşalar, müharibənin gedişatından ümidlərini kəsmişdilər. İttihad və Tərəqqi Partiyası, 7 oktyabr 1918-ci il tarixində hökumətə etimadsızlıq göstərdiyini bildirdi. Bununla əlaqədar Baş Nazir Tələt paşa 8 oktyabrda istefa verdi[4]. Sultan Məhmət Vahdəddin London Səfiri Tofiq paşaya yeni hökumət qurmaq tapşırığı verdi. Lakin Tofiq paşa bu işin öhdəsindən gələ bilmədi. Hərbi Nazir Əhməd İzzət paşa 13 oktyabrda hökumət qurdu və Tələt paşanın istefası da ictimaiyyətə bildirildi[5].

Osmanlı Dövləti 5 oktyabrdan 12 oktyabra qədər sülh imzalanması üçün Amerikaya bir neçə dəfə təklif etdi. Əhməd İzzət paşa sülh təkliflərinə rəğmən, böyük fədakarlıqla əldə edilən Qafqazda əldə olunmuş nailiyyətlərin itirilməməsi üçün də bəzi təşəbbüslərlə çıxış etdi. Bu bölgələrin əldən çıxmaması üçün çalışdı. Brest-Litovsk Müqaviləsi ilə Türkiyənin tərkibinə keçən Qars, Ərdahan və Batumun tərk edilməməsi üçün də, müqavilə xaricində ələ keçirilən Dağıstan, Azərbaycan, Axıska, Axalkalaki və Gümrü ilə Cənubi Azərbaycandakı bəzi bölgələrin boşadılmasının mümkün olduğunu düşünürdü.

Barışıq üçün razılığa gəlinmiş, lakin yeri və tarixi müəyyənləşdirilməmiş, danışıqlar da başlamamışdı. Baş Komandanlıq Qərargah rəhbərliyi 21 oktyabr 1918-ci il tarixində bir əmr yaydı. Buna görə Şərq bölgəsindəki hərbi birliklər yenidən qurulur və hərbi birliklərin Brest-Litovsk Müqaviləsində göstərilən yerlərə çəkilməsi əmr edilirdi[6].

**b.** Mudros barışığının imzalanması: Sədrəzəm və Baş Komandanlıq Qərargah rəisi Əhməd İzzət paşa, İstanbul Böyükadada əsir tutulan ingilis generalı Thovsendin barışıq üçün vasitəçilik etməsini qəbul etdi. Qarşılıqlı təkliflər nəticəsində barışıq danışıqlarının Adalar dənizindəki (Egey dənizi) Lemnos adasında olan Mudros limanında keçirilməsi qərarlaşdırıldı[7]. Türk heyətinə Dəniz Qüvvələri Naziri albay Rauf (Orbay), Xarici İşlər Naziri Rəşad Hikmət və İzmirdəki 8-ci Ordu Qərargah rəisi yarbay Sədullah Bəylər və heyətin katibi olaraq da Əli Fuad (Türkgəldi) daxil idi. Türk heyəti 26 oktyabr 1918-ci ildə Lemnos adasına getdi və Mudros limanına çatdı[8].

Xarici İşlər və Hərbiyə Nazirliklərinin birlikdə hazırladığı və hökumətin də təsdiq etdiyi səkkiz maddəlik bir sənəd Osmanlı Dövlətinin barışıq heyətinə verilmişdi[9]. 27 oktyabrda zirehli İngilis gəmisi Agamemnonda başlayan və dörd gün davam edən müzakirələrin sonunda 30 oktyabr 1918-ci ildə bir barışıq imzalandı. Sədrəzəm və Baş Komandanlıq Qərargah rəisi Əhməd İzzət paşa 31 oktyabr tarixli bir əmrlə barışıq imzalandığını ordulara bildirdi:

"Osmanlı dövləti təəssüf ki, müttəfiqləri ilə birlikdə məğlub vəziyyətə düşərək milli şərəf və namusumuza zidd olmayan şərtlərlə sülh tələb etdiyindən; Osmanlı hökumətinin qayəsinin, bu acı siyasi vəziyyəti mümkün olduğu qədər o hamılıqla səltənətin xeyrinə dəyişdirmək və yüngülləşdirmək üçün çarələr axtarmaq lazım olduğu və bu səbəbdən hər ehtimala qarşı qonşularla son dərəcə yaxşı münasibətdə olaraq, lazımsız hərəkətlərlə məmləkətimizin müqəddəs dəyərlərinin gələcəyi üçün zərərli hərəkətlərə yol verilməməsi və barışıq şərtlərinə qəti surətdə əməl olunması əmr edilməkdədir."[10]

**c)** Mudros sazişinin bəzi maddələri: Sazişin Qafqazı əhatə edən bölmələri müxtəsər olaraq bu şəkildə idi:

1. Çanaqqala və İstanbul boğazları qalib dövlətlərə açılaraq, boğazlardakı istehkamlar müttəfiqlər tərəfindən işğal ediləcək.
2. Antanta Dövlətlərinə mənsub müharibə əsirləri ilə erməni məhbuslar İstanbulda yığışacaq.
3. Sərhədlərin və daxili sabitliyin qorunması üçün lazımi qədər əsgər saxlanacaq və gerisi tərxis olunacaq.
4. Sahil mühafizəsindən başqa, bütün gəmilər Antanta Dövlətlərinə təslim ediləcək.

5. Müttəfiqlər üçün hər hansı təhlükəli vəziyyətin yaranması halında, müttəfiqlər
həmin bölgəni işğal edəcək.

6. Toros tunelləri müttəfiqlərin nəzarətinə keçəcək.

7. İran və Qafqazdakı Osmanlı qüvvələri, bölgəni boşaldacaq və müharibədən əvvəlki sərhədlərinə çəkiləcək.

8. Cənubi Qafqaz da daxil olmaqla dəmir yollarının hamısı müttəfiqlərin nəzarətinə keçəcək.

9. Vilayəti-Sittədə (altı vilayət: Ərzurum, Van, Bitlis, Elazığ, Diyarbəkr, Sivas) qarışıqlıq yaranarsa, bunların hər hansı hissəsini müttəfiqlər işğal edə biləcək[11].

Mudros sazişi, Birinci Dünya müharibəsi boyunca imzalanan bəzi müqavilələr kimi nəticəsi, təsiri və davamı baxımından keçici xarakterdə olmaqdan bir xeyli uzaq idi. İmzalanan bu saziş Osmanlı Dövlətinin və türk millətinin həyatında böyük acılara yol açan və qanlı hadisələrin yaşanmasına zəmin hazırlayan yeni bir dövrün başlanğıcı oldu. Bu acı və iztirabın, Milli Mübarizə və Türkiyənin doğuşu ilə nəticələnəcəyini qabaqcadan təyin etmək olduqca çətin idi[12].

Türk ordusu Suriya və İraqda zəifləməsinə baxmayaraq, döyüş qabiliyyətini saxlamışdı. 18 mart 1915-ci ildə Çanaqqalada Antanta Dövlətlərinə ağır itkilər verdirərək onları geri çəkilməyə məcbur edən ordular və komandirlər də öz vəzifələrinin başındaydılar[13]. Türk orduları Şimali Qafqazda Dərbənd və Mahaçqala, Qara dəniz sahilində Batum, Şimali Azərbaycanda Bakı və Qarabağ, Cənubi Azərbaycanda Təbriz və Urmiyə gölü və ətrafı olmaqla, çox əhəmiyyətli mövqeləri əlində saxlayırdı. Buna rəğmən, Almaniya, Avstriya-Macarıstan və Bolqarıstanın orduları tamamilə dağılmışdı. Antanta Dövlətləri üçün bu ölkələr artıq təhlükə mənbəyi deyildi, ağır bir məğlubiyyətə uğramışdılar. Osmanlı Dövləti və Türk ordusu haqqında isə belə bir məğlubiyyətdən danışmaq düzgün olmazdı[14].

Bu şərtlər altında Antanta Dövlətlərinin tək hədəfi artıq Osmanlı Dövləti idi. Osmanlı dövlətini parçalamağa dair, müharibə boyunca hazırladıqları gizli razılaşmaları həyata keçirmək üçün, aralarında yeni bir rəqabət başlamışdı. Bu səbəbdən, Osmanlı Dövlətinə qarşı "qeyd-şərtsiz təslim olma" kimi bir duyğunu verəcək ifadələrdən qaçmağa çalışan bir saziş mətni də hazırlanmışdı. Türk vətənini bölüşdürmək üçün bəzi elastik və qəti olmayan ifadələrə yer verilmişdi[15].

Sultan Məhmət Vahdəddin, İttihad və Tərəqqi Partiyası ilə Tələt paşaya müxalif idi. İstanbulda Əhməd İzzət paşa kabinetinin qurulacağından söhbət gedərkən, o günlərdə Ənvər paşadan Xəlil paşaya gizli bir teleqraf gəlmişdi. Ənvər paşa, Qafqaza gedəcəyini, Asiya türkləri arasında işləyəcəyini və Turançılıq ideyasından əl çəkməyəcəyini bildirir və bu barədə Xəlil paşanın fikrini soruşurdu[16]. Sədrəzəm Əhməd İzzət paşa bir tərəfdən düşmənlə barışığa gəlməyin

yollarını axtardığı halda, digər tərəfdən də Sultan Vahdəddinin əmrinə əsasən İttihadçıların tutulub, müharibə günahkarı olaraq Divani-Hərbə verilmələri haqda düşünürdü. Saray ilə Sədrəzəm arasında müzakirə edilən bu fikirdən xəbər tutan İttihad və Tərəqqi Partiyası üzvləri, ölkəni tərk etmək qərarına gəlmişdilər. Mudros sazişinin imzalanmasından iki gün sonra, 1918-ci il noyabr ayının ikisindən üçünə keçən gecə bəzi liderlər gizlicə ölkəni tərk etdi. Ölkədən gedənlər arasında Sədrəzəm Tələt paşa, Hərbiyə Naziri Ənvər paşa, Bəhriyyə Naziri Camal paşa, Hərbi Ləvazim rəisi Topal İsmayıl Haqqı paşa, Polis Baş Müdürlüyü ilə Hələb və Beyrut valiliyi vəzifələrində olmuş Bədri və Əzmi bəylər, İttihad və Tərəqqi Partiyasının İdarə Heyəti üzvlərindən Doktor Nazim və Doktor Bahəddin Şakir bəylər var idi.[17] Qara Kamal bu liderlərin ölkədən kənara qaçması üçün lazımi təşkilati işləri görmüş və kömək etmişdi[18].

Ənvər paşa "Birinci Dünya müharibəsində qalib gəlsəydik, Çarlıq süqut etmiş, Böyük Turan qurulmuş olacaqdı. Nə edək ki, tale üzümüzə gülmədi. Buna müvəffəq olmadıq. Viran olduq". demişdi. Sabiq Hərbiyə Naziri Ənvər paşa Böyük Turan ideyasını gerçəkləşdirmək üçün getdiyi Türküstanda, Pamir dağlarının ətəyində, 1922-ci ildə ruslara qarşı hücumların birində, at belində ən ön sıralarda vuruşarkən şəhid oldu[19].

Tələt, Ənvər və Camal paşalar ölkədən getdikdən sonra, haqlarında bir çox araşdırmalar aparıldı, xatirələr yazıldı, məqalələr qələmə alındı. Yazılanlar arasında bu liderlərin bilgisizliyini, bacarıqsızlığını, siyasi və hərbi liderliklərini və səhvlərini də dilə gətirənlər oldu. Ancaq bu liderlərin, Türk millətinə sadiq və Türk Dövlətinə bağlı olmadıqları, xəyanət etdikləri, şəxsi sərvət toplamaq üçün xəzinənin pulunu və xalqın malını çapıb-taladıqları, əqidəsizlik, oğurluq və s. bu kimi suçlamaları heç kimsə yazmadı. Bu barədə heç bir məlumat və sənəd tapılmadı.

Əhməd İzzət paşa Mudros sazişinin imzalanmasından doqquz gün sonra vəzifəsindən istefa verdi[20]. Yerinə 11 noyabrda Tofiq paşa gətirildi. Çünki, Əhməd İzzət paşa kabinetinin ölkə daxilindəki problemləri həll edə bilməyəcəyi əvvəlcədən məlum idi. Düşmən qüvvələri, ehtiyac olmadığı halda və heç bir səbəb də göstərmədən, 11 noyabr 1918-ci ildə İstanbula qoşun yeritdilər. Beləliklə, sazişin şərtlərini pozdular. Osmanlı Dövlətinin bölüşdürülməsi ilə əlaqədar Sykes-Picot Müqaviləsinin əsasları çərçivəsində və Paris Sülh Konfransı qərarlarına əsasən, Mudros sazişi şərtlərini öz anlayışlarına uyğun həyata keçirməyə başladılar.

**2. Mudros sazişinin Qafqazdakı əks-sədası**

Əhməd İzzət paşa hökuməti elan etdikdən sonra, ermənilərin İstanbuldakı təmsilçisi onun yanına gedərək, türk əsgərlərinin Bakıda 30 min ermənini qətlə yetirdiyini[21], Qarabağda isə hərbi hərəkatın davam etdiyini iddia edərək, bölgədə

daha çox insanın ölməsinin qarşısını almağı xahiş etdi. Bu və buna bənzər şikayətlər əsasında Əhməd İzzət paşa 23 oktyabrda Nuru paşaya bu teleqramı göndərdi:

1. Ermənilərin İstanbuldakı təmsilçisinin dediyinə görə, Osmanlı hərbi birliklərinin Qarabağda Şuşaya girdiyi məlum oldu. Bu hərəkət qarşılıqlı qətliama yol aça biləcəyindən, Qarabağa hərəkət edən hərbi hissələrimiz varsa, dərhal geri çəkiləcək və geri çəkilmə barədə Baş Qərargaha məlumat veriləcəkdir. Qarabağa heç bir əsgərimiz girməyəcəkdir.

2. Bakının zəbti zamanı 30 min erməni öldürüldüyü və mallarının talan edildiyi, talanlarda bizim əsgərlərimizin də iştirak etdiyi, indi də bir çox ermənilərin təqib olunduğu bildirilmişdir. Bu söylənənlər doğru isə, buna səbəb olanlar və bununla əlaqəsi olanların aşkara çıxarılıb cəzalandırılmaları və ya tərəfimizə bildirilməsi lazımdır.

3. Bakıda həbs olunan ermənilər dərhal azadlığa buraxılacaq və onların təqib olunması qətiyyətlə qadağan ediləcəkdir. Bakıda olan ermənilərdən şəhərdən kənara çıxmaq və ya Ermənistana getmək istəyənlərə heç bir maneə olmayacaq, lazımi köməklik göstəriləcəkdir. Azərbaycan ilə Ermənistan arasındakı sərhəd münaqişələri, siyasi konfranslar və danışıqlar yolu ilə həll ediləcəyindən, silahlı birliklərin bu kimi hallara müdaxilə etməsini qəti surətdə qadağan edirəm. Əksinə, əsgəri qüvvələrimiz olduqları yerlərdə asayişi təmin etməklə məşğul olmalıdır."

Erməni təmsilçilərin Osmanlı Baş Nazirinə verdikləri məlumatın bölgədəki həqiqətlərlə heç bir əlaqəsi yox idi. Ermənilərin hadisələri və sayları şişirdərək, dəyişdirərək və içinə yalan və yanlış olan bir çox məlumatlar da qataraq, dünya ictimaiyyətini öz tərəflərinə çəkməkdə mahir olduqları hamıya bəllidir. Bakı hadisələrində də eyni cür hərəkət etmişdilər. Nuru paşa Sədrəzəm Əhməd İzzət paşaya 27 oktyabrda göndərdiyi raportda bunları qeyd etdi:

1. Qarabağ bölgəsinin düzlük ərazisində yaşayanların hamısı türkdür. Bunlar isti yay günlərində yaylaqlara gedirlər. Şuşanın üçdə ikisi türk və müsəlmandır. Ermənilər uzun müddətdir Şuşa şəhərini mühasirədə saxlayırlar, şəhərdə yaşayan müsəlmanlar isə aclıqdan tələf olmaq üzrədirlər. Bunun qarşısını almaq üçün 08.10.1918 tarixində Azərbaycan hərbi birlikləri ilə bizim əsgərlərimiz tərəfindən şəhər işğal edilmiş və Ağdam ilə əlaqəsi təmin edilmişdir. Bu irəliləmə əsnasında ilk gün bir neçə yüz erməni buna mane olmaq istəmişsə də bunlar geri oturdulmuş və asayişi pozacaq heç bir hadisə olmamışdır. Əsasən Bakının qüvvətləndirilməsi məqsədilə Qarabağdakı hissələrimiz geri çəkilmiş və Şuşada yalnız Azərbaycan hərbi birləşmələri qalmışdır. Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, onsuz yaşaya bilməz.

2. Bakının Osmanlı qüvvələri tərəfindən zəbti ilə düşmən tərəfindən tərk edilməsi və evakuasiyası arasındakı müddət ərzində, 31 mart qırğınının intiqamını

almaq üçün müsəlmanlar və ermənilər arasında qarşılıqlı münaqişə olmuş və bu zaman 2 minə qədər erməni tələf olmuşdur. Osmanlı qüvvələrinin şəhərə girməsi ilə bu münaqişəyə dərhal son qoyulmuş və müsəlmanlardan bu işdə günahkar olan 174 adam edam edilmiş, ermənilərin malını qarət etməklə, onları öldürməklə məşğul olan daha 3 nəfər isə dünən asılmışdır. Halbuki mart hadisələrində 20 minə yaxın müsəlman qətl edilmiş, malları qarət edilmiş, məscidlər topa tutulmuş, yüzlərlə böyük bina uçurulmuş, olmazın faciələr baş vermişdir. Bu dəfə müsəlmanların etdikləri müqayisəyəgəlməz dərəcədə əhəmiyyətsizdir. İrəvan ətrafında yerləşən 240 türk kəndi əhalisi ilə bərabər yer üzündən silinmişdir. Bu faciə azərbaycan xalqının qulaqlarında hələ də səslənməkdədir.

3. Münaqişələrdə və mart hadisələrində şəxsən iştirak edən bəzi ermənilər həbs olunmuşdur. Bunlardan günahı sübut olunmayanlar azad edilmiş, digərləri barədə isə Azərbaycan hökuməti tərəfindən dindirilmə aparıldıqdan sonra, qanunla hərəkət ediləcəkdir. Əsasən, çoxdan bəri həbs tədbirinə əl atılmadığı kimi, bu üsula yenidən müraciət edilməmişdir.

4. Erməni xalqından Gürcüstan və Ermənistana getmək istəyənlərə heç bir maneçilik törədilməmişdir."

Mudros sazişinin imzalandığı vaxtlarda Osmanlı ordusunun Şərq cəbhəsindəki yeri belə idi:

- Qafqaz İslam Ordusu Qərargahı - Komandan Nuru paşa Bakıda,
- 5-ci Qafqaz Piyada Diviziyası Qərargahı - Bakıda. Diviziyadan bəzi birliklər Qarabağda Andranikə və erməni partizanlara qarşı hərbi hərəkatı davam etdirirdilər. Diviziya İstanbula göndəriləcəkdi.
- 15-ci Piyada Diviziyası - Dağıstana və Mahaçqalaya hücumu davam etdirirdi (45-ci alayı və bir topçu batalyonu ilə ərzaq, cəbbəxana və digər xidmət qolları olmadan). Diviziya, İstanbula göndəriləcəkdi.

Diviziyanın 107-ci alayı - 15-ci piyada diviziyası ilə Mahaçqalada hücumda.

- 36-cı Diviziyanın 106-cı alayı - Bakıda.
- 36-cı Diviziyadan bir topçu batalyonu - Bakıda.
- 1-ci Azərbaycan Korpusu Qərargahı - Bakıda.
- 1-ci Azərbaycan diviziyası Qərargahı - Şuşada, böyük qismi ilə Şuşa, Ağdam və Gəncə bölgəsində.
- 2-ci Azərbaycan Diviziyası - Bakıda.
- 9-cu Ordu Qərargahı - Komandan Yaqub Şövqi paşa, Qarsda.
- 11-ci Qafqaz Diviziyası Qərargahı - Xoyda. Müxtəlif siniflərdən ibarət bir dəstəsi Təbrizdə. Diviziyanın böyük qismi Dilman-Culfa-Xoy xəttində yerləşmişdi.

- 9-cu Qafqaz Diviziyası Qərargahı - Qəmərlidə. Culfanın şimalından Sərdarabada qədər Qars vadisi bölgəsində yerləşib, Qarabağı və İrəvan erməni sərhədini qorumaq tapşırığı alıb.

- 12-ci Diviziya - Urmiyadan Gümrüyə doğru geri çəkilərək Sərdarabadda toplaşmış vəziyyətdə.

- 36-cı Diviziya Qərargahı - Gümrüdə. Qalan birliklər Alagöz-Axalkalaki arasında Erməni-Gürcü hüdudlarını qorumaq vəzifəsini daşıyır. Bu diviziya İstanbula göndəriləcəkdir.

- 3-cü Qafqaz Diviziyası Qərargahı - Axıskada. Axalkalaki-Axıska şəhərlərini, Batum hüduduna qədər olan bölgəni gürcülərə qarşı bağlamaq və qorumaq vəzifəsini icra edirdi.

- Rumeli dəstəsi (177-ci Piyada alayı və bir batareya) - Çürüksu bölgəsində gürcülərə qarşı sərhədi bağlayırdı və Batum Komandanlığı sərəncamında idi.

- 10-cu Qafqaz Diviziyası – Bir hissəsi İstanbula göndərildi. Diviziya Qərargahı və əsgəri birlikləri Batumdan İstanbula getmək üçün gəmi gözləyir.

- Qars və Batumda da yerli komandanlıqlar var idi[22].

Osmanlı Dövlətinin Birinci Dünya müharibəsindəki müttəfiqlərinin məğlub olması səbəbindən saziş bağlanması ilə əlaqədar hazırlıqlar davam edərkən, Qafqazda çox böyük fədakarlıqlarla əldə edilən üstünlüyün, bir fəlakətlə tamamilə aradan qalxması kimi bir vəziyyət ortaya çıxdı. Ənvər paşa, vəzifəsindən getməzdən qabaq, Qafqazdakı və Cənubi Azərbaycandakı türk hərbi qüvvələrinin, Dağıstan və Azərbaycan milli ordusu kimi yerlərində qalmasını planlaşdırmışdı. İttihad və Tərəqqi Partiyası hökumətinin yerini tutan Əhməd İzzət paşa kabineti isə heç olmazsa, Brest-Litovsk Müqaviləsi ilə Osmanlı Dövlətinə qatılan Qars, Ərdəhan və Batumun qurtarıla bilməsi üçün, Batum Müqaviləsi nəticəsində alınan Axıska, Axalkalaki və Gümrü bölgələrinin, Qafqazda Dağıstan və Azərbaycanın boşaldılmasına qərar vermişdi.

Osmanlı Baş Qərargahı, 21 oktyabr 1918-ci il tarixli və 8.852 saylı bir yazı ilə Şərq Orduları Qrupu Komandanlığına bu əmri göndərdi:

1. Şərq Orduları Qrupu və Baş Mənzil Müfəttişliyi və 1-ci Qafqaz Korpusu Qərargahları ləğv edilərək, qərargah heyətlərinin İstanbula dönməsi,
2. 6-cı və 9-cu Orduların birbaşa Baş Qərargaha bağlandığı,
3. İranda olan nizami süvari briqadasının 6-cı Ordunun əmrinə verildiyi,
4. 10-cu Qafqaz diviziyası, 5-ci Qafqaz diviziyası, 36-cı diviziya və 15-ci piyada diviziyasının İstanbula nəqlindən sonra, 3-cü, 9-cu, 11-ci Qafqaz diviziyalarının və 12-ci diviziyanın 9-cu Ordunun əmrində qalacağı.
5. 9-cu Ordunun İran və yenə Brest-Litovsk Müqaviləsi ilə Osmanlı Dövlətinə verilməmiş bütün torpaqları boşaltması...[23].

Bu əmrə əsasən indiki İran və Qafqazda olan hərbi birlikləri geri çəkmək vəzifəsi 9-cu ordu Komandanı Yaqub Şövqi paşaya həvalə olunmuşdu[24]. Cənubi Azərbaycanda 9-cu Ordunun tərkibində olan 11-ci diviziya ilə 4-cü Korpus Qərargahı və nizami süvari briqadası (12-ci süvari alayı və Aşirət süvari alayı) və bu korpusun ərzaq və cəbbəxana qolları, olduqları yeri boşaltmaq üçün hazırlıqlara başladı. 4-cü Korpus Qərargahı ilə nizami süvari briqadası, Rəvandiz üzərindən qərbə doğru hərəkətə başladı. Osmanlı hissələrinin Təbrizi boşaltması barədə əmrin səs-sədası camaat arasında yayılandan sonra, bölgədə yaşayan türklər xəbərin doğru olduğuna uzun müddət inana bilmirdilər. Bu xəbərin bir İngilis təbliğatı olduğunu düşünürdülər. Ancaq 18 noyabr 1918-ci il tarixində geri çəkilmə əməliyyatı başlayanda təbrizli türklərlə Osmanlı Ordusu arasında vidalaşma əsnasında hüzün dolu və duyğulu anlar yaşandı. 11-ci diviziya Təbriz, Dilman, Xoy və Culfa bölgəsindən Şərqi Bəyazidə çəkildi. Beləliklə, böyük fədakarlıqla alınan yerlər 4 dekabr 1918-ci il tarixində tamamilə boşaldılmış oldu[25].

Hərbiyə Nazirliyi 26 oktyabr 1918-ci il tarixində yaydığı əmrlə, Qafqaz İslam Ordusu və Şimali Qafqaz Komandanlıqları əmrində olan əsgəri birliklərin geri çəkilməsi üçün hazırlıqlara başlamasını istəmişdi. O tarixlərdə, İstanbula göndərilməsi əmr edilən 5-ci Qafqaz piyada diviziyası ilə 15-ci piyada diviziyası və 36-cı Qafqaz diviziyasından 106 və 107-ci piyada alayları və bir topçu batalyonu, Azərbaycan və Dağıstanda xidmət edirdi. Bu hərbi birliklər, Dağıstanda Mahaçqalanı düşmən işğalından qurtarmış, Şimali Qafqazın müxtəlif yerlərindən rus və ermənilərin çıxarılması üçün canla-başla döyüşmüşdülər. 9-cu Ordunun geri çəkilməsi ərəfəsində Arpaçay və Araz çayının şərqində ermənilərin bir əks-hücuma keçmə ehtimalı yaranmışdı. Türk Ordusunun bölgədən çəkilməsi xəbəri ilə əlaqədar Axıska və Axalkalaki xalqı ilə İğdır və ətrafında böyük bir təlaş yaşandı. Bölgənin yerli türk xalqı ermənilərdən qorunmaq məqsədilə hərbi birləşmələr yaratmağa başlamışdı. Qafqaz, Şərqi Anadolu, Naxçıvan və Təbriz bölgələrində böyük bir narahatçılıq yaranmışdı[26].

Türk Qafqaz İslam Ordusu Komandanlığı və Şimali Qafqaz Komandanlığının ləğv edildiyi və düşmənlə saziş imzalandığı, eləcə də Brest-Litovsk müqaviləsinə daxil olmayan bölgələrin boşaldılması ilə əlaqədar əmr, Nuru paşaya 5 noyabr 1918-ci il tarixində çatdı[27]. Nuru paşa bu əmri 11 noyabr 1918-ci il tarixində Dağıstanda Mahaçqalanı düşmən işğalından qurtaran 15-ci piyada diviziyası komandanı Süleyman İzzət bəyə bildirmişdi. Nuru paşanın Süleyman İzzət bəyə göndərdiyi yazı belə idi:

"Brest-Litovsk Müqaviləsinə daxil olmayan, işğal edilən Qafqaz bölgələrinin 24 oktyabr 1918-ci il tarixindən etibarən altı həftə ərzində boşaldılması, Sədrəzəm və Hərbiyə naziri Əhməd İzzət paşadan alınan əmr əsasındadır. Bu səbəbdən, Mahaçqala cəbhəsindəki bütün Osmanlı birliklərinin

göndərilməsi lazım gələcək. Azərbaycandakı dəmir yolu avadanlıqları, bütün Osmanlı birliklərini birdən daşıya bilməyəcəyindən, 15-ci piyada diviziyasının sürətlə daşınmasına başlamaq tələb olunur.

15-ci Piyada Diviziyası daşındıqdan sonra, növbə ilə Bakı və digər yerlərdəki hərbi birliklər, əvvəlcə Qazax məntəqəsinə göndəriləcəkdir. 15-ci piyada diviziyasını daşıyan qatarlar geri qayıtdıqdan sonra, digər birliklər daşınacaqdır. Bununla əlaqədar, bu əmrin alınması ilə Mahaçqala cəbhəsindəki 15-ci piyada diviziyası ilə digər birliklərin dərhal daşınmasına başlanılacaqdır.

Köçürülmənin təşkilinə 15-ci piyada diviziyası komandanı cavabdehdir. Hərbiyə Nazirliyinin 26 oktyabr 1918-ci il tarixli və 5.336 saylı əmrinə görə Şimali Qafqada və Azərbaycanda xidmət etmək istəyənlər qalacaqdır"[28]. Mahaçqalanın ələ keçirilməsi tapşırığını alan 15-ci piyada diviziyası komandanı Süleyman İzzət bəy, Nuru paşadan gələn əmri Şimali Qafqaz komandanı Yusif İzzət paşaya göndərdi. Yusif İzzət paşa 15-ci piyada diviziyasının öz əmrində olduğunu bildirərək, Nuru paşanın bu barədə əmr verə bilməyəcəyini söylədi. Buna rəğmən Süleyman İzzət bəy, köçmə hazırlıqlarına başladı. Şimali Qafqaz Respublikasında vəzifə almaq istəyən zabit, serjant və sıravilərin adları Temirxan-Şuradakı Şimali Qafqaz Komandanlığına bildirildi. Yusif İzzət paşa da Şimali Qafqaz Ordusunda xidmət etməyi qəbul etmişdi[29].

Süleyman İzzət bəy diviziyaya bir əmr yayaraq, bütün hərbi birliklərin, 17 noyabr 1918-ci il tarixində silah və mühümmatı ilə birlikdə geri çəkilmək üçün təyin olunan toplaşma nöqtələrinə doğru getməsini tələb etdi. 15-ci piyada diviziyasının qatarla daşınması lazım gələn 190 zabit və 4,811 sıravi mövcudu var idi[30].

Osmanlı Dövləti və İngilislər arasında razılaşdırılan şərtlər çərçivəsində, türk birliklərinin bir bölüyü Qafqazda qala biləcəkdi. Hərbi birliklərin çəkilmə hazırlıqları davam edirkən, ingilislər 11 noyabr 1918-ci ildə Osmanlı Baş Nazirliyinə bir nota göndərdilər. Buna görə Qafqazda, Birinci Dünya müharibəsindən əvvəlki Osmanlı-Rus sərhədlərinə qayıdılması tələb olunurdu:

"Sazişin 11-ci maddəsinə əlavə bənddir:

Osmanlı Dövləti ilə Rusiya arasında müharibədən əvvəlki hüduddan kənarda olan bütün türk birliklərini və onlara aid elementləri geri almaları barədə əmr etməniz üçün Britaniya hökumətindən təlimat almışam. Sözü gedən birlik və ünsürlərin Azərbaycanda saxlanılması heç bir şəkildə mümkün deyildir. Bu boşaltmanın tamamlanması üçün Xəlil və Nuru paşalar ilə Ənvərin atası Əhmədin və İslam Ordusunda hər hansı bir xidmət üçün göndərilmiş olan türk zabit və sıravilərinin də geri çəkilməsi tələb olunur"[31].

Bu yazıdan da başa düşüldüyü kimi, Osmanlı Dövlətinin şərq hüdudları, Birinci Dünya müharibəsinin başladığı 1914-cü ildəki hüdudlarına çəkiləcəkdi. Bu

şərtlərdə Qars, Ərdahan və Batumun da boşaldılması lazım gəlirdi. Eləcə də, Şimali Qafqazda və Azərbaycanda da heç bir türk əsgəri qalmayacaqdı. Osmanlı Baş Naziri Əhməd İzzət paşanın, Mudros sazişi imzalanmadan, Qafqaz və Cənubi Azərbaycandakı türk hərbi birliklərinin çəkilməsi üçün hazırlıqlara başlamış olması da bir nəticə verməmişdi.

Dağıstanda olan 15-ci piyada diviziyasının bölgəni boşaltması üçün hazırlıqlar davam edirdi. Bunun üçün də Manas körpüsünün uçan dirəklərinin yenidən düzəldilərək, qatarların keçməsi üçün yararlı vəziyyətə gətirilməsi lazım idi. Bu işlər davam edərkən, Süleyman İzzət bəy paytaxt Temirxan Şura şəhərinə gedərək Yusif İzzət paşa və Şimali Qafqaz Respublikası başçıları ilə görüşdü. Süleyman İzzət bəy xəstəxanada yaralıları ziyarət etdi. Xəstəxana şəraitinin çox pis olduğunu, yaralılara yaxşı baxılmadığını, qapısında növbətçi belə olmadığını, acı bir şəkildə qeyd etdi. Süleyman İzzət bəy silah yoldaşları olan qəhrəman Mehmetçiyə "heç bir yaralı əsgərin burada qalmayacağını və hamısını məmləkətə aparacağını" söylədi[32].

**3. Bakının ingilislər tərəfindən işğal edilməsi**

Ənzəlidəki ingilis komandanı General Tomson, 12 noyabr 1918-ci ildə Bakıya bir heyət göndərərək, şəhərin 17 noyabr 1918-ci il tarixində saat 10.00-da işğal ediləcəyini, bu səbəbdən Bakının boşaldılmasını, Türk Qafqaz İslam Ordusu Komandanı Nuru paşadan rəsmən tələb etdi. İngilis heyəti Mudros sazişi imzalandıqdan sonra davam edən Mahaçqala hücumu və bölgənin ələ keçirilməsinin, barışıq şərtlərinə zidd olduğunu nəzərə çatdıraraq, 17 noyabr 1918-ci il tarixində saat 10.00-dan sonra Bakıda və bölgədə qalan türk əsgərlərini əsir götürəcəyini bildirdi[33].

Nuru paşa ingilislərə verdiyi cavabda, Bakının işğal edilməsi məsələsini Azərbaycan hökuməti ilə müzakirə etmək lazım olduğunu söylədisə də, General Tomson belə bir hökuməti tanımadıqlarını bildirdi. Bundan sonra Bakıdan bir heyət, Ənzəliyə getdi. İngilis generalı Tomson türk heyətinə verdiyi cavabda belə demişdi:

"Bizim bildiyimizə görə Azərbaycan xalqının səsverməsi ilə qurulmuş bir respublika ortada yoxdur. Türk komandanlığının intriqaları ilə təşəkkül tapmış bir hökumət vardır. Madam ki siz bunun əksini iddia edirsiniz, gəlib vəziyyəti yerində araşdırar və ona uyğun qərar verərik"[34].

General Tomson, Bakıya rus və erməni əsgəri gətirməyəcəyi barədə türk heyətinə söz də vermişdi.

Nuru paşa, bu danışıqlarda 17 noyabra qədər Dağıstandakı qüvvələrin daşınmasının qeyri-mümkün olduğunu bildirərək, verilən vaxtın 26 noyabra qədər uzadılmasını istədi. General Tomson köçmə işlərinin verilən vaxt ərzində həyata

keçirilməsində israr etsə də, sonradan Biləcəri stansiyasından əsgər daşıyan qatarların keçişinə icazə veriləbiləcəyini qeyd etdi.

İngilislərin Qafqazın boşaldılmasını istədikləri tarixdə Türk ordusunun əhatə dairəsi belə idi: 5-ci Qafqaz piyada diviziyası tabeliyindəki birliklərdən 9-cu Qafqaz alayı Qarabağ bölgəsində, 10-cu Qafqaz alayı Hacıqabulda, 13 və 196-cı Qafqaz alayları isə Bakı ətrafında idi. Azərbaycandakı türk hərbi birlikləri və qərargahları yavaş-yavaş Xırdalanda toplaşmağa başlamışdı. Qafqaz İslam Ordusu Komandanı Nuru paşa, vəzifəsindən istefa verərək, Azərbaycan ordusunda xidmət etməyi qəbul etdi. Qafqaz İslam Ordusu ləğv edildiyi üçün Nuru paşa əmr və komandanı 5-ci Qafqaz piyada diviziyası komandanı Mürsəl paşaya həvalə etdi. Beləliklə, Mürsəl paşa Azərbaycandakı Osmanlı hərbi qüvvələrinin komandanı oldu[35].

İngilis komandir General Tomson 17 noyabr 1918-ci il tarixində səhər saatlarında çar Rusiyası bayraqları altında üzən gəmilərlə Bakı limanına gəldi[36]. Bərabərində təxminən 1.200 ingilis əsgəri ilə Dağıstanın şimalına çəkilən Biçeraxovun tabeliyindəki çar ordusundan bir alay qədər rus kazakı və bir neçə yüz erməni əsgəri var idi[37]. Eyni gündə, Bakı səmalarında uçan rus təyyarələri xalqa vərəqələr ataraq "Bakının ana vətənə yenidən qovuşması münasibəti ilə Rusiya vətəndaşlarını" təbrik edirdi[38]. General Tomson isə 19 noyabr 1918-ci il tarixində yaydığı bir bildirişdə "Rusiyadan qoparılmış Qafqazın düşmən işğalından qurtarılması üçün Ufada qurulan rus hökuməti ilə razılığa gələrək Bakıya gəldikləri" barədə məlumat verirdi[39].

Azərbaycan hökuməti, bu bildirişlə bağlı bir nota verərək General Tomsona etiraz etdi. Çünki Azərbaycan hökuməti çox ağır vəziyyətdə idi. Bir tərəfdən müharibənin qalibi olan ölkənin silahlı qüvvələri paytaxtı işğal etmişdi və Azərbaycan Respublikası adlı bir dövləti tanımadığını iddia edirdi, digər tərəfdən də xalqın seçdiyi və dəstəklədiyi bir Milli Məclis və onun Nazirlər Kabineti vəzifə başında idi. Üstəlik bu məclisin və hökumətin güvəndiyi silahlı güc isə ortadan çəkilmişdi. İngilislərin Bakını işğal etməsi şəhərdəki erməni və rus cəmiyyətləri və partiyalarına qol-qanad vermişdi. Onlar Azərbaycanın rəhbərlərinə "elan etdiyiniz dövlətdən və müstəqillikdən dərhal əl çəksəniz, sizin üçün ingilislərdən xahiş edərik ki, yeni qurulan hökumətdə türklərə yaxşı yerlər versinlər" deyərək lağ edirdilər. Bu şəraitdə Azərbaycan Milli Məclisi və hökuməti daha təmkinli olmağa çalışırdı. Bəzi hökumət adamları və ziyalılar isə "müstəqillikdən əl çəkmək" fikrini müzakirə etməyi təklif edirdilər[40].

Baş Nazir Fətəli Xan Xoyskinin ciddi mövqeyi və Milli Məclisdəki siyasi partiyaların birlikdə fəaliyyəti nəticəsində, Bakının işğalından sonra yayılan şayiələrə son qoyuldu. Mandat fikri qətiyyətlə rədd edildi. Milli Məclis qəbul etdiyi bir qərarda Azərbaycan torpaqlarında yaşayan "rus və erməni əhalinin

Məclis nizamnaməsinə görə hökumətə üzv ola biləcəklərini, bundan başqa irəli sürüləcək heç bir şərtin qəbul edilməyəcəyini" qətiyyətlə elan etdi.[41]

General Tomsonun Bakını işğal etdikdən sonra gördüyü ilk işlərdən biri də şəhərin ingilis, rus və erməni partizanların əlindən qurtarılması zamanı iddia edilən qətliamı araşdırmaq oldu. Nuru paşaya 21 noyabrda fransız dilində yazılmış bir məktub göndərərək, məsələ barədə məlumat istədi. Ermənilərin törətdikləri 31 martda Bakı və ətrafında yaşayan minlərlə müsəlmanın qətliamı ilə isə heç maraqlanmadı. Məktub belə idi:

"Bakıya gələn kimi türk əsgərlərinin qarət və basqınlarda iştirak etdiklərini mənə bildirdilər. Vurulan zərərin dəyərini təyin etmək üçün ingilis, fransız və amerikanlardan ibarət bir komissiya təşkil olunacaqdır. Bu dəyər, Türkiyə hesabına ödəniləcəyindən, sizə oğurlanmış malların geri qaytarılması imkanını vermək və bizə ünvanlanan şikayətləri araşdıracağımızı bildirmək məqsədi ilə bu məktubu yazıram."

O dövrdə Azərbaycandakı Türk Qafqaz İslam Ordusuna Mürsəl bəy rəhbərlik edirdi. General Tomsona bu cavabı göndərdi:

"Nuru paşanın adına göndərdiyiniz 21.11.1918 tarixli məktubunuzda, Bakıya gəldikdən sonra türk əsgərinin qarət və soyğunçuluqla məşğul olduğu haqda sizə şikayət daxil olduğunu bildirirsiniz. Uzun illərdən bəri dövlətlərarası müharibələrdə iştirak edən Osmanlı ordusunda bu kimi hallar heç bir vaxt olmadığı kimi, Bakıda da meydana gəlməmişdir. Əksinə, Osmanlı ordu hissələri Azərbaycan əsgəri ilə birlikdə Bakıya girərkən, küçə döyüşlərinə məruz qalmış yerli xalqın qarşılıqlı olaraq qətliam və qarətlə məşğul olmalarının qarşısını almış və əsgərlik xidmətini xoş niyyət və uğurla yerinə yetirmişdir. Bakıda sabitlik təmin edildikdən sonra Bakı Komandanlığı Polis Müfəttişliyi bu məsələyə xüsusi əhəmiyyət vermişdir. Əsgər qiyafəsində bir çox şəxs yaxalanmış və cəzalandırılmışdır. Bu barədə gündəlik qəzetlərdə elanlar verilmiş, bildirişlər yayılmış və xalqa bu barədə xəbərdarlıq edilmişdir.

Buna görə də tərəfinizdən edilən suçlamaları rədd edir, sözlərimizə etimad etməyinizi xahiş edirəm."

Bakıdakı bu mübahisə və müzakirələrin davam etdiyi günlərdə ölkədəki milli azlıqların da təmsil edilə bilməsi üçün imkan yaradıldı. Milli Məclisin 120 deputatdan ibarət olması qərara alındı. 7 dekabr 1918 tarixində çağırılan Məclisin açılışında danışan Məmməd Əmin Rəsulzadə bəzi dairələrin, müstəqilliyin geri alınmasından danışdığını xatırladaraq, bu məsələnin tamamilə qapandığını vurğulamışdı.

***"Bir kərə yüksələn bayraq bir daha enməz"*** deyərək Azərbaycan xalqının azad və müstəqil yaşamaq üçün əzm və iradəsini nümayiş etdirmişdi[42].

**4. Türk Ordusunun Azərbaycan və Dağıstandan çəkilməsi**

Bakıda olan türk hərbi birləşmələri şəhərin ətrafındakı münasib yerlərdə və sanki şəhəri mühasirəyə almış kimi yerləşmişdi. Bu vəziyyət, ingilisləri şübhələndirdi və türk hərbi birliklərinin geri çəkilməsinin nə üçün gecikdiyini soruşdular. "Yolların dağılması səbəbindən geri çəkilmə işlərinin mümkün olmadığı" cavabını aldılar. Alınan qərara görə, ilk olaraq 106-cı Qafqaz alayı 19 noyabr 1918-ci il tarixində birbaşa Qarsa getmək üçün Biləcəridən qatarla yola çıxacaqdı. 13-cü Qafqaz Alayı isə Puta stansiyasından qatarla Gəncə istiqamətində yola düşəcəkdi[43].

Bakıda bu hadisələr cərəyan edərkən, zabit, çavuş və sıravilərdən arzu edənlərin Azərbaycan ordusu sıralarında xidmətə keçməsi ilə əlaqədar Hərbiyə Nazirliyinin 27 oktyabr 1918-ci il tarixli qərarı, 23 noyabrda verilən yeni bir əmrlə ləğv edildi. 9-cu Ordu əmrinə görə, Şimali və Cənubi Qafqazdakı bütün zabit, çavuş və sıravilərin 30 dekabr 1918-ci il tarixinə qədər 9-cu Ordu sıralarına keçməyi tələb olunurdu. Əmrə tabe olmayanlar haqqında qanunla ölçü götürüləcəyi də bildirilirdi[44].

Bu əmrə görə 5-ci Qafqaz piyada diviziyası da Türkiyəyə qayıtmalı idi. Mürsəl paşa ingilis generalına göndərdiyi məktubda türk hərbi qüvvələrinin nəqlinə 19 noyabrdan etibarən başlanılacağını və 5-ci Qafqaz piyada diviziyası ilə 106-cı Qafqaz alayının 24 noyabr axşamüstü Biləcəri stansiyasından yola salınacağını bildirdi. Dağıstandakı birliklərin köçürülməsinə isə 21 noyabrda başlanılacağını və son eşelonun 26 noyabr 1918-ci il tarixində Biləcəridən keçəcəyini qeyd etdi[45].

Türk ordusunun Qafqazdan çəkilməsi başlanmışdı. Qəhrəman Mehmetçik, yalnız qurtardığı torpaqları deyil, qurduğu böyük xəyalları da geridə qoyub gedirdi. Ərgənəkon, Türküstan və Turan xəyalları qeyri-müəyyən gələcəyə təxir edilmişdi. Qatarlar relslərin üzəri ilə qərbə doğru hərəkət etdikcə mübarək Turan da Mehmetçiyin arxasında bir ilğım kimi getdikcə gözdən itir və solurdu. Şövkət Sürəyya Aydəmir Türklərin Azərbaycandan getməsini həzin və duyğu dolu cümlələrlə belə təsvir edirdi:

"Axtarıb tapdığımı zənn etdiyim suyu yenə itirmişdim... Yollar, atlı, piyada, qoca, cavan, qadın və kişilərlə dolu idi. Hamısı da hərbi hissələrin yanına gedir, ağlayır, sızlayır, fəryad edirdilər: "Bizi kimə tapşırıb gedirsiniz? Haraya gedirsiniz?...

Artıq Anadolu demək olan Araz çayı üzərindəki Markara körpüsünə çatdığımız zaman təəssüf və həyəcan son həddinə çatdı. Bölüyün önündə sandıqlılı Nuru çavuş şərqi deyə-deyə irəliləyirdi:

*Cəzayirə qara bayraq çəkildi*
*Qərib anaların beli büküldü.*
*Qoç igidlər Cəzayirdən çəkildi*

*Küçələri mərmər daşlı,*
*Gözəlləri sırma saçlı, Cəzayir hey!...*

Bu, həzin və düşündürücü bir nəğməydi. Hamı ağlayırdı. Markara körpüsünü bu göz yaşları və xəyal qırıqlığı ilə keçdik. Turan nəğməsi, bizim gənclik illərimizin, hədər getmiş səsiydi. Bu hərəkat əsl rəhbərini tapa bilmədiyi üçün, Turan mübarizəsi, bir intizar, bir xəyal və həyəcan mənbəyi olaraq qaldı[46].

Dağıstanda isə 15-ci piyada diviziyasının köçürülməsinə 21 noyabrda başlandı. Biçeraxov qüvvələrinin Mahaçqala yaxınlığından qaçarkən dağıtdığı Manas çayının üzərindən keçən körpü təmir edilərək, yalnız bir istiqamətdə qatar keçə biləcək bir vəziyyətə gətirildi. Türk hərbi birliklərini daşıyan son qatar 26 noyabrda Mahaçqaladan çıxdı. 15-ci piyada diviziyası qərargahı da elə həmin gün Dərbənddən tərpəndi. 15-ci piyada diviziyası komandanı (podpolkovnik) yarbay Süleyman İzzət bəy Mahaçqaladan Dərbənd istiqamətinə gedərkən, hansı hisslər keçirdiyini belə yazıya alıb:

"Qatarın çox yavaş hərəkət etməsinə rəğmən, Manas körpüsündən keçərkən çox yırğalanırdı. Qeyri-ixtiyari nəzərlərimi şərqə, Xəzər dənizinə doğru çevirdim. Tarki dağına baxa bilmirdim. Çünki Manas körpüsünün qərbinə düşən bu dağda, bir çox şəhid müharibə yoldaşım və bunların içində ən qəhrəman və fədakar bölük komandirlərimizdən Əziz, Səbri və Haqqı əfəndiləri qoyub gedirdim. Heç bir yaralının Temirxan Şura və Mahaçqala xəstəxanalarında qalmaması üçün lazımi əmrləri vermişdim. Bunlar üçün xüsusi bir qatar hazırlatmışdım. Buna baxmayaraq mənə elə gəlirdi ki, kimsə qalıb. Buna görə də son dərəcə mütəəssir idim"[47].

Şimali Qafqaz Komandanı Yusif İzzət paşa, Bakıya gələrək ingilis işğal qüvvələri komandanı General Tomson ilə görüşmüşdü. General Tomson "Türkiyənin imzaladığı sazişdən kənara çıxılmayacağını və eləcə də Şimali Qafqaz hökumətini tanımayacaqlarını, Dağıstandakı Osmanlı əsgər və zabitlərinin də bölgəni boşaltmasının tələb olunduğunu" söyləmişdi. Bakıdan Dərbəndə gedən Yusif İzzət paşa, əvvəlcə Şimali Qafqaz (Dağıstan) Respublikasının əmrində qalacaq zabit və əsgər heyətinin bölgəni boşaltmaq üçün Temirxan Şurada dərhal toplanmasını istədi. İstər Bakı, istərsə də Dağıstanda olan hərbi birliklərin çəkilməsi haqqında verilən əmrlər bir-birini təkzib edirdi, ortada bir anlaşılmazlıq yaranmışdı. Dağıstanda yaralı türk əsgərlərindən qalan olub-olmadığı, silah, sursat və mühümmat qalıb-qalmadığı dəqiq məlum deyildi. Bu çəkilmə nizami bir şəkildə deyil, sanki düşmən qabağından qaçırmış kimi çox sürətli və təlaş içində gerçəkləşirdi[48].

Yusif İzzət paşa Dərbənddə qalaraq Temirxan-Şuradan gələcək türk zabit və əsgər heyətini gözləyirdi. 15-ci piyada diviziyası komandanı Süleyman İzzət bəy qəhrəman Mehmetçiyin Dərbənddən çıxmağını belə təsvir edir:

"Hərəkətdən əvvəl musiqiçilərimiz vida havaları çalırdı. Dərbəndin isti qanlı insanları heyətimizlə qucaqlaşaraq, dostcasına vidalaşırdılar. Qatar yerindən tərpənəndə stansiyadakı camaat ağlayaraq, dəsmal yelləyərək bizi yola salırdılar. Stansiyadan çıxanda hamımızda bir hüzn var idi. Təxminən bir ay əvvəl Dərbəndə hücum edərkən düşmənin zirehli qatarından açılan ani atəş nəticəsində burada 56-cı alayın 1-ci batalyonundan 25 nəfər şəhid vermişdik. Ertəsi gün mühasirə ilə Şimali Qafqazın qapısı olan bu türk qəsəbəsini ələ keçirmişdik və cümə namazını qədim məsciddə xalq ilə birlikdə qılmışdıq. Şimali Qafqaz Respublikasının istiqlalını, düşmənin güclü hücumunu geri oturdarkən, burada elan etmişdik. Bunları düşünərək mütəəssir və pərişan bir halda Xaçmaza daxil olduq. Burada camaatla birlikdə bizi qarşılayan azərbaycanlılardan bir minbaşı, ağlayaraq bunları söylədi: "Sizlər buralara qədər gəldiniz. Bizə yardım edərək bizi Dövlət sahibi etdiniz. İndi bizləri qoyub gedirsiniz. Ancaq kimlərin ümidinə qoyub gedirsiniz?" Ona münasib sözlərlə təsəlli verdim"[49].

15-ci piyada diviziyası komandanı və qərargahını aparan qatar, 29 noyabr 1918-ci ildə Biləcəri stansiyasına çatdı. Qəhrəmancasına döyüşdüyü və heyətindən bir çoxunu şəhid verdiyi ərazilərdən, yüksəkliklər və dərələr arasından keçərək, həzin duyğular içində Gəncəyə getdi[50]. Gəncə Bələdiyyə sədri Həsən bəy, komandanlar Gəncədəykən Nuru paşa, Mürsəl paşa və Süleyman İzzət bəy ilə şəhər rəhbərlərinin də iştirak etdiyi bir vida yeməyi vermişdi. Yemək zamanı duyğu yüklü söhbətlər edildi. Nuru paşa qoltuq ağacı ilə yeriyən Süleyman İzzət bəyi təqdim edərkən, Bakının qurtuluşu üçün böyük fədakarlıqla döyüşən 38 və 56-cı alayların tabe olduğu 15-ci piyada diviziyasının komandiri olduğunu və daha sonra da Dağıstan və Mahaçqalanı fəth etdiyini bildirdi. Süleyman İzzət bəy də öz qısa nitqində bunları söylədi:

"Yollarda gələrkən heç bir şəhid məzarı görmədim. Bu şəhidlərimizi toplayın və münasib bir yerdə dəfn edin. Bu şəhidlər içində, heç olmazsa zabitlərimizin adlarını və şəkillərini hərbi hissələrdən istəyin. Məmləkətinizin istiqlalı uğrunda bu qəhrəman silah yoldaşlarımızı gələcək tarixinizə yazın. Bunu, xüsusilə, Bələdiyyə sədrindən rica edirəm, dedim. Möhtərəm sədr bunun mütləq ediləcəyini vəd etdi".[51]

15-ci piyada diviziyası komandanı Süleyman İzzət bəy Dərbənddən çıxdıqları 26 noyabr 1918-ci il tarixindən etibarən qarşılaşdıqları çətinlikləri belə qeyd edir:

1. Ələt-Nəvai stansiyaları arasında lokomotivi vaqona birləşdirən qarmaq birdən qırıldı. Qatar üç kilometrə qədər geri getdi. Çığıra-bağıra əsgərlərlə tormozları basdıq və qəzaya uğramaqdan qurtardıq. Qatarda bələdçi və gardfren yox idi. Yalnız bir rus maşinisti ilə bir körükçü vardı. Maşinist 4 gündən bəri yuxusuz olduğunu və qızdırması olduğunu söylədi. Ona döşəkağı, paltar, çay və

yemək verdik. Bir gürcü lokomotivi əlimizə keçdi və onu qoşaraq yolumuza davam etdik.

2. Stansiya işçiləri müxtəlif bəhanələrlə qatarımızı gecikdirirdilər. Yol vermirdilər. Bəzən stansiyaya da salmırdılar. Tək xətt üzərində arxadan gələcək digər bir qatarla toqquşma təhlükəsi ilə üz-üzə qoyurdular. Gəncə stansiyasına və digər stansiyalara zorla və oxları əsgərlərimizə açdıraraq girmişdik.

3. Lokomotivlər tez-tez xarab olurdu və elə həmin yerdə də qalaraq qatarların hərəkətinə mane olurdu.

4. Bəzi stansiyalarda lokomotiv depoya gedərək qatarımızı tərk edir və gardfrenlər qaçırdı. Depodan zorla lokomotiv götürüb və orada əlimizə keçəni gardfren edərək yolumuza davam edə bilirdik.

5. Bir qatarımız kifayət qədər gardfren olmadığı üçün və yoxuşu aşağı enərkən, aramsız fit verməsinə baxmayaraq, girəcəyi stansiya bağlı olduğundan, vaqonlar bir-birinə girdi. Qatar aşdı. Faciəvi surətdə bir çox şəhid və yaralımız oldu. Hər halda, bunların gizli əllər vasitəsilə edilmiş olduğu mütləqdir. Lakin biz bunları araşdıracaq vəziyyətdə deyildik[52].

Azərbaycan torpaqlarında son türk hərbi birliyi olan 15-ci piyada diviziyası komandanı və qərargahı 30 noyabr 1918-ci il tarixində Gəncədən Tiflisə yola düşdü. İstər Gəncədə, istərsə də Azərbaycanın son dayanacağı olan Ağstafa stansiyasında böyük bir izdiham var idi. Ortada heç bir məsul şəxs olmadığı üçün, sərhədin digər tərəfindəki gürcülər də türk əsgərinə böyük çətinliklər yaradırdılar. Süleyman İzzət bəy bu şərtlər altında Tiflisə çatdı. Burada Osmanlı Dövlətinin siyasi və hərbi təmsilçisi olan Əbdülkərim paşa ilə görüşdü. Paşa, Tiflis və Batumdakı vəziyyəti müxtəsər belə söyləmişdi:

"Yeni Kabinetdən hələ bir xəbər almamışam. Nəqliyyat olacaq, mənim xəbərim yoxdur. Nuru paşa, "mənə yol verməsələr, savaşaraq keçərəm" deyir. Yaqub Şövqü paşa "bu kafirlərə de, yol versinlər" deyir. Axalkalaki və Axıskaya göndəririk, meydanda sahibi yox. Ermənistan qatarlarımızı keçirmir. Gürcülər qəsdən problemlər yaradır. Burada, hökumət də daxil olmaqla, hamı türklərin əleyhinədir. Qəzetlər bizləri tənqid etdi və Azərbaycana çox hücum etdi. Gürcüstan hökuməti məni və hərbi təmsilçiliyimi heç tanımır. Yazdıqları şeylər daim siyasi təmsilçi adına göndərilir. Yanımda tək bir mühafizə edənim də yoxdur. Böyük çətinliklər içindəyəm"[53].

Həqiqətən də gürcülər türklərə qarşı böyük tərbiyəsizlik edirdilər. Tiflisdə qadınlar yollarda türk əsgəri görüncə, yumruqlarını bir-birinə vuraraq "İngilislər gəlir, ingilislər gəlir" deyə qışqırırdılar. Osmanlı Dövləti və türk ordusunun Gürcülərə heç bir pisliyi dəyməmişdi. Həqiqətən də Gürcüstanda nəqliyyat böyük çətinliklərlə tapılırdı. Gürcülər, ən böyüyündən ən kiçiyinə qədər türklərə düşmən kəsilmişdilər.

Böyük ümidlərlə başlayan Turan yolçuluğunda, Osmanlı Dövlətinin ilk olaraq Gürcüstanı nəzarət altına alması lazım idi. Türk ordusu Batuma girdiyi zaman, irəli hərəkət edərək, ətrafdakı Poti limanı ilə dəmiryolu üzərindəki Özerketi, Samzedi, Kutaisi və nəhayət Tiflisin əldə edilməsi üçün zəmin var idi. O dövrdəki Gürcü hökuməti və Osmanlı Dövləti arasında "Azərbaycan və Dağıstanda irəli hərəkat başa çatdıqdan sonra geri çəkilmək" qeydi ilə bir müqavilə imzalana bilərdi. Bu müqavilə vaxtında bağlansaydı, ilk növbədə almanların Gürcüstana girməsinin qarşısı alınardı. Qafqaza ediləcək hərbi yardımlarda müxtəlif problemlər və hərbi birliklərin geri çəkilərkən qarşılaşdığı çətinliklər də ortaya çıxmazdı.

Türk Qafqaz İslam Ordusu və 15-ci piyada diviziyasına mənsub olan son hərbi birliklər Tiflis yaxınlığındakı Mixaylovkadan 3 dekabr 1918-ci il tarixində hərəkət edərək, tam 9 gün davam edən qatar yolçuluğundan sonra, Gürcüstanın son stansiyası Nataliyə çata bildi[54]. Beləliklə, 5-ci Qafqaz piyada diviziyası ilə 15-ci piyada diviziyası hərbi birliklərinin hamısı 1918-ci il dekabr ayının ilk həftəsində Gürcüstanı tərk edərək, Osmanlı Dövlətinin torpaqları olan Batuma çatdılar. Lakin Batum da ingilislərin işğalı altındaydı.

Hərbi birliklər, Gəncə və Ağstafa stansiyalarında gedəcəkləri istiqamətə görə qruplaşdırılmışdılar. 5-ci Qafqaz piyada diviziyası Sivasda, 15-ci piyada diviziyası isə Samsunda xidmət edəcəkdi[55]. Azərbaycan və Dağıstanı düşmən işğalından qurtaran və məğlub olmayan qəhrəman 5-ci Qafqaz və 15-ci piyada diviziyaları Batumda ingilislərin təzyiqi ilə qarşılaşdılar[56]. Çünki Batum, ingilislər tərəfindən işğal edilmişdi. 17-18 dekabr 1918-ci il tarixində iki İngilis döyüş gəmisi gəldi. 19 dekabrda Batum limanını nəzarətə götürdülər. 24 dekabrda da şəhərə hərbi vali təyin etdilər. Bütün idarə onun nəzarəti altında olmaq şərti ilə, müxtəlif millətlərdən ibarət bir heyət təşkil etdirərək, 27 dekabrda hakimiyyəti ələ aldılar[57]. Müqavilə şərtlərinə uyğun olaraq, türk əsgərinin yüngül və ağır silahları müsadirə edildi, ərzaq, heyvan və digər imkanları müsadirə olundu. Nümunə üçün deyə bilərik ki, Batumda 100 ton buğda, 15-ci piyada diviziyasına məxsus və pulu ödənilərək satın alınmış 44.000 kiloqram şəkər, 12 çəllək kürü, 2 çəllək tomat pastası, bir neçə çəllək balıq, gön, dəri, bolluca konserv və taxıl İngilislər tərəfindən müsadirə edilmişdi.[58]

Yüzbaşı Səlahəddin bəy xatirələrində Türkiyəyə köçürülməyə çalışılan türk əsgərinin silah və sursatı haqqında bunları qeyd edir:

"Hərbi material və cəbbəxananı Azərbaycandan Türkiyəyə göndərməyə çalışırdıq. Bunlardan iki qatar dolusu cəbbəxana (sursat) Tiflis stansiyasında dayanmışdı. Bunlar Bakıya göndəriləcəkdi. Lakin barışıq imzalandığı üçün burada qalmışdı. Gürcülər bu sursatı bizdən pulla almaq istədilər. Hər mərmiyə 50 quruş təklif etdilər. Mən Batumun vəziyyətini bildiyim üçün bu təkliflə razılaşdım. Lakin

bunu Mürsəl paşaya başa salmaq mümkün olmadı. Paşa, necə olursa olsun, bunun Batuma, oradan da Türkiyəyə göndərilməsini istəyirdi.

Vəziyyəti ona izah etməyə çalışdım. Əgər biz bu sursatı Batuma göndərsək, ingilislər müsadirə edərək ermənilərə verəcəkdilər. Mürsəl paşa, sursatın Gürcülərə qalmasını istəmirdi. Mütləq Türkiyəyə çatdırılmasını istəyirdi, bu isə mümkün deyildi.

Mürsəl paşa gürcü Hərbiyə Naziri ilə əlaqə yaradaraq sursat dolu qatarların Batuma gətirilməsinə zəmanət aldı. Səhər yuxudan duranda qatarlar yola çıxmamışdı. Mürsəl paşa o gün Batuma hərəkət etdi və gedərkən də mənə bir əmr verərək, qatarların yola salınması üçün mümkün olan hər şeyi etməyimi tələb etdi.

Ertəsi gün gürcü əsgərləri qatarları mühasirəyə aldı və sursatı oğurlamağa, almağa cəhd etdilər. Mən də bunun mümkün olmadığını dedim. Çətin vəziyyətə düşmüşdük. Çünki silah və sursatını qoruya bilməyən əsgər vəziyyətinə düşəcəkdik. Əvvəlcə stansiya rəisi məni inandırmağa çalışdı. Bu alınmadıqda, Hərbiyə Nazirin Müşaviri olan yaşlı bir kişi yanıma gəldi. O da məni dilə tuta bilmədi. Lakin "Sursatı Batuma aparsanız, onu ermənilərə verəcəklər və yenə sizə qarşı çevirəcəklər" dedi. Bu söz məni tutdu. Sonra belə bir ortaq fikrə gəldik:

- Siz bu qatarları gün batanda Batum istiqamətində yola salın. Gecə düşəndə qaranlıq bir stansiyaya çəkib silahları alarsınız. Mən Batumda bu vəziyyəti hökumətə bildirərəm. Onlar sizi protest edərlər. Qatarı mühafizə edən əsgərlərin də sizə müqavimət göstərməmələri üçün əmr verərəm.

Müşavir çox razı qaldı. Qərarlaşdırdığımız kimi hərəkət etdilər. Beləliklə də, sursatımız ingilislər vasitəsilə ermənilərin əlinə keçmədi.

Ertəsi gün Kutaisi stansiyasına çatmışdım. Oradakı qatarları da Batuma göndərdikdən sonra biz də yola çıxdıq[59].

İngilislər barışıq şərtlərinə məhəl qoymadan və imzaladıqları sənədləri yaddan çıxararaq, Batumda özbaşınalıq edirdilər. Ancaq mehmetçik səsini çıxara bilmirdi, çünki qalib gəldiyi halda məğlub sayılırdı. Batumda gəmi olmadığı üçün 15-ci piyada diviziyasının 38-ci və 56-cı alayları 25 gün idi ki məyus halda gözləyirdi. Ən nəhayət komandirlər bir az da gözləməyin mehmetçiyə böyük zərər vuracağı nəticəsinə gəldilər və 28 dekabrda Batumdan çıxaraq, vətənə nəqliyyatsız getməyi qərarlaşdırdılar. İngilislər Batumu keçərkən türk əsgərinin üst-başını axtarmağa başladılar. Çox olduğu hesab edilən bəzi heyvan və əşyaları götürürdülər. Buna görə 38-ci və 56-cı alayların komandir və əsgər heyəti İngilislərə hücum etmək üçün müharibə vəziyyətinə keçdilər. Vəziyyətin bu şəkil aldığını görən İngilislər, Batumdakı komandirləri ilə telefon əlaqəsi yaradaraq danışdıqdan sonra, hər hansı silahlı münaqişəyə yol açmadılar və ara sakitləşdi. Beləliklə, 15-ci piyada diviziyası, Batumdan çıxaraq Türkiyə torpaqlarında Trabzon istiqamətində hərəkət etməyə başladı. 1919-cu il yanvar ayının sonuna

doğru xidmət edəcəkləri bölgə olan Samsun, Çərşəmbə, Bafra və Hövzə dairəsində toplana bildi[60].

5-ci Qafqaz piyada diviziyasının ilk bölməsi isə 18 yanvar 1919-cu il tarixində Batumdan quru yolu ilə vətənə istiqamət götürdü. Bununla da 19 yanvar 1919-cu il tarixində Batum, türk əsgərləri tərəfindən tamamilə boşaldılmış oldu. Hərbi birliklərin Qara dəniz sahili boyunca və yanvar ayının şaxtasında yeriyərək keçməsi, heyət arasında böyük sıxıntılara səbəb olmuşdu. Batum-Trabzon arasında ərzaq çatışmazlığı vardı. Batumda qalan təxminən 800 yaralı və xəstə ilə bəzi əşya isə ancaq 1919-cu ilin fevral ayında Türkiyəyə göndərilə bildi.[61]

ŞER

*Sənin baş ucunda daş*
*Bizim gözümüzdə yaş*
*Sən borcunu ödədin*
*Sıra bizdə, arkadaş...*

1. İttihad və Tərəqqi Partiyası Baş Katibi Əli Fəthi Okyar, Almaniyanın müharibəni uduzmaq üzrə olduğunu, xatirələrində belə nəql edir: "1 oktyabr 1918 çərşənbə axşamı günü, çox erkən saatlarda, Tələt paşanın "təcili dəvətini alaraq evinə getdim. Əlindəki teleqramı mənə verdi. Vyana səfirimiz, Almaniyanın silahı yerə qoymaq üzrə olduğunu bildirirdi. Almaniya bu qərarı çox əvvəl almışdı. Ancaq bunu məharətlə gizlətmişdilər. Burada əsl məsələ, Osmanlı dövlətindən, uzun zamandan bəri planlaşdırdıqları payları almaq idi. Okyar, Öz dövrdə bir adam, s. 236.
2. Türk İstiqlal hərbi, s. 24-28.
3. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 622; 1.10.1344 tarixli teleqram üçün bax: Aydəmir, Makedoniyadan Orta Asiyaya Ənvər paşa, s. 440.
4. Okyar, Öz dövrdə bir adam, s. 238-239.
5. Türk İstiqlal hərbi, s. 28.
6. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 622-623.
7. Sultan Məhməd Vəhdəddin, heyət rəisi olaraq Damad Fərid paşanın göndərilməsini istəmişdi. Sədrəzəm Əhməd İzzət paşa, Sultana, "Bu adam dəlidir, belə bir işi bacara bilməz deyərək etiraz etdi. Sultan israr etdi və məsələ Nazirlər Kabinetinə nəql edildi. Fərid paşanın görüşmələrdə iştirakı qadağan edildi. Vəhdəddin, görüşmə heyətinə bu təlimatın verilməsini Sədrəzəmdən rica etmişdi: "a) Xilafət, səltənət və xanədan haqlarının tam mənasıyla qorunmasını; b) Bəzi əyalətlərə veriləcək muxtariyyətin ancaq idari olub, siyasi bir xüsusiyyət daşımamasını, siyasi muxtariyyətin İslam aləminə xəyanət sayılacağını bildirin demişdi. Həqiqətən də Damad Fərid paşa, sözün tam mənasında dəli kimi bir adam

idi. Fərid paşa o illərdə bəzi söhbətlərində, "Mən sülh görüşmələrində iştirak etsəm, dövlətin torpaq bütövlüyü məsələsini onlara qəbul etdirərəm. Olmasa tez Londona gedər, kral ilə görüşərək, «Mən sənin atanın dostu idim, arzularımın qəbul edilməsini səndən gözləyirəm» deyərək, qəbul etdirərəm demiş və beləcə öz səviyyəsini göstərmişdi. Ünal, Türk siyasi tarixi, s. 474.

8. Türk istiqlal hərbi, s. 29; Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 623-624.

9. Türk İstiqlal hərbi, s. 31; Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 624.

10. Türk İstiqlal hərbi, s. 46; Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 625.

11. Türk istiqlal hərbi, s. 32-44; Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 628.

12. Armaoğlu, 20-ci əsr siyasi tarixi, s. 139.

13. Bayur, Türkiyə Dövlətinin xarici siyasəti, s. 14-23.

14. Armaoğlu, 20-ci əsr siyasi tarixi, s. 141.

15. Mudros barışığı və tətbiqi haqqında daha geniş məlumat üçün bax: Türk İstiqlal hərbi.

16. Yüzbaşı Səlahəddinin romanı, s. 433.

17. İttihad və Tərəqqi liderləri 2-3 noyabr 1918-də, şənbədən bazara keçən gecə, ayrı-ayrı qayıqlara minərək Çubuqlu yaxınlığında lövbər atan kiçik bir alman dəniz altı gəmisinə keçdilər. Gəmi İstanbul boğazından Qara dənizə çıxaraq Odessaya getdi. Bax: Okyar, Öz dövrdə bir adam, s. 250.

18. Ünal, Türk siyasi tarixi, s. 454; İttihad və Tərəqqi Partiyası liderlərindən Prens Said Halim paşa 1921-ci ildə Romada, Tələt paşa Berlində, Cəmil paşa və Doktor Bahəddin Şakir bəy də 1922-ci ildə Tiflisdə, Cəmil Əzmi bəy isə Berlində erməni sui-qəsdləri nəticəsində şəhid oldular.

19. Ünal, Türk siyasi tarixi, s. 455. 160.

20. Osmanlı dövlətinin Saray Baş Katibi Əli Fuad (Türkgəldi), Əhməd İzzət paşanın istefa etməsinin doğru olmadığını söyləmişdi: "Bizdə Sultan, sədrəzəm və komandan dəyişdirilməsini hər zaman ən həssas siyasi və hərbi vəziyyətlərə rast gətirmişlər. Bu səbəbdən də həm dövlət və millət, həm də səltənət çox böyük ziyan çəkmişdir. Əhməd İzzət paşa kabinetinin istefasının, barışığın imzalanmasından dərhal sonra olması da eyni çərçivə daxilində cərəyan etmişdir. Barışığı imzalayan ingilis admiralı, onun qarşısında öhdəliklər götürən şəxsin yerində başqa birini, Xarici İşlər Nazirliyində Rəşid paşa kimi iradəsiz bir adamı gördüyü üçün barışığın şərtlərini istədiyi kimi ağırlaşdırmışdır. Bax: Əli Fuad Türkgəldi, Görüb eşitdiklərim, Türk Tarix Qurumu nəşriyyatı, Ankara, 1951, s.

21. Ermənilər bu rəqəmi çox şişirmələrinə baxmayaraq, daha əvvəl 8.988 olaraq açıqlamışdılar.

22. Türk İstiqlal hərbi, s. 152-153.

23. Yenə orada, s. 153-154.

24. Xəritə 17.

25. Türk İstiqlal hərbi, s. 154.

26. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 630.

27. Yüzbaşı Səlahəddinin romanı, s. 435; Yüzbaşı Səlahəddin, 1.11.1918 tarixindən 1.2.1919 tarixinə qədər Bakı-Batumi dəmir yolu komissarı olmuşdur. O günləri aşağıdakı kimi xatırlamaqdadır: "Süvari Cəlal da o vaxt Xəzər dənizi sahil mühafizəsi ilə məşğul olan süvari birliyində idi. Bakıdan şərqə - Türküstana yollanacaq qüvvələr göndərilməmiş, ancaq Yusif İzzət paşanın əmrindəki birliklər Dağıstana gedərək Mahaçqalanı ələ keçirmişdilər. Tam o günlərdə bizə Mudros barışığının imzalandığı bildirildi və Qafqazdan çıxmamız gərəkdiyi deyildi. Qafqazdan çıxmaq üçün ingilislər bizə iki ay vaxt vermişdilər. Bu vaxt ərzində Qafqazdakı bütün birliklərimizi geri çəkməli idik. Əvvəlcə bu əmrə itaət etməyərək Qafqazda qalaraq müstəqil bir hökumət qurmağı düşünənlər oldu. Ancaq bu iş yoluna qoyula bilmədi. Nəhayət geri çəkilmə hərəkatı başlandı. 53 qatarla iki ayda 9 min əsgər və zabiti və 13 min heyvanı Batumiyə nəql etdik. Deməк ki, Qafqazdakı hərbi əməliyyatlarda iştirak edən əsgərlərimiz cəmi bu qədər idi.

28. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 639; Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s.237.

29. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 639. Müqavilənin şərtləri və mətni üçün bax: Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 240-241.

30. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 239-242.

31. Türk İstiqlal hərbi, s. 157.

32. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 243.

33. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 640.

34. Yenə orada.

35. Yenə orada; Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 243.

36. Yüzbaşı Səlahəddin, xatirələrində bu məsələni belə nəql etməkdədir: "Mən gərgin bir surətdə çalışmağa başlamışdım. Bakı-Batumi xətti təxminən 1 000 km-dir. Bu dəmir yolunun digər parçaları ilə bərabər idarə mərkəzi Bakıda idi. Amma xəttin bir bölümü Azərbaycanda, bir bölümü Gürcüstanda, bir bölümü isə Batumidə idi. Batumi isə Osmanlı dövlətinin sərhədləri daxilinə idi. Bolşevikləri meydana gətirdikləri anarxiya, dəmiryolu xəttini fəaliyyətdən məhrum etmişdi. Vaqon və lokomotiv yox, bunları işlədəcək adam da tapılmırdı. Amma biz bu məsələni yoluna qoya bilməsək, əsgərlərimiz piyada getmək məcburiyyətində qalacaq və daha faciəvi bir vəziyyət meydana çıxacaqdı. Bu səbəbdən nəqliyyatı yoluna qoymağa çalışırdıq.

Bakı-Batumi dəmir yolu xəttinə paralel olaraq, 1 m diametri olan bir neft kəməri çəkilmişdi. Bu kəmər, dəniz səviyyəsindən yüksəkliyi 400-500 m olan ərazilərdən keçərək Batumiyə qədər gedirdi. Kiçik təzyiq cihazları ilə Bakı nefti bu kəmər vasitəsi ilə Qara dənizə nəql edilirdi. Türk ordusu Qafqaza gəldiyində, ordunun ehtiyacı olan hər şey Batumiyə gedən paroxodlarla nəql edilmişdi. Türkiyənin neft ehtiyacı da Bakıdan Batumiyə uzanan bu kəmərlə, Batumidən də paroxodlarla göndərilirdi.

Ən son aldığımız əmrdə, Bakının 10.11.1918 günü boşaldılmasının vacib olduğu və 17.11.1918 tarixində sabah saat 10.00-da dəniz yolu ilə gələcək olan ingilis komandanı general Tomsonun birliklərinin şəhəri işğal edəcəyi bildirilmişdi. Bu saata qədər şəhərdə türk ordusundan heç kim qalmayacaqdı. Əgər qalsa, müharibə əsiri sayılacaqdı. Axırıncı türk birliyindən sonra Ordu Qərargahı yola çıxacaq, gecə yarısından sonra saat 3-də mənim qatarım Bakıdan ayrılacaq və şəhərin 8 km şimalında, şimal və cənub Qafqaz xətlərinin birləşdiyi nöqtəyə gedəcəkdi. Yüzbaşı Səlahəddinin romanı, s. 436.

37. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 641; General Tomson, Bakıya rus və erməni əsgərlərinin girməsinə icazə verməyəcəyi barəsində türk heyətinə verdiyi vədi yerinə yetirməmişdi.

38. Mirzəbala Məmmədzadə, Milli Azərbaycan hərəkatı, s. 99.

39. General Tomsonun bəhs etdiyi hakimiyyət, bolşeviklərə qarşı olan bir qrup rus və belorusun Ural dağlarındakı Ufa bölgəsinə çəkilərək, qurduqlarını elan etdikləri hökumət idi. Bu təşəbbüs uğursuz olmuşdur.

40. Buna oxşar bir vəziyyət, ingilislərin İstanbulu işğal etdiyi illərdə Türkiyədə də yaşanmışdır. Bəzi ziyalılar, təəssüf ki, İngiltərəninmi yoxsa Amerikanınmı idarəsi altına girməyin daha yaxşı olacağını müzakirə etməyə başlamışdılar.

41. Mirzəbala Məmmədzadə, Milli Azərbaycan hərəkatı, s. 100.

42. Yenə orada.

43. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 641.

44. Xəlil paşa Mudros barışığından sonra İstanbula qayıtmış və İngiltərə Yüksək Komissarının əmri ilə həbs edilmişdi. 1919-cu ilin avqust ayında "Bəkirağa Bölüyü adlanan həbsxanadan qaçaraq Sivasa getmiş və Milli Mücadiləyə xidmət etməyə başlamışdı. Xəlil paşa, 1919-cu ilin oktyabrında SSRİ hökuməti ilə qeyri-rəsmi bir əlaqə yaratmaq məqsədi ilə Qafqaz üstündən Rusiyaya göndərildi. Moskvaya ancaq 1920-ci ilin yazında çata bildi. Antanta dövlətlərinin hücumu nəticəsində Türkiyənin düşdüyü ağır vəziyyəti Sovet hökumətinə anlatdı və qısa zamanda Anadoluda Sovet Rusiya ilə dostluq və əməkdaşlıq müqaviləsi imzalamağa hazır olan milli bir hökumət qurulacağını bildirdi. A. Şəmsutdinov, Qurtuluş savaşı illərində Türkiyə-SSRİ əlaqələri, Cümhuriyyət nəşriyyatı, İstanbul 2000, s. 8.

45. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 641.

46. Şövkət Sürəyya Aydəmir, Suyu axtaran adam, Rəmzi nəşriyyatı, İstanbul, 1979, s. 137.

47. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 244.

48. Yenə orada, s. 249.

49. Yenə orada, s. 249-250.

50. "Hər şeyi tamamladıq. Ordu komandanının qatarı da hərəkət etdiyində, tamamilə ümidsizliyə qapıldım. Tarixi yürüş durmuş, Turan xülyası basdırılmışdı. Ələm və iztirab içində gəldiyim Bakı stansiya komandanlığı otağında oturduğum yerdə yuxuya getmişdim. Gözlərimi açdığımda stansiyanın qapqaranlıq olduğunu gördüm. Mənim qatarım da getmişdi. Bir az sonra günəş doğacaq, mən ya ingilislərə əsir düşəcək, ya da ermənilərin əlində parçalanacaqdım. Kədərdən boğulurdum. Stansiya müdiri ilə dava edərək bir lokomotiv aldım və qatarımın olduğu stansiyaya çatdım. Yüzbaşı Səlahəddinin romanı, s. 436.

51. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 252.

52. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 254-255. Yüzbaşı Səlahəddin də türk əsgərlərinin Qafqazdan çəkilərkən yaşadığı acı xatirələri belə nəql etməkdədir: "Azərbaycanın əhalisi beş milyon idi. Bunun dörd milyon yarımı türklər, yarım milyonu ruslar və ermənilər idi. Ruslar və ermənilər türk ordusunun Azərbaycana gələrək orada bir dövlət qurmasını istəmirdilər. Amma orada olduğum qısa müddətdə anladım ki, 4,5 milyon türkdən çox azı bizi istəyirdi. Bizi istəyənlər milli duyğuları oyanmış adamlardı. Uzaq başı, bizimlə rus idarəsi arasında bir fərq

görmür, hətta rusları daha qüvvətli, zəngin və mədəni bildikləri üçün, bu "böyük ağanı tərcih edirdilər. Bəzi türklər də rus mədəniyyətini mənimsəmişdilər, çarlıq idarəsi altında rütbə, maaş və rifaha qovuşmuşdular. Onlar bizə düşmən gözüylə baxır və Azərbaycandan tezliklə rədd olub getməyimizi istəyirdilər. Biz Azərbaycandan çəkilməyə başladığımızda, onlar canlanmışdılar. Mənim də başımdan belə bir hadisə keçdi:

Biz Azərbaycanı tərk etməyə başladığımızda, Azərbaycan ordusunun komandanlığı çarlıq dönəmi generallarından azərbaycanlı türk olan Mehmandarova, Qərargah rəisliyi də Həbib Səlimov adında bir polkovnikə verilmişdi. Mən Gəncədə ikən bir gecə bir zabit gəldi və Mehmandarovun sabah Bakıya gedəcəyini, bir lokomotiv istədiyini dedi. Mən, «Vaqon varmı?» deyə soruşdum. Şəxsi vaqonu olduğunu söylədi. Mən də bir lokomotiv verilməsi üçün əmr verdim. Ertəsi gün şəhərə çıxmışdım. Stansiyaya qayıtdığımda hər zaman olduğundan böyük bir qələbəlik gördüm. Həbib Səlimov da bizim stansiya komandanına bağıraraq nə isə deyirdi. Stansiyanın ortasına gəldiyimdə məni gördü. Mənə doğru gəldi və hər kəsin eşidə biləcəyi bir şəkildə «Siz nə utanmaz insanlarsınız! Məmləkətimizə gəldiniz, etmədiyiniz qalmadı. İndi bir marşal səyahət edəcək, ona qırx nəfərlik bir heyvan vaqonu verirsiniz. Öz komandan və zabitlərinizə isə ruslardan və bizdən oğurladığınız ən yaxşı vaqonları verməyə utanmırsınız.» dedi. Mən, gözləmədiyim bu sözlər qarşısında çaşıb qalmışdım. Sonra çox sayğılı bir şəkildə vəziyyəti izah etməyə başladım və bir türk generalına hər cür hörməti göstərəcəyimizi, vəziyyəti anlamadan boş yerə həyəcana qapıldıqlarını dedim. Bu sayğılı davranışım qarşısında büsbütün əsəbiləşən Səlimov, «Bax, bir də utanmadan yalan danışır, bu həyasızlıqdır!» deyə bağırdı. Səbrimi daşıran bu bağırış oldu. Səlimova: «Ey rus köpəyi, sənə bir türk əsgəri olduğun üçün hörmət etdim.» Dedim və arxadakı zabitə: «Bu hərifi al, sıravilərin yanına həbs et, danışsa vur!» deyə əmr etdim. Marşal üçün ayrılan qatarı lokomotivdən ayırdım, yanındakı zabitə dedim ki: «Get marşalına söylə, milləti üçün qan tökməmiş, zabiti döyüşməmiş bir marşala bizim edəcəyimiz budur. Haraya istəyirsə, oraya getsin!» Üç saat sonra, hadisənin şahidi olan və o vaxt bizim adımızdan Bakı valisi olan polkovnik Fəthi bəy gəldi. Məndən xahiş elədi, Səlimovu buraxdırdım. Mehmandarova da bir lokomotiv verərək Bakıya göndərdim. Bizim Turan macərasındakı arzularımızın sonunda qarşılaşdığımız Azərbaycan ziyalısı bu idi. Bu qarışıqlıq içində Tiflisə gəldik. Yüzbaşı Səlahəddinin romanı, s. 252-253.

53. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 252-253.

54. Yenə orada, s. 254.

55. Birinci Dünya hərbində Türk hərbi, Qafqaz cəbhəsi, III ordu hərəkatı, II c, s. 642. "Türkiyəyə aid olan hər şeyə, barışıq şərtlərinə görə, qalib dövlətlər əl qoymuşdular. Cənubi Qafqazı Batumi və Bakıdan gələn ingilis əsgərləri işğal edirdilər. Batumidə quruya çıxanlar Tiflisə qədər irəliləmiş və Gürcüstanı işğal etmişdilər. Bakıdan gələnlər isə bizi addım-addım izləyirdilər. Türk ordusu Qafqaza gəldiyində birliklərin ehtiyacı olan hər şey göndərilmişdi. İndi birdən-birə dəyişən şərtlər səbəbiylə Bakı-Batumi xəttində Türk dövlətinə aid geyim, cəbbəxana, silah və benzin vaqonları var idi. Mərkəzi Ərzuruma çəkilən 9-cu Ordunun komandanı Yaqub Şüvqü paşa, dövlətə məxsus olan malların məmləkətə nəql edilməsi üçün hər türkün əlindən gələni etməsini əmr edirdi. İstanbulun müttəfiqlər tərəfindən işğal edildiyinə, Tələt, Ənvər və Camal paşaların paytaxtdan qaçdığına və bütün Anadoluda bir qarışıqlıq başladığına dair acı xəbərlər hər gün gəlirdi. Pərişan, taqətsiz, ümidsiz bir şəkildə vəzifəmizi yerinə yetirərək vətənə qayıtmağa çalışırdıq. Heç kim nə olacağını bilmirdi. Mən də Batumi-Bakı xəttində çırpınırdım. Azərbaycanın son stansiyası olan Ağstafaya gəldim. Yüzbaşı Səlahəddinin romanı, s. 438.

56. Yüzbaşı Səlahəddinin romanı, s. 442. "Tiflisdə ikən, Batumiyə gedən qatarların hərəsinə bir zabit təyin edirdim. Bu zabitlər, qatarları Batumidə boşaltdıqdan sonra geri gətirirdilər. Belə eləməsək, Batumiyə gedən qatarın bir daha geri gəlməsi mümkün deyildi. Batumiyə çatan qatarlar stansiyada ingilislər tərəfindən mühasirəyə alınır və 1894,1895,1896 təvəllüdlü əsgərlər, zabitlərə təslim edilirdi. Silahları alınaraq ermənilərə verilir və dərhal yeni erməni birlikləri qurulurdu. Əsgərlik xidmətindən tərxis edilməyən silahlı əsgərlər piyada olaraq Türkiyəyə göndərilir, silahsızlar isə paroxodlarla məmləkətlərinə və İstanbula nəql edilirdilər. Əsgərlikdə qalacaq olanların hər birinə 150 güllə verilirdi. Artığı isə alınaraq ermənilərə verilirdi.

57. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 256; Səlahəddin Tansel, Mudrosdan Mudaniyaya qədər, I c, Ankara, 1977, s.52.

58. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 256.

59. Yüzbaşı Səlahəddinin romanı, s. 442-448.

60. Süleyman İzzət, böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, s. 255.

61. Türk İstiqlal hərbi, s. 165.

# NƏTİCƏ

Bakı, Şərq və Türk dünyası üçün istər elm və mədəniyyət, istərsə də sənaye və ticarət baxımından dərin kökləri olan bir mərkəzdir. Qafqaz və Orta Asiyaya gedən yollarda əhəmiyyətli bir körpü rolunu oynamışdır. Düşmən işğalından qurtarıla bilməsi üçün təxminən dörd aydan çox qan axıdılan və can verilən Bakı şəhəri, nəhayət, türk hərbi qüvvələri və silahı ilə 36 saat davam edən bir mübarizədən sonra ələ keçirilə bilmişdi. Qələbə tacı qoymuş türk silahlılarına boyun əyən təkcə erməni daşnakları və rus bolşevikləri deyildi. İran və Cənubi Azərbaycandan rus və ermənilərin imdadına çatan General Deustervil tabeliyindəki ingilislər də məğlublar arasında idi.

İngilis hərbi birləşmələri, görünüşdə Bakıdakı erməni və ruslara kömək etmək üçün gəlmişdi. Əgər elə olsaydı, ingilis birliklərinin kömək üçün Ermənistana getməsi lazım idi. Əslində isə, türk qövmlərinin birlik və bütövlüyünü təmin etmək üçün Qafqaz və Orta Asiyaya yürüş edən Osmanlı Oğuz türklərini dayandırmaq üçün, məhz Bakıya getmişdilər.

İngilislər Osmanlı Türklərinin Qafqaz və Orta Asiyadakı böyük türk əhalisi ilə birləşməsini, böyük müstəmləkəsi Hindistan üçün real bir təhlükə olaraq görürdü. Türk ordusunu, körpü Bakıda tutmaq, başını qatmaq və beləliklə Xəzər dənizinin Şərq və şimal sahillərinə keçməsinin qarşısını almaq istəyirdi. İngilislərin bütün düşüncə və məqsədi, müstəmləkəçi Britaniya imperiyasını və Hindistanı mühafizə etməyə yönəlmişdi.

"Günəş Batmayan İmperiya"nın orduları, lap Çanaqqala və Qutda olduğu kimi, Bakı yaxınlığında da ağır məğlubiyyətə uğramışdılar. Bu ordu Bakı məğlubiyyəti üstündə "komandanını itirmiş" və Deustervilin yerinə Tomson gətirilmişdi. Hərbi mənbələr hər cür silah, sursat və mühümmatla təchiz olunmuş, ərzaq və paltar sarıdan korluq çəkməyən İngilislərin Bakıya gələn heyətinin üçdə birini itirərək, gəldiyi yerə qayıtdığını bildirirlər.

Bakının ələ keçirilməsi üçün aparılan 36 saatlıq ikinci müharibələrdə 17 erməni, 9 rus və 10 gürcü zabiti ilə, 1,151 erməni, 383 rus, 4 ingilis və müxtəlif millətlərdən 113 əsgər əsir alınmışdı. İngilis əsirlərin sayının az olmasının başlıca səbəbi, 14 sentyabr 1918-ci il gecəsi onların gəmilərlə Bakını tərk etmələridir. Ələ keçirilən hərbi mühümmat arasında top, silah və bunlara aid mərmi ilə yanaşı, 5 təyyarə və başqa materiallar də var idi.

5-ci Qafqaz piyada diviziyası ilə 15-ci piyada diviziyasının cəmi itkisi 800 ilə 1000 nəfər arasındadır. Türk ordusunun Azərbaycana girdiyi 25 maydan Bakının qurtuluşuna qədər keçən dövrdə şəhidlərin sayı, bəzi mənbələrə görə 30 zabit və 1,100 sıravi, bəzi mənbələrə görə isə cəmi 1,142 zabit və əsgərdən ibarətdir.

5-ci Qafqaz piyada diviziyasının təxminən dörd aydan çox müddət ərzində verdiyi şəhid və yaralıların qanı ilə suvarılan bu qardaş torpağı üzərində, Gəncə-Göyçay-Ağsu-Şamaxı-Bakı yolunun hər iki tərəfi, Salyan-Bakı və Quba-Xaçmaz ilə Müsüslü-Kürdəmir-Karrar-Hacıqabul-Ələt-Bakı dəmir yolu ətrafında, Naxçıvan-Qarabağ və Kür çayı sahillərində, xalqın ziyarətgaha çevirdiyi məzarlar var idi. İndi itmiş o məzarlarda, Qaf dağındakı öz qardaşlarının imdadına çatan adsız qəhrəmanlar, Anadolu Mehmetçiyi yatırdı. Qəhrəman Mehmetçik, o torpaqlarda, vətənin müdafiəsinə, namus və heysiyyat mübarizəsinə qalxan Azərbaycan Türkləri olan qardaşları ilə çiyin-çiyinə əbədi yuxuya getmişdi.

Rus imperiyası və onun davamı olan Sovet İttifaqı zülm üzərində qurulmuş bir istismarçı dövlət idi. Qafqazın Rusiya tərəfindən işğalı uzun sürən qanlı hadisələr nəticəsində gerçəkləşdi. Avropa, 19-cu əsrin ortalarında müstəbid hökmdarlara qarşı demokratik üsyan və oyanışlar yolu ilə mübarizə apararkən, Qafqaz, Şeyx Şamilin başçılığı ilə rus istilasına qarşı qəhrəmancasına vuruşurdu. Qafqazda yaşayan türklər və digər müsəlman xalqlar, bu mübarizəyə qoşulmuşdular. Qafqazdakı bu azadlıq mübarizəsini Avropa da yaxından izləyirdi. Şeyx Şamil, avropalıların gözündə əsl azadlıq simvolu idi.

Rusiya, Qafqazda yaşayan xalqları hər cür milli haqq və azadlıqdan məhrum etdi. Bölgədə yaşayan millətlər təxminən 100 il boyunca böyük bir assimilyasiya və ruslaşdırma siyasəti ilə üzləşdilər. Birinci Dünya müharibəsində Rus Çarlığının süqutundan sonra, Qafqazda yaşayan millətlər azadlıq əldə etmək üçün ayağa qalxdılar, müstəqilliklərini elan etdilər və Respublika yaratdılar. Şimali Qafqaz (Dağıstan), Gürcüstan, Ermənistan və Azərbaycan dövlətləri meydana gəldi. Bir çox Avropa ölkəsi və Amerika Birləşmiş Dövlətləri, bu müstəqilik hərəkatını tanıyaraq qəbul etdi[1].

Rusiyada hakimiyyətə gələn bolşeviklər, millətlərin öz müqəddəratını təyin etmə haqqına sahib olduqlarını böyük bir mərasimlə, bəzəkli və parlaq, insanların ruhunu oxşayan cümlələrlə bütün dünyaya elan etdilər. Lakin az müddətdən sonra, Qafqaz, Orta Asiya və daha bir çox bölgədə milli müqəddəratlarını əldə edən millətlərin işlərinə xaincəsinə müdaxiləyə keçdilər. Üstün qüvvələrinə güvənərək türk respublikalarını ləğv etdilər, bu ölkələri sovetləşdirdilər. Buna qarşı çıxanların səsini boğaraq, müqavimətini qıraraq, ziyalıların canları bahasına türk torpaqlarını ələ keçirdilər.

Azərbaycan xalqının dil, din, tarix, mədəniyyət və gələcəyi birlikdə qurma arzusu da daxil olmaqla, rus milləti ilə heç bir uyğunluğu yoxdur. Rus İmperiyasının süqutundan sonra, Azərbaycan demokratiyanın ən müqəddəs prinsiplərindən faydalanaraq, müstəqilliyini elan etdi. Azərbaycanlılar 28 may 1918-ci il tarixində, öz təmsilçilərindən ibarət Milli Şuranın əli ilə öz dövlətini qurdu. Qərbi Avropa tərzində təşkil edilən bu dövlətin idarəetmə şəkli respublika

idi. Dövrün tələbinə görə son dərəcə müasir bir respublika şəklində təşkil olunan bu dövlət, dövlətlərarası arenada da tanınmış və qəbul olunmuşdu[2].

Azərbaycan dövləti Sovet hökuməti tərəfindən Qızıl Ordu vasitəsilə dağıdıldı, ölkə işğal edildi və yeni bir sovet rejimi təsis edildi. Rusiyadan gələn bu qırmızı istilaya, Azərbaycan bütün qüvvəsi ilə müqavimət göstərmiş, bu yolda yüzlərlə qurban vermişdir.

Türk silahlı qüvvələri Azərbaycanda misli görülməmiş bir fədakarlıqla döyüşmüşlər. Ana vətənin hər yerində əsgərə ehtiyac duyularkən, əvvəlcə 5-ci Qafqaz piyada diviziyasının, ardından isə 15-ci piyada diviziyasının Azərbaycana göndərilməsi, türklüyün qurtuluşu və oyanışı uğrunda atılmış bir addım olduğu üçün, bu hərbi hərəkatın hədəfi, səbəbi və nəticələrinin tənqid olunması heç də düzgün deyildir. Türk Qafqaz İslam Ordusunun Cənubi Azərbaycanda Təbriz ətrafında olan 9-cu Orduya Bakı-Lənkəran üzərindən keçərək çatmasına imkan vardı. Buradan Türküstana hərəkət edilə bilərdi. Dağıstandakı hərbi birliklərin əsas ordudan uzaqlaşmış olduqları da nəzərə alınmamışdır. Çətin bir şəraitdə olan Osmanlı Dövlətinin bu fədakarlığı xüsusilə qeyd olunmalıdır. Bununla bərabər siyasi və eyni millətin övladlarının ortaq mənafeyi baxımından yeni insan mənbələri də əldə edilmiş ola bilərdi. Eyni millətin övladlarının, birlikdə axıtdığı qan Anadolu və Azərbaycan coğrafi məkanlarında yaşayan türk övladları arasında birlik və bərabərliyi də möhkəmləndirmişdi.

İngilislər əvvəlcə Çanaqqalada, ardından Qutda və nəhayət, Bakıda qəhrəman türk silahlı qüvvələri tərəfindən ağır məğlubiyyətə uğramışdı. Azərbaycanda ağır məğlubiyyətə uğrayan General Deustervil, Bakıya getdiyi zaman, bölgədəki ingilis qüvvələrinin beş min nəfərə çatdırılacağını bildirərək, elə Şaumyan kimi, erməni daşnakları və ruslarla birləşərək türklərə qarşı hücuma keçəcəklərini və onları Qara dənizə tökəcəklərini elan etmişdi. Qəhrəman Mehmetçiyi Qara dənizə qədər qovmaq bir yana dursun, türk əsgərinin əzm və iradəsi qarşısında, üstün vəziyyətinə baxmayaraq, Bakını müdafiə etməkdə belə aciz qalan bu general, nə üçün gəldiyini unudaraq, əsgərlərini də götürüb gəmilərlə Cənubi Azərbaycanın işğal altında olan Ənzəli şəhəri istiqamətində qaçmışdır.

İngilislərin planları və əmrləri əsasında hərəkət edən rus kazakı polkovnik Biçeraxov, Deustervil kimi, Kürdəmir və Bakı yaxınlığında uğursuzluğa düçar olmuşdur. Biçeraxov, Bakı və Dərbəndlə Mahaçqala ətrafında bir çox şiddətli döyüşlərə başlamış və hər dəfə də ağır itkilər verərək geri çəkilmişdir. Sonuncu dəfə Tarki dağı və Mahaçqalada qəhrəman məhmətçik tərəfindən mühasirəyə alınmış, ingilis generalı kimi, üstün qüvvələrə baxmayaraq, türklərin cəsarəti və iradəsi qarşısında qəti məğlubiyyətə uğramaqdan yaxa qurtara bilməmişdir. Şimali Qafqaz Respublikasının icazəsi ilə Mahaçqalanı tərk edərək, Xəzər dənizindəki gəmilərə minərək şimala-Rusiyaya çəkilmişdir. Biçeraxov bu yolla özünü və

əsgərlərini xilas etmişdir. Bu surətlə, Azərbaycan kimi qədim türk vətəni olan Dağıstan torpaqları da düşməndən tamamilə təmizlənmişdir.

Bir çox çətinliklərə sinə gərərək və son damla qanını axıdaraq, bu parlaq nəticəni əldə edən qəhrəman türk əsgəri, barışığın ağır şərtləri nəticəsində, özündən asılı olmayaraq bu torpaqları boşaltmaq məcburiyyətində qaldı. Dağıstanda və Azərbaycanda arxasınca gözü yaşlı qardaşlarını, həqiqi türkləri qoyaraq, yenə Qara dəniz sahilinə və buradan da evinə döndü. Anadolu türkləri ilə Qafqaz türklərinin, Azərbaycanın və Dağıstanın müstəqilliyi və gələcəyi üçün etdikləri çətin və qanlı müharibələr, mübarizələr, nəsildən-nəslə yaddaşlara ötürüləcək, unudulmaz bir dastan halında yaşadılacaqdır.

♦

Gənclərin bığ yerləri təzə tərləyirdi. Qanları qaynayar, içərilərindəki coşqu dünyaya sığmırdı. Bir gün təbillər vuruldu və on beşlilər çağırıldı. 1315-lilər də getdi. Bu dəliqanlılar, 15-lilər dünyada tayı-bərabəri olmayan bir yola çıxdılar. Qərar verdilər, and içdilər və sözlərindən bir daha dönmədilər! Ataları, əmiləri, dayıları, hətta anaları ilə birlikdə döyüşdülər, şəhidlik şərbəti içdilər, qazi oldular!

Qəhrəmanlıq irəli atılmaqdır, qəhrəmanlıq dərd çəkməkdir, əsla dönməməkdir! On beşlilərin arxasından ağılar deyildi, nəğmələr söyləndi. Ancaq onlar dönmədilər, çünki növbə onların idi! Mehmetçik Qafqazda yaşayan türklərin harayını eşitdi. Azərbaycanda yaşayan qardaşlarının imdadına çatdı! Al qanını torpağın qara bağrına tökdü, sel kimi! Dönmədi!

**QƏHRƏMANLIQ**

*Qəhrəmanlıq nə yalnız bir yüksəliş deməkdir*
*Nə də ulduzlar kimi parlayıb sönməməkdir.*
*Ölməzliyi düşünmək boşuna bir əməkdir*
*Qəhrəmanlıq şığıyıb, bir daha dönməməkdir.*

*Sızlasa da könlümüz ölənlərin yasından*
*Qoşar addım getməli onların arxasından.*
*Qəhrəmanlıq - içərək acı ölüm tasından,*
*İrəliyə atılıb və sonra dönməməkdir*[3].

Məhmət, nəslin ən kiçik oğlan övladı idi. Bığ yeri təzə tərləyirdi... Vətənin dörd bir tərəfini düşmən bürümüşdü. Böyük qardaşları, əmiləri, əmi oğulları, dayıları və yaşıdlarıyla yan-yana, birlikdə vətənin müdafiəsinə qalxmışdı... Hansı cəbhədə kim qaldı, neçə xain pusquda "vətən sağ olsun" dedi, sayını unutmuşdu. Neçə il döyüşdü, artıq onu da xatırlamırdı. Bir gün silahı yeri qoymasını tələb etdilər, haydı, evə, dedilər.

♦

Sabah ictimasından sonra tövləyə tərəf getdi. Kürən dayça dünən axşamdan narahat idi. Baxmayaraq ki, axşam yemini, suyunu vermişdi, amma yenə də onunla bir az "danışmalıydı".

"Qarabəkir paşa, bu gün kürən dayçaya minmək istəyər" - deyə düşündü.

Növbətçi əsgər onu görən kimi səsləndi:

"Məhmət Onbaşı, Paşanın atı səhərə yaxın heç dayanmadan kişnəyirdi. Sanki ağlayırdı. İstəyirsən baytara xəbər ver".

Kürən ata heç bir şey olmamışdı. Yüyənindən tutdu, açıq havaya çıxarıb bir az gəzdirdi.

Günortadan sonra toplanmaq şeypuru çalındı. Bu, çoxdan bəri görülməyən bir şey idi. Xeyirdir inşallah, deyərək, ictima meydanına doğru tələsdi.

♦

Gecənin qaranlığında yola çıxan qara qatarın çarxları relslərə toxunduqca, çıxardığı səs şirin bir laylanı xatırladırdı... Bir az qulaq asdı. Sonra vaqondakı silahdaşlarına baxdı. Aradan keçən uzun illərin verdiyi hər an tətikdə olma alışqanlığına rəğmən, göz qapaqlarının üstünə çökən ağırlığın verdiyi şirin mürgüyə yenik düşmüşdülər. Bəzən yırğalanaraq, çox zaman sarsılaraq gedən qatarın açıq qapısından bir tül ilə örtülmüş qarşıdakı təpələrə və bədirlənmiş aya baxdı...

Göyçay döyüşlərində şəhid olan yoldaşı Qədir yadına düşdü. Bığırdan Qaraməryəmə gedən yolun iki tərəfində sərp və dik yamaclar vardı. Düşmənin təpədə qurduğu pulemyotlar Mehmetçiyin üzərinə ölüm yağdırırdı. 28-ci batalyonun komandiri İzzət bəy oranın ələ keçirilməsini əmr etmişdi. Dik yamacın başındakı səngərlərə atəş açmağın bir faydası yox idi. Süngü taxıb aşağıdan yuxarıya doğru sürünməyə başladılar. Təpəyə yaxınlaşanda Qədir belindəki əl qumbarasını atəş saçan pulemyot nöqtələrindən birinə tərəf tulladı... Bir müddət sonra çox sevdiyi sirdaşı və silahdaşı Qədirin sinəsi al qana boyanmışdı... Su qabında qalan bir udum suyu, istidən qaynamış bir içimlik suyu, son yolçuluğunda silah yoldaşının dodaqlarına söykəyə bildi...

♦

Amudərya kənarındakı üzü nurlu bir ağsaqqalın hekayəsini ona babası danışmışdı. Günlərdən bir gün ocaqdan olduğunu bildikləri ağsaqqal bir dərviş obaya gəlmişdi. Ağsaqqallar, igidlər, pəhləvanlar, əli qarğı tutanlar, qolu yay çəkənlər hamısı orada idi. Yeniyetmələr belə, o gün at çapmırlar, dayları dördnala qovdurmurdular. Hamısı ağsaqqalın ətrafına toplaşıb, diqqətlə qulaq asırdılar:

"Pirimiz Xoca Əhməd, Oğuz Atanın mirası olan qarğıyı günbatana doğru atdı. Qarğı Rum iqliminə düşdü.

Ağsaqqal dərviş Oğuzun mübarək törəsi deyirdi. Törələr qarşısında hər kəsin boynu qıldan nazikdir. Amma o qızıl qarğı necəydi, nə qədər uzağa çatardı ki? Sonra, Rum iklimi hara idi? Bunu heç biri bilə bilmədi.

Günlər aylar bir-birini əvəz etdi, qara qış hökmünü sürdü, qışın şaxtası çölü bürüdü, sonra qoyunlar quzuladı. Günəş qoç bürcünə girdikdən 10 gün sonra Bəydən dəvət gəldi. Dan yeri ağararkən çadırları söküb dəvələrə yüklədilər. Dərəni, təpəni aşıb ulu dəryanın şimalını dolandılar və Qaf dağına çatdılar... Aylar, illər bir-birini əvəz etdi... Sonra Dərbəndi keçdilər. Çayları, gölləri, dağları, yaylaları, vadiləri aşa-aşa Qarsa çatdılar.

Böyük ağa artıq daha qərbə getmək istəmirdi. Necə də olsa, Amudəryadan yola çıxalı bir neçə nəsil gəlib keçmişdi. Lakin, igidlər istəkli və arzuluydu. Bəziləri qızıl cidanın özləri üçün yeri deşmədiyini söyləyirdilər. Uzun yaylanın şərqində Kanqalın yaxınlığına yerləşdilər. Bulaqlardan doyunca su içdilər. Ovada qışlayıb, yaylaqda dördnala at sürdülər. Rum iqliminin havasını ciyərlərinə çəkdilər. Fəqət daha irəliyə - günbatana doğru getməliydilər. Xınzır dağını aşaraq Beştəpələrin dibindəki Maqsud bulağında yağız atlarını, dəvələrini, qoyunlarını suladılar. Qaratəpənin döşünə qonmağa qərar verdilər...

Məhmət Onbaşının babası atalarının bu uzun yürüşdə neçə gün, neçə ay, neçə il, neçə Novruz Bayramı qarşıladıqlarını bilmirdi. Ancaq bildiyi bir şey vardı, o da 550 ildir Qaratəpənin ətəklərində qışladıqları, Xınzırı dağında yayladıqları idi...

♦

Evə gedirdi, sevinməliydi. Lakin içinə səbəbini bilmədiyi, məchul bir hüzün çökmüşdü, nədənsə ürəyi ağrıyırdı. Kazım paşanın əlini öpərkən sevinclə kədəri bir arada yaşadığı yadına düşdü. İndi də beyni qarmaqarışıqdı, ürəyi əsirdi. Böyük qardaşları Rifat, Yəhya, Əli ilə Bəkiri düşündü. Sonra əmiuşaqları gözlərinin önünə gəldi.

Səfərbərlik zamanı təlim keçəcəkləri kazarmaya getmək üçün Kayseridən ayrılarkən, sarılıb əllərini öpdüyündə, böyükləri bir-bir onu qucaqlamış, alnından öpmüşdülər. Baxmayaraq ki, qardaşları da onun kimi cəbhəyə gedirdilər. Ən böyük qardaşı Rifat onu çox sevirdi. Ayrılarkən Rifat qardaşının, göz yaşlarını zorla saxlamağa çalışaraq, astadan dediyi sözləri xatırladı: "Yavrum, çox kiçiksən"...

Qardaşlarının hansı cəbhəyə getdiyini bilmirdi. Sarıqamışdan sağ-salamat çıxdıqlarından aylar sonra, minbaşı İsmayıl Haqqı bəy Çanaqqalanı ingilislərə dar etdiklərini söyləmişdi. Amma qardaşlarından, dayıları və əmi uşaqlarından, yamacda, çöllükdə, dağın başında novruzgülü topladıqları yoldaşlarından doqquz il idi ki heç bir xəbər tuta bilməmişdi.

"İnşallah, məndən qabaq kəndə dönmüş olarlar" deyə ürəyi döyündü, həyəcanlandı. Dan yeri ağarırdı. Gözləri uzaqlara, düzün ortasında ay işığında qıvrılaraq gedən gümüş parıltısına sataşdı... Bu, Qızıl irmaq olmalı idi.

♦

Qatar platformaya çatana qədər tale yoldaşlarıyla, silahdaşlarıyla bir-bir qucaqlaşdı, halallaşdı. Torbasını vaqonun açıq qapısından bayıra tulladı, ardından da özü atıldı. Bir müddət eləcə qaldı, düşdüyü yerdə... Ayağa qalxıb ətrafına baxdı, gözləriylə üfüqü daradı. Dərindən nəfəs aldı. Baharın ilk yeli Qızılgərişi sarmışdı. Sonra gün çıxana tərəf getməyə başladı. Çaydakı taxta körpünün yalnız daşdan hörülmüş dirəkləri qalmışdı. Çəkmələrini çıxardı, balaqlarını çırmaladı. Çaydan keçərkən belinə qədər suya batdığını gördü. "Deməli, bu il qar çox yağıb" düşündü.

Sonra birdən yadına düşdü, babası Kəbədən qayıdanda iki rükət şükür namazı qılmışdı. Nə də olsa, artıq evə çatmış sayılırdı.

Ardındakı günəş, kölgəsini uzadırdı. Demək, gün günortanı aşmışdı. Qurdağzı qayasına çatanda dayandı. Suluya doğru baxdı, hər yer yamyaşıl idi. Gözləri Maqsud bulağına, oradan Üçbulağa sarı döndü. Belin başı ilə Beştəpələr də yerindəydi...

"Guya hara gedəcəkdilər" deyə öz-özünə çaşdı, heyfsiləndi. Sanki, oradan, uzaqdan onu salamlayırdılar. Sonra, sanki bir qüsur, bir günah işlədibmiş kimi, kimsə görüb ayıb olacaqmış kimi astaca Qaratəpəyə və kəndə tərəf döndü. Uzun-uzadı baxdı. Bir neçə evin üstündən tüstü qalxırdı.

"Təndirləri yandırıblar" deyə düşündü...

Bağlara doğru addımladı.

♦

Çil Fati (Çilli Fatimə) o gün nə içəridə dura bildi, nə də bayırda rahatlıq tapdı. Səhər inəyi sağdıqdan sonra elə hey sağ gözü səyriyirdi. Bu gün niyə bu qədər uzundu, heç keçmək bilmirdi? Başa düşə bilmirdi... Təndiri yandırdı, tüstünün çəkilməsini gözləmək üçün bayıra çıxdı. Çox uzaqdan görünən Xınzırı dağının zirvələrində qar var idi. Neçə vaxt idi ki, yaylağa da çıxmırdılar.

"Hamısı ermənilərə görə" deyə düşündü.

Yamaca doğru baxdı. Beştəpələrdən Kayseriyə doğru uzanıb gedən torpaq yolda toz buludu axtardı, görə bilmədi. Gələn-gedən yox idi. Nə bir maşın, nə bir at arabası, nə də bir atlı... Kamal paşanın maşını da keçmişdi bu yoldan. Bütün kənd əhli Paşa bulağında qarşılamağa getmişdilər. Paşa orada dayanmış, bir qab su içmiş və əl-üzünü yumuşdu... Qarşı yatan qara dağlara döndü. Gün, yavaş-yavaş dağların ardında gizlənməyə hazırlaşırdı...

Birdən qarabaşın mırıldamağa, hürməyə başladığını eşitdi. Təpənin altından uzun boylu, əsmər, pəhləvan cüssəli bir əsgərin addımlayaraq yuxarı doğru

çıxdığını gördü. Gün arxasından düşürdü, üzünü seçə bilmədi. Amma, birdən ürəyinin atlandığını hiss etdi, sanki boğazında bir yumruq düyünlənmişdi.

"Məmədim" deyə bildi.

Qucağına alıb bələdiyi, ağ südündən doya-doya əmizdirdiyi balasını bağrına basdı, uzun-uzadı qoxladı. Ana-oğulun göz yaşları sel olub axdı...

Məhməd Onbaşı, aradan nə qədər vaxt keçdiyini bilmirdi. Uşaqların səs-küyündən özünə gəldi. Ətrafında fırlanır, əlinə-ayağına dolaşır, ataları səfərbərlikdən qayıdıbmış kimi ağlaşırdılar, sual dolu nəzərlərlə baxırdılar... Uşaqlardan nisbətən böyüyü, yaşıl gözlərini ona dikmişdi, ümid dolu baxışlarla süzdü, titrək bir səslə:

"Mən Əhmədəm, Rifatın oğlu"... deyə bildi.

Böyük qardaşı Rifatın oğlu Əhməd... Səfərbərliyə gedərkən Əhməd hələ 4-5 yaşlarındaydı... O birilərin adını bilmədi, unutmuşdu...

Hacı Nəbi əmi məsciddən qayıdarkən evin qarşısında bir çaxnaşma olduğunu gördü. Öz-özünə "xeyirdir inşallah" deyərək, əsasını möhkəm tutdu, addımlarını yeyinlətdi. Uşaqların şən çığır-bağırının sevincdən olduğunu anlayaraq, rahat nəfəs aldı... "Nə əcəb muştuluq almağa gələn olmadı" deyə düşündü... Məhmət Onbaşı, atasının əlini öpdü, alnına qoydu. Nəbi əmi qəhrəman oğlunun çiyinlərindən tutdu, ilk dəfə görürmüş kimi əvvəlcə səma kimi mavi gözlərinə, sonra günəşdən, küləkdən yanmış çöhrəsinə baxdı. Sonra alnından öpdü, bağrına basdı, uzun müddət belə qaldı, səssizcə:

"Buna da şükür" dedi.

Hacı Nəbi əminin gözlərindən axan iki damla yaşın, ağ saqqalından süzüldüyünü, Məhmət Onbaşıdan başqa kimsə görmədi... Deməli, qardaşlarından evə dönən olmamışdı...

Qoyub getdikləri uşaqlar böyümüş, yetkinləşmişdi. Oğlanlar işə-gücə yarayan yaşa, qızlar isə hardasa gəlinlik yaşına çatmışdılar. Bunlara ana-ata olmaq lazım idi... Elə də etdi. Atalarının 550 il yaşadığı dərələrdə, vadilərdə, təpələrdə, yana-yana su içdikləri bulaqların başında, əkib-biçdikləri torpaqlarda həyat, heç nəyə baxmayaraq, davam etməliydi...

♦

Kəndin ağsaqqalları, qazilər, adsız qəhrəmanlar, qarlı qış günlərində otaqdakı taxtın üstündə cərgə-cərgə oturar, maraqlı söhbətlər edərdilər. Müharibə günlərini yad edərdilər. Nəvələr isə təzəyin isitdiyi sac sobanın yanında onları diqqətlə dinləyərdilər. Heç biri yatmaq istəməzdi.

Məhmət Onbaşı, söhbətin şirinləşdiyi, xatirələrin canlandığı günlərdə, Soğanlı dağlarını, Göyçayı, Şamaxını, Qubanı, Qarabağı yada salardı. Bakının qurtuluşundan böyük bir zövqlə söz açardı. Amuderyadakı dərvişin ətrafına yığışan igidlər kimi, Məhmət Onbaşının nəvələri də bu yerləri heç tanımırdılar,

görməmişdilər. Amma babalarına inandılar. İngilislərə necə qalib gəldiklərini, bolşevikləri və erməniləri necə məğlub etdiklərini, şəhidləri Çəmbərəkənddə torpağa tapşırdıqlarını... Sonra təşkil olunan mərasimdə Nuru paşanın ona onbaşı rütbəsi verəndə keçirdiyi hissləri... Rütbəni qoluna taxdıqdan sonra, manqasının başında Bakı sahilində gəzdiklərindən də söz açmışdı...

Qaşlarını qaldırıb, səma kimi mavi gözlərilə nəvələrinə baxdıqdan və ağ saqqalını sığalladıqdan sonra bir az yüksək səslə belə demişdi:

***"Türk övladı dövlətinə bağlı, millətinə sadiq olar."***

1. Məmmədəmin Rəsulzadə, Qafqaz konfederasiya hərəkatı, "Qafqaz, Sentyabr-Oktyabr 1951, s. 3.
2. Xəritə 18.
3. Hüseyn Nihal Atsız, Yolların sonu, İstanbul, 1978.

## ƏDƏBİYYAT


- Qafqaz Ordusunun General Harbord rəyasətindəki Amerikan heyətinə təqdim etdiyi "I Qafqaz korpusunun 1334-cü ildəki hərəkatı haqqında müşahidələr raportu, 15-ci korpus mətbəəsi, Ərzurum, 1335.
- A. Şəmsutdinov, Qurtuluş savaşı illərində Türkiyə-SSRİ əlaqələri, Cümhuriyyət nəşriyyatı, İstanbul 2000.
- "Açıq Söz qəzeti, 27.12.1917.
- Aslan Özmən, Bir "Müstəqil dövlətlər birliyi ölkəsi: Azərbaycan gündəlikləri (1991-2004), Bakı, 2004.
- Aka İsmayıl, Teymurilər tarixi, İstanbul, 1994.
- Akdes Nemət Kurat, IV-XVIII əsrlərdə Qara dənizin şimalındakı türk qövm və dövlətləri, Türk Tarix Qurumu nəşriyyatı, Ankara, 1972.
- Akdes Nemət Kurat, Türkiyə və Rusiya, Ankara, 1990.
- Albay Hüsaməddin Ərtürkün xatirələri, İki dövrün pərdə arxası, (nəşrə haz. Samih Nafiz Tansu), - İstanbul, 1957.
- Alxan Bayramoğlu, Qafqazın imdadına çatan türkün könül nəğmələri, Bakı, 2000.
- Aydın Taneri, Cəlalüddin Xarəzmşah və dövrü, Ankara, 1977.
- "Azərbaycan qəzeti, 27 Təşrini-əvvəl 1918.
- "Azərbaycan qəzeti, 15 Sentyabr 1919.
- "Bəsirət qəzeti, N-219.
- Birinci Dünya hərbində Türk hərbi. Qafqaz cəbhəsi, III ordu hərəkatı, I c., Genelkurmay mətbəəsi, Ankara, 1993.

- Birinci Dünya hərbində Türk hərbi. Qafqaz cəbhəsi. III ordu hərəkatı, II c, Genelkurmay mətbəəsi, Ankara, 1993.
- Birinci Dünya hərbində Türk hərbi, Dəniz hərəkatı, VIII c, Genelkurmay mətbəəsi, Ankara.
- Əhməd Ardel, Türklərin yer üzündə yayılışı və yerləşdikləri sahələrin coğrafi xüsusiyyətləri, Konfranslar, İ (1964), Ankara, 1965.
- Əli Fəthi Okyar, Üç dövrdə bir adam, İstanbul, 1980.
- Əli Fuad Türkgəldi, Görüb eşitdiklərim, Türk Tarix Qurumu nəşriyyatı, Ankara, 1951.
- Əziz Samih, Böyük hərbdə Qafqaz cəbhəsi xatirələri, Böyük ərkanı-hərbiyyə mətbəəsi, Ankara, 1934.
- Faxir Armaoğlu, 20-ci əsr siyasi tarixi (1914-1980), Türkiyə İş Bankı nəşriyyatı, Ankara, 1983.
- Faruq Sümer, Qaraqoyunlular, I c, Türk Tarix Qurumu nəşriyyatı, Ankara, 1967.
- Fəxri Belen, Birinci cahan hərbində türk hərbi, 1914-cü il hərəkatları, I c, Ankara, 1964.
- General Denstervil, Britaniya İmperatorluğu, Bakı və İran (1917-1918), Tiflis, 1925.
- Houstma, İraq və Xorasan Səlcuqluları tarixi, (tərc. Qıvaməddin Burslan), Maarif Mətbəəsi, İstanbul, 1943.
- Hüsaməddin Tuğaç, Bir nəslin dramı, Mars mətbəəsi, Ankara, 1966.
- Hüseyn Nihal Atsız, Yolların sonu, İstanbul, 1978.
- Xəlil İbrahim Göytürk, Bilinməyən tərəfləri ilə Şövkət Sürəyya Aydəmir, Ankara, 1977.
- İhsan İlqar, Rusiyada İ. Müsəlman Konqresi. Kültür Bakanlığı nəşriyyatı, Ankara, 1990.
- İslam Ensiklopediyası, "Azərbaycan maddəsi, Təhsil Nazirliyi nəşriyyatı, II c, İstanbul, 1979, s. 91-117.
- İslam Ensiklopediyası, "Azərbaycan maddəsi, Diyanət Vəqfi nəşriyyatı, IV c, İstanbul, 1991, s. 317-321.
- İsmayıl Berkok, Böyük hərbdə Şimali Qafqazdakı fəaliyyətlərimiz, 15-ci firqənin hərəkatı və döyüşləri, 94 saylı "Hərbi məcmuənin 44 saylı tarix qismi, Hərbi mətbəə, İstanbul, 1934.
- İsmayıl Qayabalı, Camandar Arslanoğlu, Orta Asiya türklüyünün tarixi və bugünkü durumu, Kömən nəşriyyatı, Ankara, 1978.
- İsmayıl Musayev, Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921), Bakı, 1998.
- "İstiqlal qəzeti, N-9, 1919.

- Mehman Süleymanov, Azərbaycanda türk şəhidlikləri, Hərbi nəşriyyat, Bakı, 2000.
- Mehman Süleymanov, Qafqaz İslam Ordusu və Azərbaycan, Hərbi nəşriyyat, Bakı, 1999.
- Məhməd Altay Köymən, Alp-Arslan və dövrü, Ankara, 1983.
- Məhməd Altay Köymən, Toğrul bəy və dövrü, İstanbul, 1976.
- Məmmədəmin Rəsulzadə, Azərbaycan Cümhuriyyəti, Bakı, 1990.
- Məmmədəmin Rəsulzadə, Qafqaz konfederasiya hərəkatı, "Qafqaz, Sentyabr-Oktyabr 1951.
- Miralay Baqi, Böyük hərbdə Qafqaz cəbhəsi, I-II c, Hərbi mətbəə, İstanbul, 1933.
- Mirzəbala Məmmədzadə, Milli Azərbaycan hərəkatı, Ankara, 1991.
- Musa Qasımlı, Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, I hissə, Bakı, 2000.
- Münir Aktəpə, 1720-1724-cü illərdə Osmanlı-İran münasibətləri və Silahşör Kəmani Mustafa Ağanın "Rəvan Fəthnaməsi, İstanbul, 1970.
- Nağı Şeyxzamanlı, Azərbaycan istiqlal mücadiləsi xatirələri, Bakı, 1997.
- Nasir Yücəər, Birinci Dünya savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan hərəkatı, Ankara, 1996.
- Nizaməddin Xəlil Onk, Yeni Azərbaycan Cümhuriyyəti qurularkən. "Türk dünyası tarix dərgisi, 1992,
- Rüşdü, Böyük Hərbdə Bakı yollarında 5-ci Qafqaz piyada firqəsi, 93 saylı "Hərbi məcmuənin 34 saylı tarix qismi, Hərbi mətbəə, İstanbul, 1934.
- Səlahəddin Tansel, Mudrosdan Mudaniyaya qədər, I c, Ankara, 1977.
- Süleyman İzzət, Böyük hərbdə 15-ci piyada tüməninin Azərbaycan və Şimali Qafqazdakı hərəkat və döyüşləri, 103 saylı "Hərbi məcmuənin 44 saylı tarix qismi, Hərbi mətbəə, İstanbul, 1936.
- Şərif Bəy, Birinci Dünya savaşı başlanğıcında III ordu, Sarıqamış mühasirə manevri və meydan savaşı, İstanbul, 1921.
- Şövkət Sürəyya Aydəmir, Makedoniyadan Orta Asiyaya Ənvər paşa, III c, İstanbul, 1995.
- Şövkət Sürəyya Aydəmir, Suyu axtaran adam, Rəmzi nəşriyyatı, İstanbul, 1979.
- Tarıq Zəfər Tunaya, Türkiyədə siyasi partiyalar, İkinci Məşrutəçilik dövrü, I c, 1988.
- Taylan Sorgun, Xəlil paşa, İttihad və Tərəqqidən Cümhuriyyətə bitməyən savaş, İstanbul, 1997.
- "Təqvimi-vəqaye, II tərtib düstur, I c, N-194, 15 Aprel 1325.
- "Təqvimi-vəqaye, II tərtib düstur, I c, N-321, 22 Avqust 1325.

- Təhsin Ünal, Türk siyasi tarixi, Ankara, 1978.
- Təyyar Bilən, Qafqaz hərəkatı və Bakının qurtarılması, "Azərbaycan dərgisi, 1990.
- Timurbek Dövlətşin, Sovet Tatarıstanı, (tərc. Mehmet Əmircan), Kültür Bakanlığı nəşriyyatı, Ankara, 1981.
- Türk İstiqlal hərbi, I c, Mudros mütarikəsi və tətbiqatı, Genelkurmay mətbəəsi, Ankara, 1962.
- V. E. D. Allan, P. Muradov, Türk-Qafqaz sərhədindəki müharibələrin tarixi (1828-1921), Genelkurmay mətbəəsi, Ankara, 1966.
- Yılmaz Öztuna, İslam Dövlətləri, I c., Ankara, 1989.
- Yusif Halacoğlu, Osmanlı Dövləti nədən təhcir tətbiq etdi? Təhcir haqqında həqiqətlər və Osmanlının son dövründə ermənilər, Ankara, 2002.
- Yusif Hikmət Bayur, Türk inqilabı tarixi, III c., III qisim, Türk Tarix Qurumu nəşriyyatı, Ankara, 1991.
- Yusif Hikmət Bayur, Türk inqilabı tarixi, III c, IV qisim, Türk Tarix Qurumu nəşriyyatı, Ankara, 1991.
- Yusif Hikmət Bayur, Türkiyə Dövlətinin xarici siyasəti, Türk Tarix Qurumu nəşriyyatı, Ankara, 1973.
- Yüzbaşı Səlahəddinin romanı, (nəşrə haz. İlxan Səlcuq), İstanbul, 1984.
- Ziya Göyalp, Türkçülüyün əsasları, (nəşrə haz. Mehmet Qaplan). Kültür Bakanlığı nəşriyyatı, Ankara, 1976.

# ƏLAVƏLƏR

## ƏLAVƏ 1

Xalq Komissarları Sovetinin sədri Lenin və Millətlər Komissarı Stalinin Rusiya və Şərqin əməkçi müsəlmanlarına müraciəti
(3 dekabr 1917)

Yoldaşlar, qardaşlar!

Rusiyada böyük hadisələr cərəyan etməkdədir. Başqalarının ölkələrini bölüşdürmək üçün başladılan qanlı müharibə sona yaxınlaşmaqdadır. Bütün dünya millətlərini boyunduruq altına almış olan bütün yırtıcıların hakimiyyət və səltənətləri yıxılmaqdadır. Köhnə məhkumiyyət və zülm idarələri rus inqilabının zərbələri altında çatlamışdır. Cəbr və təhəkküm dünyası son günlərini yaşayır. Yeni bir dünya - əməkçilərin və azadlıq istəyənlərin dünyası doğulur. Bu inqilabın lideri Rusiyanın fəhlə və kəndli hökuməti - Xalq Komissarları Sovetidir.

Fəhlə, kəndli və əsgərlərin təmsilçiləri olan inqilab sovetləri bütün Rusiyaya yayılmışdır. Ölkədə hakimiyyət xalqın əlindədir. Rusiyanın əməkçi xalqının bir tək

arzusu vardır: şərəfli bir sülhə imza atmaq və bütün dünyadakı məhkum millətlərin müstəqilliklərini əldə etmələrinə kömək göstərmək.

Rusiya bu müqəddəs işdə yalnız deyildir. Rus inqilabından qopan qurtuluş dəvəti qərbin və şərqin bütün əməkçiləri tərəfindən dəstəklənməkdədir. Avropanın savaşdan yorulan xalqı, sülh üçün əlini uzatmaqdadır. Qərbin fəhlələri və əsgərləri, sosializm bayrağı altında imperializmin qalalarına hücuma keçir. Uzaq Hindistan - əsrlərdən bəri Avropalı yırtıcılar tərəfindən əzilməkdə olan Hindistan öz imkanları ilə sovetlər təşkil etmək və mənfur köləlik zəncirlərini qırmaq surəti ilə üsyan bayrağını qaldırmışdır və şərqin əzilmiş millətlərini qurtuluş savaşına dəvət etməkdədir.

Kapitalizmin köləlik və talan səltənəti yıxılır. Alçaq imperialistlərinin ayaqlarının altındakı bünövrələr çökür.

Bu böyük hadisələr qarşısında biz, Rusiyanın və şərqin məhkum zəhmətkeşlərinə səslənirik.

Rusiya müsəlmanları, Volqa boylarının, Krımın tatarları, Sibir və Türküstan qırğızları, Zaqafqaziya türk və tatarları, Qafqaz çeçenləri və dağlılar, zalım rus çarları tərəfindən məscidləri, minbərləri dağıdılan, dinləri və adətləri tapdalananlar - biz sizə müraciət edirik.

Bundan belə sizin əqidə və adətləriniz, milli və mədəni qurumlarınız azad və hər cürə təcavüzdən uzaq olacaqdır. Yəni milli həyatınızı azad bir surətdə və bildiyiniz kimi qurun. Sizin buna haqqınız var. Bilin ki, sizin də, Rusiyada yaşayan digər millətlərin də haqları inqilabın gücü və onun təmsilçisi olan fəhlə, kəndli və əsgər deputatları sovetləri tərəfindən qorunmaqdadır.

İnqilaba və onun hökumətinə yardım edin.

Ey şərq Müsəlmanları, farslar, türklər, ərəblər, hindlilər, əsrlərdən bəri həyatları, malları, azadlıqları və vətənləri Avropalı alçaq tacirlərin malına çevrilən və müharibəyə başlayan qəsbkarlar tərəfindən ölkələri bölüşdürülmək istənən hər kəs:

İstanbulu ələ keçirmək üçün taxtdan salınan çar tərəfindən bağlanan və Kerenski tərəfindən təsdiq edilən gizli müqavilələrin bundan sonra hökmsüz olduğunu elan edirik. Rusiya Respublikası və onun hökuməti olan Xalq Komissarları Soveti, xarici ölkələrin işğalına qarşıdır. İstanbul Müsəlmanların əlində qalmalıdır.

İranın bölüşdürülməsi haqqındakı müqavilə də cırılıb atılmışdır. Hərbi hərəkat qurtaran kimi əsgərlər İrandan çıxarılacaq və İran xalqına öz müqəddəratını təyin etmə haqqı veriləcəkdir.

Türkiyənin bölüşdürülməsi və ondan Ermənistanın qoparılması haqqındakı müqavilənin də cırılıb atıldığını elan edirik. Hərbi hərəkat qurtaran kimi, ermənilərə öz siyasi gələcəklərini sərbəst təyin etmək haqqı veriləcəkdir.

Rusiyadan və onun inqilab hökumətindən sizə qorxu və pislik gəlməz; qorxu və pislik vətəninizi talan edərək müstəmləkə halına gətirən alçaq Avropa imperialistlərindən gəlir.

Məmləkətinizə köləlik gətirən bu qəsbkarları dəf edin. Müharibələrin köhnə dünyanın təməllərini sarsıtdığı, imperialistlərə qarşı bütün dünyada alovlanan nifrət atəşinin hər qığılcımının inqilabın gücü ilə bir alov halına gəldiyi, xaricilərin əsarət boyunduruğu altında əzilib inləməkdə olan Hindistanlı müsəlmanların öz zalım müstəbidlərinə qarşı ayaqlandıqları bir vaxtda susmaq olmaz. Vaxt itirməyin və məmləkətlərinizi əsrlər boyu qəsb etmiş olanları boynunuzdan atın. Öz ocağınızın talan edilməsinə imkan verməyin. Öz ölkənizə özünüz sahib olun. Həyat və məişətinizi öz arzu və ehtiyaclarınıza görə qurun. Sizin buna haqqınız var, çünki müqəddəratınız öz əlinizdədir.

Yoldaşlar, qardaşlar!

Ədalətli və demokratik bir sülhə doğru sərt və qərarlı addımlarla yürüyək.

Biz, bayrağımızla bütün dünyanın məzlum xalqlarına azadlıq aparırıq!

Rusiya müsəlmanları!

Şərq müsəlmanları!

Yeni dünyaya aparan bu yolda sizdən bizi başa düşməyinizi və yardım gözləyirik.

Xalq Komissarları Sovetinin sədri Ulyanov **(Lenin)**

Millətlər Komissarı Cuqaşvili **(Stalin)**

## ƏLAVƏ 2

Azərbaycan ilə Osmanlı Dövləti arasındakı müqavilə

(Xarici İşlər Nazirliyi arxivi, 560 nömrəli qutu)

**Bismillahirrəhmanirrəhim**

Osmanlı Səltənəti Hökuməti ilə Azərbaycan Cümhuriyyəti Hökuməti arasında bağlanan yoldaşlıq müqaviləsi

Bir tərəfdə Osmanlı hökuməti, digər tərəfdə axır zamanda istiqlalını elan edən Azərbaycan Cümhuriyyəti hökuməti siyasi, hüquqi, iqtisadi və fikri sahələrdə məmləkətləri arasındakı münasibətləri dostluq və qonşuluq zəminində təsis etmək xüsusunda ittifaq elədiklərindən, nümayəndələri olmaq üzrə:

Osmanlı Dövləti

Ədliyyə naziri və Dövlət Şurası rəisi **Xəlil bəy əfəndi** həzrətləri ilə

Qafqaz cəbhəsi Osmanlı orduları komandanı General **Vəhib paşa** həzrətlərini

Və

Azərbaycan Cümhuriyyəti hökuməti

Xariciyyə naziri **Məmməd Həsən Hacınski** həzrətləri ilə

Milli Məclis rəisi **Rəsulzadə Məmməd Əmin** bəy əfəndi həzrətlərini

təyin etmişlər və adları çəkilən şəxslər üsula uyğun olaraq tərtib edilən rüsxətnamələrini qarşılıqlı olaraq təqdim etdikdən sonra, aşağıdakı maddələri qərarlaşdırmışlar:

*Birinci maddə*

Osmanlı hökuməti ilə Azərbaycan Cümhuriyyəti hökuməti arasında daimi sülh və istiqrarlı dostluq hökm sürəcəkdir.

*İkinci maddə*

Aşağıdakı sərhəd xətti Osmanlı məmləkəti ilə Azərbaycan, Gürcüstan və Ermənistan cümhuriyyətlərinin ərazilərini ayırmaqdadır:

Sərhəd Qara dənizdə Çolok çayı mənsəbindən başlayaraq Şavnabud dağına qədər 93 (1877-1878) hərbindən əvvəlki sərhəd xətti üzrə uzanır, Şavnabud dağından sonra isə zirvələrdən keçərək Xalxama dağına, oradan Meziksaru dağına gəlir, buradan cənuba dönərək Yirsədağ dağından və Abatumanın iki kilometr cənubundan keçir, buradan şimal-şərqə keçərək Karhul dağına və oradan beş kilometr şimal-şərqə, sonra cənub-şərqə dönərək Gürqal üzərindən Atsxorun iki kilometr cənubundan Kür çayını keçər və zirvələr üzərindən Qayabağı, Artatavı dağlarının zirvəsinə gəlir, buradan sonra yenə zirvələr üzərindən Qaraqaya dağından Molita kilsəsinin cənubunda Tapisxurska gölünə çatır. Molita monastırının cənubundan qarşı sahildə gölün şimal ucunun bir kilometr yarım cənub-şərqindəki nöqtəyə uzanan xəttin cənubundakı qisim Osmanlıda qalmaq üzrə, bu gölü keçərək Tavkutalı dağına gəlir. Burdan cənuba enərək Şavnabud-Qaraquzu-Samsal dağlarının zirvəsinə gəlir. Sərhəd xətti bundan sonra zirvələrdən keçərək Başqıran, Nurrəhman dağından sonra cənub istiqamətində irəliləyərək və daim zirvə nöqtələrindən keçərək, Ağbulaq mövqeyinin beş kilometr qərbində Aleksandropol-Tiflis dəmiryolunu kəsir. Burada yenə zirvə nöqtələrdən keçərək Xanvəli mövqeyinə gəlir. Xanvəli mövqeyindən sonra bir müstəqim xətt istiqamətində Alagöz dağının ən yüksək nöqtəsinə və yenə bir müstəqim xətt halında Ezmiədzinin yeddi kilometr qərbində Ezmiədzin-Sərvərabad yoluna çatır. Ezmiədzinin yeddi kilometr ətrafında dolaşaraq və Aleksandropol-Culfa dəmiryolunun təqribən altı kilometr şimalından, bu dəmiryolu xəttinə gələn yolu kəsir. Sərhəd xətti bundan sonra cənub-şərqə dönərək Aşağı Qarabağlar kəndinin bir kilometr qərbindən Şaqablı, Qaraxaz, Aşağı Çanaqçı mövqeyindən keçərək Alpinçaya çatır və bu çayı izləyərək Arpa mövqeyinə gəlir. Arpadan sonra sərhəd xətti şərq istiqamətindən Arpaçayını təqib edərək Qayalı mövqeyinə və Qaya çayını izləyərək Reliyan çayı vadisinə gəlir və bu çayın yatağını izləyərək Aza mövqeyinin cənubundan Alıcın mövqeyində əvvəlki Rus-İran sərhədinə çatar.

*Üçüncü maddə*

Azərbaycan Cümhuriyyəti hökuməti ilə Ermənistan Cümhuriyyəti hökuməti arasında sərhədin təyini üçün tərtib olunan protokol Osmanlı hökumətinə təbliğ ediləcək və o protokol, bu maddənin ayrılmaz bir parçasını təşkil edəcəkdir.

*Dördüncü maddə*

Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən tələb hasil olduğu təqdirdə, Osmanlı hökuməti, daxili intizam və asayişin təmini üçün, gərəkli silahlı qüvvəylə yardım edəcəkdir.

*Beşinci maddə*

Azərbaycan Cümhuriyyəti hökuməti, sərhədləri daxilində heç bir qruplaşmanın təşkilinə və silahlanmasına imkan verməməyi və sərhədini keçən bütün qrupları tərksilah edərək dağıtmağı vəd edir.

*Altıncı maddə*

Müqavilənin tərəfləri, endirimli tariflər tətbiq etmək surəti ilə, dəmiryolu nəqliyyatı barəsində bir-birlərinə mümkün olduğu qədər yardım edəcəklər.

Xüsusilə dəmiryollarının inşası, işlədilməsi, müntəzəm təmiri yaxud digər faydalı işlərin hamısı üçün lazım gələn avadanlıqların nəqli üçün xüsusi endirimli tariflər tətbiq ediləcəkdir. Hər iki tərəfə aid dəmiryollarında mütəhərrik avadanlıqların mübadiləsi, beynəlxalq qaydalara uyğun bir şəkildə icra ediləcəkdir. Hər iki tərəf, bu xüsusda detalları müəyyənləşdirmək üçün tezliklə müzakirəyə başlayacaqdır.

*Yeddinci maddə*

Dövləti-Aliyyəyi-Osmaniyyə ilə Azərbaycan Cümhuriyyəti hökuməti arasında daha əvvəl heç bir əhdnamə, müqavilə, etilafnamə və sair mövcud olmadığından, hər iki tərəf bir şəhbəndərlik müqavilənaməsi ilə bir ticarət əhdnaməsi və hüquqi və iqtisadi münasibətlərin nizamlanması üçün lazım gələn digər sənədləri tərtib etmək barədə razılığa gəlmişdir.

Şəhbəndərlik müqavilənaməsi, bu müqavilənin təsdiqnamələrinin qarşılıqlı olaraq təqdimi tarixindən etibarən iki il ərzində təsdiq ediləcəkdir. Aradakı müvəqqəti dövrdə hər iki tərəfin baş şəhbəndərləri, şəhbəndərləri və şəhbəndər vəkilləri imtiyaz və məsuliyyətlərində ümumi dövlətlər hüququ əsaslarına uyğun və millətin mənafeyinə ən münasib şəkildə hərəkət edəcəklər. Yenə dövlətlər hüququ prinsiplərinə uyğun bir ticarət əhdnaməsinin tərtib edilməsi üçün müzakirələr, bir tərəfdə Osmanlı Dövləti və digər tərəfdə hərb halında olan dövlətlər arasında, sülhün təminindən sonra başlayacaqdır. O vaxta qədər və hər surətdə 1335-ci ilin dekabr ayının 31-ci gününə qədər bu müqaviləyə rəbt edilmiş bir nömrəli əlavə, hər iki tərəfdə tətbiq olunacaqdır. Bu əlavənin ləğvi 30 iyun 1335 tarixindən etibarən elan oluna bilər və bunun nəticəsi altı ay sonra tətbiq edilə bilər. Quru yolu ilə ticarət, bu müqavilənin təsdiqnamələri qarşılıqlı surətdə təqdim edildiyi andan etibarən başlayacaqdır.

*Səkkizinci maddə*

Müqavilə tərəflərindən birinə mənsub əhalidən, sərhədin digər tərəfində yerləşən daşınmaz əmlak üzərində sahiblik və faydalanma haqqı olanların, bunlardan faydalanmağa, bunları işlətməyə və yaxud kirayə verməyə, bunları idarə, yaxud şəxsən və ya vəkilləri vasitəsi ilə satmağa haqları olacaqdır.

Dövlətin mənfəəti olmadan və əvvəlcədən təzminat verilmədən, heç kəs daşınmaz malları üzərindəki sahiblik haqqından məhrum edilə bilməz. Əhali və nahiyələrin vəkilləri, yerləşdikləri məhəllənin rəsmi məmuru tərəfindən verilən və qarşı tərəfin təsdiqlədiyi yol vəsiqələrini göstərərək, sərhədin qarşı tərəfinə sərbəstcə keçə biləcəklər.

Bu hökmlərin təfərrüatları, bu müqavilənin iki nömrəli əlavəsində göstərilmişdir.

*Doqquzuncu maddə*

Azərbaycan Milli Hökuməti beynəlxalq poçt və teleqraf ittifaqı müqaviləsinə qoşuluncaya qədər, Osmanlı Dövləti ilə Azərbaycan Cümhuriyyəti hökuməti arasında poçt və teleqraf işləri, bu müqavilə təsdiqnamələrinin qarşılıqlı təqdimindən etibarən, beynəlxalq Poçt və teleqraf ittifaqının müqavilə və nizamnamələrinə uyğun bir şəkildə təsis ediləcək.

*Onuncu maddə*

Brest-Litovskda Osmanlı Dövləti və müttəfiqləri ilə Rusiya arasında bağlanan müştərək sülh müqaviləsinin hökmlərindən, bu müqaviləyə zidd olmayanlar, hər iki tərəf üçün qüvvədə olacaq.

*On birinci maddə*

Bu müqavilə təsdiq olunacaq və təsdiqnamələri bir ay içində, yaxud mümkün olan ən qısa müddətdə Dərsəadətdə qarşılıqlı olaraq tərəflərə təqdim ediləcək. Nümayəndələr, bu müqaviləni imza və möhürləri ilə təsdiq etmişdir.

4 iyun 1334 (1918)

| | |
|---|---|
| **Məmməd Həsən Hacınski** | **Xəlil** |
| **Məmməd Əmin Rəsulzadə** | **Vəhib** |

## ƏLAVƏ 3

Azərbaycan Cümhuriyyəti ilə müqaviləyə əlavə

**Bismillahirrəhmanirrəhim**

Osmanlı Hökuməti ilə Azərbaycan Cümhuriyyəti Hökuməti müharibədən irəli gələn və onları birbaşa maraqlandıran bəzi hərbi məsələləri həll etmək arzusunda olduqlarından bir müqavilə bağlamağı qərara almışdır. Bunun üçün nümayəndələri olmaq üzrə

Osmanlı Dövləti

Ədliyyə naziri və Dövlət Şurası rəisi **Xəlil bəy əfəndi** həzrətləri ilə

Qafqaz cəbhəsi Osmanlı orduları komandanı General **Vəhib paşa** həzrətlərini

Və

Azərbaycan Cümhuriyyəti hökuməti Xariciyyə naziri **Məmməd Həsən Hacınski** həzrətləri ilə

Milli Məclis rəisi **Rəsulzadə Məmməd Əmin** bəy əfəndi həzrətlərini təyin etmişlər və adları çəkilən şəxslər üsula uyğun olaraq tərtib edilən rüsxətnamələrini qarşılıqlı olaraq təqdim etdikdən sonra, aşağıdakı maddələri qərarlaşdırmışlar:

*Birinci maddə*

Azərbaycan Cümhuriyyəti hökuməti, Osmanlı Dövləti və ya müttəfiqləri ilə müharibə şəraitində olan dövlətlərin və ya onlarla ittifaq halındakı dövlətlərin zabit və mülki məmurlarını sərhədlərindən uzaqlaşdırmağı və müharibə davam etdiyi müddətcə bu kimi şəxsləri ordu və hökumət xidmətinə qəbul etməməyi vəd edir.

*İkinci maddə*

Azərbaycan Cümhuriyyəti hökuməti, müştərək sərhədi üzərində Osmanlı ordusunun hər cürə hərbi daşıma (birliklər, əlavə qüvvələr, əşya və savaş alətləri, cəbbəxana və sairə) həyata keçirməsinə izin verəcək.

*Üçüncü maddə*

1. Osmanlı ordusu tərəfindən təyin olunacaq bir komissiya, Azərbaycan Cümhuriyyəti hökumətinin təyin edəcəyi komissiya ilə müştərək olaraq, Azərbaycan sərhədinin maksimum imkanlarına görə, yuxarıda zikr edilən hərbi daşımanın əsaslarını və təfərrüatını müəyyənləşdirəcək. Bu daşıma, Osmanlı komissiyası rəisinin, Osmanlı Ordu komandanlığından alacağı əmrlərə görə verəcəyi təlimatlar istiqamətində, Azərbaycan dəmiryolu idarəsinin məmurları və texniki imkanları vasitəsiylə icra olunacaq.

2. İki tərəfin dəmiryolu komissiyalarının müştərək təyin edəcəkləri mühüm stansiyalarda, daşınan Osmanlı birliklərinin iaşə və istirahətinin təmin edilməsi və daşıma haqqında tərtib edilən səfər cədvəli və təlimatının Osmanlı ordusu mənsublarına çatdırılmasından məsuliyyət daşıyan Osmanlı zabitinə, lazım gələn qədər məmur və köməkçilər veriləcək. Bu zabit, stansiya məmurlarının işlərinə müdaxilə etməyəcək. Daşınan Osmanlı birliklərinin iaşəsi üçün, adı çəkilən zabitin lazımi yerlərdə görəcəyi işlərə Azərbaycan hökuməti yardım edəcək.

3. Adı çəkilən komissiyalar, bu müqavilənin imzalandığı tarixdən ən gec bir həftə sonra, hələlik Gəncədə çalışmağa başlayacaqlar. Azərbaycan dəmiryolu idarəsi bu vaxta qədər dəmiryolu komissiyalarına lazım olan məlumatları, xüsusilə sərhəddəki mütəhərrik avadanlıqların miqdarı ilə sərhəddəki vəziyyət haqqında lazım gələn məlumatları toplamış və bildirmiş olacaq.

4. Azərbaycan Cümhuriyyəti hökuməti, həm dəmiryolu xəttini, həm də dəmiryolunun sabit və mütəhərrik avadanlıqlarını hər zaman saz vəziyyətdə saxlamağı və bunları hər cür xətərdən qorumağı, ortaya çıxan problemləri mümkün olduğu qədər tez aradan qaldırmağı vəd edir.

5. Azərbaycan Cümhuriyyəti hökuməti, öz istəyi xilafında hər hansı bir qəsdin itki və dağıntıya yol açmamağı üçün, Osmanlının daşımanı həyata keçirdiyi nöqtələri hərbi birliklərlə mühafizə edəcəkdir. Bu mühafizə sərhədin hər hansı bir yerində, hər hansı bir səbəblə Azərbaycan hökuməti üçün mümkün olmaqda, bu işi Osmanlı ordusu öz üzərinə götürəcəkdir.

6. Osmanlı ordusu, hərbi daşımaların miqyası ölçüsündə, Azərbaycan sərhədləri daxilində bu hökumətin hər cürə daşımalarına xələl gətirməməyə çalışacaqdır.

*Dördüncü maddə*

Osmanlı Dövlətinin tələbi üzərinə, Azərbaycan Cümhuriyyəti hökuməti, Bakı limanındakı müəssisələrlə, Xəzər dənizində özünə aid olan gəmi və sair vasitələri, hərbi məqsədlər üçün işlədilmək üzrə Osmanlı hökumətinin əmrinə verməyi vəd edir.

*Beşinci maddə*

Osmanlı hökuməti ikinci və üçüncü maddələrdən irəli gələn haqlarından, müttəfiq dövlətlərin ordularının da istifadə etməsinə icazə verə bilər.

*Altıncı maddə*

Osmanlı hökuməti, Azərbaycan Cümhuriyyəti daxilindəki yollardan hərbi məqsədlər üçün yararlana bilər.

Yeddinci maddə

Bu müqavilə təsdiq olunacaq və təsdiqnamələri bir ay içində, yaxud mümkün olan ən qısa müddətdə Dərsəadətdə qarşılıqlı olaraq tərəflərə təqdim ediləcək. Nümayəndələr bu müqavilıni imza və möhürləri ilə təsdiq etmişdir. İki nüsxə olaraq Batumda tərtib edilmişdir.

4 İyun 1334 (1918)

**Məmməd Həsən Hacınski** **Xəlil**
**Məmməd Əmin Rəsulzadə** **Vəhib**

## ƏLAVƏ 4

Azərbaycanın Türkiyədən hərbi yardım istəməsi

A) Batum Konfransına göndərilən Azərbaycan nümayəndələrindən Osmanlı nümayəndə heyətinin rəisi Xəlil bəy əfəndi həzrətlərinə 1334 /N-12

Hökumətimdən aldığım açıq əmrlərlə, aşağıdakı xahişimin ən qısa müddətdə Osmanlı hökumətinə çatdırılmasını rica edirəm.

Son günlərdə müstəqilliyini elan edən və Osmanlı Dövləti ilə dostluq müqaviləsi bağlayan Azərbaycan Cümhuriyyəti hökuməti, Rusiya inqilabının nəticəsi olaraq daxildə böyük çətinliklərlə üzləşmişdir. Azərbaycan ərazisinin böyük bir qismində üsyan bayrağı qaldıran və özlərini "bolşevik" adlandıran quldur dəstələri, məmləkətin idarə mərkəzi, sərvət mənbəyi, bir sözlə can nöqtəsi olan Bakı şəhərini, şəhərlə bərabər Bakı vilayətini də əllərinə keçirərək əhalini qarət edir, Azərbaycan Cümhuriyyəti hökumətini tanımır, binaları yıxır, özlərinə tabe olmayanları atəş və qılıncla susdurur, şəhəri dağıdır, əhalini qətl edərək mallarını talayır. Vilayət mərkəzi olan Bakıdan başqa Şamaxı, Quba, Lənkəran kimi vilayətlərlə, bu vilayətlərin mərkəzi olan şəhərlər də adı çəkilən quldurların təcavüz və istilasına məruz qalmışdır, Gəncə vilayəti də təhlükə altındadır. Gün-gündən qüvvətlənməkdə, şimaldakı müttəfiqlərindən və İranda intriqalar icra edən ingilislərdən hər zaman yardımlar almaqda olan bu fəsadçı zümrənin zərərsizləşdirilməsi, yeni qurulan Cümhuriyyətin imkanı xaricində müşkül bir işdir. Məmləkətin narahat və başqalarının mülkündən faydalanmağa düşkün olan ünsürləri üzərində də zərərli təsirlər icra edən bu fəsadçılar ortadan qaldırılmadıqca, bir çox müşküllərə səbəb olur və üsyan çıxarırlar.

Bu səbəblərdən Bakı vilayətinin tezliklə bolşevik adlandırılan quldur dəstələrindən qurtarılması, Azərbaycan hökumətinin birinci vəzifəsidir. Bu məsələ yaxın bir zamanda arzu olunan şəkildə həll edilməsə, cümhuriyyətin mövcudiyyəti böyük şübhələr altında qalmaqla bərabər, əhalinin həyatı da ağla sığmayan fəlakətlərə məruz qalacaqdır ki, müxtəlif zamanlarda Azərbaycan əhalisi adından Osmanlı Dövlətinə təkrar-təkrar edilən müraciətlər səbəbiylə də bundan xəbərdar olduğunuzu zənn edirəm.

Yuxarıda bəhs edilən təhlükənin mövcudiyyətinə və Osmanlı Dövləti ilə Azərbaycan Cümhuriyyəti arasında bağlanan dostluq müqaviləsinin dördüncü maddəsinə dayanaraq, şəxsinizə müraciət edərək, Osmanlı Dövlətinin hərbi qüvvə vasitəsi ilə bolşevik quldur dəstələrini cəzalandırmaq və onlara hədlərini bildirmək üçün tabe olduğum hökumətə yardım etmələri arzusunu bildirməyə cürət edirəm. Azərbaycan əhalisinin qüdrətli və xeyirxah qonşuları olan əzəmətli Türkiyə Dövlətinə qarşı vaqe olan bu arzuların qəbul ediləcəyinə inamımın tam olduğunu bilməyinizi və ehtiramlarımı qəbul etməyinizi rica edirəm.

Azərbaycan Cümhuriyyəti hökuməti Xarici İşlər Naziri

**Məmməd Həsən Hacınski**

B) Osmanlı nümayəndə heyətinin rəisi Xəlil bəy əfəndi həzrətlərinə N-13

Azərbaycan Milli Məclisi, məmləkətində zühur edən quldur dəstələrinin cəzalandırılması və zərərsizləşdirilməsi üçün, Azərbaycan Cümhuriyyəti hökumətinə yardım olaraq Osmanlı hərbi qüvvələrinin cəlb edilməsini xahiş etməyi qərara almışdır.

Bu qərarı vacib qılan şərtlər Azərbaycan hökuməti Xarici İşlər Naziri Məmməd Həsən Hacınski həzrətlərinin, şəxsiniz vasitəsi ilə Osmanlı hökumətinə müraciətində təfsilatı ilə izah edilmişdir.

Azərbaycan əhalisini təmsil edən Milli Məclisin, ümumxalq arzusuna tərcüman olaraq aldığı qərar barəsindəki bu xahişin Osmanlı hökuməti tərəfindən qəbul ediləcəyinə qüvvətli ümid bəsləyərək, müraciətimizin Babı-Aliyə çatdırılması üçün vasitəçi olmağınızı rica və ehtiramlarımı ərz edirəm.

Azərbaycan Milli Məclisinin sədri

**Rəsulzadə Məmməd Əmin**

## ƏLAVƏ 5

Osmanlı Dövləti tərəfindən
Azərbaycan hökumətinə barışıq şərtləri haqqında məlumat
(Xarici İşlər Nazirliyi arxivi, H. Ö. 533 nömrəli qutu)
İstanbul, Noyabr 1918, Şəxsi, gizli
Osmanlı Ordusu Baş Komandanlıq Vəkaləti

Məcburiyyət qarşısında sülh tələb etməyimiz səbəbiylə Azərbaycandakı birliklərimizi geri çəkmək və Azərbaycanda qalmaq istəyən zabitlərimizin Osmanlı ordusu ilə əlaqələrini kəsmələri gərəkdiyini elan etmək vəziyyətindəyik.

İttifaq ölkələri adından ingilislərlə bağladığımız sülhün bir maddəsində, ingilislərin Bakını işğal etmələrinə etiraz bildirməməyi boyun olduq və Qafqazdakı ordu komandanlığına bu barədə əmr verdik.

İslam və Türk hökuməti olaraq təşəkkül etməyə çalışdığımız bu böhranlı vaxtda, əgər mövcud isə gizli təşəbbüs və işlərdən əl çəkərək, qonşularınızla yaxşı keçinməyə var qüvvənizlə çalışmağınızı və bütün dünyanın haqq və ədalət əsası üzərində birləşdiyi əsnada, bu prinsiplərə tamamilə riayət etməyinizi, İngiltərə dövləti ilə yaxşı əlaqələr qurmağa cəhd etməyinizi tövsiyə və rica edir, qarşılıqlı ihdayı-islam və məvəddət diləyirəm.

Barışığın, o bölgələr haqqındakı maddələri aşağıdakı kimidir.

11 Təşrini-sani 1334 (11 noyabr 1918)

Sədrəzəm Əhməd İzzət

## ƏLAVƏ 6

Şimali Qafqaz hökumətinin Türkiyəyə müraciəti
(Xarici İşlər Nazirliyi arxivi, 124 nömrəli qutu)

Əzəmətli və yüksək sədrlik məqamına

Acizanə olaraq bildiririk ki;

Rusiyada zühur edən inqilab səbəbiylə Şimali Qafqazın müsəlman əhalisi, işləri idarə etmək üçün ümumxalq səsverməsi ilə bir hökumət təşkil etmiş və millətin əksəriyyətinin səsinə istinad edən bu hökumət, məmləkətin tarixi sərhədləri daxilində istiqlalını elan və bu barədəki rəsmi sənədləri yaxın zamanda Osmanlı hökumətinə və digər hökumətlərə təqdim etmişdir.

İndi bu surətlə hal-hazırkı və gələcək müqəddəratının sövq və idarəsini öz qüdrət əlində toplamış olan Şimali Qafqazın müsəlman əhalisi, məmləkətin səadət və rifahının təmini və istiqlal duyğusunun təhriki ilə, İslamiyyət cəhətindən müqəddəs bir bağla bağlanmış olduğu böyük İslam Xilafəti və Osmanlı Səltənəti ilə bir dostluq ittifaqına girmək tələbi ilə iftixar etməkdədir. Ancaq Rusiyada hökumət bolşeviklərin əlinə keçdiyi gündən etibarən, adı çəkilənlərin elan və iddia etdikləri kimi məmləkətə səadət və rifah gətirmələri bir yana qalsın, əski imperatorluğun bütün ərazilərini qan və iğtişaş içinə atdıqları və bu zülm alovlarının Cənubi Qafqazın Bakı və ətrafında olduğu kimi, Şimali Qafqazın bütün məntəqələrinə sirayət etdiyi və altı aydan bəri müsəlmanların yaşadıqları bütün yerləri və xüsusilə Terek vilayətini məhv və talan etmək məqsədi güdən bir çox quldur dəstəsinin hücumları bütün dünyanın bildiyi bir həqiqət olduğundan, həmvətənlərimizin can və mal əmniyyəti üçün arzu etdiyimiz dostluq müqaviləsinin rəsmi və qəti bir şəkil almasını gözləməyə vaxt və imkan verməməkdə və Osmanlı hökumətindən dərhal hərbi və siyasi yardım istəməyə sövq etməkdədir. Həqiqətən Şimali Qafqaz hökumətinin hələ çox təzə olan hərbi təşkilatının qeyri-mükəmməl və əldə mövcud silah və cəbbəxanasının bəlanı dəf etmək üçün yetərsiz bir dərəcədə olması, qədimdən bəri bağlı olduğumuz Xilafət və Osmanlı hökumətinin belə haqlı bir tələbi belə tarixi bir gündə rədd etməyəcəyini zənn etmək üçün kafi bir dəlil olmaqla, hər nə surət və yolla olursa olsun, yetərli dərəcədə nizamlı və silahlı bir hərbi qüvvənin dərhal Şimali Qafqaza gəlməsini və aşağıda imzası olan, hökumətimizin tam səlahiyyət verdiyi və etimad göstərdiyi, Şimali Qafqazın müsəlman əhalisinin səmimi məqsədlərini dilə gətirən nümayəndələrin, hadisələrdən lütfən xəbərdar edilməsini ərz və xahiş edirik. Bu xüsusda qərar və fərman, əmr sahibinindir.

Dərsəadət, 12 may 1334

Şimali Qafqaz hökuməti nümayəndəsi

**Heydər Bammatov** yerinə **Mehmet Kari**

Şimali Qafqaz hökuməti nümayəndəsi

**Əbdülməcid Çermiyev**

## ƏLAVƏ 7

Şimali Qafqaz ilə Türkiyə arasında müqavilə
(Xarici İşlər Nazirliyi arxivi, 560 nömrəli qutu)

**Bismillahirrəhmanirrəhim**

Osmanlı Səltənəti ilə
Qafqaz Dağlıları İttifaqı hökuməti arasında dostluq müqaviləsi

Bir tərəfdə Osmanlı hökuməti, digər tərəfdə son zamanda istiqlalını elan edən Qafqaz Dağlıları İttifaqı hökuməti, siyasi, hüquqi, iqtisadi və fikri sahələrdə dostca əlaqələr təsis etmək barəsində razılığa gəldiklərindən, nümayəndələri olmaq üzrə;

Osmanlı Dövləti

Ədliyyə naziri və Dövlət Şurası rəisi **Xəlil bəy əfəndi** həzrətləri ilə

Qafqaz cəbhəsi Osmanlı orduları komandanı General **Vəhib paşa** həzrətlərini

Və

Qafqaz Dağlılar İttifaqı hökuməti **Heydər Bammatov** həzrətləri,

**Əbdülməcid Çermiyev** həzrətləri,

**Zübeyir bəy Temurxanov** həzrətləri,

**Əlixan Qantəmirov** həzrətlərini

təyin etmişlər və adı çəkilənlərin səlahiyyət vəsiqələri tədqiq edildikdən sonra aşağıdakı maddələri qərarlaşdırmışlar:

*Birinci maddə*

Osmanlı hökuməti ilə Qafqaz Dağlılar İttifaqı hökuməti arasında daimi sülh və istiqrarlı dostluq bərqərar olacaqdır.

*İkinci maddə*

Qafqaz Dağlılar İttifaqı hökuməti tərəfindən tələb olunduqda, Osmanlı hökuməti daxili intizam və asayişin təmin edilməsi üçün, silahlı qüvvələrlə yardım edəcəkdir.

*Üçüncü maddə*

Dövləti-Aliyyəyi-Osmaniyyə ilə Qafqaz Dağlılar ittifaqı hökuməti arasında daha əvvəl heç bir əhdnamə, müqavilə, etilafnamə və sair mövcud olmadığından, hər iki tərəf bir şəhbəndərlik müqavilənaməsi ilə bir ticarət əhdnaməsi və hüquqi və iqtisadi münasibətlərın nizamlanması üçün lazım gələn digər sənədləri tərtib etmək barədə razılığa gəlmişdir.

Şəhbəndərlik müqavilənaməsi, bu müqavilənin təsdiqnamələrinin qarşılıqlı olaraq təqdimi tarixindən etibarən iki il ərzində təsdiq ediləcəkdir. Aradakı müvəqqəti dövrdə hər iki tərəfin baş şəhbəndərləri, şəhbəndərləri və şəhbəndər vəkilləri imtiyaz və məsuliyyətlərində ümumi dövlətlər hüququ əsaslarına uyğun

və millətin mənafeyinə ən münasib şəkildə hərəkət edəcəklər. Yenə dövlətlər hüququ prinsiplərinə uyğun bir ticarət əhdnaməsinin tərtib edilməsi üçün müzakirələr, bir tərəfdə Osmanlı Dövləti və digər tərəfdə hərb halında olan dövlətlər arasında, sülhün təminindən sonra başlayacaqdır. O vaxta qədər və hər surətdə 1335-ci ilin dekabr ayının 31-ci gününə qədər bu müqaviləyə rəbt edilmiş bir nömrəli əlavə, hər iki tərəfdə tətbiq olunacaqdır. Bu əlavənin ləğvi 30 iyun 1335 tarixindən etibarən elan oluna bilər və bunun nəticəsi altı ay sonra tətbiq edilə bilər. Quru yolu ilə ticarət, bu müqavilənin təsdiqnamələri qarşılıqlı surətdə təqdim edildiyi andan etibarən başlayacaqdır.

*Dördüncü maddə*

Qafqaz Dağlılar İttifaqı hökuməti beynəlxalq poçt və teleqraf ittifaqı müqaviləsinə qoşuluncaya qədər, Osmanlı Dövləti ilə Qafqaz Dağlılar İttifaqı hökuməti arasında poçt və teleqraf işləri, bu müqavilə təsdiqnamələrinin qarşılıqlı təqdimindən etibarən, beynəlxalq poçt və teleqraf ittifaqının müqavilə və nizamnamələrinə uyğun bir şəkildə təsis ediləcək.

*Beşinci maddə*

Brest-Litovskda Osmanlı Dövləti və müttəfiqləri ilə Rusiya arasında bağlanan müştərək sülh müqaviləsinin hökmlərindən, bu müqaviləyə zidd olmayanlar, hər iki tərəf üçün qüvvədə olacaq.

*Altıncı maddə*

Bu müqavilə təsdiq olunacaq və təsdiqnamələri bir ay içində, yaxud mümkün olan ən qısa müddətdə Dərsəadətdə qarşılıqlı olaraq tərəflərə təqdim ediləcək. Nümayəndələr, bu müqaviləni imza və möhürləri ilə təsdiq etmişdir.

Bu müqavilə 8 iyun 1334 tarixində iki nüsxə olaraq Batumda tərtib edilmişdir.

**Xəlil** **Heydər Bammatov**
**Vəhib** **Əbdülməcid Çermiyev**
**Əlixan Qantəmir**
**Zübeyir Temurxan**
**Mehmet Kari**

## ƏLAVƏ 8

Qafqaz İslam Ordusunun qurulması və vəzifələri
haqqında təlimatnamə

Nuru paşa, Qafqaz İslam Ordusunun qurulması ilə ordu komandanlığının vəzifələri haqqında 5 aprel 1918 tarixli 12 maddədən ibarət olan və Hərbiyyə

Naziri Ənvər paşanın imzasını daşıyan aşağıdakı təlimatnaməyə görə hərəkət edirdi:

1. Qafqaz İslam Ordusunun təşkil edilməsinin məqsədi, Qafqazlıların quracaqları ordunun əsasını vücuda gətirmək və bu əsası tədricən genişləndirmək, Qafqazlı sıravilərə təlim vermək, Qafqazda uca islam mənfəətlərini, Xilafətin müqəddəs hüququnu və Osmanlı Dövləti ilə siyasi və hərbi əlaqələri təsis etməkdir. Bu təşkilat tədricən Rusiya daxilindəki bütün Müsəlmanlara imkan daxilində şamil ediləcəkdir.

2. Ordu komandanı, hələlik Osmanlı hökumətinin Qafqazdakı ən böyük nümayəndəsidir.

3. Ordu Qərargah Rəisi, yalnız hərbi məsələlərlə məşğul olacaq və heç bir surətdə bunun xaricindəki işlərə müdaxilə etməyəcəkdir.

4. Ordu komandanı, siyasi məsələləri Siyasi İşlər Şöbəsi vasitəsi ilə şəxsən idarə edəcəkdir.

5. Ordu komandanı, lazım olduğu zaman Qərargah Rəisi və Siyasi İşlər Şöbəsi müdirinin fikirlərini nəzərə alaraq qərar verə bilər.

6. Ordunun əmr və komanda işləri və ləvazimatlarla əlaqədar işlər, eyni ilə digər ordularda olduğu kimi Hərbiyyə Nazirliyinin bölmələri və şöbələri tərəfindən idarə olunacaq və bu məsələlər barəsində Nazirliyə müraciət ediləcəkdir.

7. İslam məsələləri, siyasi və iqtisadi işlər şəxsən Hərbiyyə Nazirinə ərz ediləcəkdir.

8. Ordunun yerli xalqdan toplanan əsgərlərlə gücləndirilməsi işləri ordu komandanlığına aiddir; ancaq Osmanlı təbəələri hesabına gücləndirmə işləri Nazirlik tərəfindən yerinə yetiriləcəkdir.

9. Ordunun silahlandırılması, təchizatı, geyim və iaşəsi və sair xərcləri hələlik Osmanlı Hərbiyyə Nazirliyi tərəfindən ödənəcəkdir.

10. Qafqaz Ordusuna mənsub olanlar arasında cərəyan edəcək hüquqi işlər və cəzalandırmalar, tamamən Osmanlı Ordusunda cari olan qanunlar və qaydalara uyğun olacaq, ancaq ordu komandanı yerli vəziyyətə görə yerli xalqdan toplanan əsgərlər üçün bəzi xüsusi halları nəzərə alaraq qanunları azaltmaq və ya çoxaltmaq barəsində səlahiyyət sahibidir.

11. Fəxri olaraq "üst" əlaməti daşıyan zabitlər, Qafqazda olduqları müddətdə fəxri rütbələrinin səlahiyyətlərinə sahib olacaqlar.

12. Ordunun İstanbuldakı xüsusi işləri ilə ordu mənsublarının ailələrinin işlərini burada izləmək və sürətləndirmək vəzifəsi, Şərq İşlərindəki xüsusi bir şöbə tərəfindən həyata keçiriləcək.

## ƏLAVƏ 9

Şimali Qafqaz Komandanı Kurmay Yarbay **İsmayıl bəyin**
Şimali Qafqaz xalqlarına xitabən yayımladığı bildiriş
21.06.1334

Qafqaz İslam Ordusu komandanlığına

Şimali Qafqazda yayımlanmaq üzrə hazırlanan bəyannamənin bir nüsxəsi tərəfinizə göndərilmişdir.

Şimali Qafqaz Komandanı.

Şimali Qafqazın Bütün Müsəlman Əhalisinə

Əziz və möhtərəm müsəlman qardaşlarımız. Soltan Məhməd Rəşad həzrətləri tərəfindən Qafqaz İslam Ordusu komandalığına təyin edilən Nuru paşa həzrətləri məni Şimali Qafqaz komandanı vəzifəsi ilə bura göndərdi. Əsrlərdən bəri Quranı cırmaq, islam dinini ortadan qaldırmaq məqsədini güdən dövlətlərdən olan Rusiya hökumətinin çöküşünü və batışını görürsünüz. Müqəddəs xilafət vəzifəsini üzərimizə götürən və bu səbəbdən də bütün dünyada yaşayan müsəlmanların həyat və inancları barədə məsuliyyət daşıyan biz Osmanlı hökuməti və milləti, 600 ildən çoxdur ki, aramsız olaraq xristianların hücumlarına və təcavüzlərinə qarşı mübarizə apardıq və bu gün də aparmaqdayıq. Bu səfərki dünya müharibəsinə də aynı məqsədlə girdik və bu yolda yüz minlərlə islam övladını fəda elədik.

Bizim sizdən istədiyimiz:

Ey əsrlərdən bəri zülm altında inləmiş olan müsəlman qardaşlarımız, sizdən gözlədiyimiz, rusların yenidən dirilmələri ehtimalı qarşısında mövcudiyyətinizi mühafizə etmək, iman əhlinin qurtarılması adına girişdiyimiz bu ümumi mücadilədə qala divarları kimi yan-yana olmaq və bu surətlə güclə dağılmayacağımızı dünyaya göstərməkdir. Bu da bir-birimizə yardım etməklə mümkün olacaqdır.

Şimali Qafqaz komandanı **İsmayıl**




Xəritə 1. 1-ci və 5-ci Qüvvəyi-səfəriyyələrin hədəfləri və təqib edəcəkləri (təqib etdikləri) yol.




Xəritə 2. 6-cı Ordu komandanlığından Şərq Orduları Qrupu komandanlığına təyin edilən general Xəlil paşaya verilən təlimatlara uyğun olaraq planlanan əməliyyat.




Xəritə 3. (1918) Azərbaycan Cümhuriyyətinin sərhədləri, vilayət bölgüsü və vilayət mərkəzləri.




Xəritə 4. Gəncə hərbi dəstəsinin əməliyyatları (11 iyun 1918).



Xəritə 5. 5-ci Qafqaz diviziyasının 7 iyun – 29 iyul 1918 tarixləri arasında Azərbaycandakı əməliyyatları.




Xerita 6. Göyçay basqını (30.06.1918, saat 7.30).




Xəritə 7. Kürdəmir döyüşləri. (8 – 10 iyul 1918).




Xəritə 8. "Cavad" hərbi dəstəsinin 18.07.1918 tarixindəki vəziyyəti.




Xəritə 9. Şamaxının ələ keçirilməsi (19 iyul 1918).




Xəritə 10. 1 avqust 1918 tarixinə olan vəziyyət.




Xəritə 11. Şərq cəbhəsi (5-ci Qafqaz diviziyası) komandanlığının 30 iyul – 2 avqust 1918 tarixləri arasında Bakıya hücumu.




Xəritə 12. 5 avqust 1918 tarixinə olan vəziyyət.




Xəritə 14. 5-ci və 15-ci diviziyaların 14-15 sentyabr 1918 tarixində Bakıya hücumları.




Xəritə 15. 15-ci piyada diviziyasının Dərbəndə hücumu və Dərbəndi ələ keçirməsi (5-7 oktyabr 1918) əməliyyatı.




Xəritə 16. 15-ci piyada diviziyasının 6 noyabr 1918 tarixindəki hücumu, düşmənin ovalığa qovulması, diviziyanın 7-8 noyabr tarixində Petrovsk yaxınlığında toplaşması və 8 noyabrda Petrovska girişi.




Xəritə 17. Mudros barışığının imzalandığı 30 oktyabr 1918 tarixində Şərq Orduları Qrupunun vəziyyəti.




Xəritə 18. 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin ərazisi.



Osmanlı Dövlətinin Baş Komandan Vəkili və Hərbi Naziri Ənvər Paşa.



Bakı yaxınlığındakı Nargin adasında yemək paylarını almaq üçün gözləyən əsir türk əsgərləri, 1916-cı il. (Foto, ruslar tərəfindən təbliğat məqsədi ilə çəkilmişdir.)



Nargin adasında yallı gedən əsir türk əsgərləri, 1916-cı il.
(Foto, ruslar tərəfindən təbliğat məqsədi ilə çəkilmişdir.)



Nargin adasında güləşə hazırlaşan əsir türk əsgərləri, 1916-cı il.
(Foto, ruslar tərəfindən təbliğat məqsədi ilə çəkilmişdir.)



Ermənilərin 1905-ci ildə Şamaxıda öldürdüyü türklər.



Şərq Orduları komandanı Xəlil paşa, (Ənvər və Nuru paşaların əmisi) 1918-ci il.



Türk İslam Qafqaz Ordusu komandanı Nuru paşa, 1918-ci il.



Nuru paşa, onu Gəncədə qarşılayan yerli xalqın öndə gələnləri ilə birlikdə.



Türk Qafqaz İslam Ordusu komandanı Nuru paşa (sağda), yavəri ilə birlikdə.



5-ci Qafqaz piyada diviziyasının komandanı Mürsəl paşa.



5-ci Qafqaz piyada diviziyasının qərargah rəisi Rüşdü bəy.



Azərbaycan Milli Məclisinin ilk üzvləri (28 may 1918).



Azərbaycan hökumətinin ilk iclası (1918).



Türk Qafqaz İslam Ordusunun Bakıya girişi (İstiqlaliyyət küçəsi).



Türk Qafqaz İslam Ordusunun Bakıya girmədən əvvəlki rəsmi-keçid mərasimi.



Türk Qafqaz İslam Ordusunun zabitləri.



Türk Qafqaz İslam Ordusunun zabitləri azərbaycanlı zabitlərlə.



Türk Qafqaz İslam Ordusunun zabitləri.



Türk Qafqaz İslam Ordusunun qərargah zabitləri Qafqaz geyimində.



Ənvər paşa, Bakıda 1920-ci ilin sentyabrında keçirilən I Şərq Xalqları Konqresindən gedərkən (Bakı vağzalı).



Neftçala şəhidliyi (Bankə qəsəbəsi, Neftçala).



Şəhid Qədir əfəndinin məzarı (Bığır qəsəbəsi).



Türk dağındakı türk şəhidinin məzarı (Bığır qəsəbəsi).



Hacıhətəmli qəsəbəsindəki türk şəhidlərinin məzarı (Hacıhətəmli qəsəbəsi, İsmayıllı).



28-ci batalyon komandanı yüzbaşı İzzət bəyin Acıdərədəki məzarı (Acıdərə, Şamaxı).



Qaraməryəm şəhidliyi (Qaraməryəm, Göyçay).




Qaraməryəm şəhidliyindəki kitabə.



Şəki şəhidliyi (Gələngəz, Şəki).



Şəki Şəhidliyi (Gələngəz, şəki). Əşrəf Məmmədov Bəxtiyar Vahabzadə ilə



Şəki Şəhidliyi (Gələngəz, şəki). Əşrəf Məmmədov M.Nuri Yılmaz ilə




TC-in Azərbaycandakı səfiri Kadri Ecvet Tezcan Şəki şəhidliyinde. (Gələngəz, Şəki).



Mərəzə qəsəbəsində öldürülən türklər üçün qoyulan abidə.




Qubada öldürülən türklər üçün qoyulan abidənin kitabəsi.




Salyanda Ömər bəyin məzarı (Salyan şəhər məzarlığı).




Salyanda türk şəhidlərin məzarı (Salyan şəhər məzarlığı).



Novxanı məzarlığında yatan türk əsgərinin məzarındakı kitabə (Novxanı, Bakı).



Novxanı məzarlığında yatan türk əsgərinin məzarını düzəltdirən İnqilab Kazım bəy oğlu.



Mərdəkan şəhidliyi (Mərdəkan, Bakı).



Mərdəkan şəhidliyinin baş daşı.



Bakı şəhidliyi (Şəhidlər xiyabanı).



Bakı şəhidliyinin (Şəhidlər xiyabanı) Açılışı.

Dr.Mustafa GÖRÜRYILMAZ

# TÜRK QAFQAZ İSLAM ORDUSU VƏ ERMƏNİLƏR

*(Azərbaycan dilində)*

**«Qismət»** mətbəəsində
ofset üsulu ilə çap edilmişdir.
Azərbaycan, Bakı, AZ122, H.Zərdabi pr. 78
Tel: (+994 12) 497 57 61, Faks: (+994 12) 497 70 23
E-mail: qismetaz@yaho.com